Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

## Mir Cəlal

# Publisistika

## 1926–1977

Bakı–2018

**KBT** Ш6(2=Аз) 7-49
**UOT** 894.362

**Layihənin rəhbəri:** **Əbülfəs Qarayev**
*Azərbaycan Respublikasının Mədəniyyət naziri, Fəlsəfə üzrə fəlsəfə doktoru*

**Elmi məsləhətçi:** **Nizami Cəfərov**
*Akademik*

**Tərtibçi və elmi redaktor:** **Kərim Tahirov**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Elnur İmanbəyli**

**Redaktor və çapa hazırlayanlar:** **Ədibə İsmayılova**
*Əməkdar mədəniyyət işçisi*
**Validə Həsənova**
*Filologiya üzrə fəlsəfə doktoru*

**Dizayner:** **Fikrət Məlikov**

**Mir Cəlal. Publisistika (1926-1977) /Layih. rəh. Ə.Qarayev; elmi məsləh. N.Cəfərov; tərt. və elmi red. K.Tahirov; ön sözün müəl. E.İmanbəyli; red. və çapa haz. Ə.İsmayilova, V.Həsənova.- Bakı, 2018.-** 416 s.

Milli Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə Azərbaycanın görkəmli şəxsiyyətlərinə dair tanıtım nəşrləri layihəsinin icrasına başlamışdır. Bu layihəyə əsasən görkəmli şəxsiyyətlərin, alim və ziyalıların heç zaman çap olunmayan əsərləri, habelə onların dünyada tanıdılmasına xidmət edən bioqrafik materialların nəşri nəzərdə tutulur. Həmin seriyadan oxuculara təqdim olunan bu nəşrdə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı ədib, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin indiyədək ayrıca kitab şəklində çap olunmayan publisistik məqalələri ilk dəfə küll halında toplanaraq oxuculara və tədqiqatçılara təqdim olunur.

ISBN 978 9952 476 93 4

**© Azərbaycan Milli Kitabxanası, 2018**

# Tərtibçidən

Bütövlükdə Azərbaycan elminin, mədəniyyətinin və ədəbiyyatının, klassiklərinin və görkəmli nümayəndələrinin elmi, mədəni və ədəbi irsinin təbliği Azərbaycan Milli Kitabxanasının əsas vəzifələrindən biridir. Bu şərəfli vəzifəni layiqincə yerinə yetirmək üçün Milli Kitabxana 2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə bu istiqamətdə əhəmiyyətli layihələr həyata keçirir. Belə ki, həmin ildən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından ölkəmizin görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinin elmi, mədəni və ədəbi irsini özündə əks etdirən fundamental biblioqrafiyalar nəşr edir və yayır. Belə biblioqrafiyalar Nizami Gəncəviyə, Məhəmməd Füzuliyə, Mirzə Fətəli Axundzadəyə, Mirzə Ələkbər Sabirə, Səməd Vurğuna, Mir Cəlala, Bəxtiyar Vahabzadəyə, Yusif Vəzir Çəmənzəminliyə, İlyas Əfəndiyevə, Elçinə, İsa Həbibbəyliyə, Xəlil Rzaya, Qəzənfər Paşayevə və onlarla bu kimi ədəbiyyatımızın klassiklərinə həsr olunmuşdur. Eyni zamanda Azərbaycan xalqının böyük oğlu, ulu öndərimiz Heydər Əliyevə, Akademik Zərifə xanım Əliyevaya, Əziz Əliyevə və digər ictimai və dövlət xadimlərinə də belə şəxsi biblioqrafik göstəricilər həsr olunmuşdur.

Digər bir layihəmiz isə bu görkəmli elm, mədəniyyət və ədəbiyyat xadimlərinin indiyədək nəşr olunmuş əsərlərini və haqqında materialları rəqəmsallaşdıraraq onlara dair elektron məlumat bazalarının yaradılmasından və kitabxananın veb saytı vasitəsilə bütün dünyada təbliğini təmin etməkdən ibarətdir. Demək olar ki, fundamental şəxsi biblioqrafik göstəriciləri nəşr olunan bütün görkəmli şəxsiyyətlərin hamısına elektron məlumat bazaları da tərtib olunaraq kitabxananın saytında yerləşdirilmişdir.

2018-ci ildən Milli Kitabxana Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə daha bir layihəyə start verilmişdir ki, bu layihənin məqsədi Azərbaycanın görkəmli elm, mədə-





niyyət və ədəbiyyat xadimləri haqqında tanıtım nəşrlərinin və onların indiyədək çap olunmamış və yaxud da çox uzun müddət öncə çap olunan və hazırda kitabxanalarda az tapılan əsərlərinin yenidən nəşrindən ibarətdir.

Hazırda oxuculara, ədəbiyyatşünas mütəxəssislərə, ədəbiyyatsevərlərə təqdim olunan bu nəşr XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı ədib, "dadlı-duzlu" hekayələr və povestlər, romanlar müəllifi, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevə həsr olunmuşdur. Professor Mir Cəlalın ədəbi-publisistik məqalələrini əhatə edən bu nəşr heç də görkəmli ədəbiyyatşünas alimin ötən illərdə nəşr olunmuş kitablarını təkrar etmir və istedadlı ədibin ədəbi-publisistik görüşlərini əks etdirən məqalələrini küll halında oxuculara və mütəxəssislərə çatdırmağa xidmət edir.

Mir Cəlalın ədəbi-publisistik məqalələrinin ayrıca kitab halında indiyədək nəşr olunmadığını nəzərə alsaq, bu nəşr görkəmli alimin bu mövzuda oxucuları və mütəxəssislərlə ilk görüşü hesab oluna bilər. Materiallar əsasən Milli Kitabxananın arxiv fondunda mühafizə olunan dövri mətbuat nəşrlərindən, ölkəmizin digər iri kitabxanalarının zəngin kolleksiyalarından və Dövlət Mədəniyyət və İncəsənət arxivinin fondlarından toplanmışdır. Əski əlifbada, köhnə latın əlifbasında və kiril qrafikası ilə Azərbaycan dilində dərc olunmuş materiallar bir-bir zərgər dəqiqliyi ilə nəzərdən keçirilmiş və yaradıcı kollektivin gərgin əməyinin bəhrəsi olaraq meydana gəlmişdir. Bu işdə bizə Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Mədəniyyət və İncəsənət Arxivinin, ölkəmizin digər iri kitabxanalarının, Mir Cəlalın Gəncə şəhərindəki Ev muzeyinin və Bakıdakı "Ədibin Evi"nin əməkdaşları yaxından kömək etmişlər. Mən fürsətdən istifadə edərək bu layihənin həyata keçirilməsində bizə dəstək olan hər kəsə, xüsusilə yuxarıda qeyd etdiyim müəssisələrin əməkdaşlarına təşəkkürümü bildirirəm.

Bu nəşrin tərtibi zamanı yaradıcı kollektiv çox ciddi problemlərlə də qarşılaşmalı olmuşdur. Belə ki, materialların əksəriyyəti ilk dəfə dərc olunduğundan 20-30-cu illərin repressiyasına

uğramış dövri mətbuat nümunələrindən götürüldüyünə görə, həm bilərəkdən deformasiya edilmiş və həm də təbii olaraq deformasiyaya uğramış qəzet və jurnallardan oxunması ciddi çətinliklər törətmişdir. Bir sıra qəzetlərdə olan poliqrafiya-çap xətaları da bizi bəzən çətin durum qarşısında qoymuşdur. Amma bütün bunlara baxmayaraq biz mövzuya uyğun materialları tam şəkildə əhatə etməyə çalışmışıq və buna nə dərəcədə nail ola bildiyimizi isə hörmətli oxucular, mütəxəssislər deyəcəkdir.

Bir sıra materiallar (xüsusilə 20-30-cu illərin materialları) dövrün, zamanın ruhuna uyğun olaraq fərqli redaksiyada çap olunmuşdur və biz görkəmli ədəbiyyatşünas və dilçi alimlərlə məsləhətləşərək bütün materialları olduğu kimi, yəni həmin dövrdə çap olunduğu şəkildə vermək qərarına gəldik. Nə dərəcədə düzgün yol seçdiyimizi yenə də siz oxucular deyəcəksiniz.

Görkəmli ədəbiyyatşünas alim və istedadlı publisist olan Mir Cəlal sovet rejimi dövründə yaşayıb yaratmış elə müdrik müəlliflər sırasına daxildir ki, bu gün onun ədəbi-publisistik yazılarının altından yazıldığı tarixi götürsək, həmin materialların elə bu gün yazıldığını zənn etmək olar. Bu səbəbdən də biz yaradıcı kollektiv olaraq istedadlı ədibin bir sözünə, necə deyərlər bir nöqtə və vergülünə də toxunmamaq qərarına gəldik və bütün yazıları orijinalda olduğu kimi verdik. Nə dərəcədə haqlı olduğumuzu da oxucular və zaman deyəcək.

Biz belə hesab edirik ki, Mir Cəlal Paşayev kimi istedadlı şəxsiyyətlərin yaradıcılığına, o cümlədən onun ədəbi-publisistik məqalələrinə gələcək nəsillər dəfələrlə yenidən dönəcəklər və hər dəfə də bizim kimi ədibin bir sözinə, nöqtəsinə və vergülünə də toxunmayacaqlar!

İndi isə söz oxucularındır!

Bakı şəhəri,
09 sentyabr 2018-ci il





# Daha bir manifest

Uğurlu yazıçı ilə yaxşı oxucunu birləşdirən nədir? Səmimi ünsiyyət! Oxucu ilə yazıçının ünsiyyəti günlərlə, aylarla, illərlə davam edir. Yazıçı görüb-eşitdiklərindən, oxuduqlarından, təsəvvür etdiklərindən oxucuya danışır, onun dünyagörüşünə, savad və təcrübəsinə töhfə verir. Oxucu isə həvəslə ona həyatın min bir sirrini açan, gecə və gündüzünü yaradıcılığa həsr edən həmsöhbətindən – yazıçıdan yeni əhvalatlar gözləyir. O, həm də yazıçının həyatı, fəaliyyəti, yaşadığı mühit ilə maraqlanır. Belə məlumatlar isə ona oxuduqlarını daha yaxşı izah edir, yazıçı ilə ünsiyyəti daha da möhkəmlədir.

Mir Cəlalın oxucuları belə bir sevinc hissini məhz bu məqalələr toplusu ilə tanış olduqda yaşayacaqlar. Yazıçının xatirələri, ictimai-siyasi həyat barədə fikirləri, tarixi hadisələrə münasibəti, gənclərə tövsiyyələri mətbuat səhifələrində – ədibin 1926-cı ildən 1977-ci ilə qədər dərc etdiyi məqalələrində əks olunub!

Görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal 6 romanın, 300-ə yaxın hekayənin, çoxsaylı elmi əsərlərin müəllifi kimi böyük oxucu kütləsinin qəlbini fəth etmişdir. Ədibin məqalələri isə ilk dəfə toplu şəklində nəşr olunur. Buna görə də, bu kitab ədibin oxucuları üçün yeni təəssüratlar və xoş oxu saatları vəd edir.

Mir Cəlalın publisistik məqalələrini əhatə edən bu kitab XX əsr Azərbaycan ədəbiyyatının və tarixinin 50 ildən artıq bir dövrünü öyrənmək üçün əvəzsiz mənbədir.

***

Mir Cəlal publisistik fəaliyyətə 18 yaşında, 1926-cı ildə – Gəncə Darülmüəllimində təhsil alarkən başlamışdır. O illərdə,

Gəncənin ədəbi mühiti Mir Cəlalın da yaradıcı fəaliyyətinə zəmin yaratmışdır.

Ədib 1929-cu ildə, Bakıya təhsil almaq üçün gəldikdən sonra 2 il "Kommunist", 4 il "Gənc işçi" qəzetində müxbir kimi fəaliyyət göstərmişdir. Bu illərdə o, Bakının ədəbi mühiti ilə yaxından tanış olmaq imkanı əldə etmişdir. Mir Cəlalın bir sıra görkəmli şair və yazıçılarla, o cümlədən Mehdi Hüseyn, Hüseyn Cavid, Süleyman Sani Axundovla tanışlığı da məhz "Kommunist" və "Gənc işçi"dəki fəaliyyəti ilə bağlıdır. Ədibin xatirələrindən məlum olur ki, o, müxbirlik işini hər zaman yüksək dəyərləndirmiş, mətbuatı "gözəl tərbiyə məktəbi" adlandırmışdır ("Bakı görüşləri", 1967). Eyni zamanda, belə ictimai əhəmiyyəti olan peşə Mir Cəlala xalqla ünsiyyətdə olmağa, onun qayğıları ilə yaxından tanış olmağa imkan yaratmışdır.

Mir Cəlalın publisistik fəaliyyətə başladığı dövr Azərbaycanda Sovet hakimiyyətinin təşəkkül tapdığı, sosialistcə yenidənqurmanın geniş vüsət aldığı illərə təsadüf edir. Buna görə də ədibin 1920-30-cu illərdə qələmə aldığı məqalələrinin bir çoxu məhz həmin dövr Azərbaycan cəmiyyətində mühüm yer tutan mövzulardan bəhs edir: dinə münasibət, sənayeləşmə, kollektiv təsərrüfatların yaradılması, mədəni quruculuq, pioner təşkilatlarının formalaşması, marksizm-leninizm ideyalarının təbliği və d.

Məlumdur ki, cəmiyyətdə təməl dəyişikliklərinin aparıldığı, siyasi-ictimai və mədəni həyatın sürətlə yeni xarakter aldığı bu dövrdə həm ziyalıları, həm də digər sıravi vətəndaşları düşündürən suallar olmuşdur. Məhz belə bir dövrdə Mir Cəlal bir ziyalı kimi yenilikləri uzaqgörənliklə təhlil etmiş, eyni zamanda bu yeniliklərin xalqın həyatına gətirdiyi qayğıları da mətbuatda qətiyyətlə işıqlandırmışdır.

Mir Cəlalın ilk publisistik məqaləsi "Dinsizlər İttifaqı nasıl çalışmalıdır?" adlanır və 1926-cı ilin iyun ayında Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc olunmuşdur. Bir ay sonra, eyni qəzetdə müəllifin "Məhərrəmlik mövhumatı kimin əsəridir?" adlı məqaləsi də işıq üzü görmüşdür. Mövhumatla mübarizə mövzusu ədibin publisistik fəaliyyətinin ilk illərində ən çox diqqət ayırdığı mövzulardan biri olmuşdur. Bu məqalələrdə Mir Cəlal, o dövrdə ölkədə mövhumat əleyhinə aparılan mübarizənin çatışmazlıqlarını üzə çıxarmış, məsul müəssisə və şəxsləri məhz xalqa nüfuz edib, kəndlilərin "Nasıl allah yokdur, bəs nə var? Yer, göyü, kim yaratmış?" kimi sadə suallarını cavablandırmağa səsləmişdir. (Dinsizlər İttifaqı nasıl çalışmalıdır?", 1926).





O da qeyd olunmalıdır ki, Mir Cəlal bu qəbildən olan məqalələrində təkcə mövhumat əleyhinə aparılan mübarizə prosesindən bəhs etməmiş, eyni zamanda, xalq arasında mövhumatın yayılmasının tarixini tədqiq edib, onu dini təfəkkürünün əsasları barədə ayıq-sayıq salmışdır.

Ədibin 1920-ci illərdə Türkmənistanın Aşqabad şəhərində çıxan "Zəhmət" qəzetində də bir neçə məqaləsi çap olunmuşdur. Yazıçının xatirələrindən məlum olur ki, onun böyük qardaşı bu illərdə Aşqabadda yaşayıb və yerli qəzetləri ona göndərirmiş.

Müəllifin "Zəhmət" qəzetində dərc olunmuş digər məqalələri Gəncəyə mühacirət etmiş iranlılar və onların məşəqqətli həyatları ilə bağlıdır. Məqalədə Gəncədə, bəhailiyin əsasən iranlı mühacirlər ətrafında təbliğ olunduğundan, avam kütlə arasında nüfuz qazandığından söhbət açılır.

Ədibin Gəncədə məskunlaşan iranlı mühacirlərlə bağlı yazdığı digər məqalələrdə də önəmli məqamlar çoxdur. Məsələn: mühacirlərin əksər hüquqlardan məhrum olması, təhsil alması yolundakı çətinliklər, mühacirlərin hətta "Şuralar İttifaqı"nda da İran konsullarının təqibinə məruz qalması və s. Müəllif "Azərbaycanda İran mühacirləri" (1927) məqaləsində isə bəzi mühacirlərin qeyd olunan əngəllərdən dolayı İrana qayıtmağa məcbur olmasına, bunun isə öz növbəsində onların həyatını tam alt-üst etdiyinə də diqqəti çəkir.

Mir Cəlalın 1930-cu illərdə yazdığı məqalələrin əhəmiyyətli hissəsi “mədəni inqilaba”, xüsusilə maarif işinə, pioner təşkilatlarına, müəllimlərə həsr olunub. Müəllif bu məqalələrdə o dövr maarif işinin problemlərini böyük ustalıqla üzə çıxarır, eyni zamanda, məktəblərin “kommunizm tərbiyəsi uğrunda” qarşısında duran vəzifələrini də qeyd edir: möhvumatla mübarizədə daha çox fəallıq və internasional tərbiyə uğrunda mübarizə. İkincini təhlil edən Mir Cəlal, internasionallığın təkcə millətlər arasında “qonaqlıq əlaqəsi”ndən – ildə iki dəfə keçirilən əlaqə gecələrindən ibarət olmadığını qeyd edir.

“Rekonstruksiya devrinin müəllimi” (1931) məqaləsində isə ədib müəllimin, xüsusi ilə kənd müəlliminin sosializm quruculuğu işində ən aparıcı qüvvələrdən biri olduğunu qeyd edir. Müəllimin fəaliyyəti ilə yanaşı, mühitin də məktəblinin inkişafında, “yeni insan”ın formalaşmasında böyük rol oynadığına diqqət çəkir. Ədibin bu fikri bu gün də müzakirə olunan interaktiv təhsil, dərsdənkənar ictimai fəaliyyət məsələləri ilə həmahəng səslənir.

Qeyd olunmalıdır ki, 1920-ci illərin sonlarında Mir Cəlal Gədəbəydə kənd məktəbində, sonra isə Gəncədə müəllim işləmişdir. Ədibin “Bakı görüşləri” (1967) məqaləsindən məlum olur ki, o, Gədəbəydə təhsil quruculuğu ilə məşğul olan ilk müəllimlərdən biri olmuşdur. Ədib “qalstuk, qatdama köynək, komsomal qayışı” geyinən “təzə müəllim”in yerli camaat tərəfindən heyrətlə qarşılandığını, eyni zamanda, onların isti münasibətini, nəsihətlərini xoş xatırlayır.

Mir Cəlalın həm müəllim, həm də publisist kimi dövrün maarif işinin təşkilinə öz layiqli töhfəsini vermişdir. Ədibin məqalələri maarif quruculuğunun çatışmazlıqlarına əhatəli şəkildə nüfuz edir: dərsliklərin natamam cəhətləri, müəllimlərin dövri tələblərə lazımınca cavab verməməyi, gənclərin mütaliəyə cəlb olunması məsələsi, müəllimlər və yerli idarə orqanları arasındakı yaranmış konfliktlər, infrastruktur problemləri, mövhumatın uşaqların məktəbə cəlb olunmasında yaratdığı maneələr və s.





Mir Cəlal bu illərdə bir sıra məqalələrdə dövrün digər ziyalıları ilə həmmüəlif olmuşdur. Məsələn, Mirzə İbrahimov, Həmid Araslı, Əbülhəsən, Mehdi Hüseyn və b. Şübhəsiz, dövrün bir sıra problemləri ziyalıları ümumi mövqe bildirməyə təşviq etmişdir. Məsələn, ədibin Əbülhəsən və Mehdi Hüseynlə birgə yazdığı “Bədii ədəbiyyat nəşrini tələblərimiz səviyyəsinə” (1939) adlı məqalədə Azərbaycan Dövlət Nəşriyyatının (Azərnəşr) fəaliyyəti əsərlərin çapının ləngidilməsi ilə əlaqədar olaraq tənqid olunur. Məqalədən məlum olur ki, 1936-cı ildən bəri S.Vurğun, M.Rahim, R.Rza, N.Rəfibəyli, O.Sarıvəlli kimi şair və yazıçıların əsərləri, o cümlədən Füzulinin külliyyatı Azərnəşrdə növbə gözləyir. Müəlliflər Yazıçılar İttifaqının məsələnin həllinə səy göstərməməsini isə “biyabırçılıq” adlandırır, “gecikdirilən əsərlərin tezliklə çap edilib oxuculara çatdırılmasını” tələb edirlər.

Böyük Vətən Müharibəsi başlayana qədər sosializm quruculuğu ilə bağlı mövzular Mir Cəlalın publisistikasında aparıcı mövqeyini qorumuşdur. O, mətbuatda nəinki ədəbiyyat və mədəniyyətlə bağlı, hətta iqtisadiyyat və sosial həyat barəsində də mülahizələrlə çıxış etmişdir.

Xüsusilə vurğulanmalıdır ki, müəllif bu məqalələrdə sosialistcəsinə yenidənqurmanın tərənnümündən daha çox, bu proses zamanı ortaya çıxan əngəllərə və çatışmazlıqlara yer ayırmışdır. Məsələn, ədib “Sözlər” (1933) sərlöhvəli məqaləsində Gəncənin ictimai yerlərində, küçələrində mövcud olan natəmizliyi sərt tənqid edir və səhiyyə işçilərini buna qarşı mübarizədə fəal mövqe tutmağa çağırır. Məqaləyə isə belə yekun vurulur: “Yorulmayın, sizi yeməkxanalara, ümumi yaşayış yerlərinə, xəstəxanalara aparmıram. Hələlik bu qədər”. Beləliklə, Mir Cəlal adı çəkilən yerlərdə vəziyyətin daha da pis olduğuna işarə edir. Ədibin bu dövrdə qələmə aldığı bütün məqalələrində tənqidi yanaşma ön plandadır.

Böyük Vətən Müharibəsi illərində Mir Cəlalın publisistik fəaliyyəti yeni məzmun və forma kəsb etmiş, daha da zənginləşmişdir. Ədib dahi şair Səməd Vurğunun təsvir etdiyi kimi qələmi-

ni süngüyə çevirmiş, bədii əsərləri ilə yanaşı, publisistik məqalələri ilə də xalqın döyüş ruhunu yüksəltmiş, mübarizə əzmini möhkəmləşdirmişdir.

Yazıçı "Xalqın ürək sözü" (1941) adlı məqaləsində oxuculara "Məlik Məmməd", "Qara vəzirin nağılı" və "İbrahim" nağıllarından, xalq nağılları qəhrəmanlarımızın divlər, əjdahalar, yadellilər üzərində qələbəsindən danışır. Qələbəyə inamını yazıçı özünəməxsus şəkildə, böyük bir səmimiyyətlə ifadə edir: "Vətən müharibəsi döyüşçülərinin hər birinə aydındır ki, bu gün azadlığımızı, yurdumuzu, qələbəmizi qorumaq, düşməni məhv etmək uğrunda fədakarlıq, sənətə və əbədiyyata layiqdir. Düşmən əzildikdən, vətən təhlükədən qurtardıqdan sonra, bu fədakar oğulların, qızların hər birinin adına yeni-yeni dastanlar yaradılacaqdır. Vətən qəhrəmanları haqqında mahnılar isə həmişə xalqın ürək mahnıları olmuşdur."

Mir Cəlal bu məqalədə xalq nağıllarına müraciət edərək həm orijinal bir məzmun yaradır, həm də döyüşçülərə "yeni-yeni dastanlar" "vəd edərək" onları ruhlandırır.

Ədib bu illərdə dərc etdiyi məqalələrdə tarixi bir hadisəyə xüsusi diqqət ayırıb. Bu 1933-cü il may ayının 10-da, faşistlərin hakimiyyətə gəldikdən sonra "german ruhuna yad olan" "20 milyon cild" kitabı yandırması hadisəsidir ("Faşizmə qarşı alovlu döyüşçülər", 1942). Maraqlıdır ki, bu mövzu Mir Cəlalın diqqətini bir neçə dəfə cəlb etmiş, o, məqalələrində hadisəyə etirazını, təəssüf hissini ən kəskin şəkildə bildirmiş, bu "çirkin cinayət"i törədənləri günahlandırmışdır.

Bu illərin yazıları arasında, qələbə xəbərini müjdələyən məqalələr də nəzərə çarpır. Bu məqalələrlə müəllif həm də bu böyük tarixi hadisədən doğan fərəh və sevinc hissini gələcək oxuculara ərmağan edir, onlara da bu bayram təntənəsindən pay ayırır. 1945-ci il may ayının 9-da "Kommunist" qəzetində dərc olunmuş "Unudulmaz gün" və bir gün sonra "Ədəbiyyat qəzeti"ndə





çıxmış "Cəhənnəmin uçurulması" məqalələrində ədib, qələbəni "XX əsrin ən böyük tarixi hadisəsi, müharibə və mübarizə tarixində xalqımızın göstərdiyi polad əzmin, müstəsna qəhrəmanlığın zəfərli nəticəsi" adlandırır.

Mir Cəlal bu illərdə qələmi ilə həm yazıçı kimi, həm də publisist kimi ayağa qalxmış, döyüşçüləri ruhlandırmaqda, tarixin belə əlamətdar illərini mətbuat səhifələrində əbədiləşdirməkdə fəal iştirak etmişdir.

Ümumiyyətlə, Mir Cəlal Böyük Vətən Müharibəsindən əvvəl və sonra da tarixi əhəmiyyətli günlərdə, bayramlarda oxuculara müraciətlər ünvanlamış, xoş arzularını çatdırmışdır. Bu sırada, 1936-cı il SSRİ Konstitusiyasının qəbulu, 1 may günü, oktyabr inqlabının yubileyləri, partiya qurultayları münasibəti ilə yazılmış məqalələr qeyd olunmalıdır.

Eyni zamanda, Mir Cəlal dövrünün bir çox ədəbi görüşlərində və qurultaylarında iştirak etmiş, əhəmiyyətli tədbirlərlə bağlı təəssüratlarını oxucularla bölüşmüşdür. Ədibin 1940 və 1950-ci illərdə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyatı dekadaları və 1958-ci ildə Özbəkistanın paytaxtı Daşkənddə keçirilmiş Asiya və Afrika yazıçılarının konfransı ilə bağlı xatirələrini əks etdirən çoxsaylı məqaləsi dərc olunmuşdur.

Mir Cəlalın Sovet seçki orqanlarına keçirilən seçkilər və namizədlərlə bağlı məqalələri də maraq doğurur. Ədib 1948-ci il yanvarın 1-də "Ədəbiyyat qəzeti"ndə Bakı Sovetinə deputat seçilmək üçün namizəd olan Məmməd Arif Dadaşzadəyə dəstəyini ifadə edir. Seçiciləri "cəsarətlə öz səslərini layiqli namizədə" verməyə çağırır və Məmməd Arifi "onların etimadını doğrulda bilən, deputatlıq adını yüksəkdə tutan bir yoldaş" adlandırır. Mir Cəlal 1951-ci il 5 fevral tarixində, "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi digər bir məqalədə isə Cəfər Xəndan Hacıyevin Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyini dəstəkləyir.

Mir Cəlalın məqalələri dövrün ictimai-mədəni tarixinin öyrənilməsi üçün əhəmiyyətli mənbə olmaqla yanaşı, öz həyatı, dövri hadisələrə münasibəti, xatirələri, yaradıcı fəaliyyəti ilə bağlı zəngin məlumatları da özündə ehtiva edir. Məsələn, "Bakı görüşləri" (1967) məqaləsi ədibin Bakıya təhsil almaq üçün gəldiyi illərdəki həyatını, yaradıcılıq yollarında ilk addımlarını, dövrün ziyalı şəxsləri ilə söhbətlərinə işıq salır.

"Bloqnot qeydləri" (1933) adlı məqaləsində ədib Mirzə Fətəli Axundovun yubileyi münasibəti ilə Şəkiyə səfərini, orada qarşılaşdığı bayram təntənəsini, Axundovun qardaşı Mirzə Ələsgərlə görüşünü qələmə alır.

"Qafqaza məktub" (1942) başlıqlı məqaləsində isə müəllif Uzaq Şərqdə, müharibə illərində ezamiyyətdə olduğu zaman azərbaycanlı döyüşçülərdən, onların müharibədən əvvəlki həyatlarından, igidiliklərindən və döyüşdəki fərasətlərindən bəhs edir. Məqalədə azərbaycanlı gənclərin Uzaq Şərqdə, müharibə şəraitində belə öz mədəniyyətlərinə bağlılığından söhbət açılır: "Onlar şeirsiz, mahnısız olmazlar. Çalıb-çağırmağa adət etmişlər. Bəlkə də bütün tarix boyu birinci dəfə olaraq Vladivostok şəhəri "çargah" eşidir".

Mir Cəlal 1955-ci ildə qələmə aldğı "Tələbkar müəllim" adlı məqaləsində "Kommunist" qəzetində ilk müxbirlik təcrübələrini yada salır, onları "faydalı təcrübələr" adlandırır. Ədibin Səməd Vurğunla xatirələrinin əks olunduğu məqalələri isə çoxdur. Belə məqalələrdə ədib Vurğun yaradıcılığına olan rəğbətini də dilə gətirmişdir: "Səməd Vurğun adı qəlbləri fəth edən bir addır. Sabirdən sonra ədəbiyyatımızda Vurğun qədər xalq məhəbbətinə nail olan şair tapmaq çətindir (ADU-nun Elmi əsərləri, 1956).

Ədib xatirə məqalələrində yaradıcılıq planları barədə də məlumat verir. Belə məqalələr Mir Cəlal irsinin tədqiqatçıları üçün xüsusilə maraqlıdır. Məsələn, 1945-ci il 31 martda, "Ədəbiyyat qəzeti"ndə dərc edilən "Gələcək kitablar", eyni ilin 15 aprel tarixində "Kommunist" qəzetində çap olunan "Yeni əsərim" adlı məqalələrində Mir Cəlal müharibə mövzusunda "Mənim respublikam" adlı roman üzərində işlədiyini yazır: "Bu kitabda mən vəzifə, mövqe, rütbə etibarı ilə kiçik, lakin daxilən, ruhən böyük olan adamlardan danışmağa çalışmışam."





Məqalələrdən yazıçının bu əsəri çapa hazırladığı məlum olur. Lakin bu əsər hələ də işıq üzu görməmişdir. Əsərin əlyazması isə Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunur. Bu mənada, tədqiqatçılar Mir Cəlalın yaradıcılıq planları ilə bağlı məqalələrdən tədqiqat üçün faydalana bilərlər.

Ədibin gənclərə nəsihət, tövsiyə xarakterli məqalələri çoxdur. Bu məqalələrdə müəllif gəncləri məhsuldar əməyə, cəmiyyətə xidmətə çağırır, mübarizə və zəhmətin önəmini vurğulayır. Mir Cəlal eyni zamanda, gənclərə vaxtdan səmərəli istifadə etməyi, "gənclik baharı"nın bir də gəlməyəcəyini unutmamağı məsləhət görür ("Gənclərə sözüm", 1958).

Mir Cəlalın 1958-ci ildə "Azərbaycan" qəzetində çap etdirdiyi "Ən qiymətli nədir?" adlı məqaləsi isə məqalənin çap olunduğu günlərdə qəzetdə müzakirə olunan "həyatda ən əziz, ən şirin şey nədir" sualına cavab olaraq yazılıb. Ədib digər publisistlərin cavablarına – Vətən, cansağlığı, ana, gənclik, dostluq, sülh, və s. məfhumlara nəzər yetirərək, öz cavabını daha geniş müstəvidə axtarır: "Həyat məfhumunun özü çox geniş və mürəkkəb bir məfhumdur. Onu yalnız bir nemətə, bir mətləbə bağlamaq kifayət deyil. Həyat üçün hansı daha qiymətlidir: sumu, havamı, yeməkmi, işıqmı?.. Kim bu məfhumların birini qəbul, digərini rədd edə bilər? Çünki həyat bunların birinə yox, hamısına bağlıdır".

Ədib bu məqalədə həyati dəyərlərin bütövlüyündən, yalnız bir arada dərin məna kəsb etdiyindən bəhs edir, oxucuları böyük amalların arxasınca gəlməyə səsləyir, "həyatlarının əsl mənasını dar, məhdud şəxsi mənfəətdə yox, yüksək və müqəddəs ictimai ideyalara xidmətdə görən, böyük icadlar, ixtiralar, əsərlər, fikirlər qoyub gedən simalar bəşəriyyətin ən xoşbəxt adamlarıdır" – deyir.

Yazıçı, alim, pedaqoq, vətəndaş kimi böyük zirvələr fəth edən, xalqın sevgisini qazanan, bu gün dərin hörmət və məhəbbətlə xatırlanan Mir Cəlalın gənclərə, insanlara tövsiyələri oxucular tərəfindən əsl tapıntı – mənalı həyat yaşamaq üçün dəyərli məsləhətlər kimi qəbul olunacaqdır.

Mir Cəlal gənc oxucularla yanaşı, məktəblilərə ünvanlanan məqalələr də yazmışdır. Məsələn, “Məktəb və məktəblilər günü” (1963) adlı məqalədə müəllif yeni dərs ilinin başlaması münasibəti ilə məktəbliləri təbrik etmiş, onlara ülvi arzularını, məhəbbətini ifadə etmişdir.

Mir Cəlalın publisistikasında gənclərlə, məktəblilərlə əlaqədar mövzulara xüsusi yer ayrılması həm də onun müəllim kimliyindən irəli gəlmişdir. Əvvəllər Gədəbəydə kənd məktəbində, sonra isə uzun illər Bakı Dövlət Universitetində müəllim işləyən Mir Cəlal yeni dövr ədəbiyyatşünasların yetişməsində, gənc kadrların inkişafında müstəsna rol oynamışdır.

Ədib müəllimlik sənətini həmişə uca tutmuş, bu sənətə olan dərin hörmətini məqalələrində də ifadə etmişdir: “Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma, ədib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin, mədəni ailənin, mədəni vətəndaşın çox minnətdar olduğu zümrə müəllimlərdir” (“Azərbaycan müəllimi”, 1960).

Mir Cəlal publisistik fəaliyyətinin bütün dövrlərində cəmiyyətin təhsil həyatını narahat edən mövzularda məqalələr yazmış, müəllimlərin qurultaylarında çıxış etmiş və onların şəraitlərinin yaxşılaşdırılması təşəbbüsündə də olmuşdur.

Ədib, ona çox əziz olan Bakı Dövlət Universitetinin 50 illik yubileyi münasibəti ilə yazdığı məqalələrdə xalqın tərəqqisini məhz universitetin – təhsilin inkişafı ilə əlaqələndirmişdir.





Mir Cəlalın yazıçı şəxsiyyəti də publisistikasında həm mövzu seçimi, həm də bədii üslub baxımından diqqəti cəlb edir. Bəzi məqalələrin quruluşu publisistik yazıdan çox, elə kiçik bir hekayəni xatırladır. Eyni zamanda, Mir Cəlalın hekayələrinə xas olan yumor və novellaçılıq məqalələrinə də yol tapıb.

Ədibin 1959-cu il, 21 apreldə Mehdi Hüseynin anadan olmasının 50 illik yubileyi münasibəti ilə “Kommunist” qəzetində dərc etdirdiyi məqalə belə başlayır: “Bizim bədii nəsrimizin Mahmud Eyvazov qədər də yaşı yoxdur”. Mahmud Eyvazovun kimliyi ilə maraqlanan oxucuya aydın olur ki, o, Lerikdə yaşayan 151 yaşlı uzunömürlüdür.

Mir Cəlalın məqalələrinin dili də yazıçı peşəkarlığından, onun güclü təsvir qabiliyyətindən bəhrələnmişdir. Publisistika, bədii ədəbiyyatdan fərqli olaraq oxucuya daha tez – mətbuat səhifələrində gəlib çatır, gündəlik həyatın qaynar mövzularını müzakirəyə çıxarır. Bu mənada, Mir Cəlalın publisistik məqalələrinin yüksək bədii dil keyfiyyəti oxucu üçün çatdırılan mövzunu-xəbəri daha əhatəli təsvir edir, oxu prosesinə xüsusi zövq qatır: “Axşam vaxtı göydən təyyarə ilə, dənizdən gəmi ilə Bakıya yaxınlaşanlar yarımadanın sahillərində daş umuzları ilə göylərə yüksələn, qədəmləri ilə suyun dərinliklərində duran ecazkar bir nəhəngin qolqanaq açdığını, onun arxasından isə yamaca minlər, yüz minlərlə ulduz səpildiyini görürlər. Göydən yerə nur ələnmişdir!” (“Əsrin əlamətdar illəri”, 1960).

Mir Cəlal onilliklər ərzində yazıçı və şairlərin, bəstəkarların, görkəmli mədəniyyət xadimlərinin yubileyləri, vəfatı, fəxri ad alması ilə bağlı təbriklər, ithaflar yazaraq həmin əlamətdar günləri xatirələrdə əbədiləşdirmişdir. Onun Cəlil Məmmədquluzadə, Mirzə Fətəli Axundov, Əbdürrəhim bəy Haqverdiyev, Maksim Qorki, Cəfər Cabbarlı, Həzi Aslanov, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rüstəm, Lev Tolstoy, Anton Çexov, Bülbül, Adil İsgəndərov və digər görkəmli şəxsiyyətlərə ithaf etdiyi məqalələr həm ədibin ölkənin mədəniyyət hə-

yatındakı fəal iştirakından xəbər verir, həm də XX əsr Azərbaycan mədəniyyət tarixinə işıq salır.

Mir Cəlal 1948-ci ildə böyük bəstəkar Üzeyir Hacıbəylinin vəfatı ilə əlaqədar "Ürəklər fatehi" adlı məqalə çap etdirmişdir. Bu məqalədə xalqın sevimli bəstəkarına olan məhəbbəti, Üzeyir Hacıbəyli sənətinin əzəməti, əbədiliyi böyük ustalıqla izhar edilmişdir: "7 yaşlı bir uşaq isə hər iki gözdən məhrum olan atasının əlindən tutub gətirmişdi. Kor kişi heç bir zaman böyük bəstəkarı görməmişdir və görməyəcəkdir.Ancaq Üzeyirin qəlbləri oxşayan və fəth edən qüdrətli musiqisini eşitmişdir və sevmişdir".

***

Mir Cəlalın bədii yaradıcılığı, elmi əsərləri və mətbuat fəaliyyəti çox əhatəlidir. Ədibin romanlarında, hekayələrində Azərbaycan xalqının tarixi, düşüncə tərzi, adət-ənənəsi, gündəlik həyatı, məişəti dolğun şəkildə təsvir olunmuşdur. Mir Cəlalın elmi əsərləri isə zənginlik etibari ilə bir salnamə hesab oluna bilər. Burada dahi Füzulidən böyük Səməd Vurğuna qədər ədəbiyyat tarixinin müfəssəl təsvirini görmək mümkündür.

Belə çoxcəhətlilik Mir Cəlalın mətbuat fəaliyyətinə də aiddir. Ədibin məqalələri onun həyat və yaradıcılığı, eyni zamanda XX əsr tariximizin 50 ildən artıq bir dövrü - ədəbi proses, siyasi-ictimai mühit, tarixi hadisələr, cəmiyyətin inkişaf yolu barədə geniş məlumatlar verir.

Təsvir olunan əhatəlilik anlayışı ilə yanaşı, Mir Cəlalın mətbuat fəaliyyətini onun yazıçı, alim, pedaqoq və vətəndaş şəxsiyyəti ilə birləşdirən digər bir cəhət də var: bütövlük.

Mir Cəlalın bədii əsərlərində də, elmi əsərlərində də, publisistik və ədəbi-təniqidi məqalələrində də eyni dəyərlər – sadəlik, xəlqilik, səmimiyyət, həqiqət, dürüstlük, əməksevərlilik təbliğ olunur. Ailə, təhsil, humanizm ən ali məfhumlar kimi qəbul olunur. Ədib yaradıcılığının bütün istiqamətlərində, o cümlədən məqalələrində Mirzə Fətəli Axundovu, Cəlil Məmmədquluzadəni, Əbdürrəhim bəy Haqverdiyevi, Mirzə Ələkbər Sabiri, Səməd Vurğunu oxuculara, şair və yazıçılara nümunəvi şəxsiyyətlər kimi təqdim edir.





Belə bir bütövlük Mir Cəlal irsinin pərəstişkarlarında qeyri-adi bir təəssürat yaradır: sanki sadalananlar Mir Cəlalın yaradıcılığı üçün aparıcı mövzu olmamış, əksinə Mir Cəlal bütün bu ali dəyərləri, görkəmli şəxsiyyətləri yaşatmaq, sevdirmək, xalqın yaddaşına həkk etmək, oxuculara həyatın dərin məna və məzmununu aşılamaq üçün yazıçı, alim və pedaqoq olmuşdur.

Bu mənada, Mir Cəlal yaradıcılığının hər bir nümunəsi, o cümlədən ilk dəfə toplu şəklində oxucuların ixtiyarına verilən məqalələri onun öz yüksək həyat amalının manifesti deyilmi?!

Elnur İmanbəyli

## 1926
## Dinsizlər İttifakı nasıl çalışmalıdır

Ölkəmizdə təaqil olunan dinsizlər ittifaqı, mohumatla mübarizə apararak, fəhlə kəntli kitləsini din zəncirindən xilas edəcəyindən əhəmiyyətli bir təşkilat sanılır: fəqət təəsüfki əhalimizin əksəri avam olduğundan bu təşkilatdan urqur və yabancı qalırlar. Din və bilxassa mohumatı əsassız bir şey olmadığı ziyalılar (firqəvi, müəllim, məmur, tələbə) artıq anlamalıdır, ona görə dinsizlər ittifaqının görəcəyi işlər ziyalılar içindən artıq əvam (kitlə), kəntli, muzdur, fəhlə içərisində olmalıdır; əvam kitlənin ittifakın, inanıb inanmayacağına gəldikdə inqilabdan bəri mohumatın keçirdiyini dori nəzərdən keçirməliyik; ən əvvəllər (20-21-ci illər) əvam kitlə və bəlkə ziyalıların çox kısmı bu məsələyə mutəəssibanə bakdığı halda, şimdi kəntlilər bu məsələ ilə çox məraklanırlar; mohumat məsələsi əvamların diqqətini cəlb edərək, onları “nasıl Allah yokdur” bəs nə var? Yer, göyü, kim yaratmış? Kibi kəndlilərinə bir çok suvallar verməğə məcbur edirsədə, onların suvallarına cəvab ola bilməmələri əski etikadda qalmalarına səbəb olur.

Dinsizlər ittifakı üzərinə götürdüyü məsələnin əhalini artıq məraklandırdığını nəzərə alıb, ictimai yerlərdə (fəhlə muzdur, kəntli ictimaində, kulublarda, müvəqqəti yığıncaqlarda) fəal mubəlliglər vasitəsilə “həyat”, “darvinizm kanunları”, “nabatat”, “heyvanat” yaşayışı xilasə ümumən maddiyətdən geniş mühazirələr verib əvamların kəndilərinə verdiyi suvalları cavabsız burakmamalıdır. Bu noylə dinin göstərdiyi nöqtələrin bir, ya bir neçəsinin yalan, əsassızlığı meydana çıxarılırsa artıq dinin nüfuzu kırılmış olur. Zənn olunmasın ki, söylədiyimiz kanunlardan əvamlar bir şey anlamazlar.

Əvvala: Darvinin kanunları ən bəsid və hətta kəntli və maldarların kəndi həyatlarından olduğundan həyatı misallarla anlaşıla





biləcək sadəlikdə söylənə bilir; məsələn “təbəddul” (heyvanın uzaq nəsli özünə oxşamaz) “vərasət”, (heyvan xasiyyətini yakın evladına burakar) “suni intixab” təbiyi intixab kimi şeylər əhalinin yüzlərcə təsadif etdigi və söylənilən həman eytraf edəcəgi həkikətlərdir. Əgər əvamların həpsi anlamasa belə onların aralarında olan mubaət şəxslər anlar və başkalarına da ey anlatar, çünki əvamlar kəndi cəmaətinə ziyalıdan artık etimad edər. Sanya insanlar dayima (hətta çocuqkən) kəndilərinə mübhəm olan təbiyət kanunları barədə suvallar verərək, həyat kanunlarını ögrənmək isdədiklərindən madiyyət əsasları onların fikirlərində azacıq iz burakdımı; onları rahət burakmıyaraq dayima düşündürəcək və bu yol noyilə bilmədiklərini öyrənməyə məcbur edəcəkdir. Yoksa əvam kitlədən uzaq, yalnız, “din yoxdur” deyə bağırmaq və bu barədə ətraflı məlumat vermiyərək bu əhmiyyətli məsələyi müəmmalı surətdə həll etməgə çalışmakla əvam kitləyi mohumatdan xilas etmək oldukca gücdür.

*Yeni fikir. 1926. 7 iyun*

## Məhərrəmlik mohumatı kimin əsəridir?

Ümumən şiəməzhəb camaatı əsrlərdən bəri rəzalətə salan, hətta başqa islam təriqətlərinə dəxi sirayət edən “məhərrəmlik” oyuncağının nerədən nəşət etdiyi və kimin əsəri olduğu və nasıl mahiyyəti-hatir olduğunu bilmək hər kəsi maraqlandırsa gərəkdir. İş bu mohumatın acı yüzünü bilmək və mənşəyini aydınca görmək üçün tarixə müraciət etməliyiz:

Ərəblərin süqutundan (10-11-ci əsrlər) sonra islamlıq paytaxtı olan Bağdadın əski nüfuzunu itirməsi və islam ölkələrinin milli hökumətlər tərəfindən idarə olunmağa başlaması münasibətilə dar-əl-xəlifə şəhərinin hankı ölkədə təyin olunacağı barədə ixtilaf meydana çıxır; o zaman islam ölkələrinin ən nüfuzlu və qüvvətlisi olan osmanlı türkləri xilafəti İstanbula çəkir ki, bu, təkəbbürlüyündən məşhur olan İran şahı (Səfəvviyə sülaləsindən) Şah İsmayılın təbinə ağır gəldiyindən türklərlə müharibə açır, məğlub

olduğundan kəndi nüfuzunu mühafizə etmək və osmanlıları zəiflətmək üçün min cür hiylə və təzvir düşünərək, nəhayət, şiəlik təriqətini meydana atır. Şiyəliyi intişar etdirmək üçün İranda dəstə-dəstə dərvişlər salıb əvvəlki xəlifələrə "səb" etdirdiyi kibi məhərrəmlik və Kərbəla hadisələrini mühüm vasitə inxaz edərək hər sənə məhərrəm ayında məscidlərdə təziyədarlıq etməklə şiə təriqətçilərini kəndi ətrafına toplamağa və bu vasitə ilə kəndi şahlıq nüfuzunu xalq arasında artırmağa müvəffəq olur.

Şah İsmayıldan sonra şiə adətlərinin həpsindən artıq məhərrəmlik böyük və yardımçı bir qüvvəyə təsadüf etmişdir ki, o da İraq (Kufə, Bəsrə, Kərbəla...) ərəblərinin bu barədə çalışmaları idi: ərəblərin süqutuna qədər yüzminlərcə nüfuslu Kufə (Babil) kibi şəhərlərə malik olub "coqəlceyş" nöqtə təşkil edən İraq ölkəsinin əksər əhalisi dəvə sürüləri saxlayaraq çarvadarlıq etmək, gəlib-gedən ordulara kirayə ilə dəvə verib yük daşımaqla məşğul idilər ki, ərəblər dünya miqyasındakı müqəddaratını itirdikdə İraq "keçidliğ"ini qeyb edir və minlərcə dəvəçiliklə güzaran edən ərəblər aclıq təhlükəsinə məruz qalaraq ətrafa dağılmağa başlayır.

Fəqət bu zamanlar Şah İsmayılın nəsiyyəti ilə meydana çıxan məhərrəmlik adəti təsadüfən İraqın çarvadar xalqına yardım edici bir mahiyyətdə olur; şiələr hər sənə məhərrəm və ərbəin zamanı yüzlərlə Kərbəlaya ziyarətə gedir və bunlardan İraq çarvadar və hətta ticarətçiləri lazımi mənfəətbərdar olur idilər. Qaibən meydana çıxan bu böyük gəlir mənbəyini mühafizə etmək və bəlkə, daha da genişlətmək üçün İraqın gərək və üma, gərəksə də camaatı var qüvvələrilə çalışmağa başlayır və məhərrəmlik mohumatına bir qaç yeni "bidətlər" daha əlavə edirlər ki, o cümlədən əvvəllər Kərbəlaya gedənlər yalnız adları ilə çağrıldığı halda sonra iraqlılar zəvvarların adına "Kərbəlayi" kəlməsini əlavə edib camaatı on qat daha artıq Kərbəlayi olmağa həvəsləndirir və bu surətlə ticarətlərini istədikləri qədər yüksəldirlər (imdi də Kərbala şəhərini görənlərə "Kərbəlayi" denilir).

Kəndi mənfəətləri üçün məhərrəmliyi ilərləməsi uğrunda ağıla gələn hər növ təzvir və hiylələrə müraciət edən iraqlılar birinci





növbədə cürbəcür uydurma mərsiyələr və Kərbəla vaqiəsinə aid müstöfriq (qeyri-təbii) hekayələr yazıb[1], bu yazıların fars və türk lisanına keçməsinə də artıq çalışırlar ki, az zamanda bu təsir farslara keçib. Onlarda da bir çox mərsiyə və növhə yazan "nazim"lər yetirdisə də, fəqət türklərə ən çox zamanlar (17-18-ci əsr) keçib[2]. Dərbəndli Qumru, Dəxil, Raci və Dilsuz kibi nazimlər meydana çıxardı.

Hər halda məhərrəmlik oyuncaqları nə qədər gülünc və hissyanə olursa olsun milyonlarca camaatın və hətta bir çox hökumətin (İran kibi) maddi və mənəvi həyatına əsrlərcə, sağalmaz zərbə vurduğundan tarixdə kəndini ayrıca olaraq qeyd etdirmişdir.

*Yeni fikir. 1926. 7 iyul*

## 1927
## Gəncədə mühacir ipəktoxuyanlar
(şərbaflar)

Şuralar Azərbaycanı Cümhuriyyətində ipəkçilik işi irəliləyir. Bunun nəticəsində İrandan dəstə-dəstə ipəktoxuyanlar və boyaqçılar bizə tərəf üz tutub gəlirlər. Son zamanlar Gəncə şəhərində 900-dən artıq ipəktoxucu və 20-yə qədər boyaqçı dəstgahı qurulmuşdur.

Şəki qəzasında istehsal olunan xam ipəyi öz kamına çəkən Gəncə dəstgahları Azərbaycan ipəkçiliyində görkəmli yer tutur. Burada mahud və çit fabrikalarının açıldığı zamanda qismən dəstgah sahibləri öz xahişləri üzrə yenicə hökumət ixtiyarına keçmişlərdir. Bunlar yavaş-yavaş "proletar"laşaraq muzd ilə işləməyə məcbur olmuşlar isələr də yenə qismən öz dəstgahlarını davam etdiriyorlar və istehsalatlarını şəxsi surətdə sataraq gün keçiriyorlar.

Xüsusi dəstgah işlədən toxucular iki zəruri hal keçiriyorlar, yerləri daima rütubətli, iş vaxtlarına müəyyən bir hüdud yoxdur.

[1] Bütün mərsiyə və növhə yazan ərəblərin Kufi, Bəsrəi, Atabadi, yəni iraqlı olduğu dəlildir.
[2] Füzuli kibi əski türk mərsiyə yazanları iraqlıların təsirində olduğundan müstəsna tutulmalıdır.

Gecənin ən gec bir zamanında küçədən keçərkən bu zavallıların dəstgahından çıxan həzin səslər "ruhları oxşamağa" başlıyor. Bunlar bəzən özlər ilə bərabər ailələrini dəxi rütubətli padvallarda yerləşdirmişdilər. Bunların halları qayət müdhiş, hifzəlsihhə nöqteyi-nəzərincə bu biçarələr ən fəlakətli vəziyyət keçirməkdədirlər. Xəstəlik isə daima bunları qovub təqib ediyor, hətta tutuyor da, xilas olmaqlarına bir dəqiqə də aman vermiyor.

Müahidə mocibincə hökumət ixtiyarına keçən şərbaflar isə ali və təntənəli fabrik binalarında yalnız səkkiz saat işliyorlar. Şəhərin mərkəzindəki gözəl imarətlərdə yaşıyor, xüsusiyyətçilərdən artıq pul qazanıyor, hətta maarif və mədəniyyət işlərinə dəxi getməyə vəqt tapıyorlar.

Pək əski zamanlardan bəri istismarçılığa alışan ipəkçi "xəlifə"lər (ustalar) sərmayəsiz xüsusi dəstgah sahiblərinin həm özləri, həm də ailələrini nihayət dərəcədə istismar ediyorlar. Bu kibi "xəlifə"lər dəstə-dəstə mühacir qadın və cocuqlarını hər gün 11-12 saat işlədib istismar etmək müqabilində onlara ancaq yarımqarın məişət keçirəcək miqdarda zəhmət haqqı veriyorlar. Hərgah istismar olunan bədbəxt bir muzdur məsələni həmkarlar ittifaqı nəzərinə yetirmək istəsə, onda vay onun halına!.. Filfövr işdən qovulur, işlədiyi zamanların haqqı da verilmiyor...

İnsafsız "xəlifə"lər müqavilə ilə bir nəfər də olsun işçi saxlamıyorlar. Əllərini ağdan-qaraya vurmayıb müft sərvət qazanan "xəlifə"lər şəhərin mərkəzi mövqelərində özləri üçün gözəl imarətlər tikdirmiş və gözəl həyat sürməkdədirlər. Lakin bədbəxt istismar olunan muzdurlar haman rütubətli padvallarda ağır kirayə ilə yaşıyor, xəstələndikdə də bir tərəfdən işdən qovulub iflas ediyor, ikinci tərəfdən isə təbaət üçün pul tapa bilmiyor. Haradan tapsın? Bədbəxt sığorta olunmamış, halına kim yanacaq? Ölsə də ailəsinə kim baxacaq??... Bu kibi bədbəxtlərdən əl-ayağı yara, vücudları iflic olmayan adam qayət az tapılar.

Muzdurluqdan bezikən bəzi kiçik dəstgah sahibləri də vardır ki, bunlar ora-buradan az miqdarda ipək tədarük edib onu özləri toxuyaraq bazara çıxarmaq təşəbbüsündə bulnuyorlar. Bu təşəbbüs, həqiqətən, xəlifələr əli altında əzilməkdən daha da mərğub bir üsuldur, amma...





Xüsusi malını toxuyub bazara satış üçün çıxaran dəstgah sahiblərinin malını ayağa salıb qiymətdən düşürmək üçün bazara hakim olan "alıcı canavarlar" (xəlifələr) bir-birlərinə söz verərək ən aşağı bir qiymət tərtib edir və haman qiymətdən yuxarı almıyorlar. Bu təqdirdə zavallı 5-10 arşın ipək malı olan zəhmətkeş kustar əliqoynunda qalır.

Zatən, kiçik bir mətahı satmaq üçün başqa şəhərə getmək dəxi mənfəətli deyil. İstehsalı artırmaq üçün təzə xammal almağa da qüvvə çatmıyor... Bu çətinliklər bədbəxt muzdur kustarları təzədən xəlifələrin istismar pəncəsinə düşməyə məcbur ediyor. İştə sərvət və pulun istismar və mübarizə səhnəsində törətdiyi faciələrdən bir nümunə!...

### Gəncə

Şəhərlərdə yaşayıb ticarətlə məşğul olan mühacirlər şura ticarət orqanları məhdud edildiyindən şura orqanlarına yaxşı nəzər ilə baxmayırlar.

Zatən, bir iranlılar deyil, bütün istismarçılar şura kooperatifləri özlərinə qəddar düşmən hesab edirlər. İstehsalat və dövlət müəssisələrində çalışan zümrəyə gəldikdə bunlar iqtisadca lazımi qədər təmin olunduqları kibi, firqə gənclər ittifaqı və həmkarlar təşkilatlarında ciddiyyətlə çalışırlar. Savadsızlıqları ləğv olunmaq üzrə də hələ bir çoxları hökumət tərəfindən orta və ali məktəblərə də göndərilirlər.

## IV
## Maarif-mədəniyyət işləri və ticarətçilər

Mühacirlərin maarif işləri dəxi biri-birindən fərqlidir: birinci zümrə (hökumət istehsalatında çalışanlar) şura maarifi ilə işıqlandırıldığı üçün mohumat və xürafatdan tamamilə əlaqəsini kəsmiş

və ruhanilərin xürafat yükünü omuzlarından aşırmışdır, bu zümrədən yetişən gənc nəsil bütün məktəblərə yerləşdirilmiş, cocuq bağçaları və ictimai məktəblərdə tərbiyə edilir.

Qadınlar əsarətlərinin baislərini tanışım və yerli qadınlar şöbəsinə dayanaraq tiyatro, klub və başqa ictimai yığıncaqlarda azad surətdə iştirak edirlər. Bakıda olduğu kibi, bir çox qəzalarda yalnız iranlı balaları üçün birinci-ikinci dərəcəli qız-oğlan məktəbləri təşkil olunmuşdur.

Ticarətlə məşğul olan zümrə maarif sahəsində də bədbinlik və mütəəsübliyini göstərməkdən hələ də çəkinməyir, bunlar hər tərəfdən əl üzdükləri üçün axsaq keçilər kibi boynuyoğun ruhanilər dalısınca məsciddən məscidə sürünməkdə və ümidlərini "dərgah təbarikə" bağlayaraq "Allah Kərimdir" sözü ilə təsəlli tapmaqdadırlar. Bunların balaları da döşündə papiros qutusu küçələri dolaşmaqda, yaxud atalarının arxasınca gecə-gündüz məscidlərdə "salavat" çevirib "Allah dərgahına" qarşı əsnəməkdədirlər. Bunlardan bəziləri "imanlarını mühafizə etmək üçün" bütün təsərrüfatlarını dağıdıb İrana getdilər isə də, 5-6 aydan sonra yenə yoluq cücə kibi şuralar dərgahına qayıtmağa məcbur oldular.

Bu zümrə tez-gec öz zəhməti ilə yaşamağı mollalar dalısında əsnəməyə tərcih etməyə məcbur olacaqdır. Fəqət bunlardan yetişən gənc nəsil ruhanilər təsiri ilə maarif nurundan məhrum olub taleyin fəlakət bürcünə yuvarlanmaqdadır.

İştə bu gənc məsum qüvvənin həyatının zəhərlənməsinə səbəb olan mütəəsüb ataların yaxın gələcəkdə öz sevgili övladları tərəfindən nifrət və lənətə hədəf olacaqlarına şübhə yoxdur.

Kənd təsərrüfatında çalışanlar uzaq guşələrdə çalışdıqlarından həm mollalar mohumatından, həm də maarif və mədəniyyət təsirindən kənardırlar. Bunlar kənd şuraları və bəzən muzdur komitələri vasitəsilə mədəni-maarif işlərinə iştirak etdiklərindən yenilik təsiri bunlarda daha da çox və qüvvətlidir. Bunların övladları kənd məktəblərində təhsil edirsə də, ibtidai təhsil qurtarar-qurtarmaz ataları ilə bərabər təsərrüfat işlərində çalışmağa başlayır və artıq oxumağa müvəffəq olamayırlar. Bu kitlənin gələcəyi daha da müvafiq və ümidlidir.





Zümrə deyil, kiçik bir əqəliyyət təşkil edərək şəhərdəki mədəni təşkilatlarda çalışan mühacirlər mədəniyyətcə yerli əhalinin yuxarı təbəqələri ilə müvazi deniləcək kadar yüksəkdirlər. Darülfünunlar, institutlar, darülmüəlliminlər, texnikumlar və başqa bu kibi məktəblərdə iranlıların ziyalı təbəqələrindən az-çox nümayəndələr vardır. Yuxarı məktəblərdə təhsildə bulunan iranlı balaları nümunə olacaq kadar gözəl oxuyur və ciddiyyətlə ictimai işlərdə iştirak edirlər.

İran konsullarının namünasib hərəkətləri mətbuat səhifələrində daima görülür demişdik. Bu kibi həqiqətlərin üstünü açanlar da haman yuxarı məktəblərdə təhsil edən cəsarətli iranlı balalarıdır. Bu gəncliyin gələcək fəaliyyəti İran məzlumlarının nicatına yol açacaq kadar parlaq və əhəmiyyətlidir. Şura idarə və müəssisələri bu kibi fəal iranlı balaların hər növ maddi və mənəvi yardımdan geri durmayır.

İştə bu müqəddəs gənclik şura orqanlarına arxalanaraq mühitin çirkinliklərini silmək və həqiqi gələcək bir yaratmaq üçün öz mətin fəaliyyətini kəskinlədəcəkdir.

## V
## İran mühacirlərinin firqə təşkilatı

İnqilabdan əvvəl "Ədalət" firqəsi adı ilə zühur edən Azərbaycandakı mərkəzi və qəzalarında get-gedə artaraq mətanətini yüksəltməkdədir.

Zəhmətkeşlərdən toplanan İran kommunistləri Azərbaycan Kommunist firqəsi sıralarında əhəmiyyətli mövqe tuturlar. Bunların arxasından yetişməkdə olan gənc iranlı balaları daha da mühüm mövqelər tutacaqlarına şübhə ediləməz. Gərək İran kommunist və komsomolları və gərək məktəb tələbələri yerli təşkilatlarda ciddiyyətlə çalışırlarsa da, vətənlərində istibdad pəncəsində əzilməkdə davam edən öz zəhmətkeş və füqəra vətəndaşlarını tamamilə unudurlar. Bu hal iranlılarda ictimai varisi bir xəstəlikdir.

Unutmamalıdır ki, İranın qaranlıq guşələrində zülm içində

boğulan avam zəhmətkeşlərin ümidi yalnız xaricdəki tərəqqipərvər vətəndaşlarına bağlıdır. Özümüzün asudə həyat sürməyimizlə kifayətlənərsək köhnəpərəstlərə dediyimiz "xüsusiyyətçi" isminə biz də süzülür oluruz. Özümüzü mütləqiyyət pəncəsindən qurtarmaqla deyil, eyni zamanda bütün əməkkeş sinfimizin azadəlik və xilasını təmin etmək ilə hünər yapmış olacağız. İran tərəqqipərvərləri bu xüsusda Türkiyə tərəqqipərvərlərinə təbiət etməlidirlər. Onsuz da Oktyabr inqilabının saçdığı hüriyyət şüaları İranın qaranlıq guşələrini işıqlandırmağa başlamışdır. Burada yalnız azacıq səy və qeyrət lazımdır.

Gəncə

*"Zəhmət" qəzeti. 1927. 11,21, 27 fevral*

## Gəncədə bəhai fəaliyyəti

Son əsr vücuda gələn, bütün İslam aləmində yayılan bəhailik zühuru Gəncədə də bir şöbə vasitəsilə bir çox avam kitlələri zəhərləməyə başlamışdır.

Əsri və tarixi səbəblər təsiri altında hər tərəfdə sönüklüyə üz qoymuş olan İslam dinin 5-6 əsr bundan əqdəm tutduğu mövqeyi işğal etməyə "cəsarət" edən "zavallı" bəhai təriqətçiləri, xüsusən avam iranlı mütərdidarını zəhəlləmək ilə yoldaşlarını çoxaltmaq təşəbbüsündən məqsədlərini az da olsa yürüdürlər.

Riyakar mübəlliğlərin dəvəti üzərinə bəhailərə qarışan bədbəxt avam kitlə bu kəsafət yükünü omuzlarına alaraq tarix gedişinə qarşı olan "təriq"ə bəmeyl edirlər. Həftədə bir dəfə laf-kəraf yığıncağının qurulması mədəniyyətdən bixəbər olan binəvaları öz kəsbü karından qoyaraq onları tiryək nəşəsindən ərş-əlaya ərvac edənlər kibi "səadət" xülyaları və "cənnət" sövdaları ilə qanadlandırır.

Müxtəlif hökumət idarələri və firqə təşkilatları tərəfindən müəssisələrdə aparılan təbliğat, təşviqat nəticəsində islamlıq təsirindən qurtarmaq istəyən bir çox qafillər dərhal bəhai məclislərinə doluşaraq "yağışdan çıxıb yağmura düşür"lər.





Avam iranlıların əksəriyyətini əhatə edən bəhai təriqəti Gəncədə özünü göstəricək dərəcədə çoxalmışdır. Bu çoxalmanın səbəbi təbliğat idarələrinin bəhailəri əhəmiyyətsiz görməsi və onlardan dini bir cəmiyyət əmələ gəlməsinə inanmazlığıdır.

Bəzi əhlikef tacir və əsilzadələr bəhailiyi ixtiyar etmişlərsə də, bu təriqəti əllərində fəqət bir əyləncə və alət etmişlər. Halbuki avam təbəqələrin bu təriqətə qapılanları öz varlıqlarını unudacaq qədər mənsəbliyə varmışlar.

Öz mənfəətləri üçün əhali arasına yayılan bəhai mübəlliğləri: "Bəhaüllah iranlılar" deyərək ən əvvəl iranlıları öz ətrafına cəlb etməyə başlayır.

Bəhai təriqətinin iç üzü bütün idraklı və anlaqlı vətəndaşlara məlum olduğundan bunların çürük məram və məqsədləri üzərində dayanmağı lüzumsuz hesab edirəm. Fəqət bu yenidoğma azğınların füqəranı zəhərləmələri qətiyyən müzakirə tələb edir. Ona görə də başqa dinlər, ənənələr ilə mübarizəyə qalxışan təbliğat və təşviqat şöbəsinin bu yumuşaq, fəqət zəhərli ilanlara da yaxından nəzər salaraq xətmə verməsi lazımdır. Əksi təqdirdə Gəncə qəzasında yürüdülən firqə təbliğat işləri nəticəsiz qalacaqdır.

Qəribə burasıdır ki, avam camaatdan bəziləri bəhai təriqətinin hökumətimiz proqramına uyğun olduğunu zənn edirlər. Bu yanlışlıqların da səbəbi İslam dinində mövcud olub da bəhai təriqətçiləri tərəfindən qaldırılan (?) bəzi bidətlərin hökumətimiz təşəbbüsü ilə də qaldırılmaq istənilən bidətlərə uyğun olmasıdır. Məsələn: evlənmək, hicab və başqa bu cür qaydaları hökumətimiz rədd edir. Bəhailər və avamlar buradan hökumət proğramı ilə bəhailərin dediyini bir-birinə müvafiq hesab edirlər. Halbuki burada məsələ başqadır:

Hər bir din özündən əvvəlki dindəki yaramaz bidətləri qaldırmaqla əhalinin hüsn-rəğbətini qazanmaq istədiyi kibi, bəhai dini də islamiyyətdən daha azadə bir şəriət qoymaq istəyir. Fəqət hökumətin müxtəlif qaydaları rədd etməsilə bərabər, din özü də bir qayda olduğundan onu dəxi kökündən rəd etməsi ümumdini bidətlərə aiddir.

Hər halda yaxın zamanda bəhai təriqətçilərinin zəhmətkeşləri aldadıb istehsaldan qoyduğu mürur fəaliyyətinə lazımi idarələr tərəfindən ətf-nəzər olunar zənnindəyiz.

Gəncə

*Zəhmət qəzeti. 1927. 4 aprel*

## Azərbaycanda İran mühacirləri

I

Mütləqiyyət, zülm və istibdadın müdhiş pəncəsindən qurtarmaq üçün tərki-vətən edən İran fələkzədələri (xüsusən İran azərbaycanlıları) Azərbaycan Cümhuriyyəti şəhər və kəntlərinə yerləşmişlərdir. Buna birinci səbəb Azərbaycan iqtisad və təsərrüfatının yüksəkliyi, ikinci isə Şuralar İttifaqının məzlum Şərq millətlərinə göstərdiyi rəğbət və təvəccödür.

Azərbaycana köçüb gələn İran türklərinin bir hissəsi Gəncə qəzasında yaşayır. Bunların böyük kəsirini təşkil edən hissəsi işçilik, az hissəsi əkinçilik, bir topar da ticarət və kiçik alver ilə məşğuldurlar. Məktəblərdə təhsil və şura maarif idarələrində xidmət edənləri də vardır.

İran mühacirləri Gəncədə az millətlərin əksəriyyətini təşkil edə bilirlər isə də, bunlardan bir çoxusu Azərbaycanda doğulub böyüdükdən sonra azəriləşmiş və mühacirət sırasından çıxmışdırlar.

Mühacirlərin bir hissəsi İrandan qət-əlaqə edib Azərbaycan vətəndaşlığını qəbul etmiş, İranda ailə və təsərrüfatı qalan digər hissəsi isə İrana qayıtmağa məcbur olduğunda İran təbəəliyində yaşamaqda və İran mütləqiyyətinin mücəssəməsi olan konsulların hər cürə müaməlsinə istər-istəməz boyun əyməkdədirlər.

II

Hər bir hüquqdan məhrum olan vətənini tərk edən İran mühacirləri xarici ölkələrdə də yaxalarını takılır düşmənlərdən qutara bilməyirlər: bütün iranlı ayağı çıxan ölkələrə nümayəndə göndərilən fars "zadəgan" konsulları hüquq müdafiəsi üçün gəldiklərini





unudaraq, sanki ac qurd kibi şikar izindən yortuyurlar. Bu "mübarək qədəm"lərin iranlılar üzərində yürütdükləri cəlladlar bəzən İranda icra edilən istibdadı geridə qoyar.

Gərək konsullar və gərək qəsəbələrə təyin etdikləri nayibləri əksəriyyət üzərə öz vəzifələrinin ifası üçün degil, yalnız xüsusi cibişdanları üçün çalışırlar. "Molla Nəsrəddin" məcmuəsi və başqa Azərbaycan mətbuatının səhifələri daima İran mühacirlərinin konsullar əlindən çəkdikləri fəryad və hıçqırıqlar ilə doludur.

Bu "alicənablar" təyin olunduqları yerə çatar-çatmaz iranlıların vətənfürüş ağsaqqallarını çağırıb yağlı-bəzəkli vədlər ilə onların boş damarlarını əllərinə alırlar. Bundan sonra daha hər şeyi bitmiş və bütün mühacirlərin ofsarı konsul cənablarının əlinə keçmiş olur.

Hərif fəaliyyətə başlarkən pasport satmaq və gərək hər növ yollar ilə ülgücünü itiləyib bədbəxt mühacirlərin canına düşür.

Mövcud ianələri həzm-rabedən keçirmək, vəfat edən iranlıların var-yoxunu bənimsəmək, soymaq, dağıtmaq, daha nə bilim, nələr!..

Bütün bu "gəlir"lərdən fövqəlzikr ağsaqqalların müəyyən payı olmalıdır. Əksi təqdirdə haman quyruqlar camaatı başına toplayaraq mərkəzdən konsulun əzlini tələb edər. Bu hal, zənnimizcə, hər bir mühacirin gözü ilə gördüyü bir həqiqətdir.

III

Gəncədəki İran mühacirlərinin iqtisadi vəziyyəti və təsərrüfat quruluşları, ümumiyyətlə, qənaətbəxşdir. Müsavat zamanı kəntlərdə rəhbərlik və muzdurluq edən iranlıların bir hissəsi bir yerə toplanıb şirkət təşkil etmişlər və hökumət tərəfindən bunlara yer, heyvan və təsərrüfat alətləri vermiş, özləri üçün xüsusi kaloniyalar əmələ gətirmişlərdir. Bu kibi yeni tikilən iranlı kaloniyalarının (kəndlərinin) sanı 10-12-yə qədərdir.

Bu kəntlərə toplananlar biri-birinin həvəsinə gecə-gündüz yorulmazqsızın təsərrüfat üzərində çalışır və özləri üçün bağ, bağça və mükəmməl ev-eşik hazırlayır. Muzdurların digər bir qismi isə əvvəldən yaşadığı kəntdən ayrılmadığından oradaca tə-

sərrüfat və təchizat verilmiş istehsalat ilə məşğul olmaqdadırlar. Kəntlərdə yaşayan bu zümrə kənd şuraları seçkilərində və başqa ictimai məsələlərdə də iştirak edirlər.

*Zəhmət qəzeti. 1927. 19 aprel*

## 1931
## PİONER təşkilatının əvvəlcədən hazırlanmış operativ planı olmalı

Plan işləri yerli maarif və məktəb planlarından ayrı ola bilməz (Lakin pioner təşkilatı öz aktivliyi ilə karşılıklı plan iləri sürə bilər). Təcrübə göstərir ki, kəntlərdə ümumi təhsilin hazırlıq işi yaxşı getmir. **Komsomol və pionerin yardımı olmadan düzülən planlar həkiki olmurlar**. Bunu nəzərə alarak, komsomolun yakın yardımçısı bu illik hazırlık planını doğru kurmak işində özünü məsul saymalıdır.

**Ümumi təhsilçiləri doğru müəyyən etmək üçün, kobinədə düzülən plan yaramaz.** Pioner dəstələri və dəstə rəhbərləri ayrı-ayrı evləri kəndin ən uzaq küçəsində yaşayan külfətləri öyrənərək, məktəb yaşlı çocukları plana salmakla, dərsə kədər hazırlık işini onlara anlatmalıdırlar. Bundan başka kəntlərdə köçəri halda yaşayan və gəlmə əhali çocuklarına artık fikir verilməlidir. **Öylə etməlidir ki, kənt çocuklarının təhsil işi yakın muntəkələrdəki məktəblə ödənilsin.** Yeni kurulan kolxozlarda məktəb yoxdursa, burada məktəbin açılması və ya qrup təşkil edilməsi işi, planın ən mühüm məsələsi olmalıdır. Bunun üçün kolxozçuların dikkəti bu sahəyə cəlb edilməli, kənt mədəni maarif sektorları ilə birlikdə, yeni məktəb binası koyulmalıdır.

Təhsil başlanğıcında isə bir gün əvvəl mərasim şəkilində ümumi təhsilçiləri karşılamak vacibdir. Pioner təşkilatı "məcburi təhsil başlanğıcı kanunun" şənliyində və düzəlməsi işində kabakda getməlidir. Bu gün istər ata-analarda, istər çocuklarda böyük ruh yüksəkliyi oyatmalı; bu ruh yüksəkliyi çocukların müntəzəm davam işinə, təhsilə rəğbət işinə bina koya bilər.





**Pioner təşkilatı məcburi təhsili təşkil etməklə öz işini kurtarmalıdır. Təhsilin dəvamında: dəyər iki il** kalanlarla, məktəbi burakıb kaçanlarla mübarəzə və isti yemək təşkili, yoxsul çocukların təmini işinə arası kəsilməz rəhbərlik etməli. İşi oylə kurmaq lazımdırki, təhsilə alınan çocuklar məktəbi kurtarana kədər dərsə dəvam etsinlər. Bu iş mədəni inkılab hərəkatında böyük yer tutur. **İlk quruplara alınan işçi, muzdur, yoxsul balaları orta və hətta ali məktəblərə qədər aparılmalıdırlar. Bunsuz ali və orta məktəblərimizi müvəffəkiyyətlə proletarlaşdıra bilməriz.**

*Pioner işçisi. 1931. iyun-avqust. № 9-10*

## Pioner, mədəni inklab uğrunda

Bu il, ümumi məcburi təhsilin kütləvi, mədəni inkılab hərəkatına çevrildiyi bir ildir. Gənc nəslin önündə gedən pioner təşkilatının bu işdə aktiv işdirakı böyük rol oynamalıdır. Məcburi təhsili keçirmək, ölkəmizdə mədəniyyətsizliyin, savadsızlığın kökünü kəsmək deməkdir. Lenin yoldaşın **"irəlidə gedən kapitalist ölkələrininə çatmak və ötmək"** şüarını yerinə yetiririz. Məcburi təhsili kəçirməklə biz sosyalizm kuruluşunda bürokratizm, öz başına axın, məsuliyyətsizlik, tənbəllik, yaramazlıq, işə kiymət verməmək, can yandırmamak kibi əngəlləri yok edən gənc mübarizlər hazırlayırız.

İşçi rayonlarında məcburi təhsilin 7 illik ölçüdə aparılması və təlim tərbiyə işinin politexnik əsası ilə kurulması, bu ilin zərbəli, mədəni məsələsidir.

Məcburi təhsili kəçirdikdə sınıfı düşmən bəzən bizə mane olur. O kədərdə elmili olmayan ata, analar arasında cür-bə-cür yalanlar səpir. Məktəb yaşlı uşaqların təhsil mintəkələrinə vaktında və 100 % toplanmasına zərbə vururlar. **Pioner təşkilatı öz sınıfı ayrılığı ilə bu kibi yalanların üstünü açmalı, kütləyə başa salmalı ki, məcburi təhsil ilinin keçrilməsi eyni zamanda sınıfı düşmana ağır zərbədir.** Onun üçün təbliğat aparır ki, bu zərbə ona dəyməsin. Pioner təkilatı yerlərdə öz irəlidə gedən üzvüləri va-

sitəsilə, təhsil vəsaitinin tamamilə vaktında hazırlanmasına kontrol olmalıdır. Pionerlərin kontrol postu təşkil edilməli, komsomolun rəhbərliyi altında bu postlar tədris lavazımatı (dəftər, kitab, kələm və qeyri...), məktəb binası, yoxsullar üçün ayrılan maddi təminatın səmərəli və lazımınca sərf edilməsinə kontrol olmalıdır.

**Pioner dəstələri kənt və kolxozlarda məktəb yaşlı çocukların siyahısını dutmalı və bunların təminata olan ehtiyacını müəyyən etməli və yerli təşkilatlarla plan hazırlığını kurtarmalıdırlar.**

**Pionerlər nə inki təkcə özləri bu işdə çalışmalıdır, həmdə bütün kitlənin dikkətini məcburi təhsil ətrafına toplamalıdırlar.** Təkcə pioner küvvəsi ilə məcburi təhsili keçirmək olmaz. Bu işin əhəmiyyəti hakkında pioner böyük təşviqatçı və izahatçı olmalıdır. **Evladını məktəbə verən hər bir ata və ana məktəbə gedən hər bir çocuk, hiss etməlidir ki, bu ilki təhsil başlanğıcı dəyərcə, xasiyyətcə tamamilə başqadır.** Bu ilki təhsil işi kətiyyən keçən illərdəkinə bənzəməz.

Pionerlər evlər arasında savadsız çocukların siyahısını dutmalı və həmin bu çocukları yaşadıqları rayon daxilindəki məktəblərə çəkməlidirlər. **Aparılan təhsil bir aylığı kampanyasında nə inki balacaların eyni zamanda böyüklərin də məktəbə gəlmələri üçün pionerlər təbliğat və təşvikat aparmalıdırlar.** Lenin yoldaş dediyi: **“Savadsız bir ölkədə savadsız kütlə ilə qalibiyyət əldə edilməz” vəsiyyəti** və tapşırığı aparılan təhsil aylığı zamanı, ə l i m i z d ə əsas olmalıdır. Pionerlər çalışmalıdırlar ki, 5 illik planın sonuna kibi ölkəmizdə savadsızlığın ləğv edilməsi işi 100 faiz müvəffəqiyyət qazansın.

Sınıfı düşmənlər (kolçomaklar, alverçilər, mollalar, opportunistlər, bəylər və xanlar) çalışırlar ki, mədəni inkılab uğrunda kəti qalibiyyət əldə edə bilməyək. Onun üçün də savadsızların məktəblərə gedib savadlanmaları əleyhinə kampanya aparırlar. **Çünkü işçi, yoxsul, muzdur savadlanarsa, həmin bu sınıfı düşmənlərə qəti zərbə daha da şiddətlə dəyəcəkdir.**

Ona görə də bütün pionerlər sınıfı düşmənlərə qəti zərbə vurmaq işində böyük fəaliyyətlər göstərməli, sınıfı düşmanların fitnələrinə və uydurmalarına bakmayarak, böyük, balaca, qadın, ərkək, bütün savadsızları; savad müntəkələrinə və məktəblərə tamamilə cəlb etməyə çalışmalıdırlar.





Bəzi yoldaşlar məcburi təhsili işçi sınıfının ümumi planı işindən ayıraraq, təklikdə başa düşürlər. Bu doğru dəyildir. **Məcburi təhsil, başladığımız hər tərəfli sosyalizm hücumunun, bir tərəfidir.** Məcburi təhsili gündəlik sənaye-maliyyə planı ilə əlakədar anlamalı və öylədə həyata keçirməliyiz. Ayrı cür desək, məcburi təhsil kampanyası çocuklar kütləsində sosyalizm kuruluşu tempinin artmasına və sənaye-maliyyə planının zərbəli bir surətdə ödənməsinə kömək etməlidir. Məcburi təhsil kampanyası ilə biz çocuklar kütləsində zərbəçilik və yarış işlərini lazımı yüksəkliyə kaldırmalıyız. Dəstə rəhbərləri, məktəb forpostları və oktyabryat təşkilatları bu ilki “ümumi təhsilçilər” arasında yeni sosyalizm əmək metodlarının əsasını yaymalıdırlar.

*Pioner işçisi. 1931.iyun-avqust. № 9-10. S.8-9*

## Rekonstruksiya devrinin müəllimi[3]

Sosyalizm kuruluşunun bütün cəbhələrdə hücuma keçməsi kalib gəlməsi, ölkə daxilindəki düşmən ünsürləri mükavəmətçiligə məcbur edir, bu mükavəmətlərlə bərabər sınfı mübarəzə kəskinləşir, son və həll edici momentləri yaşayır, kənt və şəhər xalk təsərrüfatının sosyalizm sektoru genişlənir, metodlar ilə zəhmətə sarılan əməkçi kütlələrinin aktivligi böyüyür: “bütün bu artma və yüksəlmə nəticəsində xalq məarifi və ümumən mədəni inkilab məsələləri milyonlarca kütlələrin ağır və təcili tələbləri karşısında bulunur. 16-cı firkə kurultayından sonrakı mədəni inkilab hərəkatı keçmiş illərdəkindən tamamilə bam-başkadır. Keçən illərdə biz ağır sənayenin bərpası üçün hər şeyə hətta məktəbə də kənaət edirdik”. (Stalin). İctimai və siyasi kampanyaların kəsginligi al-

[3] Müzakərə tərikilə

tında mədəni cəbhə kölgədə kalırdı. "Taxıl hazırlığı və əkin kampanyası nə kədər surətlə aparılırsa kənd kiraət komasının ağzına o kədər möhkəm kıfıl vurulurdu" (Bunbnov). Həmkarlar ittifaqı kino və müsamərə işlərinə 42 milyon, savadsızlığın ləğv işinə isə ½ milyon para sərf edirdi...

Rekonstruksiya devrində isə mədəni inkilab həyatın təbii tələbi əsası üzrə çok çətin və tarixi məsələlərlə kabaklaşır; sosyalizm vətənində qəti olarak savadsızlığı ləğv etmək, məktəbləri politexnikləşdirmək, 17 yaşa kədər ümumi məcburi politexniki təhsil işini tətbik etmək, kommunizm tərbiyəsi əsası üzrə geridə kalmış cümhuriyyətlərdə "internasional mündərəcəli, milli formalı" mədəniyyət məsələlərinə daha ciddi əhəmiyyət verib sürətləndirmək, işçi sınfının texniki səviyyəsini kaldırmak, əməkçi kütlələrin ən məşhur üç formada olan kommunizm, siyasi, mədəni savadsızlığını yok etmək mədəni məarif işlərini ümum vahid plan kurmaq və ölkənin mədəni axsaklığını yok etməklə irəlidə gedən ölkələrə çatıb ötmək sosyalizm kuruculuğunun layıkı ilə mənimsəyən əməkçilərə malik olmak üçün birinci nevbədə sənaye və kənt işçiləri arasında kommunizm tərbiyəsi işini canlandırmak, genişlənməkdə olan sənayenin bütün cihətlərini texniki və proletar kadrolarilə ödəmək, bunun üçün ali məktəb sistemini dəyişmək, arası kəsilməyən təhsil işinə keçmək, xalq məarifi planını təsərrüfat planı əsasında kurmak, məarif orqanlarını rəsmiyyətçilikdən kurtarıb canlı və sistematik təlimatçı sifəti vermək, yaşayış məsələlərini (ayilə, yemək, mənzil, adət..) kökündən dəyişərək ictimai əsaslara cəlb etmək və bunun üçün mədəni küvvələri hər yerdə, hər zaman səfərbər hesab etmək... və iləx mədəni inkilabın önündə duran bu məsələlər yalnız özləri deyil, onların icra üsulları da yenidir. Milyonlarca əməkçi kütlələrinin tələbi olan bu məsələləri heç bir zaman təkcə müəllim, təkcə siyasi məarif işçisi, kiraət koması və ya kulubla ödəməli olmaz. "Kütlənin mədəni tərbiyə məsələsi kütlənin öz işi olmalıdır" (Lenin).

"Bizim gündəlik əməli vəzifəmiz kənd və şəhərdə milyonların kütləvi təşkilatçılık hərəkatından və sosyalizmin əsas dayanacaklarından istifadə etməkdir" (Bubnov). Bu tarixi işlər ancaq işçi sınıfının yorulmaz mübariz idarəsi ilə həll oluna bilər. "Əməkçi kütlə fəaliyyəti Şura hökumətinin kuruculuğunu davam etdirir. Bu aktivlik insiyativ mədəni cəbhənin də metodu olmalıdır", mədəni inkilabın öz nevbəti məsələlərinin həlli ancaq və ancaq "əməgi ağır çətinlik vəziyyətindən asan ruh yüksəkliyi halına salan" sosializm yarışında zərbəçilik hərəkatından lazımınca istifadə etməkdir. Mədəni inkilab məsələrinin həllində kütlələrin bütün aktivligini səfərbərligə almalıdır; mədəni işlər üçün hazırda yaranmış maddi texniki əsaslardan istifadə edərək bu işlə rəsmi, qeyri-rəsmi maraklananları, mədəni hücum, mədəni estafeta, mədəni ordu, mədəni posta cərgələrinə çəkməlidir. Budur, mədəni inkilab məsələlərinin kəmiyyət və kefiyyətcə möhkəm relslər üzərinə salınması üçün bu günün əsas üsulları. Mədəni cəbhədə proletar sınfının göstərişlərini icra uğrunda yorulmadan çalışan müəllimlərin fəaliyyətləri haqqında uzun-uzadıya bəhs etməgə lüzum görməyirik. Müəllimlər işçi sınfı və Şura hökumətilə əl-ələ verərək sosializm kuruluşunda can dililə işləyirlər. Onlara "sosyalizmin kənt dayanacağı" adı nahaqdan verilməmişdir. Xüsusən son illərdə kəntdə kollektivləşmə məsələlərilə əlakədar olarak ən kabak cəbhəni işğal edən müəllimlər sınfı düşmənin mükavəməti ilə olur, canından keçir, buna baxmayaraq sosyalizm kuruculuğunda öz möhkəm iradəsindən düşməyirlər, ancaq belə bir mübarizlik nəticəsindədir ki, kommunist firkəsi və Şura hökumətinin etibarını kazanmışdırlar. Kənt müəllimləri firkənin onlardan yüksək etimadını itirməmək mübarizələrində daha yüksək fəaliyyət göstərmək üçün əlbəttə ki, rekonstruksiya devrinin tələblərilə hesablaşmaya bilməzlər.





## Şura müəllimi yeni vəzifələr karşısında

Rekonstruksiya devrinin mədəni tələbləri müəllimin vəzifəsindəki işini hesab etməyir, eyni zamanda müəllimin ictimai vəzifələrini köhnəlmiş "müəllim aqranom, müəllim həkim təşkilatçı" şia-

rında da görmür. Xüsusən yeni devr müəllimi kütlələrdə oyanan aktivligi təşkil etməklə kalmayıb bu aktivligi mədəni inkilab məsələlərinin sürətilə həll eiləməsinə çakməgi bacarmalıdır. Müəllimin fərdi fəaliyyəti bəs deyil, o "kadronun kadrosudur" o şəxsən zərbəçidir, yarışçıdır, savadsızlıq ilə mübarəzə aparır, işçi və kəntlilərin mədəni texniki səviyyəsini yüksəltməklə iştirak edirsə bu azdır. Rekonstruksiya devri, müəllimdən kütlənin milyonlarca bitməz tükənməz aktivlik hərəkatından istifadə edib zərbəçilər, yarışçılar, savadsızlıq ilə mübarəzəçilər, mədəni inkilab cəbhəçiləri yaratmalıdır. Bu nə deməkdir? Bu, müəllimin doğrudan da firqə və hökumət ilə çigin-çiginə sosyalizm məsələlərini rəhbər sifətilə həll etməgi deməkdir.

Hər hansı bir kampanya aparmaq üçün kəndə gələn təşkilatçı ilk dəfə müəllimi axtarır, şurada bir çətinlik oldumu, müəllimi çağırırlar. Çok zaman onun əsas vəzifəsindən aylarca ayırıb sınfı mübarəzə cəbhəsinə, təsərrüfat və təbliğati işlərə cəlb edirlər, bu şura müəlliminin kazandığı etimadı göstərir. Şura müəllimi isə yerində saymamalıdır "irəli getməkdə olan sənaye və təsərrüfat işçilərimizin sürəti" ilə ayaqlaşmalıdır. Kolxoz və ya fabriklərdə sosyalizm zəhməti tamamilə öz məzmununu tapmışdır. Görülməmiş surət kollektivçilik, məhsuldarlıq, ruh yüksəkliyi bu zəhmətin məzmunudur. Bu məzmun mədəni cəbhədə də özünü göstərməlidir. Artıq müəllimlər də öz istehsalat planlarını işləməgə işin təkcə keyfi cəhəti ilə kifayətlənməyib keyfiyyətinə əhəmiyyət verməgə başlamalıdırlar.

Yeni vahid mədəni məarif planı mədəni məarif işinin istehsalata yakınlaşdırılması və istehsalat planı əsası ilə qurulmasını təkcə onun üçün etməyir ki, ehtiyac və tələb müsaviligi nəzərdə dutulsun və ya mədəni məarif politexnikləşsin. Digər və ən mühüm cihət budur ki: sosyalizmin zəhmət ocaklarında doğan aktivlik, kollektivlik, zərbəçilik, həll edicilik momentləri mədəni cəbhəni də bir istehsalat sektoru kibi ihatə etsin. Bizim mədəni işlərimiz hələ səmərələşmə, reallaşma, ictimai hərakat simasını daşıma məsələlərində geridədir. Bu geriligi doldurmaq əsas məarif əsgərlərinin iradəsi ilə ola biləcək firkə nə inki müəllimlərə inanır, hətta məarif cəbhəsini onlara tapşırır, ancaq xalk təsərrüfatının bütün küvvəsindən gələn vəsayiti sərf etməklə sosializm sənayeinə "yeni insan" verməgi müəllimlərdən tələb edir.





Kəntdə müəllimin yukarıda göstərdigimiz ciddiyətinə bakmayarak çok zaman bu işi kiymətləndirilməyir, hətta yerli təşkilatlar müəllimə yaramaz əlakə bəsləyirlər, onları yaramaz bir surətdə kulaklaşdırır, şəxsi interes üzərinə işdən qovur, cür-bə-cür kirlər yakırlar, bütün bu hallar firkə və Şura hökumətini ən nihayət "16-cı qurultaydan sonra məcburi təhsil ilə əlakədar olarak müəllimləri müdafəə uğrunda inkilabi kanunları mərasimləndirilməsinə məcbur edir". Firkə qeyd edir ki, "müəllimə firkə və işçi sınfının böyük köməgi lazımdır, müəllimlər ordusu bizim vaxtımızı ən artık cəlb edir. Yerli təşkilatlar bu məsələlər ilə artık məşğul olmalıdırlar. Böyük məarif ordusunun köməginə koşmak lazımdır" (Bubnov). Sosyalizm kəntinin boyu ilə ayaqlaşan sınfı mübarəzəyə cəlb olunan, kolxoz hərəkatının aktiv təşkilatçısı sayılan böyük ordu və firkə və hökumətin yukarıdakı tədbirlərinə tamamilə layıkdır.

Kənt müəllimləri məarif işində kulub koma və kırmızı guşələrdə rəhbərlik etməlidir. Buralarda bizim siyasi tərbiyə məsələlərimiz getməlidir. Təəssüf ki, indiyə qədər buralarda "işçi sınfının siyasi və mədəni səviyəsini yüksəltmək, əməkçiləri tərbiyələndirməkdən başqa hər iş görülür" bu ondan irəli gəlir ki, kulub kiraətxanələrdə bir tərəfdən dəyərli işçilər azdır digər tərəfdən bu işin məzmunu kitləyə izah edilməmişdir. Kəntli komanı kalayan çəkmə və ya iclas vaktı yığışmaq yeri hesab edir. O komanın "bütün həyat hadisələrini, təsərrüfat məsələlərini işçi sınfı ideolojisi və Leninizm əsası ilə izah edən "bir təşkilat olduğunu bilməyir. Curətlə demək olar ki, kənt siyasi məarif işçiləri məktəbdən kənar tərbiyə məsələlərini düz kiymətləndirə bilməyir, öz işlərini nə üçün "siyasi" olduğunu özləri də anlamayırlar. Belə bir vəziyyətdən doğan nəticədir ki, 13 ildir Şuraların mədəni məarif bölmələri bu barədə heç bir iş görməmişlərdir.

Müəllim isə bu hala təhəmmül etməməlidir. O, kəntdə siyasi məarif işini və ya mədəni inkilabın məktəbdən kənar sahələrini özünkü hesab etməlidir. O, mədəni inkilabın gözətçisidir "o təkcə məktəb vasitəsilə kəndi sosyalizim kəndi eləmək istəyirsə yanılır. Kəntdə məktəblər uşaqlardan başqa daha böyük tərbiyə mədəniyyət ehtiyacından olan məktəbəqədər çocuklar, yaşlı kolxozçular, kolxozçu kadınlar, yenicə savadlanmış minlərcə kəntlilər vardır. Müəllim onların kaydına kalmalı, köməginə çatmalıdır". Ucadan qəzet okumak, radio vermək, izahat, sual kəbul edib cavab verənin mənə dəxli yokdur, fikrində olan müəllimlər çok yanılırlar. Çünkü, məktəbdən kənar tərbiyə məsələləri doğru getmədikdə heç vakt məktəb tərbiyəsi ilə düz getməz və ya dar bir cizgi təşkil edir. Çocuk mühitinin məhsuludur. O gündə 3-4 saat müəllimin daha doğrusu məktəbin təsirindədirsə 21 saat mühitin təsirindədir. Müəllim məktəbdən kənar tərbiyə ilə onu "həyat adamı" etməyə çalışmalıdır.

Müəllimin komada və kulubdakı rəhbərligi planlarını tərtib və reallaşdırılmasında iştirak etmək işinin məzmunu ilə kütləni tanış etmək, mədəni təsirini həmin təşkilatlar üzərində artırmaqdır. Kəntdə mədəni inkilab aktivi yaradılmasına çalışmalıdır.

Şuraların mədəni məarif bölməsinin aktivligi demək olar ki, müəllimlərdən aslıdır. Kəntdə1-ci mədəni küvvə onlardır. İndiyə kədər bu işdəki ablomofçulığa nihayət verməlidir. Bu bölmə kəndli əməkçilərin səviyyəsini kaldırmak, ayilə mədəniyyətsizligi ilə mübarəzə aparmak, sosyalizm kuruluşu işlərinin məksədini yaymak, təbliğat işlərini canlandırmak, beş illik planın kəndə ayid olan hissəsi ilə kəntliləri yakından tanış etmək, kolxoz hərəkatının mənfəətlərini, istehsalatın səmərəli surətdə aparılmasını müzakirə etmək, kampanyaları ihatə etmək, bütün mədəni məarif məsələləri üzərində rəhbərlik etmək işilə məşğuldur. Bu məsələlər bir tərəfdən də məktəbin və müəllimin öz işidir, burada müəllimin həm rəhbərligi, həm də əməli iştirakı lazımdır. Beləliklə kənt müəllimi mədəni inkilab məsələlərinin həllinə daha tez yakınlaşmış ola bilər.





Hər zaman müəllimlərdən eşidirik "vakt yokdur!", bu çok doğrudur. Kəntdə sosyalizm quruluşunun gündəlik məsələləri o kədər çok və canlı gedir ki, bu cəbhəyə çirmənib girən müəllimin vaktı olmayacakdır. Bu bizə aydındır. Digər tərəfdən onu nəzərdə dutmalıdır ki, müəllim öz şəxsiyyəti ilə iştirak etməsə də mevcud vəsayitdən istifadə etməgi bacarmalıdır. Bu isə onun vaktını o kədər almaz. Məsələn, o kəntdə savadlananlar, komsomollar, qeyri xidmətçilər, xüsusən sık-sık kəntlərə gedən təşkilatçılardan istədigi məqsədlə istifadə edə bilər və bunu kənt siyasi məarifçilərinə öyrədə bilər. Kənt məktəbləri şübhəsiz işini elə kurmalıdır ki, həyat məktəbi olsun o tarladan traktordan əkindən istehsalatdan ayrılmamalıdır. Müəllim isə bu istehsalatda kəntin əsas təsərrüfatının bir işçisi kibi çalışdığı zaman özünün biligini hər sahəyə sevk edə bilər və istifadə etməgi kütləyə öyrədə bilməz. O qəzetləri okumak, yeni məsələlərlə tanış olmakla adi söhbət zamanları belə kəntlilərin tərbiyə məsələsini unutmamalıdır. Kəntlilərin sosyalizm adamı olması məsələsi bizdən az vakt, çok iş tələb edir.

Beləcə də şəhərdə siyasi savad işlərində müəllimlərin təşkilatçılığı tələb olunur.

Şəhər müəllimləri indiyə kədər kənt müəllimlərindən "dinc" sayılırdılar, çünkü burada kollektivləşmə yok kolçomağı bir sınıf kibi yok etmək yok! "16-cı firkə kurultayı fabrik-zavod dayirələrində ümumən işçi kütlələri arasında mədəni inkilab sürətinin daha itiləşməsi lazım gəldigini irəli sürdü. "Mədəni inkilab firkənin köməkçisidir", "Ağır sənayenin yüksək tempi, işçi sınfının aktivligi, 5 illigin 4 ildə icrası işçi sınfının texniki biligini artırmak məsələləri mədəni inkilabın metodunu dəyişdi, bununla əlakədar olarak şəhərdə müəllimin karşısına yeni vəzifələr koydu. Müəllimin ibtidai məktəbdən burakdığı çocuklar belə dəyişməlidir," hazırda 15 yaşı olan, 10-20 il sonra kommunizm cəbhəsində yaşayacak, gənc nəsil öz təhsil məsələsini elə koymalıdır ki, hər gün hər hansı bir kənt və ya şəhərdə bu və ya digər ictimai zəhmət məsələsini əməli surətdə həll edə bilsin. Qoy lap kiçik, lap sadə məsələ olsun (Lenin). Kadro məsələsi ilə əlakədar olarak şura məktəbləri ibti-

dadan darülfününa kədər kadro məktəbi olmalıdır. "Canlı kitab"lar sosializm kurucusu ola bilməzlər. "Bizə əməliyyatçılar lazımdır" (Friçe). Fabrik-zavod məktəblərinin müəllimi bir tərəfdən istehsal proqramı uğurunda çalışmalı ikən, digər tərəfdən həmkarlar ittifakının önündə duran mədəni proqramda iştirak etməlidir. O, işçi ixtiraçıların vəziyyəti ilə işçi kulubu radio, texniki, siyasi, elmi dərnəklər kırmızı guşə mədəni ordu, mədəni post, mədəni estafeta işlərindən kənarda kala bilməz. İndi istehsalat ocakları özgə həyatla yaşayır: fabriklər kaynayır, işçi yaradıcılığı gündən-günə artır və bu yaradıcılığın məzmunu mədəni inkilaba rəhbərlik etməgə başlayır, istehsalat müşavirələrində nəinki işçinin əmək məhsulu hesaba alınır, onun ozünə xidmət məsələsinə dikkət verilir. Mədəni inkilab yalnız təhsil və ya nəzəri bilik cihətlərindən ötərək işçinin dərin yaşayış guşələrini ışıklandırır, ona, ayilənin yeməgini, geyinməgini sosyalizm nöqteyi-nəzərindən ögrədir, onu kommunizm cihətinə bir vəzifə kibi hazırlayır.

Digər tərəfdən mədəni məsələ istehsalatın səmərələşmə, zərbəli üsula keçməsində təbliğat roldan təşkilaçılığa keçir. "İşçilərdə əməgə və istehsalata Leninçi bakışı oyadır". İstehsalatın komanda alayını təşkil edən irəli çəkilmişlər ordusunun səviyələrinin yüksəlməsi qəti koyulur...

Bütün bu məsələlər müəllimi "dinc" koya bilməz. Kuruluş işlərində atılan ayrı-ayrı addımlar "işçi sınfının ümumi dövlət kuruculuk və təşkilatçılık istedadını yüksəklərə kaldırır" "siyasət ilə bərabər mədəni inkilab məsələləri kökündən dəyişir", "məarif məsələlərini siyasətdən kənarda koymak ola bilməz" (Lenin); bu həkiki və gurultulu hərəkətlərlə ayaklaşmak istəyən mədəni cəbhənin əsgərləri daha artık çirmənməli, daha ciddi tərpəşməlidirlər.

Şəhər müəllimləri işçi sınfının savad dərəcəsini yüksəltmək üçün nəinki 30-40 nəfəri savadlandırmağa söz verməlidir. Onlar özlərini istehsalat ocaklarına dayimiligə təhgim etməlidirlər. Təhgim olundukları müəssəsələrdə mədəni inkilabın hər cəbhəsində hücuma keçməlidirlər. İşçilərin arasında zərbəçilik və sosyalizm yarışı metodunu izah etməli, istehsalata yaramaz əlakə





bağlayan (tənbəl, içgiçi, proqulçu)larla ciddi mübarizəyə başlamalıdır. Müəssəsənin divar qəzetləri onların silahı olmalıdır. Məcburi təhsil cəbhəsində şəhər çok karışık bir şərait altındadır. Burada məktəbli olmayıb savadlananlar, məktəbi yarımçık tərk edənlər, özgə yerdən köçənlər, müxtəlif millətlər qrupların çocukları vardır. Xüsusən, boylə çocukları məktəbə "bağlamak" çətindir. Onların çoku yarım proletar halında özgə halətdə öz keyfiyyətində yaşamağa alışmışdır. Bu gün soyukdur paltar və ya isti yemək verilirsə, məktəbə gələcəkdir. Sabah kimə isə 2 manata işləməgə gedəcək, o birisi gün yoldaşının yanına... gedəcəkdir. Ataların çoku məcburi təhsilə lazımı əlakə bəsləyirlər. Bu sahədə sınfı düşmənin təbliğatı az rol oynamayır.

Məcburi təhsil üçün siyahı işləri aparıldıqda Gəncədə "uşaqları anaların əlindən alacaklar" deyə kolçomaklar tərəfindən burakılan şiar bir çok karanlıkda kalanları inandırmışdı... Belə hallar, şəhər müəlliminin ancak qəhrəmanlığı ilə rəd edilə biləcək, çətinliklər oldukca çokdur. Bunların rəfi şəhər müəllimliginin ciddiyətini tələb edir.

Beləcə də şəhərdə siyasi savad işlərində müəllimlərin təşkilatçılığı tələb olunur. Bir ay əvvəl əlifba savadını bitirən, indi biligini artırmaq isdəyir, hökumət bu tələblərə cavab üçün lazım olan tələbi ödəyərək müəllimləri köməgə çağırır. Bu çağırış müəllimlərdə bir hərbi qətiyyət olmalıdır. Müəllimlər ən ışıklı ittifakın üzvüdürlər. Məarif işçiləri ittifakı daha ışıklı o zaman ola bilər ki, günəş kibi parlasın, həyatımızın hər tərəfini ihatə etsin, bu isə hər bir müəllimin mədəni inkilabın zərbəçisi olmasından asılıdır.

Şəhərdə müəllimlər müvəffək olmak üçün daha gözəl şərait içərisəndədirlər. Onlar üçün hər bir şey vardır. Qəzetlər, kitablar, mədəni ocaklar texniki rəhbərlik edici təşkilatlar, onlar bir tərəfdən istifadə edərək öz səviyyələrini artırır, bununla eyni işin məzmunu və keyfiyyət cihətini yaxşılaşdırmış olurlar. Digər tərəfdən öz yaradıcılık enerjilərini sosyalizm cəbhələrində mübarəzəyi sərf edə bilirlər.

Şura müəllimligi işin sürətində, isə sosializm can yandırıcağı ilə yanaşmak da işçi sınfından geri kalmamalıdır. Firkə və işçi sınfının rəhbərliyi altında müəllimlər daha artık sınaqdan çıkmalı və rekonstruksiya devrinin kəsgin mədəni tələblərində küvvələrini daha möhkəm toplamalı, birləşməli sosyalizm ölkəsində ləkə kibi görünən savadsızlık mədəniyyətsizlik, köhnə həyat kalıklarını kökündən yok etməlidir. Budur, şura müəllimlərinin karşısında duran təxirsiz məsələ. Firkə isə müəllimlərin maddi və yaşayış şəraitinin yaxşılaşması uğrunda Lenin yoldaşın sözünü unutmayır.

"İşçi sınfı və firkənin rəhbərliyi altında məarif ordusu daha geniş kütləviliklə XVI firkə kurultayının kərarlarını həyata keçirməgə, milyonların mədənniləşməsi mübarizəsinə, mədəni 5 illigin 4 ildə icrasına koşmalıdır!".

*Kommunist tərbiyəsi uğrunda. 1931.*
*№7-8 (10). S.47-50*

## Qələbənin açarı

"...Tokucu sənayesinin zərbəli birqadası, Kasım İsmayılof kolxozçuları pambuq planını noyabrın 5-nə 100 faiz ödəmişdir. İllik plana 25 faiz artıq toplanış üçün tarlalara hücum gedir. Rayona qızıl bayraq ana südü kimi halaldır..."

Siz, şəhərin sərinliyindən bu xəbəri qəzetə sütunlarından şirin-şirin oxuyub düşünürsünüz:

– Keçən il bundan 4 dəfə az pambuq əkib, dəstə-dəstə köməkçilər ilə fevralda da yığıb kurtara bilməyən rayon bu düzlər dolusu əkini nə tez və nə təmiz yığdı? Bu qələbənin açarı haradadır?

Mən sizi rayon kolxozçularının uçuşuna çağırıram. Budur Kolxozsayuzun qabağında tarla zərbəçilərinin alayı durur. Rayonun uzaq və yakın kəntlərindən kollektiv düşünüş, kollektiv zərbəli iş təcrübələri mübadiləsi üçün axıb gələn qadın və kişi qəhrəmanların gözlərində nida, simasında ciddiyyət alınında qələbə oxunur. Onlar bolşevik əməyinin isti-soyuğunu dadmış, sosyalizm kəndinin təməlinə əl katmış, yenniləşən insanlardırlar. Öz





adlarına kollektiv suvarma və becərmə düzəldib məhsul dəyərini yüksəldən və kolxozçu gəncliyi plan ətrafında toplayan Lenin komsomolları hücuma hazırlaşırlar. "Çöldə bir qozada qalmasın!" şuarı dairə komsomolunun təsərrüfat proqramıdır. Arslanın erkək dişisi olmaz. Kişilərin 50 kilosuna qarşı gündə 60-70 kilo pambıq yığan Şəkərlər, Xavər və Xeyransaların başı daha da ucadır. Pionerlər səlamə durmuşlar. Budur kürsüyə çıkan tərli və kırmızı çöhrəli Məlik danışmaq istəyir.

– "Ağamalı oğlu" kolxozu ayın 25-nə illik plan 28520-ə karşı 28555 kilo yığmış, yaxşımız 65, zəifimiz 40 kilo yığır. Biz, mübarizəni itilədirik.

– Borsunlu kolxozçuları adından komsomolçu İslam danışır. O, kənddə firkə tapşırıqlarının sınanmış təşkilatçılarından özünü kütləyə səvdirmiş, Lenin komsomolunun dəyərli oğullarındandır.

– Yoldaşlar, deyir, 14300 puta karşı, 14364 put yığmışıq. 2 gün artıq işləyərək, 500 put ilavə toplamışık.

Budyakov Sarovdan 8000 put təmiz pambuq yığıldığını söyləyir... Natiklərin ağzından rəkəmlər tökülür. Bu rəkəmlərin hamısında kəsgin mübarizələr okunur. Lakin bolşeviklər qələbə rəkəmləri eşitməyə alışmışlar. 518, 1040, 213000 (hektar pambuq əkini) 15337 min ton nəft, bu rəkəmlər köhnə dünyanın kalıklarını yok edir, "köhnə feodal kalıklı ölkəmizi ağır sənaye ölkəmizə çevirir". "Kəndlinin traktora, SSSR-i avtomobilə əyləşdirir." (Stalin) Buna bakmayaraq, biz, kifayətlənməyirik.

Mehrab əlində teleqram danışıq kürsüsündə görünür. "Mərkəzi Komitə" Kasım İsmayılov rayon firkə təşkilatını, komsomolçularını, kolxozçuları və əməkçilərini ölkənin pambuq aslılığından kurtarması üçün kəhrəman mübarizəsini təbrik edir. Yoldaşlar surəti əksiltməyin!". Teleqram gurultulu alkışlara karışır. Bolşevik, inkilabının təbriki kolxozçularda yeni mübarizə hissi, döyüş ehtirası doğurur. Zərbəçi sıraları sıklaşır. Mehrab gələcək hayındadır. O, sakitliyi bərpa edib, dikkətləri yığır:

– Rayon, yoldaşlar, ayın 4-nə 6564 ton 226 kilo illik planı ödədi. Bu qəhrəmanlıqdır. Qələbəmizdir. Lakin bu qələbədə soyuq işti-

rak edən yox dəyildir. Sarov kibi azarlı, bezarlı kolxozçularımız Abbasof kibi qarın qulu kolxozçularımız vardır. Qələbəmizin açarı haradadır. Bu açarı görmək və götürmək çox asan və vacibdir: **Bolşevik Tempi!** Bunun üçün də görülən işin tərkibini, kütlənin kollektiv əmək qüvvəsinin düzgün təşkili, intizamlılıq, gələcəyi aydın təsəvvür etməyi, qələbəyə etimad bağlamağı bacarmaq lazımdır. Biz bu bacarığı hamıdan tələb edirik. Bunsuz hərəkət yoxdur; Bunsuz inkişaf yoxdur; Bunsuz qızıl bayrağı saxlaya bilmərik. Kasım İsmayılof kolxozçuları kəsgin ehtiras ilə sosyalizm əməyinə sarılmışlar. Orada sosyalizm kəndinin bünövrəsi möhkəm koyulur. İstehsal qüvvələri dəyişir, əmək məhsuldarlaşır, kollektivləşir, kommunistləşir. Bu əsasda "ən vəhşi, ən kuduz, ən yabanı istismarçı kolçomak" (Lenin) bir sınıf kibi ortadan götürülür. Onlar bu böyük işləri az vaktda yaradırlar.

"Biz tokucu sənaye zərbəçilərinin köməkçiləri" isə onların, o kəndlərin mədəni nəkliyyat yolu, radio, ışık, böyük mədəni ocaqlar, pambuq ambarları, kino və teatro ilə ödənməsinə çalışmalıyıq. Onların bu haqlı tələbi bizim vacib borcumuzdur.

*Kommunist. 1931. 26 noyabr. №274 (3389)*

## Məktəblərdə kommunizim tərbiyəsi

3-cü qəti ildə firkə və hökumətimizin mədəni cəbhədəki qələbələri çok böyümüş və genişlənmişdir. İmdi 7 illik ölçü də, məcburu təhsil planını həyata keçirmək işinə, hazırlanmakla, məktəblərimizdə işin dəyərini yaxşılaşdırmağa geçirik. İbtidai məktəblərdə, bütün təhsil və tərbiyə işlərimiz; çocuqları, kommunizm tərbiyəsi ruhunda böyütmək, gənc nəsli köhnə həyat qalıqlarının çürük görüşləri əlindən azad etməkdir.

**Pioner təşkilatı kommunizm tərbiyəsinin ilk özəyidir**.

**Pioner təşkilatı olmayan bir məktəbə şura məktəbi, demək çətindir**. Ayrı cür desək, pioner təşkilatı olmadan gənc nəslin kommunistcəsinə tərbiyələnməsinə, bağlanmaq olmaz. Buna bakmayaraq, bütün məktəblərimizin çokunda pioner işləri, məktəb işi kibi yok; məktəbin əsas tərbiyə proqramı məsələsi kibi yok, **"adi ictimai iş"** kibi yerinə yetirilir. Hətta müəllimlərin çoku bu məsələyə:

– "Bu məktəbə MOPR-OSOAVYAXIM təşkilatı yokdur. Pioner təşkilatı, necə ola bilər?" deyə həm yalnış, həm də zərərli yanaşırlar.

Bəzi, məktəblərdə isə pioner təşkilatının adı var. Libas, ayakkabı hazırlamağa, nə kədər desən "pioner" tapmaq olur. Ancaq Mərkəzi, Pionerlər Bürosu və Xalq Məarif Komisarlığı və komsomol təşkilatının tələb etdiyi, pioner məşğələlərinə və kənt pionerləri arasında aparılası işə gəldikdə, heç kəsin boynuna pionerlik sübut etmək olmayır. Xüsusən indiki mərhələ də sınfı mübarəzənin, kəsginləşdiyi bir halda; məktəblərdə pioner işinin əski qayda ilə, gəlişi gözəl getməsinə, dözmək olmaz. Məcburu təhsil məsələsilə, əlakədar olaraq, ibtidayi məktəb skamiyasında, zərərli adamlarında uşaqları otürür. Bizə pioner təşkilatının möhkəm kurmak, tərbiyə işlərimizi bu sahədə mərkəzləşdirməklə, proletar sınfından çıkmayan çocuqların, görüş istikamətini dəyişməli, sınfı mübarəzə yolu ilə, kommunizim tərbiyəsini genişləndirməyi bacarmalıyık.

Məktəblər, pioner işini sağlamlaşdırmaq üçün konkret plana, malik olmalı. "Ümumiyyətlə, yeri gəldikcə kuru rəhbərlikdən əl **çəkməli.** Pioner təşkilatının önündə duran, canlı məsələləri, yerli şərayit ilə bağlayaraq, canlandırmalıdır. Kommunizim tərbiyəsinin, ilk kökü olan (şübhəsiz məktəbdə) pioner dəstələri möhkəm olduqca baş tərbiyə məsələlərini buna əsaslanaraq daha asandır.

## Mevhumat əleyhinə mübarizə, kommunizim tərbiyəsi uğrunda mübarəzədir

Bu barədə məsələ koyanda, bəzi yoldaşlar xoruzlanarak:

"Kimin çoxdan məhv olduğunu" "uşaqlar arasında mevhumat deyilən bir şey olmadığını" "belə iş hazırlamaq, oğrunun yadına daş salmaq" olduğunu iddia edirlər.

Belə SAĞ ayağından aksayan, müəllimlərimiz; yok dəyildir. Keçən il ki, **Şamxor** hadisəsi (Bitdili İmam fırıldağı) göstərdi ki, biz, din əleyhinə mübarəzə aparmaqda və təbliğatda çok geridəyik. Gənc nəslin iliyinə qədər işləmiş, köhnə verdişləri çıkarmaq əvəzinə sınfı mübarizənin yeni vərdişlərini koymağı, az iş bilmişik. Məktəblərdə mübariz allahsızlar ittifakını təşkil edib, möhkəmlətmək komsomolun rəhbərliyi ilə bu ittifakın işini ata analar arasında da genişləndirmək ən vacib kommunizm tərbiyəsinin zəruri bir hadisəsidir. Çocukların; gündəlik təbiyi elmlərə ayid okuduğu, dərsləri, biz din və mevhumat əleyhinə apardığımız təbliğat ilə bağlamalıyıq. Şübhəsiz ki, din və mevhumatın sınıflar mübarəzəsindəki rolunu çocuklara anlatmadan keçmək doğru dəyil.

Şübhəsiz ki, din və mevhumatın sınfı mübarəzəsindəki rolunu, çocuklara anlatmadan geçmək olmaz səthidə olsa:

- **"Din cəmiyyətin tiryakıdır!"**
- **"Din sınfı mübarizə silahıdır!"**

## İnternasional tərbiyə uğrunda mübarəzəni kəskinləşdirməli

Ziyalılarımızın çokusu internasional tərbiyəni rus, yaxud rus türk məktəbləri arasındakı əlakədən ibarət bilirlər.

İldə bir, iki dəfə olarak məktəblər internasional ə l a q ə gecəsi düzəlir. Burada hər kəs öz dilində çıkış və təbrik edir. Şeyir okuyur, oynayır, sonra dağılırlar. Halbuki, bu məsələ üzdən və mexaniki sürətdə aparılır. **Lenin internasional tərbiyəsi** heç vakt bununla kifayətlənə bilməz. Bizcə, internasional tərbiyə məsələsi, altında, işçi və əməkçi çocukların fikrini iradəsini kapitalistlər, istismarçılar əleyhinə birlikdə mübarəzə, sınfı kardaşlık münasabatı açılmasından ibarət olmalıdır. İbtidai məktəbdə çocuklardan millət fərki düşüncəsini silmək, köhnədən kalmış belə təsəvvürlərin əvəzinə sınfı mübarəzədə açılışdırmak, işçi və əməkçi balalarını kollektiv mübarəzəyə alışdırmak, lazımdır.





**Bu işi, təkcə ayrı-ayrı məktəblər arasında "konaklık" əlakəsi ilə aparmaq olmaz.** Lakın məktəbləri tamamilə birləşdirməli **(Gəncə və bəzi başka rayonlar etdiyi kibi)** çocukların istər tədris, istər tərbiyə, təcrübə, fiziki zəhmət prosesində kollektiv işləməsinə vəsait yaratmalıdır. Uzaq kəntlərdə isə internasional tərbiyə verdişlərinə dikkəti artık verməli, bu hakda maksimum ədəbiyyatdan istifadə etməli.... Ekuskursiyalar vasitəsilə başka məktəblər ilə əlakə bağlamalıdır.

**İnternasional tərbiyə, məsələsinin düzgün kurulması, məktəbdə kommunizm tərbiyəsinin möhkəmlənməsini təmin edən şərtlərdəndir.** Kommunizm tərbiyəsini bütün bu canlı məsələləri ilə məktəb pioner təşkilatı, çocuk kollektivlərinə aktiv, sistemli; planlı, məksədli təsirdə bulunmalıdır.

Xüsusən, rayon pioner təşkilatlarının kommunizim tərbiyəsini doğru kuran və bu sahədə, dəyərli işlər görmüş, məktəb və pioner dəstələrinin təcrübəsini öyrənib ətrafa yaymalı. Yarış və zərbəçilik yolu ilə aktiv komsomolçu müəllimləri, bu işə, çəkməli; pioner təşkilatları arasında Mərkəzi Komitənin, **məktəbin yeni kuruluşu hakkındakı kərarlarının** icrasına, dair yarış təşkil etməli və nümunə, iş aparan pionerlər dəstələri mükafatlandırılmalıdır.

*Pioner işçisi. 1931. noyabr-dekabr. №13-14. S.9-11*

## 1932
## Marksizm-Leninizm teoryasını çok milyonlu komsomol kütlələrinə

("Gənc bolşevik" Azər. LKGİ.M və B komitələri orqanı aylıq məcmuə № 7-8-9-10-12 1931, 1932-ci il)

Sosyalizm quruluşu inkişafı və bütün dünya sınfı mübarizə cəbhəsində böyük tarixi əhəmiyyəti olan firqəmizin 17-ci konfransı Lenin komsomolu qarşısında mühüm siyası təsərrüfat vəzifələri qoyur: 2-ci 5 illikdə ümumiyyətə sınıfların və sınfı təzadı doğuran səbəblərin təmamilə ləğvi, iqtisadiyyatda və insanların şüurundan

köhnə həyat və xususiyyətçilik qalıqlarının məhv edilməsi, bütün xalq təsərrüfatının şura maşın quruluşu əsasında texniki dekonstruksiyası və 4-cü son qəti ildə kömür, metal maşın inşaatı və sağlam nəqliyyat, nəft, pambıq uğurunda qəti mübarizə... qızıl bayraqlı Lenin komsomolu firqənin rəhbərliyi altında bütün qüvvələrini, yukarıdakı məsələlərin müvəffəqiyyətlə həllinə çevirmişdir. Zərbəçilik və yarışın təşəbbüsçüsü olan komsomol indi təsərrüfat hesabı briqadaları texnikaya hücum, texniki təhsil şəbəkəsi, qarşılıqlı plan, götürə iş üsulu, simasızlıq və bərabərçilik ilə mübarizə dəstələri təşkil edir. Komsomolçuların praktiki təşkilat təcrübələri genişlənmişdir.

Azərbaycan komsomolu AK(b) F.M və B Komitələri düzgün Leninçi rəhbərliyi altında neft pambıq planı uğurunda mübarizədə günü gündən artır möhkəmləşir bacarığını yüksəldir. Bu tarixi inqilabı mübarizə yolunda komsomol hələ Marks-Lenin teoryası ilə lazımınca silahlanmamış "nəzəri bilik sahəsində artıq dərəcədə geridə qalır. Buna görə də nəzəri bilik məsələsinə daha artıq əhəmiyyət verilməlidir" **(Postışev) çünkü yalnız "teorya təcrübəçilərə anlayış qüvvəsi, perspektiv aydınlığı, qalibiyyətimizə etimad verir" (Stalin).**

Lenin komsomolunun marksizm-leninizm teoryası ilə silahlanması zərurəti diyər tərəfdən onun üçün kəsginləşir ki, ittifaqımıza minlərlə yeniyetmə proletar və kolxozçu gənc gəlir. Onların yenidən tərbiyələndirilməsi vəzifəsi, sıralarımızda möhkəm proletar dünya görüşünün yayılması, ayrı-ayrı komsomolçuların yüksək bilik səviyyəsi mühüm şərtlərdəndir.

Bu işin ən bacarıqlı təşviqatçı və təşkilatçılarından biri də mətbuatımızdır. Bizdə **"Gənc bolşevik"** jurnalı gənclərin marksiz-leninizm tərbiyəsi ilə silahlanması uğurunda mübariz bir orqan olmalıdır.

Jurnal bu məsələni nə cür qoyur?

**"... Komsomolun** mədəni məişət, **təhlil, ictimai tərbiyə... musiqi, teatro məsələləri ilə əlaqədar olması məcmüəmizi üzvi surətdə bu sahələr ilə bağlayır".** Aydındır, jurnalın fikrində





"təhsil, ictimai tərbiyə məsələsi" komsomol üçün əsas yok, "komsomol ilə ancaq əlaqədar olan" bir məsələdir.

Halbuki komsomolun baş vəzifəsi – Lenin firqəsinə yararlı gənclər tərbiyə edib, yetişdirməkdən ibarətdir. Bütün başqa vəzifələr bu mərkəzi məsələyə tabedir və bunun ətrafında tutur lar. Jurnal, komsomolun 5 illik plan, sənaye maliyyə planı uğurunda, sınıf mübarizəsi cəbhəsindəki aktivliyini təhsil və tərbiyə işlərindən ayırır, bir-birinə qarşı qoyur.

Jurnal Stalin yoldaşın nəzəri cəbhəmizi lazımı bolşevik yüksəkliyinə qaldıran və bütün proletar gəncliyinin diqqətini səfərbərliyə alan "Proletarskaya revolyusiya" jurnalına məktubunu çap etməmiş və bu mühüm məsələ ətrafında geniş leninçi gənclər kütləsinin diqqətini səfərbərliyə almaqda zəiflik göstərmişdir. Jurnal komsomol proletar yazıçıları cəmiyyəti arasında gedən uzun ədəbi münaqişələri və bunun nəticəsini də əks etdirməmiş və yalnız kiçik bir məqalə ilə kifayətlənmişdir.

Bu yazıçıları sistematik surətdə jurnalda çalışdırmalı, və bu vasitə ilə jurnalın ədəbiyyat şöbəsini, komsomolun yeni vəzifələri yüksəkliyinə qaldırmalıdır.

Jurnal xüsusən ədəbiyyat şöbəsində burakdığı materiallara çok passiv və məsuliyyətsiz yanaşır. Gələn materiallar cəsarətlə demək olar ki, olduğu kibi dərc olunur. Heç bir qeydə tutulmur. "Qaçqınlar" hekayəsi (№ 6-7) işçi üsyanını metalizikcəsinə təbii hadisələrlə izah edir: "Nə üçün insanlar öz taleylərini vuruşmalarda arayırlar...". Bir neçə belə suallar ilə okucularını cəlb etmək istəyən yazıçı erməni müsəlman milli qırqınlarının sınfı mahiyyətini anlamadığından aça bilmir. **"Qara şəhərin yürəyi"** oçerqidə abstraqsya və sxematizm ilə doludur. **"Allahsız şairin üsyanı"** isə bütün ziddiyyət və mübarizələrin kökünü dinə bağlayır. "Dindir səbəb milyonlarca kəsik başlara...

İnsanları hükukca çok qismə ayırmış..."

Başqa yazılarda bu kimi səhvlərdən azad dəyildir. Bu parçaların sistematik olaraq, tənqidi və yazıçıların tərbiyəsi vəzifəsi jurnalın öz öhdəsinə düşür. Bunu təşkil etməlidir.

Jurnal komsomol yazıçıları dərnəyi üzərində təşkilatçılıq rolunu gücləndirməli, zərbəçilər üzərində çalışmalı, konsultasiya, müsahibə, sual-cavab səhifələri açmalı, öz işlərini yeni vəzifələr əsasında təmamilə yenidən qurmalıdır. Bu yenidən qurma işi jurnalın qarşısında bir çok konkret vəzifələr qoyur:

1) Jurnalın planına yenidən bakmalı, bu planda ağırlıq mərkəzini komsomolun marksizm-leninizm tərbiyəsi, nəzəri təhsil məsələlərinə salmalı.

2) Firqə və komsomol tarixi səhifələrini gücləndirməli, buraya hazırlıqlı yoldaşlar cəlb etməli, fəlsəfə şöbəsini qüvvəli kadrodan ödəməli, marksizm klassiklərindən müntəzəm halda nümunələr çap etməli.

3) Siyasi təhsil işlərində yerlərin təcrübələrini öyrənməli, təcrübə mübadiləsi təşkil etməli, metodik məktublar, göstərişlər burakmalı.

4) Jurnalın "texniki" səbəblərdən doğan gecikmə və aksamasını aradan qaldırmalı, əlaqədar təşkilatlar ilə maddi ehtiyac məsələsini qəfl həll etməli, dəyərli materialların müzakirəsi hesabına jurnalın həcmini böyütməli.

5) Gənclərimiz arasında yabancı ideoloji, praktikada sağ və "sol" əyintilər əks inqilabçı trotsqizm və çürük liberalizm ilə şiddətli mübarizə üçün çap olunmuş komsomol kitablarını retsenziyalar verməli şəxsi tənqidi qüvvətləndirməli.

6) Gənclərin mədəni məişət və ailə məsələlərinə dair nəzəri və bədii yazılar burakmalı. Bu cəbhədə olan yaramaz meyillərlə (işki, ailə pozğunluğu....) qəti mübarizə təşkil etməlidir. Yazıçılar ilə bərabər okuçular arasında iş aparmalı, anket paylamalı, işçi gənclərin təkliflərini yığıb geniş istifadə etməli.

"Gənc bolşevik" jurnalı üzünü komsomolun zərbəli məsələlərinə – neft, pambıq, nəqliyyat və marksizm-leninizm tərbiyəsi çevirmək üçün yukarıdakı konkret tədbirlər tezliklə işini yenidən kurmalıdır.

**Mir Cəlal, İ.Mirzə.**
*Kommunist. 1932. 3 iyul*





## Gənc okucuları təşkil edəlim!

Kapitalist ölkələrini bürüyən iqtisadi böhran xüsusən işçi gənclərin həyat şəraitinə dəhşətli zərbələr vurur. Onları aclık səfillik, işsizlik, cəngəlində əzir. İşçi gənclərin həyatının günü - gündən xarablaşması kapitalist ölkəsinin hamısında möhkəm və ümumi xarakter daşımaqdadır. Kapitalizm ən yüksək "nəçasısı" və inkişaf etmiş yurdu olan Şimalı Amerikada 4 milyona qədər işsiz gənclər heç bir yerdən kömək almır. Almanyada işsiz gənclərin sayı son 4 il içərisində 4 dəfə artaraq milyon yarıma çatmışdır. Berlin işçi gənclərinin üçdə bir hissəsi işsizdir.

Məktəbi bitirənlər biliklərini işlətməyə yer tapmır ali məktəbdən çıkmış istehsalat, kənd təsərrüfat, tibb mütəxəssisləri ən az maaş ilə belə iş tapmır, təkcə Almanyada 4 yüz minə qədər texnik uzun müddətdirki, işsizdirlər. İngiltərədə 4 min işsiz gənc vardır. Başqa kapitalist ölkələrində gənclərin vəziyyəti belədir. Bütün bu fəlakət və faciyə təhsilindən gənclər bir şəhərdən başqasına qaçmaq "həyat və səadət" aramaq üçün dincəlmək bilmirlər. Burjua polis ilə onlara qarşı sınfı tədbirlərini bütün şiddətli və tətbiq edir. Almanyada belələrinə qarşı hökumətin xüsusi qərarı vardırki 25 yaşa qədər məcburi əməklə işlədilsinlər.

Bütün bunlara görədir ki, kapitalizm sistemində işçi gənclərin gələcəyi yokdur. Təsadüfi dəyil ki, Almanya, İngiltərə, Amerikada intiharların sayı artır, əkləq pozqunluğu dərinləşir.

Gənclər arasında iradə süslüyü, prespektiv yokluğu, imidsizlik hər gün artır. İndi bu fakt bütün kəskinliyi ilə hamıya aydın olmaqdadır. Kapital ləkeyləri işçi gənclər gözünə çəkdikləri pərdələr, maskalar, daha sürətlə tarixin, ictimai inkişafı gedişi ilə yırtılır.

Halbuki, şuralar ittifaqı proletar hökmdarlığı, sosyalizm sistemində gənclərin moqeyi bambaşqadır. **"5 illik planın həyata keçirilməsi şuralar ittifaqında gənclər əməyinin xarakterini onun ən artıq istehsal və nəzəri təhsil işinə tabe edilməsinə doğru əsasən dəyişdi. Biz gənclər üçün istehsal əməyi ilə nəzəri təhsilin birləşdirilməsi (soçeqanıye) vəzifəsini əsasən həll etmişdir"**

**(Kosereyev).** Bizim gənclik işsizlik, səfalət, aclıq, nə olduğunu bilmir. Yalnız FZŞ məktəblərimizdə milyon yarım texnikumlarda 800 min, ali məktəblərdə yarım milyondan artıq adam okuyur ki, əvvəlkilərin hamısı sonuncusunun əksərini gənclər və həmdə işçi kolxozçu təşkil edir.

Hələ istehsalatda gənclərin faizi bizdə son dərəcə artmışdır. Bütün xalq təsərrüfatında çalışan 19 milyondan yukarı adamların 6 milyon yarımı (33 faiz) gənclərdir. Sənayedə bu faiz 43,3-dən artıqa qalkır. Sənayenin mühüm sahələrində işçi gənclərin əməyi həll edici movqe dutmaqdadır. Mədən sənayeində işçi gənclər 45.9 metoloji sənayeində 45, elektrə-texniki sənayeində 50,4 tokucu sənayeində 32,6 faiz təşkil edirlər. Bizdə istehsalatda məktəblərə darulfununlara almaq üçün işçi gənclər çatmır. Boy atan, gənişlənən sosializm nəhənkləri milyonlarla işçi və komandanlar tələb edir. Biz indi FZŞ cəlb etmək üçün çocuk tapmırıq, kolxozçu balalarını planlı surətdə bu məktəblərə cəlb edirik, bizdə Gənclər nəyinki, tərbiyə olunur **okuyur, öyrənir, hətta ən məsul postlarda okudur, öyrədir, qurur yaradıllar**. 1930-cı ildə 289500 ümumi mütəxəssizlərimizdən 35 min nəfəri gənclər idi. Keçən il 2500 müstəqil iş aparan elmi işçilərimiz var idi. Bizdə firqənin yakın köməkçisi sosyalizm cəmiyyətinin gənc qurucularını təşkil edən çok milyonlu Lenin komsomolu quruluşumuzun müxtəlif sahəli məktəblərinə proletar üzvü ziyalıların məktəbinə çevirmişdir. İşçi gənclər firqəmizin rəhbərliyi altında Lenin komsomolu sıralarında mübarizədə böyük, yaradıcılıq istedadını artırırlar.

Bütün bunlar aydın göstərirki, bizdə işçi gəncliyin tərbiyəsi üçün təmami ilə başqa yeni geniş və ancaq proletar diqtaturası şəraitində əldə edilə bilən və edilmiş şərait və imkanlar vardır. Kapitalist sistemində minlərlə talantlar, qalibiyyət və istedadlar öldürülür, çürüdülür, boğulur, məhv edilir. Bizdə qalibiyyətlə sosyalizm quran şuralar ittifaqında sosyalizm ölkəsində isə gənclərin talantları və istedadların inkişafı üçün dünyanın heç bir ölkəsində, tarixdə olmamış və burjua cəmiyyəti şəraitində ola bilməyəcək geniş hər tərəfli əhəmiyyətli imkanlar vardır. Bizdə gənclər öz yaradıcılıqlarını işçi sınıfı işi uğurunda mübarizədə inkişaf etdirməyə texnikaya sahib olmaq, elmləri əsaslı sürətdə öyrənməyə alışmışlar. Buna görədir ki, elmi adamları texnika komandanları təşviqatçılar, icraçılar sənətkarlar sırasında gənclər faizinin artdığı təəcübli deyil inkişafımızın qanunu zəruri meyvəsidir.





Proletar diktaturası bizim gəncliyə hər şeyi – inkişaf üçün lazım olan bütün azad şəraiti vermişdir. Şuralar İttifaqı gəncliyi, komsomol nəsli bu şərait imkanlardan, geniş istifadə əsasında tərbiyələndirilir.

Gəncliyin tərbiyəsini təkcə məktəb şəbəkəsi və ya istehsalat ocaqları vastəsi ilə mümkün sayanlar əlbətki yanılırlar. Xüsusən bizim gənclik, yaradıcılıq komsomol nəsli düşüncəli olaraq özünü tərbiyə etməyi bacarır o, həyatı hadisələrə dərin sınıfı göz ilə yanaşmağa, silahlanmağa, düzgün dərk etməyə mühakimə yürütməyə çalışmaqdadır. Kitaba, okumağa qarşı gəncliyin marağı artır. Proletar gəncliyinin mədəni səviyyəsinin son dərəcə yüksəlməsi proletar məzmunu, qiymətli tərbiyə edici kitaba olan ehtiyacı da artırır. İnqilabi, siyası, ictimai, bədii kitabları hamıdan çok okuyan gənclərdir.

Bir sözlə demək olar ki, proletar gəncliyinin kitaba olan ehtiyacı işçi sınıfının mədəni yaşayış səviyyəsinin yüksəlməsi ilə əlaqədar olaraq artır. Bu hal komsomol təşkilatı, nəşriyyat idarələri kütübxanalar, məktəblər yazıçılar təşkilatı və ümumən mədəni məarif müəssəsələri qarşısında gənc işçi okucularının təşkilini, ehtiyaclarının təşkilini, ehtiyaclarının öyrənilməsini, onlar ilə sıkı rabitə məsələsini bütün kəskinliyi ilə meydana qoyur.

Lakin təəssüflə deməliyik ki, bizdə bu məsələ prinsipli şəkildə heç bir təşkilat tərəfindən qoyulub həll edilməsinə başlanmamışdır.

Məktəblərdən başlayalım:

Ali məktəblər və texnikomların çokunda məktəb kütübxanaları vardır. Bu kütübxanalarda okucuların təşkili uğrunda qətiyyən iş görülmür, dərslərdən sonra bir nəfər kütübxananı açaraq bir neçə saat əyləşir, öz başına akın ilə kütübxanada olan kitabları

istifadəyə verir. Sonra bağlayaraq işinə gedir. Hətta tələbələrin sınıfdan kənar, artıq istirahət vaktlarında olaraq mənfəətli kitablar tədarük edilmir.

Bunun nəticəsində tələbələr dar sınıf divarları arasında qapılaraq dərsdən kənar müəllim tərəfindən tapşırılmayan kitablardan xəbərsiz qalırlar.

Bir kütübxana müdiri bu məsələyə belə yanaşır: "kitablardır qoyuruq, kim okumaq istəyirsə yenə qaytarır, daha biz ayrı nə edə bilərik...". Hələ ən böyük mərkəzi kütübxanalarda belə gənc işçi okucuların hesabatı aparılmamış heç bir kütübxana bu mühüm siyasi tərbiyəvi məsələyi öz qarşısına qoymamışdır. Kütübxanalarda öz başına akınla işləmək, okucuları kütübxananın vəziyyətinə tabe etmək adət olmuşdur. **Halbuki kütübxana öz işini okucuların ehtiyacı, tələbi üzrə qurmalıdır.** Təbiyi şeydir ki, gənclərin hesabın aparmayan ətrafındakı gənc okucuların ehtiyacını səviyyəsinə maraqlı bilməyən kütübxana onların ehtiyacının ödənməsi üçün dəxi heç bir iş görə bilməz. Təəccüblü deyil ki, 1930-cu ildə nəşriyyatın 5, 31-ci ildə 10 faizini gənclər və çocuklar ədəbiyyatı təşkil etdiyi halda, 1932-ci ildə bu faiz 4,6 enmişdir. Bu nədən iləri gəlir. Bununla nəticə çıkarmaq olarmı ki, gənc və çocuk okucuların sayı azalmaktadır. Əlbət ki, yok. Məsələ təmami ilə əksinədir. Gənclərin yüksələn mədəni səviyyəsi və artan tələbinə bakmayaraq nəşriyyat idarələri köhnə qaidə ilə öz xahişləri ilə bu tələbə yanaşırlar onlar gəncliyin bolşevik kitablarına olan ehtiyacını lazımınca hesaba almırlar. İşçi gənc okucuları təşkili işində jurnal redaksiyaları böyük işlər görə bilər. İmdiyə qədər biz bu idarələrin dəxi görkəmli bir iş görmədiklərini, yazıçıların təşkilində görülən tədbirlərin birini belə okucuların təşkili işinə sərf etməmişik. Okucuların təşkilində jurnal redaksiyaları sual vərəqələrini paylamaqdan başqa metod bilmir. Yerli komsomol özəkləri mədəni təşviqat bölmələrində bunun kibi okucuları tanıyıb təşkil etməyə xırda bir məsələ kibi bakırlar.





İndi yeni nəslin tərbiyəsi **"İqtisadiyyatdan və insanlar şurundan kapitalist qalıqlarını məhv etmək, bütün əməkçi əhalisinin düşüncəli sosyalizm qurucularina çevirmək"** probleminin praktiki içərisində qoyulması bizdən yüksək dəyərli tələbatının səviyyəsinə cavab verən bolşevik kitabları verməyi tələb edir. Biz bu tələbi ödəmək üçün əlimizdəki, qüvvələri yoklamalı, ölçməli, bütün okucu işçi gəncliyi hərəkətə gətirib onların təklif və tələblərini öyrənib ödəməliyik.

Nəşriyyat idarələrimiz yazıçılar təşkilatının qarşısında zavodlar tarixinin bolşevikcəsinə yazılması, vətəndaş müharibəsinin bədiyi göstərilməsi problemi durur. Lenin komsomolunun tarixi yazılır.

Bu məsələlərin müvəffəqiyyətlə kəsirsiz həll edilməsi üçün gənc işçi, komsomolçu okucuların təkliflərini toplamaq əsas şərtlərdəndir. Biz bilməliyik ki, hansı kitab daha gəncləri maraqlandırır. Hansı yazı texnikası daha inandırıcıdır. Gənə də əldə olan kitablarımız yazıçılarımız, klassiklərimiz, jurnallarımız haqqında nələr söyləyirlər. Bu hal bir tərəfdən kütübxanalarımızın köhnə zərərli kitablardan təmizlənməsinə kömək etmək, yazıçılarımız qarşısında bir çok konkret yeni mamentlər qoyan o biri tərəfdən isə bu sahədəki kəsirlərin tezliklə doldurulması üçün böyük bir hərəkət oyadır. Biz Lenin komsomolunun rəhbərliyi ilə kütübxanalar, məktəblər mədəni ocaqlar, ictimai təşkilatların köməyi ilə bu işi bolşevikcəsinə təşkil etməliyik.

Bu işin ağırlıq mərkəzini komsomol özəklərinə salmaq lazımdır. Yüngül suvari dəstələri vastəsilə biz müəssəsələrdəki, məktəbdəki, kütübxanları gənclər ilə apardığı işləri yoklayıb yenidən qurmalıyıq.

Hər bir kütübxanada gənclərin, komsomolçuların kitaba olan maraq və əlaqəsi ayrıca olaraq hesaba alınmalıdır. Böyük kütübxanalarda gənclər bölməsi yaratmalı, ayrıca işçilər vasitəsilə gənc işçi okucularla praktiki iş aparılmasına müvəffəq olmalıdır.

**"Gənc bolşevik"** jurnalında gənc okucular tribunası açmalı burada gənclərin əməli göstərişləri, tənqidi təhlili, çıkışları, kitab-

lar haqqındakı təklifləri sistematik surətdə çap edilməli, gənclərə ayid kitablara tənqidlər yazılmalıdır.

Şura yazıçılarının bir neçə xarakterli ədəbi əsərlərini kütləvi gənclər yığıncağında müzakirəyə qoyub geniş mülakimə açmalı, belə müzakirələri səhnə əsərləri üzərində tətbik etməməlidir.

Beləliklə gənc okucuların təşkili, onlar ilə praktiki iş aparılması məsələsini hər bir komsomol özəyinin kütübxana, qiraətxanasının yazıçılar təşkilatı nəşriyyat idarələri, mədəniyyət saraylarına proqram işi etməliyik, bunsuz inqilabçı gəncliyin ilk yüksək dəyərli kitaba olan **ehtiyacını təşkilatlı və müvəffəqiyyətli** ödəyə bilmərik, bunsuz yeniyetmə gənclərin vaktının ən zərurlu kitablar, problemlər ətrafında mərkəzləşdirib, zərərli, köhnə kitabları aradan qaldıra bilmərik, gənc işçi okucuların ehtiyacını ödəmək mədəni cəbhəmizin ən aktual və plan məsələsidir. Bu iş ilə əlaqədar olan təşkilatlar hərəkata gəlməlidir. Əməli tərbiyə başlamalıdır.

*Gənc işçi. 1932. 18 sentyabr. №216 (1276)*

## Məktəblərmizdə ədəbiyyat dərsləri haqqında

Mərkəzi Komitənin ibtidai və orta məktəblər haqqında 31-ci il 5 sentyabr tarixli qərarında deyilir ki, “Məktəblərdə təlim kafi həcimdə ümumi təhsil biliyi vermir və texniki və ali məktəblər üçün tam savadlı ilimlərin (fizika, kimya, ana dili, riyaziyyat, coğrafiya və sairə) əsasını yaxşı mənimsəyən adamlar hazırlanması məsələsini qeyri kafi həll edir”.

Bu qərar məktəblərimizdə əsaslı dönüş və dəyişiklik yaratdı. Lakin buna baxmayaraq məktəbin “Əsas noksanı” axıra qədər hələ aradan qaldırılmamışdır. Şura məktəbləri milyonlarla zəhmətkəşləri kommunistcəsinə tərbiyələndirən, elmi sosyalizmin həqiqi sağlam qurucu qəhrəmanlarını yetişdirən Marksizm-Leninizm nəzəri biliyi ilə kütlələri silahlandıran ən qüvvətli bir mərkəz və firqənin əlində kəsərli bir silahdır. Sınıfı mübarizənin kəsginləşməsi sosyalizmin qəti qalibiyyəti şəraitində karşımıza çıkan çətinliklər bizdən daha artıq sınfı şüura malik davamlı mübarizlər hazırlamağı tələb edir. İndiki təsərrüfat və mədəni çətinliklərimiz söz yok ki, ikinci 5 illikdə xeyli azalacaqdır. Lakin bu heç də çətinliklərin tamami ilə aradan kalkması demək deyildir. İkinci 5 illiyin həyata keçirilmə prosesi çətin ağır və şərəfli bir iş prosesidir. Unutmamalıdır ki, ikinci 5 illikdə nəinki sınıfı mübarizə zəifləşməli. Bəlki ayrı-ayrı sahələrdə və müəyyən momentlərdə daha da kəskinləşəcəkdir ki, buda bizim qarşımıza sağlam kadro hazırlamaq məsələsini kəskin bir şəkildə qoyur. Marks, Lenin nəzəriyyəsi bizə öyrədir ki, sınıflar ancaq kəskin sınıfı mübarəzə nəticəsində ortadan çıka bilərlər. Biz ikinci 5 illikdə əsas etibarı ilə sınıfsız cəmiyyət quracayız. Demək, ikinci 5 illikdən sınfı mübarəzənin kəskinləşməsi labüddür. Bu sınfi mübarizə ideoloji cəbhədə də öz inikasını tapacaqdır. Sınfı düşman ideoloji cəbhədə də kəskin bir şəkildə çıkışda bulunmakdan əl çəkməyəcəkdir. Bundan dolayı ikinci 5 illikdə məktəblərimizin və müəllimlərimizin boynuna düşən vəzifələr daha böyük və məsuliyyətlidir. İkinci 5 illikdə daha da genişlənən xalq təsərrüfatımızın bütün sahələrini kafi həcimdə hazırlığa malik olan ixtisaslı kadrolar və ictimai mədəni ziyalılarla təmin etmək və Marks-Lenin və Stalin nəzəriyyəsi əsasında sınfı düşman çıkışlarına atəş açmaq məktəblərimizin əsas və baş məsələsidir.

İstər orta və istərsə ali məktəblərimizdə ixtisaslaşma ilə əlaqədar olaraq politexnizm prinsipini sadələşdirən və onu vulqarize edənlər az deyildir. Belələrinə görə birisi lisancılıqı özünə əsas sənət olaraq seçirsə başka elimləri, (ədəbiyyat, fizika, kimya və sairə) öyrənməyə ehtiyacı yokdur. O ancaq öz ixtisası dalınca getməlidir. Əlbətdə bu yalnış və zərərli fikirdir. Bu məktəblərimizdə ixtisaslaşma və politexnizm prinsipini təhrif etməkdən başqa bir şey deyildir. Lenin yoldaş deyir ki: “Politexnizm prinsipi hər şeyi öyrənməyi tələb etmir. Lakin ümumiyyətlə hazırkı sənayein əsaslarını öyrənməyi tələb edir”.

Beləliklə, biz hər kəsdən bir tərəfdən müəyyən konkret elmi sahəni tamamilə mənimsəməyi, ixtisas almağı və o biri tərəfdən bütün elmlərin əsası ilə tanış olmağı “nəzəriyyə və praktikada is-

tehsalatın əsas sahələrini" öyrənməyi tələb edirik. Politexnizmin əsas prinsipi və dialektiki anlayışı orasındadır ki, o, bir tərəfdən tələbəni ümumi nəzəri bilik almağa o biri tərəfdən müəyyən bir sahəni tamamilə mənimsəməyə və bu sahədə yaxşı mütəxəssis olmağa sevq edir. Buna görədir ki, biz yalnız birtərəfli ixtisas almaq və yarımçılıq adamlar yetişdirməklə mübarizə etməliyik.

Mərkəzi Komitənin 25 avqust 32-ci il tarixli qərarında məktəblərimizdə hələ də "əsas nöqsan"ın aradan kaldırılmaması qeyd edilir. Bunun mühüm səbəbləri proqramların nöqsanları (xüsusi ilə məktəblərin ikinci konsentri 5-6-7-ci qruplar üçün) məktəblərin metodunun qeyri kafiliyi Maarif Komsarlıqları onların yerli orqanlarının metodik rəhbərliyinin zəifliyi məktəblərdə intizamın zəifliyi və bəzən heç bir intizamın olmamasıdır".

Aşağı məktəblərdən tutmuş orta və ali məktəblərə qədər ana dili və ədəbiyyat dərslərinin nə qədər böyük rol oynadığı hamıya bəllidir. Şagird və tələbələrin ümum inkişafını sistemləşdirmək obyektiv varlıqdakı (təbiyyət və cəmiyyətdəki), ziddiyyətlərin düzgün idrakını təşkil etmək və şüurun inkişafını müntəzəm və proqressiv yollara salmaq işində ədəbiyyat və ana dili dərsləri fövqaladə əhəmiyyətə malikdir. Həmçinin ədəbiyyat kəskin sınfı mübarizə aləti olmaq həsəbilə də yüksək mövqi dutur. Milyonlarla işçi və əməkçi əhalinin sosyalizm quruluşu uğurunda şüurlu və düşüncəli olaraq mübarizəyə çəkmək, şuralar ittifaqının gənc nəsilini bəşəriyyətin istismarına qarşı kapitalizm hakimiyyəti əleyhinə dünya proletaryatının azadlığı və komunizm ideyalarının yayılması və həyata tətbiqi uğrunda mübarizə üçün tərbiyələndirmək işində ədəbiyyat dərsləri və ədəbiyyat müəllimlərimizin üzərinə fəxri vəzifələr düşür. Buna bakmayaraq, Azərbaycanda xüsusən orta məktəblərdə dil ədəbiyyat dərsləri olduqca bərbad haldadır. Hər şeydən əvvəl bu dərslərə ayıd proqramlar kafi qədər elmi və nəzəri əsaslara görə tərtib edilmir. Nəzəri cəhətcə və mərkəzi komitənin qərarındakı, tələbata cavab verici bir mahiyyətdən çok geridə olurlar. Bu proqramlar çok vakt təsadüfi ədəbiyyat ilə əlaqəsi olmayan adamlar tərəfindən, şəxsi istəyə görə tərtib edilir. Ana dili və ədəbiyyat dərslərinə ayıd olan tədris kitablarımız da çok nöqsanlıdır. Qeyd etmək lazımdır ki, tədris kitablarımız bəzən mərkəzi komitə qərarında göstərildiyi kibi, həddindən artıq materyallarla doldurulur. Məsələn, Azərnəşrin 6-cı tədris ili üçün bırakdığı "Ədəbiyyatdan iş kitabı"nı alalım: əvvəla bu kitab 6-cı qrup tələbələri üçün çok ağırdır. Burada "klassiklərə münasibatımız", "milli mədəniyyət haqqında" və sair bu kibi böyük və çətin problemlər qoyulmuşdur ki, bunları 6-cı qrup tələbələri heç zaman mənimsəyə bilməzlər. Əksinə bu kibi problemlərin həllinə girişmək 6-cı qrup tələbəsinin hələ lazımı qədər inkişaf etməmiş beynini yorar və kütləşdirər. Kitab yukarıda ki, nəzəri problemlərə müvafiq bədii ədəbiyyat materiyalı ilə yüklənmişdir. Açıq-açığına demək lazımdır ki, kitabda qoyulmuş bəzi çok məsul və ağır problemləri nəinki, tələbələr hətta müəllimlərimizin çokusu belə düzgün işləyə bilməzlər, məktəblərimizdə poyetika dərsləri də bərbad bir haldadır. Bu sahədə bütün məktəblərimizə ayıd bir dənə də tələbata cavab verə biləcək və elmi-pedaqoji əsaslar üzrə qurulmuş dərs kitabımız yokdur. 24-ci ildə tərtib edilmiş poyetika kitabı (ədəbiyyat dərsləri) isə tamami ilə marksizmə zidd fikirlərlə dolu olması və tamami ilə düşman cəbhədən yazılmasına bakmayaraq hələdə bir çok müəllimlərin əlindən düşməyir. Bu kitab əsasında "Ədəbiyyat insanların bədii zevqini təmin edən bir vasitə ictimai həyatın aynası" və sairədir diyə tərif edilir. Ədəbiyyat kitablarına doldurulan bədii ədəbiyyat materyallarının (şeir, hekayə, oçerk və sairə) tələbəni yormaması üçün maraqlı olmasına obrazlılığına və sairəyə də az fikir verilir.

Halbuki, ədəbiyyat dərslərinin müntəzəm getməsi və nəticəli olması üçün bunun böyük əhəmiyyəti vardır. Bəzi məktəblərimizdə ana dili və ədəbiyyat dərslərinə heç bir əhəmiyyət verilmir. Ümumiyyətlə orta məktəb və texnikomlarda (Xüsusən sənaye texnikumlarında) ədəbiyyat və lisan dərslərinə son dərəcə az əhəmiyyət verilir. Belə məktəblərdə okuyan tələbələr güman edirlər ki, "dil və ədəbiyyat dərsləri onların ixtisası deyil onsuzda ötüşə bilərlər". Bu nöqteyi-nəzərlə dərsə yanaşmaq nəticəsində ədəbiyyat dərslərinin keyfiyyəti alçalır müəllimin ehtiramı olmur. Dil və

ədəbiyyat dərslərinin əsas məqsədi qıraqda qalır. Və tələbələr bu cəhətdən məktəbi savadsız qurtarırlar. Heç təsadüfi deyil ki, texniki məktəblərimizi bitirən çok işçilərimiz 5 kəlmə yazanda 3 kəlmə səhv bırakırlar. Öz ixtisasları dairəsində ki, biliklərini başqalarına verə və yaya bilmirlər. Bu texnikumlarda "Ədəbiyyat dərsi əsas deyil" diyə tələbənin bu cəhətdən olan biliyi daha doğrusu biliksizliyi kəskin qiymətləndirilmir. Bir sınıfdan o biri sınıfa keçirkən bu cəhətdən olan kəsir istənilən dərəcədə yer dutmur.

Halbuki, Mərkəzi Komitənin qərarında deyilir: **"ana dili proqramları həqiqətən müntəzəm və müəyyən bilik verilməsi işini təmin etməli, düzgün məktub okumaq, şıfahı nitq biliyini əldə etmək məktəblərin dərs praktikasında müstəqil yazı dərsləri, sərf nəhv təhlili və sairə tətbiq edərək, bu işi istər sınıfda, istərsə də evdə aparmalıdır".**

Bu direktivi reyalizə etmək üçün, məktəb işlərimizi təmamilə yenidən qurmalıyıq. İnkar etmək olmaz ki, imdiyə qədər ədəbiyyat dərslərimizdə böyük kəsirlər olmuşdur. Bu dərslər ictimaiyyat ilə əlaqədar edilməmişdir. Bu dərslərə aid çocuqlara verilən materyallar təsadifi xarakter daşımış, sosyalizm quruluşu materyalları bu dərslər aspektivdə verilməmişdir. Vəziyyətin belə olmasında ədəbiyyat müəllimləri də az rol oynamır. Onlar öz biliklərini imdiki tələbat yüksəkliyə qaldıra bilməyirlər. Çok zaman ərəb və fars terminləri çok əzbərləmək, şairlərin bioqrafiyasını sinədən danışmaq, kibi şeyləri əsas dutaraq, dərslərin sosyalizm quruluşu cəbhəsindəki rolunu unudur, marksizm metodologiyasından qıraqda qalırlar. "Məktəbin ölməsi" teoryasını iləri atan və dərs planları, proqramın qiymətini heçə endirən "sol" vulqarçılar eyn zamanda tərbiyə işlərində müəllimin rolunu əksildib və qiymətini itirirlər.

Ədəbiyyat və ana dili dərslərində şübhəsiz ki, müəllimin rolu daha böyükdür. Lakin qeyd etmək lazımdır ki, bu cəbhədə çalışan müəllimlərimizin çoku nəzəri və pedaqoji cəhətdən kafi hazırlıqlı dəyillər. Bunlar içərisində nəinki ədəbiyyat tariximizi marqksizcəsinə bilən, hətta bu günkü ədəbiyyatımızla belə kafi dərəcədə tanış olmayanlar vardır.





Bəzi müəllimlər **"mənimki dil dərsidir, siyasətlə nə işim var"** diyə dil dərsini siyasətdən ayırmağa çalışır. Bəziləri isə Sabiri proletar şairi hesab edir. Bir tələbənin:

–Süleyman Rüstəmin səhvi yokdurmu?

Sualına müəllim belə cavab verir:

**–"Nə işin var ay bala, deyirlər Süleyman Rüstəm proletar şairidir, səndə elə deməlisən vəssalam".**

Belə faktlar olduqca çokdur. Halbuki, ədəbiyyat müəllimi şura ədəbiyyatı və marksizm tənqidi üçün, kadro hazırlayan mərkəzi simadır.

Bunun üçün ədəbiyyat müəllimləri ilə şura yazıçıları təşkilatının əlaqəsini müntəzəm təşkil etməklə, ədəbiyyat müəllimləri y a z ı ç ı l a r təşkilatı ətrafına toplanmalıdırlar. Onlar çalışdıqları cəbhədə öz fəaliyyətlərini artırmaq cəbhədə bu günkü ədəbiyyat hərəkatımızla sıkı bağlanmalıdırlar.

Mərkəzi Komitənin qərarında deyilir ki, "ÜİK(b)F MK ittifaq cümhuriyyətlərini Xalq Məarif Komissarlıqlarını şura və firqə orqanlarını məcbur edir ki, müəllimləri şuralar ittifaqı gənc nəsilini öyrətmək və tərbiyə etmək kibi məsuliyyətli və fəxri vəzifəni yerinə yetirməkdə hər hankı lazımı şəraiti təmin etsinlər. Müəllimin məfkurə siyasi səviyyəsini ümumi məlumatını və pedaqoji ustalığını yüksəltmək üçün müntəzəm surətdə iş aparmaq" işini yoluna qoysunlar.

Məktəblərdə məktəb müdirləri yerli komitələr müəllimin ixtisasının pedaqoji biliyinin artmasına artıq dərəcədə əhəmiyyət verməlidirlər. Müəllimlər üçün xüsusi elmi mühazirə və disputlar təşkil etməklə bərabər "Marksizm-Leninizm" təhsil dərnəkləri yaratmalıdır. Qeyd edilməlidir ki, ədəbiyyat müəllimləri seçilişində və təyini işində məarif komissarlıqları və rayon məarif şöbələri tərəfindən işə çok məsuliyyətsizliklə yanaşılır. Bəzən riyaziyat, ictimaiyyat, coğrafiya, ixtisası müəllimlərinə ədəbiyyat dərsləri verilir. Ədəbiyyat müəllimləri arasında ədəbiyyata heç bir əlaqəsi olmayan adamlar çokdur. Müəllimi nüfuzdan salan və ədəbiyyat

dərslərinin qiymətini heçə əndirən bu kibi adamlar tezliklə ədəbiyyat dərslərindən qovulmalıdır.

Ədəbiyyat dərslərinin sağlamlaşdırılması üçün, məktəblərimizdə (texnikumlarda ana dili kabinələri təşkil etmək lazımdır). Ədəbiyyat tariximiz nəzariyyat, bu günkü ədəbiyyat hərəkatı praktikası və sosyalizm ədəbiyyatının qalibiyyətləri ədəbiyyat dərslərimizə əks edilməlidir. Hər bir tələbə nəzəriyyat cəbhəsində aparılan sınfı mübarizəni bilməklə kifayətlənməyib, bu mübarizədə əməli olaraq, iştirak etməyə çalışmalıdır. Ədəbiyyat dərslərini başqa ictimai elmlərlə sıkı surətdə bağlamalıdır. Dərsliklərimiz yeni sosyalizm faktları ilə doldurulmalı, sosyalizm quruluşu və sınfı mübarizə cəbhəmizin bütün qələbələri müntəzəm tədrici və sistematik surətdə ədəbiyyat dərsləri vastəsilə tələbələrə verilməlidir. Bu dərslər tələbələrdə bir aktivlik, mübarizlik ruhı oyatmalıdır.

**Tezliklə orta məktəblərimiz üçün bir poyetika kitabı tərtib** etməli, ədəbiyyat proqramlarına başdan-başa Mərkəzi Komitənin 25 avqust tarixli qərarı nöqtey-nəzəri ilə yenidən bakmalı, ədəbiyyat dərsləri üzərində məarif orqanlarının sistematik, kontrol və rəhbərliklərini artırmalı, ədəbiyyat dərslikləri üzrə, tez-tez və dərin nəzəri əsaslara malik retsenziyalar yazılmalı, bütün tələbə kütləsi hazırkı ədəbiyyatımızın müvəffəqiyyətləri və bu hərəkatdakı sınfı mübarizə cəbhəsinə sevq edilməli, Mərkəzi Komitənin ədəbiyyat və incə sənət təşkilatlarının yenidən qurulması haqqındakı qərar bu dərslərdə geniş izahat və təhlil edilməklə ədəbi-siyasi cəbhədəki əyintilərə qarşı ciddi atəş açılmalıdır.

**İ.Mirzə, Mir Cəlal.**

*Kommunist. 1932. 22 sentyabr. №223(3341)*

## Kolxozların təchizində plansızlıq

Bərdə rayon kooperativ idarəsi pambıqçıları planlı surətdə təchiz etmir. Gələn təchizat malının haraya nə şəkildə paylanacağı qabaqcadan mülahizə və ölçüdən keçirilmir! Şəhər, kənd kooperativliyinə paylanmır. Kolxoz sədrləri dəxi siyahıları vaktında





düzəldib vermədiklərindən şəkər vaktı-vaktında verilmir. Xüsusən rayon mərkəzindən uzaq və Kür çayı yaxasında olan kəndlər təchizat dairəsindən kənarda qalırlar. Aztorq Bakıdan bir baş Bərdə Malbinəsi, Tər-Tər kimi yakın yerlərə mal göndərir. Ancaq Əyricə Xangər kəndi və sair bu kimi uzaq yerlərə qətiyyən mal burakılmır. Rayon firqə komitəsinin planlı təchizat haqqındakı qərarını Rayittifaq pozur. Qiymətlərdə də pozğunluqlar baş verməkdədir. Qaloşun çütu Qaradağlıda 9, Borsunluda 12, Evoğluda isə 11 manata satılır. Kolxoz sədrləri bəzən kolxozçuların haqlı tələb və ehtiyaclarına göz yumurlar. XKS-nin kolxozlara müntəzəm avans verilməsi qərarını heyət idarələr özləri pozurlar. **Azad Qara-Qoyunlu** kolxoz heyəti əlində olan 2000 manat pulu yatırdaraq, kolxozçulara avans vermirlər. Kolxoz heyətləri bu cür avansları və sənaye malı əmək günlərinə müvafiq olaraq, təqsim etmədiklərindən iş sürətində lazımı dönüş yaradılmır.

Bərdə təşkilatı yukarıda göstərilən yaramazlıqları tezliklə aradan götürməklə pambıq toplanışında əmələ gəlmiş kəsiri qısa müddətdə qapamalı və irəlidə gedənlər sırasına keçərək toplanışı noyabrın 1-nə kibi əsasən yerinə yetirməlidir.

*Kommunist. 1932. 11 oktyabr*

## Gənc işçi okucuları təşkil edəlim!

Kapitalist ölkələrini bürüyən iqtisadi böhran, xüsusən gənc işçilərin həyat şəraitinə dəhşətli zərbələr vurur. Onları aclıq, səfillik, işsizlik, cəngəlində əzir. Kapitalist ölkələrinin hamısında işçi gənclər həyatının günü-gündən xarablaşması möhkəm və ümumi xarakter daşımaqdadır. Kapitalizmin ən yüksək “rəcatçısı” və inkişaf etmiş yurdu olan Şimalı Amerikada 4 milyona qədər işsiz gənc heç bir yerdən kömək almır. Almanyada işsiz gənclərin sayı son 4 il içərisində 4 dəfə artaraq milyon yarıma çatmışdır. Berlin işçi gənclərinin üçdə bir hissəsi işsizdir.

Məktəbi bitirənlər biliklərini işlətməyə yer tapmır; ali məktəbdən çıkmış istehsalat, kənd təsərrüfat, tibb mütəxəssisləri ən az maaş ilə belə iş tapmırlar.

Təkcə Almanyada 4 yüz minə qədər texnik uzun müddərdirki işsizdilər. İngiltərədə 4 yüz min işsiz ziyalı gənc vardır. Başqa kapitalist ölkələrində də gənclərin vəziyyəti belədir. Bütün bu fəlakət və faciə təsirindən gənclər bir şəhərdən başqasına qaçmaq "həyat və səadət" aramaq üçün dincəlmək bilmirlər.

Burjua polisi isə, onlara qarşı kəskin sınfı tədbirlərini bütün şiddəti ilə tətbiq edir. Almanyada belələrinə qarşı hökumətin xüsusi qərarı vardır ki, 25 yaşa qədər məcburi əməklə işlədilsinlər.

Bütün bunlara görədir ki, kapitalizm sistemində işçi gəncligin gələcəyi yokdur. Təsadüfi dəyil ki, Almanya, İngiltərə, Amerikada intiharların sayı artır, əxlaq pozqunluqu dərinləşir, fahişəlik, sərxoşluq, əxlaqsızlıq, kapitalizmin doğduğu bu xəstəliklər – geniş ölçü qəbul edir.

Bu vəziyyət gənclər arasında iradə süstlüyü, prespektiv yokluğu kimi ümidsizliklərə səbəb olur. İndi bu hal bütün kəskinliyi ilə hamıya aydın olmaqdadır. Kapital lakeylərinin işçi - gənclərin gözünə çəkdikləri pərdələr, maskalar, daha sürətlə tarixin, ictimai inkişafın gedişi ilə yırtılır.

Halbuki, şuralar ittifaqı, proletar hökmranlığı, sosyalizm sistemində gənclərin mövqei bam-başqadır. "5 illik planın həyata keçirilməsi, şuralar ittifaqında gənclər əməyinin xaraqterini onun ən artıq istehsal və nəzəri təhsil işinə tabe edilməsinə doğru əsasən dəyişdi. Biz gənclər üçün istehsal əməli ilə nəzəri təhsilin birləşdirilməsi (socetaniyə) vəzifəsini əsasən həll etmişik." (Kosoryev) bizim gənclik işsizlik, səfalət aclıq, nə olduğunu bilmir. **Yalnız FZŞ məktəblərimizdə milyon yarım texnikomlarımızda - milyondan artıq adam okuyur ki, onlarda 8000 mln ali məktəblərdə ya - əvvəlkilərin hamısı sonuncunun əksərini gənclər və həmdə işçi, kolxozçu gənclər təşkil edir.**

İstehsalatda gənclərin faizi bizdən son dərəcə artmışdır. **Bütün xalq təsərrüfatında çalışan 19 milyondan yukarı adamların 6 milyon yarımı (33 faiz) gənclərdir. Sənayedə bu faiz 43.3 dən artıqa qalkır. Sənayeinin** mühüm sahələrində işçi gənclərin əməyi həlledici mövqe tutmaqdadır. Mədən sənayesində işçi gənclər 45.9, metaloji sənayedə 45, elektrotexniki sənayedə 50.4, tokucu sənayesində 32.6 faiz təşkil edirlər. Bizdə istehsalata, məktəblərə, darulfununlara almaq üçün işçi gənclər çatmır. Boy atan, genişlənən sosyalizm nəhənkləri milyonlarla işçi və komandalar tələb edir. Biz indi şəhərdə FZŞ-yə cəlb etmək üçün cocuk tapmırıq. Kolxozçu balalarını planlı surətdə bu məktəblərə cəlb edirik. Bizdə gənclər nəinki, tərbiyə olunur, okuyur öyrənirlər **hətta ən məsul cəbhələrdə mübarizə apararaq tərbiyə edir, okudur, öyrədir, qurur, yaradırlar. 1930-cu ildə 289500 ümumi mütəxəssislərimizdən 35 min nəfəri gənclər idi. Keçən il 2500 müstəqil** iş aparan gənc elmi işçilərimiz var idi. Bizdə firqənin ən yakın köməkçilərini təşkil edən çok milyonlu Lenin komsomolu, quruluşumuzun müxtəlif sahəli məktəbinə, proletar ziyalıları məktəbinə çevrilir. İşçi gənclər firqəmizin rəhbərliyi altında Lenin komsomolu sıralarında mübarizədə böyüyür yaradıcılıq istedadını artırırlar.





Bütün bunlar aydın göstərir ki, bizdə işçi gəncliyin tərbiyəsi üçün tamami ilə başqa, yeni gəniş və ancaq proletar diktaturası şəraitində əldə edilə bilən və edilmiş şərait altındadır. Kapitalist sistemində minlərlə talantlar, qalibiyyət və istedadlar öldurulur, çürüdülür, boğulur, məhv edilir. Bizdə qalibiyyətlə sosyalizm quran şuralar ittifaqında, sosyalizm ölkəsində isə gənclərin, talantlar və istedadların inkişafı üçün dünyanın heç bir ölkəsində, tarixdə olmamış və burjua cəmiyyəti şəraitində ola bilməyəcək geniş, hərtərəfli əhəmiyyətli imkanlar vardır. Bizdə gənclər öz yaradıcılıqlarını işçi sınfı işi uğurunda mübarizədə inkişaf etdirməyə, texnikaya sahib olmaq, elmləri sürətlə öyrənməyə alışmışlar. Buna görədir ki, elm adamları texnika komandanları, icadçılar, sənətkarlar sırasında gənclər faizinin artdığı təəccüblü dəyil, inkişafımızın qanunu, zəruri meyvəsidir.

Proletar diktaturası bizim gəncliyə hər şeyi inkişaf üçün lazım olan bütün azad şəraiti vermişdir. Şuralar ittifaqı gəncliyi, komsomol nəsli bu imkanlardan, geniş istifadə əsasında tərbiyələndirilir.

Gəncliyin tərbiyəsinin təkçə məktəb şəbəkəsi və ya istehsalat ocaqları vasitəsi ilə mümkün sayanlar əlbətki yanılırlar. Xüsusən bizim gənclik, yaradıcı komsomol nəsli düşüncəli olaraq özünü tərbiyə etməyi bacarır; o, həyatı hadisələrə dərin sınıfı göz ilə yanaşmağa, silahlanmağa, düzgün dərk etmək, mühakimə yürütməyə çalışmaqdadır. Kitaba, okumağa qarşı gəncliyin maraqı artıb.

Proletar gəncliyin mədəni səviyyəsini son dərəcə yüksəlməsi proletar məzmunlu, qiymətli, tərbiyəedici kitaba olan ehtiyacda artır. İnqilabı, siyasi-ictimai, bədiyi kitabları hamıdan çok okuyan gənclərdir. Bütün kitabxanalarımızda gənc, işçi okucularının sayı həm mütləq və həmdə nisbət etibarı ilə artmaqdadır. İşçi, məktəbli gənclik kitabı okumaqla qalmır, onlar kitaba aktiv tənqidi əlaqə bəsləməyi bacarırlar. Okuduqları kitabı tənqidi mühakimədən keçirir. Hətta mətbuatda prinsipli məsələlər qaldıraraq çıkışda bulunurlar. Proletar gəncliyini kitaba olan ehtiyacının artması komsomol təşkilatı, nəşriyyat idarələri, kütübxanalar, məktəblər, yazıçılar təşkilatı və ümumən mədəni maarif müəssəsələri qarşısında **gənç işçi okucularının təşkilini, ehtiyaclarının öyrənilməsini, onlar ilə sıkı rabitə məsələsini bütün kəskinliyi ilə meydana qoyur.**

Lakin təəssüflə deməliyik ki, bizdə bu məsələ prinsipli şəkildə heç bir təşkilat tərəfindən qoyulub həll edilməsinə başlanmamışdır.

**Məktəblərdən başlayalım:**

Ali məktəblər və texnikumların cokunda məktəb kütübxanaları vardır. Bu kütübxanalarda okucuların təşkili uğurunda lazimi iş görünmür. Dərslərdən sonra bir nəfər kütübxananı açaraq bir neçə saat əyləşir, özbaşına akın ilə istənilən, kütübxanadə olan kitabları istifadəyə verir. Sonra bağlıyaraq işinə gedir. Hətta tələbələrin sınıfdan kənar, artıq, istirahət vaktlarında onlara istənilən qədər mənfəətli kitablar tədarük edilmir.

Bunun nəticəsində tələbələr bəzən dar, sınıf divarları arasında qapılaraq dərsdən kənar, müəllim tərəfindən tapşırılmayan kitablardan xəbərsiz qalırlar. Təsadüfi deyil ki, xüsusən texniki





məktəblərdə okuyanların bir çoku Maksim Qorki, Demyan Bedni, Barbiyus, Radek və qeyri siyasi-ictimai, ədəbi simaların əsərləri ilə tanış dəyillər.

İşçi rayonlarındakı mədəniyyət saraylarında okucular ilə iş aparmaq üçün, daha geniş imkanlar vardır. Bir kütübxana müdiri bu məsələyə belə yanaşır: **"Kitablardır qoyuruq, kim götürür okuyur yenə qaytarır. Daha biz ayrı nə edə bilərik?"** Hələ ən böyük mərkəzi kütabxanalarda – belə gənc, işçi okucuların hesabatı aparılmamış, heç bir kütübxana bu mühüm siyasi, tərbiyəvi məsələni öz qarşısına qoymamışdır. Kütübxanalarda özbaşına akınla işləmək, okucular kütübxananın vəziyyətinə tabe etmək adət olmuşdur. **Halbuki, kütübxana öz işini okucuların ehtiyacı, tələbi üzrə qurmalıdır**. Təbii şeydir ki, gənclərin hesabını aparmıyan ətrafındakı gənc okucuların ehtiyacını, səviyyəsini, marağını bilməyən kütübxana onların ehtiyacının ödənilməsi üçün dəxi lazımi iş görə bilməz. 1930-ci ildə nəşriyyatın 5, 31-ci ildə 10 faizini gənclər və cocuklar ədəbiyyatı təşkil eydiyi halda **1932-ci ildə bu faiz 4,6-ə enmişdir.** Bu nədən iləri gəlir? Bundan nəticə çıkarmaq olarmı ki, gənc və cocuq okucuların sayı və ehtiyacı azalmaqdadır? Əlbətki yok! Məsələ tamami ilə əksinədir. Gənclərin yüksələn mədəni səviyyəsi və artan tələbinə bakmayaraq nəşriyyat idarələri köhnə qaidə ilə, öz xahişləri ilə, bu tələbə yanaşırlar. Onlar gəncliyin bolşevik kitablarına olan ehtiyacını lazımınca hesaba almırlar.

İşçi gənc okucuların təşkili işində jurnal redaksiyaları böyük işlər görə bilər. İndiyə qədər biz bu idarələrin dəxi görməli bir iş görmədiklərini, yazıçıların təşkilində görülən tədbirlərin beşdə birini, belə okucuların təşkili işinə sərf etmədiklərini qeyd etməliyik. Okucuların təşkilində jurnal redaksiyaları sual vərəqələri paylamaqdan başqa metod bilmir. Yeni komsomol özəkləri, mədəni təşviqat bölmələri də bunun kibi, okucuları tanıyıb təşkil etməyə xırda bir məsələ kibi bakırlar.

İndi yeni nəslin tərbiyəsi **"iqtisadiyyatdan və insanların şuurundan kapitalist qalıqlarını məhv etmək, bütün əməkçi**

**əhalini düşüncəli sosyalizm qurucularına çevirmək”** probleminin praktiki şəkildə qoyulması bizdən yüksək dəyərli, tələbatın səviyyəsinə cavab verən bolşevik kitabları verməyi tələb edir. Biz bu tələbi ödəmək üçün əlimizdəki qüvvələri yoklamalı, ölçməli bütün okucu, işçi gəncliyi hərəkətə gətirib onların təklif və tələblərini öyrənib ödəməliyik.

Nəşriyyat idarələrimiz, yazıçılar təşkilatının qarşısında zavodlar tarixinin bolşeviqcəsinə yazılması, vətəndaş müharibəsinin bədiyi göstərilməsi problemi durur. Lenin komsomolunun tarixi yazılır. XIX əsrin gənc insanlarının tarixi yazılır. Bu məsələlərin müvəffəqiyyətlə, kəsirsiz həll edilməsi üçün gənc işçi, komsomolçu okucuların təkliflərini toplamaq əsas şərtlərdəndir. – Biz bilməliyik ki, hansı kitab gəncləri daha maraqlandırır. Hansı yazı texnikası daha inandırıcıdır. Gənclər əldə olan kitablarımız, yazıçılarımız, klassiklərimiz, jurnallarımız haqqında nələr söyləyirlər. Bu hal bir tərəfdən kütübxanalarımızın köhnə zərərli kitablardan təmizlənməsinə kömək edir. Yazıçılarımız qarşısında bir çok konkret yeni momentlər qoyur. O biri tərəfdən isə bu sahədəki kəsirləri tezliklə doldurulması üçün böyük bir hərəkət oyadır. Biz Lenin komsomolunun rəhbərliyi, kütübxanalar məktəblər, mədəni ocaqlar, ictimai təşkilatların köməyi ilə bu işi bolşevikcəsinə təşkil etməliyik.

Bu işin ağırlıq mərkəzinin komsomol özəklərinə salmaq lazımdır. Yüngül süvari dəstələri vasitəsilə biz müəssəsələrdə ki, məktəbdə ki, kütübxanaların gənclər ilə apardığı işləri yoklayıb yenidən qurmalıyıq.

Hər bir kütübxanada gənclər, komsomolçuların kitaba olan maraq və əlaqəsi ayrıca olaraq hesaba alınmalıdır. Böyük kütübxanalarda gənclər bölməsi yaranmalı ayrıca işçilər vasitəsilə gənc işçi okucularla praktiki iş aparılmasına müvəffəq olmalıdır. Bu hal kütübxananın bütün kütləvi işlərini sağlamlaşdırmak üçün bizə maddi əsas, işçi qüvvəsi verir. Gənclər bölməsi ətrafında toplanmış komsomolçu işçi gəncləri kütübxananın hərtərəfli ictimai işlərinə cəlb edə bilərik.





“Gənc bolşevik” jurnalında gənc okucular tribunası açmalı burada gənclərin əməli göstərişləri, tənqidi-təhlili çıkışları, kitablar haqqında ki, təklifləri sistematik surətdə çap edilməli gənclərə ayıd kitablara tənqidlər yazılmalıdır.

Şura yazıçılarının bir neçə xarakterik ədəbi əsərlərini kütləvi gənclər yığıncağında müzakirəyə qoyub geniş mühakimə açmalı belə müzakirələri səhnə əsərləri üzərlərində tətbiq etməlidir.

Beləliklə gənc okucuların təşkili onlar ilə praktiki iş aparılması məsələsini hər bir komsomol özəyinin kütübxana, qiraətxananın yazıçılar təşkilatı, nəşriyyat idarələri, mədəniyyət saraylarına proqram işi etməliyik. Bunsuz inqlabçı gəncliyin yüksək dəyərli kitaba olan ehtiyacını təşkilatlı və müvəffəqiyyətli ödəyə bilmərik. Bunsuz yeniyetmə gənclərin vaktının ən zəruri kitablar, problemlər ətrafında mərkəzləşdirib zərərli, köhnə kitabları aradan qaldıra bilmərik. İncə işçi okucuların ehtiyacını ödəmək mədəni cəbhəmizin ən aktual və plan məsələsidir. Bu iş ilə əlaqədar olan təşkilatlar hərəkətə gəlməlidir.

*Pioner işçisi. 1932. №7-8 (116)*

## Yeni qələbələr nümayışı

Vaktı ilə istismar hiylə, aldatmalar ocağı olan bu yerdə bu gün radioların günəşi salamladığı bir anda nə həngamə, nə qiyamət, nə təntənə var.

Uzaq, kolxoz rayonlarından öz alın təri və əmək məhsullarını gətirmiş kolxozçular alay vurmuşdur. Bakı proletaryatı bu gün arada heç bir vasitə və vasitəçi olmadan kolxoz məhsulunu qarşılayır. Bu gün iki qardaş - əmək qüvvəsi proletar və kolxozçular arasında mal mübadiləsi yapılır. Şəhər ilə kəndin təsərrüfat əlaqəsini bərkidən daha bir tədbir, yeni bir qələbə, daha bir addım.

Buna görə də bu təntənəni, Bakı proletaryatının bu günkü hərəkətini təsadifi saymaq olmaz. Bu gün böyük qələbə bayraqları altında sosyalizm hücumu marşı ilə açılan kolxoz yarmarkası Azərbaycan kolxozçularının firqə və hökumətimizin qərarına aktiv bir cavabdır.

Budur böyük kolxozçu və proletar izdihamının içərisində xitabət kürsüsü.

Yarmarka komitəsi adından Melnikov yoldaş, yarmarkanı açaraq deyir:

– Bakı proletaryatı firqə və hökumətimizin şura ticarəti haqqındakı qərarını realizə edərək, 1-ci kolxoz yarmarkası açır.

Düşmanlarımız imdiki kolxoz ticarətini Nep devrinin ticarəti ilə tutuşduraraq, onun mahiyyətini alçatmağa çalışırlar.

İmdiki yarmarkamız tamamilə yeni və sosyalist əsaslara sökənir. 13 milyon yarım əməkçi kəntli təsərrüfatı kolxoz bayrağı altına toplanmışdır. Ölkəmizdən çıkarılan kənt təsərrüfat məhsulunun 80 faizini kolxozçular verir.

Bu günkü yarmarkanın qarşısında şəhər ilə kənt arasındakı mal mübadiləsini yakşılaşdırmaq, işçı təchizatını qüvvətləndirmək, çok işlənən mal istehsalını artırmaq, kolxozların xüsusi təşəbbüsünü genişlətmək məsələsi durur. Bakı proletaryatı böyük ruh yüksəkliyi ilə hərəkətə gələrək, Azərbaycan kolxozçularını hazır şəkildə qarşılayır. Bu günkü yarmarkamız kəntə sənaye malı akınını daha da qüvvətləndirəcəkdir...

Hökumət adından yarmarkanı təbrik edən Xalq Komisarlar Şurası sədri yoldaş Bünyadzadə yarmarkanın böyük siyasi təsərrüfat əhəmiyyətini qeyd edir:

– Bu yarmarka hökumətimizin sənayemizin dev addımları ilə iləri getdiyini göstərən bir səhnədir. Qoy istismarçı, alverçi və möhtəkirlərin gözü çıksın...

Yarmarka meydançasının solunu kolxozçular kaplamışdır. Burada kimlər yokdur, Kürdəmirdən Lenin kolxozundan gəlmiş Fərəc və Qasım yoldaşları dinləmək olmur, onlar çok sevimli hərəkət edir, iti danışır, dayanmaq bilmirlər. Onlar 130 yumurta, 63 toyuq, 20 put pendir, 3 put yağ, alma, badımcan və sairə gətirmişlər. Fərəc açıqcasına deyir:

– Biz uzaqlığına bakmayaraq, malımızın azlığına bakmayaraq yarmarkaya gəlməyi vacib bildik. Biz, yeni kolxoz kəndinin





yeni məhsulunun sosyalizm şəhərinə öz əlimizlə təmiz, sağlam, tez və ucuz yetirməyi böyük vəzifə bilirik. Kəndimizin kollektivləşmə, mexanikləşmə, yeniləşmə, elektrikləşmə və sosyalizm yollarına düşməsində Bakı proletaryatının rəhbərliyini biz heç vakt unuda bilmirik.

– Bizim qələbələrimiz yalnız bu rəhbərlik ilə əldə edilə bilərdi.

– Yarmarkaya gəlmiş kolxozçu qadınlar arasında bir qəhrəman vardır: Kürdəmir kolxozçu və zərbəçisi Sima xala. O yarmarkaya artıq həvəs ilə gəlmişdir. Onun üzündəki cizgilər əmək qəhrəmanlığı səhifələrinin sətirləri kibi okunur. O, yarmarkaya, Bakıya da birinci dəfə gəlmişdir. O, yarmarkada iləri gedən kolxoz qəhrəmanlarındadır. 15000 nar, 25 put un, 50 put arpa, 100 put alma, 25 put turşu və sair şeylərin satılışına Sima xala şəxsən rəhbərlik edir. O, kolxozçuların sənaye malı, ehtiyacı üçün bir ana kibi düşünür, ata kibi tədbir tökür. O, "kondukturlardan" şikayətçidir.

– Bizimki meyvədir, tez xarab olan şeydir, 10 saat Ağcaqabulda, 6 saat Biləcəridə ləngitdilər. Bakıda isə maşın vermədilər. Bu gün malımız bazara gec çıkdı, bu nəyə dəyər? Bu dəmir yollarına RQİ əl gəzdirməlidir. Odur min narımız heçə, puça çıkdı. Narlar yerdən çıkmamış hamısına əmək günü vermişik. Biz qəpiyin batmağına razı olmuruq...

Muxtar Dağlıq Qarabağ ölkəsi Atarbeyov kolxozundan gələn komsomolçu Danilyan öz malını yerləşdirməklə məşğuldur. Onun gətirdiyi təmiz noxud, doşab və yağ daha tez satılır. Bu satışdan hasıl olan malın puluna kolxoz və kolxozçular üçün lazım olan şeylər alacaqdır.

Vladı Kafkasdan "3-ci internasyonal" kolxozundan Baqain, Teymurtaş yoldaşlar gəlmişdir. Onlar Şimalı Qafqaz dağlarının saf suyu, təmiz havası, duru iqlimi ilə sağlam bəslənmiş əməklə bişmişlər. Onlar yarmarkaya 13 ton kartoşka gətirmişlər. Teymurtaş yoldaş kartoşkanın xırda satışı ilə məşğuldur. 1350 kolxozçu tərəfindən sınanmış aktiv bir zərbəçi olaraq, seçilmiş, buraya

göndərilmişdir. O, üzərindəki məsuliyyətin ağırlığını və müqəddəsliyini hiss edir. Məhsulu xarab olmağa qoymur. Ən xırda kartoşkaları toplayaraq, neviləşdirir.

Kolxozçuların qarşısına 2000000 manatlıq sənaye malı ilə çıkan Aztorğ yarmarkanın sağ hissəsində yerləşmişdir. Burada ayaqqabı, libas, yatacaq, texniki ləvazimat xırdavat şeyləri və sairə vardır. Sənaye malını kolxozçulara planlı və tez çatdırmaq üçün, kooperativ işçiləri zərbəli sürətə keçmişlər. İmdi onlar şəhər mağazasındakı temp ilə yok, yarmarkadakı ruh yüksəkliyi ilə çalışırlar. Biri yazır, o birisi alır, üçüncüsü verir, dördüncüsü izahat aparır, gələn kolxozçular 15 dəqiqə içərisində yola salınırlar.

Qırmızı çayxanalardan qopan şənlik və kolxozçu mahnıları radio səslərini örtmüşdür. Yarmarka boyunca düzülən məlumat bürolarında nevbə yokdur. Müəyyən məsələlər üzrə bürolara müracəət edən kolxozçular izahat alırlar.

– Kolxoz ticarəti haqqında hansı kitab okusam yakşıdır.

– İnqlab qanunçuluq haqqında yazılan qəzətəni hardan tapım?

– Bizim kolxoza çoklu radio aparatı lazımdır. Kredit ilə burakarlarmı?

Qeyri bu kibi siyasi və ictimai sualları məlumat byurolarında çok eşitmək olur. Kolxozçular qıssa cəvab almaqla kifayətlənmir. O hər şeyi bilmək, hər şeyi öyrənmək istəyir.

Bakı kolxoz yarmarkasına gəlmiş 100-cən kolxozçu qadın şura ticərəti və sənayemizin qələbələrini açıqcasına görürlər.

Əməkçi nümayəndə qadınlar bu yarmarkanın siyasi təsərrüfat əhəmiyyətini yaymağa borcludurlar. Yarmarkanın və yerli şura bazarlarının kütləvi mədən işdən təmin edilməsi hər bir aktiv qadının vəzifəsidir. Qadın klubları, guşə rəhbərləri bundan istifadə edib yarmarkaya və şura bazarlarına gələn kolxozçu qadınlar arasında ciddi iş aparmalıdırlar. Məsləhətçilər, yoklama briqadaları və tibbi konsultasiyaları vastəsilə kolxozçu qadınlara mədəni yardım işini artırmalıdırlar. Bu günümüzün ən ciddi vəzifələrindəndir.

*Şərq qadını. 1932. №7. S.8-10*





## 1933
## Lenin bayrağı altında

**"Lenin... İnqılabı patlayışlar vaktında onun dahiyanə uzaq görücülüyü tam və aydın təzahür etdiyi qədər heç vakt etmirdi..." (Stalin).**

9 il bizi firqəmizin rəhbəri, bütün dünya proletaryatı və əməkçi xalqların unudulmaz dahisi, inqılabı hərəkatın ən böyük ustası Lenin yoldaşdan ayırır. 9 ildir ki, Şuralar İttifaqı işçi sınfı Leninsiz, fəqət onun ən yaxşı şəyirdi Stalin yoldaş başda olmaq üzrə Lenin firqəsi rəhbərliyi və leninizm bayrağı altında müzəffəriyyətlə sosyalizm qurur. İşçi sınfı bu 9 il içərisində Lenin yoldaşın vəsiyyətlərin mübarəzə proğramı və qələbə bayrağı tutaraq, bütün cəbhə boyu hücuma keçmiş və Şuralar İttifaqında sonuna qədər və dönməz surətdə sosyalizmin qalibiyyətini təmin etmişdir.

Lenin firqəsinin rəhbərliyi ilə kapitalizmə və kapitalizm qalğılarına açdığımız bütün cəbhə boyu geniş hücum, həm kəntdə və həm şəhərdə Lenin yoldaşın "kim kimi" məsələsini müvəffəqiyyətlə sosyalizm nəfinə həll etmişdir.

Şuralar İttifaqında sosyalizmin möhkəm iqtisadı fundamenti hazırlanmışdır. Birinci 5 illiyin qələbələri əsasında ikinci 5 illikdə Şuralar İttifaqı proletaryatı **bütün kapitalizm sınfı və elementlərinin məhv edilməsi, iqtisadiyyatda və insanların şüurunda kapitalizm qalğılarının məhv edilməsi, bütün əməkçi əhalinin şüurlu sınıfsız sosyalizm cəmiyyəti qurucularına çevrilməsi** məsələsini əməli surətdə həyata keçirməkdədir.

Dünyanın altıda bir hissəsində Lenin bayrağı altında gedən bu yeni quruculuq və yaradıcılıq pafosu ölkəsində kapitalizmin ən dərin rişələri, kökləri kəsilib atılmaqdadır. Halbuki, bizə duşmən lagerdə kapitalist ölkələrində istər sənaye və istərsə kənt təsərrüfatı ağır böhran içərisində ağızı aşağı ölümə doğru yuvarlanmaqdadır.

İşsizlik, aclıq, fəlakət, dilənçilik və barışmaz ziddiyyətlərin kəskinliyi, **kapitalizm dünyasının çürük** iç və həqqi simasını meydana çıkarmaqda, kapitalizm sisteminin məhvə məhkum ol-

duğunu günəş kibi aləmə isbat etməkdədir. İmdi istər istəməz işçi sınfının düşmanları belə leninizmin bütün dünyada qalibiyyətini, onlar üçün çok acı olan bu həqiqəti görmək və etiraf etmək məcburiyyətindədirlər.

Hələ bu azdır. **“Ancaq ölkə elektrikləşdikdə sənaye kənt təsərrüfatı və nəqliyyat müasir ağır sənaye bazasında qurulduqda ancaq o zaman bir son qalibiyyətə çatarıq”** (Lenin).

Lenin yoldaşın sənayeləşmə və elektrikləşmə haqqındakı vəsiyyətini Şuralar İttafaqı işçi sınfı sonuna qədər həyata keçirməkdədir. 17-ci firqə konfransının qərarlarında deyilir ki: **“ikinci 5 illiyin əsas təsərrüfat məsələsi, bütün xalq təsərrüfatının şura maşın quruluşu əsasında rekonstruksiya edilməsindən ibarətdir”.** Bu zərbəli vəzifə imdi kömür sənaye, metal sənaye, kənt təsərrüfat maşınları istehsalı sənaye və sayir cəbhələrdə müvəffəqiyyətlə **həyata keçirilməkdədir.** Kənd təsərrüfatında biz bütün Şuralar İttifaqında əsas etibarı ilə kollektivləşmənin həyata keçirilməsi ilə, əməkçi təsərrüfatların 65%-dan artığı kolxozda birləşmişdir. Kollektivləşmə əsasında kapitalizmin ölkəmizdə son istinadgahı olan qolçomaqlar, bir sınıf kibi nəinki ləğv edilirlər, hətta müvəffəqiyyətlə ləğv edilirlər.

Kollektivləşmə hərəkatı imdi böyük hərəkət olmuşdur. **Kollektivləşmə bayrağını təkcə iləridə gedən yüksək səviyyəli işçilər bolşeviklər dəyil, bütün əməkçi kəntli kütlələri yüksəklərə qaldırmaqdadırlar.**

Bütün bu təsərrüfat qələbələri əsasında Lenin mədəniyyəti qalibiyyətlə inkişaf etməkdədir. **Şuralar İttifaqının ali, orta və ibtidai məktəblərində okuyan və sosyalizm sənaye üçün komandan kibi slahlanan gənc nəsl, Lenin yoldaşın ölməz vəsiyyətləri uğurunda mübarəzədən böyüyür, bərkiyirlər.**

**Lenin internasyolazmi, kommunizm tərbiyəsi, Lenin politexniki məktəbi uğurunda gənclər və çocuklar kütlələrinin aktiv mübarizlik səsi gündən-günə yüksəlməkdədir.**

Sosyalizm quruluşu sınfı mübarizə cəbhəsində firqənin ən sadiq və yakın köməkçisi olan Lenin komsomolu, böyük inqılab da-





hisinin vəsiyyətləri uğurunda mübarəzədə böyümüş, möhkəmlənmiş və sınaqdan çıkmışdır. **“Kommunist gənclər ittifaqı hər bir işdə öz köməyini göstərən və öz insiativ təşəbbüsünü təzahür etdirən zərbəli qrup olmalıdır”(Lenin).**

Ustamızın bu vəsiyyəti, Lenin komsomolunun mübarəzə bayrağı və tərbiyə silahı olmuşdur.

Zərbəçilik və sosyalizm yarışının təsərrüfat hesablı briqadaları, mədəni hücum, estafet və sayir mübariz hərəkatın təşəbbüsçüsü olan Lenin komsomolu, bu gün çok milyonlu bir təşkilat olmaqla leninizmin bütün dünya miqyasında qalib çıkması uğrunda çarpışmaqdadır.

Yakın günlərdə işlərini qurtarmış və birinci 5 illiyin qələbələrini yekunlaşdıran, ikinci 5 illiyin hücum xəttni cızan firqəmizin M.Q. və MQQ birləşmiş yanvar plenumu ölkə qarşısında və ha belədə Lenin komsomolu qarşısında mühümm siyasi təsərrüfat vəzifələri qoydu: **Birinci 5 illik bütün xalq təsərrüfatının rekanstruksiyası üçün, sənayein yeni texniki bazası olan yeni zavodların inşası 5 illiyi, bütün kənt təsərrüfatının sosyalizm əsasları üzərində təşkil etmək üçün manevia olan yeni əkinçilik müəssəsələri kolxoz və sovxoz quruculuğu 5 illiyi idi lakin birinci 5 illikdən fərqli olaraq, ikinci 5 illik başlıca olaraq yeni sənaye müəssəsələrinin mənimsənməsi 5 illiy, kənt təsərrüfatında yeni müəssəsələrin kolxoz və sovxozların təşkilatca möhkəmlənməsi 5 illiyi olacaqdır...”** (MQ və MQQ birləşmiş plenumu qərarından).

İkinci 5 illik yeni müəssəsələrin texnikanı mənimsəmək, istər sənayedə, istər kənt təsərrüfatında və mədəni quruluş cəbhəsində əmək məhsuldarlığının artırılması uğurunda yüksək pafoslar və yaradıcılıq 5 illiyi olmalıdır. **Bu vəzifələrin vaktında və müvəffəqiyyətlə həyata keçirilməsi üçün komsomolçu, işçi və kolxozçu gənclərin inqılabı mübarəzə və bacarığını artırmaq, gəncliyi bolşevikcəsinə yeni vəzifələr ətrafında təşkil etmək, nümunəvi sosyalizm əməyi məhsulu yaratmaq, yüksək dəyər uğurunda hücum açmaq, böyük rəhbərin 9 illik vəfatı gününə**

**ən dəyərli xatirə ola bilər.** Sınfların ləğvi, sınfı mübarizəsinin əzəmi dərəcədə kəskinləşməsi, sosyalizm hücumunun bütün cəbhə boyu daha da genişlənməsi ilə əlaqədar olaraq, kapitalist ünsürləri, köhnə sınf qalğıları mübarəzə formasını dəyişmiş, yeni faktorlar ilə quruluşumuza qarşı müqavmət göstərməyə və təşkilatlarımıza badalaq vurmağa başlamışlar.

Müəssəsələrdə, kolxoz, sovxoz, kooperativlərdə, dəmir yollarında, hökumət əmlakına, el malına qarşı xiyanət və oğurluq faktları həmin bu mübarəzələrlə izah olunur. Bütün cəbhələrdə başı əzilmiş, dişi qırılmış duşman, imdi cildini dəyişərək, "xidmətçi, hesabdar, ambardar, katib" sifətində kooperativlərə, kolxoz və sovxozlara girmişdir. Onlar devlet və ictimai müəssəsələrdə kütləvi oğurluq, qolçomaq sobatajı və proqulçuluq təşkil edərək, istehsalatı pozmaq, təşkilatları etibardan salmaq, sınfı şüurca geridə qalan işçiləri aldatmaq və pozulmuş rəhbərlərin korluğundan istifadə etmək istəyirlər. İctimai əmlak, müqəddəs və dokunulmazdır. İctimai əmlak, sosyalizm quruluşunun əsasıdır. **Biz, bolşevik sayıqlığı və sınfı ayıqlığımızı təşkil etməklə, ictimai əmlaka uzanan xayin əlləri iti inqilabı qanun slahı ilə kəsməliyik.** İmdi sınfı duşmanın cildini dəyişdiyi bir zamanda əvvəlkindən daha artıq bizdən sayıqlıq və göz açıqlıq tələb olunur. Biz, Lenin yoldaşın tapşırığı əsasında qurulan və yaradılan ictimai əmlakı göz bəbəyimiz qədər mühafizə etməliyik. **"Varlılar və juliklər bu bir midalın ayrı-ayrı tərəfləridir. Bu, kapitalizm tərəfindən bəslənən parazitlərin iki əsas dəstəsidir. Bu, sosyalizmin başlıca düşmanlarıdır. Bu düşmanları bütün əhalinin xüsusi nəzarəti altına almalıdır. Onlar tərəfindən sosyalizm cəmiyyətinin ən kiçik qayda və qanunları pozulduğu zaman onlar ilə amansız hesablaşmaq lazımdır. Onlar haqqında hər bir zəyiflik, hər bir tərəddüd və sentimentalçılıq sosyalizm qarşısında ən böyük cinayətdir" (Lenin).**

Böyük və dahi rəhbərimizin bu tapşırığı, bu gün sınıf düşmanının kütləvi surətdə oğurluq təşkil etmək təşəbbüsü zamanın da daha kəskinliyi ilə qarşımızda durur. Xsusən ölkəmizin təşəbbüskar və enerjili qüvvəsi olan Lenin komsomolu, oğurluq, qolçamaq sabatajı, ictimai əmlakə xiyanət edən düşmanlara qarşı mübarizcəzinə inqılabı göz açıklıq silahı ilə silahlanmalıdır.





İkinci 5 illiyin böyük vəzifələrini müvəffəqiyyətlə həyata keçirmək üçün sınfı duşmanın və onun agenturası olan sağ və "sol" opportunistlərin müqavmətini qırmaq üzrə, mübarəzənin zəruriyyəti əsas şərtlərdən birisidir. Sosyalizm quruluşu cəbhəsində əldə etdiyimiz qələbələrin hərəkət verici qüvvəsi leninizm və Lenin firkəsinin leninçi rəhbərliyidir. Sosyalizm quruluşunun qalibiyyətinə inanmayan ünsürlər, sınfı duşmanın dəyirmanına su tökən, hücum və hərəkət yolumuzda əngəl təşkil edən düşmanlarımızdır. Biz onlara qarşı bütün gənclər kütləsini və şüurlu sosyalizm qurucularını təşkil etməliyik.

*Gənc bolşevik. 1933. № 1. S.14-15*

## Sözlər

*Sihiyyə şöbələri, kolxozçu kütlələrinə sihiyyə yardımını artırmalı*

5 dəqiqəliyə özünüzü Gəncə sihiyyə şöbəsində hiss edin. Pəncərələr taybatay, xəfif yay küləki kağızları tərpədir. Adamların yakası açık qolları cərməglidir. Gələnlər dirsəgini stola söykəyərək dinləyir. Xoş rəftar işçilərdən hər halda müsbət cavab alaraq çıkırlar. Hər şey öz yerində hər kəs öz işində, hər iş öz qaydasında.

– Bağışlayın, mətbuat vasitəsilə təmizlig aylığı keçirilir. Şəhərin təmizliyi haqqında nə iş görmisiz. Əvvəllər işin pis olduğundan, byabırçılıq dizə çıkdığından, lakin son zamanlarda dönüş yaradıldığından sihiyyə şöbə müdiri bəhs edəcəkdir.

Bütün mintəqələrə nəzarətçilər qoyulmuş yeməg şeyləri, meyvə, göyərti tibbi müayənədən keçirilir.

– Necə olur ki, burada nümunəvi təmizlik işi diqqətləri cəlb etməmiş nəzərlərə deyməmişdir.

Budur akşam qaş qaralanda "Şəfəq" kinosundan çıkıb "Başmak seyri" yapırsız. Vəzirof küçəsində sular daşmışdır. Çay dağ-

dan gətirdigi zibili, paltar qab yuyuntusundan törəyən murdarlığı içərisində yatmış camışlar çadralı və çadrasız qadınların addım başı tökdiyi çürük meyvələri yayır.

Arvadlar, uşaqlar bu "Mübarək" su ilə yaşayır, yuyunur hətta içirlər. Hər kəs özündən sonrakı qonşunu aldatdığını hesab edir. Bu çayı atlamaq "Körpilər" vastəsi ilə olar. Bu körpilərə bakdıkca hərbi ümumidə top mərmiləri altında sovrulan xarabaları xatırlayırsan. 2-ci addımda tələyə düşür. İstər-istəməz çimməyə məcbur olursan. İşık azlığı kontrolsuzlıq çirkinligləri dahada artırır.

Siz gördiglərinizin bir təsadif ola biləcəyinə şübhələnirsiz. Günorta çağı daha yukarılara, şəhərin "Gözünə", köhnə uzaq xarabalarına çıkırsınız. Burada adamların yaşadığı ev qabağında heyvan ölüsü, meyvə çürüntüsi, həyət zibili, durğun sular... görərsiz. Sihiyyə şöbəsində eşitdiklərimizin ancaq sözlər olduğunı yəqin edirsiz.

Sizdə bir təklif oyanır:

Sihiyyə şöbəsi başda olmaq üzrə həkimlər, felşeirlər əczaxana işçiləri gözliklərini çıkarsın, döşliklərini açsın. Otaqlardan çıksınlar. Tarlalara, yaşayış mintəqələrinə hücum etsinlər. Tibb aktivi hərəkətə gəlsin. Təmizlik uğrunda yazılan boyalı şuarlar, plakatlar, levhələr, modellər, məsləhət verənləri hər savadlı həkimə okudulsun.

Biz bu təklifə 100 faiz şərikik:

Yüngül savariçilər oyatmaq. Hər bir komsomolçunu təmizlik uğrunda mübariz əsgər etmək **Gəncə komsomol** komitəsindən tələb edilsin. İnzibat şöbəsi tramvaya qabaqdan minənləri cəriləməyə olduğı qədər həvəsli olsun.

Buda bizim əlavəmiz. Belə olarsa Gəncənin adına layıq təmizlik əldə edilər. Hər vətəndaş özü özündə məsuliyyət hiss edər.

Buna sizdə şərik olarsınız.

Yorulmayın sizi yeməkxanalara, ümumi yaşayış yerlərinə, xəstəxanalara aparmıram. Hələlik bu qədər.

*Gənç işçi. 1933. 11 avqust. №184*





## Din əleyhinə mübarəzə cəbhəsində 15 illik qələbələrimiz

Böyük Oktyabr inqilabının şanlı 15 illik yubilesini tarixi və olduqca mühüm, xüsusi əhəmiyyəti olan bir momentdə keçiririk. Şuralar İttifaqının işçi sınfı Lenin firqəsinin bolşevik rəhbərligi altında müzəffəriyyətlə sosializim cəmiyyəti quraraq ölkəni xırda kəndli ölkəsindən ağır sənaye və böyük gigantlar ölkəsinə çevirir. Hamıza bəllidir ki, "din cəmiyyətin tiryəki" işçi sınfını istismar üçün kapitalistlərin hakim sınıfların əlində kəsgin bir silah və istismar aləti olaraq qalmışdır. Müxtəlif sınıflar arasında gedən ziddiyət və mübarəzələrin səviyyəsinə uyğun olaraq, din həmişə, hər zaman formasını dəyişmiş zəhmətkeş kütlələrin damarına girmək üçün cürbəcür donlara bürünmüşdür.

Azərbaycan işçi və əməkçilərinin daha asan və çoq istismar edilməsində dinin xüsusi rolu olmuşdur. İslamiyyət, xüsusən şiəliyin ən çirkin və masqalı ənənələri belə burada özünə yer almış.

Əməkçilərin sınfı şüurunu korçaltmışdır.

İnqlabdan əvvəl din nə cür höküm sürürdü? Din xadimləri, işçi və əməkçiləri nəyə çağırırdı?

Ağaları, xanları, sahibkarları "yer üzünün allahı" və "allahın yerdəki kölgəsi" adlandırırdılar. "Sahibkarların üzünə durmaq olmaz. Çünkü, allah onu həmin mövqeə çatdırmışdır. "Minbərlər və məscidlərdə, din məscidlərində ilk dəfə çar və sırası ilə onun aşağı mənsəbçiləri, nihayət yerli burjuaziya, müsavatçı quldurlara dua olunurdu. Mollalar, din "alim"ləri qaçaq Qənbər, sarı Ələkbər, mədən sahibləri və qarnı piyli mülkədarların "hər bəladan (işçilərdən) hifz olunması" üçün ağızlarını daha geniş açır, dillərini yarım arşın uzadır, öz ağalarına sadiq olduqlarını isbat üçün hər cür oyunbazlıqdan çəkinmirdilər.

Xalqın təbibi falçılar, müəllimi mollalar, mürəbbisi cindarlar olmuşdur. İmamzadələr, məscidlər, pirlər, seyidlər, mollalar, suxtalar, dua yazanlar, rəmmallar, şeyxlər... hərəsi bir tərəfdən zəhmətkeşlərin canına daraşmış zəli kibi sorurdular. Bu ölüm işi pəncəsində çapalayanlara isə "Döz! Bu dünyada nə qədər zillət çək-

sən axirətdə əvəz alarsan. Allahın əmridir... dözməlisən...” deyə hökum sürən vəziyyəti qanunlaşdırmaq, obyeqtiv “köklər”lə izah etmək isdəyirdilər. Onlar buna müəyyən dərəcədə həm də uzun bir zaman müvəffəq olmuşdular.

İndi şura Azərbaycanımızda işçi sınfı və kolxozçu, əməkçi kəntlilərin maddi-mənəvi vəziyyəti son dərəcədə yüksəlmişdir. Vaktı ilə sığınmağa bir daxma arayıb tapmayan işçilər üçün mədəni üsulda və arxitekturanın son sözü ilə tikilən işçi mənzilləri, fabrika mətbəxlər, mədəniyyət sarayları, məktəb, kulub, xəstəxanalar, istrahat evleri, kurortlar, işçi darülfünunları, təhsil şəbəkələri və sairə hazırlanmışdır.

İşçilər indi bir və iki dərəcəli zəruru ehtiyaclarının təmini ilə qane olmuşdur. Onlar “məhsuldar çalışmaq, mədəni yaşamaq” istəyirlər. Hər bir işçi, istehsalatdan, dəzgahdan ayrılmayaraq darülfünu bitirmək, işlətdigi texnikanın anası olmaq istəyir. O, bu gün buna nail olur. Çünkü proletar diktaturası ona hər bir imkan və şəraiti vermişdir.

Kəntdə 80 yaşında kolxozçu qadını dindiriniz. O, radionun pis işləməsindən, yaşlı yokluğundan, kino gəlməməsindən şikayət edə bilər. Müəllim savad dərsinə gec gələndə qadınların acığı tutur. Ətirli sabun çatmayanda koperativçi ilə dalaşır.

İndi elə kənt tapmaq olmaz ki, orada dinin çürüklüyü və fırıldaqçı mollaların iç üzü kütlə üçün aydın olmasın.

İndi işçi və kolxozçular öz kollarında, kollektivlərindəki sınfı qüvvəni yakşıca anlamışlar. Onlar bilir ki, köhnə dünyanı devirib yeni dünya quran bir qüvvə varsa o da “ən məhsuldar qüvvə – inqilabçı sınfıdır” (Marks). Hətta ən geridə qalmış, mədəniyyətdən ən uzaq kənt guşələrində belə “axirət, cənnət, cəhənnəm” xülyalarına uyan və din parazitlərini bəsləyən tapılmır. Ona görədir ki, ölkəmizdə din xadimlərinin yok olmasına və onların bəzisinin üzlü qisminin, əmmaməni ataraq, təsərrüfat cəbhəsinə, əməyə sarılmasına təəccüb etməməlidir. Kəntlərdə məscidlərin kütləvi şəkildə kuluba, məktəbə, mədəni müəssəyə çevrilməsi mədəni inqlabımızın qiymətli meyvələrindəndir.





Kütlələrin marksizim-leninizm tərbiyəsi ilə yetirilməsi üçün konkret tədbir sahələri artır. “İqtisadiyyat və insanların işi üzündən kapitalist cəmiyyəti qalıqları məhv” edir. Bütün əməkçi halı şüurlu, aktiv, sınıfsız sosyalizm cəmiyyəti qurucularına çevrilir...

Böyük inqlabın 15 illiyində Azərbaycan işçi və kolxozçuları, əməkçiləri, mədəni inqlab işığını bənimsəmək və Lenin teoryası yolu ilə gedərək din mevhumat və xürafatı tarixi müzesinə vermələri ilə fəxr edirlər. Yeni inqlabi nəslimiz mevhumat nə olduğunu bilməz. Ona görə, sosyalizm quruculuğu ilə açılmış, Lenin-Marks tərbiyəsi ilə işıqlanmışdır.

Bütün bunlar 15 illik təntənəli bayramımızda qələbə və naliyyətlərimizdir.

Bu heç də o demək dəyil ki, biz din əleyhinə mübarəzə cəbhəsində hər şeyi bitirmiş, son qalibiyyətə çatmışıq. Arxayın ola bilərik.

Xeyir!

Biz, din və mevhumata qəti qələbə çalmışıq. Lakin sonuna qədər məhv etməmişik. Keçən il Leninqradda gedən pedaloji konferansda professorlardan birisi uzun tezislərlə çıkışda bulunaraq, işçi ayilələrdə qəti din təsiri qalmadığını, çocuklarımızın “tam materialist” tərbiyə ilə böyüdüyünü iddia edirdi. Bu cür, dinə qarşı mübarəzə qələbəmizi şişirənlər bir deyil.

Hətta idarələr, təşkilatlar yanında dinə qarşı mübarəzə özəyi düzəltdikdə və üzvlər yazmaq isdədikdə aktiv yoldaşların bəzisindən eşidirik:

– A kişi boşlayın... Bən bundan sonra dinçi olmayacağamki.. unudulmuş şeyi bir də təzədən nəyə xalqın yadına salırsız....

*Allahsız. 1933. №10-11. S.20*

## 1934
## Aprel inqlabının 14 illiyi və mədəni inqlab vəzifələrimiz

Oktyabr inqlabının yavrusu-Aprel inqlabı, imperyalizm təhakkümünə, kapitalist istismarına son qoydu və Azərbaycanda

bütün əməkçilərin bilxassə əməkci gənclərin azadlığını fəth etdi. İnqlaba qədər Azərbaycanda işçi və muzdur gənclər hər hankı bir "mədəni" kapitalist ölkəsindən daha müdhiş və vəhşicəsinə istismar olunurdu. İstər **Bakı** neft sənayeində və istərsə **Gəncə, Nuxa** kimi yerlərdə xırda sənaye müəssəsələrində gənclər və çocuk əməyi "ən ucuz şey"ə çevrilmişdi. Kapitalizm təsərrüfatının ümumi sistemi xarakterinə uyğun olaraq, gənclərin üzərinə hər nev inzibatı təzyiq yapılırdı. Gənclər üçün ictimai-siyasi hüquq deyilən şey yok idi. **12-15 saatlıq iş günü ağır əmək şərayiti, gecə işi, cüzi əmək haqqı, ən adi yaşayış minimumu üçün imkansızlıq – budur o zaman gənclərdə doğan heycan və narazılığın kökü.**

Aprel inqlabı kapitalist, mülkədar, qolçomaq təzyiq və ağalığını dəvirmək, işçi əməkçi kəndli gənclərə azadlıq verməklə kifayətlənmədi. İnqlab eyni zamanda gənclərin inkişafı yaradıcılığı, böyüməsi, aktivliyi üçün geniş imkan və şərayit hazırladı. Bu, çok təbii və proletar diktaturasının zəruri tələbi idi. Firqəmiz işçi və əməkçi gəncləri sınfı mübarizəyə, quruluşa cəlb etməklə ideya və təşkilat cəhətindən möhkəmlətmiş və yetişdirmişdir. İşçi və əməkçi gənclər məsələsi həmişə firqəmizin diqqət mərkəzində olmuşdur. Hələ 1906-cı ildə işçi gənclərin firqəyə gəlmələrinə qarşı menşevik çıkışlara cəvab olaraq, **Lenin yazırdı: "biz gələcək firqəsiyik, gələcək isə gənclərə aiddir. Biz yenilikcilər firqəsiyik, yenilik ardınca isə hamıdan həvəslə gənclər gedirlər. Biz çürümüş köhnəliyə qarşı fədakar mübarizə firqəsiyik, fədakar mübarizəyə isə həmişə birinci olaraq gənclik gedir".**

Komsomol, işçi və kəndli gənclərin kütləvi kommunist təşkilatı olaraq, firqəmizin və onun dahi rəhbəri LENİN və STALİNİN təşkilatçılığı ilə yaranmış və böyümüşdür. **"LENİN və STALİN komsomolu xüsusi qeydkəşliklə böyütmüşlər" (Qaqanoviç). Lenin komsomolu** özünün böyük və şərəfli rəhbərləri və təşkilatçılarının, dahi müəllimi **LENİN** və **STALİNİN** adı ilə fəxr edir, ruhlanır, **mübarizəyə gedir və qələbə çalır.**

Firqəmizin tarixi, Lenin komsomolunun tərbiyəsi üçün ən böyük tərbiyə, təcrübə məktəbidir. Lenin komsomolu firqə baş





xəttinin həyatə keçirilməsində firqə tərəfindən qarşıya qoyulan vəzifələrin leninçicəsinə yerinə yetirilməsində hər cür uklon və opportunizmə qarşı yorulmaz mübarizədə, firqəyə sədaqətdə tərbiyələnmiş, böyümüş, bu günkü mevqeynə, bütün dünya inqlabçı gənclərin avanqardlığına çatmış, proletar ziyalılığı məktəbinə, müxtəlif sahəli dəvlət fəaliyyəti məktəbinə çevrilməkdədir.

Hal-hazırda **nəft və pambıq, kolxozların bolşevik kolxozu, kolxozçuların varlı edilməsi. XVII firqə qurultayı qərarlarının yerinə yetirilməsi əsasında şuralar Azərbaycanının şərqdə nümunəvi cümhuriyyətə çevrilməsi uğrunda döyüşən 130000-lik Azərbaycan komsomol ordusu Aprel inqlabı səngərlərində doğmuş, 14 illik mübarizə yollarında firqə** tapşırıqlarının, 5 illik planın yerinə yetirilməsi əsasında tərbiyələnmiş, böyümüş, möhkəmlənmişdir.

Aprel inqlabından sonrakı bu 14 mübarizə və qələbə illəri içərisində gənclərimizin əldə etdiyi müvəffəqiyyətlər müqayisəyə gəlməz dərəcədə hədsiz-hesabsızdır. Bu illər, Azərbaycanda Lenin komsomolunun, bitərəf işçi və əməkçi gənclərin inkişafı, böyümə, möhkəmləşmə, təşəbbüs illəri olmuşdur. Sosyalizm quruluşunun elə bir sahəsi yokdur ki, orada komsomolun fədakar mübarizəsi hiss olunmasın. Lenin komsomolu bu mübarizədə həyatı dəyişmək yenidən qurmaqla özünü də dəyişir, tərbiyələndirir, yetişdirir. Sınfı mübarizə və sosyalizm quruluşu uğrunda **döyüşdə möhkəmlənmiş və sınaqdan çıkmış 11.000 nəfər komsomolçu AK (b) F sıralarına verilmişdir.**

Biz burada ancaq mədəni cəbhədə komsomolun mübarizə və qələbələrindən bəhs edəcəyik.

**Marks** deyir ki: **"proletaryat dünyanı dəyişməklə öz xüsusi təbiətini də dəyişir".**

**Komsomol, Lenin mədəni inqlabı, uğrunda, cəhalət savadsızlıq, mohumat əleyhinə mübarəzədə dünyanın ən mədəni, ən xoşbəxt, ən yaradıcı, ən irəlidə gedən gəncliyi olmuşdur.**

Komsomolun **"məhsuldar çalışmalı – mədəni yaşamalı"** şuarı təsadifən doğmamışdır. Təsadifi dəgil ki, bu şüar, firqəmiz

tərəfindən: **iqtisadiyyatdan və insanların şüurundan kapitalizm qalıqlarının məhv edilməsi”** vəzifəsinin həlli devrində meydana çıkmışdır. Bu, istehsal qüvvələrinin sosyalistcəsinə təşkili sahəsində əldə edilən ən yüksək iş metodu və yaşayış tərzinin yaranması deməkdir.

Bəziləri – proletar mədəniyyəti ilə burjua mədəniyyətinin fərqini anlamayanlar mədəni yaşamaq şüarını meşşan, abıvatelcəsinə başa düşür. Dar məişətçiliyə qapılır “mədəni”liyi bir kastyuma, yaxud bir otağa sığdırmaq istəyirlər.

Belələrinin fikrincə gəzməyi, toyda özünü aparmağı ibarəli məktub yazmağı cürbəcür modda paltar geyməyi bacarmaq mədəni olmaq deməkdir.

Bəziləri də var ki, mədəni olmaq imkanını yalnız məktəb də skamya dalında, kitabda, kobinədə görürlər. Bunlar müxtəlif nəzəriyyə və formulları əzbərləyir, fərziyyənin nəticəsini çıkarmağı, nəticəyə qiymət verməyi “öyrənir” həmişə qoltuklarında kitab gəzdirir və beləliklə “mədəniləşirlər”. Şübhəsiz ki, mədəniyyəti belə anlamanın – daha doğrusu anlamamanın – proletar mədəniyyəti ilə, Leninizm ilə heç bir əlaqəsi yokdur və ola da bilməz. Proletar mədəniyyəti hər şeydən əvvəl fiziki əmək ilə mənəvi əməyin vəhdətinə əsaslanır. Anlamaq lazımdır ki, proletar mədəniyyətinin binası hələ proletar dəvlətindən, inqlabdan qabaq sınfı mübarizədə qoyulur.

Burjuazya öz sınfı ehtiyacına, mütəxəssis qüvvəsinə olan tələbinə müvafiq və ancaq bu dərəcədə dar çərçivədə mədəniləşmək məsələsini qoyur. Burjua “mədəniyyətçi”liyinin məqsədi əməkçiləri talan etməkdir. **Burjuazya üçün kütlə mədəniyyət işinin passiv obyektidir.** Halbuki, bizdə əməkçi kütlələr sınıfı mübarizə və sosyalizm quruluşunda öyrənir, öz şüurlarını praktikada tərbiyələndirir, teorya ilə praktikanın vəhdətinə əsaslanırlar.

Əməkçi kütlələrin kütləvi surətdə yenidən tərbiyələndirilməsi, onların mədəniyyətinin artması, onlarda kommunist şüuru oyadılması, insanlığın əldə etdiyi mədəniyyətin tənqidi surətdə mənimsənməsi – budur mədəni inqlabın qarşısındakı əsas vəzifələr.





Bu təmamilə **Marks-Engelsin** aşağıdakı dahiyanə tapşırığına söykənir: **“kütləvi surətdə kommunizm idrakı doğurmaq və işin özünü yirinə yetirmək üçün insanların kütləvi dəyişikliyi lazımdır ki, bu da yalnız praktiki hərəkatda, inqlabda mümkündür. Demək inqlab nəinki hakim sınfı başqa vastə ilə dəvirmək mümkün olmadığı, hətta onu dəvirən sınıf yalnız inqlabda özünü köhnə cəmiyyətin bütün çirkinliklərindən təmizləyə bilib yeni cəmiyyət qurmağa iqtidarı olmasına görə lazımdır”.**

Azərbaycan komsomolu, firqənin rəhbərliyi altında və onun qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi əsasında tərbiyələnmiş, möhkəmlənmiş hər cəbhədə olduğu kimi mədəni inqlab cəbhəsində də məğlub edilməz bir ordu olmuşdur.

İnqlab əməkçi gənclər üçün geniş fəaliyyət sahəsi açdı. Əsrlərcə kitab yüzü görməyən türk muzdur, işçi əsrlər boyu çadra altında boğulan əməkçi qadınlıq quruluşumuzda öz işinin ağası olaraq fəaliyyətə başladı.

Proletar devləti hər kəsdən atrıq əməkçi gənclərə çok şey vermişdir. Məktəblər, texnikumlar, darülfünunlar, mədəni müəssəsələr, istehsalat ocaqları və minlərlə bu cür yeni imkanlar hökuməti, quruluşu əlinə alan sınıf üçün öz kadrolarını, öz gənclərini hazırlamaq və yetişdirmək tədbirləridir. Bu yeni imkanlar sayəsindədir ki, 14 illik bir müddət içərisində biz 100 illik inkişaf yolu keçmişik. Bu günkü quruluşda yaradıcı sifətilə iştirak edən gəncliyimiz öz atasının gəncliyinə inqlabdan əvvəlki devrə tarixin ən dərin guşələrinə bakan kimi bakır. Gənclərimiz günü-gündən səviyyəsini, ixtisasını bacarığını artırır, böyüyürlər. Buna görədir ki, proletar gəncliyi arasında talantların elm adamlarının yakşı mühəndislərin, istehsalat rəhbərlərinin, kolxoz təşkilatçılarının qalib təyyarəçilərin, ixtisasçıların, alimlərin yetişməsinə təəccüb etməməlidir.

**“İki-üç il əvəl quruluşa, istehsalata gəlmiş mevsimi deyilən işçimizə bakın. O özünün 2-3 il əvvəlki şəklinə, öz babasının gəncliyinə bakan kimi bakır. Şura varlığı, şəraiti adamları belə iləri aparır. Gənc nəsli belə yetişdirir. Hətta köhnə**

**yurdsuz, xuliqan, oğru bizim quruluşumuzun bütün şəraitilə kökündən yenidən tərbiyələnir yakşı zərbəçi, bəzən də mühəndis olur" (Kosaryev).**

Çok şey veriləndən çok şey də tələb olunur. Bu böyük imkan və şən, azad həyatı bizə verən firqəmiz, inqlabımız öhdəmizə mühüm vəzifələr qoyur. Biz, Lenin mədəni inqlabının təşkilatçıları avanqard əsgərləri və həyata keçiriciləri olmalıyıq. Biz, əməkçi gəncliyin mədəniyyət uğrunda hücumunu təşkil etməliyik. İşçi sınfı və kolxozçuların varlanması maddi yaşayış şəraitinin yüksəlməsilə əlaqədar olaraq, mədəni tələb də atrmışdır.

Bu nə deməkdir?

Bu o deməkdir ki, hər bir gənc işçi, əməkçi, yakşı geyinmək, təmiz yaşamaq, bədən tərbiyəsi ilə uğraşmaq, müntəzəm surətdə qəzetə, jurnal bədii ədəbiyyat okumak, günümüzün siyasi nəzəri səviyyəsində durmaq, radio eşitmək, kino teatroya getmək, mühazirələr dinləmək, mədəni müəssəsələr və yeniliklərdə iştirak etmək istəyir. Hətta o bunların yüksək keyfiyyətli olmasını inadla tələb edir. İşçilər inqlabımızın bütün zənginliklərindən nailiyyətlərindən, sosyalizm vətənimizin bütün zənginliklərindən istifadə etmək və bunların yaranmasında avanqard yeri dutmaq istəyir. Bunlar mədəni inqlab cəbhəsinin aktiv ordusu olan komsomolun öhdəsinə yeni və daha mühüm vəzifələr qoyur. Son iki il içərisində Azərbaycan komsomolu mədəni hücumun genişləndirilməsi, məcburi təhsil üzərində şeflik keyfiyyətinin artırılması. APYC nöqsanlarının açılması gənc yazıçı kadroların yetişdirilməsi, ali məktəb və texnikumlar yarışı, ixtisasçılıq xüsusi təşəbbüslü incəsənət, bədən tərbiyəsi və sairə cəbhəsində komsomolun təşkilatçılıq təşəbbüsləri böyük olmuşdur. Lakin qarşıdakı vəzifələri dutuşdurdukda görülür ki, bu çok azdır. **Biz, xüsusən indi işçi və kolxozçuların tam varlanma yoluna düşdüyü bir zamanda mədəni inqlab cəbhəsindəki tələbi ödəmək üçün daha zərbəli çalışmalıyıq.**

Mədəni inqlab cəbhəsində komsomolun qarşısında hansı konkret vəzifələr durur?





Hər şeydən əvvəl biz hər bir komsomolçunu texnikanı mənimsəmək, siyasi minimumu öyrənmək səviyyəsinə qaldırmalıyıq. Biz, **"quruluş pafosunun, texnikanı mənimsəmək pafosu ilə tamamlamalıyıq" (Stalin).** Bu sahədə Lenin komsomolunun başladığı ictimai-texniki, ictimai-siyasi imtahanı bütün əməkçi gənclərə və işçi kolxozçu kütlələrinə keçirməliyik. **Azərbaycan komsomolu "əla" imtahan verməlidir.**

**Hər bir komsomolçuya orta təhsil! Budur günümüzün zərbəli şüarlarından birisi!**

Bu şüarı həyata keçirmək üçün biz xüsusən kəntdə çok az iş görmüşük. Biz kolxoz komsomolunda mütləq buna nail olmalıyıq. Aprel inqlabı 14 illiyini keçirirkən xüsusən mədəni cəbhədə çalışan komsomolçular öhdələrinə konkret təəhhüdaat götürməli, hər bir komsomolçunun orta təhsilə malik olmasına ciddiyyətlə çalışmalıdırlar

Biz **"mədəni istirahətin bir nev narkomatı olmalıyıq".** Yəni bütün mədəniyyət sarayları klub, istirahət guşələri, bağ, stadiyon, park, məntəqələri düzgün hesaba alıb onların səmərəli istifadə olunmasını təşkil etməliyik. Elə etməliyik ki, bütün mədəni istirahət vəsaiti əməkçi gəncliyin xidmətinə səfərbər edilsin və səmərəli istifadə edilsin.

**4-cü vəzifə** bütün mədəni müəssəsələri (teatro, kino, muze kütübxana) gündəlik nəzarət altına almaqdır. Xüsusən bizdə, Azərbaycanda teatro kino üzərində komsomol təsiri olduqca hiss edilməzdir. Komsomola aid bir dənə də piyesimiz yokdur. 14 illik qəhrəman mübarizəmizin bədii ifadəsi verilməmişdir. Elə etmək lazımdır ki, hər bir komitə təşkilat və hətta hər bir komsomolçu öz ətrafındakı mədəni ocaqların işi və nöqsanı ilə maraqlansın, qeydinə qalsın, mədəni zəngilliyimizin gəncliyin qucağına yeridilməsinə və buna mane olan səbəblərin yok edilməsinə çalışsın. Kütübxanalarda gənc okucuların uçotu aparılsın, onların tələb və xahişi toplansın, əməl edilsin. Mədəni ocaqlar ətrafında gənclərin şəxsi fəaliyyətini genişləndirməli. Musiqi, dram, xor, ədəbiyyat, bədən tərbiyə və sairə dərnək və qruplarının işində komsomol təsir və köm-

yi həll edici olmalıdır. Siyasi şöbələr yanında təşkil edilmiş MƏDƏNİ BAZA-lar kolxoz kəndimizdə mədəni kütləvi işi təşkil edən yeni müəssəsədir. Kolxoz komsomolu bu müəssəsəyə ətraflı kömək etməlidir.

**Beşinci vəzifə** bədii ədəbiyyat sahəsindəki işi genişləndirməkdən ibarətdir. **Kosaryev** yoldaşın iki il əvvəl Ukrayna plenumunda yazıçılara verdiyi tapşırıqlarının necə yerinə yetirildiyini yoklamaq lazımdır. Bu işi gücləndirmək əsasında komsomol gənclər ilə yazıçıların görüşünü təşkil etməlidir. Komsomol ictimaiyyatının bədii əsərlərə kollektiv tənqidini toplamalı. Bədii və dəgərli əsər yaratmaq gənc qəhrəman və bolşeviklərin obrazını vermək uğrunda yazıçılara kollektiv kömək etməlidir.

**Nəhayət altıncı** mühüm vəzifələrdən birisi hər bir komsomolçunun öz həyatını mədəni və yeni əsaslarla qurmaqdan əlavə mədəni yaşamaq və məhsuldar çalışmaq uğrunda aktiv təbliğatçı olmasıdır.

Hər bir əməkçi gənc anlamalıdır ki, **"proletar mədəniyyəti naməlum yerdən araya çıkmamışdır. O, proletar mədəniyyəti sahəsində özlərini mütəxəssis adlandıran insanların uydurması dəyildir. Proletar mədəniyyəti bəşəriyyətin kapitalizm cəmiyyəti, mülkadar, çinovnik cəmiyyəti əsarəti altında tərtib etdiyi bilik ehtiyatının qanuna uyğun inkişafından ibarət olmalıdır..." (LENİN).**

Bütün mədəni inqlab vəzifələrinin yerinə yetirilməsi üçün ən mühüm silah XVII qurultay qərarlarının dərindən mənimsənməsidir. Bunlar hər bir komsomolçu üçün hərəkət, mübarəzə və qalibiyyət proqramıdır. Bunlarla sadəcə "tanış" olmak və bununla kifayətlənmək qətiyyən yaramaz.

Aprel inqlabının 15 illiyinə qədəm qoyurkən hər bir komsomolçu bütün bu vəzifələrin həyata keçirilməsi əsasında öhdəsinə mədəni inqlab təəhhüdatı götürməli, günümüzün aktual, siyasi, nəzəri vəzifələri səviyyəsində durmaq üçün öz üzərində dərindən işləməli, bütün enerjisini bacarıq və istedadını mədəni inqlab cəbhəsindəki vəzifələrimizin bolşevikcəsinə yerinə yetrilməsi ətrafında səfərbər etməlidir. Bu komsomolçunun Aprel İnqlabımızın 14-cü il dönümünə gənc bolşevik hədiyyəsi olacaqdır.

*Gənc bolşevik. 1934. aprel. № 4. S.7-10*





## 1935
## Cabarlı ölməyəcək

– Cabarlı öldü.

Bu xəbər, soyuq bir silah kibi insanın qəlbinə sancılır.

Heç kəsin inanmağı gəlmir. Çünkü, bizimlə bir sırada əyləşib ədəbi hərəkatımızın mühüm vəzifələrini müzakirə edən Cabarlıya birdən-birə nə oldu?

Təəssüf ki, bu xəbər doğru oldu. Böyük sənətkarın qəlbi, minlərcə insanın, böyük sosyalizm ədəbiyyatı xadimlərinin və okucularının istəyi xilafına olaraq çarpmaqdan qaldı...

Ədəbiyyatımız və mədəni cəbhəmiz için nə böyük itgi! Cabarlının simasında biz bu günkü ədəbiyyatımızın ən böyük sənətkarlarından birini itirdik. Ən müqtədir talantlı bir qələm yazmaz oldu.

Bu gün Azərbaycan dramaturgiyasının mübariz əskəri, ədəbiyyatımızın fəxri Cabbarlının cənazəsi qarşısındayıq.

Lakin bizə ən böyük təsəlli verəcək şey varsa o da Cabarlının ölməzliyidir. Cabarlı ölməmişdir, ölməyəcəkdirdə. Onun fiziki yokluğu, bizim aramızdan getməsi uğrunda mübarizə etdiyi işi daha səbatla davam etdirmək üçün hər birimizdə daha artıq səfərbərlik doğurur. Ədəbiyyatımızın yeni, gənc qadroları Cabarlının böyük xidmətini mənimsəyəcək, onu daha yüksək pillələrə çatdırmaqla sənətkarın xatirəsini əbədiləşdirəcəkdirlər.

*Ədəbiyyat qəzeti. 1935. 2 yanvar*

## Qüdrət nümayişi

**"Karl Marks"**

Bu adı qara və qabarıq köksündə, qələbə ordeni kibi, daşıyan gəmimiz sularda süzərək arxasında gümüş iz buraxırdı. Tərk etdi-

yimiz sahil şəhəri, camlıq, qayalıqlar və sarı torpaqlı yamaclar dənizə qərq olurmuş kimi alçalır, kiçilirdi. Onezski gölünün ortasına çatdığımız zaman qara tamamilə nəzərdən itmişdi. Nə sahil, nə də sahili andıran əlamət var idi. Günəş göylərin dərinliyindən enib gəlmiş, başımız üstündə duraraq yolumuzu işıqlandırır, kürəyimizi isindirir, ürəyimizə təsəlli verirdi:

– Az qaldı, bu saat çatacaqsınız!

Sanki günəş qızıl qələm ilə bu sözü atlas qanatlı suların zümrüd sinəsinə yazır. Maraq, sevinc, intizar içində çırpınan yolçuları əyləndirmək istəyirdi. Lakin onlar, eşitməyir, əylənməyirdilər. Nədənsə hamı – Vaşenqtondan buraya qədər yolları zərif rəqs hərəkətləri ilə bəzəyən, qəlbləri incə mahnılarla sərinlədən, gözləri bəzən iti, bəzən məsum nəzərlə oklayan və avlayan, qulaqlara şaqraq gülüşlər verən teleqrafistqa, gözlüyünə yalvaran qoca professor, gənc müəllim, alim, matros, jurnalist işci, səyyah bir sözlə hamının diqqətini bir hədəfə toplamışdır. Adamlar gəminin baş tərəfində sıxlaşıb boylanır, dənizə bakırdılar. Onlar, sulardamı, sahildə, üfüqdə yaxud gəmidən sallanan uzun kölgələrdəmi, nə isə axtarır, nə isə görmək istəyirdilər.

– Görünür!

– Qaralan deyilmi?

– Kanala oxşamır, kömür dağıdır nədir...

Adamlar qırıldaşır, gəmidə böyük təlaş və həyəcan oyanır. Göyərtəyə qalkır, baş tərəfə qaçır, binokulları çıxarırlar.

– A yoldaşlar qabağı kəsməyin!

Yolu vəravurdlayan kapitan binoklu gözündən endirərək qarşıda sıxlaşan adamlara səslənir heç kim eşitmir, dinmir, gəmiçi daha bərk qışqırır.

– Kapitan baxır, yoldaşlar. Kənar dursanız!

Kəndir məcərə söykənmiş sarı saç qız tələsik və amir səsilə gəmiçiyə cavab verir:

– Kapitan hər gün bakır, biz ömrümüzdə bir dəfə bakırıq. Elə dəyilmi yoldaş!..

Bu cavab ümumi gülüşlə təsdiqlənir a l q ı ş l a n ı r gəmimiz kanalı gördüyü, bizdəki sevinci hiss etdiyi üçünmü, başına topla-





nan adamların ağırlığından dincəlmək üçünmü, nə isə daha iti gedir. Uc tərəfdən qara bizi əhatə edir. Camlar, daşlı yarım adalar, taxta evlər, yerin lobəri kibi kənarımıza atılır get-gedə bizi suyun dar dərbəndinə itələyir qucaqlayırlar.

Budur, **Ağ dəniz Baltik kanalının** darvazası qarşısındayıq. Kənarlarda bu böyük və fateh işinin təşəbbüskar təşkilatçısı dahi Stalinin əzəmətli şəkli görünür: gəmidən qopan alqış səsləri sulara yayılır. Kanal işçiləri salama durmuş tabor kibi gəmini qarşılayır, yol açırlar.

Biz ilk darvazadan keçir, kanalın ilk siyuzunda dayanırıq.

Mən bu kanal haqqında çok şeylər okumuş və az şey okumamışdım. Hətta bir qəzetə məqaləsini yarımçıq burakıb kalkmışdım ki, “həddindən artıq şişirdirlər”. İndi heyrət içindəyəm. Köhnə canilərin – zərərçi, oğru, əksinqilabçı, xuliqan, qolçomaq, qatil, bandit, aferist aldadıcıların – bütün əti qanı ilə yıkmağa, dağıtmağa hazır olan adamların əlilə tikilmiş bir nəhəng qarşısındayam. Heç bir məqalə və ya risalənin bu nəhəngi hələ tam əzəmət ilə təsvir edə bilmədiyini yəqin edirəm.

– Qatil əllərin əsəri!

Yok deyirəm, qatil əllərin əsəri qanlı və başsız cəsədlər ola bilər. Burada böyük bir qüdrətin, təşkilatçılıq istiqamətləndiricilik qüdrətinin hakimliyi duyulur. Təbiət selləmələri, dağınıq meşə, göl, qayılıqlara, yaraşığa yad olan yerlərə qarşı texnika, sənət və quruculuğun son sözü ilə silahlanmış Ağ dəniz Baltik kanalı inşaatının hər daşı, hər qarış taxtası, torpağında bolşevik təşkilatçılığının müstəsna rolu görülür. İnanırsan ki, insan əməyi, kapitalizm şəraitində yırtıcılığa sərf olunan insan enerjisi, böyük məqsədlər uğrunda təşkil olunduqda **“ecazlar verərmiş”** inanırsan ki, **“insan cildini dəyişir”** insanın **“məğrur səslənməsi”** zamanı çatmışdır.

Gəmidən çıxaraq quruluş kombinatı boyunca kanal sahilinə yayılan müxtəlif peşəli, eyni məqsədli səyyahlar gəzirlər. Kimi boylanıb cilovlanmış suyun ayağını görmək, kimi kəməndləmiş yerin qandamarlarını seyr etmək istəyir. Gümüş şəkillər arasında əkilmiş çiçəklər və aralarındakı daş şüarlar diqqətimizi cəlb edir.

İki yaşlı müzedə 20 əsr bundan əvvəlki əsər və abidələri təhlil və qiymətləndirici elmi işçilər bizi qəbul edir. Böyük quruluşun qısa lakin maraqlı tarixindən danışırlar. Bu otaqda **"göllər ölkəsi",** "cavan **Qareliya** cumhuriyyətinin tarixini danışan abidələr, insanlar, yazılar o birisində kanalın yaranma tarixini, böyük işin ilk günlərini söyləyən şəkillər.

**Tarixdə, insan yaradıcılığını həmişə bu ehtiyat və səliqə təqib etsə idi həfriyyata, arxeoloji mübahəsələrə hər daşın okunması üzərində baş sındırmalara nə ehtiyac vardı?**

Səyyahların imzaladığı dəftərə bakırsan. Burada 11 millətin imzası, minlərlə dost və yad adamların mülahəzəsi var.

Bizi kanalın yarım kilometr kənarındakı **plotinlərdən** birinə bakmağa aparırlar.

Hələ uzaqdan şosse yolu kibi uzun və alçaq, geniş təpələrin kənarında ak daşlarla yazılmış şüarları oxuyuruq. Bu şüarların hər hərfi bir heykəl qədər böyük və əzəmətlidir. Sətri başlayıb, bitirmək üçün piyadə uzun yol getmək ya da paraxod ilə getmək lazımdır. Platində əsrlər boyu aşıb-daşmış, şəhərlə, səhralar basmış, fəlakətlər törətmiş suyun vəhşi at kibi buxoyladığını gözülə görürük. O, bilməyir, insan əlinin qüdrəti ilə güləşmək, bəndini qırıb kükrəmək aşıb-daşmaq və həyatı basmaq istəyir.

Lakin o acizdi; Bütün inadı və qüvvəti ilə dəmir və daş divarlara çarparaq narın, ağ zərrələri ilə göyə sovrulur. Vəhşi suyun hücumunu təsəvvür edin.

Güman edirsən ki, bu böyük quruluşda təkcə insanlar dəyişmir. Yalınız cinayətkarlar əmək adamına çevrilib sosyalizm uğrunda döyüş əsgərləri cərgəsinə keçmir. Həm də su, əsrlər boyu şimal buzluq və soyuqlarından bəslənib böyümüş quduz dağ və səhra suları da "laboratoriya"dan plotindən ötərək "tevbə" edir, cəmiyyətin böyük idealarını xidmət üçün ən kiçik işə belə boyun əyəcəyinə and içir.

"Avropanın jandarması" çar hökumətinin, həbs, sürgün, ölüm və fəlakət yuvası yapdığı uzaq şimalda indi məharətli bir bağbanın, təbiəti yaradan insanların ehtiraslı fəaliyyəti hiss olunur.





Məscidsiz, kilisasız 20 yaşlı yeniyetmə, cavan bir şəhəri Murmanskini unutmaqmı olur? Bütün sutkanı gündüz keçən bu şəhərdə, zənn edirsən ki, heç kəs yatmır.

Uzaq şimalda 20 il içərisində 105 min nifuslu, 8 mərtəbə binaları, universal mağazaları, böyük mədəni müəssəsələri ilə böyüyüən şəhər sizi təəccübə salmasın. Murmansk yalnız isgələ deyil, o balıq sənayesi, dəri emalatı, meşə sənayesi, kübrə sənayesi ilə bütün dünyada tanınır.

Daha maraqlı ikinci şəhər – şimalın yarım çıplaq dağları arasında yenicə salınan və adına layıq sürətlə böyüyən **KİROVSK** şəhəridir. Bu şəhərin beş yaşı tamam olmamışsada şərqin min illərcə bundan əvvəl tikilmiş şəhərləri ilə yarışa bilər.

Tundralara, tayqalara, şimal stixiyasına qalib gələn işçi sınfı təbiətin bütün zənginliklərini vəhşi dağlar və zəlzələli yerlərdən çəkib alır, hər şeyi müasir əməkçilər dilinə tərcümə edir. Burada tələsə-tələsə apatit zavoduna inşaat işinə, mədənlərə işə gedən işçilər 2-3 il əvvəl əmək və həyat düşməni cinayətkarlar idilər. Onlar bu yeni şəhərə alınlarında cinayətkar möhürü ilə gəlmişdilər. Onlar, bolşeviklər tərəfindən təşkil olunmuş əmək və enerjisini sərf edərək alınlarından lənət möhürünü silir, yeni insan olmaq istəyir və olurlar. Çok çəkmir ki, bu çocuk şəhər ittifaqımızın başqa qocaman işçi mərkəzləri kibi qəhrəmanlar şəhəri olar. Nə olaydı **KİROVSK** şəhərinin gəncliyini xoşbəxt gələcəyini görmək də bizə qismət olaydı.

*Ədəbiyyat və incəsənət. 1935. 27 oktyabr.S.2*

## 1936
## Tarixi bir gün

Sosyalist vətənimizin yeni Stalin Konstitusiyası hazırdır!

Bu xəbər bizi nə qədər sevindirir, nə qədər həyəcanlandırır, "Keçilmiş mübarəzə və məhrumiyyətlər nəticəsində qələbələrimizin səmərəsindən bəhs edən öz Konstitusiyamızın olması xoş və fərəhlidir. Adamlarımızın nə üçün çarpışdıqlarını və aləmşümul

tarixi qələbəni necə əldə etdiklərini bilmək xoş və fərəhlidir. Adam fərəhlənməklə qalmır, adamın qəlbi alovlanan mübarəzə həvəsi ilə qaynayır.

Silahlanmaq, kommunizm ideyasının bütün dünyada təntənəsi uğrunda bütün qüvvətilə çalışmaq, çalışmaq istəyirsən. Konstitusiyamızın hər sətrində bir qalibiyyət dastanı, hər kəlməsində bir qızıl qəhrəman görünür.

Bütün bunlar sovet yazıçısını ilhamlandırır. Biz, yeni Konstitusiya yaradıcılarının xoşbaxt həyatı əldə etmək uğrunda fədakarlıqla çarpışan qəhrəmanların bədii ifadəsini verməliyik. Biz, vətənimizin keçirdiyi mübarəzə günlərini təsvir etməliyik. İnkişafımızın yolunda duran düşmənləri ifşa etməliyik.

Məni düşündürən vəzifələr bunlardır. Yeni Konstitusiyada sovet Azərbaycanının müttəfiq respublikalar dərəcəsinə yüksəlməsi bizdən layiqli əsərlər tələb edir. Mən şəxsən sovet Azərbaycanın da revolüsiya uğrunda döyüş günlərini və bu günlərin şərəfli qəhrəmanlarını, maraqlı hadisələrini yazmaq arzusundayam. Bu arzunu həqiqətə çevirəcəyəm. Çünkü, yeni Konstitusiya "Bizim işçi sınfımızı, kəndlilərimizi, əməkçi intelligensiyamızı mənəvi cihətdən silahlandırır" (STALİN).

*Ədəbiyyat qəzeti. 1936. 11 noyabr*

## 1937
## Yazıçılarımız qəzetmiz haqqında

"Ədəbiyyat qəzeti" – sovet ədəbiyyatımızın görkəmli fituhatındandır. Gəncliyinə bakmayaraq o, bütün respublikamızda özünü tanıtmış, ədəbiyyat maraqlılarının diqqətini cəlb etmişdir. Yeni başlayanlarla işin ilk təşkilatçılarından olmuşdur. Yazıçıların tanınmasında və ədəbiyyat qələbələrimizin möhkəmlədilməsində böyük rol oynamışdır.

Lakin ədəbiyyat hərəkatımızın həqiqi təşkilatçısı olmaq üçün "Ədəbiyyat qəzeti" çok işləməlidir. O, özünü yaradıcılıq məsələlərinə, ayrı-ayrı yazıçıların həyat və yaradıcılığına, görkəmli əsərlərin təhlil və tənqidinə, ədəbi praktikamızın yolunu nəzəri cəhətdən işıqlandırmağa çevirməlidir. O, yazıçıları öz ətrafına toplamalıdır. Ədəbiyyat cəbhəsində düşmən təsiri qalğılarına, ədəbiyyatı zibilləməyə çalışan qabiliyyətsiz, boş adamlara, xalturaçılara, sənətə adi peşə kibi bakanlara qarşı, mübarəzə işinə başçılıq etməlidir. Xalqımıza layiq həqiqi doluqanlı sənət əsərləri yaradılması uğrunda çalışmalıdır. Sənətin nüfuzunu qaldırmağa çalışmaqla öz nüfuzunu da artırmalıdır.

*Ədəbiyyat qəzeti. 1937. 18 aprel. S.2*

## 1938
## Mənim parlamentim

Özümü ideya aləmində, mənəvi həyatda duyuram: yazdır, dan atılır, saf, sakit, sərin və xoş bir səhər açılır. Üfüqlərdən gənclik, sevinc, mahnı və səadət yağır. Adama elə gəlir ki, varlıx bundan ibarətdir. Gecələr, köhnə dünyanın zülmat deyilən qaranlıxları, fəlakət, işgəncələr sanki yox imiş. Bu səadət səhəri o qədər əngin və işıxlıdır ki, başlanan günəşli gündüzün əbadiliyinə şübhə etmirsən... Kirov parkının təmiz, geniş xiyabanları, əlvan çiçəklikləri, daş pilləkənlərin başında əyləşən tamaşa salonları, oyun, sport meydançaları, uşaq stadionları səhərin qızıl şəfəqləri altında daş-qaşa tutulmuş saraya bənzəyir. Sanki hər şey, kayinatın bütün gözəllikləri, zənginlikləri, öz tükənməz qucağını açmış, dünyanı yaradan insanları, əmək qəhrəmanlarını, hər gün burada əylənən və dincələn minlərcə şən oğlan və qızları gözləyir. Budur, fəvvarəli hovuzun kənarında bir dəstə adam əyləşmişdir. Danüzü, şəhərin bu oğlan vaktında parkın bu sakitlik, səssizliyində sulara, sonalara, səhər şüalarına vurulanlar kim ola?

Onların içində qoca da var, gənc də, kişi də var, qadın da. Kimi saqqalıdır, kiminin əlində əsası, kiminin qoltuğunda kitab, kimi gül iynəyir, kimi tamaşa eləyir. Bu müxtəlif boylu, müxtəlif geyimli müxtəlif yaşlı adamların çöhrəsində, şəfəqlərdən əks olunmuş kimi, bir işıx, bir mənalı şadlıx, bir sevinc, bir məğrurlux vardır.

Azərbaycanın əzizləri, ədəbiyyatımızın, şeirimizin klassikləri – ədiblər, şairlər – o gözəllik aşıxları, o həqiqət carçıları xalqımıza üz verən böyük əbədi bir xoşbaxtlığın bayramında iştiraka gəlmişlər.

Hamı buradadır. Lakin Məmməd Füzuli hələ gəlib çıxmamışdır, hamı onun yolunu gözləyir.

Füzuli əsrlərdən bəri öz doğma vətənindən nigaran idi. Çünki, onu istilacı atlarının ayağı altında, xanların, xaqanların təpikləri altında tapdanan, "Seyli sitəmdən xarab" halda qoyub getmişdi. Füzuli, xalqı sarıdan narahat idi, çünki paşaların, şahların, əmirlərin – cəlladların əlində əsir, "fələkdən başına daşlar yağan" halda görmüşdü. Onun zamanəsində "doğrulux əyri qılınc tək yanda qalmışdır", "Alilər xaki məzəllətdə, dənilər mötəbər" idi. "Şeirin bazarı kasad olmuşdu".

Dahi şairin böyük arzularla dolu qəlbi ümidsizliklə, kimsəsizliklə boşalmışdı. Təbində, dühasındakı nəhəng qüdrəti ilə zülmə, haqsızlığa üsyan edən şairin səsi boğulmuşdu. Füzuli "dərdi çox, həmdərdi yox, düşməni güclü, talei zəbun, dostu bipərva, quruluşu rəhmsiz" görüb "dərd əlindən dağlara çıxmışdı". Həqiqətə susayan tərlan könlündən üzr istəmişdi ki, "bu qəfəsdən mən səni əlbəttə azad eyləyərəm..."

Lakin nə şahların ölüm gətirən hökmləri, nə ruhanilərin həyasızlığı, nə qorxu, nə aclıq, nə təhqir, nə tənhalıq, nə göz yaşları o böyük insanın məğrur başını əyə bilmişdi. O, haqsızlıqlarla dolu mühitinə qarşı sinə gərmişdi. "Qəm karvanının başçılığını" boynuna almışdı. "Ahının baltası ilə fələyin binövrəsini sökmüşdü", "Min dağı bir dırnaq ilə qoparıb atmışdı", "Çırağının fitilini iliyi ilə yandırmışdı", "Hər salamdan rüşvət gözləyənlərə", "sözü kobud, zatı pis olanlara", "şairi və xalqı" həqir sayanlara qarşı Füzulinin dahi cavabı bu idi:

Səadəti əzəli qabili zəval olmaz
Günəş yer üstünə gər düşsə payimal olmaz.

Füzuli deyən düz çıxdı. "Səadəti əzəli", xalqın, zəhmətkeşlərin səadət və azadlıq günəşi sönmədi. İyirminci əsrin iyirminci ili





muşdulux kimi gəlib çatdı. Qürbətdə intizar çəkən, xalqına yanan Füzulinin arzuları bahar görmüş güllər kimi göyərməyə başladı.

Bəşəriyətin xilaskarları, revolyusiyamızın dahiləri Lenin, Stalin bütün sovet ölkəsi ilə birlikdə Azərbaycanı istilaçılardan, qaniçənlərdən təmizlədi. Lenin, Stalin bütün sovet xalqı kimi Azərbaycan xalqını əsirlikdən qurtardı, ağ günə çıxartdı. Sovet Azərbaycanının azadlıq, şənlik, xoşbaxtlıq günləri, əsl inkişaf günləri başlandı.

Füzulinin və hər bir xalq aşiqinin bundan da böyük bayramı ola bilərmi? Füzuli Bağdadda necə dayansın ki, onun vətəni, qardaş rus xalqının köməyi ilə Şərqdə nümunəvi bir respublika olmuşdur. Füzuli Bağdadda necə dayansın ki, onun vətəni dünyalara səs salmışdır; Şərqin qapısında azadlıq mayakı kimi parlayır. Füzuli, adı dillərə düşən vətənini görməyə gəlir.

Şairlər əziz qonağı qarşılamağa tələsirlər: Nizami ağır bir təmkin ilə dayanıb günəşə baxır, Nəbati, Füzulinin hüzurunda oxumaq üçün "görüş" şeyiri yazır. Sabir baxçada gəzinib tez-tez saata baxır. Vaqif, Vədadi parkı seyr edirlər. Cəfər Cabarlı sevincindən dayana bilmir. Dəqiqə başı yola qaçıb piləkənlərdən aşağı baxır, qayıdıb Mirzə Fətəliyə, Molla Nəsrəddinə nə isə deyir. Abbas Sihhət dahi Puşkindən etdiyi tərcümələri oxumaq fikrindədir. Mirzə Fətəli özünün əlifba proyektini Füzuliyə göstərməyə hazırlaşır. Aşıq Ələskər sazını kökləyir.

* * *

Cəfər Cabarlı böyük bir ehtiram və sevinclə Füzulinin əlini sıxır. Onun qoca əllərində bir möhkəmlik, qətilik hiss edir. Onun uzun, nəcib barmaxlarına diqqət edir, fikrinə gəlir ki, "Bu barmaxlar sənət üçün yaranmışdır. Bu barmaxlar insan qəlbini çalmaq, onun tükənməz mahnısını səsə salmaq üçün yaranmışdır. Qaranlıq keçmişə, həqiqətin, sənətin qədrini bilməyənlərə lənət!".

Şairlər, ədiblər Cəfərin dalınca yola düzəlirlər. Cəfər onları Sovet Azərbaycanının paytaxtında gəzdirir. O, özünə məxsus utancaq bir əda ilə deyir:

– Yoldaşlar, ekskursiyamızın temasını deyim: "vədə deyil faqtdır!" Bu tema ilə, bu marşrut ilə gedəcəyik.

Şairlər, ədiblər, "M 1" və "ZIS" maşınlarında gəzirlər. Heyrət və sevinclə Azərbaycan xalqının revolyusiyamızın yaratdıqlarına baxırlar. Onlar öz ölkəsinin, öz dövlətinin, öz istehsalatının ağası olan fəhlələri şair məhəbbəti ilə öpürlər. Tarla qəhrəmanlarına – Bəstilərə, Manyalara, millionçu kolxozlara mahnılar deyirlər. Hər addımda onları sovet injenerləri, sovet rəssamları, sovet ədibləri, alimlər, pilotlar, kompozitorlar, təşkilatçılar qarşılayırlar. Bir pioner, xalqın sevincini və ruhunu ifadə edən nitqində deyir:

– Biz, Lenin-Stalin əsrinin adamları çox xoşbaxtıq. Biz bir də ona görə xoşbaxtıq ki, dünyanın, tarixin böyük simalarının yüksək və müqəddəs arzıları - sosyalizm arzıları, azadlıq arzıları, bərabərlik arzıları, xoşbaxtlıq arzıları, qardaşlıq arzıları, birlik arzıları, sülh arzıları, kultura arzıları, işıqlıq arzıları ancaq bizim əlimizlə, Lenin-Stalin partiyasının əlilə, sovet xalqının əlilə həyata keçdi.

Pioner cəmaətdəki diqqəti gördü, gənc qəlbində alovlanan sevinc ehtirası ilə səsini ucaltdı:

– Qoy dahi Füzuli gəlsin, Leylisinin Məcnun ilə xoşbaxt həyatını, təmiz eşqin, sədaqətin qələbəsini seyr etsin! Mirzə Fətəli gəlsin, kultura saraylarını, yeni əlifbasının təntənəsini görsün. Böyük Sabir vaktilə "bir loğma çörək üçün ağlayan" uşaq əvəzinə minlərlə talantları, sovet uşaqları üçün yaranan yeni inkişaf dünyasına baxsın, Abbas Sihhət, "qanadı sınmış quşlar" əvəzinə, döşü ulduzlu polad quşlarımızı, qütb fatehlərimizi, paraşyutçularımızı alqışlasın.

Şairlərin, ədiblərin alqış səsi ucaldı, xalq da onlara qoşuldu. Pionerin səsi alqışlar içində itəndə gurultu səsi eşidildi, cəmaət göyə baxdı. Sabir Vaqifdən soruşdu:

– Ustad şair, bunlar sizing durnalarınızdır, ya Vədadinin?

Vaqif gülümsədi, Cəfər cavab verdi;

– Böyük müəllim - dedi - bunlar sizin "hürriyət qartallarınızdır". Siz həyatınızın sonunda böyük bir arzı bəsləmişdiniz. Sizin azadlıq, qurtuluş əməllərinizi sovet xalqı fakta, həqiqətə çevirdi.





Füzuli soruşdu:

– Bu gurultu nədir?

– Bugün, dedilər, ümumxalq bayramıdır. Bugün sovet Azərbaycanının birinci parlamenti açılır. Xalq Stalinin şərəfinə nümayişə çıxır. Bugün böyükdən kiçiyə hamının bayramıdır.

Şairlər, ədiblər nə dindilər, nə danışdılar, tribunaya qalxdılar. Onlar, əsrlərcə bəslədikləri arzıların həqiqət olduğunu görən adamlar, ömürlərini köhnə dünyanın zülm və işgəncəsi altında keçirən adamlar qanatlanmış quş kimi fərəhdən uçurdular. Onlar tribunadan danışmaq, öz səslərini böyük Stalinə verdiklərini bildirmək, xalqın tükənməz sevinc bayramına şərik olmaq istəyirdilər.

Füzuli əlini qaldırmışdı, sankı danışmaq üçün sükut arzılayırdı. Alqış səsləri isə susmurdu.

Bu halda Füzuliyə teleqramma gətirdilər. Bağdaddan idi, "təcili qayıtmasını" tələb edirdilər.

Böyük şair, qaşlarının altında dərinləşmiş gözlərini teleqrammaya dikdi, iti, mənalı baxışı ilə bir müddət baxdı, üzünü katibinə çevirib dedi:

– Cavab yaz, yaz ki, mən qayıdası olmadım. Vətənim qəmqüssədən qurtulmuşdur. Mənim azad sovet parlamentim açılır. Mən vətənimin ağ günlərində, azad xalqımın dil açmış tutisi, gülünə çatmış bülbülü olub xalqıma nəğmələr ötəcəyəm. Mən qayıtmayacağam.

*Ədəbiyyat qəzeti. 1938. 18 iyul. №33*

## 1939
## Bloknot qeydləri

Böyük ədibin, Mirzə Fətəli Axundovun vətəni və vətəndaşları onun yubileyini, onun xatirəsini və onun mirasını çox əziz tuturlar. Şəhərə girən kimi bunu hiss edirsən. Görkəmli yerlərdə Axundovun böyük portretləri asılmışdır. Bütün istehsalat – ictimai idarə və müəssisələrdə yubiley axşamları təşkil edilir. Əsərlə-

ri əldən-ələ gəzir. Savadlılar bu kitabları sevə-sevə, bəziləri dönə-dönə, oxuyurlar. Savadı az olanlar səhnədə görməyə tələsirlər.

Güman etməzdim ki, rayon teatrında ədibin ən yaxşı komediyasını, "Hacı Qara"nı bu qədər doğru traktofkada, bütün tamaşaçıları təmin edən bir şəkildə oynayalar. "Hacı Qara"nı qətiyyən oxumayan və görməyən bir adam, bu tamaşaya diqqətlə baxsaydı, əsəri anlar, Axundovun fikirlərini başa düşərdi. "Hacı Qara" rolunu və Kərəməlini oynayan yoldaşlar tamamilə yetişmiş, məharətli artistlərdirlər.

Bizi bir evə apardılar. Bu köhnə, alçaq, kirəmitli evin şəklini mən qəzetlərdə görmüşdüm. Uzaqdan bu bina, qanat gərmiş qartala oxşayır. Yüz iyirmi beş il əvvəl, həmin bu evdə, xalqımızın böyük oğlu, yeni kulturamızın binasını qoyan Mirzə Fətəli anadan olmuşdur. O, iki yaşına qədər burada yaşamışdır. Evin qapısına, astanasına, dərin pəncərələrə; qədim, rəngi getmiş divarlara baxdıqca, körpə Fətəlini, yenicə dil açan və xəyalı kimi bu qaranlıq evdə oynayan, yıxılıb qalxan, ağlayıb gülən uşağı görürəm. Mən hər şeyə diqqətlə baxıram. Sanki o böyük adamın uşaqlıq hərəkətləri, körpə günləri daşda, torpaqda, köhnə qablarda donub qalmışdır. Sanki bu sınıq, yamaqlı kasada Fətəlinin su içən balaca dodaqlarını, kasanın kənarlarından yapışan körpə barmaqlarını görməyə çalışıram.

Bu evdə, simaca Mirzə Fətəliyə çox oxşayan bir qoca yaşayır. Bu, böyük ədibin qardaşı oğlu Mirzə Ələsgərdir. Saçı, saqqalı ağarmışdır. Qocalıq və xəstəlik onu kitab kimi bükmək istəyir, lakin onun maraqlı səhifələri aydın oxunur.

Mirzə Ələsgər təngənəfəslikdən çətin danışırsa da, sinəsi söz ilə doludur. O ruhən cavandır. Özü dediyi kimi, bu xoşbaxt gənclər içərisində yaşamaq arzu və ehtirasları ölməmişdir. Əksinə, yenidən alovlanmışdır. O, əmisinin yubiley təntənələrini böyük bir fərəh ilə qarşılayır. Bu haqda demək və eşitmək istəyir. Bizə yer göstərir. Bir-bir soruşur, tanış olur. Sonra ağır-ağır qalxaraq köhnə bir dəftər gətirir, cildini geri qatdayır, məndən xahiş edir:





– Zəhmət çəkin, qeyd dəftəri kimi bir şey olsun; beş-altı kəlmə yazın: adınızı da yazın. Gələcəkdə lazım olacaq. Mirzə Ələsgərin yasdığının başında böyük bir kağız qovluğu vardır. Yubileyə aid əlinə keçən bütün qəzet, jurnal, şəkil və vəsiqələri qoca səliqə ilə yığmışdır.

O xatirələrini danışır. Boğuq və xışırtılı səsi ilə bildiklərinin hamısını, xırda təfsilatına qədər demək istəyir; çox ehtiyatla danışır:

– Bilseydim ki, bir zaman bu söhbətləri axtaran olacaq, bilseydim ki, Sovet hökuməti belə böyük işlər başlayacaq, atamın dediklərinin kəlməsini də buraxmazdım. Ondan Mirzə Fətəliyə aid hər şeyi öyrənib yazardım. İnsan nə bilsin. Kim deyərdi bizim bu kasıb xanımanımıza dəstə-dəstə əziz qonaqlar gələcəkdir. Qocanın yalançı şahidlərdən zəhləsi gedir. O, ancaq gördüyünü və inandığını deyir.

Biz çıxmamış məktəblilər gəlirlər. Onlar, yazıçının qohumlarına, əllərində nə isə hədiyyə gətirirlər.

Qocanın bir təklifi vardır:

– Mən istəyirəm, - deyir - Mirzə Fətəlinin evini əbədi xatirə yeri eliyək. Burada ədibin adına bir muzey təşkil edək. Mən də bu qoca vaktımda, burada, həvəsimə, ruhuma yatan bu işdə oturum. Ömrümün axır günlərini o kişinin yolunda keçirmək mənim üçün də böyük şərəf olar.

Rayon təşkilatları Mirzə Ələsgər əminin bu təklifini alqışlayırlar.

* * *

Rayon pioner evinə getdik. Pioner evi, həm də sənət və yaradıcılıq evi!

Pionerlər evində, yeniyetmələr ailəsində mən şöhrət axtaran görmədim. Onlar, yalnız öyrənmək həvəslərini və bacarıqlarını nümayiş etdirməyə, qonaxları öz işləri ilə tanış etməyə çalışırdılar.

Qoca bir əlişi müəllimi var idi. Qolundan tutub başqa bir otağa apardı. Bu otaqda, avtorlarının doğrudan da çox qabiliyyətli

olduğunu göstərən əlişləri var idi. Bu əsərlər yalnız hazırkı temalarına görə yox, əsasən incə işlənmələrinə, originallıqlarına, rənglərin tənasibinə, uşaq zöqünün yetginliyini ifadə etdiklərinə görə çox maraqlı idi. Tikmə rəsmlər içində, məşhur poemasını yazmaqda olan Şota Rustavelini, M.F.Axundovu, müxtəlif təbiət mənzərələrini görmək olar.

Şəhərin yuxarı hissəsində, ipəkçi fəhlələrlə, Mirzə Fətəli Axundovun yubileyinə həsr edilmiş bir yığıncaq keçirdik. Burada, böyük və uzun bir zalda yığılanlar içində, cavan və komsomolçu fəhlələr çox idi. Tənqidçilər demişkən "məhəlli qolcriti yüz prosent ifadə edən" qızlar isə iclasın bir tərəfində, oğlanlardan ayrı kimi oturmuşdular. Məktəblilər də böyüklərə qoşulub gəlmişdilər. Fəhlələrin çoxunun əlində partiya tarixinin qıssa kursu kitabı, Axundovun əsəri, qəzet var idi. Bir gödək boy, yumru sifəti, iti baxışlı sağlam oğlan ilə tanış oldum. O, işləyirdi, axşamlar isə staxanovçular məktəbində oxuyurdu. Məktəbi qurtaran kimi Sənaye Akademiyasına gedəcəyini söyləyir; yazıçıların əsərləri haqqında mənə ərk ilə suallar verirdi.

Bəzi fəhlələr Axundovun yalnız həyatını deyil, ayrı-ayrı əsərlərini də bilirdilər. Məruzəçi əsərin adını çəkməmiş, onlar Mirzə Fətəlinin məşhur dialoqlarını biri-birinə pıçıldayıb gülürdülər.

Son illərdə Nuxanı görənlər içində Həkim babanı tanımayan az tapılar. Bu həmin Həkim babadır ki, kofe qutusunda gizlədib xaricdən gətirdiyi barmaq boyda limon qələmindən minlərlə limon ağacları yetirmiş, böyük bir bağ salmış, özündən başqa bir çox limon ustaları böyütmüşdür.

O, yetmişə yaxın yaşlı qoca, lakin sap-sağlam, diribaş, möhkəm, əyilməz bir kişidir. İndiyə qədər xəstəlik nə olduğunu bilməz. Səkkiz övladı var, səkkizi də durur, səkkizi də sağlamdır.

Həkim baba, limonu da övladları kimi sevir, əzizləyir, qayğı ilə bəsləyir. Uşaqlardan biri yaxşı dedi: "Bu kişinin bütün bioqrafiyasından limon iyi gəlir". Bəsləyib yetirdiyi ağacın səxavətlə verdiyi məhsulu, hər biri yarım kilo gələn balaca yemişə oxşayan





limonları qonaqlara bağışlarkən bir "bəh bəh!" eşidəndə, Həkim babanın canı rahat olur. O, balasına layla çalan analar kimi limona şeir demişdir:

*Mən aşıqam limona*
*Sitruslara, limona*
*Neçə yerdə bağ salıb,*
*Gətirmişən nümunə.*
*Bu bağ bağımdı mənim*
*Qonaq otağımdı mənim*
*Altmış səkkiz yaşım var*
*Çox cavan çağımdı mənim.*

Onun təcrübələrini aqranomlar təsdiq edib yayırlar. Bu Azərbaycan subtropikinin əməyinə Sovet hökuməti layiqi qiymət vermişdir. Onu təltif etmişlər, ona bir maşın hədiyyə etmişlər.

Nuxanın istehsalat, təsərrüfat müəssisələrini, kultura müəssisələrini gəzdikcə, yeni iısanlarla tanış olduqca, onların böyüməsini, inkişafını gördükcə adam şad olur.

İstər - istəməz adamda bir arzı doğur:

– Nə olaydı, yubileyini keçirdiyimiz Mirzə Fətəli sağ olaydı. İndi onun yüz iyirmi beş yaşı olardı. Saçı-saqqalı düm ağ ağarmış, üzü nurlu kişi, şübhəsiz qocalığına baxmayaraq, bu təntənələrimizdə, bu xalq bayramında bizimlə bərabər iştirak edərdi. Köhnə karvansara Nuxasının, Hacı Qaralar şəhərinin ölümünə, xan saraylarının məhvinə; azadlıq, bərabərlik, kultura, elm, sənət, həqiqi insan həyatının qələbəsinə yağan alqışlar, o qoca və nəhəng qəlbi dəniz kimi təlatimə gətirərdi. Mirzə Fətəli əl qaldırıb söz istərdi. Biz onun qoltuğuna girib tribunaya qaldırardıq. Uzaq görən gözləri ilə sovet nəslinin şənlik simasına baxar, uzun və bükülməz qolunu irəliyə doğru uzadar, həzin, səmimi qoca səsi ilə deyərdi:

– Yaşasın STALİN!

*Ədəbiyyat qəzeti. 1939. 15 yanvar. №2*

## Bədii ədəbiyyat nəşrini tələblərimiz səviyyəsinə

Böyük Maqsim Qorkinin şərəfli tradisiyalarını mənimsəyən və onun işıqlı yolu ilə gedən sovet ədəbiyyatı, partiyamızın rəhbərliyi və Stalin yoldaşın gündəlik qayğısı sayəsində gündəngünə inkişaf etməkdə, sosyalizm quruluşuna xidmət işində özünü göstərməkdədir. Bu yaxınlarda SSRİ Baş Soveti Prezidiumunun fərmanı ilə 172 yazıçının ordenlərlə təltif edilməsi buna ən parlaq sübutdur.

Azərbaycan sovet ədəbiyyatının ilk etaplarında biz, bir kitabla, bəzən bir şeirlə fəxr edirdiksə, indi qüvvətli və adlı-sanlı sovet yazıçılarımız yetişmişdir. İndi hər bir sovet yazıçısının bir neçə mühüm əsəri vardır. Azərbaycan sovet yazıçılarının bədii əsərləri – romanları, dramaları, poemaları, şeirləri yalnız Sovet Azərbaycanında deyil, Sovet İttifaqının başqa yerlərində də maraqla oxunur və qiymətləndirilir. Yazıçılarımız bununla fəxr edirsə də, heç də bununla kifayətlənmirlər. Onlar Stalin epoxasının tələblərinə uyğun, xalqımızın yüksək ideya və kultura səviyyəsinə layiq qüvvətli əsərlər vermək üçün çalışırlar. Bunun üçün də onlar partiya və hökumətimizin atalıq qayğısı ilə əhatə olunmuş və onların inkişafı üçün ölkəmizdə geniş şərait yaradılmşdır.

Ancaq qeyd etməlidir ki, Azərbaycan Dövlət Nəşriyyatının işçiləri öz işlərində sovet yazıçıları ilə ayaqlaşa bilmirlər. Azərnəşrdə istər klassiklərin və istərsə də müasir yazıçıların əsərlərinin vaktında nəşrinə lazımi əhəmiyyət və diqqət verilmir. 1936-cı ildən bəri heç bir il bədii ədəbiyyat nəşri planı yerinə yetirilməmişdir. Bu illərdə bədii ədəbiyyat şöbəsində Səməd Vurğun, M.Rahim, R.Rza, Rəfili, Sarıvəlli və başqalarının bir kitabı da çap olunmamışdır. Halbuki, həmin yoldaşların yazdığı əsərlər Azərnəşrdə yatıb qalmaqdadır. Sovet şairlərinin yazdığı “Lenin və Stalin haqqında şeirlər” məcmuəsi 1938-ci ildən mətbəədədir. Ordubadinin “Gizli Bakı” romanı 1934-cü ildən, “Dünya dəyişir” romanı 1938-ci ildən Azərnəşrdədir. Rahimin şeirləri məcmuəsi





1938-ci ildən, Səməd Vurğunun şeirlər məcmuəsi 1938-ci ildən, Mirzə İbrahimovun “Böyük demokrat” kitabı 1937-ci ildən nəşriyyatda yatıb qalmaqdadır.

Bu siyahını davam etdirmək də olar.

Sovet oxucusu bu əsərlərin çoxu haqqında eşitmişdir; bu kitabların çoxunu oxucular səbirsizliklə gözləyirlər.

Şübhəsiz ki, bədii ədəbiyyat nəşrinin bu cür ləngidilməsində, yazılmış əsərlə oxucu arasında belə uzun illər fasiləsi yaratmaqda, vaktilə Azərnəşrə soxulmuş əclaf düşmənlərin xain əli olmuşdur.

Xalqın qəddar düşmənləri partiyamızın rəhbərliyi ilə iç üzləri açılaraq darmadağın edildilər.

Sovet yazıçılarının əsərləri nə üçün vaqtında çap edilmir? Buna, Azərnəşrin bədii ədəbiyyat şöbəsi işçilərinin pis işləməyindən və bu şöbənin üzərində rəhbərliyin zəifliyindən başqa bir bəhanə varmı?

Təəccüblü burasıdır ki, dahi şair Füzulinin əsərlərı külliyyatı 1937-ci ilin əvvəlindən Azərnəşrin mətbəəsində qaldığı halda, bir il bədii ədəbiyyat şöbəsi müdiri vəzifəsində çalışan Əyyub Abasov və Azərnəşrdə Baş Mətbuat İdarəsi nümayəndəsi vəzifəsində çalışan C.Gözəlov özlərinin yazdıqlarını istədiyi zaman “xiridə” vermişlər.

Görəsən, Azərnəşrdə işləyən yoldaşlar bu barədə nə düşünürlər?

Bizim fikrimizcə, bu uyğunsuzluqları və geridə qalmağı Azərnəşr işçiləri “obyektiv” səbəblərlə doğrulda bilməzlər. Çünki, heç bir bəhanənin yeri yoxdur və ola da bilməz. Sovet yazıçılarının əsərləri xalqımızın fikir və duyğularının ifadəsidir. Bu əsərlər xalqın öz malıdır. Bu əsərləri ən kıssa bir müddətdə oxucuya çatdırmaq, bədii ədəbiyyat nəşriyyatı işçilərinin başlıca vəzifəsidir.

Azərnəşr rəhbərləri, bədii ədəbiyyat şöbəsində çalışan yoldaşlar bu vəzifənin öhdəsindən gələ bilmirlərsə, sovet yazıçılarının, sovet ədəbiyyatının sürətli inkişafı qarşısında onlar yenə də

köhnə qayda ilə işləməkdə davam edirlərsə, biz buna qətiyyən dözə bilmərik.

Biyabırçılıq orasındadır ki, yazıçılar ittifaqının başçıları da bədii produqsiyamızın nəşri işi ilə ciddi məşğul olmağa "vaxt tapmırlar". Bu barədə olan şikayətlərə yazıçılar ittifaqında "köhnə söhbət" kimi baxır və qulaq ardına salırlar.

Biz, Azərnəşrdə gecikdirilən əsərlərin tezliklə çap edilib oxuculara çatdırılmasını tələb edirik. RSFSR-də və başqa müttəfiq respublikalarımızda olduğu kimi, bədii ədəbiyyat nəşriyyatının Azərnəşrdən ayrılmasını, bədii ədəbiyyatımızın inkişafı səviyyəsinə layiq yeni və qüvvətli bir bədii ədəbiyyat nəşriyyatı yaradılmasını vacib bilirik.

"Kultura və revolyusiya" jurnalının aylıq, qalın və müntəzəm bir jurnala çevrilməsini yaxud "Roman - qəzeta" tipində yeni bir proza jurnalı çıxarılmasını lazım bilirik. Bunun üçün ordenli respublikamızda hər bir şərait vardır.

**Mir Cəlal, H.Mehdi, Ə.Əbülhəsən**
*Kommunist. 1939. 11 mart. №57*

## 1941
## Vətən oğlu
*Əmək cəbhəsi qəhrəmanlarından*

12 nəfərlik qazıma briqadasına yaxınlaşırsan, cavan, orta yaşlı, hətta qocaman işçiləri görürsən, güman edirsən ki, buruq ustası Rüstəm həmin bu qocaman işçilərdən biri olacaq. Ancaq yanaşıb soruşursan, hamı, o yanda, başı aşağı məşğul olan göy köynək oğlanı göstərir.

Stalinneft tresti qazıma kantoru fəhlələrinin əzizi, ordenli və qabaqcıl usta Rüstəm Rüstəmovun otuz yaşı vardır. Lakin zahirdə isə o, lap cavan bir komsomolçuya oxşayır. Simasında uzun və ibrətli təcrübələr görmüş adamlara məxsus xoş bir təmkin vardır. Onun bolşevikə layiq təvazöü bu təmkini bir az da artırır. Rüstəmdən nə istəyirsən soruş, ancaq özü haqqında, müvəffəqiyyəti haqqında soruşma.





– Nə var, – deyir, – vəzifəmizdən artıq bir şey eləməmişik ki!

Fəhlələr və injener – texnik işçilər isə Rüstəmin işindən sevinc və iftixarla danışırlar.

Rüstəm 1933-cü ildə qazıma kantoruna gələndə, lap cavan idi. Neçə illər adi fəhlə işlədi. Üzüyola, zirək, işini sevən bu gənc bir çox ustaların diqqətini özünə cəlb etmişdi. Buruq ustası Nazarov hətta Rüstəm ilə fəxr ədərdi: "Bu, sabah hamımızdan yaxşı usta olacaqdır!" - deyərdi. Elə də oldu. Rüstəmi ləyaqətinə görə buruğun ustası təyin etdilər.

Vətən müharibəsi günlərində Rüstəmin işi, qayğısı, ciddiyyəti qat-qat artmışdır. Molotov yoldaşın radio ilə çıxışını dinləyən kimi o, briqada üzvlərini başına yığıb söhbət aparmışdı:

– Yoldaşlar, buranı görürsünüzmü, bu quyunun başı da bir səngərdir, cəbhədir! Niyə cəbhədir, çünki neft məsələsi var! Voroşilov yoldaş demiş ki, kimin aeroplanı güclüdürsə, o, ümumiyyətlə güclüdür. Bu dava başqa davalara bənzəməz. Burada maşın çox iş görür. Aeroplanı, tankı da neftsiz, benzinsiz tərpət görüm, necə tərpədirsən! Buna görədə ölkəyə, Qızıl Orduya daha çox neft verməliyik. Bizim neft quyusu qazımağımız, faşistlərə qəbir qazımaq kimi şeydir. Nə qədər çox qazısaq, tez qazısaq, yaxşı qazısaq, düşməni o qədər tez məhv edə biləcəyik...

Rüstəmin izahatından sonra fəhlələr müzakirəni uzatmaq istəmədilər. Hamı işdən daha möhkəm yapışmağı qərara aldı.

Briqada o gündən işə daha ciddi girişərək çox mühüm bir buruğu vaxtından 41 gün qabaq qazıdı. Vətəni müdafiə üçün qaynayan neft bulaqlarının biri də artdı.

Rüstəm, Sovet İnformasiya Byurosunun vətən müharibəsi qəhrəmanlarımız haqqındakı məlumatını eşidəndə, sinəsi qızıl ulduzlu sovet təyyarəçilərini görəndə nə qədər sevinirsə, qazıdığı buruqlarda rekord sürət əldə etdiyinə də o qədər sevinir.

Ona görə də, Rüstəm ən qabaqcıl istehsalatçılarla yarışır. Ağa Nemətulla ilə yarışda üstün gəldikdən sonra, Rüstəmin briqadası Donbas kömürçüsü, məşhur Zayirskini yarışa çağırmışdır.

Rüstəmdən soruşsan ki, "işdəki müvəffəqiyyətlərinizə səbəb nədir?" O, üzünü yuxarı tutaraq, Bakinin, sahil boyu uzanan bu nəhəng şəhərin mənzərəsini göstərər: "Bakinin adına layiq işimiz olmasa, bizə bakili deməzlər!" Rüstəm də, onun briqada üzvləri Borisov, Qaranja, Səlimxanov və başqaları da gözəlcə bilirlər ki: Baki, sovet vətəninin döyünən qəlbidir. Baki, böyük vətən müharibəsinin döyüş cəbhələrinə yanacaq verən şəhərdir. Bunu lazımınca düşünüb dərk etmək, işi buna münasib qurmaq Rüstəmin müvəffəqiyyətinin əsas səbəbidir.

Leninqradı müdafiə edənlərin məktubunu da Rüstəm çox böyük həvəslə oxumuşdur. Onları, məsafəcə uzaq, qəlbən bizimlə bir olan o vətən qəhrəmanlarını, Lenin şəhəri müdafiəçilərini xatırlayanda Rüstəm dərhal silah götürmək, oraya yüyürmək istəyir. Həmin hiss ilə səsini bütün Baki zəhmətkeşlərinin səsinə qataraq, Lenin şəhəri vətəndaşları qarşısında öhdəsinə təəhhüdlər götürür, daha böyük sürətlə, daha artıq ciddiyyətlə işə girişir. Rüstəm neft cəbhəsində olduğu kimi, döyüş meydanında da komandir olacaqdır. O, komsomolda böyümüş, ordu təlimi görmüş, bərkə-boşa düşüb-çıxmış oğlandır. İşdən sonra Rüstəmi təlimdə görərsiniz. O, xalq qoşunu dəstələrində kiçik komandirdir.

Mədəndə, buruqlar arasında Rüstəmin və xalq qoşunundan olan başqa komandirlərin gur səsini eşidəndə adam xoş bir hiss ilə coşur: sovet yurdunun əsgəri ilə vətəndaşı, ordusu ilə xalqı, cəbhəsi ilə arxası, döyüş cəbhəsi ilə əmək cəbhəsi birdir, vahid və yenilməz qüvvədir. Bu gün buruq ustası və briqadir olan Rüstəm Rüstəmov sabah lazım gələrsə döyüş komandiri olacaqdır. Buna söz ola bilməz. Ona da şübhə yoxdur ki, Rüstəm döyüşərkən də, indiki kimi ad-san qazanacaqdır. Çünki Rüstəm vuruşmağı işləməkdən az bilmir. Çünki Rüstəm, vətən torpağını qəddar düşmənlərdən qorumağı leninqradlılardan, odessalılardan öyrənir. Çünki Rüstəm vətənin sədaqətli, ləyaqətli oğullarındandır.

*Kommunist. 1941. 28 sentyabr*





## Xalqın ürək sözü

Böyük vətən müharibəsi günlərində, sovet xalqının öz doğma yurdunu, öz azadlığını, səadətini, öz xoşbaxt həyatını qaniçən qerman faşizmindən müdafiəyə qalxdığı bir gündə istər-istəməz xalqımızın tarixi ənənələri adamın xatırına gəlir. Bu gün cəbhələrdə nemes işğalçıları ilə döyüşən və müstəsna qəhrəmanlıq nümunələri göstərən Kamal Qasımovların, Məzahirlərin və yüzlərlə başqa vətən oğullarının hünərini gördükcə ata-babalarımızın, ümumiyyətlə, bütün xalqımızın mübariz məğrur keçmişi yada düşür.

Azərbaycan xalqının tarixi həmişə həqiqət, ədalət uğrunda mübarizə tarixi olmuşdur. Gənclər və qocalar, qadınlar və kişilər öz ömürlərinin, yaşayışlarının məna və məzmununu; istilaçılara, zalimlərə, zorakılara, xalq əmək və səadətinin qəsbkarlarına qarşı döyüşlərdə görmüşlər.

Bu şərəfli tarixi bizə hər hanki şahiddən daha doğru və daha parlaq bir dil ilə söyləyən el nağıllarımız vardır.

"Koroğlu", "Nəbi", "Dədə Qorqud" və sairə kimi qəhrəmanlıq dastanlarından başqa bizdə xalis məişət və sevgi temasında yazılmış çox nağıllar var ki, bunların özü Azərbaycan xalqının mənəvi yüksəkliyini, onun ümumbəşər əhəmiyyəti olan çox böyük fədakarlıqlarını göstərən bədii sənədlərdir.

Hər kəsə məlum və məşhur olan "Məlik Məmməd" nağılında xalqın xeyirxahlıq, alicənablıq duyğuları, səadət üçün çarpışmaq mənfi qüvvələr ilə ölüm-dirim mübarizəsinə girişmək zərurəti ifadə olunmuşdur. Məlik Məmməd güclü və məğlubedilməz, əbədi bir xalqdır. Quyuda rast gəldiyi ağ divlər, əjdahalar isə həyat düşmənləri, səadət oğrularıdırlar. Məlik Məmmədin gördüyü gözəl qızlar həmin səadətin özüdür. Ağ qoyunlar ağ gün, qara qoyunlar qara gün timsalıdır.

Meyvəsi gənclik və qüvvət gətirən alma ağacı isə xalqın həmişə həsrətini çəkdiyi və uğrunda yorulmadan mübarizə apardığı müqəddəs məqsədlər, azadlıq, səadət, istiqlaliyyətdir. Alma ağacının insana cavanlıq gətirən, qocanı gəncləşdirən bir meyvəsi

vardır. Məlik Məmmədin atası bu meyvənin yetişməsini gözləyir. Ancaq hansı həramilərsə bu meyvəyə dadanmışlar, yetişən kimi onu oğurlayırlar. Alma sahibinə qismət olmur. Ata oğlanlarını növbə ilə gözətçi qoyur. Böyük və ortancıl oğlan yuxulayır, almanı qoruya bilmirlər. Nəhayət kiçik oğlu - Məlik Məmməd bu işin öhdəsindən gəlir. O, heç kəsin fikrinə gəlməyən ağıllı bir tədbir görür. Barmağını kəsib yarasına duz basır ki, gözünə yuxu getməsin. Bu tədbir sayəsində almanı, yəni ailənin səadətini oğurlayan ağ divi tapır. Quyuda onunla pən-pəncəyə gəlir. Qırx gün, qırx gecə mübarizədən sonra düşməni məğlub edir.

Məlik Məmmədin bu qələbəsi birdən-birə olmur. Ağ divin ətrafında olan bütün qara qüvvələr ona qarşı dururlar. Məlik Məmməd xəyanətə rast gəlir. Onu qaranlıq dünyaya, əjdahalar məskəninə atırlar. Lakin Məlik Məmməd məğlub olmur. Çünki o, öz səadəti uğrunda vuruşarkən eyni zamanda məhkum olmuş qızları divlərdən, quşları əjdahalardan xilas edir. Bir sözlə, gəldiyi yerlərə ədalət əmin-amanlıq gətirir. Xalqın arzu və istəklərinə əməl edir. Xalq onunla fəxr edir. Onun sayəsində mənfi qüvvələrin hücum və təcavüzündən qurtarır.

Nəhayət, Məlik Məmməd bütün düşmənlərini məhv etdikdən sonra, qələbə bayramından ibarət olan toy məclisi düzəldir. Xoşbaxt bir həyat qurur.

Eyni motivlər "İbrahim"in nağılında da vardır.

Biz "Məlik Məmməd" və "İbrahim" nağıllarında bir çox cəhətdən xarakter və parallel olan epizodları alaq.

Hər şeydən əvvəl ona diqqət etmək lazımdır ki, Məlik Məmməd də, İbrahim də ümumi bir iş üçün vuruşurlar. Onlar xalqın, əhalinin səadətinə mane olan ağ divlər ilə, həramilər ilə, əjdahalar ilə vuruşurlar. Onların şəxsi, xüsusi interesləri bu ümumi iş ilə müəyyən olunur. Ümumi düşmən, həm də onların səadətlərinin, sevgilərinin, ailələrinin düşmənidir. Ona görə də qəhrəmanlar ilk qələbə ilə kifayətlənmirlər. Onlar ağ divin can şişəsini qırmamış, əjdahanı parçalamamış, tilsimi sındırmamış, xalqdan oğurlanan əmlakı, adamları qaytarmamış qılınclarını qına qoymur, rahat olmurlar.





Adama cavanlıq verən alma nədir? Nə üçün ələ keçmir, nə üçün sahibinə qismət olmur?

Bu alma xalqın əməyidir. Ömür boyu çəkilən ağır zəhmətin, tökülən alın tərinin, qabarlı əllərin, ağır illərin məhsuludur. Məlik Məmmədin ailəsi, yəni xalq öz əlinin əməyindən məhrum edilmişdir. Təsadüfi deyil ki, bu ailə yüksək bir ehtiras ilə almadan danışır, onun həsrətini çəkir. Təsadüfi deyil ki, atanın ən igid oğulları alma uçün qaravul çəkirlər, yenə nəticə vermir.

Çünki bu almanı - xalq səadətini qəsb etmiş, yiyələnmiş, mənimsəmişlər. Əvvəllər Məlik Məmməd ailəsinin qayğısı alma oğrusunu tapmaq idi. Bu vəzifəni kiçik oğul yerinə yetirdi. Lakin əsl iş bu müdhiş, bu qüvvətli və amansız oğrunu məhv etmək idi. Ağ div, məlumdur ki, bütün nağıl və əfsanələrimizdə mənfi qüvvələrin ən qəddarı, ən çirkinidir. Bu, demək olar ki, xalqın nifrət və qəzəbindən yaranmış, qəsbkarları, istilaçıları, zorakıları, qatilləri, həyat və səadət düşmənlərini təmsil edən, müasir faşizmi andıran bir obrazdır. Qəhrəmanların qələbəsini təmin edən əsas faktor qocaların tədbiri olur.

Bu qocalar kimlərdir?

Bunlar xalq nümayəndələri, xalqı təcəssüm etdirən simalardırlar. Bunlar zəngin təcrübə, bilik sahibləridirlər. Uzaqgörən, təmkinli, tədbirli, səbrli adamlardırlar. Bunlar dostu da, düşməni də dərhal tanıyırlar. Yolların haradan ayrıldığını, haraya gedib çıxdığını bilirlər. Keçmişi söyləyir, hal-hazırı qiymətləndirir, gələcəkdən xəbər verirlər. Nağıllarda bu qocalar öz idrakları, ağıllı məsləhətləri sayəsində bütün çətinlikləri yox edir, əl çatmaz məqsədləri ələ gətirirlər. Ona görə də xalqda, kütlə arasında bunlara qarşı böyük hörmət və etimad vardır. Onların göründüyü yerlərdə məğlubiyyət yoxdur. Ancaq onların sözünü eşitməyənlər basılır, peşmançılığa düşürlər. Əmir Aslanın nağılında xain bir vəzir haqqında söhbət gedir. Bu xain, Əmir Aslanın atasına zəhər verib öldürür, özü taxta çıxır. O zamanlar uşaq olan və kimsəsiz qalan Əmir Aslan böyüdükdən sonra öz atasının mülkü, səltənəti uğrun-

da, həm də vəzirin qızına olan məhəbbəti uğrunda mübarizə edir. Düşmən çoxdur, qüvvətlidir. Dövlət, qoşun, silah, məmləkət hamısı düşmən əlindədir. Əmir Aslan təkcə öz cəsarəti və rəşadətinə arxalanaraq padşaha qarşı durur. Şahın əmri ilə Əmir Aslanı mühasirə edib tutmaq istəyirlər. O isə gücünə, qolunun qüvvətinə güvənir. Onu hər şeydən artıq ruhlandıran öz haqqı uğrunda mübarizə aparmasıdır. Qəsbkar vəzirin hərbə-zorbasından qorxmur, qılıncını çəkib özünü düşmən qoşununa vurur. Cəsarət və mərdliklə vuruşaraq düşməni məğlub edir və atasının səltənətini ələ keçirir. Burada da Əmir Aslan eldən, xalqdan kömək alır. Tək-tənha böyük bir qoşun ilə vuruşmağa məcbur olduğu, ağır vəziyyətdə qaldığı bir zamanda özünün, atasının xeyirxahları köməyə gəlir, başqa bir tərəfdən düşmənin səflərini yarırlar.

Xalq nağıllarımızda mühüm yer tutan məsələlərdən biri də istilaçılara qarşı mübarizə məsələsidir. Bəzi nağıllarda bu tema müstəqill olaraq qoyulur. Bəzilərində isə epizodik bir hadisə kimi, qəhrəmanın sevgi macərası ilə, talei ilə bağlı verilir.

Bu temada olan nağıllarda qəsbkarlara qarşı son dərəcə yüksək xalq qəzəbi, kin və nifrət hissi ifadə olunur.

İstilaçı nə qədər güclü, nə qədər qüvvətli olur-olsun, onun zəif və ən xəstə bir cəhəti vardır. O da istilaçı, qəsbkar olmasıdır. O, nə qədər qəddar, nə qədər qansız, amansız olur-olsun, xalq onunla mübarizədə yeni-yeni qüvvələr tapır.

Bu cəhətdən "Qara vəzirin nağılı" maraqlıdır. Burada Sənubər adlı gözəl və şahzadə qızdan, onun uğrunda gedən mübarizədən danışılır. Tarix boyu istilada məşhur olan Lemsə padşahının oğlu qoşun yığıb gəlir ki, Sənubəri mən alacağam. Nə Sənubər ona getmək istəyir, nə də şah nemes padşahı ilə üz-üzə gəlmək istəyir. Nemes qoşunları isə tökülüşüb gəlir. Ölkəni istila etmək istəyirlər. Sənubərin atası bu barədə məsləhət, məşvərət məclisi çağırır. Pəhləvanlar, sərkərdələr isə nemes qoşunlarına qarşı vuruşmağa hazırdırlar. Şah bu qorxulu düşməni məğlub edən sərkərdəyə hədiyyə vəd edir və deyir ki: "Kim lemsə padşahının qoşununu





sındırsa qızım Sənubəri də ona verəcəyəm" Bəbir adlı cəsur bir pəhləvan irəli yeriyib bu vəzifəni öhdəsinə götürür. Şah, Bəbir pəhləvana qoşun, sursat verib düşmənin qabağına göndərir. Bəbir pəhləvan düz bir ay nemes qoşunları ilə vuruşur. Axırda düşməni məğlub edib qovur, vətəni təhlükədən qurtarır. Şah da vədəsini yerinə yetirir. Sənubəri Bəbirə verib dəsgahlı toy məclisi qurur.

Hadisədən məlumdur ki, bu toy əslində bir bayramdır, böyük bir xalq bayramıdır. Çünki xalq, istilaçının başını əzmişdir, yurdu təhlükədən qurtarmışdır.

Bu gün, böyük sovet xalqımız qudurğan qerman-faşist işğalçılarına qarşı müqəddəs vətən müharibəsi apardığı bir gündə, xalqımızın bütün tarix boyu öz azadlığı, öz müstəqilliyi, öz səadəti uğrunda apardığı mübarizələr daha parlaqlığı ilə nəzərimizdə canlanır. Bu gün cəbhələrdə igidcəsinə vuruşan, düşmənin tankını dağıdan, təyyarəsini salan, topunu susduran, sıralarını yaran qızıl əsgərlərin aslan cəsarətini gördükdə xalqmızın Babək, Koroğlu, Nəbi, Şirzad, Əmir Aslan, Bəbir və sairə kimi böyük oğulları yada düşür. Hal-hazırdaki vətən müharibəsinin qızıl döyüşçüsü vətəni qorumaq işində tarixləri heyrətləndirən qəhrəmanlıq nümunələri göstərir.

Bütün sovet xalqları ilə birlikdə Azərbaycan xalqı da öz igid oğullarını şanlı sovet vətənimizin müdafiəsinə silahlandırmışdır. Bizim əsgərlərimiz top, tüfəng, tank və təyyarədən başqa daha qüvvətli bir silaha malikdirlər. O silah da əsgərlərimizin, vətən oğullarının öz ana sovet vətənlərinə, öz torpaqlarına, öz xalqlarına əbədi bağlı olmalarıdır. Vətən müharibəsi döyüşçülərinin hər birinə aydındır ki, bu gün azadlığımızı, yurdumuzu, qələbələrimizi qorumaq, düşməni məhv etmək uğrunda hər bir fədakarlıq sənətə və əbədiyyata layiqdir. Düşmən əzildikdən, vətən təhlükədən qurtardıqdan sonra, bu fədakar oğulların, qızların hər birinin adına yeni-yeni dastanlar yaradılacaqdır. Vətən qəhrəmanları haqqında mahnılar isə həmişə xalqın ürək mahnısı olmuşdur.

*Ədəbiyyat qəzeti. 1941. 7 noyabr*

## 1942
## Ölümdən betər

Yırtılmış meşokdan taxılmı tökülür, qar üstündə ip sürünür, ya fırfıra səsidirmi?

Xışırtını yaxşı seçə bilmədim. Dayanıb dinlədim, deyəsən heç bir şey yoxdur. Sanki bayaqdan bəri məni məşğul edən səs, quru bir vahimə imiş.

Heç bir şey görməsəm, heç nə eşitməsəm də zənnimdən əl çəkə bilmirəm: Axı yarım saat əvvəl buradan qarışıq səslər gəlirdi. Nə dildə isə danışırdılar. Cəmisi 10-15 dəqiqə olmaz ki, mənim yaxınlaşdığımı duyub qaçan addım səsini eşitdim. Yenə bir şey xışırdayırdı. Mən onun üstünü elə aldım ki, qaça bilməzdi. Bəs nə oldu? Yerəmi batdı, göyəmi uçdu. Budur, bu qar çiçəkli ağacların altında olacaq, qorxudan cınqırını çəkmir...

Bəlkə də heç insan deyil, azmış bir ov iti, çöl pişiyidir, bəlkə vəhşi heyvandır...

Yoldaşlarım qaçan düşməni təqib edir, atışır, hərdən səslənirdilər. Vaxt keçdikcə bu səslər məndən uzaqlaşırdı. Mən qaraladığım ağaclıqdan əl çəkə bilmirdim. Mənə elə gəlirdi ki, burada, nəsə bir fitnə-fəsad var, düşmən öz murdar izi ilə kim bilir nə fənd işlətmək istəyir. Bir xeylək gözlədim, gözümü qar basmış ağaclara, seyrək kolluqlara tikib qalmışdım. Qış gecəsinin şaxtası bütün şiddəti ilə kəsirdi. Ara-sıra haralardan, uzaqlaşmaqda olan cəbhə xəttinin harasındansa azıb gələn güllələr, soyuqdan qorunmaq istəyən quş kimi başını qara soxur, buxar iyi çıxarırdı.

Qalxıb getmək istədim, iki addım yeriməmişdim ki, ağac gövdəsindən qara bir şeyin aralandığını, qarşımda dayandığını gördüm. Qaraltı əllərini yuxarıya qaldıranda bildim ki, adamdır, düşmən saldatıdır.

Onun aldığı vəziyyət indi də gözümün qarşısındadır. Əllərini bərk-bərk göyə qaldırmışdı. Az qalırdı paltarının qoltuğu sökülsün. Başını arxaya tərəf əymişdi. Güman edərdin ki, o vacib bir mətləb üçün Allah dərgahına dua edir, sidqi dil ilə göylərə yalvarır.





Mən onu qabağıma qatıb gətirirdim, fikirləşirdim, gülməkdən özümü saxlaya bilmirdim. “Sən demə xışırdayan yırtıq meşok, ya sürünən ip bu imiş. Bu boyda adamın hərəkəti, niyə gərək ilan kimi xışırdasın...”

Bu gün ələ keçirdiyim qənimət arıq, qızdırmalı, nazik bir rumın saldatından ibarət idi. Budur o mənim qarşımda, əli-əlüstə dayanmışdır. Qorxusundan, taqətsizliyindən ya üşüdüyündənmi, qılçalarının büküyü açılmır, yarım çöməlmiş kimi dayanmışdır.

– Adın nədir?

– Qavriel.

– Nəçisən?

– Kəndli.

– Nə millətsən?

– Rumın.

Rumın deyəndə mənim qəzəbim daha da artdı. Qanun qorxusu olmasaydı, bəlkə də onun nəfəsini kəsərdim. Ancaq mən qəzəbimi suallarımla soyutmağa çalışdım. Onun yerini soruşdum. Evlərindən buraya qədər olan məsafəni soruşdum:

– Nə istəyirsən, – dedim, – bizə nə vermisən, ala bilmirsən? – Onun dil-dodağı əsdi. Əllərini yana açdı, boynunu əyib yazıq bir vəziyyət aldı:

– Heç bir şey, – dedi, – ağa heç bir şey!

– Bəs niyə qışın günündə titrəyə-titrəyə 2 min kilometrlik yol gəlmisən, axı bura Rumıniya deyil, Ukraynadır. Buranın sahibi var, onu bilirsənmi?

Qavriel əsim-əsim əsməyə başladı. Deyəsən o, silahdan, ölümdən o qədər qorxmurdu ki, mənim suallarımdan qorxurdu. O, bəlkə də həqiqət ilə üz-üzə gəldiyini, düşdüyü cinayət yolunun çirkinliyini hiss edirdi. Nəsə demək istəyirdi, ancaq söz tapa bilmədi.

Onun dərinlərə çökmüş, solğun gözlərindən iki damla yaş axdı.

Bu isti damlalar qorxudan idimi, vahimədən idimi, bilmirəm. Ancaq onu bilirəm ki, bu damlalarda, ha vaqt isə insan olmuş, ailə, övlad sahibi olmuş, zəhmət ilə dolanmış, sonradan isə qatilə çevrilmiş, canavarlaşmış bir məxluqun faciəsi vardır.

Qavriel deməsə də mən inanıram ki, rumın kəndlisinin sovet kəndlisi ilə heç bir ədavəti olmamışdır, ola da bilməz. O deməsə də mən inanıram ki, Qavriel kəndli ikən saldatlıqdan yaxşı dolanırdı. O zaman tox idi, əyni qalın idi, keyfi saz idi. O zaman ailəsinin yanında idi. Dörd uşağını istədiyi kimi bəsləyib böyüdürdü. Qavrielin göz yaşlarında bu həqiqət parlayır.

Ancaq həmin göz yaşları indiki Qavrielin deyildir. İndiki Qavriel qatildir, canidir. O, əlində silah, ölkələr addayıb, şəhərlər basıb gör haralara, sovet Ukraynasına, bizim əmək, azadlıq, dinclik sevən kəndlərimizin üstünə gəlmişdir.

Doğrudur o, Antoneskudan, Hitlerdən şikayətlənir. Özünü bu kökə salan "rəhbər"lərinə lənət oxuyur. Biz də bu lənətə şərikik. Bütün dünya Hitlərə lənət oxuyur. Ancaq Qavriel bilməmiş deyil ki, bu lənətlər onun şəxsən öz cinayətini azaltmır. Əksinə, onun nə alçaq əmələ mürtəkib olduğunu təsdiq edir. Bunları, aydın həqiqətləri Qavrielin üzünə çırpanda göz qapaqları enir, başını aşağı salır, ixtiyarsız yerə çökür. Adama elə gəlir ki, indi də o, yerə yalvarır. "Ayrıl, – deyir, – yer, ayrıl, məni basdır, əzablardan qurtar!".

Qavriellər həmişəmi belə yazıq vəziyyətdə olurlar?

Güman etməyin!

Bəlkə də onun əlinə yenidən silah keçsə, bəlkə də o, mənsub olduğu banditlər dəstəsinə qaytarılsa əfi ilana dönər, üç ildən bəri cəbhələrdə etdiyi cinayətləri davam etdirər!

İndi o, rus və Ukrayna kəndlisinə qardaş deyir. Kim şübhə edə bilər ki, iyunun 22-dən bəri, həmin bu "yazıq" görünən saralmış, qocalmış, üzü tüklü canavar, neçə-neçə kəndlinin qatili olmuşdur. Antoneskunun qorxusu, Hitlerin hiyləsi onun yürüşlərinin ilk ilhamıdır. Sonralar isə Qavrieldə yeni-yeni ehtiraslar doğmuşdur. O, rus kəndlisini qarətə gəlmişdir. Əsgər çantasını qənimətlə doldurmağa, evinə "tapılma" şeylərdən bağlamalar göndərmək arzusuna düşmüşdür. Cəbhələr genişləndikcə, müharibə qızışdıqca Qavrielin iştahası alovlanmışdır. Həmin bu canavar iştahası onun bütün əməllərinə istiqamət vermişdir.

İnanmırsınız, baxın, ayağındakı çəkməni yoxlayın. Bu hansı





kəndlinin, ya əsir qızıl əsgərinsə ayağından çıxarılmışdır. Bu, Qavrielin bütün ümidlərini puça çıxarır. O daha atışmada iştirak etmədiyini, sadəcə bir şofer olduğunu, nemeslərə düşmən olduğunu, davadan heç nə gözləmədiyini demir. Sanki ayağındakı çəkmələr dilə gəlmiş, onun cinayətlərini sayır. O, yerə baxır, heç bir suala cavab vermir, qımıldanmır da.

Qavrielin sükutu isə tanıdıqlarından çox şey ifadə edir. Bu, hər şeydən əli üzülən, əlacı kəsilən bir caninin acı etirafıdır.

Onu əsirlər içinə gətirirlər. Həmcinsinə qovuşmuş heyvanlar kimi imsilənir, gözünü açır, başını qaldırır. Əsirlərə xörək veriləndə qəribə bir hadisə baş verir.

Burada Zinaida adlı bir simferopollu qadın işləyir. Bu, xanimanı dağılmış, ev-eşiyindən qaçqın düşmüş bir tatar qadınıdır. Qavrieli görəndə onun gözləri bərəlmişdi. Qavriel nə duymuşdusa üzünü yana çevirmişdi. Zinaida onun qarşısına keçib soruşmuşdu:

– Siz Simferopolda olmuşsunuz?

– Nə, nə!...

– Necə yox, mənim ərim ilə süngüləşən sən deyildinmi, kafir?!

– Qavrielin o sarı sifəti bir anda gözə atılan pul kimi qıpqırmızı qızardı. Dili dolaşa-dolaşa təkrar etdi:

– Nə, nə !...Yox!

Zinaida heç kəsdən icazə soruşmadı, heç kəsdən də qorxmadı. İki əlli Qavrielin yaxasından yapışıb aralamaq istədi. Əprimiş, kirli, köhnə köynək parçalandı, əsirin sinəsində nida işərəsi kimi çəkilmiş süngü yarasının yeri görünürdü.

Zinaida mühafizi səslədi:

– Tapmışam, ərimin qatilini, tifaqımı dağıdanı tapmışam! Məlunu parçalayacağam!

Qavrieli güc ilə Zinaidanın əlindən aldılar. Onun yaraları təzələnmiş, münasibətləri yada düşmüşdü. Qadın qışqırıb qatilə cəza tələb edir, "evim-eşiyim, xanimanım!" deyə fəryad çəkib ağlayırdı.

Canavar görmüş kimi hamı Qavrieldən kənar durdu. Gözlər onun üzünə, qatil əllərinə tikildi. O, sanki qanı qurusun deyə əllərini bədənindən aralı tutmuşdu. Nəsə son və daha müdhiş bir

əməl işləmək istəyirdi. Bəlkə də yayda, "səhv edib" bu tatar qadınını sağ buraxdığına peşman olmuşdu. Bəlkə də onu cinayətlərinin yeganə şahidi hesab edirdi.

Ancaq o da rəhbərləri, sərgərdələri kimi yanılırdı.

Faşist dəstələrinin cinayətləri o qədər böyük və cahanşümüldür ki, bütün dünya, bütün bəşəriyyət dəhşətə gəlmişdir. Bu cinayətlərin hesab günü qatillərin ən müdhiş, ən faciəli günüdür. Qavriel bu gün cavab verir. Antonesku, Hitler də sabah cavab verməli olacaqdır. Qavriel 100 adam qarşısında, cinayətlərinin qanı-qadası ilə donub qalmışdır, onun rəhbərləri də bütün insanlıq qarşısında, ədalət məhkəməsində dayanacaqdır. Bu günün hökmü ölümdən betər hökm olacaqdır.

*Ədəbiyyat qəzeti. 1942. 21 yanvar*

## Faşizmə qarşı alovlu döyüşçülər

*"O vaxtın adamları... Demək olar ki, hamılıqca öz zəmanəsinin interesləri ilə yaşayırlar, praktiki işdə iştirak edirlər, bu və ya başqa partiyanın tərəfində dururlar.*

*Kimi söz ilə və qələm ilə, kimi qılınc ilə, kimisi də həm qələm, həm qılınc ilə mübarizə edirlər"*

*F. ENQELS (İntibah dövrü haqqında)*

1933-cü il may ayının 10-cu gecəsi Berlində bəşər mədəniyyətinə qarşı ən çirkin bir cinayət edildi. Həmin gecə faşistlər, hökuməti ələ aldıqlarından istifadə ilə "qerman ruhuna yad olan" kitabların yanğınını təşkil etdilər. Bu, dəhşətli bir gecə idi. Sanki, bahar çağında, hər yerdən, hər bir varlıqdan "həyat, həyat!" səsləri gəldiyi halda, kainatın qəlbinə od qoyulmuşdu. Bəşər oğullarının azad fikir və hissləri, pak və təmiz ideyaları oda atılırdı. Faşist tövlələrindən gətirilmiş 20 million cild kitab tonqalı hitlerçilərin hakimlik gücünü və bu hakimiyyətin məna və mahiyyətini göstərirdi. Bu kitablar insanlığın böyük və unudulmaz övladlarının əsərləri idi. Bunlar Haynenin, Viktor Hüqonun, M.Qorkinin, Anri Barbüsün, Romen Rollanın, Tomas Mannın, Henrix Mannın, Sinklerin və sair mədəniyyət ustalarının kitabları idi. Bu mərasimdə faşistlərin mədəniyyət adamlarına qarşı bütün kin və qəzəbindən başqa böyük bir həqiqətdə aşkar görünürdü ki, o da nasistlərin kitabdan, mətbu sözdən və bu sözün qüvvətindən qorxması idi. Bu qorxu və vahimə ucundandır ki, hitlerçilər iş başına keçən kimi həqiqi humanist alimləri, şair və ədibləri təqibə başladılar. Ölüm, sürgün və talan hədəsi ilə ölkəni həqiqətpərəst adamlardan, mədəniyyət yayan adamlardan təmizləməyə cidd-cəhd etdilər.





Lakin həqiqət elə şeydir ki, yerin yeddi qatına basdırılsa da, torpağı aşırıb üzə çıxacaqdır. Mədəniyyət ustaları da öz ömürlərinin, həyatlarının məna və məzmununu ancaq mübarizədə görən adamlardır. Heç bir cəza tədbiri onların ağzını yuma bilməz, qılıncını sındıra bilməzdi.

Hitlerçilər, xüsusilə antifaşist ədiblərdən qorxurlar. Bədii sözün gücü onları o qədər narahat edir ki, var qüvvələrini səfərbərliyə alıb, bir əldə qılınc, bir əldə fanar, gözdə çeşmək, ən uzaq qəza şəhərləri kitabxanalarının belə künclərini araşdırır, demokratik ədəbiyyat axtarırlar, tapdıqlarını amansızcasına məhv edirlər.

Buna görədir ki, indi, Qermaniyada faşizm hakimiyyəti günlərində, nemes xalqının əsl həqiqi ədibləri öz ana vətənlərindən kanarda yaşamağa və yaratmağa məcbur olmuşlar. Nemes ədəbiyyatının ən yaxşı nümayəndələri mühacirətdədir. Bu ədiblərdən "Kral IV Henrixin gəncliyi", "Kin" və "Bir gün gələr ki" kitablarının müəllifi Henrix Mannı, onun qardaşı və cəbhə yoldaşı Tomas Mannı, bir sıra böyük tarixi romanlar müəllifi Lion Feyxtvanqeri, Arnold Sveyqi, Vill Bredeli, Bexeri və sairlərini göstərmək kifayətdir. Antifaşist nemes ədəbiyyatının təsir dairəsini, nüfuzunu, qüdrətini göstərmək üçün bu fakt kifayətdir ki, bütün qerman xalq cəbhəsi komitetinin rəhbərliyi ədib Henrix Manna tapşırılmışdı. Hətta faşist rəsmi mətbuatı çox qəzəblə etiraf etməyə məcbur olmuşdu ki: "mühacirət ədəbiyyatı" faşist Qermaniyası ədəbiyyatından qüvvətlidir. Faşizm mətbuatı dişlərini qıcıyır

ki, niyə dünya əfkari-ümumiyyəsi Mannı, Sveyqi böyük nemes ədibi sayır. Polis və senzura kontrol və nəzarətinə, həbs və sürgünlərə baxmayaraq, nemes gəncləri antifaşist ədiblərin əsərlərini tapıb oxuyurlar. Əksinə, faşist cızmaqaraçılarının bədii ədəbiyyat adına yazıb yaratdıqlarını isə ancaq rəsmi dairələr oxuyur, ancaq rəsmiyyət üçün, ancaq siyasi bir vəzifə olaraq oxuyurlar. Faşist ədəbiyyatı gənclərə faşizm rəhbərlərinin verdiyindən artıq heç nə vermir və verə də bilməz. Faşist rəhbərlər isə gəncləri müharibə materialı kimi böyütmək məqsədini daşıyırlar. "Gəncləri tazı kimi yeyin, top kimi elastiki" eləmək, onları istilaçılıq müharibələrində çapmaq üçün at kimi yəhərləmək məqsədini daşıyırlar. Faşistlərin gənclərə hazırladığı "tale" bundan ibarətdir. Bunu propaqanda edən kitablara isə, həqiqi insani hissi olan gənclər, təbii, nifrət bəsləyəcəklər. Xalqının mübariz bir ədibi olan, həyatını azadlıq və xalq səadətinə verən Henrix Mann yalnız bədii əsərləri ilə deyil, publisist yazıları ilə, çıxışları, nitqləri, qızğın ictimai fəaliyyəti ilə də xalq cəbhəsinin möhkəmlənməsində, faşizmin ifşasında böyük işlər görür. O aləmə isbat edir ki: "faşizm, insan həyatında əvvəlcədən nə ki təbii, nə ki sağlam şey var, hamısını məhv edir. Faşizm xalqları qul etmək istəyir. Bu isə sağlam deyil səfihlik hissidir. Faşizm həyata yox, ölümə xidmət etməlidir. Hitlerin rejimi gənc nemes üçün köləlik, bədbəxtlik və vaxtsız, məcburi ölüm deməkdir" ("Nemes gəncləri haqqında"). Henrix Mann hələ beşaltı il bundan əvvəl nemes gənclərinə hitlerizmin faciəli planlarından, qanlı müharibələr iştahından, mənəvi puçluğundan danışırdı. O parlaq dəlillərlə isbat edirdi ki, hitlerizm insana nifrət deməkdir. O, bütün dünya gənclərini "sülh və saziş" uğrunda mübarizəyə, mədəniyyəti, asayişi müdafiəyə, proqresi müdafiəyə çağırırdı. Öz vətəninin gəncləri üçün əbədi şən və şərəfi də ancaq bunda görürdü. Qerman faşistləri talançı və qatillər dəstəsindən ibarət olan ordularını Sovet torpağına çəkəndə böyük ədib öz uca səsini dünyanın bütün proqress tərəfdarlarının səsinə qatdı. Hitlerçilər bu qanlı tədbirləri ilə öz ölümlərini xeyli müddət yaxınlaşdırdılar. Bunu dərin bir iman ilə dərk edən böyük ədib xalqımızın vətən





müharibəsinə olan əlaqəsini belə ifadə etmişdi: "Hitler məğlub ediləcəkdir. Bütün dünya Amerika ilə Sovetlər İttifaqi arasındaki dostluğa ümmid bağlamışdır. Mən bu dostlara qüvvət və qələbə arzu edirəm". Henrix Mann sosialist vətənini faşizmə qarşı vuruşma zamanının ən böyük faktoru sayır. O hələ 1938-ci ildə yazırdı: "Faşizm ilə toqquşma saatı çatanda, mənim fikrimcə, Sovetlər İttifaqı ən böyük hərbi dövlət olacaqdır". Nemes xalqının və həm də bəşəriyyətin mübariz oğlu Telmana göndərdiyi təbrikində Henrix Mann yazır: "Öz xalqının azadlığı uğrunda mübarizə aparan bütün nemeslər Telmanı müstəsna simpatiya il xatırlayırlar".

Faşizmə qarşı olan ədəbiyyatda Lion Feyxtvanqerin əsərlərini xüsusilə qeyd etmək lazımdır. Böyük ədibin qüvvətli, təmkinli və təsirli qələmi vardır. Onun yazdıqları əsl bədii ədəbiyyatdır. O heç bir zaman ideyasını, fikrini çılpaq publisistika yolu ilə, qəzet üsulu ilə vermir. O, oxucusunu mürəkkəb həyat hadisələri içərisinə alır. Real, təbii yollarla davam edən əhvalat boyunca hər saat, hər dəqiqə oxucusunun intibalarını yoxlayır. Sanki hər romanın hər səhifəsində, hər sətrində oxucu müəllifin özünü görür və duyur. Sanki müəllif oxucunun gözünün içinə baxır və soruşur: "Necədir, düzmü deyirəm?". Oxucu bu suala müsbət cavab verərək daha artıq maraq və həvəslə əhvalatın mabədinə keçir. Feyxtvanqerin qəhrəmanları əsasən ziyalılardır. Elm və sənət adamlarıdır. Ədib bu adamların ideoloqiya, içtimai fikir sahəsindəki münasibətlərini, dünya baxışlarını, güclü və zəif cəhətlərini inandırıcı bir surətdə ifadə edir.

Feyxtvanqer öz məqalə və çıxışları ilə də mədəniyyəti, demokratiyanı müdafiədə çox iş görmüşdür. O, 1937-ci ildə Sovetlər İttifaqına olan səyahətində bizim qələbələrimizə, xalqımızın az bir müddətdə əldə etdiyi müvəffəqiyyətlərə heyran qalmışdı. Həmin səyahətdən aldığı təsirlərdə ədib, sevinc hissi ilə qeyd edir ki, 2 il bundan qabaq savadsız olan kəndli qızının mənim kitablarımı oxuduğunu və mülahizə yürütdüyünü gördüm.

Faşist Qermaniyasının vətənimizə olan quduz hücumu böyük ədibi də çox qəzəbləndirmişdir. O bütün gözüaçıq, mədəniyyət

adamlarının, demokratiya tərəfdarlarının fikrini ifadə edərək yazır: "Faşistlərin sovet xalqı üzərinə hücumu bizi hiddətləndirmişdir. Biz bilirik ki, hücumda hiylədən çox səfihlik vardır. Dərrakəsiz faşistlər indi sayca özlərindən çox, mütəşəkkillik etibarilə özlərindən üstün olan düşmənləri mübarizəyə çağırmışlar. İndi daha faşistlərin işini bitirəcəklər. Aydındır ki, bu qızğın müharibə olacaq və ağır itgilərlə bitəcəkdir. Lakin biz, sovet xalqını tanıyalar əminik ki, qüvvətli və müdrik dahinin rəhbərliyi altında və iki böyük anqlo-sakson xalqı ilə birlikdə sovet xalqı faşizmi məhv edəcəkdir".

Bu ifadələrdə böyük bir qəlbin dərin inam və əmniyyəti vardır. Ədib, faşizmə qarşı apardığı vətən müharibəsində sovet xalqının mütləq qalib gələcəyinə, ürəkdən inanır. Buna görə də ədib bütün dünyanın azadlıq tərəfdarı olan ziyalıları adından bizə ümmid bağlayıb deyir: "Bütün dünyanın ziyalıları öz xilaslarını Sovetlər İttifaqında görür. Öz qüdrət və birliyini dərk edən Sovetlər İttifaqı, Avqust dövründə, Romanın çiçəkləndiyi zamanlarda Horasinin qerman barbarları haqqında söyləmiş olduğu: "Qermaniya, sənin iyrənc nəslin bizim üçün qorxulu deyildir" şeirini mədəniyyətimizə qəsd etmiş nemes faşistlərinin sifətinə çırpa bilər!".

Feyxtvanqerin "Oppenqeym ailəsi", "Müvəffəqiyyət", "Yalançı Neron" və sairə əsərləri sovet oxucusunun həvəslə oxuduğu kitablardır. "Sürgün" adlı son romanlarından birində ədib Heydebreq adlı bir faşistin simasında faşizmin qəddarlığını ifşa edir. Faşist hökuməti ölkədən kənarda işləyən demokrat və mədəniyyətçi nemeslərdən qorxur. Öz dövlət apparatından istifadə edərək, mühacirətdə olan nemeslərin fəaliyyətinə çəpər çəkmək istəyən Heydebreq ancaq bu məqsəd üçün missiya düzəltmişdir. "Yekə, ağ əllərini dizlərinə qoyaraq kiçik kresloda oturarkən fironun heykəlinə bənzəyən Heydebreq diqqətli müxatibinə deyirdi:

–Mənim məqsədim mühacir sürüsünün mırıltısına son qoymaqdır, Binyaminin işi ətrafındaki gurultu Berlində narazılıq törətmişdir. Mühacirlərin hürüşməsi Berlini əsəbiləşdirir".

Bu çirkin məqsədini həyata keçirmək, faşist hakimlərinin inamına nail olmaq üçün həmin bu faşist ağlagəlməz cinayətlərə əl atır.





Feyxtvanqer, beləliklə, faşistlərin ictimai-siyasi cinayətlərini hərtərəfli göstərir, ifşa etməyə çalışır. Böyük ədibin Hitler Qermaniyasını təsvir edən "Oppenqeym ailəsi" adlı romanı məzmun və mahiyyət etibarilə müəllifin irəliyə doğru yeni bir addımıdır. Burada hitlerizm hakimiyyəti dövründə zəngin hiss və fikir sahibi olan bir gəncin və ailəsinin faciəsi verilir: "Bertold üçün çıxış yolu yox idi. O bu ölkəni tərk edə bilmirdi. Əgər bu ölkə ondan alçaqlıq etməyi tələb edirsə, Bertold bunu etməlidir". Onu bu alçaqlığa məcbur edən yalnız müəllim deyil. Direktor Fransua da, Bertoldun öz yoldaşları, əmiləri, hətta ata-anası da bunu tələb edir. Əslində gənci bu məcburiyyətə salan faşist Qermaniyasıdır. O ya alçaq olmalıdır, ya ölməlidir. Ya faşizmin tələb etdiyi cinayətlərə boyun əyib yaşamalıdır, ya insanlıq şərəf və namusunu saxlayıb ölməlidir. Ya bütün qeyri-insani əməlləri qəbul edib sağ qalmalıdır, ya bu əməlləri tərk edib təmiz vicdan ilə məzara getməlidir. Bertold axırıncı yolu seçir. Çünki onun fikrincə: "Ən pis bir it olmaq, təpik altında qalan adam olmaqdan yaxşıdır". Bu cavanın faciəsi ilə ədib, Hitler Qermaniyası şəraitini, orada həssas və vicdanlı adamların taleini, daha doğrusu talesizliyini çox gözəl göstərmişdir. Şüur, fikir sahibi olan gənclər üçün həqiqət, ədalət duyğusu olanlar üçün orada tam insan həyatı, yaşamaq mümkün deyildir. Belə adamlar Hitler hakimiyyəti zamanında gəzə bilər, görə bilər, eşidər, tərpəşər, ancaq yaşaya bilməz. Onun insani hissləri zəncirlənmiş, çarmıxa çəkilmişdir. Ədiblərdən birisi Qermaniyada belə, qəribə bir həyatın davam etdiyini çox gözəl və aydın ifadə edərək deyir: Berlin küçələrində yüzlərlə adam görürsən. Onlar yaşadıqları şəraitin bütün dəhşətlərinə şahiddirlər, ancaq təəccüb edirsən ki, bunlar, necə dözürlər, nə üçün dinmirlər, nə üçün fikirlərini, duyğularını söyləmirlər. Düşünürsən ki, bunlar insan deyil. Bunlar, açarı itirilmiş hiss və fikir sandıqlarından ibarətdirlər. Bunların içində zəngin, qiymətli duyğu və fikir gövhəri olsa da, mənasızdır. Çünki o şəraitdə bu sandıq heç bir zaman açılmayacaqdır, torpağa basdırılacaqdır.

Feyxtvanqerin qəhrəmanı "açarı itmiş fikir və duyğu sandığı" olmaq istəmir. O, mənəvi həyatdan özünü xilas edə bilmir, o, daxili aləmində doğan bir çox haqlı və zəruri sualları unuda bilmir. "Niyə"lər, "nə üçün"lər onu hər şeydən artıq məşğul edir. O bəzən böyük bir natiq kimi səslənərək ürəyindəkiləri demək istəyir. Ancaq bilir ki, bunlar deyildikdə ürəyi dərddən boşalmayacaqdır, əksinə, qandan boşalacaq, həyatını itirəcəkdir.

Feyxtvanqer Bertoldun həyatında müasir Qermaniya gənclərinin maddi və mənəvi məhkumluğunu çox məharətlə isbat etmişdir.

Feyxtvanqerin romanlarında bəzən hiss etdiyimiz pessimizm heç vaxt tərki-dünyalıq, mübarizədən çəkinmək xarakterində deyil. Bu, ruh düşkünlüyü də deyil. Bu, gözü ilə ağlagəlməz faciələr görmüş, mənəvi sarsıntılara uğramış həssas bir adamın, mədəni bir adamın kədərindən, qüssəsindən ibarətdir. Necə qüssələnməyə bilər ki, o, Hitler banditizminin zərbələrinə şəxsən hədəf olmuşdur. Onun xanimani dağılmışdır, ailəsi, evi, həyatı vəhşilərin özbaşınalığına, məruz qalmışdır. Onun canından, ömründən əziz tutduğu əl yazıları, əsərləri yandırılmış, itib batmışdır. Kitablarının çoxunda o, özünü saxlaya bilməyərək dərin kədərlə başına gələnləri deyir.

"Oğullar" romanının müqəddəməsində oxuyuruq: "1933-cü ilin martında nasional-sosialistlər mənim Berlindəki mənzilimi talan elədilər, bu kitabın II cildinin əl yazmasını və eləcə də topladığım elmi materialı məhv etdilər. İtmiş hissəni əvvəlki halında yenidən yaratmaq mümkün olmadı".

Ədib kədərlənməyə, qüssələnməyə haqlıdır. Ancaq bu qüssəsi onu fəaliyyətindən qoymur, ümmidsizliyə, qətiyyətsizliyə aparmır, əksinə, bu qüssə onda faşizmə qarşı kin, qəzəbin artmasına, mübarizənin daha da kəskinliyinə, qətiliyinə səbəb olur. Sovet oxucusu, son beş-altı il ərzində Feyxtvanqerin dalbadal çıxan qalın, məzmunlu və yüksək bədii keyfiyyətli romanlarına bələddir. Bu romanlar müəllifin mübariz bir iradə sahibi olduğunu, mədəniyyət və demokratiya cəbhəsinin inadlı döyüşçülərindən olmaq həvəsini göstərən parlaq sənəddirlər.





Qüdrətli və kəsgin qələm sahibi olan antifaşist yazıçı Arnold Sveyq də öz məsləkdaşları kimi gözünü Sovetlər İttifaqına, dünya demokratiyasının bu böyük istinadgahına tikmişdir. O, faşizmin Sovetlər İttifaqına hücumu münasibətilə olan çıxışında bütün dünyanı sovetlərə köməyə çağırıb deyir: "Bu gün danışmaq üçün söz verilmiş hər kəs, yalan demək istəmirsə, mütləq Sovetlər İttifaqının dostu olmalıdır". Bu inam və etiqad Sveyqin bədii əsərlərində, hətta ideoloqiyasının istiqamətində də görünür. O da antifaşist ədəbiyyat cəbhəsinin başqa əskərləri kimi əsərlərini yalnız adi bir bədii əsər kimi düşünmür. Bu əsərlərin indiki mübarizələrə, bu günün böyük işinə necə xidmət edəcəyi üzərində düşünür. Ona aydındır ki, bir antifaşist olaraq əsərləri ilə mədəniyyətə xidmət edir. Onu həvəslə oxuyan və hər əsərində yeni mənəvi qida axtaran oxucu, yazıçının əsərlərində aktuallığa, hazırki siyasətin irəli sürdüyü məsələlərə cavab axtarır və buna haqlıdır. Xüsusilə Sveyqin əsərləri ona görə təsirli və güclüdür ki, o, faşist Qermaniyasına yaxşı bələddir. Öz vətəninin düşmənlərini, onların daxili puç mahiyyətini açmaq üçün zəngin materiala malikdir. Öz mübarizələrində antifaşist nemes yazıçıları bir də ona görə güclüdürlər ki, bütün proqressiv qüvvələri, birinci növbədə bütün ölkələrin qabaqcıl şair və ədibləri onlara köməkdir. Sovet İttifaqı yazıçılarında antifaşist ziyalılara qardaşlıq köməyi adət halına keçmişdir. Bunu bütün mühacir nemes yazıçıları etiraf edirlər. Bu fakt onları mübarizəyə daha da artıq ruhlandırır. Onların əsərləri Sovet İttifaqında dönə-dönə çap olunur, həvəslə oxunur.

Böyük Maksim Qorki dünya antifaşist ədəbiyyatının ən böyük sima və ustalarındandır. Onun alovlu sözləri indi də hər bir antifaşist yazıçının qulağında səslənir. Bir sıra böyük yazıçılar Qorkidən öyrənmişlər və öyrənirlər. 1936-cı ilin mayında sovet yazıçıları, mühacirətdə olan antifaşist nemes yazıçılarına töhfə göndərmişdilər. Bu hədiyyəni alan yazıçılar öz məktublarında mübariz silahdaşlıq hisslərini bildirirdilər. Yazıçılardan biri yazırdı: "İndi biz bir-birimizə rast gələndə adi "salamməleykdən" sonra soruşuruq: "Sənə bağlamanı kim göndərmişdir?". Demək olar

ki, hamı aldığı töhfənin kimdən olduğunu bilir. Ancaq mən sənin adını bilmirəm. Əhtimal ki, mənim adım da sənə bəlli deyil. Adınızı bilsəydim, sadəcə "Yazıçılar İttifaqı" adresinə yox, şəxsən sizə müraciət etsəydim, təşəkkürlərimi daha yaxşı ifadə edərdim. Yaz görüm necəsən, necə yazırsan? Mən sizin simanızda hamıya məlum bir qüvvənin o hissəsini təbrik edirəm ki, həmişə yaxşılığa meyl edir və daima yaxşılıq edir".

Faşizmə qarşı mübariz yazıçılar, yalnız Sovetlər İttifaqında deyil, dünyanın bütün demokratiya sevən ölkələrində hörmət və hüsn-tövəccöhlə qarşılanırlar. Məlumdur ki, ABŞ-da da onlar üçün geniş fəaliyyət imkanı və sahəsi vardır. Amerika və İngiltərə kimi böyük dövlətlərin ziyalıları, yazıçıları, mühacirətdə olan nemes, yazıçılarının şərəfli mübarizə yolunu anlayır, duyur, onların antifaşist fəaliyyətinə lazımi qiymət qoyurlar.

Xüsusilə indi bütün dünyanın proqressiv qüvvələri faşizmə qarşı sıx birləşdiyi, Sovetlər İttifaqı, Birləşmiş Amerika Ştatları və İngiltərənin birgə qüvvəsi və səyi ilə faşizmin darmadağın edilməsi hazırda başlıca vəzifə kimi meydana qoyulduğu bir zamanda faşizmi döyən bədii söz güllədən az təsirli deyildir. İndi sovet əskəri ilə İngiltərə saldatının gördüyü işlərdə nə qədər məqsəd birliyi varsa, sovet ədibi ilə bütün ölkələrin antifaşist yazıçılarının əsərlərində də eyni həmrəylik vardır.

Bizim hər birimiz antifaşist nemes şair və ədiblərinin qəhrəmancasına və inadlı mübarizəsinə heyranıq. Biz, bu mübarizənin şərəfini, tarixi rolunu duyuruq. Biz bu çəbhənin mədəni əskərlərini yalnız öz vətənləri uğrunda deyil, bütün bəşəriyyət uğrunda, bütün gələcək uğrunda döyüşçü sayırıq. Biz antifaşist ədib və şairlərin böyük Sovetlər İttifaqı kimi ümmidli bir istinadgah ilə ruhlandığını, azadlığın bu məğlubedilməz ölkəsindən ilham aldığını da görürük. Qocaman ədib Epton Sinkler öz məslək yoldaşlarının fikrini ifadə edərək sovet vətəninin və xalqının, qəddar qerman faşizminə qarşı vuruşmada qalib gələcəyinə inanır: "Sovet İttifaqı xalqları həqiqətən məni heyrətləndirir. Reaksiyaya qarşı mübarizədə bu xalq qalib gələcəkdir".





Bizim qalibiyyətimiz isə bütün bəşəriyyətin qalibiyyəti deməkdir. Faşizmin məhvi, təhlükə altına düşmüş bəşər kulturasının, həqiqi incəsənətin, azadlığın xilası deməkdir. Antifaşist ədəbiyyatçılar əsasən bu həqiqəti dərk etmişlər. Ona görə də qerman faşizminin şərq cəbhəsində düçar olduğu çətinliklər və ağırlıqlar, sovet qoşunlarının zərbəsi altında məğlubiyyətdən-məğlubiyyətə düşməsi azadlıq cəbhəsinin hər bir mədəni əskərini ruhlandırır, sevindirir, döyüşə çağırır.

Möhkəm inanmaq lazımdır ki, hitlerizmin məhv edilməsində, faşizmin yer üzündən silinməsi uğrunda mübarizədə öz spesifik silahı ilə iştirak edən bütün proqressiv yazıçılar dünya azadlıq ədəbiyyatı tarixində, proqressiv ideyalar tarixində özlərinə xüsusi və şərəfli bir mövqe qazanacaqlar.

*SSRİ EA Azərbaycan filialının Xəbərləri.1942.*
*№ 1. S.13-18*

## Qafqaza məktub

Bir çox uzaqda, Azərbaycandan 10 minlərlə kilometr aralı bir məsafədəyik. Ancaq vətəndəyik. Uzaq Şərq döyüşçüləri arasındayıq. Baki nefti ilə, Donbas kömürü, Ukrayna çörəyi ilə tanındığı kimi, Sovet Şərqi də öz şanlı döyüş tarixi ilə məşhurdur. Bu ucsuz-bucaqsız meşələri qılınc kimi kəsib ötən düz yollar, Komsomolsk kimi gənc şəhərlər, Amur üzərində qartal kimi qanad gərib duran nəhəng körpülər, Voloçaev günlərinin şanlı abidəsi Xasan gölü, Xanka gölü, Xalxın Qol döyüşləri Uzaq Şərq igidlərinin vətənə xidmətini göstərməyə kafidir. Buranın hər addımda mübarizə, qəhrəmanlıq, insan əməyinin ecazkar qüdrəti görünür.

Ona görə də burada hərbi təlim görmək, ixtisas almaq əyani məktəb keçmək kimidir. **HƏMİDOV HƏMİD** Göyçayda aqronom idi. Sənəti traktor ilə, torpaq ilə uğraşmaq idi. Buraya gələndən sonra ən yaxşı snayper olmuşdur. Silahı qələmdən yüngül və yaxşı işlədir. Naxçıvanlı müəllim **BEKTAŞİ,** tələbə **NADİR**

**ƏLİYEV**, kirovabadlı şofer **SƏMƏDOV MƏMMƏD** təlim əlaçısıdırlar. Bektaşini siyasi rəhbər müavini keçirdilər. O, komandanlığın qayğı və etibarına cavab olaraq öz hissələrində siyasi-hərbi hazırlıq uğrunda yarış hərəkatı başladı. Tankçılar dəstəsində ağdamlı **ƏZİZ ƏZİZOVU** tanımayan yoxdur. Əzizov savadlı, zirək, vəzifəsini bilən oğlandır. Onun şairliyi də var. Gənclik hisslərini misralara salıb yoldaşlarına oxuyar. Bəzən o sevinclərini ailəsinə, Qarabağda qoyub gəldiyi atasına da bildirmək istər. Bir də görürsən komandir tənəffüs verdi. Əsgərlər keçib yaşıllıqda oturdular. Kimi papiros bükdü, kimi su içməyə, kimi çiçək yığmağa getdi. Əziz də əlində gödək qələm ağac altına çəkildi, bir neçə misra qaraladı. "Qafqaza məktub" adlı şeirində Əziz, sənət və incəlik cəhətdən xam olsa da səmimi vətəndaşlıq duyğularını çoban bayatısı kimi çağırır, kəndlərinə çatdırmaq istəyir:

***"İstərəm qoyunlar artsın, kökəlsin,***
***Vətən torpağından bol məhsul gəlsin.***
***İstərəm dan üzü qalxsın obalar,***
***Çalışsın hər kəs ki, qolunda güc var.***
***Sən də yaxşı işlə ey mənim atam!***
***O yerlərin eşqi qoymayır yatam…"***

Hava topçusu **PAŞAYEV SƏMƏD**, radist **AĞAMİROV, ƏZİZİN** duyğularına şərikdirlər. Onlar təklif edirlər ki, "Qafqaza məktub"a əlavələr olsun, analara, atalara öz işimizdən də yazılsın.

Eyni tələbi ikinci bir əsgər şair ödəyir. **QONAQOV MÖVLUD** qubalıdır, mətbuat işçisidir. O, öz təlim müvəffəqiyyətlərindən danışandan sonra sanki bütün vətən, bütün xalq qarşısında dayanaraq əsgər andını şeir ilə təkrar edir.

***"Dahimiz Stalinin sözlərinə and olsun,***
***Vətənin dağlarına, düzlərinə and olsun,***
***Ailəmə, xalqıma budur son sözüm mənim:***
***Əgər namərd çıxarsam, kor olsun gözüm mənim…"***





**MƏMMƏDOV İDRİS** sərhəd keşiyində durur. Tunc rəngli sifətində kəskin cizgilər vardır. Baxışında, duruşunda gələcəyə etimad, qalib olmaq etiqadı duyulur. Yaşıl təpələr, sıx meşələr, tayqalardan keçən sərhəd xəttində o, özünü Azərbaycanda, doğma kəndlərində duyur. Onun da anasına, ailəsinə deməli sözü var: "Mənim adımdan – deyir – vətənə salam yetirin. Deyin xatircəm olsunlar. Bir aylıq yol gəlmişik, gəzməyə, kefə yox, döyüşə gəlmişik. Silahı öyrənirik. Uzaq Şərq qəhrəmanlarından dərs alırıq. Nə qədər ki, canımız sağdır, bu yerlərdən arxayın ola bilrəsiniz. Əlimizdə silah, gecəli-gündüzlü sərhəd boyunda dayanmaq bizə ləzzət verir. Çünki biz zəhmətimizlə vətəndaşlarımızın istirahətini qoruyuruq. Yuxusuz qalaraq ailələrimizin rahat yatmasını təmin edirik. Mən sənətimlə fəxr edirəm"

**ƏHMƏDOV YARMƏMMƏD** orduya gələndə bitərəf idi. İndi kommunistdir. Üç qardaşı Qərb cəbhəsində faşistlərlə vuruşur, özü isə Stalin yoldaşın 130 nömrəli əmrini yerinə yetirir, silahı əla öyrənir.

Astaradan gəlmiş **BABAYEV MƏLİK**, tovuzlu **NƏBİYEV HÜMMƏT**, Masallı rayonundan olan **ƏLİYEV İSA**, zaqatalalı **CƏLİLOV İSA** da təlim əlaçılarıdırlar. Döyüşçülər arasında mayor **AĞAYEVİN** xüsusi hörməti vardır. Bu orta boy, nazik, zirək, həm də təvazökar bir oğlandır. 9-10 yaşlarından hərbi təhsil ilə maraqlanmışdır. İndi Ağayev polk komandiridir. Onun topçuları həmişə seçilmişdir. Ağayev dəfələrlə komandanlıqdan təşəkkürlər almışdır. Ağayevə Uzaq Şərqli demək olar. O, bir neçə ildir burada xidmət edir. Hətta Bakiyə, anasına məktub yazıb yanına çağırır. Ağayevin döşündə igidlik medalından başqa, gözəl bir nişan parlayır. Bu nişanı ayrı yerlərdə çətin görmək olar. Bu, Xasan gölü döyüşlərində igidlik göstərənlərə verilmişdir. Əsgərlər dinc saatlarda mayorun başına toplanır, xatirələrini eşitmək istəyirlər. Üzünə baxsan "dünənki uşaqdır" deyərsən. 1912-ci ildə doğulmuşdur. Ancaq ağıl yaşda deyil, başdadır. Ağayev böyük və ibrətli mübarizə məktəbi keçmiş, imtahanlardan çıxmış bir qızıl

komandirdir. O, nə qədər tələbkar olsa da, əsgərləri o qədər üzü yoladırlar. Heç biri istəməz ki, Ağayevin əmrindən çıxsın. Onlar bilirlər ki, Ağayev hər bir döyüşçünü qardaş kimi sevir. Hər bir döyüşçünü qəhrəmanlığa hazırlayır.

**MİKAYILOV ALLAHVERƏN** 1929-cu ildə Lənkəranın Kələxan kəndində çoban idi. İndi adlı-sanlı bir kapitandır. Divizion komandiridir. Onun divizionu polkda ən qabaqcıl diviziondur. Mikayılov da, Ağayev də batalyon komissarı **VASİLEQA**, hissə komissarı **İBRAHİMOV** da, bütün komandirlər və siyasi işçilər, döyüşçülərin qayğısı ilə yaşayır, onların müvəffəqiyyəti ilə sevinirlər. Bütün səylərini hər bir əsgərin nümunəvi döyüşçü olmasına sərf edirlər.

Azərbaycanlı gəncləri hər yerdə igid, istiqanlı, şən yaşar tanıyırlar. Onlar şeirsiz, mahnısız olmazlar. Çalıb-çağırmağa adət etmişlər. Uzaq Şərqin azadlıq hissi verən geniş ovalıqları, yaşıl təpələr, saf göylər, daşğın çaylar Azərbaycan mahnısı eşidir. Bəlkə də bütün tarixi boyu birinci dəfə olaraq Vladivostok şəhəri "çargah" eşidir. Həssas qəlbin uzun tarixini verən, zəngin aləmini təsvir edən xoş havaları dinlədikcə sovet şərqlilərinin birlik, qardaşlıq duyğuları cuşə gəlir. Onların çoxu var ki, "çargah" və "şikəstə" dinləmək istəyirlər. Çoxu var ki, qəhrəman Azərbaycan xalqının tarixini öyrənmək, Azərbaycan dilini öyrənmək istəyirlər. Bu isə, Uzaq Şərqdə öz doğma vətənlərini qorumaqla məşğul olan Azərbaycan balalarına xoşdur. Onlar öz gündəlik hərbi-siyasi hazırlıq işlərində, gələcək döyüşlərdə öz babalarına – Babəklərə, Koroğlulara layiq olmaq istəyirlər. Onlar istəyirlər ki, Koroğlu dedikdə Azərbaycan əsgəri xatırlandığı kimi, Azərbaycan əsgəri dedikdə Koroğlu yada düşsün. Əsgərlərdən Qafqaza gələn məktubların qısa məzmunu budur. Minlərlə məktubun xətti, stili başqa-başqa olsa da mənası, məqsədi birdir.

*Ədəbiyyat qəzeti. 1942. 16 iyul*





## 1945
## Həzi Aslanovun parlaq xatirəsi əbədi yaşayacaqdır
### *Böyük vətəndaş*

Ölüm var bir ailə üçün itki olur, ölüm var, bir şəhər üçün müsibət olur, ölüm də var ki, bütün bir xalq üçün bütün Vətən üçün ağır olur. Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayoru Həzi Aslanovun ölümü belə ölümdür.

Həzi Aslanov müharibə dövründə, Vətən müharibəsi cəbhələrində öz döyüş məharəti, öz hərbi döyüş fəndgirliyi, öz igidliyi, şücaəti sayəsində tanınmış, məşhur olmuş, sovet vətənimizin, sovet adamlarının məhəbbətini qazanmışdır.

Hələ 1941-ci ilin payızında hitlerçilər canavar iştahası ilə torpaqlarımıza soxulub qızıl paytaxtımızı hədəf seçdiyi günlərdə, biz kapitan Həzi Aslanovu Moskva müdafiəçilərinin ön sıralarında görürük. Aslanov döyüşə hazır gedirdi və bütün döyüşçülərini hazır aparırdı. Müharibə adamlarına lazım olan silahdan, təlimdən, sursatdan başqa - hər şeydən başqa Həzidə əlavə bir üstünlük var idi: o da həqiqi və böyük vətəndaşlara məxsus olan bir ehtiras, alovlu bir hiss idi. Həzi ürəyini tərpədən, sinəsində yakan bu hiss ilə sovet torpağına qəsd edən cəlladlardan intiqam almaq hissi ilə döyüşə getmişdi. Həzi məğrur və davamlı baxışları ilə əsgərlərini süzərək ucadan və inamla bir əmr verdi:

–Yoldaşlar! Düşməni sovet paytaxtına buraxmayacayıq. – Həzi belə deyib döyüşə getmişdi və qalib gəlmişdi. Moskva müdafiəsində Hitlerin seçmə divizyaları darmadağın edildi, düşmənə ağır bir yara vuruldu. Bu döyüş Həzi Aslanovun Vətən qarşısında verdiyi ilk böyük imtahan, göstərdiyi rəşadət idi.

1942-ci ilin əvvəllərində Qızıl Ordu öz qəhrəman oğlunu yeni bir cəbhəyə - sovet cənubuna göndərmişdi. Almanlar qoşunlarımızın müdafiə etdiyi mühüm bir yerə bir tank diviziyası, bir piyada diviziyası göndərmişdilər. Düşmən ilə üz-üzə Həzinin zəhmli səsi müqəddəs bir əmr kimi eşidildi: "Vurun yoldaşlar!" Həzinin igid tankçıları vurdular, həm də öz komandirlərinin adına

layiq bir qüvvətlə vurdular. Almanların tank diviziyası, rumınların piyada diviziyası yer üzündən silindi.

Həmin ilin axırlarında Həzi tankçılarını şərəfli Stalinqrad döyüşlərinə aparanda yoldaşlarına demişdi: "Stalin şəhəri uğrunda gedən vuruşmaları yaxşı izləyin!"

Bu zaman Həzi podpolkovnik idi. Ona əmr edilmişdi ki, çaydan keçmək istəyən düşmənin qabağını alsın. Həzi nəinki müdafiədə dayandı, hətta düşməni darmadağın etdi. "Yarıb keçmək lazımdır!" – deyə maşınını irəli sürdü, düşmənin əlində olan bir kəndə girib küçə vuruşmalarında almanları məğlub etdi, geri oturtdu.

Aslanovun döyüş həyatı belə hadisələrlə doludur. Aslanovun vuruşmalarda göstərdiyi hərbi məharət, döyüşçüləri heyran edirdi.

Stalinqrad döyüşlərində bir dəfə belə bir hadisə olmuşdu: düşmənin gözlənilən əks-hücumunu, dəf etmək Aslanova tapşırılmışdı. O, öz tankçılarına tapşırıq verəndə ehtimal ilə deyirdi:

– Məncə almanlar buraya, qərb tərəfimizdəki dərəyə qoşun yığacaqlar. Bizim piyadaların arxasına keçməyə çalışacaqlar. Biz bu yerdə hərifin qabağını kəsməliyik!

Döyüş başlandı, düşmənin hücum taktikası Həzi deyən kimi çıxdı. Uzaqgörən komandirin qoşunları düşməni döydülər. Düşmən 17 tank itirib qaçmağa məcbur oldu.

Aslanovun tankçılarından biri, öz komandirini belə tanıyır:

– Komandirimiz zahirən sakit və sadə bir adamdır. Ancaq döyüşdə, təhlükəli dəqiqələrdə onu yaxından görənlər nə qədər igid, cəsur və zirək olduğunu bilərlər... Onun əmrləri qəti və qısadır:

– İrəli! Mən nə etsəm, siz də onu edin!

Həzi Aslanov düşmənə cinahdan və qəfildən zərbə vurmağı çox sevir, "almanlara cinahdan zərbə endirmək mənim adətimdir. Bu taktika mənim komanda etdiyim qoşuna müvəffəqiyyət qazandırır."

Bütün bunlara görə də böyük vətənimiz, partiya və hökumətimiz Həzinin xidmətlərini yüksək qiymətləndirmiş, – həmişə onun adını əziz tutmuşdur. Həziyə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Qəhrəmanın sinəsində 14 orden parlayır ki, bunların hamısı döyüş mükafatlarıdır və ancaq vətən müharibəsi cəbhələrindən yadigardır.





Xalqımız öz şücaətli oğlunu, vətən qəhrəmanını təbrik edərək Bağırov yoldaşın dili ilə demişdir:

– Sizin əsgəri qoçaqlığınız və düşmənə qalib gəlmək bacarığınız azərbaycanlı döyüşçülər və komandirlər üçün, Qızıl Ordu əsgərləri üçün nümunə olacaqdır!

Adı dillərin əzbəri, qəhrəmanlıq simvolu olan Həzinin döyüş yolu doğrudan da minlər, on minlərcə sovet tankçılarına nümunə olmuşdur. Onun hər bir əsgəri böyük iftixarla sinəsinə döyüb öz mübariz komandirinin adını çəkir.

Həzidə bolşeviklərə layiq bir təvazökarlıq var idi. O, bütün mükafatlara, təltiflərə, təbrik və təhsinlərə ancaq bir şey ilə düşməni tamamilə əzib məhv etmək fikri və niyyəti ilə cavab verirdi. O, hərarətli ana məktubuna da belə cavab verirdi: "Mənə Sovet İttifaqı Qəhrəmanı adı verildiyindən xəbər tutdum. Səni inandırıram, ana, alman işğalçılarını darmadağın edərkən bu adı şərəflə doğruldacağam". Bütün müharibə dövründə, bütün döyüşlərdə Həzi həmişə düşməni döymüş, həmişə alman imperialistlərindən xalqımızın intiqamını almışdır. Stalinqraddan Polşaya qədər, Baltik sahillərindən Sovet cənubuna qədər hər yerdə hitlerçilər Həzi Aslanovun zərbələrini dadmış, cəhənnəmə vasil olmuşlar.

Biz belə bir qəhrəmanı itirmişik. Əlbət ki, bu itki bizim üçün ağır və çox kədərlidir. Lakin bu kədər bizi, bizim komandir və əsgərlərimizi daha da şiddətli döyüşlərə, son qələbəmiz üçün qəti hücumlara çağırır, bu kədər bizi qəhrəmanlarımızın qanını almağa, intiqama çağırır. Həzi Aslanov döyüşlərdə minlərlə qəhrəmanlar tərbiyə etmişdir. Bu qəhrəmanlar Həzinin müqəddəs işini davam etdirəcəklər, hitlerçiləri onların öz torpaqlarında qırıb məhv edəcək, qələbə bayrağımızı Berlinin kəlləsinə sancacaqlar!

Biz hər gün böyük Stalinin qələbə əmrlərini, qızıl paytaxtımızda gurlayan zəfər toplarının səsini eşidirik. Həzi Aslanov Qızıl Ordunun həmin bu qələbə hücumlarında, dünyanı heyrətə, hitlerçiləri vahiməyə, çaxnaşmaya salan döyüşlərin qızğın çağında şahid olmuşdur.

Vətənimizin milyonlarca cəbhə və arxa adamlarının qəlbində Həzinin əziz xatirəsi yüksəlmişdir. Sabah qəhrəmanın vətənində yüksələcək olan tunc abidə, ürəklərdəki mənəvi abidəni daha da canlandıracaq, əbədiləşdirəcəkdir. Qızıl Ordu döyüşçülərimiz, sovet vətənpərvərlərimiz isə bununla kifayətlənməyəcəklər. Onlar Həzinin arzuladığı və uğrunda vuruşduğu son qələbə günü üçün qat-qat artıq qüvvə, ehtiras ilə çalışacaqlar. Həzinin tankçıları və eləcə də Ukrayna, Belorusiya cəbhələrinin rəşadətli qoşunları yaralı alman vəhşisini, onun öz yuvasına qovub nəfəsini kəsməkdədirlər. Həzinin qanı yerdə qalmayacaqdır. Almanlar bu qanı milyonlarca hitlerçinin ölümü ilə ödəməli olacaqlar.

Soyuq payız günlərində Lənkəran məktəblərindən birində tank dəstəsi yaradılması üçün pul yığılırdı. Sevinc və zirəklikdə irəliyə yeriyən və əlində sıxdığı min manatı müəllimlərə təqdim edən bir uşaq hamının diqqətini cəlb etmişdir. O, xüsusi bir qürurla deyirdi: "Atam tankçıdır, məni də yaz!"

Bu vətən qəhrəmanı Həzinin balaca oğlu Tofiqdir! Tofiq atası kimi vətənpərəstlik, igidlik ruhunda böyüməkdədir. Yalnız doğma oğlu. Bütün gənc nəsl Həzinin şanlı həyat yoluna qibtə edir, onun həyatı və döyüş tərcümeyi-halı yüz minlərlə Tofiqlərə ideal olacaqdır. Bu da Həzi üçün ən böyük xatirədir! Sənət və ədəbiyyat adamları isə qəhrəmanın bədii surətini yaradacaq, onun ölməz sifətlərini sədaqət, rəşadət, şücaət, iradə və təvazökarlıq xasiyyətlərini bədii lövhələrdə təcəssüm etdirəcəklər! Həzi böyük vətəndaş kimi çalışdı, böyük vətəndaş kimi öldü. O, böyük vətəndaş kimi də həmişə xalqımızın qəlbində yaşayacaqdır!

*Ədəbiyyat qəzeti. 1945. №4 (402). 3 fevral*

## Hitlerizmə ölüm hökmü

Üç böyük dövlət rəhbərinin Krım konfransı zəmanəmizin ən böyük hadisələrindəndir. Bu konfrans bəşəriyyətin gələcəyi, talei və səadəti üçün çağırılmışdı. Hitlerizmin qərbi qazılmış, Hitler Almaniyası ölümə məhkum edilmişdir.





Bu, mədəniyyət, səadət yolunda duran, xalqları əsarətə məhkum edib qul halına salmaq, dünyanı Hitlerin murdar və qaranlıq dustaqxanasına döndərmək istəyən təhlükəli, ən qorxulu bir qüvvənin, ən quduz və yırtıcı bir vəhşinin məhv edilməsi deməkdir.

Nasional-sosialist zülmünə son qoyulur. Müharibə və qırğın müqəssirlərinin boğazı kəndirə keçirilir. Krım konfransı və onun qərarları, faşist quldurlarının kəlləsinə son və öldürücü zərbə oldu. Ədalət qalib gəlir. Birləşmiş millətlərin rəhbərləri, faşizmə qarşı düşünüb tökdükləri tədbirlərdə mütərəqqi bəşəriyyətin iradəsini təmsil etmişlər. Krım konfransı insanlığı, mədəniyyəti və səadəti sevən bir kəsi sevindirir, ilhamlandırır. Qızıl Ordunun şiddətli zərbələri ilə darmadağın olan zalimlər Almaniyası son günlərini yaşayır. Sovet döyüşçüləri yaralı vəhşini, onun öz yuvasında döyüb candan salırlar. Bu vəhşinin ölümü isə dünyada sülh və səadətin davamı üçün əsas şərtdir. Mədəniyyət adamları da Stalin dəhasından, qoşunlarımızın qələbəsindən, birləşmiş millətlərin fikir və əməl birliyindən ilham alaraq hitlerizmə qarşı mübarizədə mənəvi səylərini qat-qat artıracaqlar.

*Ədəbiyyat qəzeti. 1945. №6 (404). 24 fevral*

## Gələcək kitablar

"Mənim respublikam" adlandırdığım əsərdə, müharibənin həyatımıza gətirdiyi duyğular məni hər şeydən çox maraqlandırır.

Müharibənin məhz müharibə tərəfini, özü də birtərəfli təsvir edən yazılar oxucunu yormuşdur. Əsərlərdə verilən mina və bomba gurultularından insanın öz səsi eşidilməz olmuşdur. Halbuki, toplar, pulemyotlar, avtomatlar susacaqdır. Nihayət bu dəhşətli fırtınadan qalib çıxan insanın səsi ucalacaqdır.

Arzu edərdim ki, yeni kitabımdan bu səs eşidilsin.

Beş oğul böyüdən, beşini də cəbhəyə yola salan, özü isə kolxozda, ya zavodda, idarədə, ya ailədə çalışıb əli işdə, qulağı radiolarda, gözü poçtalyonun əlində illərlə müntəzir qalan, ancaq və ancaq Ali Baş Komandanın qələbə əmrləri ilə təsəlli tapan Azər-

baycan qadınını təsəvvürümə gətirirəm. Bu ananın qərb həyatı-intizarı, səbri, təmkini, onun vətən önündəki xidməti sənətə layiq bir qəhrəmanlıqdır. Qələm sahiblərinin bu qadını görməməyə, göstərməməyə haqqı yoxdur.

Bu kitabda mən vəzifə, mövqe, rütbə etibarı ilə kiçik, lakin daxilən, ruhən böyük olan adamlardan danışmağa çalışmışam. İndiki həyat və hadisələrin bir xüsusiyyəti var: səngərdə dirsəklənib düşmənə güllə yağdıran əsgərin hərbdən əvvəl kim olduğunu bilmək istəyirik. Sabah quruda, havada, suda sükut əmri veriləndən sonra həmin əsgərin evə qayıtmasını da görmək istəyirik. Oxucunun bu həvəsi təbiidir və haqlıdır.

Ağır və çətin imtahanlarda ölənlərimiz əbədi şərəflə öldükləri kimi, qalanlarımız da əbədi şərəflə yaşayacaqlar. Qanlı döyüşlərdə, əziz qurbanlar bahasına qoruduğumuz, təhlükələrdən çıxardığımız vətən mülkü, səadətimiz, istiqlaliyyətimiz, mədəniyyətimiz bəşəriyyətin qələbə heykəli kimi yüksələcəkdir. Surətlərin inkişafında belə bir zərurəti mən indidən hiss etsəm də, üslubuma xas olan yığcamlığı saxlamaq niyyətindəyəm.

Bizim adamların bir hünəri ondadır ki, gərgin döyüş məqamında da öz ideyalları və yüksək insani hissləri ilə yaşaya bilirlər. Düşmən bizi müharibə dövründə çox şeydən məhrum etsə də qəlbimizin əməllərindən məhrum edə bilmədi. Edə də bilməzdi. Əməllər hər zaman, hər yerdə, bizə qüvvət, üstünlük və qalibiyyət verir. Mənim əsas qəhrəmanlarım bu əməllərlə yaşayan adamlardır. Xəstəlik aman versə, bu il kitabı bitirmək, oxucularıma təqdim etmək arzusundayam.

*Ədəbiyyat qəzeti. 1945. № 9 (407). 31 mart*

## Kitab mədəniyyətimiz haqqında

Kitabın əhəmiyyəti haqqında böyük alimlərin və sair mədəniyyət adamlarının sözlərindən misal gətirməyə ehtiyac yoxdur. Bu, böyükdən kiçiyə hamıya aydın olan həqiqətdir. İnqilabımızın böyük fütuhatından biri də budur ki, kitab, kitab vasitəsilə gələn mədəniyyət bizim həyatımıza, məişətimizə keçmişdir.





Bir zaman var idi, şərqlilərin evində hər nə desən tapardın, kitab tapmazdın. Güzəranlı evlərdə ən çox yorqan-döşək, bir də qab-qaşıq olardı. Çünki yatmaq və yemək feodal dünyasında çoxlarına həyatın məzmunu kimi görünürdü. Hələ əsrimizin əvvəllərində inqilab sayəsində oyanan, mədəniyyət işığına doğru gedən, kitab ilə məşğul olan kişilərdən şikayətlənərək əvam Azərbaycan qadını deyirdi:

*Bizim olan evdə haçan vardı kitab,*
*Nə bilirdik, nə zəhirmardı kitab.*
*Dəftərin andıra qalmış sözünü*
*Eşidib, görməmiş idik üzünü.*

Sabir, cəhalətə gülərək oxucularına nicat yolunu göstərir, kitabı, kitabxananı təbliğ edirdi.

1905-ci il inqilabı illərində 30 nəfər Cənubi Azərbaycan fəhləsi "Molla Nəsrəddin"ə məktub yazıb öz hüquqsuzluqlarından şikayətlənirdi. Molla Nəsrəddin tərəqqipərəst ruhlu kitabları sayır və təkidlə deyirdi: "Bu kitabları alın, açın, qoyun qabağınıza, oxuyun, oxuyun, oxuyun!"

Kitabın gördüyü böyük mədəni, inqilabi işi nəzərə alaraq Sovet hökuməti kitab mədəniyyətinə, nəşriyyata, mətbəələrin güclənməsinə, kitabxana şəbəkələrinin hər zaman və hər yerdə genişlənməsinə xüsusi fikir vermiş, kitab ilə oxucu arasındakı maniələrin (savadsızlığın, cəhalətin, avamlığın...) tezliklə aradan qaldırılmasına tarixdə misli görülməmiş, diqqət, vəsait və səy sərf etmişdir.

Bu böyük səyin nəticəsidir ki, indi, inqilabımızın 25-ci ilində kitab bizim həyat və məişətimizin vacib bir amili olmuşdur. Şəhər yox, uzaq və kiçik bir kənddə sıravi bir kolxozçunun evinə gedin, orada yalnız xalça, yalnız samavar, yalnız kasa yox, kitab da görərsiniz. Yalnız ziyalılar deyil fəhlə və kolxozçularımız Leninin, Stalinin əsərlərini, sovet həyatından inqilabi keçmişimizdən, Qızıl Ordumuzdan danışan kitabları sevinc və iftixar hissi ilə alır, oxuyur, saxlayırlar. Kitab bizim adamlarımıza yalnız zərurət vax-

tında (imtahanda, nitq söyləmək, bir məsələ haqqında fikir demək üçün) deyil, hər bir vaxtda lazım olur. Onlar həqiqi bir dost, gözəl ünsiyyət vasitəsi, vacib mənəvi qida kimi kitabdan ayrılmaq istəmirlər. Ən ağır zamanlarda belə kitab öz işini görür. Cəbhədə ara verən qızğın vuruşmalardan sonra döyüşçü qoltuğundakı kitabçalara müraciət edir, əsgərlər yazıçılara yazdıqları məktubda kitab, maraqlı hekayə, şeir istəyirlər. Kapitan Nəsibov "Vətən uğrunda" jurnalının bir nömrəsini itirdiyini yazaraq əlavə edir ki: "Cəbhədə ən əziz bir şey itirmiş kimi heyfislənirəm". Bir ailədə, müxtəlif səbəblərə görə ayrılmalı olan ər və arvad arasında kitabları bölmək üstündə qızğın münaqişə olmuşdur. Ər idarə işçisi, arvad həkim imiş, hər ikisi kitabxanadan əl çəkmək istəməmiş. İş məhkəməyə qədər gəlib çıxmışdı. Əqilli qızlar, evlənmək istədikdə oğlanın əsl-nəsəbindən, var-dövlətindən çox onun biliyini, oxuduğu və anladığı kitabları soruşurlar, dərrakəsini yoxlayırlar.

Belə bir vəziyyət respublikamızda kitabda olan ehtiyacın qat-qat artmasını göstərir. Əcəba biz, ədəbiyyat yaradıcıları və işçiləri bu ehtiyacı ödəyə bilirikmi? Əlbəttə yox. Milyonlarca nüsxə ilə kitablar nəşr etdiyimizə baxmayaraq kim desə ki, biz sovet oxucularının kitaba olan həvəsini ödəyirik, yalan deyir. Yaxşı kitab yaratmaq sahəsində qarşımızda duran vəzifələr hər hansı bir sahədəki vəzifələrdən daha çoxdur.

Xüsusilə son 5-6 il ərzində bədii kitab nəşriyyatı işi dözülməz dərəcədə zəyifləmişdir. Bizdə bədii kitab nəşri ilə məşğul olan Azərnəşr və Gənclər nəşriyyatı vardır. Bunlar vaxtilə bədii ədəbiyyatımızın yayılmasında ədib və şairlərin əsərlərinin geniş kütləyə çatdırılmasında az işlər görməmişlər. Sabirin, Axundovun, Nizaminin külliyyatını nəşr etmişlər. Puşkinin, Qorkinin, Şoloxovun, Ostrovskinin əsas əsərlərini, qismən də olsa tərcümə və nəşr etmişlər. Müasir sovet ədəbiyyatının görkəmli nümayəndələrinin kitablarını çap etmişlər.

1925-ci illə 1940-cı il arasındakı dövr kitab mədəniyyətimizin tarixində sürətli inkişaf dövrüdür. Demək olar ki, Azərbaycan oxucusu heç bir zaman bu dövrdəki qədər kitabla təmin olunmamışdır.





Lakin bu gün üçün bu müvəffəqiyyətlər keçmiş bir mərhələ sayılmalıdır. Çünki o kitablar ortada yoxdur. Yoxdur ona görə ki, bir on beş ildə əmələ gələn müxtəlif əlifba islahatı həmin kitabları yüz minlərcə oxucudan uzaqlaşdırmışdır. Bu günkü əlifba ilə Nizamidən başqa heç bir şair və ədibin külliyyatı yoxdur. Bunsuz da həmin kitablar, bu günkü ehtiyaca nisbətən çox azdır.

1927-ci ildə proletar yazıçıları cəmiyyəti, Oktyabr inqilabının on illiyini "Oktyabr alovları" adlı kiçik bir kitabça ilə qarşılamışdı. O zaman biz bunu müvəffəqiyyət sayırdıq. İndi isə hər bir yazıçı ildə belə kitabdan bir neçəsini yazır.

Xoşa gələn və bizi sevdirən hadisələrdən biri budur ki, görkəmli sovet yazıçılarımız oxucunun nüfuzunu hörmətini qazanmışdır. Haqlı olaraq indi oxucu tanıdığı yazıçıdan yaxşı əsər və çox əsər tələb edir. Başqa bir halı da nəzərə alaq: 1935-1945-ci illərə qədər olan oxucu, əlbəttə ki, bədii ədəbiyyat oxucusu, indiki oxucu kütləmiz arasında əlli faizdən çox deyildir. Sovet məktəbi, son 10 ildə on minlərlə gənci tərbiyə edib bədii ədəbiyyat səviyyəsinə yüksəltmişdir. İndi 15-25 yaşında olan gənc oxucular və bu illərdən kənddən gəlib təhsil almış bir çox yaşlı fəhlələr yazıçılarımızın yalnız təzə əsərlərini yox, keçmiş əsərlərini də axtarır, oxumaq istəyirlər. Dediyimiz illərdə çap olunmuş, sovet ədəbiyyatının inkişafını göstərən çox yaxşı əsərlər isə indi meydanda yoxdur. Bu, o deməkdir ki, ədəbiyyatımızın yaxşı nümunələri ən azı 5-10 ildə bir yenidən nəşr edilməlidir. İndiyə qədər biz heç bir sovet ədibi və şairini şöhrət qazanan əsərini belə yenidən nəşr etməmişik. Halbuki, bunu mədəniyyətimiz tələb edir, oxucularımız tələb edir. Yeni yetişən gənc nəslimiz tələb edir. Hazırkı nəşriyyatımız bu vəzifələrin öhtəsindən gələ bilirmi?

Xeyr, gələ bilmir.

Azərnəşr respublikada vahid güclü nəşriyyatdır. Siyasi-iqtisadi, hərbi ədəbiyyatı da, gündəlik zəruri cari ədəbiyyatı da, texniki, tibbi ədəbiyyatı da, dərs kitablarını da, bədii ədəbiyyatı da o nəşr edir. Biz hələ hamısını saymırıq. Azərnəşrin min cür işi var. Bu işlərin çoxu da təcili və zəruri olur. Yalnız dərs kitablarının

hər il təshihi və yenidən nəşri Azərnəşri az qala 7-8 ay məşğul edir. Müharibədən əvvəl də belə idi. Arada ən axırıncı növbəyə qalan bədii ədəbiyyat olur və ona görədir ki, çox romanlar, poemalar var ki, 5-10 il mətbəədə yatır. İnək sağmaq üsulundan, taxıla zərər vuran həşəratdan, ev quşlarından danışan əsər mətbəədə illər ilə yatmır, yata da bilməz. Çünkü bu kitabı sifariş verən, dalınca düşən və müəyyən mövsümdə yaymalı olan təşkilat, tələbkar var. Nəşriyyat da bu tələbi ödəməyə çalışır. Ancaq misal üçün Ordubadinin romanının, Əliağa Vahidin şeirlərinin, Mirvaridin uşaq mahnılarının çap müddəti yoxdur. Nə vaxt Azərnəşr özünü bikar hiss etsə, bu kitabları çap edə bilər. Çap etməsə də zahirən bir şey itirmir. Bundan əlavə də Azərnəşr bədii ədəbiyyatın nəşri ilə müstəqil məşğul ola bilmir. Bunun üçün Azərnəşrdə ixtisaslı işçi qüvvəsi də yoxdur. Vaxtilə buraya toplanan və burada ədəbi həyatı canlandıran, ədib və şairlər artıq Azərnəşrin başından dağılmışdır. Ədiblərin bəzisi az yazır, bəzisi öz janrından əl çəkərək pyesə meyl edirsə, bunun mühüm bir səbəbini də kitab nəşrinin belə çətinləşməsində görməliyik.

Bədii ədəbiyyat şöbəsində il üçün tutulan plan həqiqətdə beş illik plan deməkdir. Son 7-8 il içərisində heç vaxt bu plan həyata keçməyib. Kitablar qovluqlarda qalıb köhnəlmiş, dönə-dönə müəllifinə qaytarılmış, dəyişdirilmişdir. 42-ci ildə çapa gedən kitablar 44-cü ildə ancaq nəşr oluna bilmişdir. Bəzi kitablar isə belə mübadilələr nəticəsində illər ilə itmişdir. (Əbülhəsənin 2-ci hissə "Yoxuşlar"ı kimi). Bədii ədəbiyyat nəşrinin bu vəziyyəti əlbət ki, nə oxucuları, nə yazıçıları, nə də Azərnəşrin özünü təmin edə bilməz.

Bütün bunlardan bir zərurət meydana çıxır. Bizim ayrılmış bədii ədəbiyyat nəşriyyatımız olmalıdır!

Bu nəşriyyat yalnız Rusiyada deyil, qonşu sovet respublikalarının çoxunda vardır. Bizdə də bunun yaranması vaxtı çoxdan çatmışdır. Bu nəşriyyat əsasən Yazıçılar İttifaqının yanında təşkil olunmalıdır. Məlumdur ki, Azərbaycan tarixində mədəniyyətin heç bir şəkli bədii ədəbiyyat qədər zəngin olmamışdır. Mətbuatımızda, iclaslarımızda, söhbətlərimizdə biz Füzuli, Vaqif, Axundov, Cəlil Məmmədquluzadə və sair böyük ədəbi simalarımızın adını çəkir, fəxr ilə bu adamları gənc nəslə təbliğ edirik. Gənclərdən bir nəfər desə "siz bu simaları çox tərifləyirsiniz. Mən də inanıram. Amma yaxşı olmazmı ki, əsərlərini çap edəsiniz, biz də oxuyaq. Axı ədibin öz əsəri başqa, onun haqqında tərif isə tamam başqa şeydir!" Belə haqlı bir tələbə bizim susmaqdan başqa cavabımız yoxdur. Bütün klassiklərimizin əsərləri çap olunub 10 min nüsxələrlə yayılmalıdır. Sovet yazıçılarının yaxşı əsərləri sürətlə, böyük tirajla çap olunmalıdır.





*Ədəbiyyat qəzeti. 1945. №10 (408). 12 aprel*

## Yeni əsərim

Xalqımız Azərbaycanda sovet hakimiyyəti qurulmasının 25 illiyini bayram etməyə hazırlaşır. Mən də bu fərəhli bayram qarşısında "Mənim republikam" adlı bir roman üzərində işləyirəm. Romanda müharibə dövrü, bu dövrdə fədakarcasına çalışan və inkişaf edən insanlar təsvir olunur. Romanın qəhrəmanı gənc bir azəridir.

Romanda yaratdığım surətlərin hər birinin fərdi simasını göstərməyə, onların həyat şəraitini və xalqımızın müharibə dövrü tələblərində uyğun işini təsvir etməyə çalışmışam.

Bundan başqa müasir mövzuda bir sıra yeni hekayələr üzərində işləyirəm. Bunları ayrıca kitabça şəklində nəşr etdirmək niyyətindəyəm.

Azərbaycan xalqının cəsur oğlu, tank qoşunları qvardiya general-mayoru, döyüş cəbhəsində igidliklə həlak olmuş Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov haqqında bir kitab yazmaq istəyirəm.

Filoloji elmlər namizədi yazıçı Mir Cəlal.

*Kommunist. 1945. № 75. 15 aprel*

## Unudulmaz gün

Radiolar xalqımızın qələbə xəbərini, XX əsrin ən böyük tarixi hadisəsini, müharibə və mübarizə tarixində xalqımızın göstər-

diyi polad əzmin, müstəsna qəhrəmanlığın zəfərli nəticəsini bütün dünyaya xəbər verdikdə, illərdən bəri gözlədiyimiz qələbə xəbərini eşitdikdə sevinc dolu qəlbimizdə bir hiss qaynayır:

– Dünyanın böyük xilaskarına, xalqların dahi rəhbərinə, sərkərdələr sərkərdəsinə, bəşəriyyətin ən böyük oğluna, səadətimizin sönməz günəşinə – əziz **Stalinə** təşəkkürlər olsun!

Qızıl əsgərin süngüsü ilə tarixin əngin üfüqlərinə yazılan bu parlaq qələbə kainat durduqca yaşayacaqdır:

**Var olsun qəhrəman Qızıl Ordumuz !**

*Kommunist. 1945. № 92. 9 may*

## Cəhənnəmin uçurulması

On iki il bundan əvvəl sərin bir may axşamında Avropanın göbəyində, böyük şəhərin ərşə çəkilmiş uca binaları arasında kitab tonqalı qalandı. Yaraşıqlı geyinmiş, cəld və gözüqanlı adamlar atəşpərəstlər kimi odun başına dolanır, maşınlarını müttəsil daşıyıb gətirdiyi cild-cild kitabları ac və amansız alovun ağzına verirdilər. Əsrlər boyu insan övladının, bəşər tarixinin yaratdığı parlaq fikir və yüksək hiss ifadə edən nə varsa hamısı oda atılırdı. Tonqal böyüdü, alov əjdaha kimi nərə çəkdi, onun ağzından çıxan zəhərli tüstü qaranlıq kirdabı kimi uzanaraq göylərə yüksəldi, şəhərləri, ölkələri bürüdü, dünyaya bəla və fəlakət kölgəsi saldı.

Cəhənnəm belə tikildi!

Əfsanələrdə cəhənnəm də, cənnət də təsvir olunur. Ancaq belə bir zaman və heç bir kitabda cəhənnəmin cənnət ilə yanaşı durduğu və uyuşduğu görünməmişdir. Müasir cəhənnəmin qara üzlü sahibləri buna dözməzdilər. Onlar ətrafı yandırıb hisə və külə döndərəndən sonra, bəşəriyyətin cənnət bağına, məsudlar yurduna iz qoydular. Cəhənnəm xadimləri ayaq basdıqları torpağı yandıraraq, həyatları söndürərək, qan selində üzərək, nalələr içində şənlik şeypurları çalaraq irəli gedirdilər. Bəşər səadəti basqın təhlükəsində qaldı.

Məsudlar yurdunun dahi bağbanı adamlarını çağırıb dedi:





–Kim razı olar ki, Leninin bizə tapşırıb getdiyi bu səadət yurdu cəhənnəm qoşununa yataq altı olsun? Kim razı olar ki, azad insanlarımıza təcavüz əli uzansın? Kim razı olar ki, havamız tüstü, suyumuz qan, torpağımız kül olsun?!

Torpağın övladları günəşə and içdilər.

Dahi bağban övladlarına mərhəba deyib tapşırdı:

–Səmamızı qaraldan tüstünü dağıtmaq, cəhənnəmi söndürmək lazımdır!

Dahi çağırdı, vətən səs verdi! Gənclər silahı ilə, qocalar hiddət və qəzəblə çıxardıqları yumruq ilə, uşaqlar məzlum və təmiz ümidləri ilə, analar aslan ürəyi, övladlar qəhrəman şüçaəti ilə ayağa qalxdılar. Od püskürən cəhənnəm qoşununun önündə sinələrdən polad bir – Stalin xətti çəkildi.

Dünya zülm və sitəm görmüş, işğala uğramış dünya şərqdən, səadət ölkəsindən qopan bu parlaq qüdrəti görüb nicat umdu. Dahi bağban bəşəriyyətə kömək və xilaskar əlini verdi. Düşmənin yolu bağlanan kimi başına odlar, qurğuşunlar yağdı. Pəncəsini səadət bağının lap içərilərinə uzadan, murdar bədəni ilə şərqə doğru can atan sarı əjdahanın başına ədalət qılıncı endi. Cəhənnəm vəhşisi yaralı gövdəsilə sürünərək yuvasına soxuldu. Daldalanıb ufuldadı, sağalmaq, daha müdhiş bir sıçrayışla insanların üstünə cummaq istədi. Xoşbaxtlar dahisi igidlərini sayıq saldı:

– Vəhşinin nəfəsini öz yuvasında kəsin!

Bütün xalqlar, bütün səadət əhli günəşlə silahlanaraq zülmət üstünə hücuma getdilər. 20-ci əsrin cəhənnəmi, faşizmin təcavüz yuvası, qara və qanlı əsarət sarayı, qan və sümükdən tikilən zülm və zülmət qalası milyon əllərin zərbəsi ilə kökündən dağıdıldı.

Cəhənnəm belə uçuruldu!

İllər boyu faşizm zülm və təcavüzünə düçar olan Avropa bu gün, min doqquz yüz qırx beşinci il mayın doqquzundan etibarən rahət və arxayın nəfəs alacaqdır.

Radiolar XX əsrin və bəlkə də bütün bəşər tarixinin ən böyük sevincli hadisəsini xəbər verdilər. Qızıl Ordunun zərbələrini dadan faşist Almaniyası danışıqsız təslim olmuşdur. İllərdən bəri

həsrətlə gözlədiyimiz bu bayram xəbərini eşitdikdə sevinc dolu qəlbimizdə coşğun bir hiss qaynayır: dünyanın, insanlığın, mədəniyyətin xilaskarına, xalqların dahi rəhbərinə, sərkərdələr sərkərdəsinə, bəşəriyyətin ən böyük oğluna, səadətimizin sönməz günəşinə - Stalinə eşq olsun!

Qızıl əsgərin ədalət yolunda parlayan süngüsü ilə tarixin əngin üfüqlərinə yazılan bu zəfər, kainat durduqca yaşayacaqdır. Bütün dünyanın, bütün mütərəqqi insanların diqqəti indi bizə tərəf çevrilmişdir. Berlin üzərində, bu təcavüz, basqın və hiylə qalasının xərabələri üzərində dalğalanan al bayraq haqq və ədalət simvoludur! Torpaqdan qüvvət, günəşdən rəng alan və sovet xalqının enməz vüqarı ilə ucalan bu bayrağa zaval yoxdur.

Bu bayraqda şanlı bir tarix oxunur. Bu bayraq alman işğalçılarının inqirazını bir ibrət dərsi kimi aləmə göstərərək deyir:

Bütün təcavüzkarların axırı belə olacaqdır!

Var olsun dahi sərkərdəmiz - ulu Stalinimiz!

Yaşasın zəfər bayramımız!

*Ədəbiyyat qəzeti. 1945. 10 may*

## 1946
## Sovet mədəniyyətinin inkişafı üçün

10 fevral – tarixi gün yaxınlaşır. İkinci dəfədir ki, xalqımız vahid bir arzu və iradə ilə özünün ən ləyaqətli adamları sovet parlamentinə deputat seçir.

Bu şərəfli gündə biz seçki qutularına dərin bir iftixar hissilə yanaşacağıq, çünkü vətənimiz böyük və tarixi bir imtahandan zəfərlə çıxmışdır. Dahi Stalin sovet xalqını qəhrəman və qalib xalq adlandırmışdır. Biz bu yüksək adı hər zaman qoruyub saxlamağa çalışacağıq.

Biz istəyirik ki, vətənimizin siyasi-iqtisadi və hərbi qüdrəti gələcəkdə daha da möhkəmlənsin.

Biz istəyirik ki, xalqların Stalin dostluğunun təntənəsi daha da qüvvətli olsun.





Biz istəyirik ki, sovet mədəniyyəti və kommunizm məfkurəsi daha da tərəqqi etsin.

Buna görə də biz, kommunistlərlə bitərəflər ittifaqının namizədlərinə səs verəcəyik.

*Filoloji elmlər namizədləri:M.Arif, H.Araslı, Mir Cəlal.*

*Ədəbiyyat qəzeti. 1946. №4. 4 fevral*

## 1947
## Yeni il qarşısında

Oxuculara vəd etdiyim və bir azərbaycanlı komsomolçu gəncinin sərgüzəştlərini təsvir edən “Mənim yaşıdlarım” adlı povestim “İnqilab və mədəniyyət” məcmuəsinin 1946-cı il 7-ci nömrəsindən dərc olunmağa başlamışdır.

1946-cı ildə “Mənim yaşıdlarım”la yanaşı Azərbaycan ədəbiyyatı tarixinin V cildini (bu kitab XX əsr ədəbiyyatımızın tarixini əhatə edir) yazıb çapa vermişəm.

Yeni ildə quruluş işlərimizdəki müvəffəqiyyətlərimizə, qabaqcıl fəhlə və mühəndislərimizin təsvirinə həsr olunan bir sıra hekayələr yazmağı nəzərdə tutmuşam.

Mənim yeni ildə əsas işim “Təzə şəhər” adlı yeni romanım üzərində olacaqdır. Romanda ordenli respublikamızda yaranan Sumqayıt kimi şəhərlərin timsalında yeni həyat və bu həyatın qəhrəmanlarını təsvir edəcəyəm. Mən indidən bu mövzunu ətraflı öyrənməyə, üzərində tədqiqat işi aparmağa və material toplamağa başlamışam.

*Ədəbiyyat qəzeti. 1947. № 1. 1 yanvar*

## Arazın o tayında

Bu günlərdə ekrana buraxılan “Arazın o tayında” adlı sənədli kino-film çox maraqlı və qiymətli bir əsərdir. Burada biz hər şeydən əvvəl qan qardaşlarımızın - Cənubi Azərbaycan əhalisinin həyatı və məişəti ilə, onların azadlıq yolunda qəhrəman mübarizəsi ilə tanış oluruq.

Pərdə açılan kimi o gözəl ölkənin zəngin təbiəti: sıldırımlı dağları, bakir meşələri, geniş düzləri, şəlaləli çayları, bərəkətli bağ-bağatı gözümüzün qabağında canlanır. Bu yerlərin zəhmət sevən dinc və zəki adamlarını biz hər yerdə - əkinçilikdə, bağçılıqda, şəhər təsərrüfatında, karxanalarda və nəhayət ictimai-siyasi işlərdə, sənət və mədəniyyət yolunda mübarizədə görürük. Bu kino İran Azərbaycanı tarixində çox mühüm və maraqlı bir mərhələni göstərdiyindən çox qiymətlidir.

Məlumdur ki, Cənubi Azərbaycan əsrlərdir ki, İran şahlarının, xarici kapitalistlərin və onların nökərlərinin zülm və sitəminə məruz qalmışdır. O da məlumdur ki, bu mətin iradəli xalq həmişə qan və qurban bahasına öz mənliyini, öz şərəfini, öz həyatını və vətənini qorumuşdur. Öz sıralarından Səttar xan, Bağır xan, Şeyx Məhəmməd Xiyabani kimi yenilməz qəhrəmanlar yetirmişdir. Təbriz – Şərqdə azadlıq yolunda mübarizənin rəşadətli igidlərindən olan bu şəhər vaxtilə böyük Leninin diqqətini cəlb etmişdir. Bu şəhər eyni zamanda qaniçən İran şahlarının və xarici imperialistlərin hədsiz qəzəbinə səbəb olmuşdur.

“Arazın o tayında” filmi cənubi azərbaycanlıların bu tarixi mübarizəsindən müxtəsər məlumat verməklə, son hadisələri, 1945-46-cı illərdə orada genişlənən azadlıq hərəkatını ətraflı təsvir edir.

Qəhrəman Sovet Ordusu böyük vətən müharibəsində hitlerizmi məhv etmək, dünyanı faşizm zülm və təcavüzündən qurtarmaqla bir çox xırda ölkələrdə yeni demokratik hərəkatın güclənməsinə səbəb oldu. Avropanın bir çox ölkələri kimi, Cənubi Azərbaycan əhalisi də öz taleini, öz müqəddəratını öz əlinə almağı qət etdi. Az bir müddətdə İran Azərbaycanında demokratik xalq hərəkatı o qədər gücləndi ki, əhalinin ən geridə qalmış təbəqələri ictimai-siyasi həyata cəlb olundu. Ana dilində məktəblərin açılmağı, mətbuat, kitab nəşri, Təbriz darülfünunun təşkil olunması, teatr, filarmoniya və sairənin yaranması yerli əhalidə həqiqi bir xalq bayramı əhvali-ruhiyyəsini və sevincini yaratmışdı.

Bütün bunlar yerli və xarici irticanın quduzluğuna səbəb olmaya bilməzdi. Çox çəkmədən əhd-peymanı sındıran, öz vədinə, sözünə xain çıxan Qəvam-əs-Səltənənin, bu ingilis casusunun cəza dəstələri İran Azərbaycanı şəhərlərinə dolmağa və əhaliyə divan tutmağa başladılar.





Hitlerin 1933-cü ildə Berlində təşkil etdiyi kitab yanğınını İran faşistləri 1946-cı ildə Təbrizdə təşkil etdilər. Tehran tiryəkçilərindən, baqqallarından və imperialistlərin qab yalayanlarından ibarət olan fərraşlar “həyat və hüquq!” deyən müqəddəs kitabların alovu ilə nəşələndilər, murdar və mənhus simalarını bir anlığa da olsa bu alovda işıqlandırmaqda cəllad sevinci duydular. Xüsusilə indi “bütün yolların kommunizmə doğru getdiyi” (Molotov) bir zamanda orta əsr cəza üsullarından da bətər işlər görən İranın imperialist nökərləri bütün mütərəqqi dünyanın qəzəb və nifrətindən başqa heç nə qazanmadı və qazana da bilməzdi.

“Arazın o tayında” filmi parlaq bir həqiqəti göstərir. Azadlıq ideyası hər yerdə olduğu kimi, Cənubi Azərbaycan zəhmətkeşlərinin də sönməz arzu və yeganə idealları olmuşdur. İran irticaçıları yanğınlarda ancaq kağızları yandırırlar. İdeyaları yandırmaq olmaz! Milyonların qəlbində kök salan azadlıq ideyaları Hitler Almaniyasını məhv etdisə, Qəvam-əs-Səltənə kimi dılğırların tez bir zamanda cəzasına çatacağına kim şübhə edə bilər!

Keçmişdə də, indi də fədakar olan Təbriz mücahidləri Səttar xanın şərəfli ənənələrini davam etdirərək, vətən və azadlıq uğrunda daha kəskin və daha qəti mübarizə aparacaqlar. İran Azərbaycanında baş vermiş xalq hərəkatı hamımızda bu mübarizənin tez və parlaq qələbə ilə qurtaracağına dərin bir iman yaratmışdır. Bu böyük və müqəddəs yolda qurban gedən şanlı qəhrəmanların xatirəsi minlər və yüz minlərlə yeni xalq qəhrəmanları yaradacaqdır!..

*Ədəbiyyat qəzeti. 1947. № 32. 19 noyabr*

## Tarixi qərar

Dekabrın 14-ü sosyalist vətənimizin inkişafı tarixində qələbə günlərindən biri kimi yad ediləcəkdir. Bu gün çox cəhətdən mayın doqquzuna, sovet vətənimizin faşıst üzərində çaldığı zəfər

gününə oxşayır. Doğma Moskva radiosunun hamımıza tanış olan tarixi günləri – Müdafiə Komissarının əmrlərini xatırladan siqnal səsləri bu gün də vətəndaşların diqqətini cəlb etmişdi. Möhtəşəm şəhərlərdən tutmuş, uzaq kəndlərə qədər hər yerdə adamlar bütün vücudu ilə qulaq kəsilərək radionun verəcəyi mühüm xəbəri eşitməyə müntəzir idilər.

– Diqqət! Danışır Moskva!

Sovet adamları bütün dünya tarixi əhəmiyyəti olan bu qərarı, sosyalizm vətənimizin inkişafında çox mühüm mərhələlərdən birini göstərən qərarı eşitdi. SSRİ Nazirlər Soveti və UİK(b)P Mərkəzi Komitəsinin "Pul islahatı keçirilməsi, ərzaq və sənaye malları üçün kartoçkaların ləğv edilməsi haqqında"kı qərarının hər bəndi, hər cümləsi, hər sözü ilə zəhmətkeşlərin ürəyindən xəbər verirdi. Buna görədir ki, bu qərar şəhərlilərdən tutmuş kəndliyə, ziyalıdan tutmuş sıravi fəhləyə, böyükdən kiçiyə qədər yüz milyonların təqdir və alqışı ilə qarşılanırdı. Bu qərar zəhmətkeşlərin, fəhlə və qulluqçuların rifah və səadəti üçün olan Stalin qayğısının parlaq bir nümunəsidir. Bu qərar partiyamızın və sovet dövlətinin xalqın yaşayışını yaxşılaşdırmaq, sosyalizm vətənimizin iqtisadiyyatını daha da möhkəmlətmək yolundakı tarixi bir tədbiridir. Bu qərar sovet manatının gücünü, qüdrətini, qiymətini və alıcılıq qüvvətini artıran, onu müharibədən əvvəlki dinc quruculuq günlərinin vəziyyətinə gətirən şəraiti yaradır.

Qoy dünyanın zehni açıq və şüurlu adamları görsün ki, soyğun və qan üzərində qurulan istismar dünyasından, Marşall "plan"larından və Trumen "əhkamından" fəlakət, müharibə, aclıq, səfalət və qulluqdan başqa bir nəticə gözlənə bilməz. Qoy dünyanın şüurlu adamları sosyalist iqtisadiyyatının ecazkar qüdrətini görsün və bilsinlər ki, dövlət xalqın əlində olan yerdə, hökumət zəhmətkeşlərə xidmət edən yerdə əməyin və insanın azad olduğu bir məmləkətdə xalqın öz iradəsi ilə hər cür çətinliyi necə tez dəf etmək olur!

Müharibə günlərində qəddar faşist işğalçılarına qarşı vuruşmalarda sovet adamlarının qəhrəmanlıq və rəşadəti bütün dünya





zəhmətkeşləri üçün bir nümunə, bir ibrət dərsi olduğu kimi, müharibədən sonraki dövrdə sənae və iqtisadiyyatı sürətlə ayağa qaldıraraq, bolluq və ucuzluq yaratmaq, əhalini təmin etmək yolunda Sovet dövlətinin bu tarixi tədbirləri də bütün dünya üçün bir ibrət və böyük bir dərs olacaqdır!

Partiya və hökumətimizin bu fədakarlığı və qayğıkeşliyi bütün sovet vətəndaşlarının qarşısında yeni-yeni vəzifələr qoyur. Fəhlə və kolxozçular, qulluqçular bu qərarı yeni əmək rəşadəti ilə, beşillik planı dörd ildə həyata keçirmək yolunda yeni-yeni fədakarlıqlarla cavab verirlər. Bu cavablar eyni zamanda sovet sənətkarlarının, incəsənət və ədəbiyyat xadimlərinin cavabıdır. Sovet yazıçıları dövrümüzə layiq əsərlər yaratmaqla, vətənimizin və vətəndaşlarımızın bütün bəşəriyyət qarşısındaki yüksək xidmət və xüsusiyyətlərini təsvir və tərənnüm edən gözəl əsərlər yazmaqla öz şərəfli vəzifələrini yerinə yetirmiş olacaqlar.

*Ədəbiyyat qəzeti. 1947. №35.18 dekabr*

## 1948
## Məmməd Arif

Voroşilov rayonu 46 nömrəli seçki dairəsi Bakı Sovetinə deputat seçilmək üçün namizəd olaraq Dadaşzadə Məmməd Arif yoldaşı qeyd etmişdir.

Məmməd Arif respublikamızın görkəmli yazıçılarından biridir. Onu yalnız ziyalılarımız arasında deyil, şəhər və kəndlərimizdə də fəal ədəbiyyat xadimi kimi yaxşı tanıyırlar. 30 ilə yaxındır ki, Məmməd Arif yoldaş öz qələmi və elmi fəaliyyəti ilə ədəbiyyatımızın inkişafına və çiçəklənməsinə çalışır. Respublikamızda ədəbiyyat və mədəniyyət sahəsində elə mühüm tədbir olmaz ki, Məmməd Arif yoldaş orada həvəslə və canü dildən iştirak etməsin. Onun sovet ədəbiyyatı məsələlərinə həsr etdiyi bir çox məqalələri müəllimlərimiz, tələbələrimiz və ümumiyyətlə ədəbiyyat ilə maraqlananlar üçün qiymətli əsərlər kimi oxunmaqdadır. Azərbaycan ədəbiyyatının sovet dövrünü də Məmməd Arif yoldaş

yazmışdır. Onun elm namizədi adını almaq üçün yazdığı dissertasiya da bu mövzudadır və müdafiə olunmuş elmi əsərlərin ən yaxşılarındandır. Arifin ali məktəblərdə, aspiranturalarda, elmi cəmiyyətlərdə və ictimai təşkilatlarda yorulmadan çalışması hər bir məsələyə sovet mənafei nöqteyi-nəzərindən yanaşması, ziyalılarımız arasında ona dərin hörmət və ehtiram yaratmışdır. Onun yüzlərcə tələbələri öz müəllimlərinin adını iftixarla çəkirlər. Məmməd Arif yoldaş Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olub, bu institutda illər boyu aparılan geniş, mühüm və dərin elmi-tədqiqi işlərə rəhbərlik etmiş və edib. Həmişə bu işlərin ən ağır-ən çətin hissəsini öz öhtəsinə götürüb və yerinə yetirir. O, eyni zamanda Azərbaycan Dövlət Darülfününunda rus ədəbiyyatı kafedrasının müdiridir. Böyük rus xalqının zəngin və böyük ədəbiyyatını respublikamızda geniş kütlələrə yaymaqda və tanıtmaqda çox əmək sərf etmişdir. Sovet hakimiyyətinin ilk illərindən sonra 1926-1927-ci illərdən başlayaraq Məmməd Arif "İnqilab və mədəniyyət" jurnalında, Azərnəşrin bədii ədəbiyyat şöbəsində və Yazıçılar İttifaqının tənqid seksiyasında yaxşı kitab uğrunda və kitab mədəniyyətimizin yüksəlməsi uğrunda yorulmadan mübarizə aparmışdır. Böyük vətən müharibəsi illərində Məmməd Arifin yazdığı məqalələr mətbuatımızda dərc olunan ən yaxşı publisistika nümunələrindən sayılmaqdadır. Onun sadə və dərin məzmunlu vətənpərəst bir ehtiras ilə yazılan bir sıra məqalələri indi də oxucularımızın yadındadır.

Partiyamız və hökumətimiz onun əməyinə yüksək qiymət vermiş və onu Qızıl Əmək Bayrağı ordeni və bir çox medallar ilə təltif etmişdir. Bütün bunlara görədir ki, Voroşilov rayon zəhmətkeşlərinin Arif Dadaşzadəni deputatlığa namizəd göstərməsi alqışa layiq bir təşəbbüsdür. Əmin olmaq olar ki, rayonun seçiciləri cəsarətlə öz səslərini ləyaqətli namizədə verəcəklər: Arif isə onların etimadını doğrulda bilən, deputatlıq adını yüksəkdə tutan bir yoldaşdır.

*Ədəbiyyat qəzeti. 1948. №1. 1 yanvar*





**Alçaq imperialist nökərlərinin müdhiş cinayətləri**

Abbas Cəfərinin "Mərdom" qəzetində çap olunan "Azərbaycan, xalqımızın mübarizəsinin ön səngəridir" sərlövhəli məqaləsi İran mürtəcelərinin dəhşətli cinayətlərini ifşa edən mühüm bir sənəddir. Dollar nökərləri, tiryəki fars mülkədar, tacir və kapitalistləri Cənubi Azərbaycan vətənpərvərlərinin başına misilsiz müsibətlər gətirirlər. Öz adi vətəndaşlıq hüquq və azadlıqlarını tələb edən adamların, günahsız qoca və uşaqların dəstə-dəstə dar ağacları altına aparılması, başların nizəyə taxılması, demokrat ailələrin qarət edilməsi, kitab yanğını, mədəniyyət ocaqlarının dağıdılması... bunlar, ancaq orta əsr inkvizisiyasına, faşizm canavarlarına yaraşan bu ağır cinayətlər uzaq yox, Araz çayının o tayındaca edilir. İran hökumət məmurları tarix boyu baş kəsməkdə, boğazlara qurğuşun tökməkdə, başlara buz bağlamaqda, dar ağacları qurmaqda ad qazanmışlar. Qarnı piyli, başı boş İran şahlarının səltənəti həmişə qan üstündə bərqərar olmuşdur. İran dövlət idarələrində min il bundan qabaq, orta əsr cəhaləti dövründəki idarə üsulları ilə indiki arasında mahiyyətcə heç bir fərq yoxdur. Şahlar, vəzirlər, hərəmxanə rəisləri, xəfiyyələr, müqəvva nazirlər, nəzmiyyə başçıları hamısı bir şeyə, xalqa qarşı görülən cəza tədbirlərinin mümkün qədər çox və tez icra olumasına xidmət edirlər. Cənubi Azərbaycan xalqına edilən zülm və işgəncələr insanlıq ləyaqətinə malik olan hər bir kəsi dərin düşündürür, haqlı olaraq, nifrət və qəzəb doğurur. İranın baş kəsən hakimləri, öz ağır cəza tədbirlərini azərbaycanlılara, kürdlərə, qarşı ədalət, azadlıq hissi olan istismar boyunduruğundan çıxmaq istəyən hər bir kəsə qarşı çevirmişlər. "İgid Şahsevən qızı Səriyyə beş gün mühasirədə qalıb tək başına müqavimət göstərdi. Axırda onu yalan vədlərlə aldadıb səngərdən çıxartdılar və namərdliklə öldürdülər. O, güllələnərkən demişdir: "tarix əhdi-peyman pozanların adını nifrətlə yad edəcəkdir!" (Abbas Cəfəri). Məsum, mərd və ləyaqətli Azərbaycan qızının, o şəhid övladın saf səsi bizim qulaqlarımızda indi də səslənməkdədir. Həmişə səslənəcəkdir. Bu səs sovet

adamlarına yad deyildir. Bu səs qəhrəman rus qızı Zoya Kosmodemyanskayanın səsi ilə həmahəngdir. Səriyyə də qəhrəman sovet qızının – Zoyanın yolu ilə getmək istəmişdir. İran mürtəcelərinin cənubi azərbaycanlılara etdiyi zülm, faşist cəlladlarının sovet vətəndaşlarına etdiyi zülmdən geri qalmır. Amerikan imperializminə arxalanan İran baş kəsənləri Hitlerin yaltaq və alçaq nökərlərinin yolu ilə gedirlər. Görünür ki, Hitlerin və Hitler əlaltılarının rüsvayçı aqibəti İranın tiryəki hakimlərinə çox xoş gəlmişdir. Onlar Hitlerin taleinə qibtə edir, bu taleə nail olmaq istəyirlər. Güman etmək olar ki, onlar dünyada heç nəyə nail olmasalar da, tez-gec bu rüsvay aqibətə nail olacaqlar.

*Ədəbiyyat qəzeti.- 1948.- № 13.-1 may*

## Adil İsgəndərov

Həqiqi sənətkarın yaradıcılıq qələbəsi bütün xalqın sevincidir, çünkü o, həmişə xalq üçün yaratmış və bu böyük ilham çeşməsindən heç bir zaman ayrılmamışdır. Stalin mükafatı laureatı Adil İsgəndərovun bütün yaradıcılığı kommunizm uğrunda mübarizənin ön sıralarında gedən Azərbaycan xalqı ilə, onun yeni zəngin həyatı ilə bağlıdır.

Adil İsgəndərov sovet dövründə yetişmiş, Lenin – Stalin partiyası tərəfindən tərbiyə edilmiş sovet rejissorudur. O, inqilabdan əvvəlki teatrın ağır məhrumiyyətlərini, böyük maddi və mənəvi çətinliklərini görməmişdir. Moskvada təhsil alıb Bakıya qayıtdıqdan sonra Adil İsgəndərov artıq Ümumittifaq miqyasında tanınmış teatrda, zəngin təcrübəyə və müəyyən nəzəri hazırlığa malik aktyor heyəti ilə işləməli oldu.

Adil İsgəndərovun bu teatrda verdiyi ilk tamaşa böyük müvəffəqiyyət qazandı. Cəfər Cabbarlı iki il idi ki, vəfat etmişdi. Teatr və tamaşaçılar dramaturgiya səmasında yeni ulduz yanacağını intizarla gözləyirdilər. Adil İsgəndərov dramaturq Mirzə İbrahimovun "Həyat" əsərini tamaşaya qoydu. Cəfər Cabbarlıdan sonra





bu tamaşa teatrla dramaturgiyamızın birinci əlbir işi, bir yerdə qazandığı ilk qələbə idi.

Adil İsgəndərovun on il ərzində hazırladığı tamaşaların üçdə iki hissəsi (on tamaşa) müasir əsərlərdir. Müasir həyat, yeni sovet adamlarının həyat və mübarizəsi Adil İsgəndərova həmişə ilham vermişdir.

Tamaşanın həmişə dərin məfkurəvi məzmuna malik olması, bütün səhnə vasitələrinin bu ideyanı mümkün qədər aydın və bədii şəkildə ifadə etməsi həmişə Adilin əsas məqsədi olmuşdur. Hətta tarixi əsərlərin quruluşunda da Adil İsgəndərov partiyamızın siyasətinə, sovet xalqının kommunizm uğrunda mübarizəsinə fəal kömək etmək, tamaşaçılara sovet vətənpərvərliyi kimi nəcib hisslər aşılamaq məqsədini izləmişdir.

Adil İsgəndərov dramaturqla teatr arasında yaradıcılıq dostluğunun zəruriliyini dərk edərək, teatrı dramaturgiyamızın həqiqi laboratoriyasına çevirmişdir.

Bütün SSRİ xalqları arasında şöhrət tapmış və bizdə 340 dəfə oynanmış "Vaqif"in ən gözəl klassik quruluşunu Əzizbəyov adına Dövlət Dram Teatrı və rejissor Adil İsgəndərov yaratmışdır. "Teatr" məcmuəsində İ.Altman bu quruluş haqqında çox hərarətli bir məqalə çap etdirmişdi. O yazırdı: "Şair, quruluşcu rejissor və bəstəkar incəsənətin qədim və sınanmış ənənələrindən bacarıqla istifadə etmişlər. Mən başqaları ilə birlikdə elektrik vurmuş kimi tamaşa salonunda oturub səhnədə gedən hadisələrə gərgin tamaşa edirdim. Mən bu tamaşaya bir də, dəfələrlə baxmaq istəyirdim. Ayrı-ayrı şəkillər, heykəltaraşın mücəssəm əsəri kimi yadda qalır".

Böyük Vətən müharibəsi illərində teatrı bolşevik təbliğatının qüdrətli ocağına çevirən Adil İsgəndərov "Fərhad və Şirin", "Məhəbbət", "Vəfa" kimi yüksək məfkurəli tamaşalar hazırladı. Müharibədən sonra istedadlı rejissor Bakı neftçilərinin qəhrəman mübarizəsinə həsr olunmuş "İşıqlı yollar" pyesi üzərində xüsusi bir ilhamla işlədi.

"Şərqin səhəri" İsgəndərovun bütün yaradıcılıq nailiyyətlərinə müəyyən yekun vuran və qüvvətli tamaşalardan biridir.

Azərbaycan xalqının sovet hakimiyyəti uğrunda mübarizəsinə həsr olunmuş bu tarixi əsərdə bolşeviklər partiyasının sadiq oğulları S.M.Kirovun, Serqo Orconikidzenin bədii surətləri yaradılmışdır. Adil İsgəndərov tarixi şəxsiyyətlərin bədii sürətlərini yaratmaq sahəsində öz zəngin təcrübəsindən istifadə edərək bu məsul vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəldi. Tamaşaçılar əsas obrazları yaradan aktyorların hər çıxışını səmimi alqışlarla qarşılayırlar.

Adil İsgəndərov və Əzizbəyov adına teatrın bu böyük yaradıcılıq qələbəsi təsadüfi deyildir. Teatrın öz xüsusi yaradıcılıq siması, bədii rəhbərin illər boyu qəhrəmanlıq tamaşaları üzərində işləmək təcrübəsi, sosializm realizmi ilə inqilabi romantikanın birləşmiş qüdrətindən bacarıqla istifadə etməsi bu qələbənin rəhni idi.

Adil İsgəndərov mənalı mizanlar ustasıdır. Onun tamaşalarında aktyorun hər addımı, hər baxışı surətin öz vəziyyətinə, tamaşanın və dramatik hadisənin məzmununa tabe edilmişdir. Yüksək bədiilik, siyasi kəskinlik bu mizanların əsas xüsusiyyətidir.

Adil İsgəndərov kütləvi səhnələr ustasıdır. Yardımçı heyəti tamaşanın həlledici qüvvəsinə çevirmək, kütləvi səhnələrdə iştirak edənlərin hər birini müstəqil səciyyə ilə zənginləşdirmək asan deyildir. Adil İsgəndərov öz rejissorluq işində buna müvəffəq olur.

Adil İsgəndərov hər tamaşada siyasi məfkurəvi məzmunun mümkün qədər qabarıq və yüksək bədii səviyyədə açılmasına nail olur. Quruluşda məna dərinliyi, reallıq və inandırıcılıq onun əsas tələbidir.

Adil İsgəndərovun xalq mübarizəsini təsvir edən əzəmətli epik səhnələri, lirik momentləri, adi məişət səhnələrini, yaxud psixoloji təfərrüatı eyni dərəcədə ustalıqla canlandıra bilir. O, gərgin dramatik vəziyyətləri, facianə əsərləri inandırıcı yaratdığı kimi, komediya əsərlərinin quruluşunda da müvəffəqiyyət qazanır.

Adil İsgəndərovun rejissor iş üsulu hər növ formalizm və naturalizm təsirlərindən uzaqdır. O, qabaqcıl Moskva teatrlarının sağlam təcrübəsindən Azərbaycan teatrında müvəffəqiyyətlə istifadə edir, milli teatr sənətimizi sosialist incəsənətinin ümumi





qüdrətli inkişafı ilə irəliyə doğru aparır. Böyük mükafat heç şübhə yox ki, sənətkarı yeni və gözəl yaradıcılıq nailiyyətləri əldə etməyə ruhlandıracaqdır.

*Ədəbiyyat qəzeti. 1948. № 12 (518). 7 may*

## Oxucunu azdıran proqram

Mərkəzi Komitəmizin məfkurə komitəsindəki iş haqqında tarixi qərarlarından sonra dərs proqramları və dərsliklərin kökündən yaxşılaşdırılması zərurəti bütün kəskinliyi ilə qarşımızda dururdu. Məhz buna görədir ki, Maarif Nazirliyi köhnə proqramları ləğv edərək, bu ilin əvvəlində orta məktəb üçün ədəbiyyatdan yeni proqram nəşr etmişdir[4]. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixinin tədrisini məqsəd qoyan bu proqramda qədimdən bu günə qədər Azərbaycan ədəbiyyatı ilə yanaşı rus ədəbiyyatından, başqa sovet xalqları ədəbiyyatından, Qərb və Şərq ədəbiyyatından da nümunələr verir. Proqrama nəzarət vərəqəsi, metodik göstərişlər, kitablar siyahısı da əlavə edilməkdədir.

Təəssüf etmək lazımdır ki, Maarif Nazirliyinin və müəllimlərin çox ümid bəslədikləri bu proqram, həm məzmunu, həm quruluşu və həm də məfkurə istiqaməti etibarilə köhnələrdən az fərqlənir. Partiyamızın Mərkəzi Komitəsinin son illərdəki qərarlarına işarə edən bir neçə cümləni nəzərə almasaq, bu proqramın 30-cu illərin əvvəllərində, Azərbaycan ədəbiyyatı tarixi kursu təzə-təzə yaranan bir dövrdə yazıldığını güman etmək olar. Ədəbiyyat tarixi çox məhdud, çox kasıb bir şəkildə verilir. Bilmək olmur ki, müəlliflər öz tərtiblərində nəyi, hansı prinsipi əsas götürmüşlər. Ədəbiyatın, məlum olduğu üzrə öz inkişaf qanunları yoxdur. İctimai həyat və sinif mübarizəsindən kənarda heç bir məfkurə olmadığı kimi ədəbiyyatda da yoxdur. Bunu müəlliflər bilməmiş deyil-

[4] "Orta məktəb proqramları - ədəbiyyat tarixi" 1947-ci il. Redaktorları M.Rəfili və M.Arif.

lər. Hətta onlar bunu bir neçə yerdə dönə-dönə təkrar edirlər. Ancaq proqramın özü isə bu ruhda qurulmamışdır.

Azərbaycan ədəbiyyatı tarixi Azərbaycan xalqının mübarizə və inkişaf tarixinin inikasından ibarət olmalıdır. Xalqımızın və vətənimizin tarixindəki bütün əsas mərhələlər ədəbiyyat tarixində də görünməlidir. Çünki ədəbiyyatın özü xalqımızın həyat və mübarizəsinin inikasından başqa heç bir şey deyildir. Proqram yazanlar isə bu yol ilə getməmişlər. Onlar ədəbiyyat tarixini cəmiyyət tarixindən ayırmış, mücərrədlikdə götürmüşlər. Ədəbi həyat və inkişaf əvəzinə ayrı-ayrı şəxsiyyətləri təqdim etmişlər. Ədəbiyyat prosesini və həyatını göstərmək və buradan çıxaraq parlaq şəxsiyyətləri ayırmaq əvəzinə, ədəbi şəxsiyyətləri xronoloji prinsip ilə yan-yana düzmüş və bu silsilə tarixi vermək istəmişlər. Məsələn: buna nə ad qoymaq olar ki, XV əsrdə Azərbaycanda vahid bir dövlət yaratmaq, Azərbaycan dilini dövlət dili məqamına gətirmək uğrunda həm qılıncı, həm qələmi ilə çalışan Şah İsmayıl Xətaidən proqramda bir kəlmə də yazılmır. Yaxud buna nə ad qoymaq olar ki, Azərbaycan xalqının tarixində qara qüvvələrin təcavüzə keçdiyi ən mürtəce bir dövr olan "müsavat" hakimiyyəti illərindən, Azərbaycan burjuaziyasının bu dövrdə inqilabçı demokrat yazıçılara amansız divan tutmasından proqramda bir kəlmə də yoxdur. Bakıda Mir Fəttah Musəvinin, Tiflisdə Əliqulu Qəmküsarın, Cənubi Azərbaycanda Seyid Salmasinin öldürülməsi mütərəqqi ədəbiyyatın inqilab düşmənlərinə necə mühüm bir "təhlükə" olduğuna sübutdur. Əsrimizin əvvəllərində Stalin yoldaşın bilavasitə rəhbərliyi altında Bakıda qüvvətlənən inqilabi hərəkat şübhəsiz ədəbiyyata da böyük təsir göstərmiş, inqilabi demokrat ədəbiyyatının güclənməsinə səbəb olmuşdur. Zaqafqaziyada ilk leqal bolşevik qəzeti olan "Кафказский рабочий листок"un birinci nömrəsindən başlayaraq Cəlil Məmmədquluzadənin burada iştirak etməsi, bolşevizm ideyalarından ruhlanaraq inqilabi məqalələr yazması bu təsirin bir ifadəsi idi. Bu parlaq ictimai-ədəbi hadisələri göstərmək olarmı? Sinif mübarizəsi, yüksək ictimai idealar uğrunda, azadlıq, yeni həyat yolunda gedən çarpışmalar ədəbiyyatını parlaq,





qabarıq göstərmək əvəzinə, müəlliflər yenə də köhnə divan ədəbiyyatı meyillərindən, təzkirəçilərə məxsus "bitərəflikdən" yaxa qurtara bilməmişlər. Qəzəl ədəbiyyatı və onun yeni zamanədə lap mürtəce bir məfkurə olduğunu hələ keçən əsrdə Mirzə Fətəli, Mirzə Cəlil göstərmiş və isbat etmişlər. Proqram müəllifləri qəzəl, qəsidə, mərsiyə ədəbiyyatının sinfi mahiyyətini açmaq, bu ədəbiyyatın əsrlər boyu oxucuları geriyə, tərki-dünyalığa çəkdiyini açıb göstərmək əvəzinə bu ədəbiyyata daha da rəvac verir, onu realist inqilabi-demokrat ədəbiyyatından üstün tuturlar.

Qəzəl ədəbiyyatının son nümayəndəsi olan Seyid Əzim Şirvaniyə proqramda 12 saat yer verildiyi halda, yeni ədəbiyyatın binasını qoyan, Azərbaycan ədəbiyyatında inqilabi mübarizə bayrağını qaldıran, mütərəqqi rus ədəbiyyatının gözəl ənənələrini təbliğ edən, demokratiya ideyalarını cəsarətlə yayan və böyük bir ədəbi məktəb yaradan Cəlil Məmmədquluzadəyə 8 saat yer verilmişdir. 19-cu əsrdə onlarla qəzəl yazan şairlərdən biri olan və əsrinin yeni, intibah ruhundan tamam bixəbər qalan Nəbatiyə 6 saat yer verən, görkəmli sovet ədibi Süleyman Rəhimova isə bir saat da yer verməək istəməyən müəlliflərin hərəkəti təəccüblü deyilmi?

Müəlliflər deyə bilərlər ki, "Seyid Əzimin yaradıcılığındakı proqressiv cəhətlərə görə 12 saat yer veririk..." Doğrudur, Seyid Əzimdə proqressiv cəhətlər vardır. Ancaq müəlliflər bunu da səhv başa düşürlər. Seyid Əzimin tərəqqipərəstliyinə görə nəyi misal çəkirlər: "Dövrünün istismarçı, hakim təbəqələrini tənqid edən (?!) satiraları" (... "Xan və dehkan"). "Xan və dehkan"da Seyid Əzim hansı "hakim təbəqələri" tənqid edir? Əksinə bu nağılda şair böyüklərə yaxın olmağı özünə şərəf sayan yaltaq kəndlinin özünü tənqid etmirmi? Ədəbi əsərin məna və məfkurəsini belə əksinə təhlil edən bir proqram müəllimləri də şagirdləri də öz həqiqi yolundan azdırır. Natəvanın yaradıcılığı ilə əlaqədar olaraq "onun yaratdığı şeir məclisindən bəhs olunur. Keçən əsrlərdə "Məclisi üns", "Məclisi xamüşan" və sair ad ilə yaranan bu məclislərin tamamilə mürtəce bir təşkilat olduğu, "sənət sənət üçün" fikrini təbliğ etdiyi, ədəbiyyatı həyatdan uzaqlaşdırıb "səfa" vasi-

təsi etmək istədiyi indi kimə məlum deyil? Bəs nə üçün proqram müəllifləri bunu açıq deməyi, oxuculara doğru, elmi məlumat verməyi və onlarda ədəbi hadisələrə fəal, ayıq və marksist münasibəti gücləndirməyi lazım bilmirlər?

Bu proqramın mühüm məzmun və məfkurə səhvlərindən biri də sovet ədəbiyyatına olan mühafizəkar münasibətdir. Proqramın 5-ci səhifəsində müəlliflər sovet ədəbiyyatının "ən qabaqcıl ədəbiyyat" olduğunu deyirlər. Ancaq bu onlar üçün quru və rəsmi bir iddia olaraq qalmaqdadır. Onlar özləri bu iddialarına inanmırlar. Proqramda XX əsrin ancaq ilk 15 ilindən 5 nəfər ədəbi şəxsiyyət verildiyi halda, ədəbiyyat və mədəniyyətimizin ən parlaq dövrü olan 30 illik sovet quruculuğu dövründən ancaq 3 şəxsiyyət verilməkdədir (M.S.Ordubadi isə həm inqilabdan əvvəlki həm də sonrakı ədəbi nəslə aiddir). Sovet ədəbiyyatının ən böyük nailiyyətlərindən biri respublikamızda qüvvətli realist nəsrin yaranmasıdır. Bu hadisə ədəbiyyatımızda köhnə, şeirdən ibarət olub qalmaq kimi məhdud bir çərçivəni dağıdan, yeni ədəbi müvazinətlər yaradan bir hadisədir. Müəlliflər sovet bədii nəsri kimi mühüm sahədən (Ordubadidən başqa) proqramla göstərilməyə layiq bir yazıçı tapa bilməmişlər. Nəbatinin "Elə məstəm ki...", Məsihinin sadəcə təqliddən ibarət olan "Vərqa və Gülşa"sı, Natəvanın "Ölürəm" qəzəli və ümumiyyətlə şərq sxolastikası ruhunda olan bu tipli ədəbiyyata proqramda səxavətlə yer verildiyi halda, Azərbaycan xalqının inqilab yolunda vuruşduğunu, Sovet hökuməti qurmaq uğrunda aparılan ağır, qanlı və şərəfli mübarizəni, Azərbaycan fəhləsinin və kəndlisinin siyasi mübarizələrdə fəal və həlledici sima olmaq səviyyəsinə yüksəldiyini, sovet dövründə sosializmin məişətə keçdiyini, sovet adamlarının bütün dünyanı heyrətə salan qəhrəmanlıq və mətanətini təsvir edən əsərlər proqramda cüzi bir yer tutmaqda "Ümumi xülasə"nin içərisində verilməkdə və gözdən salınmaqdadır. Sovet ədəbiyyatı öz mübarizə və inkişafında çox mühüm mərhələlər keçmişdir. Nə üçün bu mərhələlərin biri də proqramda qeyd edilməsin!

Böyük vətən müharibəsi dövrü xalqımızın bütün həyatında





olduğu kimi, Azərbaycan ədəbiyyatında da böyük tarixi bir imtahan idi. Bu dövrdə süngü ilə yanaşı iş görən qələm yeni ruhlu, yeni keyfiyyətli bir ədəbiyyat yaratmışdır ki, bu onun haqqında ağız dolusu danışmaq, bu ədəbiyyat ənənələri əsasında yeni nəslin kommunist tərbiyəsinə kömək etmək lazımdır. Halbu ki, müəlliflər bu dövrdə adda-budda bir neçə müəllifin və əsərin adını çəkməklə kifayətlənirlər. Görünür ki, müəlliflər adını çəkdikləri kitabları özləri də oxumamışlar. Məsələn 30-cu səhifədə Vətən müharibəsi dövründə yaranan nəsr nümunələrini sayaraq Mir Cəlalın "həyat hekayələri" göstərilir. Müəlliflər bilməsə də oxucu yaxşı bilir ki, həyat hekayələri 1939-cu ildə yazılmışdır və Vətən müharibəsinə dəxli yoxdur. M.Ənvərin əsərlərindən heç birinin adı müəlliflərin "yadında qalmadığı üçün" sadəcə "Ənvərin hekayələri" deyə ötürlər. Bu laqeydlik və etinasızlıq proqramın hər səhifəsində gözə dəyməkdədir. Müəlliflər nasir Zoryan ilə şair Zaryanı dolaşıq salmışlar. "Tsusima"nın müəllifi Novikov deyil, Novikov-Priboydur. Xüsusilə rus yazıçılarının adları mərifətsiz bir şəkildə, başsız ayaqsız (Blok, Fadeyev, Şoloxov...) yazılmaqdadır. Şagirdlərin yazı işində ən xırda səhvlərini tutub təshih edən müəllim, özünə rəhbər kitab kimi verilən bu proqrama baxıb heyrət etməzmi? "Əzbərlənməsi və nəql edilməsi tövsiyyə (bu söz haradan gəlmədir!) edilən parçalar içərisində "Qılınc və qələm" romanı, "Ölülər", "Pələng dərisi geymiş pəhlivan" və sairləri vardır. Bilmək olur ki, bu əsərlər niyə "parça" adlandırılır və bu böyüklükdə əsərin əzbərlənməsi mümkündürmü, lazımdırmı? "Sinifdən xaric qiraət" materialında isə Firdovsinin "Şahnamə"si, Homerin "Odisseya", "İliada"sı, Axundovun üç cildlik əsərləri vardır (səh.38). Müəlliflər, görünür qiraət sözünə ayrı məna verirlər. Məsləhət görülən kitabların Azərbaycan dilində olub-olmaması ilə də hesablaşmırlar. Müəlliflər yazıçıların adına necə yanaşırlarsa, kitabların adına da elə yanaşırlar. Məsləhət görülən kitabiyyata baxın:

"Atalar sözü" (səh. 38). Bu kitabı kim tərtib etmişdir. Nə vaxt və harada nəşr olunmuşdur və məhz bu adda kitab var, yoxdur; mə-

lum deyil. “Abdulla Şaiq ilk dərs kitablarının müəllifidir” (səh. 29). Belə bir yalan iddianı kim müdafiə edə bilər. Məgər Azərbaycanda ilk dərs kitablarının yaranması tarixi hələ keçən əsrin ortalarına aid olan hadisə deyilmi? Şaiq doğulmamış bizdə dərs kitabı var idi. Müəlliflərin bu inkarı nə üçündür?

Orta məktəb proqramının nəzəri səviyyəsi çox aşağıdır. Müəlliflərin təsvirində ədəbi növ ilə ədəbi janr eyni şeydir. Nağılı “Ədəbi növ” adlandırdıqları halda (səh. 11), eposu “ədəbi janr” adlandırırlar (səh. 7). Azərbaycan şeirinin məlum ölçülərinə (əruz, heca, sərbəst) yeni icad olaraq “qafiyəsiz şeir” vəznini də əlavə ediblər. Ədəbi cərəyanları və ümumiyyətlə ədəbiyyatın nəzəri qismini ədəbiyyat tarixindən və təcrübəsindən ayırmaq səhv və zərərlidir. Ədəbiyyat tarixindən keçilən kursa müvafiq nəzəri mövzular seçilməli və keçilməlidir. Məsələn, klassizm cərəyanını ancaq bu cərəyana mənsub olan yazıçıların yaradıcılığını və bu cərəyanın yaranıb inkişaf etdiyi dövrü keçəndə (8-ci sinifdə) öyrətmək lazımdır. Müəlliflər isə ədəbi cərəyanların hamısını bir sinifdə (9-da) verirlər (səh. 24).

Yazıçıların təhlil və qiymətləndirilməsində ümumilik və səthilikdən başqa səhv fikirlər də vardır. Nə vaxt və nəyə görə “Mirzə Şəfi Vazeh yeni ədəbiyyatın ilk banisi” (səh. 17) oldu? “İlk bani” sözü nə deməkdir? Belə əsassız hökm və təriflərə nə yazıçıların, nə proqramın və nə də müasir oxucunun ehtiyacı vardır. Proqram müəllifləri M.F.Axundov realizminin xüsusiyyətlərini nədə görürlər?

“Axundov realizminin əsas xüsusiyyətləri: “dərin müşahidə, fərdi şəxsiyyətdə (!?) ümumiləşdirmə, mübarizə və ideya dolğunluğu” (səh. 19).

Bunlar təkcə Axundova yox, bütün realistlərə aid, hətta bütün bədii sənətkarlığa aid olan xüsusiyyətlərdir, ancaq Axundova aid olan və onu başqa realistlərdən ayıran xüsusiyyətlər isə proqramda göstərilmir. Ədib və şairlər ümumi sözlər ilə səciyyələndirildiyi üçün hamısı bir-birinə oxşayır. Səliqəli və məsuliyyətli yazılmış proqramlarda yazıçının haqqında yazılan tənqidi, təhlili əsərlərdə





göstərilir ki, bu da oxucuya mühüm köməkdir. Həmçinin ədəbiyyat siyahısı əlifba sırası ilə mükəmməl verilməlidir. Göstərilən bədii ədəbiyyat siyahısında, H.Hüseynovun “Ədəbi qeydlər” əsərinin də adı var ki, (səh. 40) bunun mənasını anlamaq çətindir. Xülasə atüstü, tələsik yazılmış bu proqramın səhv və nöqsanları çox, yaxşı tərəfləri azdır. Nə üçün M.Arif və M.Rəfili kimi bilik və bacarıqlı redaktorların əlindən məsul və şərəfli bir iş belə qüsurlu çıxmışdır?

Çünki nə Arif və nə Rəfili orta məktəb proqramı tərtib etmək işinin ictimai-siyasi, mədəni-tərbiyəvi əhəmiyyətini hesaba almamışdır. Bu adamların boynunda o qədər vəzifə var ki, proqram tərtibinə beşinci dərəcəli iş kimi baxırlar. Maarif Nazirliyinin təkidinə görə həmin işi birtəhər, başdan sovma edib meydana atırlar.

Maarif Nazirliyinin isə bu işi görməyə başqa, daha çox vaxtı və məsuliyyət hissi olan adam tapmaq istəmir, daha doğrusu axtarmır. Bəzi idarələrin süni surətdə ölkəni mütəxəssis cəhətdən kasıb göstərmək ciddi-cəhdi zərərli bir şəkil almışdır. 30 illik sovet hakimiyyəti illərində ibtidai, orta və ali məktəb müəllimləri arasında yüzlərlə iqtidarlı və bilikli adamlar yaranmışdır ki, proqram tərtibində onların çoxundan istifadə etmək olar və lazımdır. Nə Rəfili, nə Arif məktəbi tanımır, onun tələbini və səviyyəsini bilmirlər. Onlar hazırkı məktəb şagirdindən xəbərdar deyillər. Ona görə də tərtib etdikləri proqram, yazdıqları dərslik təbii olaraq qüsurlu çıxır. Mütləq yenidən bu proqramın yaradılmasında orta məktəbin təcrübəli, qabaqcıl, təşəbbüskar müəllimləri fəal itirak etməlidirlər. Maarif Nazirliyi müəllimlərin öz içindən proqram və dərslik müəlliflərı tapmağa, böyük diqqət və səy göstərməli, özünü və məktəbləri “əvəzsiz” müəlliflərin asılılığından qurtarmalıdır.

*Ədəbiyyat qəzeti. 1948. № 23 (529). 21 avqust*

## Ürəklər fatehi

Bakının nadir izdihamlı günlərindən biridir. Göz işlədikcə insan görünür. Hamı bir nəfər kimi Akademiya binasına doğru istiqamət alıb gəlməkdədir. Acı və ağır xəbər adamların üzündə kədər

izi buraxmışdır. Böyük bəstəkar, görkəmli mədəniyyət və dövlət xadimi, Azərbaycan operasının banisi Üzeyir Hacıbəyovun vəfatı ilə musiqi mədəniyyətimizin ən böyük sima itirdiyini matəm mərasiminə gələnlərin baxışında da görmək olur. Adamlar həmişə əsərlərini diqqət və iftixarla eşitdikləri ilhamlı bəstəkarın, musiqimizin ağsaqqalının fəaliyyətdən qaldığına inanmaq istəmirlər. Ölməz əsərlər yaradan bir zəka üçün doğrudan da ölüm məfhumu uzaqdır. Üzeyir Hacıbəyov mədəni, ictimai xidmətdən ibarət olan gözəl, mənalı, məzmunlu, şərəfli həyatı ilə ölümə qalib gəlmişdir. Cismani ölüm onu heç bir zaman sədaqətli oğlu olduğu şanlı bolşevik partiyasından, adı ilə həmişə fəxr etdiyi böyük sovet vətənindən ayıra bilməz. O, böyük xidmətləri ilə daim bizim sıralarımızda, ön sıralarımızdadır. Üzeyir öz sənəti ilə qəlbləri fəth etməyi bacaran, dərin və həqiqi demokratik fikirləri, saf və yüksək insani hissləri, zərif, təbii, mənalı səs dalğalarında gözəl, bədii ifadə edən bir sənətkardır. Şüurlu həyatının bir dəqiqəsini də əsirgəmədən sovet musiqi sənətinin, mədəniyyətinin çiçəklənməsinə həsr edən, öz xalqından qidalanan və böyük rus mədəniyyətindən qüvvət alıb silahlanan Hacıbəyov ölməz əsərlər yaratmışdır.

Qırx il əvvəl yazdığı ilk Azərbaycan operası olan “Leyli və Məcnun”da böyük bəstəkar zülm və zorakılıq dünyasından alovlu bir eşqin qüssəli sərgüzəştini dərin lirika ilə bəstələyir. Üzeyir Hacıbəyov musiqinin mənasında ancaq kədər və məhzunluq axtaran köhnə, mürtəce Şərq ənənəsinə qarşı çıxaraq, “Arşın mal alan” əsərində hər bir kəsə aydın olan sadə dil ilə nikbin xalq yumorunu, gülüşünü ifadə etmişdir. Sovet quruluşunda sənətə və sənətkara olan Stalin qayğısı sayəsində yaranan, coşğun ilhamın parlaq məhsulu olan “Koroğlu” operasında isə Azərbaycan xalqının zülmə, əsarətə qarşı tarixi mübarizə ənənələri, hünər və qəhrəmanlıq dastanı bütün əzəməti ilə əks olunmuşdur. Azərbaycan sovet respublikasının dövlət himnini yazmaq şərəfi də Üzeyir Hacıbəyova müyəssər olmuşdur. Azərbaycan musiqisi dedikdə nəzərimizdə hər kəsdən əvvəl Üzeyir Hacıbəyov canlanır. Üzeyir Azərbaycanda birinci dəfə olaraq musiqi, şeir, drama sənətinin





ahəngdar sintezini yaratmışdır. O, həm də zəmanəsinin mahir dramaturqu idi. Onun musiqili komediyalarında qüdrətli bir ədib qələmi görünməkdədir. Bu əsərlərdə feodal həyatı və məişətini kəskin tənqid, fikir aydınlığı ustalıqda qurulan dramatik münaqişələrin təbii cərəyanı və həlli, bədii keçidlər, vəziyyətlər, xasiyyətnamələr və vasitələrin orijinallığı sənətkarın parlaq musiqisinə daha da rövnəq vermişdir.

Üzeyir Hacıbvəyov öz yaratdıqları ilə yüksək mədəni bir sənətkar, namuslu, ləyaqətli vətəndaş fəaliyyəti ilə sovet xalqının sevimlisi olmuşdur.

Böyük sənətkarın dəfn mərasimində bütün partiya və hökumət rəhbərləri iştirak edirdilər. Sovet İttifaqı və Sosialist Əməyi Qəhrəmanları, neftçilər, Sovet Ordusunun general və zabitləri, əsgərləri, elm, texnika, sənət, ədəbiyyat xadimləri, fəhlələr, kolxozçular, xidmətçilər, tələbələr, evdar qadınlar, bir sözlə ən geniş zəhmətkeş kütlələri iştirak edirdilər. Çünki Üzeyirin sənəti və xidməti bu adamların hamısı üçün əziz və qiymətlidir. Onun vaxtsız ölümü bunların hamısının qəlbini sıxan bir kədərdir. Mərhum ilə vidalaşmağa gələnlərin sayı-hesabı yox idi və arası kəsilmirdi. Ən gec vaxtda işdən çıxan fəhlələr və yorğunluqlarına baxmayaraq gecə vaxtı evlərinə getməzdən qabaq böyük sənətkar ilə vidalaşmağa öz vətəndaşlıq borclarını verməyə gəlirdilər. Hər millətdən, hər peşədən, hər yaşdan və hər bilik dərəcəsindən olan on minlərlə camaatın hamısı mərhumun tabutu qarşısında eyni minnətdarlıq hissini ifadə edib sanki deyirdilər:

– Böyük sənətkar, sizin bizə xidmətiniz böyükdür və sizə ölüm yoxdur!

Bəzi qadınlar uşaqlarının əlindən tutaraq gəlmişdilər. 7 yaşlı bir uşaq isə hər iki gözdən məhrum olan atasının əlindən tutub gətirmişdi. Kor kişi heç bir zaman böyük bəstəkarı görməmişdir və görməyəcəkdir. Ançaq Üzeyirin qəlbləri oxşayan və fəth edən qüdrətli musiqisini eşitmişdir və sevmişdir. Məktəblilərin çoxu sağlığında Üzeyiri görməmişdilər. Ancaq onun yaratdığı əsərləri, xüsusən sovet Azərbaycanının Dövlət Himnini çox böyük maraq

və sevinclə oxuyub eşitmişlər və həmişə oxuyub eşidəcəklər. Sovet adamları Üzeyir Hacıbəyovun matəminə doğma əzizlərinin matəminə gələn kimi gəlmişdilər. Belə ümumxalq sevgisi hər sənətkara müyəssər olmur. Sovet xalqının nüfuz və hörmətinə nail olmaq sənətkar üçün ən yüksək ideal, ən böyük səadətdir. Bu səadətə nail olanlara heç bir zaman ölüm yoxdur. Onların şən və şöhrəti əbədidir. Üzeyir Hacıbəyov da belə xoşbəxt sənətkarlardandır.

*Ədəbiyyat qəzeti. 1948. №33.24 noyabr*

## Qəhrəman qız

Səfərəliyev rayonunda Füzuli kəndinin "Qırmızı Oktyabr" kolxozunda cavan bir qız ən yaxşı pambıq ustaları ilə yarışır. O, yaşına münasib olmayan bir rəşadətlə əkinçilik işində elə işlər görür ki, çoxlarını heyran qoyur.

Bu qız, kolxozçu Mürsəl kişinin qızı, komsomolçu Sədaqət Verdiyevadır. Mən onun haqqında çox eşitmişdim. Qəzetlərdə oxumuşdum ki, Sədaqət manqa başçısıdır, 1947-ci ildə beş hektar pambıq sahəsinin hər hektarından 90 sentnerə yaxın pambıq vermişdir, Sosialist Əməyi Qəhrəmanı adı almışdır.

Bir toxucu mühəndis Sədaqətin bir ildə götürdüyü pambıq məhsulunu hesablayıb təəccüblə mənə demişdi:

–Bilirsinizmi bu nə deməkdir? Bu, azı 50 min adamın libası deməkdir. Bir komsomolçu qız illik əməyi ilə böyük bir şəhər əhalisini geyindirir. Sosialit əməyinin "möcüzələrini" görürsünüzmü?

Mən o qızı, adı dillərə düşən kolxoz qızını görmək istəyirdim. Nədənsə güman edirdim ki, Sədaqət uca boylu, pəhlivan gövdəli, iri addımlı bir qızdır. Bir qızın salam verib otağın aşağı başında kürsüdə oturduğunu görəndə adamlar əvvəl mənə, sonra da ona baxdılar. Kolxoz sədri Rüstəm kişi dedi:

– Sədaqət, irəli gəl, yoldaşlar səninlə söhbət eləmək istəyirlər.

Mən indi anladım ki, Sədaqət haqqında təsəvvürlərim səhv imiş. O, orta və mütənasib boylu, sadə geyimli, utancaq bir qız idi. İri və qara gözləri, qələm qaşları onun sifətinə xüsusi bir məlahət





vermişdi. Sadəlik və utancaqlıq onun gözəlliyini daha da artırırdı.

Sədaqət ibtidai məktəb bitirmişdir. Yeddi ildir ki, kolxozda çalışır. Komsomolun üzvüdür. Sovet məktəbi, komsomol və kolxoz onu tamam yeni ruhda böyütmüşdür. O, öz taleyini öz fədakar zəhmətində görən, azad və xoşbaxt kolxoz həyatının bütün nemətlərindən faydalanan, pambıq işinin qabaqcılları sırasında getməyi özünə məqsəd seçən bir komsomolçudur. Sədaqət yaxşı bilir ki, işdə müvəffəqiyyət öz-özünə gəlmir, onu qazanmaq lazımdır. Əkin yerindən tutmuş toxum seçməyə qədər, şum işindən başlamış alaq işi və məhsul yığımına qədər hər zaman, hər işin bir tələbi və əhəmiyyəti vardır.

Sədaqət öz manqasında ən cavan adam olsa da, manqa üzvləri arasında nüfuz sahibidir. Onun arzularını hamı yerinə yetirir, onun işdə – tarlada qoyduğu qaydalar hamı üçün bir qanundur.

Yaz başı camaat səpinə hazırlaşdığı zaman Sədaqətin gözü göydən çəkilmir. Bulut görən kimi əsəbiləşir: "Macal ver, macal ver, səpək!" – deyir.

Səpinin bir həftə gecikməsindən məhsula dəyəcək zərəri Sədaqət qocaman bir mütəxəsis kimi bilir.

Sədaqətin belə cavan yaşda əkin ustası olmasının sirri nədədir?

Bunun sirri həvəsdə, işə, zəhmətə olan sevgi və məhəbbətdədir! Sədaqət üçün zəhmət şan və şərəf işidir. Onun tarlada kətmən vurmağı məşhurdur. O, işini üzdən görmür, kətməni 18 santimetr dərinliyə qədər işlədir. Sədaqətin kətməni dəyən yerdə alaqdan əlamət qalmır. O, hər pambıq kolunu alaqdan, həşəratdan qoruyur. O, min bir həvəslə tarlaya girib cəld əlləri ilə pambıq yığanda tamaşasına durmaq istəyirsən. O danışmır, ətrafını seyr etmir, fikrini dağıtmır, ən incə tikiş tikən dərzinin diqqətilə, ən ağır bir işə yapışan fəhlənin gücü ilə çalışır. Bir saatın içində bütün briqadaları, manqaları vurub ötür. Tarlanın içərilərindən qayıdıb arxadakilərə əl eləyir.

–Geri qalmayın! Gəlin, yoldaşlar!

Sərin külək qəhrəman qızın al yanaqlarını oxşayır. Sədaqətin başındakı çəhrayı dəsmal qızıl quş kimi qanad çalır. Sədaqət yol-

daşlarını çağıraraq təkrar başını aşağı salıb pambığını yığır. Sədaqət həmişə qabaqda gedənlərdən olmaq, mənsub olduğu Lenin komsomolunun adına layiq çalışmaq üçün can atır.

Sovet hökuməti Sədaqətin əməyinə yüksək qiymət qoyaraq, 1947-ci ildə ona Sosialist Əməyi Qəhrəmanı adı vermişdir.

Bu xəbər kəndə yayılanda hamı Sədaqətin başına yığılmışdı. Mürsəl kişi iftixarından deməyə söz tapmırdı. Komsomolçular deyirdilər:

– Sağ ol Sədaqət, sən əsl komsomolçusan!

Kolxoz sədri qızın atasına deyirdi:

– Mürsəl, çox da qoltuğun qarpızlanmasın, Sədaqət bir sənin qızın deyil, o həm də kolxozun qızıdır! Sədaqət "Qırmızı Oktyabr"ın qızıdır!

Sədaqət sinəsini dolduran sevinclə dostlarına, yerlilərinə minnətdarlıq edib deyirdi:

– Hökumətimizin bu fərmanı mənim boynuma çox böyük vəzifə qoyur! Əslində mən ancaq öz komsomolçuluq borcumu yerinə yetirmişəm. İndi ki, hökumətimiz, kolxozçularımız mənim zəhmətimə belə yüksək qiymət verirlər, mən də var gücümü vuracağam ki, qəhrəmanlar kimi çalışım, qəhrəmanlar kimi məhsul götürüm!

Sədaqət Lenin komsomolunun yetişdirdiyi minlərlə qəhrəmandan biridir. İnqilabdan əvvəl Sədaqətin kəndi (o zaman kəndin adı Sünnülər idi) avamlı, səfalət yeri idi. Orada qız evladı olan ata-analar qüssələnər, məyus olardılar. Çünki qızı, qadını insan yerinə qoyan yox idi.

İndi sovet quruluşu bu kəndi çil-çırağban, abad, varlı və xoşbaxt həyat yoluna salmışdır. İndi bu kənd böyük Azərbaycan şairi Füzulinin adını daşıyır, həm də ləyaqətlə daşıyır. Axşamüstü, işdən sonra istirahətə, gəzməyə çıxan, kolxoz parkında qol-qola verib kolxoz mahnısı oxuyan oğlan və qızların xoş səsi eşidənlərə ləzzət verir. Burada döşü ordenli və medallı cavanlar, kolxoz əməyi ilə varlanan və şöhrət tapan cavanlar çoxdur.

İndi Sədaqəti görən anaların ürəyindən bir arzu keçir:





– Təki mənim də belə bir qızım olaydı. Qəhrəman qız qəhrəman oğuldan əskik deyil!

Komsomolçu Sədaqət doğrudan da qəhrəmanlar nəslindən, komsomol nəslindəndir. Bu nəslə məğlubiyyət yoxdur, çünki bu nəsli Lenin – Stalin partiyası böyütmüşdür!

*Pioner. 1948. №10*

## 1950
## "Təzə şəhər"

Bu ad ilə, bu il oxuculara təqdim ediləcək romanda mən yeni yaranmaqda və sürətlə inkişaf etməkdə olan sosialist şəhərlərindən birinin təsvirini vermək istəmişəm. Bakının yaxınlığında, Sumqayıtda hələ 1934-1935-ci illərdən nəhəng bir sənaye ocağının binası qoyulmuşdur. 10-15 il ərzində əzəmətli zavodları, dəmir yol xətləri, elektrik mərkəzləri, inşaat idarələri, geniş və gözəl asfalt küçələri, bir neçə qatlı yaşayış evləri ilə diqqəti cəlb edən bu cavan şəhəri quran və tikən sovet adamlarıdır.

Romanda həmin adamların fədakar və yaradıcı əməyi və bunun nəticəsində dəyişən, yüksələn məişəti göstərilir. Bu adamlar arasında ətraf kəndlərdən gələn yaşlı kolxozçular vardır ki, indi onların çoxu mürəkkəb maşınlar və aqreqatları idarə edən sənaye komandirlərinə çevrilmişlər.

Burada çalışanların çoxu cavanlardır. Vaxtilə "5 minlər" adı ilə Sumqayıtda çalışmağa gələnlər FZT məktəblərində, boru zavodunun sexlərində yeni ixtisas kəsb etmişlər. Bəziləri rayonun partiya, komsomol və ictimai təşkilatlarında rəhbər işə irəli çəkilmişlər. Bəziləri isə təhsilini artırmaq üçün mərkəzi şəhərlərin ali-texniki məktəblərinə göndərilmişlər. Moskva, Leninqrad və sair şəhərlərdən gələn mühəndis və texniklər, qocaman ustalar təzə şəhərin cavanlarına atalıq, qardaşlıq məhəbbəti və qayğısı ilə kömək edir, onların inkişafı ilə fəxr edirlər. Boş və quru bir səhranın gurultulu, işıqlı və izdihamlı sovet şəhərinə çevrilməsi, şanlı neft Bakısının qonşuluğunda yeni metallurgiya şəhərinin yaran-

ması, dünənki kolxozçu cavanların bu quruculuqda inkişaf ədib adlı-sanlı mütəxəssislərə çevrilməsi – “Təzə şəhər” kitabında əsas mətləbdir. Əsərin əsas qəhrəmanları sıravi fəhlələr, inşaat ustaları, mühəndislər və komsomolçulardır. Romanda onların işi, təhsili, həyat və məişətini verən fəsillər vardır.

*Ədəbiyyat qəzeti. 1950. 3 yanvar*

## Qayğıkeş müəllimə

Firuzə hələ uşaq ikən ata-anasını itirmişdi. Onu qoca babası Hüseynqulu kişi saxlayırdı. Firuzə böyüdükcə babası istəkli nəvəsinə baxıb fərəhlənir, sevinir, sanki o da cavanlaşırdı. Firuzə çox işgüzar və fərasətli qız idi. Ev işlərində babasına kömək edən balaca Firuzənin səliqəli və zəhmətsevən olduğunu görəndə Hüseynqulu kişi:

– Bax, qızım, yadından çıxarma: nə qədər zəhmətsevən olsan hamı da sənə hörmət edəcəkdir. Çünki zəhmət insanı yüksəldər, başını uca edər, – deyərdi.

Firuzə babasının bütün nəsihətlərinə diqqətlə qulaq asar, həm də onun hər bir sözünü yerinə yetirərdi. İllər, aylar bir-birini təqib edərək ötdü. Sevimli bir gün gəlib çatdı. Qoca babası Firuzəni Bakıya oxumağa göndərdi. Firuzə Bakıya gəldiyi ili xatırlayarkən həmişə belə deyir:

– Mən bu ili yaddan çıxara bilməyəcəyəm. Çünki bu il mənim doğulduğum, hər bir küçəsinə və döngəsinə yaxından bələd olduğum kəndimizdən ayrılıb sosialist Bakısına, – böyük və geniş küçələrindən, çoxmərtəbəli və əzəmətli binaların yanından, heç bir zaman görmədiyim dəniz kənarından keçərkən hər şeyin mənə qəribə göründüyü bir şəhərə gəldiyim ildir. Mən bunu yadımdan çıxara bilərəmmi? Əlbəttə yox! Heç bir zaman!

Firuzə Bakının Çaparidze rayonundakı 1 nömrəli məktəbə daxil olarkən sevicinin həddi-sayı yox idi. Burada hər bir şey ona doğma və əziz görünürdü. Hələ qırmızı qalstuklu pionerləri gördükdə nə qədər də sevinər və böyük iftixar hissilə:





– Mən də pioner olacağam, – deyərdi.

Nəhayət Firuzə öz arzusuna çatdı.

On minlərlə xoşbəxt və bəxtəvər sovet uşaqlarından biri olan Firuzə də müdrik rəhbərimiz İ.V.Stalin yoldaşın böyük atalıq qayğısı sayəsində şən və xoşbəxt yaşayır, yorulmadan elmlərə yiyələnir, bütün fənnlərdən “4” və “5” qiymətlə oxuyurdu. Artıq Firuzə VII sinifdə idi. O, böyümüş, tamamilə dəyişmişdi. Yaxşı savadlı qız olan Firuzənin ürəyi indi yeni arzu ilə döyünürdü:

– Mən rus dili müəllimi olmaq, uşaqlarımıza böyük rus xalqının dilini, bizə azadlıq və xoşbəxt həyat bəxş edən oktyabr inqilabının dilini öyrətmək istəyirəm, – deyirdi.

Böyük Stalinin atalıq qayğısı ilə əhatə olunan sovet adamları öz istək və arzularına asanlıqla nail olduqları kimi Firuzə də bəslədiyi arzuya çatdı. O, VII sinfi bitirdikdən sonra Sabir adına Bakı Pedaqoji Məktəbinə daxil oldu. Çox keçmədi ki, Firuzə məktəbi müvəffəqiyyətlə qutardı.

Beləliklə Firuzə sərbəst həyata qədəm qoydu. Demək bu gündən hamı onu: Firuzə müəllimə, deyə çağıracaqdı. Bundan da böyük xoşbəxtlik nə ola bilərdi?!

Firuzə ilk dəfə müəlliməliyə öz doğma kəndi Dırnıs orta məktəbində başladı. İki ildən sonra onu Ordubad orta məktəbinə təyin etdilər. Şəhər məktəbində dərs demək Firuzəyə çox çətin gəlirdi. Bunu hiss edən maarif şöbəsinin müdiri:

– Heç bir çətinlik yoxdur, çalışmaqla hər bir şey düzələr.

Bu sözlər Firuzəyə vaxtı ilə qoca babasının nəsihətini xatırlatdı və o:

– Xeyir, mən zəhmətdən qorxan deyiləm, – dedi.

Bəli, Firuzə dediyi kimi də etdi, zəhmətdən qorxmadı.

Hazırda o, uşaqlara oktyabr dilini daha yaxşı öyrətmək üçün gecə-gündüz çalışır. Hər bir şagirdə böyük qayğı ilə yanaşır. O, dərs dediyi uşaqların evlərini və ata-analarını yaxşı tanıyır. Firuzə həmişə uşaqların təlim-tərbiyəsilə yaxından məşğul olur. Bu işdə ata-analarla sıx əlaqə saxlayır. Onun dərs dediyi uşaqların hamısı “4” və “5” qiymətlə oxuyur. Çünki Firuzə müəllimə rus dilini

bütün incəlilkərinə qədər uşaqlara öyrədir. O, hər bir şagirdə böyük qayğı ilə yanaşır, həmişə:

–Mənim əzizlərim! Böyük rus yazıçısı Maksim Qorkinin sözlərini yaddan çıxarmayın, oxuyun, öyrənin, – deyir. Firuzə özünü də yaddan çıxarmır. Bu sözləri uşaqlara deyəndə, həm də özünə deyir. Firuzə oxuyur. O, indi Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun tələbəsidir.

Xalqımızın SSRİ Ali Sovetinə seçkilərə hazırlaşdığı bir zamanda Firuzənin həyatında unudulmaz bir hadisə baş vermişdir. Onu – Firuzə Cəbrayıl qızı Yusifovanı Ordubad seçki dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərmişlər. Firuzənin namizədliyini irəli sürən Ordubad seçki dairəsinin seçiciləri böyük sevinc hissilə

– Firuzə bizim qayğıkeş müəllimərmiz olduğu kimi, SSRİ Ali Sovetində də ləyaqətli deputatımız olacaqdır, – deyirlər.

*Bütün ellər səs verəcək*
*Bu dünyada bir insana,*
*Adı sığmaz dilə, sana,*
*Günəşdən də pak vicdana*
*Gənc nəsillər səs verəcək,*
*Bütün ellər səs verəcək.*
*Vətənimin büsatına,*
*Şən bəxtiyar həyatına,*
*Kommunizm ustadına*
*Gənc nəsillər səs verəcək,*
*Bütün ellər səs verəcək.*
*Azadlığın bayrağına,*
*Xoş günlərin novrağına,*
*Sülhün, möhkəm dayağına*
*Gənc nəsillər səs verəcək,*
*Bütün ellər səs verəcək.*

Sabir Məmmədov
*Kirovabad şəhəri, 5 nömrəli məktəbin şagirdi*
*Azərbaycan pioneri. 1950. №10 (444). 10 mart*





## Böyük gün

Bu gün 1 Maydır!

Dahi Leninin böyük gün adlandırdığı Mayda dünyanın hər yerində yüz milyonlarla zəhmətkeşlər ənənəvi nümayişə çıxırlar. Bütün yer üzündə və bütün xalqların dilində eyni, müqəddəs bir şüar öz əzəmətilə səslənir:

– Yaşasın dünya zəhmətkeşlərinin həmrəylik günü, bütün ölkələrin fəhlələrinin qardaşlıq günü olan 1 May!

Bu sülh, demokratiya və sosializm uğrunda mübarizə qüvvələrinin qüdrətli nümayişidir! Bu, kapitalizm və imperializm dünyasını kökündən laxladan, lərzəyə salan, cahanşümul bir hərəkatdır! Bu müqəddəs və məğlubedilməz qüvvələrin ön sıralarında həmişə olduğu kimi yenə bizim sovet vətənimiz - bütün dünyada sülhün, səadətin möhkəm dayağı olan böyük və şanlı Sovetlər İttifaqı gedir. Bizim adamlarımız bu tarixi mübarizələrdə öz möhkəm əzmi, səbatı, misilsiz qələbələrilə fərqlənirlər. Şanlı nümayişçilərin sıralarında sovet adamlarının yüksək və şərəfli bir yeri vardır. Yer üzündə birinci dəfə olaraq imperializm zəncirini qırmış, zülm və istibdadı məhv etmiş, xoşbəxt həyat qurmuş olan sovet xalqı bütün dünya zəhmətkeşlərinə hər çəhətdən nümunə olmuşdur.

Hələ 38 il bundan əvvəl Stalin yoldaş ictimai inkişaf tarixi qanunlarını dürüst müəyyən edərək bəşəriyyətin mübarizə və gələcək yolunu dahiyanə bir uzaqgörənliklə işıqlandıraraq göstərmişdir ki, dünyanı azadlıq və sosializm əsasında yenidən qurmaq fəhlələrin vəzifəsidir! İndi bizim vətənimiz Lenin-Stalin partiyasının rəhbərliyi ilə sosializm cəmiyyətini qurub başa çatdırmış və tədricən kommunizmə keçmək yolunda yeni-yeni tarixi qələbələr əldə etməkdədir. Böyük Stalin bizi Lenin bayrağı altında, Lenin yolu ilə kommunizmin qələbələr zirvəsinə aparır. 1 May bayramı şanlı vətənimizdə səadətin, azadlığın, bəxtiyar həyatın təntənəsi kimi səslənməkdədir.

Sosialist inqilabının paytaxtından – şanlı Moskvadan tutmuş ən uzaq kəndlərə qədər sovet ölkəsində elə bir məskən yoxdur ki,

orada bu qüdrətli və qalib yürüşün coşğun simfoniyası, məğrur addım səsləri eşidilməsin. Sosialist sənaemizin fəhlələri, mütəxəssisləri, kolxozçu kəndlilər və sovet ziyalıları 1 Mayda küçələrə çıxaraq sinə dolusu sevinc və iftixar hissilə əldə etdikləri qələbələri tarix qarşısında, dünya qarşısında, gələcək qarşısında nümayiş etdirirlər. Bu nümayişlərə baxmaq və bunların iştirakçısı olmaq nə qədər xoş, nə qədər böyük səadətdir! Qocaların simasında vüqar, gənclərin yerişində iftixar, uşaqların sevincində isə bir bahar şənliyi vardır. Həyat böyük və xoş bir qələbə ahəngilə yeni dünyanın bu yeni insanlarını təbrik edir. Böyük proletar ədibi Maksim Qorki vaxtilə deyirdi: "İnsan! Bu söz məğrur səslənir!" Bu böyük kəlam hər kəsdən əvvəl azad və bəxtiyar sovet adamlarına aiddir. Sovet adamı indi dünyada qəhrəmanlığın təcəssümüdür. Təsadüfi deyil ki, sovet dövrünün ən istedadlı şairi Mayakovski bütün kapitalist dünyası qarşısında sovet pasportunu bir bayraq kimi qaldıraraq uca səslə deyirdi:

*Oxuyun!*
*Bu pasportu*
*Mənəm daşıyan...*
*Mən*
*Sovet*
*Vətəndaşıyam!*

Bu xoşbəxtlik, sevinc və iftixarı biz bu gün böyük abad şəhər və kəndlərimizdə Stalin günəşi altında mahnılarla yeriyən adamların açıq alnında, gülər üzündə, iti baxışlarında oxuya bilərik. Nümayişçi dəstələrini görənlər orada rəhbərlərin şəkillərini, uca tutulan qırmızı bayraqları, möhkəm səslənən şüarları, raport verən rəqəmləri görürlər. Bu cərgələrdə qocalar da, cavanlar da, uşaqlar da eyni bir hiss və fikirlə, eyni bir iradə və mətanətlə yeriyirlər. Bu əziz bayram günündə körpələrdən tutmuş babalara qədər heç kəs evində oturmaq istəmir. Hamı milyonların sırasında nümayiş cərgələrində görünmək istəyir. Odur, əlvan geyimli uşağı – atasının





çiynində oturub tribunaya baxan, ağ, körpə əlləri ilə salam verən uşağı görürsünüzmü? O, nə deyir? Onun da sevinci, iftixarı böyüklərinki kimi qanuni və təbiidir. O, bizim yeni, dərdsiz, qəmsiz sovet balalarımızın böyük Stalinə tükənməz məhəbbətini, minnətdarlıq hissini yetirməyə gəlmişdir. O, yeni dünyanın, yeni həyatın, yeni ailənin bahar meyvəsidir. Stalin zəmanəsi Stalin qanunları sayəsində ən yüksək cəmiyyət quran xalqımız ən xoşbəxt ailə də qurmuşdur. Bütün sovet adamları salama gələn bu körpə ilə birlikdə dərin məhəbbət və minnətdarlıq nəzərlərini qələbələrimizin dahi təşkilatçısına və mehriban atamıza çevirib deyirlər:

*Stalin, səninlə fəxr edir vətən,*
*Yazdığın kitabda görürük bunu.*
*Aldıq şərbət kimi o dost əlindən*
*Azadlıq qanunu, vicdan qanunu!*

Stalin qanunları sovet adamları üçün maddi və mənəvi nemətlərin tarixdə görünməmiş bolluğunu yaratmış və onu zəhmətkeş kütlələrə vermişdir. Bu qanunlar zəhmət adamlarını həyatın, cəmiyyətin, ölkənin, dövlətin əsl sahibi etmişdir. Bu qanunlar fəhlə və kəndlini, zəhmətkeş ziyalını kapitalist dünyasında heç xəyala gələ bilməyən bir yüksəkliyə qaldırmışdır. Keçmişdə ən geridə qalmış "patriarxal-feodal münasibətlər ölkəsi olan Azərbaycan, sovet hakimiyyəti illərində min illik inkişafa bərabər bir sıçrayışla inkişaf edərək qabaqcıl sosialist sənae respublikası olmuşdur" (M.C.Bağırov).

Azərbaycan zəhmətkeşləri böyük Stalinin tapşırığını yerinə yetirərək qoca Şərqin qapısında nümunəvi, yüksək mədəniyyətli bir sosialist respublikası yaratmışlar. Bu, ancaq sovet hakimiyyəti sayəsində, sosialist inqilabı nəticəsində, böyük rus xalqının qardaşlıq köməyi sayəsində olmuşdur. Böyük inqilabımız, sovet quruluşu və Stalin Konstitusiyası bütün dünyaya isbat etdi və göstərdi ki, ən yüksək həyat, ən böyük səadət məhz zəhmət adamlarına, yeni dünya quran qəhrəmanlara layiqdir. Vətənimizdə zəhmətkeşlərin nə

qədər böyük tərəqqi yoluna çıxdıqlarını görmək istəyənlər May nümayişi dəstələrinin önündə gedən ləyaqətli adamlarımıza – Sovet İttifaqi Qəhrəmanları, Sosialist Əməyi Qəhrəmanları, Stalin mükafatı laureatlarına nəzər salsınlar. Bu adamların simasında sosialist əməyinin ecazkar qüdrəti hiss olunur.

Bu xoşbəxt bahar günlərində geniş küçələri, güllü-çiçəkli bağbaxçanı dolduran, bayram libası geymiş oğlan-qızlara baxın. Onların gənc və isti qəlbi böyük və müqəddəs hisslərdə, ideallarla doludur. Onların döşündəki orden və medallar, təhsil, idman və yarış nişanları bu adamların sosialist əməyindən, hədsiz inkişafından xəbər verir. Partiyamızın və dövlətimizin Stalin qayğısı sayəsində elmin, texnikanın, təsərrüfatın, dövlətin elə bir sahəsi yoxdur ki, cavanlarımız o sahədə inkişaf etməsin, istədiyi mərtəbəyə qalxmasın. Böyük dövlət xadimi səviyyəsinə yüksələn sadə fəhlə və kolxozçularla yanaşı mühəndislər, aqranomlar, konstruktorlar, bəstəkarlar, həkimlər, yazıçılar, alimlər, mədəniyyət və dövlət xadimləri nümayişdə addımlayırlar.

İpək pərdəli pəncərələrdən bir işıq kimi göylərə yüksələn məğrur mahnı, ətrafa yayılan coşğun musiqi səslərini eşidin. Şəhər və kəndlərimizdə baş-başa verib yüksələn möhtəşəm və çoxmərtəbəli binalara baxın. Bunlar bizdə adi həyat mənzərəsi olmuşdur.

Çadradan, əsarətdən, məhkumluqdan, avamlıqdan uzaq olan, fəal sosializm quranlar, cərgəsində şərəfli yer tutan, Azərbaycan qadını indi nəinki müasir, mədəni həyatla yaşayır, o, hətta sosialist mədəniyyətinin, yeni kitabların yaradıcı səviyyəsinə, dövlət xadimləri səviyyəsinə yüksəlmişdir.

İndi bizdə qəzetlərin, kitabların tirajı on minlər, yüz minlərlədir. Vətənimiz başdan-başa savadlılar ölkəsidir. Azərbaycan SSR Elmlər Akademiyası respublikamızda qüdrətli bir elmi mərkəzə çevrilmişdir. Azərbaycanda min nəfərdən çox elmi dərəcə və ad sahibi olan alimlər Sovet İttifaqının bütün alimləri ilə birlikdə elm, texnika sahəsində yeni-yeni ixtira və kəşflər edirlər.

Sovet vətənimizin və dövlətimizin, xalqımızın bu tarixi qələbələri bütün dünya zəhmətkeşlərini nə qədər sevindirirsə, kapitalist ağaları bir o qədər qəzəbləndirir və onların təşvişinə səbəb olur. Bütün yolların kommunizmə getdiyi bir zamanda, kapitalist dünyasının kökündən cürüyüb məhvə məhkum olduğu bir dövrdə imperialistlər yeni xülyaları ilə təsəlli tapırlar. Onlar xalqları aclıq, fəlakət və qırğın içində boğmaq üçün min cür hiylə fırıldaqdan çəkinmirlər. İmperialistlər müharibəsiz, qırğınsız, talansız yaşaya bilməyəcəklərini gözəlcə bilirlər. Ona görə də bütün dünyada azadlığın və qurtuluşun simvolu olan Sovetlər İttifaqına qarşı "səlib yürüşü" düzəltmək istəyirlər. Dünyanın hər yerində yüksələn və yeni-yeni milyonları öz sıralarına cəlb edən sülh uğrunda mübarizə hərəkatı, yeni demokratiya ölkələrinin, böyük Çin xalqının parlaq qələbələri, imperializm canavarlarının – trumenlərin, açesonların, çörçillərin, bevinlərin... xüsusi quduzluğuna səbəb olmuşdur. Amerikan imperialistləri sülhə, demokratiyaya, sosializmə qarşı yeni cinayətkar qəsdlər hazırlamaq üçün hər cür fırıldaqlara əl atırlar. Məzara doğru yuvarlanmaqda olan kapitalizm özü ilə bərabər bütün bəşəriyyəti də uçuruma aparmaq, məhv etmək istəyir. Aclıq, xarabazar, talan epidemiya, kütləvi qırğın, atom bombası – amerikan-ingilis imperializminin idealı və bayrağı budur. Bədnam Marşall planının qurbanı olan bir sıra ölkələrdə bu canavar iştahasının bəhrəsini görmək çətin deyildir. Uzağa getməyək. Lap qonşuluqda Azərbaycan SSR ilə həmsərhədd olan İran və Türkiyədə amerikan imperializminin törətdiyi fəlakətləri indi bu ölkələrin rüsvayçı başçıları da gizlədə bilmir, bəzən etirafa məcbur olurlar. Aprelin 25-də İran məclisində danışan deputat Bahadiri, İran xalqının ağır iqtisadi şəraitini göstərir. O, "keçən günləri" həsrətlə arzulayaraq yadına salır ki, "İran Azərbaycanı ölkəyə artıq taxıl verərdi". İndi isə Cənubi azərbaycanlılar tamam fəlakət içindədir. "Adamlar öz xanımanlarını buraxıb çörək dalınca şəhərbəşəhər gəzirlər".

İnsani sifət və heysiyyətdən məhrum olan İran sədri-əzəmi isə "Şahidə tətil edən fəhlələr üstünə qoşun göndərdiyini və hətta 5 fəhlənin öldürüldüyünü" həyasızlıqla elan edir.

İran və Türkiyənin satqın dövlət məmurları qəpik-quruş bahasına öz vətən torpaqlarını "mədən axtaran", "Nuhun gəmisini axtaran" hiyləgər amerikan hərbiyəlilərinin tapdağı altına vermişlər.

İmperialist qudurğanların, müharibə qızışdıranların canfişanlığı bütün dünyada ən əzəmətli qüvvəyə çevrilən və böyük Sovetlər İttifaqına arxalanan sülh tərəfdarlarının mübarizə əzmini əsla zəiflədə bilməyəcəkdir. Builki 1 May nümayişləri dünyanın hər yerində sülh tərəfdarları cərgələrinə yeni-yeni milyonlar cəlb edir və bu mübarizlərin birlik, qüdrət və əzmini daha da artırır. Sülh işi bütün dünya xalqlarının işidir. İndiki dövrdə sülh uğrunda mübarizə, atom silahının qadağan edilməsi, bu silahı ilk dəfə işlədən hökumətin müharibə canisi elan edilməsi uğrunda hərəkat böyüyür və genişlənir, yeni-yeni kütlələri, ölkələri, xalqları əhatə edir. Sülh Tərəfdarları Konqresi Daimi Komitəsinin müraciətinə qoşulmaq üçün milyonlarla imzalar toplamaq yolunda başlanan hərəkat indiki mərhələdə sülh uğrunda mübarizə tədbirlərinin mərkəzi vəsiləsidir.

Bunu əldə bayraq küçələrə çıxan bütün dünya zəhmətkeşləri nəzərdə tuturlar. İmperialistlərin hiylə və fırıldaqlarını ifşa edirlər. Bütün dünya sülh tərəfdarlarının ümid və nəzəri birinci növbədə Sovetlər İttifaqına tərəf çevrilmişdir.

Yaşasın bütün dünyada sülhün, demokratiya və sosializmin möhkəm dayağı olan qüdrətli Sovetlər İttifaqı!

Bu mübariz şüar dünyanın hər yerində, hər xalqın dilində eyni qüvvədə, eyni təsir, eyni səmimiyyətlə səslənməkdədir. Öz gələcəyinə, öz qüvvəsinə inanan və əmin olan yüz milyonların mübariz və qüdrətli hərəkatına çevrilən sülh işi bütün dünyada qalib gəlməlidir. Və qalib gələcəkdir. Çünki sülhün keşiyində zəhmətkeş bəşəriyyətin müdrik müəllimi, böyük xilaskarı, xalqların dahi rəhbəri Stalin durur. Bu böyük və əziz gündə zəhmətkeş bəşəriyyətin diqqəti Stalinə tərəf çevrilmişdir. Böyük Stalinin bu tarixi sözləri yüz milyonların dilində təkrar edilməkdə və bütün əzəmətilə səslənməkdədir:

– Sosializm və demokratiya məğlubedilməzdir.

*Kommunist. 1950. 1 may. № 88*





**Sülh işi qalib gələcək**

Yay tətili qurtarmaq üzrədir. Müəllimlər, tələbələr, şagirdlər kurortlardan, istirahət evlərindən, düşərgələrdən qayıdır, yeni dərs ilini başlamağa hazırlaşırlar.

Vətənimizin bütün böyük şəhərlərində olduğu kimi Bakının da ali məktəb qapılarında dəstə-dəstə əli kitablı cavanlar, qızlar-oğlanlar görərsiniz. Bunlar orta təhsili bitirmişlərdir. Respublikamızın ali məktəbləri öz qapılarını onların üzünə açmışdır. Sovet gəncləri bütün dünya və tarixdə ən xoşbaxt gəncliyin nümunəsidir. Sovet gəncinin qarşısında açılan inkişaf və tərəqqi imkanlarını heç bir tarix, heç bir kapitalist ölkəsi görməmişdir. Darülfünunun, institutların qapılarında gördüyümüz məğrur, gülər üzlü gənclər belə deyirlər:

– Mən neft mühəndisi olacağam.

– Mən energetikanı sevirəm.

– Mən biologiyanı ixtisas seçirəm.

– Mənim həvəsim müəllimliyədir!

Bu sözləri gənclər dərin bir etimad və gələcəyə əminlik ilə deyirlər. Çünki Stalin Konstitusiyası, sovet dövləti onları təhsil hüququndan təmin etmişdir. Onlar istədikləri ixtisası qazanacaq, məqsədlərinə nail olacaqlar... Bütün bunlar bolşeviklər partiyasının, sovet dövlətinin, böyük Stalinin xalqımıza səadət bəxş edən müdrik siyasəti, ardıcıl sülh və quruculuq siyasəti nəticəsidir.

Kapitalist dünyasında isə bütün zəhmətkeşlər kimi zəhmətkeş gənclər də fəlakət və məhrumiyyət içində məhv olurlar. Bir neçə gün əvvəl "Pravda" qəzetində çap olunan bir yazını "Türkiyə müəlliminin qeydlərini" oxuyanlar, amerikan dollarına satılmış ölkələrin nəsibi nə olduğunu aşkar görərlər.

17 yaşlı türk müəllimi yazır: "Bizim nə sığınacaq yerimiz, nə paltarımız var. Aclığımızı rəf etməyə yemək yoxdur. 5-10 ildə bir dəfə paltar alana rast gəlmək olar. Pəncəkli adam görməzsən. Hamı taxta başmaq geyir..."

Amerikan-ingilis imperialistləri öz sələfləri olan Hitlerin yolu

ilə gedərək bütün dünyanı müharibə meydanına çevirməyə, xalqları isə vəhşicəsinə qırmağa hazırlaşırlar. Qatil trumenlər, açessonlar, makarturlar bu vəhşi planlarını indi əməli surətdə icradan çəkinmirlər. Onlar okeanlar və ölkələr keçib Koreyaya qoşun, silah tökürlər. Onlar Koreya xalqının öz istiqlaliyyəti uğrundakı mübarizəsinə qarşı çıxır, quduz pəncələrini Koreya torpaqlarına ilişdirib saxlamaq istəyirlər. Onlar "kütləvi bakterioloji, radioaktiv müharibə" metodları ilə azadlıq sevən xalqları hədələmək istəyirlər. Ancaq xalqlar dollar ağa və nökərlərini artıq yaxşı tanıyırlar.

Atom silahının qadağan edilməsi haqqında Stokholm bəyannaməsinə imza toplamaq işi sülhsevənlər cəbhəsinin nə qədər böyük qüvvə olduğunu bütün dünyaya göstərdi.

Stokholm bəyannaməsini 75-dən çox ölkədə 280 milyondan çox adam imzalamışdır. "Bəyannaməni imzalayanlar içərisində bütün ölkələrdən adamlar, hər cür əqidədə, hər cür dində və müxtəlif ictimai vəziyyətdə olan adamlar vardır". Bu adamları mühüm və müqəddəs bir məqsəd atom bombası kimi təcavüzkarlıq və kütləvi qırğın silahını qadağan etmək yolunda mübarizə məqsədi birləşdirmişdir. Yüz milyonların imzası, yüz milyonların dönməz əzmi, polad iradəsi deməkdir.

Bəyannaməyə imza atan sovet adamları sülh növbələrində duraraq əmək cəbhəsində misilsiz fədakarlıq göstərir. Vətənimizin qüdrətini, sülh cəbhəsinin qüdrətini möhkəmləndirirlər.

Biz, sovet mədəniyyəti xadimləri, sovet yazıçılarının müqəddəs və şərəfli vəzifəsi, həmişə, hər yerdə və hər vasitə ilə imperialist vəhşilərini, müharibə, qırğın törədənləri amansız ifşa etmək, sülh cəbhəsinin qüdrətini möhkəmlətmək uğrunda qələmlərimizi səfərbər etməkdir.

Bu gün, tərəqqipərvər bəşəriyyətin "sülh" deyən səsi dünyanın hər yerində eşidildiyi zamanda qaniçən trümenlər, makarturlar Koreya xalqının başına bomba tökürlər. Koreyada şəhərləri, məktəbləri, müalicəxanaları, darülfünunları dağıdan, anaları, balaları qıran, ayaq basdıqları yerə ölüm, təxribat, fəlakət gətirən amerikan imperialistlərinə bütün dünya lənət yağdırır.





Dünyanın zəhmətkeşləri, şüurlu adamları, böyük sovet xalqının uca səsinə səs verərək sülh istəyirlər.

Sülh cəbhəsi qalib gəlməlidir! Sülh cəbhəsi qalib gələcəkdir, çünki bu cəbhənin bayraqları bəşəriyyətin dahi xilaskarı böyük Stalindir!

*Ədəbiyyat qəzeti. 1950. № 24. 25 avqust*

## Fərəhli görüş günləri

Azərbaycan yazıçı və incəsənət işçilərinin Moskva ictimaiyyəti qarşısında çıxış etməsinə xalqımız haqlı olaraq böyük və ciddi bir imtahan kimi baxır. Çünki Moskvanın təqdirini qazanmaq hər bir sovet adamı, hər bir mədəniyyət xadimi üçün ən böyük şərəf və mükafatdır.

Ongünlük zamanı Yazıçılar İttifaqında keçirilən müzakirələrdə şeir, nəsr, dramaturgiya və tənqid sahəsinin ən ciddi, ən zəruri məsələlərindən bəhs olunurdu. Bu müzakirələr rəsmi yox, olduqca işgüzar mahiyyətdə idi. Azərbaycan bədii nəsrinə həsr olunan iclasda mübahisəyə 20 nəfərdən çox adam yazılmışdı. Onlar Azərbaycan bədii nəsrinin sovet dövründəki sürətli inkişafından, mühüm əsərlərindən, nasirlərin sosializm realizmi yolunda daha da kamilləşmək zərurət və tədbirlərindən, istehsalat mövzusundan, rus yazıçıları ilə möhkəm yaradıcılıq əlaqəsinin gözəl nəticələrindən, bədii tərcümə keyfiyyətindən və sairədən danışırdılar. Moskvalı yazıçı və tənqidçi yoldaşlar bizim rus dilində çıxan bütün əsərlərimizi diqqətlə oxuduqlarından konkret əsərlərin dərin təhlilini verirdilər.

Bütün bu görüş, söhbət və müzakirələr hər bir yazıçı üçün, o cümlədən səxsən mənim üçün bir nümunə, bir məktəb idi. Bizə xoş və fərəhli idi ki, Moskva yazıçıları və oxucuları Azərbaycan sovet ədəbiyyatının əsas əsərlərini qiymətləndirirdilər və bu qiymət hər hansı bir güzəştdən uzaq, müasir sovet ictimaiyyətinin rəyini ifadə edən obyektiv bir qiymət idi.

Bu, bir tərəfdən bizim sinəmizi iftixar hissi ilə doldurursa, o

biri tərəfdən bizi yeni-yeni yaradıcılıq işinə, Stalin zəmanəsinə layiq yeni və yüksək əsərlər yaratmaq əzminə çağırırdı.

Yeni il mənim həyatımda məhz belə coşğun yaradıcılıq ili olmalıdır. Mən 1951-ci ildə "Yaşıdlarım" romanının ikinci hissəsini qurtaracaq, yeni tikintilərimizdən, sovet məktəblilərinin həyatından bəhs edən bir silsilə hekayələr üzərində işləyəcəyəm.

*Kommunist. 1950. № 278 (8490). 27 dekabr*

## 1951
## Yazıçılarımızın yaradıcılıq planları

Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü, biz yazıçılar üçün paytaxt ictimaiyyatı qarşısında ikinci imtahan oldu. Bu imtahan bizim keçən on il ərzində əldə etdiyimiz müvəffəqiyyətləri nümayiş etdirməklə bərabər yaradıcılığımızdakı nöqsanları da açıb göstərdi, qarşımıza Stalin zəmanəsinə layiq ideyaca yüksək yeni bədii əsərlər yaratmaq kimi çox mühüm və şərəfli vəzifələr qoydu.

Böyük qələbələrlə qarşılaşdığımız yeni il, bu böyük vəzifələrin yerinə yetirilməsi üçün bizim coşğun yaradıcılıq ilimiz olacaqdır.

Ədəbiyyatımızı müasir mövzuda yazılan böyük əsərlər - romanlar, poemalar, dramalarla zənginləşdirmək üçün biz yazıçılar yeni ildə daha məhsuldar işləməliyik. Mən bu il, "Yaşıdlar" romanının ikinci hissəsini qurtaracaq, bununla yanaşı xalqımızın quruculuq işlərindəki fədakarlığından və məktəblilərimizin həyatından bəhs edən hekayələr yazacağam.

*Ədəbiyyat qəzeti. 1951. №1. 7 yanvar*

## Cəfər Xəndan

Azərbaycan SSR Ali Sovetinə seçkilər üzrə 5 nömrəli seçki dairəsinin seçiciləri respublikamızın görkəmli alim və şairlərindən birini, Azərbaycan Dövlət Darülfünunun rektoru Cəfər Xəndan Hacıyev yoldaşı Azərbaycan SSR Ali Soveti deputatlığına namizəd göstərmişlər.





Cəfər Xəndan Zeynal oğlu Hacıyevin təhsil, tərbiyə və inkişaf yolu sovet adamlarının inkişafı üçün çox xarakterikdir. Professor C.Xəndan yoldaş 1910-cu ildə, kənddə bir müəllim ailəsində doğulmuşdur. Lap uşaq vaxtında yetim qalan Cəfərə Sovet hökuməti atalıq edib böyütmüşdür. O, yüzlərlə yetim, yoxsul uşaqlar ilə birlikdə Kirovabadın 1 nömrəli uşaq evində tərbiyə və ibtidai təhsil almışdır. Uşaq vaxtından ədəbiyyata, şeirə, böyük həvəsi olan Cəfər Xəndan hələ Kirovabad pedaqoji texnikumunda oxuduğu zaman şeirlər yazmış, yerli mətbuatda iştirak etmişdir. 1929-cu ildə Kirovabad pedaqoji texnikumu və 1932-ci ildə Ali Pedaqoji İnstitutunu bitirən Cəfər, 1935-ci ildə ədəbiyyat üzrə aspiranturanı qurtarmış, 1939-cu ildə Azərbaycan xalqının inqilabi satirik şairi Sabirin yaradıcılığını dərin və geniş təhlil edən əsərilə filoloji elmləri namizədi dərəcəsini almışdır. 1949-cu ildə Cəfər Xəndan yoldaş Cənubi Azərbaycanda demokratik ədəbiyyatın inkişafından bəhs edən yeni, daha böyük və daha qiymətli bir elmi əsər yazıb müdafiə etmiş, bunun üçün ona filoloji elmləri doktoru dərəcəsi verilmişdir. Cənubi Azərbaycanda demokratik ədəbiyyatdan və bu ədəbiyyatın inkişaf mərhələlərindən bəhs edən C.Xəndan bu əsərində əsas ədəbi şəxsiyyətləri və əsərləri geniş təhlil edir. Bu ədəbiyyatın bütün gözəl, müsbət cəhətlərini, çox doğru olaraq böyük rus ədəbiyyatının, sovet ədəbiyyatının işıqlı təsiri ilə bağlayır. Müəllif öz əsərində M.Ə.Möcüz kimi Cənubi Azərbaycan şairlərinin məhz Sabir satirasına, inqilabi ideyalara, sovet quruluşuna dərin rəğbət və məhəbbətlə məşhurlaşdığını sənədlər ilə sübut edir. C.Xəndanın bu əsəri Azərnəşr tərəfindən çap olunmaqdadır. O, indi Azərbaycan ədəbiyyatı kafedrasının müdiridir. Respublikamızın görkəmli alimlərindən, tənqidçilərindən biridir. Onun ədəbiyyatşünaslığa aid bir sıra əsərləri vardır ki, məktəbli, tələbə, müəllim və ümumən oxucular tərəfindən istifadə olunur. Orta məktəblər üçün olan "Ədəbiyyat teoriyası" kitabı C.Xəndan yoldaşın əsəridir. Müəllif sovet elminin inkişafını, oxu-

cuların, müəllimlərin göstəriş və tələblərini nəzərə alaraq hər il öz əsərini düzəldir, təkmilləşdirir. Onun ali məktəblərdə, xüsusən darülfünunumuzda oxuduğu keyfiyyətli, dərin məzmunlu mühazirələr həmişə tələbələrimizin klassik yazıçılarımıza, sovet ədəbiyyatına həvəs və marağını, məhəbbətini artırır. C.Xəndan yoldaş istər elmi əsərlərində və istərsə mühazirələrində ədəbi faktları təfsilatına qədər öyrənən, ədəbiyyatı kommunizm tərbiyəsi uğrunda mühüm bir vasitə sayan alimlərdəndir.

Cəfər Xəndan yoldaş məhsuldar bir alim, təcrübəli bir müəllim, şair olmaqla bərabər istedadlı və yorulmaz bir təşkilatçıdır. Bir neçə aydır ki, o, S.M.Kirov adına Azərbaycan Dövlət Darülfünunun rektoru vəzifəsində çalışır. Bu az müddətdə o, bütün kollektivin hörmətini qazanmış, partiya və həmkarlar təşkilatı ilə birlikdə dərs keyfiyyətinin yüksəlməsi uğrunda çalışmışdır. Professor Cəfər Xəndan harada işləyir-işləsin, bolşevik mətbuatındamı, ali məktəbdəmi, elmi idarədəmi – partiyamızın bir əsgəri kimi çalışmış, işə kommunist münasibəti göstərmişdir.

Cəfər Xəndan "Qırmızı Ulduz" ordeni və döyüş medalları ilə təltif olunmuşdur. O, bu yüksək mükafatı Böyük Vətən müharibəsində, Sovet Ordusu sıralarındakı siyasi işdə göstərdiyi rəşadətlə qazanmışdır. Cəfər Xəndan yoldaş Təbrizdə, ordu qəzetində çalışdığı zaman sovet məfkurəsinin fəal təbliğatçısı olmuşdur. O, öz qələmi və əməli işi ilə Cənubi Azərbaycanda qurtuluş ideyalarının yayılmasına, qanlı imperialist fırıldaqlarının ifşa edilməsinə çox səy göstərmişdir.

Cəfər Xəndan yoldaşın Cənubi Azərbaycanın demokratik şair və yazıçılarına göstərdiyi yaradıcılıq köməyi də çox olmuşdur.

Cəfər Xəndanın istər Böyük Vətən müharibəsinə qədər, istərsə müharibə illərində yazdığı bir sıra şeirlər, M.F.Axundov, Nizami şeirlərindən etdiyi tərcümələr indi də qiymətini itirməmişdir. İndi o, əsas diqqətini elmi işə, ali təhsilli kadrlar yetişdirmək işinə verməkdədir. Professor Hacıyev təvazökar, həssas bir kommunistdir. Hər bir tələbəyə, aspiranta, ümumən kadrlar tərbiyə edib yetişdirmək işinə diqqət və məsuliyyətlə, partiyamızın göstərişlərindən doğan böyük tələblər və vəzifələr nöqteyi-nəzərindən yanaşır. C.Xəndan yoldaşın tələbələr arasındakı nüfuz və hörməti də bununla bağlıdır. Yalnız darülfünunda deyil, geniş ziyalı və oxucu kütlələri arasında da nüfuz və hörmət sahibidir.





C.Xəndan yoldaş Azərbaycan K(b)P Bakı Komitəsinin və Şəhər rayon komitəsinin üzvüdür. Bir az əvvəl o, Bakı Sovetinə deputat seçilmişdir.

5 nömrəli seçki dairəsinin seçiciləri Cəfər Xəndan Hacıyev yoldaşı respublikanın görkəmli ziyalılarından biri, partiyamızın və xalqımızın sədaqətli, ləyaqətli oğlu kimi tanıyır, ona etimad göstərirlər. Bu böyük etimad isə Cəfər Xəndan yoldaşın üzərinə çox böyük vəzifə və məsuliyyət qoyur.

Şübhə yoxdur ki, Cəfər Xəndan yoldaş ədəbiyyat və elm cəbhəsində, sovet ədəbiyyatının daha da inkişafı yolunda vətənimiz üçün ali təhsilli, kamil kadrlar yetişdirmək işində səyini, fəaliyyətini qat-qat artıracaq, özünü böyüdüb tərbiyə edən, alimlik dərəcəsinə çatdıran xalqın ona olan etimadını sədaqət və ləyaqətlə doğruldacaqdır.

*Ədəbiyyat qəzeti. 1951. №4 (617). 6 fevral*

## Böyük qüdrət, böyük birlik nümayişi

Respublikamızın zəhmətkeşləri bu ilin təqvimində Azərbaycan SSR Ali Sovetinə seçkilər günü fevralın 18-ni əlamətdar bir gün kimi qarşılayırlar. Budur, həmin gün gəlib çatmışdır. Dan sökülməyə başlamışdır.

Bu səhər doğma Bakı ümumi bir fərəh, böyük bir təntənə içərisindədir. Böyük binaların qapılarında izdihamı, nümayişi xatırladan canlı bir hərəkət vardır. Adamlar səhərin açılmasını, günün çıxmasını gözləmirlər. Bayram libası geyərək dəstə-dəstə seçki dairələrinə doğru yol alırlar. Hamı müqəddəs vətəndaşlıq borcunu verməyə, Ali Sovetə seçkilərdə tez və fəal iştirak etməyə tələsir. Böyük dahinin - Stalin yoldaşın səsə qoyulduğu yerə - İliç seçki dairəsinə gedənlər xoşbəxtlərin xoşbəxtidirlər. Onlar rəhbərə səs

vermәyә gedirlәr. Onların qәlbi böyük mәhәbbәt, hüdudsuz sevinc, qanuni iftixar hissi ilә coşur. Onların hәr biri gözәl bilir ki, Stalinә sәs vermәk әbәdi sәadәtә sәs vermәkdir. Stalinә sәs vermәk bәşәriyyәtin bәxtiyarlığına sәs vermәkdir. Stalinә sәs vermәk sülhә, tәrәqqiyә, böyük gәlәcәyә sәs vermәkdir! Onların hәr biri Stalin zәmanәsindә, Stalinin sayәsindә xalqımızın, böyük vәtәnimizin nail olduğu tarixi qәlәbәlәrin canlı şahididirlәr. Onların hamısı sәslәrini bütün Sovet İttifaqı zәhmәtkeşlәrinin sәsinә qatıb, dәrin mәhәbbәt vә minnәtdarlıq nәzәrlәrini dahi rәhbәrә çevirәrәk deyirlәr:

– Doğma atamız, hәyat vә sәadәt günәşimiz!

Bu günәşin sayәsindә sovet adamları köhnә dünyanın qaranlıq, ağır zәhmәtindәn xilas olmuşlar. Bu günәşin sayәsindә Sovet İttifaqının әn sıravi, adi vәtәndaşları kapitalist ölkәlәrinin hәr hansı rütbәlilәrindәn yüksәk vә üstün olmuşlar. Bu günәşin sayәsindә vәtәnimizdә sosializm cәmiyyәti qurulub başa çatdırılmış, kommunizm cәmiyyәtinә doğru sürәtli addımlarla getmәkdәyik. Bu günәşin sayәsindә bütün sovet adamları azad, xoşbәxt, yüksәk mәdәni hәyata nail olmuşdur. Gәlәcәyin, bütün dünyada hәqiqi tәrәqqi vә inkişafın, bütün bәşәriyyәtin sәadәt yolunu da ancaq bu günәş – Stalin işıqlandırır!

İliç seçki dairәsinә, rәhbәrә sәs vermәyә gәlәn seçicilәr, bu şәrәfli vә fәrәhli günә alnı açıq gәliblәr. Onlar bütün seçicilәrlә birlikdә bu әlamәtdar gün şәrәfinә, nail olduqları sәadәt şәrәfinә tәsәrrüfat cәbhәsindә qazandıqları görkәmli müvәffәqiyyәtlәrlә gәlirlәr. Onlar böyük rәhbәrin adı yazılan bülleteni әlә alanda gәlәcәkdә yeni-yeni әmәk fәdakarlığı üçün ürәklәrindә tükәnmәz ilham duyurlar. Onlar gözәl bilirlәr ki, nәsilbәnәsil nail olduqları azad, bәxtiyar hәyat üçün ancaq vә ancaq doğma sovet dövlәtinin şanlı bolşeviklәr partiyamızın dahi yaradıcılarına - Lenin vә Stalinә minnәtdardırlar. Onlar hәmin bu dәrin minnәtdarlıq hissi ilә seçki qutularına yanaşıb Stalinә sәs verirlәr, onların sevinci sinәlәrinә sığışmır. Qәlblәrini dolduran saf mәhәbbәt hisslәrini ifadә etmәk üçün uca sәslә danışmaq istәyirlәr. Onların sırasında Stalin zәmanәsindә böyüyәn, inkişaf edәn, yüksәlәn neft ustalarını,





mühәndislәri, alimlәri, sәnәt adamlarını, istehsalat qabaqcıllarını, staxanovçuları görmәk olar.

Qocalardan tutmuş cavanlara, uşaqlara qәdәr hәr kәs bugün özünü dünyanın әn xoşbәxt adamı hesab edir. Sәs vermәyә gәlәn minlәrlә kişi, qadın, gәnclәrin yanında bahar çiçәklәri kimi al-әlvan geyinmiş bәxtiyar uşaqları, pionerlәri görәrsiz. Axı onlar nә üçün gәlmişlәr? Onlar ata vә analarının bugünkü xoşbәxt hәyatının canlı ifadәsi, gәlәcәyin – stalinçi gәnc nәslin nümayәndәlәridirlәr. Onlar bu xalq bayramında böyüklәrdәn az sevinmirlәr. Onların dodaqlarında mahnı, baxışlarında sәadәt, hәrәkәtlәrindә iftixar vardır. Budur, xәz paltolu bir mühәndis qadının yanında gәlәn gülәr üzlü, cәld hәrәkәtli, qırmızı qalstuklu pionerә baxın. Onun üzündә dә, gözündә dә qalstukundakı kimi sevinc alovu yanır. O, seçicilәr qarşısına çıxaraq hamının ürәyindәn qopan, hamının ürәyindәn xәbәr verәn sözlәri saf, şirin sәsilә belә ifadә edir:

*Qoy bu sözün ellәr olsun şahidi*
*Stalin dünyanın bir pәnahıdır.*
*Elin xilaskarı, böyük dahidir*
*Cahan ona, o cahana yaraşır!*

Stalin zәmanәsindә hәr bir vәtәndaşın ürәyindәn qopan bu sözlәr, sәdaqәt, sәadәt, birlik, qüdrәt mahnısı kimi üfüqdәn-üfüqә yayılır, Stalinin adı ilә fәxr edәn böyük әzәmәtli şәhәrin ümumi şәnlik sәslәrinә qarışır.

*Kommunist. 1951. №41. 18 fevral*

## Xalqlar arasında möhkәm sülh uğrunda

– Sülh!

Bu böyük vә müqәddәs söz indi milyonların dilindә eyni qüdrәt, eyni qüvvәt vә әzәmәtlә sәslәnir.

Sentyabr günlәrindә qoltuğunda kitab, boğazında qırmızı qalstuk bayram şәnliyi ilә mәktәbә gedәn uşaqlar sülh sözünü nәğmә kimi ucadan deyir vә böyük hәrflәrlә yazırlar.

Gənclər bu sözlə mübarizə və qələbəyə olan öz əzm və iradələrini ifadə edirlər. Hər bir sovet vətəndaşı dinc, yaradıcı əməyi ilə sülh işinə, sülhün qələbəsi işinə xidməti özünün müqəddəs vəzifəsi sayır. Bu, olduqca təbii və qanunidir! Çünki bizim böyük və şanlı sovet vətənimiz həmişə dünyada sülhün dayağı və bayraqdarı olmuşdur. İndi də sülh hərəkatının ön sırasında gedir.

Amerika-ingilis imperialistləri sülhün, sülh tərəfdarlarının qəddar düşmənləridirlər. Bəşəriyyətə, bütün zəhmətkeşlərə sülh lazımdır. İmperialistlərə isə müharibə, qırğın lazımdır. İmperialistlər öz ağalıqlarını, vəhşi qazanc ehtiraslarının təmin olunmasını məhz yeni müharibədə, xalqların qırğına verilməsində, ölkələrin talan edilməsində görürlər. Buna görə də cəllad trumenlər, acesonlar, hər bir alçaqlığa əl ataraq yeni dünya müharibəsi hazırlığını genişləndirirlər. Koreya xalqının körpələrini, qocalarını vəhşicəsinə qıran, sülh təkliflərini rədd edən, sülh danışıqlarını bomba ilə qarşılayan, sülh tərəfdaşlarını təqib edib zindanlara atan bu imperialist canavarlar hitlerizmi diriltmək, Almaniyanı, Yaponiyanı yenidən hərbiləşdirmək, milyonları od içinə atmaq istəyirlər.

Xalqlar imperialist cəlladların vəhşi niyyətlərini yaxşı dərk etmiş, buna qarşı mübarizə əzmilə sülh bayrağı altında birləşməyi qət etmişlər. Bütün dünya zəhmətkeşlərinin ümid və nicat nəzəri böyük vətənimizə, Sovet İttifaqına və bəşəriyyətin dahi xilaskarı Stalin yoldaşa tərəf çevrilmişdir. Stalin yoldaş sülh işinin qələbə şərtini dahiyanə bir aydınlıqla müəyyən edərək demişdir:

"Xalqlar sülhü qorumaq işini öz əllərinə alsalar və bu işi axıradək müdafiə etsələr, sülh qorunar və möhkəmləndirilər".

Stalin yoldaşın bu sözləri dünyanın bütün zəhmətkeşlərini, bütün zehni açıq adamları sülh işi uğrunda qəti mübarizə üçün ruhlandırmışdır. Sülh hərəkatı dünyada ən böyük bir hərəkat, yüz milyonların hərəkatı olmuşdur. Bu elə bir hərəkat olmuşdur ki, heç bir sərhəd, heç bir maniə, hətta okeanlar da bunun qarşısını ala bilmir və ala bilməyəcəkdir.

Beş böyük dövlət arasında Sülh Müahidəsi bağlanılması haqqında Ümumdünya Sülh Şurasının Müraciətinə SSRİ-də imza





toplanması barəsində Sovet sülhü müdafiə komitəsi plenumunun qətnaməsi sovet adamlarının istək və iradəsini ifadə edən bir qərardır. Bu qərarı sovet xalqı sülhün qələbəsi uğrunda yeni və qüvvətli bir addım kimi qarşılayır, sovet adamları bu qərara yekdilliklə tərəfdardırlar, onlar hamı bir nəfər kimi Sülh Müahidəsinə səs verməklə imperialist müharibə qızışdırıcılarının hiylə və fitnələrini axıra qədər ifşa edəcək, xalqlar arasında möhkəm sülh və qardaşlıq uğrunda yorulmadan mübarizə etmək əzmində olduqlarını bir daha bildirəcəklər!

Stalin sülh siyasətinə səs vermək, xalqların dinc həyatı və səadətinə səs vermək kommunizmin böyük gələcəyinə səs vermək deməkdir!

Hamımız bir nəfər kimi sülhə səs verib əmək və yaradıcılıq cəbhəsində yeni-yeni qələbələr qazanaq!

*Kommunist. 1951. №211.7 sentyabr*

## 1952
## Leninizm ideyalarının təntənəsi

İyirminci əsr çox haqlı olaraq Lenin-Stalin əsri adlanır. Çünki bu əsr Lenin-Stalin dühası sayəsində bəşəriyyətin qurtuluşu əsridir. Uzun əsrlər boyu zülm və istismar quruluşunda yaşamağa məcbur olan, amansız məhrumiyyətlər görən zəhmətkeş bəşəriyyət ancaq proletariatın dahi rəhbərləri Leninin və Stalinin sayəsində, ancaq marksizm-leninizmin qüdrəti sayəsində özünün xilas olmaq yolunu, səadət yolunu tapmışdır. İndi leninizm bütün dünyada azadlığın, sülhün, səadətin yenilməz bayrağıdır. **"Leninizm - imperializm və proletar inqilabı dövrünün marksizmidir. Daha dürüstü: Leninizm ümumiyyətlə proletar inqilabının nəzəriyyə və taktikası, xüsusilə proletariat diktaturasının nəzəriyyə və taktikasıdır" (İ V. Stalin).**

Leninizm bütün zəhmətkeşlərin ən böyük arzu və istəklərini təcəssüm etdirərək, köhnə dünyaya və köhnə quruluşa son qoymağın, yeni, azad, xoşbəxt həyat qurmağın həqiqi əməli yollarını

göstərmişdir. Böyük Lenin Stalin yoldaşla birlikdə ölkəmizdə Oktyabr sosialist inqilabının qələbəsini təşkil etmişdir. **“Oktyabr inqilabının QƏLƏBƏSİ, bəşəriyyət tarixində əsaslı dönüş, dünya kapitalizminin tarixi müqəddəratında əsaslı dönüş, dünya proletariatının azadlıq hərəkatında əsaslı dönüş, bütün dünyanın istismar olunan kütlələrinin mübarizə üsullarında və təşkilat formalarında, yaşayış və ənənələrində, mədəniyyət və məfkurəsində əsaslı dönüş deməkdir... Oktyabr inqilabı mülkədar və kapitalistləri yıxaraq, milli-müstəmləkə zülmü zəncirlərini qırdı və geniş bir dövlətin istisnasız olaraq bütün məzlum xalqlarını bu zülmdən azad etdi...” (İ. V. Stalin).**

Məhz buna görə də, SSRİ-nin qardaşlıq ailəsində birləşən Sovet İttifaqı xalqlarının sarsılmaz dostluğu leninizmin əbədi qələbəsini göstərən parlaq bir timsaldır. Sovet İttifaqı xalqlarının gündən-günə möhkəmlənən Stalin dostluğu vətənimizin hər yerində, adamlarımızın hər bir tədbir və təşəbbüsündə hər gün və hər saat öz qadir qüvvəsini göstərməkdədir. Bu dostluğun parlaq nümunələrini biz vətəndaş müharibəsi cəbhələrində, böyük vətən müharibəsi cəbhələrində döyüşçülərimizin, partizanlarımızın, sovet adamlarının misilsiz rəşadət və qəhrəmanlığında, milyonların fədakar vətənpərvər əməyində gördük. Bu dostluğu biz sadə sovet adamlarının – çapayevlərin, korçaginlərin, qastelloların, koşevoyların, hüseynbalaların simasında gördük. Bu dostluğun parlaq nümunələrini biz fəhlələrimizin istehsalat cəbhəsindəki məhsuldar staxanov əməyində, əməyə kommunist münasibətlərində görürük. Don hövzəsi və Kuznetsk hövzəsi mədənçilərinin, Rusiya və Ukrayna maşınqayıranlarının sosializm yarışında, Daşkənd və İvanovo toxuçularının qarşılıqlı əməkdaşlığında görürük. Bu dostluğu biz Azərbaycan və Başqırdıstan neftçilərinin, Azərbaycan, Özbəkistan, pambıqçılarının yaradıcı yarış və əməkdaşlığında görürük. Bu dostluğu biz bu gün möhkəm, vahid bir əzm və iradə ilə kommunizmin nəhəng tikintilərini yaradan sovet adamlarının coşğun əməyində görürük.

Sovet İttifaqı yeni tipli millətlərin, sosialist millətlərin vətənidir. Bu millətlər öz formaca milli və məzmunca sosialist mədəniyyətlərini yaradıb sürətlə inkişaf etdirirlər. Bu millətlər leninizm bayrağı altında sıx birləşərək qalibiyyətlə kommunizm qurur və bütün dünyaya nümunə göstərirlər. Bunlar padşahsız, mülkədarsız, kapitalistsiz, istismarsız bir quruluşun, azad və xoşbəxt həyatın parlaq qələbə nümunəsini verirlər. SSRİ xalqları arasındakı Stalin dostluğu sarsılmazdır. “Bu dostluq yaşadıqca ölkəmizin xalqları azad və yenilməz olacaqlar. Bu dostluq var olduqca və yaşadıqca heç kim, nə daxili, nə də xarici düşmənlər bizim üçün qorxulu deyildir” **(İ.V.Stalin).** Sovet İttifaqı xalqlarının mehriban dostluq ailəsinin yaranıb möhkəmlənməsində böyük rus xalqının mühüm rolu vardır. “Rus xalqı bizə Lenini vermişdir” **(M.C.Bağırov).**

Sovet adamları Sovet İttifaqının əzəmətli dövlət himnində iftixarla oxuyurlar:

*Böyük rus elindən yarandı azad*
*Respublikaların bu birlik səsi.*
*Yaşasın qoy ellər quran bu büsat,*
*Bu vahid, bu qadir sovet ölkəsi!*

Sovet adamları bu böyük dostluğun böyük tarixi əhəmiyyətini bilir, bununla fəxr edir, bundan ilham və qüvvət alırlar. Onlar harada olurlar-olsunlar, hansı sahədə, hansı vəzifədə çalışırlar-çalışsınlar, öz fikir, arzu və əməllərilə, öz əməli işlərilə bu müqəddəs dostluğa və məhəbbətə möhkəm bağlıdırlar, onlar bu dostluğa həmişə minnətdardırlar. Biz bunu ən ağır günlərin imtahanlarında da gördük. Vətənimizin başı üstünü ağır təhlükə aldığı bir zamanda, faşist qoşunları qızıl paytaxtımıza, Leninqrada doğru can atdıqları bir zamanda sovet adamları vahid və polad bir qüvvə kimi doğma torpaqlarımızı qəhrəmanlıqla müdafiə etdilər. Azərbaycan oğlu Hüseynbala Lenin şəhərinin müdafiəsində öz canı və qanı ilə iştirak edirdi. Həmin bu günlərdə görkəmli rus şairi N. Tixonov böyük Azərbaycan şairi Nizamini xatırlayırdı: “Biz onun anadan

olma gününü mühasirə olunmuş Leninqradda qeyd etdik. Nizami bizim şəhərimizə döyüş gurultuları içərisində gəlmişdi. Biz onu dostumuz, müttəfiqimiz, silahdaşımız kimi qəbul etdik".

Azərbaycan şairinin isə diqqəti hər şeydən əvvəl doğma Moskvaya, bəşəriyyətin qurtuluş ştabına, bu inqilab yurdunu qoruyan "rus qardaşına" dikilmişdi:

***"Moskva! Basılmaz sənin qüdrətin!***
***Canlı heykəlisən əbədiyyətin!***
***Mənim rus qardaşım! Səndəki vüqar***
***Zəfər tarixindən qalmış yadigar.***
***Leninin yurdudur sevdiyin vətən...».***

Bu dostluğun təntənə və qüdrətini biz indi dinc quruculuq dövründə, vətənimizin hər tərəfində gedən xarüqəli əmək nümunələrində də görürük. Poltava vilayətindəki L.Beriya adına kolxozun sədri A.Çernomores deyir:

"Böyük gürcü şairi David Quramişvili bizim Zubovka kəndində yaşamışdır. Ukrayna kolxozçuları indi onun həyəcanlı əsərlərinə heyrandırlar. Həmin əsərləri A.Puşkinin, T.Şevçenkonun gözəl şeirləri ilə birlikdə dönə-dönə oxuyurlar. Mirqorodda David Quramişvili adına mədəniyyət evi tikilmişdir".

Yeni dünyanın məğrur sinəsi kimi qabaran Qızıl meydanda dahi Lenin məqbərəsini ziyarətə gələnlərə diqqət etmişsinizmi? Bu müqəddəs məqbərənin qapısında minlərlə, on minlərlə adam görmək olar. Burada yalnız sovet vətəndaşlarını deyil, dünyanın hər yerindən gəlmiş olan adamları görmək olar. Burada qoca, cavan, uşaq, alim, fəhlə, kəndli, evdar qadın, bütün irqlərdən və millətlərdən olan adamları görmək olar. Bunların hamısı Leninə dərin məhəbbət bəsləyir.

Zəhmətkeşlərin bütün ümid, arzu və istəkləri Leninin –Stalinin həyatı və mübarizəsilə möhkəm surətdə bağlıdır. **"Proletariatda olan bütün həqiqətən böyüklük və qəhrəmanlıq nişanələri – qorxmaz zəka, sarsılmaz, möhkəm, hər şeyə üstün gələn**





**polad iradə, kökəliyə və zülmə qarşı sonsuz, nəhayətsiz, müqəddəs nifrət, dağları yerindən oynadan inqilabi qızğınlıq, kütlələrin yaradıcılıq qüvvələrinə sonsuz inam, olduqca böyük təşkilatçılıq dühası - bunların hamısı Lenində bütün varlığı ilə təcəssüm etmiş və Leninin adı Qərbdən Şərqədək, Cənubdan Şimaladək yeni dünyanın simvolu olmuşdur..."**

Leninizmin vətəni olan Sovetlər İttifaqı azadlıq və xoşbəxt həyat uğrunda mübarizədə bütün dünya xalqları üçün sönməz bir mayak olmuşdur. Sosializm quruluşu yoluna düşmən xalq demokratiyası ölkələri, Çin Xalq Respublikası leninizmin qələbə bayrağından, qüdrətli Sovetlər İttifaqından ilham alırlar. Qəhrəman Koreya xalqı, Vyetnam və Misir vətənpərvərləri, imperializm əsarətində olan bütün xalqlar öz azadlıq mübarizələrində leninizm ideyalarından dərs alırlar.

Keçmişdə, burjua mülkədar quruluşu dövründə ən geridə qalmış bir müstəmləkə olan Azərbaycan Oktyabr inqilabı sayəsində, Lenin-Stalin milli siyasətinin qələbəsi sayəsində, böyük rus xalqının qardaşlıq köməyilə bütün başqa sovet respublikaları kimi misilsiz tərəqqi edərək, Şərqin qapısında azad, çiçəklənən, yüksək mədəniyyətli sovet respublikasına çevrilmişdir. Kommunizm quruculuğu uğrunda mübarizədə hər gün yeni-yeni nailiyyətlər əldə edən fəhlə, kolxozçu və ziyalılarımız öz xoşbəxt həyatı və mədəni inkişafı ilə Leninə-Stalinə hədsiz minnətdardırlar.

Respublikamızın paytaxtı neft Bakısı Lenin-Stalin partiyasının qayğısı sayəsində indi Sovet İttifaqının ən qabaqcıl, gözəl, qüdrətli sənaye, mədəniyyət mərkəzlərindən biri olmuşdur. İndi Bakını yeni uca binalar, ali məktəblər, sənaye, elm, mədəniyyət ocaqları, mədəniyyət sarayları, muzeylər, kitabxanalar, yaşıl bağlar, işıqlı xiyabanlar, əzəmətli heykəllər bəzəyir.

Kapitalist ölkələrində, Türkiyədə, İranda isə işsizlik, aclıq, fəlakət hökm sürməkdədir. Qatil trumenlərin qanlı və çirkablı dollar siyasəti nəticəsində bu ölkələrin zəhmətkeşləri təhqir olunur, təqib edilir və ağır işgəncələrə məruz qalırlar. İran və Türkiyənin satqın hökumət başçıları, imperializmin bu alçaq nökərləri

öz vətənlərini dollar ağalarına satmışlar. Bədnam irq nəzəriyyəçiləri bu ölkələrin xalqlarını ən adi insan hüquqlarından məhrum etməkdədirlər. Müstəmləkə və asılı ölkələrdə azadlıq mübarizəsini boğub məhv etmək qəsdilə təpədən-dırnağadək silahlanan Amerika imperialistləri ayaq basdıqları hər ölkəni qan ocağına və xarabaya çevirmək istəyirlər. İmperialistlər yeni qanlı müharibələr törətmək üçün min cür fitnələrə əl atırlar.

İmperialistlərin agentləri ayaq basdıqları şəhər və kəndlərə vahimə gətirirlər. Evlərdə, mənzillərdə axtarış aparırlar. Fikirləri məngənə altında saxlamaq istəyirlər. Lakin onlar anlamırlar ki, qurtuluş ideyaları, sülh və kommunist ideyaları, Leninə-Stalinə tükənməz məhəbbət və minnətdarlıq duyğuları dünya zəhmətkeşlərinin qəlbində dərin kök salmışdır. Heç bir maniə bu ideyaların qarşısını ala bilməyəcəkdir. Nə dollar siyasəti, nə atom bombası, nə də polis qorxusu zəhmətkeşlərin qəlbində kök salmış azadlıq ideyalarının təntənəsinə mane ola bilməyəcəkdir. Bu ideyalar indi hər yerdə böyük maddi qüvvəyə çevrilməkdədir. İndi bütün yollar kommunizmə doğru gedir.

***"Dünya beş qitədir. Sərhədlər min-min...***
***Bütün sərhədləri sorğusuz keçən,***
***Eşqidir, fikridir bizim Leninin!***
***Lenin – kommunizmin bayraqdarıdır,***
***Lenin dünyamızın ilk baharıdır!"***

V.İ.Lenin göstərmişdir ki, "yer üzündə **birinci** bolşevik inqilabı insanların birinci yüz milyonlarını imperialist müharibəsindən, imperializm aləmindən xilas etdi. Gələcək inqilablar bütün bəşəriyyəti bu cür müharibələrdən və bu cür aləmdən xilas edəcəkdir"

Sovet İttifaqı xalqlarını kommunizm yolunda qələbələrdən-qələbələrə aparan qüdrətli Lenin-Stalin bayrağı bütün dünya xalqlarının mübarizə, qurtuluş və səadət yolunu işıqlandırır. Bu bayraq hamıya göstərmişdir ki, "... əmək səltənətini zəhmətkeşlərin





öz səyləri ilə yaratmaq **mümkündür**, əmək səltənətini göydə deyil, **yerdə** yaratmaq lazımdır!" **(İ. V. Stalin)**.

*Kommunist. 1952. 21 yanvar*

## Bakterioloji silah qadağan olunmalıdır

Amerikan imperialistlərinin Koreyada və Çinin şimal-şərqində bakterioloji silah işlətmələri xəbəri bütün dünya xalqlarının hiddət və qəzəbinə səbəb olmuşdur.

Asiya xalqlarını itaət altına almaq, Koreya xalqının öz azadlığı uğrundakı qəhrəman mübarizəsinə son qoymaq yolundakı bütün cidd-cəhdləri boşa çıxan trumenlər, açesonlar indi bəşəriyyət – tarix qarşısında ən müdhiş bir cinayətə, hətta vaxtilə hitlerçilərin də cəsarət etmədiyi cinayətə əl atmışlar. Onlar taun, vəba, yatalaq və sair keçici xəstəlikləri, ölüm gətirən mikrobları yaymaq, kütləvi insan qırğını təşkil etməklə, qəhrəman Koreya xalqının polad iradəsini sarsıtmaq niyyətindədirlər. İnsan simasını itirmiş, qazanc ehtirası ilə gözü qızmış, quduzlaşmış olan amerikan generalları indi bəşəriyyətə qırğın hazırlamaq üçün hər vasitədən istifadəyə əl atırlar. Amerikan ordusunun hərbi-kimya korpusunda çalışan general Krizi yanvarın axırında çıxış edərək imperialistlərə məxsus həyasızlıqla bakterioloji müharibənin əhəmiyyətindən danışmışdır. O, göstərmişdir ki, bakterioloji müharibə adamları tez qırır, iqtisadiyyata toxunmur, maşınlar, binalar salamat qalır. Ölüm taciri olan bu general epidemiya yaymağı təbliğ edərək göstərir ki, çuma, taun, tif və sair vasitələrlə hücum etmək ucuz başa gəlir və faydalıdır. Milyonlarla dinc əhalinin qırılması, ölkələrin boş səhraya döndərilməsi cəllad amerikan generallarını zərrə qədər təsirləndirmir. Əksinə, onlar milyonların fəlakətindən qazanmaq, dollar yığmaq istəyirlər.

Vaxtilə Lenin yoldaş göstərmişdir ki, hər dollarda qan izi vardır. Böyük proletar ədibi Qorki, sarı iblis şəhərinin, amerikan kapitalistlərinin qazanc, qırğın, talan, qarətə əsaslanan əxlaq və çirkin mənəviyyatından yazmışdır.

Bugün sovet adamları kommunizmin Stalin tikintilərilə məşğul olduğu, zəhmətkeşlərin maddi-mənəvi həyat şəraitini durmadan daha da yaxşılaşdırdığı bir zamanda amerikan imperialistləri ölüm yaymaqla məşğuldurlar.

Koreya və Şimali Çində amerikan cəlladlarının bakterioloji silah işlətməsi, bütün dünyada sülhsevər xalqların həyəcan, qəzəb və nifrətilə qarşılanmışdır.

Böyük vətənimizin qüdrətli sənaye ocaqlarından biri olan Bakının bütün zəhmətkeşləri öz qəti protest səslərini ucaldaraq amerikan imperialistlərinin bu quduz hərəkətini lənətləyirlər. Bütün sovet elm və mədəniyyət adamları özlərini sülhün mübariz əsgərləri hesab edirlər.

Biz sovet adamları sülhün qorunması, imperialist fitnələrinin qarşısının alınması, böyük sovet vətənimizin müdafiə qüdrətinin daha da möhkəmlənməsi yolunda var qüvvəmizi sərf edəcəyik!

Yaşasın bütün dünyada sülhün, demokratiyanın və azadlığın böyük bayraqdarı – böyük rəhbər və müəllimimiz Stalin yoldaş!

*Ədəbiyyat qəzeti. 1952. 25 mart*

## 1953
## Günəş bizim üçün işıq verir

Hələ keçən əsrin axırlarında, altımış dörd il bundan əvvəl, bütün dünyanın fəhlələri mayın birini, bu böyük günü hər il bayram etməyi, beynəlxalq proletariatın inqilabi mübarizədə həmrəyliyini bütün dünyaya elan etməyi qət etmişdilər. Fəhlə sinfi qərara almışdı ki, məhz "həmin Bir may günü, o zaman ki, təbiət qış yuxusundan oyanır, meşələr, dağlar yaşıllaşır, çöllər, çəmənlər çiçəklərlə bəzənir, günəşin istisi artır, havada yenilik, fərəhi hiss olunur, təbiət başdan-başa bir şənlik mənzərəsi alır, məhz həmin gün bütün dünyaya ucadan və açıq bildirsinlər: fəhlələr bəşəriyyətə bahar gətirirlər, onu kapitalizm zəncirindən azad edəcəklər, fəhlələr azadlıq və sosializm əsası üzərində dünyanı yenidən qurmalıdırlar" (İ.Stalin).





İndi Oktyabr sosialist inqilabının qələbəsi sayəsində, qüdrətli Sovet İttifaqının varlığı sayəsində Çindən və Koreyadan başlamış Çexslovakiya və Macarıstana kimi xalq demokratiyası ölkələrindən ibarət yeni "Zərbə briqadalarının" meydana gəlmiş olduğu bir zamanda fəhlə sinfinin inqilabi mübarizə işi yeni və yüksək mərhələyə qalxmışdır.

Bu günəşli bahar günlərində dünyanın bütün yerlərində zəhmətkeşlərin möhtəşəm, nizami dəstələri, əldə mübarizə və azadlıq bayrağı, yerin qəlbini titrədən möhkəm addımları ilə gedərək bütün dünyaya sülh, azadlıq yolunda vahid əzm və iradələrini uca səslə elan edirlər. Əzəmətli May nümayişçilərinin hər birinin qəlbinə ümid, inam və fərəh verən ən böyük qüvvə isə bütün dünyada möhkəm sülhün dayağı və bayraqdarı böyük Vətənimiz – qüdrətli Sovet İttifaqıdır. Sovet İttifaqı həmişə apardığı dönməz, ardıcıl, həqiqi sülh siyasəti ilə bütün dünyanın zəhmətkeşlərini, tərəqqipərvər qüvvələrini ruhlandırmış və ruhlandırmaqdadır.

Sovet İttifaqı zəhmətkeşlərinin maddi-mədəni həyat şəraitinin günü-gündən daha da yaxşılaşdığı bir zamanda, kapitalist ölkələrində aclıq, işsizlik, fəlakət artır.

İ.V.Stalin "SSRİ-də sosializmin iqtisadi problemləri" adlı əsərində müasir kapitalizmin əsas iqtisadi qanunu aydın və dürüst təyin edib göstərmişdir ki, inhisarçı kapitalizm ən yüksək, maksimum mənfəət tələb edir. Ən yüksək mənfəət ardınca gedən kapitalistlər vəhşi, istismarı, xalqların talan edilməsini gücləndirirlər. Bunun nəticəsində kapitalist ölkələrində fəhlə və kəndlilərin həyat şəraiti get-gedə ağırlaşır. Ford zavodu fəhlələrindən biri öz vəziyyətini belə təsvir edir: "Mən iş günümü qurtaranda qaşığı ağzıma aparmağa da taqətim qalmayır. Çul kimi yorğan-döşəyə düşürəm".

Sovet İttifaqında isə, sosializm ölkəsində isə tamamilə başqa bir mənzərə, zəhmətkeşlər üçün yaradılmış azad, mədəni, xoşbəxt həyatın parlaq mənzərəsi canlanmaqdadır. Əsrimizin əvvəllərində böyük Stalin polad bir inam və iradə ilə fəhlələrə demişdi: **günəş bizim üçün parlayacaqdır!**

Sosialist inqilabı nəticəsində, Vətənimizdə sosializmin qələbəsi nəticəsində bu bir həqiqət oldu. İndi günəş bizimdir. Həyat zəhmət adamlarının, həyatı yaradanlarındır. Azad sosialist əməyinin qüdrəti insanı heyrətə salan xarüqələr yaradır. İndi hər il Vətənimizdə məhsuldarlığın artması, ərzaq və sənaye mallarının qiymətinin ucuzlaşması, zəhmətkeşlərin maddi və mədəni həyat şəraitinin günü-gündən yaxşılaşması bütün dünyaya məlumdur. Vətənimizin hər bir guşəsində quruculuq işləri, nəhəng kommunizim tikintiləri görünməmiş bir sürət və vüsətlə yüksəlir.

Polad karkasların kəlləsində, göyün yeddi qatında quraşdırma işi aparan fəhlə öz əmək qüdrətindən fərəhlənərək ətrafını seyr edir, neft Bakısını seyr edir, bu möhtəşəm quruculuqda özünün iştirakilə fəxr edir və mahnı oxuyur.

Əgər günəşin dili olsaydı səhər tezdən Xəzər sularından baş qaldıranda, Vətənimizdə gördüyü xaruqələrə heyran qaldığını ifadə edərdi: “Buraları kim dəyişdi, nə tez dəyişdi! Gördüyüm o səhralar, çılpaq təpələr, mazut gölməçələri, torpaq evlər, göylərə ucalqan fəryadlar hanı...”.

Böyük Maksim Qorki inqilabdan əvvəlki Bakını, fəhlələrin həyatını, ağır əzab və iztirablı cəhənnəm mənzərələrilə müqayisə edirdi...

Sosialist inqilabı nəticəsində Lenin-Stalin milli siyasətinin qələbəsi, böyük qardaşımız rus xalqının köməyi sayəsində Sovet İttifaqının bütün xalqları kimi, Azərbaycan xalqı da SSRİ xalqları ailəsində azad, xoşbəxt həyata çatmışdır. Sovet respublikamız qoca Şərqin qapısında azad, xoşbəxt, nümunəvi həyat və mədəniyyətin parlaq heykəli kimi yüksəlmişdir. Günəşli respublikamızın bütün şəhərlərində və kəndlərində, hər zavodda, kolxoz tarlasında, mədəniyyət ocaqlarında coşğun, qaynar yaradıcılıq həyatının parlaq mənzərələri hər addımda görünür. Minlərlə fəhlə və qulluqçu üçün tikilən mənzillər, çox mərtəbəli gözəl, yaraşıqlı binalar, dəniz içində qol-qanad açan, yerin damarlarında kök atan neft buruqları, gurultulu tikinti maşınları, göyləri fəth edən ulduznişan təyyarələr, güllü-çiçəkli təzə şəhərlər, hər guşəsindən şənlik





yüksələn uşaq evləri, uşaq baxçaları, mədəniyyət və isdirahət parkları, müalicəxanalar, məktəblər, inistitutlar, elm ocaqlar!...

Bunların böyük mənasını ifadə etmək üçn Xəzər sahilində, dağın başında məğrur dayanan əzəmətli inqilab qəhrəmanı sanki əlini uzadaraq aləmə deyir:

–Yerlər öz doğma günəşini Leninin, Stalinin simasında, dühasında tapmışdır. Bu günəş bəşəriyyətə əbədi bahar, əbədi azadlıq, əbədi səadət gətirmişdir. Bu günəşi yaradan, yaşadan işıq sönməz və tükənməzdir. Bu günəşdən qüdrət alanları həmişə və hər yerdə qələbə gözləyir. Bu günəşin övladları məğrur insanlardır. Bəşəriyyətin ən yeni, ən cəsur, ən bəxtiyar, ən humanist adamları bu günəşdən qidalanır.

Bu xoş bahar günlərində sovet şəhərlərimizi və kəndlərimizi – meydanları, izdihamlı küçələri, güllü-çiçəkli bağları dolduran, sevinci göylərə sığmayan, bayram paltarı geyinmiş oğlan və qızlarımıza baxın! Onların gənc və isti qəlbi böyük arzular, sevinclər, coşğun hisslər, müqəddəs ideallarla doludur. Onlar öz bəxtiyar həyatlarının mənasını, öz gələcəyini kommunizm qurmaq uğrundakı fədakar əmək və yaradıcılıqda görürlər.

Lenin-Stalin günəşinin şüalarını mayın 1-də minlərlə gurultulu və əzəmətli şəhərlərdə milyonlarla nümayişçinin güclü əllərində dalğalanan al bayraqlarda görmək olar. Bu günəşin şüalarını qırmızı qalstuklu pionerlərin şən gülüşlərində, məğrur gənclərimizin şahin baxışlarında, Qızıl meydanda partiya və hökumət rəhbərlərinə salam və raport verən fəhlə və kolxozçuların, ziyalıların, sovet döyüşçülərinin birgə və möhkəm addımlarında görmək olar.

Bu günəş bizim hər birimizin sevincli həyatımızda, inkişafımızda, yüksəlişimizdə, yaradıcı əməyimizdə, vətənpərvərlik iftixarımızda parlayır.

Sovet cəmiyyətinin hərəkətverici qüvvəsi xalqımızın mənəvi-siyasi birliyində, xalqların Stalinin dostluğu və qardaşlığında, sovet vətənpərvərliyindədir. Bizim cəmiyyətimizin tükənməz qüdrəti də bundadır. Bizdə hər bir adi sovet adamı kapitalist dünyası-

nın ən böyük rütbəli çinovnikindən qat-qat yüksəkdə durur. Çünki sovet adamı kapitalist istismarından, köləlik zəncirindən azaddır.

Stalin yoldaş gösdərmişdir ki, SSRİ xalqları arasındakı dostluq... böyük və ciddi bir nailiyyətdir. Çünki bu dostluq yaşadıqca, ölkəmizin xalqaları azad və məğlub edilməz olacaqdır. Bu dostluq yaşayıb durduqca bizə heç kəs, nə daxili düşmənlər, nə xarici düşmənlər qorxulu deyildir.

Bu dostluğun ən parlaq təcəssümü qüdrətli Sovet İttifaqıdır. Sovet Sosialist Respublikaları İttifaqı - tarixdə misli görünməmiş və bütün xalqların tam etimadına və qardaşlıq dostluğuna əsaslanan çoxmillətli bir dövlətdir.

Sovet Sosialist Respublikaları İttifaqının yaradılması, ölkəmizin xalqlarının böyük rus xalqı ətrafında sıx birləşməsi, bütün xalqların ondan çox böyük yardım görməsi, ucqarların, keçmişdə zülm altında olan xalqların təsərrüfat və mədəni geriliyinin aradan qaldırılmasında, bütün xalqların iqtisadiyyat və mədəniyyətinin yüksəldilməsində həlledici rol oynamış və ölkəmizdə sosializim qələbəsinə gətirib çıxarmışdır.

Ancaq kommunizm ideyalarının qələbəsi və təntənəsi sayəsində əldə edilən qırılmaz dostluğun nümunələrini biz hər bir sovet adamının həyatında, məişətində və işində görə bilərik.

Bakının yanında tikilən cavan metallurqlar şəhəri olan Sumqayıt zəhmətkeşləri qardaş Sovet Gürcüstanının yeni böyük sənaye ocağı olan Rüstavinin fəhlə və mühəndisləri ilə yarışırlar. Mingəçevir su-elektirik stansiyasının inşaatçıları Gümüş su elelektirik stansiyasının inşaatçıları ilə, Kirovabad toxucuları Leninakan və Kutaisi toxucuları ilə yarışırlar və istehsal planlarını yerinə yetirməkdə bir-birinə kömək edirlər.

Azərbaycan, Gürcüstan panbıqçılarının yarışı, hər üç respublika akademiyalarının, alimlərinin birgə konfransları, sovet elminin xalq təsərrüfatına daha artıq köməyi məsələlərini onların birgə müzakirə və həll etmələri, bu dostluq və qardaşlığın aydın ifadələrindəndir.





Sovet adamları şanlı May bayramında bütün qələbə və müvəffəqiyyətlərini və bundan doğan qanuni iftixar və sevinc hisslərini nümayiş etdirməklə kifayətlənmirlər. Onlar partiyamızın 1 May şüarlarına cavab olaraq öz fədəkar sosialist əməkləri ilə təsərrüfatlarımızın, mədəni quruculuğumuzun hər sahəsində sosializim yarışını daha da genişləndirirlər. Partiyamızın XIX qurultayı tərəfindən qarşımıza qoyulan böyük və şərəfli vəzifələrin həyata keçrilməsində onlar böyük səy və əmək nümunələri göstərirlər. Sovet İttifaqı Kommunist partiyası Mərkəzi Komitəsinin 1 May şüarlarında deyilir:

**- Sovet İttifaqının zəhmətkeşləri! SSRİ-nin inkişafına dair beşinci beşillik planı tamamilə və artıqlamasilə yerinə yetirmək uğrunda ümumxalq sosializim yarışını daha da genişləndirək!**

Qoy partiyamızın çağrışları al bayraqlarımızda parlasın, mahnılarımızda gurlasın, qəlblərimizi alovlandırsın, dəzgahların başında, kommunist əməyində bizə ilham versin, qüdrət və məharətimizi qat-qat artırsın!

*Kommunist. 1953. №103. 1may*

## Cambul

Qazax xalqının böyük akını, istedadlı xalq şairi Cambul Cabayevi kim tanımır? Onun əsərləri bir çox dillərə tərcümə edilmiş, vətənimizdə yaşayan bütün xalqların ana dilində çap olunmuşdur. Sovet İttifaqının zəhmətkeşləri Cambulu sevir, onun xatirəsini əziz tuturlar. O, şeirlərində doğma xalqının inqilabdan əvvəlki ağır və dözülməz həyatını ürək yanğısı ilə təsvir etmişdir.

Bakı kino-teatrlarında nümayiş etdirilən "Cambul" filmi qazax xalq şairinin həyatını təsvir edir. Cambul 100 ildən artıq yaşamışdır. Filmin müəllifləri və rejissoru onun həyatının ən maraqlı hadisələrini ustalıqla canlandırırlar. Biz bu hadisələrə baxdıqca həm şairin nəcib xasiyyətlərini, zəngin daxili aləmini, həm də qazax xalqının tarixinin ayrı-ayrı maraqlı dövrlərini görürük.

Keçən əsrin axırlarıdır... El aşıqlarının müəllimi olan qoca akın öz dombrasını (sazını) ən istedadlı şagirdinə – gənc Cambula verir. O, üzünü sevimli şagirdinə tutub həyəcanla deyir: “Qoy xalqın göz yaşları sənin göz yaşların olsun, qoy xalqın səadəti sənin səadətin olsun”. Cambul bu qiymətli nəsihəti müqəddəs bir and kimi təkrar edir!

Filmin sonrakı hadisələri göstərir ki, gənc akın ömrünün axırınadək öz andına sadiq qalmışdır. O, həmişə xalqın böyük dostu və müdafiəçisi olmuşdur. O, yoxsul çobanları və sənətkarları amansız istismar edən baylara, çar hökumətinin cəlladlarına və bunlara yaltaqlıq edən, onları tərifləyən yalançı akınlara qarşı qəhrəmanlıqla mübarizə aparmışdır. Bu mübarizədə Cambul heç nədən və heç kəsdən qorxmamışdır.

Biz, Cambulu bir çox gərgin səhnələrdə görürük. O, kəskin və mərd sözü ilə Qadırbayı, çar qubernatorunu, onların alçaq nökərlərini ifşa və rüsvay edir. Düşmənlər onun iti sözündən, el içərisindəki böyük nüfuzundan qorxurlar. Onu həbs edib doğma xalqından ayırmaq, sürgünə göndərmək istəyirlər. Lakin Cambul tək deyildir. Fəhlələr və sənətkarlar, çobanlar və kəndlilər ona kömək edirlər.

Filmin ən təsirli yerləri Cambulun böyük rus xalqı ilə dostluğunu göstərən səhnələrdir. Qazaxların üsyanını od və qan içində boğmuş çar cəlladları Cambulu həbs edirlər. Rus xalqının nəcib oğulları və qızları bu ağır və qorxulu günlərdə qazax akınına kömək əllərini uzadırlar. Filmi çəkənlər bu təsirli epizodlara böyük qardaşımız qəhrəman rus xalqının nə qədər geniş qəlbli, təmiz vicdanlı olduğunu, bütün xalqlara və millətlərə bir gözlə baxdığını, onların azadlıq uğrunda mübarizə etdiyini çox gözəl göstərmişlər.

Qoca Cambul vətəninin gündən-günə çiçəkləndiyini gördükcə cavanlaşır. Onun gözlərinə işıq, qoluna qüvvət gəlir. O, öz sazı ilə şəhərləri və kəndləri gəzir, kolxozların zəngin təsərrüfatını, yeni tikilən nəhəng sənaye ocaqlarını, qazax xalqının sosialist mədəniyyətini görür. Xalq hər yerdə onu sevinc və məhəbbətlə





qarşılayır, çünki, qocaman akın həmişə xalqın sevinci ilə sevinir, kədəri ilə kədərlənir.

Qoca Cambul böyük qələbə günündə xəstə olduğuna baxmayaraq xalqın içinə gedir, elin şənlik çağında ondan ayrı qala bilmir. Xalq onu əlləri üstündə, çiçəklər arasında irəli aparır. O, xalqın sevimlisidir. Pionerlər onu fəxri pioner seçir, qoca akının boynuna qırmızı qalstuk bağlayırlar. Cambulun gözlərində səadət qığılcımları parlayır...

Cambul kimi böyük el şairləri ancaq bizim ölkəmizdə şöhrət qazanır, bütün xalqların sevimlisi olurlar.

Uşaqlar, “Cambul” filminə tamaşa edin, ölkəmizin məşhur akınının mübarizə yolunu öyrənin

*Azərbaycan pioneri. 1953. 23 iyun*

## 1954
## Partiya bizi qələbəyə aparır

Qüdrətli sovet Vətənimiz bu il 1 May bayramını öz tükənməz yaradıcılq qüvvələrinin tərəqqi etdiyi, sovet adamlarının siyasi fəallığını daha da artdığı, bütün dünyada sülh, demokratiya və sosializm cəbhəsinin gücləndiyi bir şəraitdə keçirir. Bu gün bizim şəhər və kəndlərimizdə bayram paltarı geyərək əllərində qırmızı bayraq 1 May nümayişinə çıxmış on milyonlarla zəhmətkeşin – fəhlə, kolxozçu və ziyalının, tələbə və məktəblinin qəlbindəki sevinc və iftixarın həddi-hüdudu yoxdur. Bəxtiyar gənclərimiz nümayişə çıxaraq zəngin mədənlərin, fabrikaların, zavodların, bol məhsullu tarlaların, uca binaların, gözəl şəhərlərin, yaraşıqlı kəndlərin, bağların, baxçaların, ali məktəblərin, idman meydançalarının, teatrların, sanatoriyaların, gözəl sovet Vətənimizdəki maddi və mədəni nemətlərin əsl sahibi olduqları üçün fəxr edirlər.

Partiyamızın Mərkəzi Komitəsinin sentyabr və fevral-mart Plenumlarının kənd təsərrüfatının bütün sahələrini əsaslı surətdə yüksəltmək haqqında, xam və dincə qoyulmuş torpaqlardan istifadə etmək haqqında tarixi qərarları və tədbirləri sovet adamlarının, o

cümlədən şanlı sovet gənclərimizin böyük ruh yüksəkliyinə səbəb olmuşdur. Yarım milyon adam xam torpaqlara işləməyə getmək istədiyini bildirmişdir. Həmin torpaqların olduğu rayonlara getmiş on minlərlə komsomolçu və gənc indi orada fədakarlıqla çalışır.

Bu günlərdə SSRİ Ali Sovetinin sessiyasında SSRİ-nin müzakirə və qəbul olunmuş 1954-cü il Dövlət büdcəsinə, oradakı rəqəmlərə nəzər salın. Bu rəqəmlərin hər birində Vətənimizin, xalqımızın, mədəniyyətimizin, hər bir sovet adamının maddi-mənəvi tərəqqisi, bu tərəqqinin böyük sürət və vüsəti aydın görünür. Bu ilki büdcəmizdə sovet xalqının ictimai-mədəni tələblərinin ödənilməsinə 141,3 milyard manat, yəni keçən ildəkindən 10 faiz artıq pul buraxılmışdır. Bu rəqəm partiyanın və hökumətin xalqa, əzmin, mədəniyyətin və sənətin tərəqqisinə göstərdiyi böyük qayğının ifadəsidir.

Bu il ancaq orta məktəbi qurtaranların sayı keçən ilkindən iki qat artıq olacaqdır. Ali məktəb və texnikumlara bir milyondan çox adam qəbul olunacaqdır. Böyük Vətənimizdə 57 milyon adam oxuyur ki, bu da əhalinin dörddə birindən çoxdur. Sovet nəşriyyatları ildə 8 yüz milyon nüsxə kitab buraxır. Bu o deməkdir ki, Sovet İttifaqında hər adama ildə dörd kitab buraxılır. Halbuki keçmişdə kəndlər var idi ki, illərlə kitab üzü görmürdü. Zehinləri işıqlandıran, adamlarımıza mənəvi qida verən kitab indi sovet adamlarını məişətinə daxil olmuş, onlar üçün su və hava kimi vacib olmuşdur. Partiyamız və hökumətimiz əhalinin yaşayış şəraitini durmadan yaxşılaşdırmaq üçün böyük tədbirlər görürlər. 1947-ci ildən bəri Vətənimizdə qiymətlər yeddi dəfə aşağı salınmışdır. Bunun nəticəsində vətəndaşların alıcılıq qabiliyyəti xeyli artmışdır. Sovet adamı indi malları 1940-cı ildəkindən 2,3 dəfə ucuz alır. Partiya və hökumət xalq tərəfindən işlənən mallar istehsalını artırmağa böyük fikir verirlər. Təkcə keçən il 300-dən artıq yeni yüngül və yeyinti sənai müəssisəsi işə salınmışdır. Yaxın iki-üç il ərzində sovet adamının istədiyi şəhər və kənddə istədiyi malı istədiyi qədər ala bilməsi üçün bütün tədbirlər görülür.

Sənaemizin yeni maşınlarla təchiz olunması, elektrikləşmə





sürətinin artması sayəsində müəssisələrimizdə əmək məhsuldarlığı artır, insan əməyi yüngülləşir. Bizdə indi elm və texnika məhz xalqa, onun həyatına, səadətinə xidmət edir. İliç lampalarının işığını yalnız şəhərlərdə deyil, ən uzaq rayonlarda, ucqar kəndlərdə də görmək olur. Həm də indi elektrik qüvvəsindən yalnız işıq üçün yox, bir sıra məişət ehtiyacları üçün də istifadə olunur.

Bu gözəl həyatımız üçün, səadətimiz üçün biz hər şeydən əvvəl şanlı Kommunist partiyasına, onun xalqa olan atalıq qayğısına və məhəbbətinə minnətdarıq. Şair gözəl deyir ki:

*Hər təmiz ürəyin, saf məhəbbətin,*
*İnsana hörmətin, eşqə hörmətin,*
*Bügünün, sabahın, əbədiyyətin*
*Ən böyük mənası partiyamızdır.*

*İnqilab qüdrətli, günəş həvəsli,*
*Həqiqət bayraqlı, insan nəfəsli,*
*Neçə min nəğməli, neçə min səsli*
*Həyat sinfoniyası partiyamızdır.*

Kommunist partiyası qələbələrimizin təşkilatçısı, ilhamçısı və kommunizm qurmaq uğrunda mübarizəmizin rəhbər qüvvəsidir. Xalqımız partiyanın rəhbərliyi ilə dünyada birinci dəfə olaraq kapitalizim qurluşunu yıxmış və yeni həyat, xoşbəxt sosializim cəmiyyəti qurmuşdur. Bizdə zəhmətkeşlər arasında Kommunist partiyasının adından hörmətli, nüfuzlu bir ad yoxdur. Bu ad bəxtiyarlığın, azadlığın, ədalətin yüksək simvoludur.

Sovet adamının yaşayışını yaxşılaşdırmaq, sovet xalqını yüksəltmək Kommunist partiyası və Sovet hökumətinin fəaliyyətinin əsas məqsədidir.

1 May nümayişlərində zəhmətkeşlər Kommunist partiyası ətrafında sıx birləşdiklərini, onun daxili və xarici siyasətini ürəkdən bəyəndiklərini, bu siyasəti həyata keçirmək üçün var qüvvələrini sərf etməyə hazır olduqlarını bir daha göstərəcəklər.

Bugün zəhmətkeşlər öz böyük qələbələri ilə fəxr etməklə bərabər qarşılarında duran məsul və müqəddəs vəzifələri də aydın təsəvvür etdiklərini nümayiş etdirirlər. Onlar partiyamızın şanlı bayrağı altında addımlayaraq ucadan deyirlər:

– Marks – Engels – Lenin – Stalin bayrağı altında Kommunist partiyasının rəhbərliyi ilə ölkəmizdə kommunizmin qələbəsinə nail olmaq üçün var qüvvəmizi əsirgəməyəcəyik!

*Kommunist. 1954. 1may. №103(9518)*

## 1955
## Tələbkar müəllim

Tələbə vaxtımda "Kommunist" qəzetinin sərlövhəsindən elanlarına qədər diqqətlə oxuyardım. Oradakı yazıları müqəddəs, orada yazanları xoşbəxt sayırdım. Arzu edərdim ki, mənim də heç olmasa bir neçə sətir yazım qəzetdə çap olunaydı. Yazardım, göndərərdim, di gəl ki nəinki yazdığım çap olunmazdı, heç cavab da almazdım…

Mən bu insafsızlığı redaksiya işçilərinə yovuşdurmazdım. Güman edirəm ki, mənim məktubum yollarda itir, yerinə çatmır.

Bakıya gəlişimin ilk ilində, 1932-ci illin əvvəllərində komsomolun Mərkəzi Komitəsindən məni "Kommunist" qəzetinin redaksiyasına göndərdilər: – onlara cavan ədəbiyyatçı lazımdır, bir oraya gedin.

Redaksiyada o zamanın qaydası ilə məni danışdırıb yoxlayandan sonar "Sabah işə gəl!" dedilər.

Bundan böyük xoşbəxtlik olardımı?

Birinci gün şöbə müdiri mənim qabağıma 20-30 məktub tökdü:

– Müxbirlər yazıb – dedi – bunlardan seç, lazımlılarını düzəlt mənə ver.

Məktəbdən, klubdan, divar qəzetindən, dram dərnəyindən bəhs edən bu məktubların çoxu indi də yadımdadır. Biri uzun, biri qısa kağızlarda, biri iri, biri xırda xətt ilə, biri nəzakətli sözlə, biri az qala "müzür ünsürlərə" söyüş sözlər ilə başlanırdı.





Mən bunların məzmunundan lazımi nə varsa götürür, doğranmış coğrafiya xəritəsinin ağ üzünə yazır, şöbə müdiri üçün hazırlayırdım. Şöbə müdiri mənim hazırladıqlarıma baxıb bəyənmədi:

– Uzun yazmısan!

– Mən yazmamışam müxbirlər yazıb!

– Sən onlara baxma, bu on iki səhifəlik məktubdan yarım səhifə çıxarsan, bəsdir! Faktın özü kifayətdir. Artıq söz yazma! "Ayın filanında Gədəbəydə yeni tikilmiş klubun rəsmi – guşadı oldu!" – Vəssalam! Belə düzəlt!

Məktublar üzərində mənim çətin işim davam edirdi.

...Oktyabr ayı, pambıq yığımının qızğın vaxdı idi. Redaksiyada "Yaxşı oçerk uğrunda" müsabiqə elan etdilər. Hamı yazdı. Məndə birini yazdım. Müsabiqə materialları hələ saf-çürük edilməmiş, səhər qəzeti açanda iki sütünda çap olunmuş yazımı gördüm: "Qələbənin açarı!". O gün sevincimin həddi-hüdudu yox idi.

Cürətlə deyə bilərəm ki, "Kommunisdən" aldığım ilk vərdişlər mənim üçün çox faydalı təcrübə oldu. Mətbuatda işləmək adamın gözünü açır. Sərvaxt öyrədir. Müasir həyatı, hadisələri diqqətlə və vaxtında izləməyə çağırır. Sözə qənaət etməyə, yazının həcminə yox, kəsərinə fikir verməyə alışdırır. Bu gün yazılan sabah əllərdə oxumağı, qiymətlənməyi adamı həvəsləndirir, həm də tənqidə qulaq asmağa, oxucu səslərini eşitməyə, dünənki səfdən uzaqlaşmağa kömək edir. Adamı tema məhdudluğundan qurtarır.Yadımdadır ki, hər səhər "letuçka" deyilən qısa yığıncaqda günün praqramı, vəzifəsi "əlüstü" təyin olunurdu. Partiya və dövlət qərarları ilə əlaqədar olan bir məsələni mətbuat səhifələrində layiqincə işıqlandırmaq üçün hamı səfərbər kimi birləşib, hərə bir tapşırığı götürüb yerlərə gedirdi. Beş dəqiqə sonra redaksiya az qala boşalırdı.

Səhər qəzet çıxanda, əllərdə gəzəndə isə hər kəs orada öz zəhmətinin nəticəsini görür, iftixar hissi duyurdu. Kollektivizm hissi yaxşı təşkil olunmuş qəzet işində daha güclü olur, aydın görünür.

Qəzet işində gördüyüm yaxşı cəhətlərdən biri də xalq arasında hörmət, nüfuzdur.

Bizim xalq elə tərbiyə olunmuşdur ki, mətbuata doğrudan da müqəddəs, həqiqət, ədalət carçısı kimi baxır. Hara gedirsən, kim ilə rastlaşırsan, mətbuat nümayəndəsi olduğunu biləndə xüsusi hörmət görürsən. Adamlar ehtiyac və şikayətlərini birinci növbədə sənə deyirlər, sən bunları kommunistə laiq qayğı, diqqətlə dinləyir, kömək edirsənsə, onar bunu məhz partiyanın, dövlətin köməyi, qayğısı kimi bilir və bunda yanılmırlar.

"Kommunist" qəzetini sosializmin quruculuğunda, marksisizm-leninizm ideallarının təbliğində unudulmaz xidmətləri vardır.

Qəzet bu müddətdə bir neçə nəsil mətbuat, ədəbiyyat xadimlərinin tərbiyələnib yetişməsində qayğıkeş, tələbkar bir müəllim vəzifəsini görmüşdür. Güman edirəm ki, hörmətli qəzetimiz şərəfli mübarizə yolunda eyni əzim və inadla irəli gedəcəkdir.

"Kommunist" qəzetinə, onun əməkdaşları və müxbirlər ordusuna müvəffəqiyyət arzu edirəm.

*Kommunist. 1955. 20 noyabr. №275*

## 1956
## Böyük gələcəyin əzəmətli proqramı

Sovet İttifaqı Kommunist partiyasının bu günlərdə öz tarixi işini qurtarmış olan XX qurultayı ölməz Leninin yolu ilə gedərək, kommunizmə doğru inkişafımızın gələcək vəzifələrini ən aydın surətdə müəyyən etmişdir. Bu qurultay yalnız sovet Vətənimizin deyil, hətta bütün bəşəriyyətin inqilabi tarixinə mühüm bir hadisə kimi daxil olacaqdır. İndi dünyada elə bir ölkə, elə bir xalq yoxdur ki, bu tarixi hadisədən xəbər tutmasın, qurultay qərarlarına diqqət yetirməsin. XX qurultay, onun müdrük qərarları sovet adamlarının böyük gələcəyə, kommunizmin tam qələbəsinə inamını daha da möhkəmlədir, onları yeni yaradıcılıq, quruculuq işlərinə, altıncı beşillik planın həyat keçrilməsi üçün sosializm yarışına səfərbər edib ilhamlandırır. Qurultay inkişafımızın indiki mərhələsinə əsl marksizim-leninizim təhlili verərək xalq təsərrüfatının, mədəni quruculuğun gələcək real inkişaf mənzərəsini çəkmişdir. Məsuldarlığın daha da artırılması nəticəsində ikinci beşillikdə iş gününün azalması, fəhlə və qulluqçuların əmək haqqının 30 faiz artması, xalqa lazım olan malların 3 dəfə artırılması, məktəb, səhiyyə, mədəni-maarif şəbəkələrinin daha da çoxalması, texniki tərəqqinin daha böyük sürət və vüsət kəsb etməsi sovet xalqının kommunizm qurmaq yolunda nəhəng addımlarla irəli getdiyini parlaq surətdə göstərir.





Kommunizm qurmaq yolunda mübarizədə fəal bir məfkurə silahı olaraq ədəbiyyatın rolu mühümdür. Ədbiyyat işimizdə isə mühüm nailiyyətlərlə bərabər ciddi kəsirlərimiz də vardır.

N.S.Xuruşov yodaşın qurultaydakı məruzəsində ədəbiyyat və incəsənətimizin həyatdan, sovet varlığından geri qaldığı çox doğru gösdərilmişdir. Bəzi yazıçıların həyat ilə, kütlə ilə, sosializm qurucuları ilə, onların yeni həyatı, coşğun əmək fəaliyyəti ilə əlaqəsi zəifləmişdir. Bunun nəticəsində də həm məzmun, həm formaca sönük, zəif, maraqsız, dəyərsiz əsərlər meydana çıxır. Halbuki ədəbiyyat və sənət məhsulunun kefiyyətini yüksəltmək, gənc nəslin kommunist tərbiyəsinə aktiv kömək etmək hər bir yaradıcının əsas vəzifəsidir.

XX qurultay ədəbiyyat, incəsənət işlərinin qarşısında çox mühüm vəzifə qoymuşdur: Ədəbiyyatımız yalnız məzmun zənginliyi ilə deyil, həm də bədii sənətkarlıq etibarı ilə dünyada birinci mövqe tutmalıdır!

Bədii məhsulun kefiyyəti məsələsi yaradıcılıq fəaliyyətimizin mərkəzində durmalıdır. Kitabın sadəcə miqdarı heç bir zaman ədəbiyyatın qüdrətini göstərməmişdir, göstərə də bilməz. Xalqımız sovet yazıçılarından çox kitab tələb edir. Ancaq yaxşı kitab tələb edir. Bizdən sovet adamlarının artan zövqünü təmin edən, onların adına layiq, kommunizm idealları səviyyəsində dolğun məzmunlu, kamil bədii formalı kitablar tələb olunur. Xalqımızın qəhrəman həyatını, əslində şairanə olan şərəfli yaradıcı əməyini dürüst və gözəl əks etdirən kitablar tələb olunur. Bir tərəfdən həyat hadisələrini suni surətdə bəzəyən, həyat həqiqətinə etinasız olan, o biri tərəfdən də sovet həyatımızın naliyyətlərini inkar

edən, hadisələri həmişə tünd qara rənglə göstərməyə meyl edən əsərlərə qarşı kəsgin mübarizə aparmalıyıq. İdeoloji işin bütün sahələrində olduğu kimi ədəbiyyatda da məfkurə saflığını gözbəbəyi kimi qorumalıyıq. Sovet yazıçılarının bədii sözü hər yerdə, hər zaman əsl həqiqət, kommunizim həqiqəti kimi səslənməlidir. Müasir oxucu bu və ya başqa temada kitab axtaranda yalnız məzmuna görə deyil, həm də bədii kamilliyinə görə ən yaxşı mənbə kimi birinci növbədə sovet yazıçılarının əsərlərinə müraciət etməlidir. Buna görə də bədii məhsulun yüksək keyfiyyəti uğrunda mübarizə bizim əsas vəzifəmiz olmalıdır.

Sovet adamının zəngin mənəvi aləmi, geniş qəlbi, onun yeni, sağlam məişəti söz sənətinin bütün şəkillərində – romanlarda, dramlarda, şeirlərdə parlaq ifadəsini tapmalıdır.

Partiyamızın XX qurultayı, hələ də aramızda canlı işi cızma-qaraçılıq ilə əvəz edən ən mühüm tədbirləri kağız-kuğaz içində batırmağa meyl edən, yenilikdən vahiməyə düşüb qorxan bürokratların, “qlaflı adamların” olduğunu və bunlara qarşı mübarizə zərurətini də göstərmişdir. Burada da bədii sözün qüdrət və qüvvətindən istifadə lazımdır.

Yazıçı üçün həyat ilə əlaqəni möhkəmlətmək, hər şeydən əvvəl zəhmətkeşlər içində olmaq, adi sıravi adamlar ilə qaynayıb qarışmaq, canlı həyatından qidalanmaq, onların əhval-ruhiyyəsi ilə, sevinci, kədəri ilə yaşamaq deməkdur. Kolxozun, sovxozun, zavodun və ya mədənin, məktəbin parlaq nailiyyətini də, mühüm nöqsanını da yazıçı hər kəsdən əvvəl bilməli və bədii sözdə əks etdirməlidir. İctimai hadisələrə müasir, qabaqcıl məfkurə cəbhəsindən, kommunizm məqsədlərimiz nöqteyi-nəzərindən, aktiv, mübariz bir münasibət bəsləmək, həmisə sovet ədəbiyyatının səciyyəvi xüsusiyyəti olmuşdur.

Sovet yazıçıları altıncı beşilliyin nəhəng və əzəmətli planlarının artıqlamasilə həyata keçrilməsi üçün öz qələmlərini səfərbərliyə almalı, sovet ədəbiyyatı sahəsindəki ciddi kəsirləri tezliklə aradan qaldırmalıdırlar.

Mən də siravi bir yazıçı kimi doğma partiyamızın ədəbiyyat





cəbhəsi işçilərinə verdiyi haqlı və qanuni tələblər qarşısında özümü borclu sayır, müasir sovet həyatını əks etdirən yüksək bədii əsər yaratmaq üçün qələm səfərbəyliyinə səy edirəm. Yaradıcılıq planlarımın içərisində ən zəruri saydığım, fəhlə həyatından, yeni şəhər quran Sumqayıt zəhmətkeşlərinin əmək rəşadətindən bəhs edən “Təzə şəhər” romanı üzərindəki işi bu il qurtarmağı, qarşımızdakı 1957-ci ildə həmin əsəri nəşrə verməyi öhdəmə götürürəm.

*Ədəbiyyat və incəsənət. 1956. №10. 4 mart*

## 1957
## Onlar "Gənc işçi"nin müxbirləri olmuşlar

BİZİM çoxumuz ilk qələm təcrübəmizi gənclikdə, Komsomol qəzetinin səhifələrində aparmışıq. Qəzet bizim yarımsavad, ibtidai yazılarımızı pozub, düzəldib, rəndələyib, ağardıb, abra salıb çap edirdi. Altında imzamız olan yazını ilk dəfə qəzetdə görəndə sevincimizin hüdudu olmamışdır. Biz bu yazıları təkrar-təkrar oxumuş, həm sevinmiş, həm də öyrənmişik.

Hər bir savadlı adam yaza bilər. Ancaq mətbuat üçün on minlər, yüz minlərin diqqətinə layiq yazı yazmaq, hər kəsə müyəssər olan asan bir iş deyil. Xüsusən indi, oxucunun səviyyəsinin, tələbinin artmış olduğu bir zamanda müxbirlik işindən çox məsuliyyət tələb olunur.

Tələb olunur ki, qəzetdə yazılan məktublar həm doğru, məzmunca müasir, formaca maraqlı olsun. Yazı qısa olsun. Sözlərin yeri dar, fikrin yeri geniş olsun. Tələb olunur ki, müxbirin işi rayonda, kənddə kommunizm quruculuğu işinə xidmət mahiyyəti daşısın, təsadüfilikdən, xırda hisslərdən uzaq olsun. Qərəz, yaltaqlı, tərəfgirlik və qeyri bu kimi sifətlər sovet mətbuatı adından uzaqdır. Sovet mətbuatımız mühərrirlik və müxbirlik işinə müqəddəs məslək kimi baxmağın parlaq nümunəsini verən misallarla doludur.

İndiki müxbir yalnız yazmaq ilə, hətta yaxşı yazmaq ilə kifayətlənməməlidir. O, təsərrüfat, mədəni quruculuq işində fəal mübariz olmalıdır.

Gənc müxbirlər, sizə tövsiyəm belədir. Sizə işinizdə müvəffəqiyyətlər arzu edirəm.

*Azərbaycan gəncləri. 1957. 23 yanvar. №10*

## İnqilab mövzusu

Böyük Oktyabr sosialist inqilabının 40 illiyinə bütün sovet adamaları hazırlaşırlar. Oktyabr bayramı zəhmətkeşlərin talei, həyatı və səadətilə ən möhkəm bağlı olan bir bayramdır. Vətənimizdə elə əmək adamı tapılmaz ki, bu günü mahiyyət etibarilə özünün təvəllüd, ad günü kimi əzizləməsin. Şairlərimizdən biri çox yaxşı demişdir ki, mən çoxdan doğulsam da, əsl yaşım inqilab ilindən başlanır.

Təbii ki, yaradıcılıqda da həmin tarixi həqiqətin inikasını görürük. Bizim müasir əsərlərin, nəinki təkcə müasir əsərlərin, qələmə alınan mühüm ictimai mövzuların bu böyük, cahanşümul hadisə ilə əlaqədar olamayanı yoxdur. Xüsusilə xalq həyatı, talei və azadlığı haqqında nə şəkildə, nə həcmdə əsər yazırsan yaz, mütləq Oktyabr dastanından qidalanmalısan. Ən yaxşı sovet romanı, poema, dramlarında, hekayə, şeir, məqalələrində bu həqiqəti aşkar görmək olar.

Mənim yazdıqlarımın da çox hissəsi inqilab mövzusunda, yaxud bununla əlaqədar olmalıdır. Oxucunun hörmət və məhəbbətinə nail olan "Dirilən adam", "Bir gəncin manifesti" kimi əsərlər inqilab yolunda gedən mübarizələri və bunların parlaq, şərəfli nəticələrinin tərənnümü cəhətindən mənalıdır.

Bu il "Azərbaycan" jurnalı və gənclər ədəbiyyatı nəşriyyatı mənim "Yolumuz hayanadır" romanımı nəşr edir. Bu əsər 1909-11-ci illəri, böyük Sabirin zəngin, mənalı həyatının son illərini təsvir edir və inqilabi mübarizələrlə möhkəm əlaqədardır. Birinci rus inqilabının Azərbaycana, xüsusən ziyalılara təsiri, sinfi təbəqələşmənin sürətlənməsi, cəbhələrin müəyyənləşməsi, demokrat ziyalıların mübariz vəzifələrinin konkretləşməsi bu əsərin başlıca məzmununu təşkil edir. "Yolumuz hayanadır" romanında bu mürəkkəb





tarixi proseslərdən bəhs olunur. Güman edirəm ki, bayram günlərinə qədər bu əsər kitab halında oxucuya təqdim olunacaqdır.

İndi mənim əlimdə müasir məişətimizdən bəhs edən bir sıra hekayələr vardır. Yaxın aylarda bunları bir-bir əldən çıxarıb çapa verəcəyəm. Bunlardan başqa, respublika Elmlər Akademyasının tapşırığı üzrə Oktyabr inqilabı və sovet ədəbiyyatşünaslığı mövzusunda elmi məruzə hazırlamalıyam.

*Ədəbiyyat və incəsənət. 1957. 21 sentyabr. №38*

## Təbrik

*SSRİ xalq artisti Bülbülün anadan olmasının 60 illiyi münasibətilə*

Saz ilə sözün, musiqi ilə şeirin qüdrətli və təbii birliyini dərindən duyan və ecazkar bir sənətlə ifadə edən nadir bir xanəndəni soruşsalar, mən dərhal Bülbülün adını çəkərəm. Bülbül, sənətinin ləyaqətini, ictimai mənasını layiqincə dərk edən və bunu yüksək tutan sənətkardır. Onu dinləyənlər yalnız musiqini yox, Azərbaycan xalqının zəngin sənətinin, mədəniyyətinin, şeiriyyətinin, incə, həssas zəngin mənəviyyatının səsini dinləyir və sevirlər. Qoy, əziz sənətkarın qüdrətli səsi altmış il bundan sonra da öz məlahətini, lətafətini, təravətini saxlasın, gələcək nəsillərimizin də ən zəngin mənəvi qidası olsun.

*Ədəbiyyat və incəsənət. 1957. 28 dekabr. № 52(942)*

## 1958
## Ən qiymətli nədir?

**Qəzetimizin səhifələrində N.Müşərəfanovun "həyatda ən əziz, ən şirin şey nədir?" sərlövhəli məktubu əsasında başlanmış müzakirə geniş fikir mübadiləsinə səbəb olmuşdur. Bununla əlaqədar olaraq redaksiyamız yüzlərlə məktub almışdır. Məktublardan bir hissəsi qəzetin səhifələində dərc edilmişdir.**

**Fikir təkrarına yol verməmək, müzakirəni yekunlaşdırmaq məqsədilə redaksiyamız görkəmli yazıçılara, ictimai xadimlərə müraciət edib bu məsələ ilə əlaqədar olaraq öz fikir və rəylərini xahiş etmişdir. Qəzetimizin bugünkü nömrəsində yazıçı Mir Cəlalın "Ən qiymətli nədir" məqaləsini çap edirik.**

Son zamanlar "Azərbaycan gəncləri" qəzetinin səhifələrində Nürrəddin Müşərəfanov yoldaşın sualı ətrafında gedən mübahisələr minlərlə oxucunun diqqətini özünə çəkmişdir.

Hər kəs bilmək istəyir ki, insan üçün **dünyada ən şirin şey, ən qiymətli şey** nədir? Həyata sima verən ən mənalı xüsusiyyət nədən ibarətdir?

Uzun müddət görmək, dünya işığına baxmaq kimi böyük nemətdən məhrum olan bir gənci həkimlər "zülmət səltənətindən" xilas etmişlər, onun görmək qabiliyyətini özünə qaytarmışlar. Aydındır ki, belə bir gənc üçün dünyada ən qiymətli, ən şirin şey görməkdir, gözdür.

Xatırlayıram ki, 35-40 il bundan əvvəl dərs kitablarında bizə kor uşağın həsrətlərindən danışan bir hekayə oxudardılar. Uşaq həsrətlə danışır, təxminən belə deyirdi: eşidirəm ki, dünyada çox gözəl şeylər var. Bağlar, dağlar, meşələr, günəş, ay, ulduzlar, əlvan libaslar... Bunların heç biri mənə lazım deyil. Ancaq bircə arzum var. Ah, dünyada nə olardı bircə dəfə də olsa, anamı görəydim. Əziz anamın üzünü görəydim!..

Belə yazıq bir uşağın yeganə arzusunu həqiqətə çevirən adam ən böyük insani və müqəddəs bir iş görür. Nəinki müalicə olunan uşaq, hətta bütün həssas qəlbli insanlar belə bir xidməti ömür boyu unutmazlar.

Ən ağır xəstəliyi müalicə edən həkim, Nurəddin üçün həm də bizim hər birimiz üçün, ən çox hörmətə layiq adamdır.

Bu, doğrudanda belədir.

Ancaq yuxarıdakı sualı genişləndirərək konkret bir hadisə ilə, konkret bir şəraitlə əlaqədar yox, zaman, məkan xaricində, **ümumi** şəkildə qoyanda cavabı da mürəkkəbləşir və bir qədər təfsilat tələb edir.





Dünyada ən şirin şey nədir?

Qəzet səhifələrini bilən yoldaşlar bilirlər ki, bu suala nə qədər çox və müxtəlif cavablar verilir. Mübahisədə iştirak edənlərdən hər kəsə bir şey daha şirin gəlir. Birisi **Vətəni**, ikincisi **ananı**, üçüncüsü **məhəbbəti**, dördüncüsü **cansağlığını**, beşincisi **məsləki**, **dostluğu, mübarizəni, sülhü, həyatı, gəncliyi** və daha bir çox bunun kimi ictimai məfhumları şirin və qiymətli sayır.

Vətən sevgisindən məhrum və ya məsləksiz adam, anasını ürəkdən sevməyən, məhəbbət hissindən məhrum olan quru, taxta kimi adamlar nifrətə layiq, simasız adamlardır.

Həmçinin cansağlığını qismən də olsa itirənlər bilirlər ki, dünyada ən qiymətli bir neməti itirir və onu heç bir sərvətlə əvəz edə bilməzlər.

Bəs, bunlardan kim düz deyir, kim səhv edir?

Məsələ burasındadır ki, sualın özü konkret, müəyyən və bir qədər də dürüst qoyulmamışdır. Bu məfhumları bir-birinə qarşı qoymaq, birini qiymətli deyib, o birisini rədd etmək səhv olardı. Bunlardan heç birini lüzumsuz və ya qiymətsiz saya bilməzsən.

Anamız təbiət sanki bizi yaradanda belə bu suallar qarşısında durmuşdur.

Həyat məfhumunun özü çox geniş və mürəkkəb bir məfhumdur. Onu yalnız bir nemətə, bir mətləbə bağlamaq kifayət deyil. Həyat üçün hansı daha qiymətlidir: sumu, havamı, yeməkmi, işıqmı?..

Kim bu məfhumların birini qəbul, digərini rədd edə bilər? Çünki həyat bunların birinə yox, hamısına bağlıdır. Bəlkə də eyni dərəcədə bağlıdır. Hər bir yaradıcı kimi təbiət də, cəmiyyətdə öz "əsərlərini" mümkün qədər qüsursuz, **kamil** yaratmağa, mübarizə meydanında hər cür silahla "təchiz" etməyə çalışır. Bəzən insan nail olduğu ən vacib nemətin qədrini heç də bilmir. Bu nemət nə qədər çox verilsə o qədər insanın nəzərində qiymətsiz olur. Hamıya məlumdur ki, bir saat da havasız yaşamaq mümkün deyil. Amma dünyada ən ucuz şey də havadır. Havanın qiymətini danışanda

çoxlarına qəribə gəlir. Bir müddət gözdən məhrum olan adam təkrar günəş işığına nail olursa dünyada ən böyük səadətə nail olduğunu düşünür. Eləcə də **eşitmək, duymaq, düşünmək, hərəkət etmək, danışmaq** qabiliyyəti.

Bunların hamısı insan üçün ən zəruri, ən qiymətli nemətlərdir. Adi vəziyyətdə bəlkə də biz bu qabiliyyətlərin qədrini, əhəmiyyətini o qədər də hesaba almırıq, lazımi məna vermirik. Ancaq elə ki, bədbəxtlik üz verdi, bunların birindən ya bir neçəsindən məhrum olmaq təhlükəsi yarandı, dərhal bütün qüvvələrimizlə bu təhlükəni rədd etməyə, həyatımız üçün vacib olan bu qabiliyyətlərin hər birini nəyin bahasına olursa-olsun qorumağa səy edirik.

İstedadlı sovet ədibi N.Ostrovski gənclərə çox səmimi və dürüst demişdir ki, **insan üçün ən əziz şey həyatdır**! Həyat, xüsusən insan həyatı isə yuxarda saymaq istədiyimiz nemət və qabiliyyətlərin biri və ya ikisilə deyil, **hamısının varlığı**, həm də **tam** varlığı nəticəsində əldə edilir.

Həyat məfhumunun özü də geniş və nisbidir. Afirka meşələrində bədəvi halda yaşayan bir vəhşinin də, ən mədəni aləmdə yaşayan, xarüqələr yaradan bir alimin də həyatı vardır. Hər ikisi yaşayır. Ancaq bu həyatların bir-birindən yer ilə göy qədər fərqi var. Heyvani meyillərdən çox da uzağa gedə bilməyən ibtidai, naqis həyat başqa, insani hisslər, fikirlər, ideyalarla zəngin, mədəni, kamil, yaradıcı həyat isə bambaşqadır.

Bizim cəmiyyətimizin, yeni sovet həyatımızın əsl mənası bütün insanları azad etmək hökmranlığı sayəsində yaranan kamil ictimai həyata, məhz yüksək insani hisslər, fikirlərlə zəngin ən mədəni bir həyata çatdırmaqdır. Keçmişdə, zülüm və zorakılıq zamanında istismara əsaslanan burjua-mülkədar cəmiyyətində təbii, qanuni inkişaf meyillərinin ziddinə, xilafına olaraq cəmiyyətin əksəriyyəti ağır ehtiyac içində yaşamağa, ən ibtidai ehtiyaclar içində çabalamağa məcbur idi. Belə bir vəziyyətdə aydın şeydir ki, zəhmət adamlarının kamil, mədəni həyat sürməyə ən adi imkanları da yox idi. Ağır və üzücü zəhmətdən göz açmağa, dərin duyub düşünməyə vaxt, qüvvə, imkan olmurdu. Belə bir vəziyyət





ağalar üçün sərfəli idi. Çexovun nökər uşaq Vankasını, Mirzə Cəlilin "Poçt qutusundakı" Novruzəlinin həyatını, şüurunu xatırlayaq. Bütün zəhmətkeşlərin tarix boyu apardıqları qurtuluş mübarizəsi məhz bunun üçün, xilas olmaq, cəmiyyəti həmin istismar buxovundan xilas etmək üçün idi. "Sonsuz dəhşətlərə dəhşətli bir son" qoymaq lazım idi. Bəşəriyyətin böyük oğulları Marks, Engels, Lenin, Çernışevski, Qorki və başqaları ömürlərini bu böyük ictimai azadlıq yolunda sərf etmişlər, məğrur səslənən insanlıq şərəfi və ləyaqəti uğrunda mübarizə aparmışlar. Çox haqlı olaraq bizim ədəbiyyatda bəşəriyyətə rəhnuma olan belə adamların həyatına **böyük həyat** deyirlər.

Dünyada insan üçün ən əziz şey həyatdır! Çünki həyat insana yalnız bir dəfə verilir. Yalnız bir dəfə! İnsan ömrünü yenidən qaytarmaq və ya heç olmasa bir az uzatmaq qüdrətinə bəşər zehni hələ nail olmamışdır və bəlkə də uzun əsrlər nail ola bilməyəcəkdir.

Nəvai yaxşı deyir ki, **ay-günəş** zərləri ilə nərd oynayan fəhlələrə həmişə duşeş gəlir, ömrün günləri nərd daşları kimi tez sıradan çıxır... Günlər su kimi axıb gedir. Buna görə də hər şey həmin həyatın özünü mənalı, məzmunlu, faydalı keçirməkdən asılıdır.

Təbiətdə olduğu kimi, cəmiyyətdə də çox tüfeylilər olmuşdur. Belə tüfeylilər olmasa, əlbət ki, bəşəriyyət bir şey itirməz, əksinə, qazanardı. Təssüf ki, tüfeylilər vardır. Həyatı yemək-içməkdən, heyvani hisslərin məcmuundan ibarət sayan belə tipləri dahi qələm sahiblərinin ifşa hədəfi seçmək heç də təsadüfi deyildir. Şekspir, Molyer, Qoqol, Şedrin, Axundov, Sabir, Mirzə Cəlil kimi yazıçılar realist qələmlərilə tüfeylilərin – insanlıq simasından uzaq olanların həqiqi surətini yaratmış, bunlara qəh-qəh çəkib gülmüşlər. Tüfeylilərin həyatı əslində heyvani həyatdan da aşağı qalır. Bu tiplər mütərəqqi cəmiyyətdə həmişə lənət və nifrətlə xatırlanırlar. Bu tiplər üçün də həyat əziz və şirindir. Ancaq onların özləri üçün. Onların şəxsi həyatı özləri üçün nə qədər şirin və əzizdirsə, yaşadıqları cəmiyyət üçün bir o qədər acı və mənfurdur. "Neylərdin ilahi?" şeirində Sabir belə parazitlərin varlığına üsyan etmişdir.

Mirzə Cəlil belə tüfeyli, avam həyat sürənləri "Ölülər" adlandırmışdır. Abbas Səhhət isə mənəvi həyatdan məhrum olan bəsirətsizlər haqqında şeirlə demişdir:

*Diridirlər əgərçi surətdə*
*Ölüdürlər bəli həqiqətdə!*

Bəşəriyyətin çırağını yandıran, onu irəli aparan ictimai qüvvələr içərisində müstəsna, böyük simalar yetişir. Elə insanlar olur ki, gələcək üçün ən əziz olan həyatlarından keçirlər. Vətən, məslək, azadlıq, elm, ixtiralar yolunda ən böyük fədakarlığa gedirlər. Ölümdən də qorxmur, həyatlarını qurban verirlər. Doğrudur bu fədakarlıqda, inqilab yolunda, Vətən yolunda, haqq-ədalət yolunda canlarından keçir, qismən ölürlər. Ancaq sönən həyatları ilə insanların gələcək yoluna işıq salırlar. Bununla da bəşəriyyət tarixində həmişəlik mənəvi, əbədi həyat kəsb edirlər. Cəmiyyət heç bir zaman onları unutmur. Əksinə, onlar hər əsrdə, hər dövrdə müasir cəmiyyətin ən hörmətli, ən əziz üzvləri olaraq yaşayırlar. Böyük ideal, məslək sahiblərinin həyatını xatırlayın. Onların adı bütün mütərəqqi bəşəriyyətin dilində ən əziz, ən böyük şərəflə yad olunur. Onlar əsl əbədi həyatı kəsb etmiş, öz ömürlərilə bəşəriyyətin, tarixin tərəqqisinə təkan vermiş, insanlara işıq, səadət yolu açmağa cəhd etmiş böyük tarixi simalardır. Keçmiş cəmiyyətdə belə kamil adamların yaratmasına və işləməsinə şərait yox idi. Yeni cəmiyyət öz içərisindən məhz belə insanlar yetişdirməyə, tərbiyə etməyə, böyütmətə çox səy edir.

Deməli, ən əziz həyatın özünü mənalı keçirmək hər kəs üçün mühüm şərtdir. Xoşbəxt o adamlardır ki, ömürlərini insanların **səadətinə, gələcəyinə** sərf edirlər, dünyada bəşəriyyət üçün çox xeyirli iş görüb gedirlər. Təbiətin gizli sirrlərini açıb, insanların ağır əməyini yüngülləşdirir, həyat mübarizələrinə kömək edib gedirlər. Minlərlə alim, filosof, şair, ədib, ictimai xadimlərin, inşaatçı, mühəndis, həkimlərin böyüklüyü, ictimai xidməti məhz bununla ölçülür. Ömrünü xalqın, cəmiyyətin tərəqqisi, səadəti yolunda, mədəniyyətin inkişafı yolunda fədakarlıqla sərf edən, həyatlarının **əsl mənasını** dar, məhdud şəxsi mənfəətdə yox, **yüksək və müqəddəs ictimai ideyalara xidmətdə görən**, böyük icadlar, ixtiralar, əsərlər, fikirlər qoyub gedən simalar bəşəriyyətin ən xoşbəxt adamlarıdır.





İnsan üçün həyat ən böyük nemətdir. Həyatı yüksək məqsəd, məsləklə, mənalı, məzmunlu, ictimai-faydalı keçirmək isə böyük hünər, igidlik və xoşbəxtlikdir. Bütün başqa nemət və şirinlikləri bu məqsədə tabe tutmaq lazımdır.

*Azərbaycan. 1958.14 fevral. №20*

## Əbədi səadət arzusu ilə

Bir neçə gün sonra Sovet Özbəkistanının paytaxtında, Asiyanın qocaman və şöhrətli bir şəhərində iki qitənin qələm sahibləri əl-ələ verib görüşəcəklər. Birlik, həmrəylik ruhilə buraya toplaşan yazıçılar bütün yazıçılar yox, hətta bütün şüurlu insanları maraqlandıran mühüm məsələləri müzakirə edəcəklər.

Daşkənd konfransı çox məsul bir zamanda toplanır. İndi bütün bəşəriyyət tarixi, gərgin bir dövr keçirir. Əsrimizin ikinci yarısı çarpışmalar, təlatumlar, həyəcanlar, intizarlarla doludur. Lenin çox dürüst təyin etmişdir ki, imperializm kapitalizmin son pilləsidir. Bu dahi kəşf, günü-gündən daha aydın görünür, insanlarda yəqinlik oyadır.

Qərb ölkələrinin həris, acgöz hakimləri bəşəriyyətin dinc, bəxtiyar həyat sürməsini istəmirlər. Daha doğrusu belə bir həyat istismarçı, qansoran tüfeylilərin xeyrinə deyildir. Onlar silah satmaq, ölkə almaq, bazar tutmaq, qazanc götürməkdən əl çəkmək istəmirlər. Ona görə də kapital ağalarına müharibə, qırğın lazımdır – bəşəriyyət dünyada ən böyük fəlakət və ən müdhiş faciə olan müharibəyə sürüklənsin, təki sərmayədarın cibi dolsun...

– Yox! Gözü qızmış, idrakı sönük ağalar, yox!

Keçmiş ola! Daha bundan sonra Asiya, Afrikanın milyonlarla zəhmətkeşləri sizin hiylə və fitnələrinizə aldanmayacaqlar. İndi

dünya dəyişmiş, tənasüblər dəyişmiş, ən ucqar ölkələrin zəhmətkeş adamları da ayılmışdır. Dünyada elə bir ölkə yoxdur ki, orada imperialistlərin müharibə fırıldaqları ifşa olunmamış olsun. Bütün ölkələrdə müharibə qızışdıranlara qarşı güclü bir səs: "Yox!" səsi ucalır. Deyirlər qələm qılıncdan güclüdür. Belə məsul bir dövrdə yazıçıların, həm də iki böyük qitə yazıçılarının görüşməsi, məsləhətləşməsi, bir çox məsələlərdə əməkdaşlıq etməsi müasir ədəbiyyatın tarixi, ictimai rolunu artırmış olur. Daşkənd konfransına müxtəlif ölkələrdən, müxtəlif əqidəli, müxtəlif stilli yazıçılar gələcəklər. Burada romantik, realist, yeni romantik, satirik, lirik istiqamətli yazıçılar toplana bilər. Hər bir sənətkarın yaradıcılıq xüsusiyyəti, istiqaməti, ənənələri diqqət və hörmətə layiqdir. Bütün nümayəndələr biri-birini diqqətlə dinləyəcək, fikir mübadiləsi edəcəklər. Ancaq bizim fikrimizcə, indi ədəbiyyatda daha vacib bir "üslub" və daha güclü bir isdiqamət bütün yaradıcıları düşündürməlidir.

– Müharibə əleyhinə itiqamət!

Zehnin, istedadın, qələmin bütün gücü müharibəyə qarşı, sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizəyə sərf olunmalıdır. Çünki bu elə bir müqəddəs vəzifədir ki, bütün başqa arzu, ideallarımız bundan asılıdır. İndi bizim qələmlərimiz milyonların istək və arzusunu ifadə etməlidir. Nurani qocaların, ağ saçlı anaların, qəlbi məhəbbətlə dolu gənclərin, həyat və səadət səsli uşaqların, məsum körpələrin rəyini, istəyini müdafiə edərək qələmlərimiz qılıncdan, topdan, bombadan güclü olduğunu sübut etməlidir! Yazıçının ən böyük arzusu insanların səadətidir. Bəşəriyyəti yeni qırğınlara sürükləmək istəyənlər isə həyatın, səadətin, insanın ən qəddar düşmənləridirlər. Məsul bir dövrdə, məsul ictimai-ədəbi məsələlərin müzakirəsinə toplanan bütün yazıçıları böyük gələcək arzusu, insanlar arasında birlik, əməkdaşlıq, hörmət, məhəbbət arzusu birləşdirməlidir. Biz möhkəm əminik ki, konfransdan bütün yazıçılar insanlığın əbədi səadəti uğrunda mübarizəyə daha müsəlləh qayıdacaq, öz həmkarları ilə daha sıx, daha aydın əməkdaşlıq əldə edəcəklər.





Əsl bədii sözün qarşısında Qorki demişkən, heç bir maniə dayana bilməmişdir. Bu söz hər yerdə, həmişə qəlblərə hərarət, möhkəmlik, zehinlərə işıq və qüvvət verməlidir!

*Bakı. 1958. 3 mart. №226*

## Gənclərə sözüm

Gənclik elə bir zəruri yoldur ki, hamı onu keçməlidir.

Ömrün baharı! Bəzən gənclik həyatına belə ad verirlər.

Gənclik bahardır, ancaq hər bahara bənzəməz. Bahar hər il təkrar olunur. Gənclik isə insana BİR dəfə, yalnız BİRCƏ dəfə verilir.

Ona görə verilir ki, həyata yol açasan, gələcəyi görəsən, əziz ömrün məqsədini təyin edəsən. Bəşəriyyət tarixi bizim sovet gəncləri qədər aydın, ülvi məqsədlərə, kommunizim ideallarına xidmət edən gənclik tanımır. Heç bir dövrdə gənclərin qarşısında bu qədər yüksək, müqəddəs, ümumbəşəri məqsəd olmamışdır. Bizim kənd və şəhərlərimizdə, məktəblərimizdə çalışan gənclər yalnız şəxsi işlərini, tarlada, dəzgah başında, parta dalında məhdud gündəlik, aylıq işlərini görmürlər. Onlar eyni zamanda yeni dünya qurur, yeni ictimai sistemin tarixi qələbələrində iştirak edirlər. Sovet gəncləri ən böyük iftixara layiq yeni insanlardır.

Müvəffəqiyyət heç bir zaman çağırışla, arzu ilə gəlmir, mübarizə, zəhmət, səylə əldə edilir. Əngin fəzalara yol açan, zəngin torpaqları kəşf edən, günəşi də, havanı da, suyu da insanın səadətinə xidmət üçün səfərbər edən yalnız arzu deyil, ağır, şərəfli, ardıcıl, aydın məqsədli zəhmətdir. Zehnin, ağlın, əlin tükənməz inadla işləməyidir. Dünyada zəhmətdən kənar səadət yoxdur.

Bu həqiqəti bizim bütün gənclərimiz, balalarımız dürüst dərk etməlidirlər.

Təzə paltar geyəndə, ən əziz dostu görəndə, ən qiymətli hədiyyə alanda sevindikləri kimi yeni bir məhsul yaradanda, səmərəli zəhmət çəkəndə də, faydalı iş görəndə də ürəkdən sevinməlidirlər. Əkdiyin ağacın meyvəsini, oxutduğun uşağın kamilləşdiyi-

ni, tikdiyin mənzilə insanların köçdüyünü, yaratdığın əsərin zehinlərə işıq verdiyini görməkdən ləzzətli nə var? Ömür ötüb keçəndir, yaranan isə qalandır. Gənclərimizin amalı həmişə yarışmaq, yaratmaq olmalıdır. Heç vaxt mən gücsüzəm, mənim yaratdığım vecsizdir deməyin! Bu gün bir təyyarə modeli düzəldən pionerin sabah təyyarə mühədisliyinə meyli daha qüvvətli olacaqdır. Bu gün bir ağac bəsləyən uşaqda gələcəyin bağbanı olmaq meyli güclənəcəkdir.

Ən qoxulusu budur ki, vaxtı hədər keçirəsən, vaxtından əvvəl "ləzzətlər, keflər" eşqinə düşəsən. Aydın gənclik fəzasını tüstü – duman ilə örtənlər itirdikləri günləri, illəri çətin qaytara bilərlər.

Vaxt qızıldır! Bu müdrik xalq sözü əsrlərin imtahanından keçmişdir. Mən isdərdim ki, gənclərimiz yaradıcı əmək, səyli təhsil vaxtlarını ömürlərinin ən məzmunlu saatları saysınlar.

*Azərbaycan gəncləri. 1958. 25 aprel. №50*

## Tarixi görüş qarşısında

Bu ilin oktyabr ayında Daşkənddə iki böyük qitə - Asiya və Afrika ölkələri yazıçılarının ikinci konfransı olacaqdır. Bu konfransda uzaq və müxtəlif ölkələrin qələm sahiblərinin nümayəndələri görüşəcək, fikir və rəy mübadiləsi edəcək, yalnız yazıçıları deyil, bütün mədəniyyət dünyasını, bütün düşünən adamları maraqlandıran vacib məsələləri müzakirə edəcəklər.

Daşkənd konfransı və buna hazırlıq işləri Asiya və Afrika ölkələrinin, həm də başqa ölkələrin qabaqcıl yazıçıları arasında böyük maraq və rəğbət oyatmışdır. Yazıçılar belə bir yığıncağın çoxdan zəruri olduğunu, hamını maraqlandıran bir sıra müasir problemlərin ancaq belə, geniş, canlı əlaqə yolu ilə həll edilə biləcəyini sevinc və inamla təsdiq edirlər.

Sovet hazırlıq komitəsinin müraciətinə gələn cavab məktublarından görünür ki, bir çox yazıçılar bu konfransda şəxsən iştirak etmək arzusu və əzmindədirlər. Bəziləri buraya gəlmək üçün labüd çətinliklərlə qarşılaşdıqlarını yazır və maniələri aradan qaldırmağa səy edirlər. Cənubi Afrika yazıçısı Brian Banrinq öz məktubunda belə yazır: "Cənubi Afrikadan bu konfransa gəlmək istəyənlər pasport almaq üçün çox çətinliklərə rast gələcəklər. Bizim çoxumuza belə səfərlər qadağan edilmişdir. Konfransla əlaqədar bütün işlərlə biz maraqlanırıq".





Çinin və Koreyanın Yazıçılar İttifaqı konfransda iştirak etməyə məmnuniyyətlə razı olduqlarını bildirir, hazırlıq işlərindəki ilk müvəffəqiyyətlərə görə Sovet Hazırlıq Komitəsini təbrik edirlər. Məşhur hind ədibi Mülk Rac Anand, sovet oxucusuna öz gözəl hekayələri, ssenariləri ilə tanınmış olan hind ədibi Əhməd Abbas, habelə türk yazıçısı Suad Dərviş öz məktublarında konfransın istiqaməti, əməli işləri, iştirakçılar heyəti və müzakirə edəcəyi məsələlərlə maraqlandıqlarını bildirirlər.

* * *

Doktor Anand yazır: "İndi, Asiya-Afrika xalqlarının xarici ağalardan azad olduğu bir dövrdə ziyalılar fikirləri yaxınlaşdıran, birləşdirən, ixtilafları isə azaldan əlaqə və vasitələr axtarırlar. Belə bilirəm ki, Asiya və Afrikanın düşüncəli adamları Avropa və Amerikanın düşüncəli adamları ilə dostluq münasibətlərini üzvi surətdə birləşdirərlər, bu da tezliklə ümumi sülh əldə edilməsinə kömək edər".

Birləşmiş Ərəb Respublikasının ictimai xadimi cənab Məcid Qanama yazır: "Mən Daşkənd konfransına hazırlıqda məmnuniyyətlə iştirak edərəm. Sovet İttifaqına – ərəblərin səmimi dostu olan bir ölkəyə səyahət çağırışına minnətdaram. Ümid edirəm ki, konfransda iştirak imkanım olacaqdır. Mənim salamımı böyük dostumuz sovet xalqına yetirin!".

Yapon yazıçısı, Asiya və Afrika ölkələrinin həmrəylik komitəsinin üzvü Tomodzi Abe demişdir: "Ümidvaram ki, qarşıdakı Daşkənd konfransı Asiya və Afrika xalqları arasında ədəbiyyat və mədəniyyət əlaqələrinin daha da inkişafına xidmət edəcəkdir". Beyrutda yaşayan ingilis yazıçısı Desmond Stüart yazır ki, "yazı-

çıların Daşkənd görüşü haqqındakı xəbər məni çox maraqlandırır. Bilmək istərdim həmin konfransda iştirak etmək üçün nə kimi imkanlar olacaqdır. Mən ingilis vətəndaşıyam. Ancaq son on ildə Ərəb Şərqində yaşayıram. Ərəb dünyası mənim üçün əsl universitet oldu. Mən burada çox şey öyrəndim. Mən ərəb dünyasının sadiq dostuyam".

Demokrat alman yazıçısı Lüdviq Renn bu fikirdədir ki, "tam vaxtında çağırılan konfrans dövrümüzün ən mühüm probleminin – Asiya və Afrika xalqlarının beynəlxalq aləmə çıxması probleminin həllinə kömək edəcəkdir...".

Göründüyü kimi, Asiya, Afrika yazıçılarının ikinci konfransını müxtəlif ölkələrin yazıçıları get-gedə artan bir maraqla izləyir və buna hazırlaşırlar.

## I

Məlum olduğu üzrə, insanlar arasında rabitə üçün müasir dünyanın keçmişdə heç bir dövrdə olmayan maddi-mədəni və texniki imkanları vardır. İndi nə məsafə, nə iqlim, nə din, nə millət, nə məslək fərqi insanlar arasındakı təbii qanuni rabitə meylinin qarşısını ala bilməz. İndi dünyanın o başında baş verən bir hadisə neçə dəqiqə sonra dünyanın bu başında hər kəsə məlum olur və öz əks-sədasını tapır. Avropanın ən uzaq bir guşəsində yaşayan adam istədiyi saatda başqa qitələrin şəhərləri ilə danışıb dilləşə bilir. İndi bir ölkədə nəşr olunan faydalı və maraqlı kitab bir neçə ay sonra dünyanın bir çox ölkələrində, bir çox dillərində milyon nüsxələrlə nəşr olunur və sürətlə yayılır. Belə bir zamanda bütün mədəniyyət xadimləri kimi yazıçıların da fəaliyyət dairəsi, tarix qarşısındakı, bəşəriyyət qarşısındakı vəzifə və vicdan məsuliyyəti son dərəcə artmış olur. Qələm sahibinin müraciəti, kamil bədii forma tapan hər doğru sözü, fikri və hissi yalnız öz vətəndaşlarına deyil, çox geniş, hüdud bilməz dairələrə yayılıb çox mütərəqqi iş görür. İndi əsl bədii sözün təsiri həmişəkindən böyük, məzmunu ümumi, qayəsi ülvi, çox uca və cazibəlidir. Cazibəlidir ona görə ki, müasir oxucu bu sözdən mənəvi qüvvət, yüksək zövq və yeni fikirlər gözləyir. Xalqları indi orta əsr əfsanələri, əsatir maraqlandırmır, təmin etmir. Qəflət yuxusundan çoxdan ayılmış, siyasi-mədəni həyatda öz ləyaqətli yerini tutmuş və tutmaqda olan keçmiş müstəmləkə və yarımmüstəmləkə ölkələrinin milyonlarla oxucusu öz yazıçılarının əsərlərindən işıq, istiqamət, mənəvi qida, mübarizə, qüvvət və qüdrət almaq istəyirlər. Yazıçını hər yerdə diqqətlə dinləyirlər. Bəşər zəkası çox silahlar, hətta dünyanı sarsıda bilən dəhşətli silahlar icad etmişdir. Ancaq hələ kamil bədii söz qədər mövcud məkan və zaman məsafələrini ildırım sürəti ilə qət edən, uzaqvuran, milyonların hissinə, fikrinə təsir göstərə bilən silah icad edilməmişdir. Müharibə silahları dünyaya, insanlara ölüm, fəlakət, xarabazarlıq gətirir. Əsl bədii söz, müqəddəs insanpərvər fikir və hisslərin tərcümanı olan əsərlər isə insanlara dostluq, qardaşlıq, birlik, sülh ideyaları gətirir, kitab, bizim zəmanəmizdə olduğu qədər geniş həcmdə, miqyasda, məzmunda heç bir zaman yaranmamış, yayılmamışdır. Kitab indi hər yerdə, hər evdə mədəniyyət simvoludur. Təsadüfi deyil ki, Nizami, Xəyyam, Puşkin, Maksim Qorki, Tolstoy, Viktor Hüqo, Anri Barbüs, Romen Rollan, Bernard Şou, Tomas Mann, E.M.Remark kimi söz ustalarının nikbin həyat, həqiqət səsi onların mənsub olduqları ölkələrdən və xalqlardan çox-çox uzaqlarda da əks-səda tapır, diqqət və hörmətlə eşidilir. O da təəccüblü deyil ki, bu və bu kimi yazıçıların əsərləri dünyanın bütün mədəni dillərində yüz min nüsxələrlə təkrar-təkrar nəşr olunur. Bu əsərləri oxucu öz ürəyinin mətləbinə yaxın dost, munis müsahib, həqiqi yoldaş kimi əzizləyir və sevir. Yazıçıların elə kitabları var ki, milyonların qəlbinə yol tapmışdır. Bu da bədii sözün qüdrətinə parlaq sübutdur.

Bu kitabların "müqəddəsliyi" – din, məzhəb təbliğ etməsində, insanları sitayişə çağırmasında yox, əksinə, onları əsrlər boyu mübtəla olduqları mənəvi buxovlardan, sıxıntılardan birdəfəlik yaxa qurtarmağa, tam azad nəfəs almağa, sərbəst və sərrast təfəkkürə, tam sağlam mühakiməyə çağırmasındadır.

Azərbaycan ədəbiyyatı da bütün böyük ədəbiyyatlar kimi ta qədimdən bəri milli və coğrafi məhdudluqdan uzaq, gözəl, müqəddəs, pak insani hisslərlə zəngin, əsl humanist bir ədəbiyyat olmuşdur. Nizami, Xaqani, Füzuli kimi dahi sənətkarlar həmişə milyonlara xitab etmişlər. Onların nəhəng və parlaq zəkası nə coğrafi, nə irqi, nə də milli çərçivə tanımadan günəş kimi daim aləmə işıq saçmışdır və saçmaqdadır. Onlar bir neçə dildə əsər yaratmışlar.

Zamanın qansız, qəddar hakimlərinə, çürük ənənələrinə baxmayaraq həmişə insanpərvərlik duyğularını böyük bir cürətlə, vətəndaşlıq qüruru ilə tərənnüm edən bu dahilərin musiqi qədər xoş səsi həmişə insanların qulağında səslənməkdədir. Onların müdrik siması nəsillərə ölməz bir timsal, coşğun bir ilham mənbəyi olmuş, həmişə irəliyə, yüksəklərə çağırmışdır. Bu sənətkarlar, bütün böyük sənətkarlar kimi yalnız öz xalqlarının, öz vətəndaşlarının yox, həm də ümumən bəşəriyyətin, qonşu və qardaş xalqların, xüsusən Şərq xalqlarının həyat və məişəti, mübarizə və səadəti ilə yaxından maraqlanmışlar.

Füzuli bədii sözün qüdrətini ölkələr fəth edən hər hansı bir səltənətin gücündən və hakimiyyət dairəsindən üstün tutmuş, "ölkələri, dənizləri fəth edən bu səltənətin" insanlığa zülm, vergi, əziyyət yox, məhz haqq, ədalət, əmin-amanlıq gətirdiyini söyləmişdir:

*Hər sözüm bir pəhlivandır kim bulub təyidi həqq,*
*Əzm qıldıqda tutar təsxir ilə bəhrü bəri.*
*Qanda kim əzm etsə mərsumü məvacib istəməz,*
*Hanki mülkü tutsa dəyməz kimsəyə şurü şəri.*
*Payimal etməz onu asibi-dövri- ruzigar, zigar,*
*Eyləməz təsir ona dövran çərxi çəmbəri...*

Yeni realist, inqilabi-demokrat ədəbiyyatımızın ölməz simaları – qartal vüqarlı Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Ələkbər Sabirin bütün zəngin yaradıcılığı insanların azadlığı,





səadəti yolunda daimi, həm də iztirablı bir çırpınış olmuşdur. Bu nadir simaların xalq səadəti, bəşəri ideallar uğrunda yorulmadan çarpışmaları gənc yazıçılar üçün parlaq bir timsaldır. Humanizm ideyaları, xalqlar dostluğu, mübarizə hissi, nikbinlik, zülmə, əsarətə dərin nifrət bu yazıçıların bütün əsərlərində başlıca məzmundur. Bu yazıçılar bütün ömrləri boyunca həm əməli fəaliyyətdə, həm də qələmlə zülm, ədalətsizlik, zorakılıq əleyhinə kəskin mübarizə aparmışlar. Bu yazıçılar üçün insan adı ən şərəfli bir ad olmuşdur. İnsan, yaranmışların əşrəfidir. O, hər cür sıxıntı və məhrumiyyətdən xilas olmalıdır. Bu yazıçılar Rusiyanın, Çinin, Hindistanın, İranın, Misrin, Türkiyənin və başqa ölkələrin zəhmətkeşlərinə qarşı şahlar və hakimlər, istilaçılar tərəfindən edilən zülm və təcavuzü öz vətənləri və xalqlarına qarşı olan zülm, təcavüz kimi qiymətləndirmiş, qəzəb və nifrətlərini ifadə etmişlər.

Sovet dövründə Azərbaycanın başqa ölkələrlə ədəbi əlaqələri son dərəcədə genişlənmiş, zənginləşmiş, yeni vüsət, məzmun kəsb etmiş və yüksək mərhələyə qaldırılmışdır. Zəhmətkeşlərin, fəhlə və kəndlilərin azadlıq yolunda mübarizəsindən, sadə adamların həyat və məişətindən, arzu və istəklərindən bəhs edən bütün bədii əsərlər Azərbaycan sovet oxucusunu maraqlandırmış və maraqlandırır. Hələ inqilabın ilk illərində maddi-texniki çətinliklərə baxmayaraq başqa xalqların görkəmli yazıçılarının əsərləri Azərbaycanda ən vacib kitab kimi hər il on minlərlə nüsxə nəşr olunub yayılmışdır. Sovet oxucusuna dünya ədəbiyyatı nümunələri öz ana dilində təqdim olunmuşdur.

M.Qorkinin, R.Taqorun, V.Hüqonun, Cek Londonun, Alimcan İbrahimovun, Mamin-Sibiryakın, habelə Şekspirin, Balzakın, Şillerin, Servantesin və bir çox başqa klassiklərin əsərləri Azərbaycan yazıçıları tərəfindən tərcümə olunmuşdur. Tolstoyun, Puşkinin, Qoqolun, Firdövsinin, Hafizin, Xəyyamın, Sədinin əsərlərini Azərbaycanda müəyyən ziyalı dairələrdə orijinaldan oxumuşlar və indi daha çox oxuyurlar. Bu əsərlərin bir sıra nümunələri yaxşı ictimai, əxlaqi tərbiyə vasitəsi kimi məktəb proqramlarına, dərs kitablarına salınmış, gənclərin, uşaqların dilinin əzbəri olmuşdur.

Azərbaycan sovet şairlərinin səyilə Mayakovski, Puşkin, Şevçenko, Nəvai, Rustaveli, S.Stalski, Cambul kimi qardaş xalqların klassik şairlərinin əsərləri tərcümə və nəşr edilmişdir. Respublikada həmin şairlərin təntənəli yubiley günləri keçirilmişdir. Dahi fars və tacik şairi Firdövsinin 1934-cü ildə keçirilən min illik yubileyi fars ədəbiyyatşünaslarının da etiraf etdiyinə görə şairin öz vətənində keçirilən yubileydən az təntənəli olmamışdır. "Şahnamənin" müəyyən fəsillərini hələ inqilabdan əvvəl Azərbaycanın böyük şairi Sabir tərcümə etmişdir.

1920-1930-cu illərdə Azərbaycanda roman janrının yenicə inkişafa başladığı bir dövrdə, demək olar ki, dünyanın ən məşhur romançılarının, birinci növbədə realist rus romançılarının əsərlərindən nümunələr Azərbaycan dilinə tərcümə edilmiş və nəşr olunmuşdur.

İnqilabın qələbəsi, Sovet hakimiyyəti ədəbiyyatımıza ideya zənginliyi, tematik vüsət, mübarizlik, mürəkkəb həyat, coşğun inqilabi pafos, forma əlvanlığı, dil, stil aydınlığı, sadəliyi gətirdi. İctimai-siyasi mübarizəyə fəal münasibəti gücləndirdi. Elə görkəmli Azərbaycan yazıçısı tapılmaz ki, xalqların əsarətə, imperializmə, zülmə, istismara qarşı mübarizəsinə əsər həsr etməmiş olsun.

Cəlil Məmmədquluzadə Yaxın Şərqdə birinci yazıçıdır ki, kommunizmin böyük qurtuluş şüarını hələ əsrimizin əvvəllərində yazıb təbliğ etmişdir: "Bütün ölkələrin yoxsulları, birləşin!". Cəlil Məmmədquluzadə inqilab ərəfəsində fəhlələri bu böyük ideya bayrağı altında toplaşmağa və əlbir mübarizə aparmağa çağırırdı. Sabirin İran xalqlarının, türk xalqının, ümumən məzlumların həyatına aid yazdığı şeirlərində imperializmə, istismarçılara dərin nifrət və alovlu qəzəb vardır. Cəfər Cabbarlının məşhur "Məhkum Şərqə" şeiri 20-ci illərdə sovet gənclərinin dilində Şərqin azadlığı himni kimi səslənmişdir:

*Ey şərq, sənin üstündə cahan çarpışır ikən,*
*Aləm səni bölməklə səadət bölüşürkən,*
*Evladın əsarətdə yazıq, can çəkişirkən,*
*Hala da sükut etmədəsən, ey evi bərbad!*





*Kimdən, əcəba ummadasan dərdinə imdad?*
*Döndər günəşin atəşə, saç qərbə, şimalə.*
*Topla nə gücün varsa, giriş qəti cidalə.*
*Ya haqqını al, ya əbədi öl, ləməhalə.*
*Qoy gülləri ya qan sulasın, yaxud ədalət,*
*Qoy ya bəşəriyyət yaşasın, yaxud əsarət.*

## II

Daşkənd konfransına hazırlıq dövründə Azərbaycan sovet yazıçıları xeyli iş görmüş və görməkdədirlər. İran, ərəb ədiblərinin hekayələrindən ibarət məcmuələr, böyük hind ədibi Rabindranat Taqorun "Fəlakət" romanı çap edilmişdir. Azərnəşr Asiya, Afrika yazıçılarının hekayə və şeirlərindən ibarət böyük bir məcmuə hazırlamışdır ki, oxucu burada məşhur ədib və şairlərin əsərlərindən nümunələr görəcəkdir. Bu məcmuədə Qo Mo-jo, Mülk Rac Anand, Orxan Seyfi, Faruqnafiz, Sədri Ertem, Süad Dərviş, Səbahəddin Ali, Orxan Kəmal, Məliküşşüəra Bahar, Seid Nəfisi, Şəms Təbrizi, M.Şəhriyar, Bözörg Ələvi, Zeynəb Məhəmməd Hüseyn, Məhəmməd İqbal və başqalarının əsərləri vardır.

Bu məcmuənin və konfransla əlaqədar başqa əsərlərin tərcüməsində Azərbaycanın görkəmli ədib və şairləri iştirak edirlər.

Konfrans nümayəndələrini Azarbaycan mədəniyyəti və ədəbiyyatı ilə tanış etmək üçün professor Məmməd Arifin "Azərbaycan ədəbiyyatı tarixi" adlı kitabçası da bir neçə dildə nəşr olunacaqdır. Burada xüsusən sovet dövründə yaranan əsərlərdən ətraflı bəhs olunur. Sovet mədəniyyəti və ədəbiyyatının nailiyyətlərini göstərmək üçün bütün respublikalarda belə kitabçalar, habelə ayrı-ayrı yazıçıların yaradıcılığına aid əsərlər çapa hazırlanmışdır. Respublikanın ədəbiyyat jurnalları konfransa xüsusi nömrə həsr edir, həm bədii, həm elmi-publisist əsərlər hazırlayırlar. Daşkənddə hazırlanan böyük və zəngin sərgiyə respublikamızın ədəbiyyat, incəsənət, mədəniyyət nailiyyətlərini əks etdirən eksponatlar hazırlanmaqdadır. 2.500-dən artıq kitabı əhatə edən bu sərgidə

Azərbaycan ədəbiyyatının həm qədim, həm müasir nümunələri qoyulacaqdır.

Asiya, Afrika yazıçılarının konfransına hazırlıq dövrü Azərbaycan yazıçıları arasında həm də yaradıcılıq fəallığını xeyli artırmışdır. Bir sıra yazıçılar Şərq xalqlarının, xüsusən ərəb ölkələrinin azadlıq mübarizəsinə xüsusi əsərlər həsr edirlər. Şair Osman Sarıvəllinin "Misirli qardaşlara" adlı poeması qəhrəman ərəb xalqının öz vətəni və istiqlaliyyəti uğrunda kəskin mübarizəsini tərənnüm edir. Şair, Süveyş kanalından imperialistlərin qovulmasını haqqın, ədalətin qələbəsi kimi verir. Şair Nigar Rəfibəyli ərəb vətənpərvəri, qəhrəman qız Cəmilə Buhiredin işğalçılara qarşı apardığı mübarizəyə coşğun bir şeir həsr etmişdir. Bundan başqa şairlərimizin son zamanlarda imperializmə, təcavüzkarlara qarşı yazdıqları bir sıra yeni şeirlər də yazıçılarımızın müasir beynəlxalq azadlıq hərəkatını gərgin bir diqqət və sayıqlıqla izləmələrinin nəticəsidir.

Güman edirik ki, Daşkənd konfransı yazıçılar arasında canlı əlaqə və rabitənin daha da güclənməsinə, süni maniələrin isə aradan qaldırılmasına yönəldilmiş mühüm tədbirlər görəcəkdir. Yazıçılar vətənindən, irqindən, siyasi baxışlarından asılı olmayaraq bir-birinin yaradıcılığı ilə ətraflı tanış olmaq, öz təəssüratını söyləmək və öz həmkarını dinləmək üçün geniş imkan tapacaqlar. Yazıçılar arasında yaradıcılıq, həmrəylik əlaqəsinin yeni-yeni formaları və üsulları tapılıb nizama salınacaqdır. Çin, hind, ərəb, fars və başqa xalqların müasir yazıçılarından edilən tərcümələr göstərir ki, xüsusən indi qabaqcıl sənətkarlar arasında həmrəylik, sülhü qorumaq, gərginliyi azaltmaq yolunda birgə mübarizənin çox ciddi siyasi, ümumbəşəri əhəmiyyəti vardır. Böyük zəhmətlər, səylər nəticəsində yaranan müasir qabaqcıl mədəniyyətin, mütərəqqi ədəbiyyatın daha da inkişafı, ölkələr və xalqlar arasında möhkəm sülhün mənafei naminə bu iş güclənməli və vüsətlənməlidir. Biz qələm dostlarımızın əsərlərində öyrənməli çox şeylər gördüyümüz kimi, Azərbaycan ədəbiyyatının yaxşı nümunələrini də dostlarımıza və həmkarlarımıza cürətlə təqdim edə bilərik və





edirik. Bir qayda olaraq yaxşı əsərlər dərhal tərcümə və nəşr edilməlidir. Biz əminik ki, yaratdığımız yaxşı nümunələr Şərqin və Qərbin sadə adamları tərəfindən hörmət və diqqətlə qarşılanacaqdır. Onu demək kifayətdir ki, xalq şairi Səməd Vurğunun, görkəmli ədiblərimiz Mehdi Hüseynin, Mirzə İbrahimovun və başqa yazıçılarımızın bir sıra əsərləri dünyanın bir çox ölkələrində tərcümə və nəşr olunmuş, rəğbət və hörmət qazanmışdır. Hörmətli fransız şairi Lüi Araqonun məhz bu tərcümələr əsasında Azərbaycan sovet ədəbiyyatının nailiyyətlərindən ağız dolusu danışmağı və yazmağı bizi sevindirməyə bilməz. Sovet kitablarının qazandığı mövqe və hörmət bizi tutduğumuz sosializm realizmi yolunda daha inamla, daha möhkəm addımlar atmağa çağırır.

Konfransda, ümumi işimizə, sülhə, həmrəyliyə kömək edə bilən bütün vasitələrdən istifadə etmək nəzərdə tutulmalıdır. Yazıçıların müxtəlif ölkələrə qarşılıqlı səyahəti, ayrı-ayrı problem, hətta əsərlərin kollektiv tərcüməsi və müzakirəsi, iştirakçı ölkələrin yazıçılarını birləşdirən təşkilati bir müəssisənin – Yazıçılar Birliyinin yaradılması da müzakirə edilməlidir.

Yazıçıların təklifinə görə konfransda uşaq ədəbiyyatı, mahnı, xüsusən sülh mahnısı haqqında, radio, teatr, kinonun mövqei, vəzifələri haqqında da söhbət açmaq lazımdır. Şərqşünaslıq sahəsində aparılan işlərlə də istər Asiya, istər Afrika yazıçıları çox maraqlanırlar.

Şərqşünaslıq yalnız tarix elmi deyil, xüsusən indi ən müasir aktual problemlər üzərində qurulmalı olan canlı və zəngin sahəli, aktual, müasir bir elmdir. Xalqların həyatını, mübarizəsini, mədəniyyət və ədəbiyyatını öyrənmək işinə birinci növbədə həmin xalqların öz içərisindən çıxmış mütəxəssislər cəlb edilməlidir. Bu temada yazılan kitablar həmin ölkələrin özündə müzakirə və təhlil edilməlidir. Daşkənd konfransı yazıçıların ürək açıqlığı, sərbəstlik və dostluq şəraitində vacib məsələləri müzakirə edəcəkləri mühüm bir tarixi görüşdür. Heç şübhə yoxdur ki, bu görüşdən yazıçılar xoş təsəvvür, zəngin təəssürat, gələcəyə, sülhə daha böyük inam hissi, yeni yaradıcılıq ilhamı ilə qayıdacaqlar.

## III

Son günlərdə Orta Şərqdə əmələ gəlmiş təhlükəli siyasi vəziyyət – qığılcımı yanğına çevirmək istəyən, üçüncü dünya müharibəsi qorxusu yaradan, sülhü hədələyən çox gərgin vəziyyət bütün insanların təlaş və həyəcanına səbəb olmuşdur. Amerika və İngiltərə imperialistlərinin Livana və İordaniyaya qoşun yeritmələri, xırda və gücsüz ölkələrin istiqlaliyyətinə təcavüz etmələri bütün bəşəriyyət qarşısında böyük cinayət kimi qiymətləndirilir. Sovet hökuməti müstəmləkəçilərin bu işğalçılıq tədbirlərinə qarşı öz kəsgin etirazını bütün dünyaya bildirmiş, vəziyyətin təcili surətdə böyük dövlət başçılarının birgə müzakirəsinə verilməsini təklif etmişdir. Sovet yazıçılarından bir qrupu "Pravda" qəzetində bütün dünyanın yazıçılarına çağırış nəşr etdirmişdir. Bu çağırışda deyilir:

"Bütün dünya yazıçıları! Bugün bizim üzərimizə böyük məsuliyyət düşür. Bəşəriyyət qarşısında cinayət baş verdiyi bir zamanda biz laqeydcəsinə kənarda durub baxa bilmərik. Xalqlar və hökumətlər həmişə yazıçıların sözünə qulaq asmışlar.

Biz, qüvvələrimizi birləşdirmək çağırışı ilə sizə müraciət edirik. Hər bir yazıçı öz səsini ucaltmağa, zəka və istedadının bütün qüvvəsini sülh və demokratiyanın müdafiəsi işinə sərf etməyə borcludur. İndi bundan mühüm və vacib iş ola bilməz. Yer üzündə xalqların iradəsini yüzlərlə dildə ifadə edən sözlər tapmaq lazımdır. Qoy, Yer kürəsinin bütün əhalisi bizim dilimizlə danışsın, müharibəni dayandırmaq üçün bütün təbliğat vasitələrini, qəzetləri, radio və televiziyanı, kinonu, yazıçıların canlı sözünü səfərbərliyə almaq lazımdır. Biz öz səsimizi böyük dövlətlərin başçılarının bilatəxir görüşməsini israr edən Sovet hökumətinin səsinə qoşuruq".

Xüsusən Amerika, İngiltərə və Fransa yazıçılarının bugünkü təhlükəli vəziyyətə necə münasibət bəslədiyini dünya əfkar-ümumiyyəsi intizar, maraqla bilmək istəyir. Yüz milyonlarla kütlə, güman yox, yəqin edir ki, təcavüzkar ölkələrin mütərəqqi mənəvi





qüvvələri – qabaqcıl yazıçıları, sənət adamları, alimləri dünya mədəniyyəti, bəşəriyyət qarşısındakı məsuliyyəti dərk edərək öz ölkələrinin quduğran monopolistlərinə, azğın diplomatlarına, gözünü qan tutmuş generallarına qarşı həqiqi insanpərvərlik səslərini ucaldacaqlar.

Bu məsul, ağır vəziyyətdə onlar susmayacaq, hər bir kəs üçün – 7 yaşında körpədən tutmuş 100 yaşında qocaya qədər hər bir kəs üçün müqəddəs olan böyük sülh uğrunda fəal, ardıcıl mübarizədən geri durmayacaqlar. Axı müharibə xalqın nəyinə lazımdır. Məgər dünyada insanlar üçün torpaqmı, maddi nemətmi, havamı, sumu çatmır. Məgər elmin, sənətin, ədəbiyyatın müqəddəs amalı, vəzifəsi unudulmuşdur. Məgər keçən birinci, ikinci dünya müharibələrinin ağır ibrət dərsi kifayət etmədimi. Qan-qan deyən imperialistlərin bəşəriyyəti bədbəxt etmək, dünyanı xarabazara, şəhərləri, kəndləri məzarıstana döndərmək niyyətləri baş tutmamalıdır! Ən mütərəqqi əsr olan XX əsrdə də insan zəkasının ən yüksək məhsulları, ən müqəddəs çağırışları, qırğınlara qarşı lazımi dəyanətlə durmazsa, biz yazıçılar böyük sələflərimiz və gələcək xələflərimiz qarşısında nə qədər xəcil bir vəziyyətdə qalmış olarıq!

Farslarda bir misal var: "Qələm deyər mən cahan sultanıyam!". Qələmin bütün qüdrətini sülhə, insanların dinc yaşaması, səadəti kimi yüksək amala səfərbər etmək lazımdır. Biz gücsüz deyilik. Ola bilməz ki, bədii sözün daha çox şüurlara təsiri, lap qəddar hakimlərin ölkəsində də, heçə enmiş olsun. Ədalət, həqiqət yazan qələm indi zehinləri daha çox işıqlandırmalı, təsirini qat-qat artırmalı, hər hansı bir silahdan güclü olduğunu bütün dünyada nümayiş etdirməlidir. Hər bir yazıçının hər sətri sülh şüarı kimi, səadətə səmimi, alovlu çağırış kimi səslənməlidir. Dünyanın bütün həqiqi yazıçıları bu çağırışda ən fəal, mübariz bir əsgər kimi səfərbər olmalıdırlar.

Sülhün qələmi bütün silahlardan kəsərli olduğunu sübut etməlidir!

*Kommunist. 1958. 6 avqust*

## Birlik əzmi ilə

Bir neçə gün sonra Sovet Özbəkistanının paytaxtında, Asiyanın qocaman və şöhrətli bir şəhərində iki qitənin qələm sahibləri əl-ələ verib görüşəcəklər. Birlik, həmrəylik ruhilə buraya toplaşan yazıçılar təkcə bütün yazıçılar yox, hətta bütün şüurlu insanları maraqlandıran mühüm məsələləri müzakirə edəcəklər.

Daşkənd konfransı çox məsul bir zamanda toplanır. İndi bütün bəşəriyyət tarixi gərgin bir dövr keçirir. Əsrimizin ikinci yarısı çarpışmalar, təlatumlar, həyəcanlar, intizarlarla zəngindir. Lenin çox dürüst təyin etmişdir ki, imperializim kapitalizmin son pilləsidir. Bu dahi kəşf, günü-gündən daha aydın görünür, insanlarda yəqinlik oyadır.

Qərb ölkələrinin həris, acgöz hakimləri bəşəriyyətin dinc, bəxtiyar həyat sürməsini istəmirlər. Daha doğrusu belə bir həyat istismarçı, qansoran tüfeylilərin xeyrinə deyil. Onlar silah satmaq, ölkə almaq, bazar tutmaq, qazanc götürməkdən əl çəkmək istəmirlər. Ona görə də kapital ağalarına müharibə, qırğın lazımdır – bəşəriyyət dünyada ən böyük fəlakət və ən müdhiş faciə olan müharibəyə sürüklənsin, təki sərmayədarın cibi dolsun...

– Yox!

Gözü qızmış, idrakı sönük ağalar, yox!

Keçmiş ola! Daha bundan sonra Asiya, Afrikanın milyonlarla zəhmətkeşləri sizin hiylə və fitnələrinizə aldanmayacaqlar. İndi dünya dəyişmiş, tənasüblər dəyişmiş, ən ucqar ölkələrin zəhmət adamları da ayılmışdır. Dünyada elə bir ölkə yoxdur ki, orada imperialistlərin hərbcü fırıldaqları ifşa edilməmiş olsun. Bütün ölkələrdə müharibə qızışdıranlara qarşı güclü bir səs: “Yox!” səsi ucalır. Deyirlər qələm qılıncdan güclüdür. Belə məsul bir dövrdə yazıçıların, həm də iki böyük qitə yazıçılarının görüşməsi, məsləhətləşməsi, bir çox məsələlərdə əməkdaşlıq etməsi müasir ədəbiyyatın tarixi, ictimai rolunu artırmış olur. Daşkənd konfransına müxtəlif ölkələrdən, müxtəlif əqidəli, müxtəlif stilli yazıçılar gələ





bilərlər. Burada romantik, realist, yeni romantik, satirik, lirik isdiqamətli yazıçılar toplana bilər. Hər bir sənətkarın yaradıcılıq xüsusiyyəti, istiqaməti, ənənələri diqqət və hörmətə layiqdir. Bütün nümayəndələr biri-birini diqqətlə dinləyəcək, fikir mübadiləsi edəcəklər. Ancaq bizim fikrimizcə, indi ədəbiyyatda daha vacib bir “stil” və daha güclü bir isdiqamət bütün yaradıcıları düşündürməlidir.

– Antimüharibə itiqaməti!

Zehnin, istedadın, qələmin bütün gücü müharibəyə qarşı, sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizəyə sərf olunmalıdır. Çünki bu elə bir müqəddəs vəzifədir ki, bütün başqa arzu, ideallarımız bundan asılıdır. İndi bizim qələmlərimiz milyonların istək və arzusunu ifadə etməlidir. Nurani qocaların, ağ saçlı anaların, qəlbi məhəbbətlə dolu gənclərin, həyat və səadət səsi uşaqların, məsum körpələrin rəyini, istəyini müdafiə edərək qələmimiz qılıncdan, topdan, bombadan güclü olduğunu sübut etməlidir! Yazıçının ən böyük arzusu insanların səadətidir. Bəşəriyyəti yeni qırğınlara sürükləmək istəyənlər isə həyatın, səadətin, insanın ən qəddar düşmənləridirlər. Məsul bir dövrdə, məsul ictimaiədəbi məsələlərin müzakirəsinə toplanan bütün yazıçıları böyük gələcək arzusu, insanlar arasında birlik, əməkdaşlıq, hörmət, məhəbbət arzusu birləşdirməlidir. Biz möhkəm əminik ki, konfransdan bütün yazıçılar insanlığın əbədi səadəti uğrunda mübarizəyə daha müsəlləh qayıdacaq, öz həmkarlar ilə daha sıx, daha aydın əməkdaşlıq əldə edəcəklər.

Əsl bədii sözün qarşısında Qorki demişkən, heç bir maniə dayana bilməmişdir. Bu söz hər yerdə, həmişə qəlblərə hərarət, möhkəmlik, zehinlərə işıq və qüvvət verməlidir!

*Ədəbiyyat və incəsənət. 1958. 4 oktyabr. № 40*

## İki qitənin ədəbiyyat xadimləri görüşür

DÜNYADA heç bir zaman ədəbi əlaqələr indiki qədər geniş və vüsətli olmamışdır. Heç bir zaman ədəbiyyat indiki qüdrətlə

səslənməmişdir. Hər bir böyük və kiçik ölkənin ədəbiyyatı xalqın fikri, xalqın mənəvi qüdrət və qüvvəti kimi səslənməkdədir. Buna görə də dünyanın iki böyük qitəsinin – Asiya və Afrika ölkələri yazıçıları nümayəndələrinin Daşkənd konfransında görüşmək, danışmaq, məsləhətləşmək, müəyyən məsələlərdə əməkdaşlıq etmək əzmi çox mühüm tarixi bir tədbirdir. Yazıçılar haqlı olaraq bu konfransı get-gedə artan bir maraq, ümumi bir sevinclə gözləyirdilər.

Konfransa hazırlıq dövrünün özündə bir çox zəngin və fərəhli hadisələrin şahidi olmuşuq. Asiyanın, Afrikanın, həmçinin başqa qitələrin qabaqcıl sənət adamları Daşkənd konfransının tarixi əhəmiyyəti, orada müzakirəyə qoyulan məsələlər haqqında mətbuatda fikir mübadiləsi etmişlər. Əsas və ümumi rəyimiz budur ki, müasir mütərəqqi ədəbiyyatın bəşəriyyət və tarix qarşısındakı vəzifələrindən geniş söhbət açan qələm sahiblərindən indi, qan-qan deyən, nəyin bahasına olursa olsun qazanc axtaran bir sıra imperialist ölkələri başçılarının həris iştahasının bəşəriyyəti hədələdiyi bir zamanda müstəsna ayıqlıq, sayıqlıq tələb olunur.

Amerika-ingilis imperialistləri Yaxın və Uzaq Şərqdə fitnələr törədib xalqları müharibəyə sürükləmək istəyirlər. Fransanın hakim dairələri Əlcəzair xalqının azadlıq hərəkatını boğmaq istəyirlər. Asiya və Afrikanın, habelə başqa qitələrin yazıçıları bu hadisələri diqqət və həyəcanla izləyir, imperializmə, müstəmləkəçiliyə qarşı öz nifrət səslərini ucaldırlar. Hiss etmək çətin deyildir ki, indi qabaqcıl yazıçıları bir fərdin, ya bir ailənin taleindən daha çox bütün bəşəriyyətin talei, insanlığın müharibə fəlakətindən qurtulması məsələsi, dinc yanaşı yaşamaq üçün ən doğru, ən etibarlı yollar arayıb tapmaq məsələsi düşündürür. İstedadın, zehnin, qələmin qüdrəti bu istiqamətdə daha çox sərf olunmalıdır. Bunun üçün də irqindən, millətindən asılı olmayaraq bəşəriyyətə, tarixə, mədəniyyətə xidmət əzmində olan bütün sənətkarların sıx əlaqəsi, əməkdaşlığı mühüm şərtdir.

*Kommunist. 1958. 7 oktyabr*





## Ərəb qızı

*Daşkənddən məktub*

Leyli!

Leyl – ərəbcə gecə deməkdir. Ata-anası bəlkə də qızlarının uğursuz taleyini qabaqcadan duyduqları üçün Leyliyə bu adı vermişlər. Doğrudan da qızcığaz həyata göz açan, məktəbə qədəm qoyan kimi faciyəli məhəbbət onu yaxaladı, istirablardan, təqiblər və göz yaşlarından keçirərək məzara apardı. Min ildən çoxdur ki, mütərəqqi bəşəriyyət nakam məhəbbətin yanıqlı macərasını hərarətlə deyir, yazır və xatırlayır. Şərqin hansı ölkəsinə getsən Leyli adına rast gələrsən. Əlbəttə ki, analar qızlarına Leylinin taleyini arzulamırlar, onlar köhnə dünyanın qurbanı olan böyük və ülvi, nakam və faciəli məhəbbətin acı və ölməz xatirələrini saxlamaq, Leylinin xarakterindəki pak, təmiz səmimiyyətə əbədi hörmət əlaməti olaraq bu adı qızlarına verirlər.

Şübhəsiz bu, az olardı. Müqəddəs, səmimi məhəbbətə qarşı edilən zülmə ümumi, bədii bir nifrət də zəruri idi. Bu nifrəti hər kəsdən əvvəl ərəb xalqlarının özündə, onların xüsusən son əsrdə cəsarətlə apardıqları qəhrəman mübarizədə görmək olardı. Dərk olunmuşdur ki, ərəb qızının qurtuluş və səadəti hər kəsdən əvvəl onun öz əlindədir. Zülmün və zorakılığın qurbanı olan Tamilla da öləndə bunu hiss etmişdir. Bu həqiqəti ən çox və ən dərin zərurəti ilə duyan bir ərəb qızını indi bütün dünya tanıyır.

Hamı bilir ki, əlcəzairli qız Cəmilə – qəhrəman Cəmilə Fransa imperialistlərini necə heyrətə, dəhşətə gətirmişdir. Cəmiləyə ölüm cəzası kəsənlər, cəmilələrin qəlbində azadlıq mübarizəsini daha da alovlandırırlar. Ərəb ölkələrində, həm də nəinki təkcə ərəb ölkələrində, habelə bütün dünyada elə bir azadlıq sevən ailə yoxdur ki, Cəmiləni öz əzizi saymasın, onu alqışlamasın. Cəmilə oyanan, vuruşan yeni Afrikanın parlaq rəmzidir. Əlcəzair Respublikasının təşkili bu müqəddəs döyüşün dünyaya səs salan böyük qələbəsidir. Ərəb qızı yalnız maddi silahla vuruşmur. Onun əlində güclü-mənəvi silah da vardır. Ərəb qızı müasir,

mübariz kitab uğrunda, çirkin müstəmləkə qaydalarını ifşa edən bədii kitab uğrunda əzimlə vuruşur. Daşkənddə, Asiya və Afrika yazıçılarının konfransında şəvə saçlı, orta boylu, ağır yerişli, qarayanız, gülər çöhrəli bir qız müstəqim nüfuzedici baxışı ilə çoxlarının diqqətini cəlb etmişdir. O, tribunaya qalxıb alovlu nitqə başlayan kimi bütün nümayəndələr onu gurultu ilə alqışladılar.

Qahirədən gəlmiş qız Aişə Əbdürrəhman mənəvi silaha sarılan müasir ərəb qızlarının nümayəndəsidir. O, doktordur. Qahirə universitetinin müdərrisidir. Öz xalqının mübariz mədəniyyət və ədəbiyyat xadimidir. O, ərəb ədəbiyyatı tarixinin mütəxəssisidir, qabaqcıl yazıçıdır. O, yenipərəst, gözüaçıq bir adamdır. Ərəb ədəbiyyatına tarix materalı kimi yox, müasir silah kimi baxır və ondan belə isdifadə edir. O, bu ədəbiyyatı Əlcəzairdə, İordaniyada, Livanda müstəmləkə qaydalarını saxlamaq istəyən imperialislərə qarşı döyüşə səfərbər etmək isdəyir. O, yüzlərlə gənclərə xitab edir. Aişənin tələbələri ondan nə öyrənirlər?

Sxolostik ədəbiyyatın, qəzəl, qəsidənin, dini kitabələrin, ruh və ehkamınımı? Yox! Aişə ərəb gənclərinə mənəvi mübarizə öyrədir. Bədii sözü gülləyə bərabər tutmağı öyrədir. Ədəbiyyatda xalq həyatı və səadətini tərənnüm edən güclü mahnılar aramağı öyrədir. Aişə dənizləri, dağları keçərək buraya da həmin məqsədlə gəlmişdir ki, öyrənib görsün dünyanın qələm sahibləri bəşəriyyətin səadəti, gələcəyi yolunda necə əl-ələ verib sıx sıralarda vuruşurlar. Bombalar üzərində kitabın güllə üzərində həqiqi sözün qələbəsini təmin etmək yolunda Aişə də nümayəndə yoldaşları kimi səylə çalışır.

Aişə konfransın fəal nümayəndələrindəndir. Müzakirə olunan məsələlər onu çox maraqlandırır, həyəcanlandırır.

Onun ən böyük arzusu bütün ərəb dünyasının, bütün dünyanın imperializm taunundan əbədi xilas olunmasını görməkdir, yer üzərində xalqların müstəqil, dinc, məsud həyat sürməsidir, bütün qadınların, o cümlədən uzun əsrlərin istirablarını görmüş ərəb qadınlarının maddi, mənəvi qurtuluşudur. O, aşkar görür ki, bu arzular təkcə Afrika, Asyada yox, bütün qitələrdə qalib gəlir. İndi





ərəb qızının taleini öyrənənlər Leylinin qəmli macərasına yox, Aişənin fərəhli həyatına, mübarizə yoluna müraciət edib diqqət yetirməlidirlər.

Ərəb qızı xalqının xələf övladı kimi dünyanın ən qüdrətli, ən mədəni adamları cərgəsində, yeni həyat yolunda möhkəm və inamlı addımlarla irəliləyir.

Ona uğurlar olsun!

12 oktyabr.

*Bakı. 1958. 14 oktyabr. №235*

## Qüdrət birlikdədir

Daşkənd tarixi günlər yaşayır. Dünyanın hər tərəfində - böyük, kiçik, uzaq, yaxın ölkələrdən gələn yazıçı nümayəndələrini sovet Özbəkistanının dövlət, mədəniyyət adamları, şəhərin bütün əhalisi böyük hörmət və qonaqpərəstliklə alqışlayıb salamlayır. Gələn nümayəndələr də öz növbəsində bayram libası geymiş gözəl şəhərə, söyüdlü, çinarlı küçələrində çaylar çağlayan bağlı-bağatlı şəhərə qarlı qütblərin sərinliklərindən, isti, günəşli ölkələrin qızğın hərarətindən, milyon insanların qəlbindən qopan səmimi dostluq, həmrəylik hissləri gətirmişlər.

Payız fəsli olsa da Daşkənddə günəşli havalar keçir. Aydın göylərdə quşlar da səs-səsə verib sanki ümumi şənliklə həmahəng uçuşurlar. Asiya-Afrika yazıçılarının konfransına gələn nümayəndələr bütün şəhər əhalisinin diqqət mərkəzindədir. Məktəblilər əllərində dəftər-kitab enli küçələrin təmiz səkilərində sıxlaşıb dayanır, təbəssümdən kiçilən gözlərini gəlib gedən maşınlara, müxtəlif dillərdə yazılıb divarlardan, küçə başlarından asılan şüarlara dikirlər. Burada konfrans nümayəndələrini əhatə edib alqışlayan, öz səmimi, dostluq hisslərini ifadə edən dəstələri addımbaşı görərsən.

Gənclər və məktəblilər, müxtəlif dildə, müxtəlif xətt ilə, müxtəlif qələm ilə yazılmış avtoqrafları ən nadir və əziz bir yadigar kimi qatlayıb kitablarında gizlədir, minnətdarlıq ilə nümayəndələrin əllərini sıxırlar.

Konfrans keçən binanın – Nəvai adına teatrın, nümayəndələrin yaşadığı Daşkənd mehmanxanasının, Mərkəzi kitabxananın, kitab sərgiləri və mağazalarının ətrafından izdiham əksik olmur. Özbək oxucuları oxuduqları, oxumadıqları kitabların müəlliflərini şəxsən görmək, yaxından tanış olmaq istəyirlər. Aldıqları kitablara avtoqraf yazdırır, yazıçıların yaradıcılıq planları ilə maraqlanır, qələm sahiblərinin sülh uğrunda mübarizə işindəki yeni tədbir və niyyətlərini soruşurlar.

Daşkənd konfransı adi ədəbi məclis deyildir, çox mühüm beynəlmiləl bir konfransdır. Bunu hər bir iştirakçının simasında görmək olar. Yazıçılar buraya ən böyük, məsul, müqəddəs bir məqsəd üçün – müharibə təhlükəsinə qarşı özlərini, qələmlərini səfərbər etmək, bu ülvi məqsəd yolunda qələm yoldaşları, həmkarlarilə əl-ələ vermək, sıx əməkdaşlıq etmək üçün toplaşmışlar.

Ayın yeddisində Nəvai teatrının binasında Asiya-Afrika ölkələri yazıçılarının əsərlərini nümayiş etdirən zəngin sərgi açıldı. İki qitənin kitab mədəniyyəti, nəşriyyat qüdrəti və qələm sahiblərinin hər şeydən vacib olan əməkdaşlığının nümunələri, dildən-dilə tərcümə olunan gözəl əsərlərin zaman, məkan hüdudu bilməyən ümumi mənəvi qüvvəti sərgiyə gələnləri sevindirir. Onlar kitablara müharibə təhlükəsinə qarşı duran ən güclü və ən layaqətli silah kimi baxırlar. Daşkənd konfransına hazırlıq aparan Sovet Komitəsinin sədri Şərəf Rəşidov yoldaş alqışlar altında konfransı açaraq bildirdi ki, burada 30 ölkənin nümayəndəsi, 20 ölkədən isə qonaq gəlmiş yazıçılar iştirak edir.

Bu tarixi konfransda birinci dəfədir ki, iki böyük qitə sənətkarları toplaşıb görüşür, əməkdaşlıq, sıxı əlaqə üçün yeni yollar axtarırlar. Asiya və Afrikada milyard yarım əhali - bəşəriyyətin 2/3 hissəsi yaşayır. Qələm sahiblərimiz məğlubedilməz bir qüvvəyə əsaslanırlar.

Konfransda dünyanın məşhur yazıçıları – Mao-Dun (Çin), Mülk Rac Anand (Hindistan), Zeyya (Birma), İto Sey (Yaponiya), Qul Paça Ülfət (Əfqanıstan), Kularb (Tayland), Əli Əhməd Bəkasir (Birləşmiş Ərəb Respublikası), Nazim Hikmət (Türkiyə),





Afrika ədiblərindən Samben Osman, Sutərlənd və başqaları iştirak edirlər.

Xruşşov yoldaşın konfransa göndərdiyi təbriki nümayəndələr sevinc hissilə dinləyib uzun zaman alqışladılar. Mühiddinov yoldaş Xruşşov yoldaşın təbrikini oxuyandan, nümayəndələri təbrik edəndən sonra konfransın və yazıçıların indiki beynəlxalq şəraitdə mühüm və məsul vəzifələrindən danışdı, konfrans iştirakçılarına müvəffəqiyyətlər arzu etdi.

Sovet yazıçısı Boris Polevoy konfransa göndərilən təbrikləri oxudu. Sonra Hindistandan gəlmiş qızlar öz milli adətləri üzrə əllərində gülabdan səhnəyə çıxdılar. Onlar rəyasət heyətinin qarşısına gülab səpərək konfran rəhbərliyini təbrik etdilər...

* * *

Afrika nümayəndəsi imperialistlərin Afrika xalqlarına əsrlər boyu etdiyi zülmdən danışaraq insanı dəhşətə gətirən səhnələr və faktlar göstərdi, yer üzünün bu böyük qitəsində müstəmləkəçilər ağalıq etdiyi müddətdə mədəniyyət dağılmış, xalq talan olmuş, avamlıq hökm sürmüşdür. Qara Afrikada minə yaxın dil vardır. Əhalinin 80 faizi savadsızıdır.

Belə şəraitdə mədəni, ədəbi iş tapmaq olduqca çətindir. Müstəmləkəçilər bu fürsətdən istifadə edib həmişə öz dillərini "mədəniyyət" dili kimi qələmə verməyə çalışmışlar. Bu dil isə Afrika xalqlarını çapıb talamaq üçün müstəmləkəçilərin əlində silah olmuşdur. Müstəmləkəçi həmin torpaqlardan öz xoşuna çıxmaq istəmir. Ancaq biz qüvvələrimizi möhkəm birləşdirsək onları qova bilərik. Afrika torpaqlarından imperializm xəstəliyinin kökünü kəsmək lazımdır! Buna görə də Afrika yazıçısı həm yazıçı, həm həkim, həm də əskər olmalıdır! Çinin yazıçılar təşkilatının sədri Mao-Dun öz məzmunlu nitqini aşağıdakı sözlərlə bitirdi:

– İmperialist müstəmləkəçilər Asiya və Afrika xalqlarını istismar altında saxlamaq kimi rəzil niyyətlərindən hələ əl çəkmək istəmirlər, müstəmləkəçilərin "mədəniyyəti" hələ kökündən çıxarılıb

atılmamışdır. Biz Asiya və Afrika ölkələri xalqları, həmrəyliyimizi gücləndirmək yolu ilə müstəmləkəçiliyin eybəcər kölgəsini tamamilə üstümüzdən siləcək və Asiya, Afrikanın bütün xalqları arasında əbədi və pozulmaz əməkdaşlığın əsasını qoyacağıq.

Livan şairi Yusif Səid özünün "Çörək yapan" şeirində çox yaxşı demişdir.

*A dostlar, incidirlər, əməkçi milyonları,*
*Mətin birləşməliyik, qardaşlarım indi biz.*
*Səsləyək gələcəyə hər eli, hər diyarı,*
*Getsin çiyin-çiyinə polad dəstələrimiz!*

Ərəb qızı Aişə ingilis, amerikan və fransız müstəmləkəçilərinin ərəb xalqlarına qarşı apardıqları təcavüzkar, vicdansız, ədalətsiz siyasətdən danışdı və ərəb xalqının öz mübarizə əzmində möhkəm olduğunu, sülh və səadət yolunda bütün mütərəqqi ölkələrlə əlbir çalışdığını söylədi.

Daşkənd konfransı, illərdən bəri sinəsi söz ilə dolu olan, öz yaxın dost və məsləkdaşları ilə görüşmək, dilləşmək imkanı tapmış alovlu natiqlərin xitabət kürsüsünə çevrilmişdir. Bu kürsüdən xalqların sülh, birlik, əməkdaşlıq arzuları ifadə olunur...

*Daşkənd*
*Ədəbiyyat və incəsənət. 1958. 18 oktyabr*

## Rədd olsun nifaq!

*Asiya və Afrika yazıçılarının Daşkənd konfransının yekunlarına dair nümayəndənin qeydləri*

Oktyabrın 7-dən Daşkənddə başlamış Asiya və Afrika ölkələri yazıçılarının konfransı həmin ayın 13-də öz işini qurtardı. Daşkənd konfransı öz əhəmiyyəti, miqyası, səviyyəsi və işgüzarlığı etibarilə zəmanəmizin ən yüksək beynəlxalq mədəni hadisələrindən biri sayılmalıdır. Bu konfransda qəbul edilən Müraciətnamə coğrafi hüdudları vurub aşan, aləmə səs salan mühüm tarixi bir





sənəddir. Buraya toplaşan yazıçılar yalnız öz qitələrinin sənətkarları adından deyil, bəşəriyyətin üçdə iki hissəsini təşkil edən, milyard yarımlıq nüfuzu olan xalqlar adından danışırdılar.

Konfransın bir səslə qəbul etdiyi bütün dünya yazıçılarına Müraciətdə deyilir: "Biz Asiya və Afrika ölkələri yazıçıları, Qərb ölkələri də daxil olmaqla, dünyanın bütün ölkələri ilə mədəni əlaqəni möhkəmləndirmək istəyirik; mədəniyyəti ali və alçaq mədəniyyət deyə iki yerə ayırmağı, Şərq və Qərb mədəniyyətinə bölməyi təqdir edirik. Buna görə də biz dünya mədəniyyəti xəzinəsini mühafizə etmək məqsədilə bütün mədəniyyətlərin qarşılıqlı əlaqəsini möhkəmləndirəcəyik. Biz imperialistlərin və müstəmləkəçilərin aramıza nifaq salmaq və sıralarımızı pozmaq ciddi-cəhdlərini rədd edirik; öz birliyimizi, ümumi idealımızı və ümumi arzumuzu möhkəm müdafiə edəcəyik. Biz sizi, bütün dünya yazıçılarını, ayrı-ayrı adamlara, habelə bütün xalqlara qarşı çevrilən zülmə, ədalətsizliyə, müstəmləkəçiliyə və istismara qarşı öz səsimizi ucaltmağa çağırırıq.

Biz yazıçılar xalqların vicdanıyıq. Biz təkcə müasirlərimizin deyil, eyni zamanda gələcək nəsillərin talei üçün məsuliyyət daşıyırıq. Buna görə də sizi, cəhalət və düşmənçilik aşılayan ədəbiyyat əleyhinə, adamların şüurunu zəhərləyən, uşaqlarımızın əxlaqını pozan ədəbiyyat əleyhinə mübarizəyə çağırırıq. Sizi, bizimlə birlikdə həqiqət, gözəllik, azadlıq ardınca irəliyə doğru getməyə çağırırıq!"

Konfrans öz işini yalnız nəzəri çağırışla bitirmədi; çox böyük əhəmiyyəti olan Asiya və Afrika ölkələri yazıçılarının daimi bürosunu yaratdı; bu büronun hərəkət proqramını, iş yerini müəyyən etdi; Birləşmiş Ərəb Respublikası nümayəndələrinin təklifinə səs verərək 1960-cı ildə Qahirədə toplanmağı qərara aldı...

Konfransın bütün nümayəndələri və qonaqları öz müqəddəs işlərinin qələbəsinə möhkəm yəqinlik ilə, ümumi sülh və bəşər səadəti uğrunda mübarizə alovu və ilhamı ilə bir-birindən ayrıldılar. Onların ayrılığı yenidən daha xoş və sevincli xəbərlərlə təkrar görüşə hazırlaşan əbədi dostların ayrılığı, bütün fəaliyyəti, müba-

rizəsi, idealı ilə bağlı olduğu böyük, ümumi, birləşdirici bir mərkəzin səfərbər mədəni əsgərlərinin ayrılığı idi. Sanki bu adamlar bir neçə günlük konfransda deyil, uzun illər boyu əlbir, dilbir, ürəkbir çalışan izdihamlı, mehriban bir kollektivdən ayrılırdılar: "Dostluğumuz möhkəm, əbədi olacaqdır!".

Bu qətiyyətli, səmimi hökmü çoxlarının dilindən eşitmək olardı.

Daşkənd gözəl şəhərdir. Payız fəsli olsa da, bu milyonlu şəhər yaşıl donu, günəşli göyləri, çağlayan axar suları, əlvan çiçəklikləri, tac kimi dik duran, pardaxlanan qızıl güllərilə baharı andırırdı.

Bütün mərkəz küçələrin şeir, şüar və çil-çıraqla bəzəndiyini, oğlanların, qızların əldə çiçək, sıra ilə dayanıb qonaqlara xoş gəldin etdiyini, izdihamdan qopan alqış səslərini, kitab sərgilərini, sənət muzeylərini, mahnı sədalarını, musiqi dəstələrini də buraya əlavə etsək şəhərin doğrudan da nadir bir bahar bayramını necə şənliklə pişvaza çıxdığı təsəvvür olunar.

Qardaş Sovet Özbəkistanının paytaxtı həyəcanlı, sevincli, izdihamlı günlər keçirirdi. Demək olar ki, bütün əhali, şahidi olduğu beynəlxalq tədbirin əhəmiyyət və məsuliyyətini dərk etdiyi üçün konfransın işini müstəsna bir diqqətlə və həyəcanla izləyirdi. Qəzet köşklərinin, iclas salonlarının, radio-televiziya cihazlarının, məlumat bürolarının qarşısında heç bir zaman bu qədər izdiham olmamışdı. Bu maraq və həyəcan təbii idi. Çünki qocaman şəhərdə çox mühüm bir yığıncaq keçirilirdi.

## I

Konfransa 50 ölkəni təmsil edən yüzlərlə nümayəndə toplanmışdı. Beynəlxalq vəziyyətin belə gərgin və məsul bir vaxtında onlar öz ölkələrinin ədəbiyyat, mədəniyyət adamlarının vəzifələrini aydın müəyyən etməli idilər; mütərəqqi ədəbiyyatın və mədəniyyətin güclü, haqq səsini qütbdən-qütbə bütün dünyaya elan etməli idilər; iki böyük qitədə ədəbiyyat, mədəniyyət xadimlərinin imperializmə, müstəmləkəçiliyə dərin nifrətini, sülh və asayiş,





xalqlar arasında möhkəm dostluq, qardaşlıq, əməkdaşlıq iradəsini nümayiş etdirməliydilər.

Məhz bu ülvi və müqəddəs məqsədinə görə Daşkənd konfransını bütün dünyanın qabaqcıl dövlət, mədəniyyət, elm, sənət adamları ürəkdən təbrik edirdilər.

Xruşşov yoldaşın təbriki, Çin, Hindistan, Birma, Birləşmiş Ərəb Respublikası, Koreya, Seylon və başqa ölkələrin hökumət rəhbərlərinin, sülhü qorumaq, möhkəmlətmək uğrunda mübarizə aparan beynəlxalq təşkilatların təbrikləri və xoş arzuları konfrans nümayəndələrinin əzmini və ilhamını alovlandırırdı.

Xruşşov yoldaşın teleqramında deyilirdi:

"Konfransda müxtəlif qitələrin yazıçılarının görüşməsi bütün dünya ədəbiyyatının müvəffəqiyyətlə inkişaf etməsinə, Şərq və Qərb mədəniyyətləri arasında qarşılıqlı əlaqələrin genişlənib möhkəmlənməsinə səbəb olacaqdır".

İki böyük qitə sənətkarlarının həmrəyliyi, həmfikir, həmməslək çalışmaq əzmi xüsusən bir məsələdə, müstəmləkəçiliyə və müstəmləkəçilərə münasibət məsələsində daha parlaq nümayiş etdirilirdi. Həm azad, müstəqil ölkələrin, həm imperializm boyunduruğundan yenicə azad olmuş, həm də hələ bu mənfur əsarətdən xilas olmaq uğrunda qızğın çarpışmalar aparmaqda olan ölkələrin nümayəndələri bu məsələyə eyni cəbhədən və eyni qətiyyətlə yanaşırdılar. Məşhur Çin yazıçısı, Çin nümayəndə heyətinin başçısı Mao Dun mənfur müstəmləkə zülmünü ifşa edərək deyirdi: "... XVI əsrdən etibarən, müstəmləkəçiliyin iblis kölgəsi Şərqə doğru hərəkət edəndən sonra bizim ölkələrimiz arasında dinc və dostanə mədəni əlaqələr pozulmağa başladı. Müstəmləkəçilik özü ilə bərabər mədəni təcavüz gətirmişdir. XVIII əsrdən bizim ölkələrimizin bir çoxu "mədəniyyət" adlanan yad təsirlərə məruz qalmışdır. Bizim öz ədəbi sərvətimiz dünya ədəbiyyatı xəzinəsindən qovulmuşdur. Müstəmləkəçilər həmişə çalışırlar ki, soyub taladıqları xalqlar arasındakı birliyi, mədəni əlaqələri pozsunlar. Buna görə də bizim bir-birimizi tərcümə edib tanımağımız hər cür maniələrə rast gəlib; nəticədə belə olub ki, bu konfransda biz yeni dostlar

kimi bir-birimizin ədəbiyyat tarixi ilə qarşılıqlı tanışlıq əldə etməli olmuşuq".

Afrikadan gəlmiş Kamerun yazıçısı Benjamen Matip avropalı müstəmləkəçi ağaların Afrikada törətdikləri vəhşiliklərin dəhşətli mənzərəsini əks etdirən qızğın nitqi ilə hamının diqqətini cəlb etdi.

Bayquş xərabəlik, qurd dumanlıq sevər. Qərbin yırtıcı hakimləri, canavar hərisliyi ilə mühitləri, dağları, səhraları aşaraq uzaq Afrikanın dinc, zəhmətkeş, silahsız əhalisinə əsrlər boyu əsarət, nifaq, dilənçilik, təhqir, təcavüz gətirmişlər; həm də bu çirkin əməlləri zahiri parıltılı dona bürüyüb gətirmişlər. Onlar bu ölkələrdə ədavət toxumu səpmiş, boş xəyalatı, göylərə yalvarmağı təhrik etmiş, xalqların "öz əli ilə yaradılan maddi nemətləri mənimsəmiş, bir qarın çörəyi isə onlara minnətlə vermişlər. Afrikanın ağ gün həsrəti ilə yanan nümayəndəsi imperializm zülmünün cəhənnəm dəhşətlərinə qarşı bütün mütərəqqi bəşəriyyəti köməyə, səfərbərliyə çağırırdı. O, öz vətənində mübarizə aparmaq əzmində olan yazıçının nələr ilə qarşılaşdığını, nə qədər böyük qəhrəmanlıq göstərməli olduğunu söyləyirdi: "Öz əsərləri-lə xalqa xidmət etmək istəyən Afrika yazıçısı Qaralar Afrikasının düşmüş olduğu ağır, spesifik şərait ilə qarşılaşır: cəhalət, savadsızlıq... Əhalinin 80 faizi savad nə olduğunu bilmir. Zəncilər Afrikasında 1.000-dən artıq dil var. Bu dillərin çoxunun hələ də yazısı yoxdur. Buna görə də Afrika dillərində yazılan əsərin qiyməti son dərəcə azalır. Afrika yazıçısı, rəsmi dil kimi qəbul etdirilən hakimlərin dilində yazmağa məcbur olur. Müstəmləkəçilər hakimiyyətinin pəncəsi Afrikanın bütün həyatında hiss olunur. İmperializm, soyulan xalqın mədəniyyətinin boğulması deməkdir. Müstəmləkəçilər öz dilləri ilə bərabər öz mədəniyyətlərini, təfəkkür tərzlərini, burjua varlığının başqa əlamətlərini də burada yeridirlər. İqtisadi, siyasi və ictimai təzyiq Afrika yazıçısını qəti mübarizəyə çağırır... Afrika yazıçısı öz xalqını müalicə etməlidir. O, müstəmləkəçiliyin xərçəng xəstəliyindən müalicə üçün öz xalqına əlac nüsxəsi yazmalıdır. O, həkimdir, eyni zamanda sal-





datdır; istiqlaliyyət yolunda mübarizə saldatıdır. Afrikanın və Asiyanın mədəni irsi müstəmləkə təhqiri şəraitində də öz varlığını saxlaya bilmiş bir qüvvədir. Bu qüvvə indi ayağa qalxır. Uzun illərin tozundan, zülmətindən və təhqirlərindən silkinib bütün əzəmətilə ayağa qalxır ki, sərbəstlik, qarşılıqlı hörmət şəraitində öz milli mədəniyyətini inkişaf etdirsin".

Afrikadan gəlmiş başqa bir nümayəndə Albera Tevorecra bütün dünya yazıçılarını müstəmləkə zülmünə qarşı əlbir mübarizəyə çağırıb deyirdi: "Öz balasına bir parça çörək gətirmək üçün neçə kilometr yolu piyada gedən qadınlar... Qızmar Afrika günəşi altında çalışıb-çapalayan beş yaşlı uşaqlar... Mədəniyyəti əzməkdə olan qəddar hakimiyyət... Bütün bunlara görə mən xahiş edirəm ki, dünyanın yarısını təşkil edən Asiya və Afrikanın yazıçıları heç olmasa bir an düşünsünlər, iqtisadi təzyiqə, mədəni təzyiqə qəti "yox!" desinlər".

Məşhur Çin tənqidcisi, Çin Yazıçıları İttifaqı sədrinin müavini Çjou Yanın konfrans gündəliyinin ikinci bəndinə "Asiya və Afrika xalqlarının mədəniyyətləri və onların Qərb mədəniyyətilə əlaqəsi" məsələsinə həsr olunmuş məzmunlu məruzəsi çox maraqla qarşılandı. Çjou Yan imperialist müstəmləkəçilərin qədim zəngin Çin, hind, ərəb mədəniyyətini necə, nə kimi hiylə və təcavüzlərlə sıxışdırıb öldürmək istədiklərini aydın faktlarla göstərdi. O, göstərdi ki, müasir Amerika imperialistləri ayaq basdıqları yerlərdə "mədəniyyət" dedikləri düşkünlüyü, əxlaqsızlığı, vəhşiliyi yaymaq istəyirlər. O, dedi: "Çin xalqı həmişə başqa milli mədəniyyətlərin nailiyyətinə hörmətlə yanaşmış və yanaşır. Biz imperializm təcavüzünə, feodal meyllərinə qarşı mübarizə aparır, eyni zamanda xarici ölkələrdəki ən yaxşı mədəni nailiyyətləri mənimsəyirik. Biz başqa xalqların ən yaxşı xüsusiyyətlərini, birinci növbədə ən qabaqcıl sosialist ölkəsi olan Sovet İttifaqının qabaqcıl təcrübəsini öyrənməyə ürək açıqlığı ilə yanaşırıq"

Birləşmiş Ərəb Respublikasının nümayəndəsi Məhəmməd Xələfulla Əhməd iftixar hissilə deyirdi:

"Ərəb ölkələrində milli azadlıq və milli birlik uğrunda aparı-

lan mübarizənin müvəffəqiyyəti sayəsində ərəb mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə öz hədiyyəsini vermək imkanını yenidən əldə etmişdir".

Amerikanın ictimai xadimi, qocaman alim Uilyam Dubuanı nümayəndələr böyük hörmətlə qarşıladılar. Konfransdakıların sürəkli alqışları altında Dubua deyirdi: "Arvadım ilə mən Amerikadan gəlmişik, ancaq Amerikanı təmsil etmirik. Biz qaralar Amerikasını təmsil edirik və bununla fəxr edirik!...".

Dubua üç yüz ildən bəri zəncilərin öz hüquqları uğrunda apardıqları qəhrəmancasına mübarizədən danışaraq böyük inam və ümidlə irəliyə baxan bir ziyalı kimi dedi: – Biz gələcəkdə də Afrika mənşəli amerikalıların Amerika Birləşmiş Ştatlarında tam hüquq bərabərliyi uğrunda mübarizəsini davam etdirəcəyik!"

İndoneziya nümayəndəsi İntoyo bu fikirdədir ki, müstəmləkə şəraitində yaranan əsərlərdə əsl insan öz mövqeini tutmamışdır. İndi, Daşkənddə yeni nəhəng qüvvə – Asiya va Afrika ölkələri yazıçılarının birliyi yarandı. Bu qüvvə yeni renosansa, qədim mədəniyyətlərimizin bərpası, sülh və səadət işinə böyük təkan verəcəkdir.

Pakistan nümayəndəsi Calandxari Hafiz bütün dünya yazıçılarına müraciət edərək, onları sülh uğrunda birliyə çağırdı:

Yazıçıların birliyilə müharibə cəhdlərini əzməliyik!

Türk xalqının məşhur inqilabçı şairi Nazim Hikmət Asiya və Afrika xalqlarının qədimdən bəri Qərbə etdikləri mədəni təsirdən danışaraq dedi: "Bugünkü Qərb musiqisində, rəsmində, heykəltəraşlığında, teatrında, memarlığında Asiya və Afrika xalqlarının təsiri çox aydın görünür".

Demək olar ki, bütün asılı və yarımasılı ölkələrdə, kapital hakimiyyətinə tabe ölkələrdə şahidi olduğumuz zülm və təcavüz, milli mədəniyyət və ədəbiyyaların sıxıntısı, müharibə hazırlığı üçün xalqların soyulması, aldadılması Daşkənd konfransını ən çox düşündürən bir məsələ oldu.

Sovet numayəndələrindən N.Tixonovun, Ş.Rəşidovun, H.Mehdinin, R.Həmzətovun nitqlərində sovet şəraitində, sosializm quruluşunda milli mədəniyyətlərin və milli ədəbiyyatların





necə nəhəng addımlarla inkişaf edib çiçəkləndiyinin, xalq həyatını necə əks etdirdiyinin fərəhli mənzərəsi verildi.

Sovet ədəbiyyatının xarakter qəhrəmanı ən böyük bəşəri ideallar uğrunda vuruşan, qalib gələn insan, yeni dünya quran insan yüksək mənəvi keyfiyyətləri və qüdrəti ilə zehinlərə, şüurlara təsir edən güclü mənəvi faktor olmuşdur. Sovet ədəbiyyatı insana hörmət və məhəbbət təbliğ edən əsl dostluq, qardaşlıq ədəbiyyatıdır. Bu ədəbiyyat bütün dünyada sülhün, asayişin, yanaşı əməkdaşlığın yorulmaz təbliğatçısı, tərənnümçüsü kimi tanınmışdır.

Mürtəce burjua mətbuatı həmişə olduğu kimi, Daşkənd konfransı vaxtında da quduz əsəbilik əhval-ruhiyyəsilə yaşayırdı. Asiya və Afrika sənətkarlarının birləşməsi, dostluğu imperialist ağaların isti aşına soyuq su tökürdü.

"Parçala hökm sür!" - bu talan hökmü, qatil düsturu indi hər yerdə bütün məzlum xalqlar arasında ifşa olunmuşdur. Afrikanın uzaq guşələrində də müstəmləkə polislərinin çirkin simasında hamı, böyükdən kiçiyə qədər hər kəs bu mənfur düsturu oxuyur, bu düstur onların qəlbindəki kini, nifrəti daha da alovlandırır. Buna görə də, Asiya, Afrika xalqlarının və bütün dünyada tərəqqipərvər insanların Daşkənd konfransına böyük rəğbət və hörmətini təsadüfi yox, qanuni saymaq lazımdır. Əsrlərlə əsarət, məhrumiyyət görmüş xalqların yazıçılarında əmələ gələn məslək birliyi, əmək birliyi, ideal birliyi kaftarlaşmış imperializm vəhşisinə vurulan ən ağır zərbədir. Bu zərbəni burjua ideoloqları duymamış deyillər. Onlar bunu duymuşlar və quduzlaşmışlar. İrqçilər öz avam, məhdud, çürük mühakimələrindən əl çəkmək istəmirlər. Onlar hələ də Afrika xalqlarını qul vəziyyətində saxlamaq istəyirlər. Belə cahil və canavar ehtiraslı bir irqçinin simasını keçən il məşhur Çexoslovakiya səyyahları İ.Qanzelka və M.Zikmund yaxşı ifşa etmişlər. Burjua irqçiləri belə düşünürlər:

"Əgər bizdə, burada (Afrikada - **M. C.**) oxumuş zəncilər olsa, nəticəsi nə olar!... Buna biz qətiyyən yol verə bilmərik! Qoy onlar şaxtalarda, karxanalarda işləsinlər. Ev işlərinə də kömək edə bilər-

lər. Ancaq onlara təhsil vermək olmaz ki, gəlib məsul mövqelər tuta bilsinlər. Zəncilər bizim maarifimizin, hətta bir zərrəsini əldə ətsələr, ağların əlini taxtaya bağlayarlar. Onlar bizləri – ağları, öz mövqelərindən, bəli, bəli, öz mövqelərindən sıxışdırarlar. Bu, bərabər seçki hüququ və vətəndaşlıq hüquqları tələbi, bizim zərərimizə olaraq, zəncilərin maddi, mədəni səviyyəsinin yüksəldilməsi demək olardı. Bunları hətta düşünmək dəhşətlidir!..".

İsveçrə səyyahı Paul Tommen Afrika həyatından çəkdiyi sənədli kino filminin reklamında görün nəyi gözə soxur: "Afrikanın sərtliyi... ibtidai, lüt, heç bir libas tanımayan zənci qəbilələrinin əxlaqı, adətləri... sadə, sadəlövh, hər şeyə inanan, heyvan kimi ibtidai xalqlar...".

Quldarlıq əxlaqı ilə yaşayan irqçilər, əlbəttə, Afrika xalqlarını belə görmək istərdilər. Onlar milyonlarla insanların səfalət və fəlakətindən həm ləzzət alır, həm də qazanc götürürlər. Kapitalistə daha nə lazımdır ki?!

Amma keçmiş ola!

Əsrimizin ikinci yarısı müstəmləkəçilərə də, onların düşüncə və əxlaq tərzinə də qəbir qazmışdır. Asiya və Afrikada avamlıq, mütilik axtaran ağalar, indi qəflətdən oyanan, mübarizəyə qalxan xalqların polad birliyinə rast gəlirlər.

Əlcəzair xalqlarının qəhrəmancasına azadlıq döyüşləri, ərəb dünyasının birlik və istiqlaliyyət mübarizəsi, başqa asılı ölkələrdəki xalq hərəkatı müstəmləkəçiliyin yer üzündən silinməsi zəruriyyətini sürətləndirmişdir. Əsrimiz bəşəriyyətə yeni hava, yeni həyat gətirir, əmək əsarəti yıxır.

Sovet İttifaqı kimi qüdrətli bir sosialist dövlətinin varlığı, xalq demokratiyası ölkələrinin sosializm yolunda sürətlə inkişafı bütün dünyada siyasi, ictimai qüvvələrin nisbətini kökündən dəyişmişdir. İmperializm və müstəmləkə sistemi çürüyüb işdən düşür. Can verməkdə olan bu kaftarı heç bir qüvvə, heç bir vasitə, heç bir texnika, heç bir bomba ayağa qaldıra bilməyəcəkdir.

Qərbin gözü qızmış həris hakimləri bunu dərk etməsələr, aqibətləri çox yaman olacaqdır. Şair gözəl demişdir:





*Tufanların qoynunda da çırağımız sönməyəcək,*
*Öz yayından çıxan oxlar bir də geri dönməyəcək.*
*Amerika, hər qərarı, hökmü verən zaman olur,*
*Bil ki, qullar dünyasının intiqamı yaman olur.*

Bəzi ölkələrdə hökumət başçılarının müstəbidliyi nəticəsində mütərəqqi yazıçılar konfransa gəlməyə icazə ala bilməmişdilər. Belə yazıçıların təəssüflə dolu teleqramlarını nümayəndələr həyəcan və alqışla qarşılayır, öz qələm və məslək yoldaşlarının dərdinə şərik olur: - "Bizi nə zindan, nə sərhəd, nə məsafə ayıra bilər" - deyirdilər.

## II

Konfrans nümayəndələri beş bölməyə ayrılmışdılar. Bu bölmələrdə Asiya və Afrika ölkələri yazıçıları arasında dostluq və rabitənin inkişafı və möhkəmləndirilməsi, uşaq ədəbiyyatı və onun tərbiyəvi əhəmiyyəti, qadınların ədəbiyyat sahəsində fəaliyyəti, Asiya və Afrika ölkələrində dramaturgiyanın inkişafı, radio, kino və teatrın ədəbiyyatla əlaqəsi məsələləri müzakirə edildi.

Bölmələrin yığıncaqlarında nümayəndələrin fəallığı, qoyulan məsələlərə orijinal, yaradıcı münasibət, təşəbbüskarlıq, yazıçılar birliyinin gələcəyinə və qələbəsinə möhkəm inam müzakirələrin ən xarakter cəhəti idi. Yazıçılar daimi bir büronun yaranması tədbirinə nail olandan sonra daha yeni təkliflər irəli sürürdülər.

Amerikanların biədəb, pozğun, düşkün ədəbiyyat nümunələrini Asiya və Afrikada yaymaq cəhdlərinə qarşı tədbir görülməsi, hansı ölkədə olursa-olsun hər bir yazıçının yaradıcılıq və vətəndaşlıq hüququnun tam azadlığının təmin edilməsi, gündəlik və mübariz ədəbi mətbuat orqanının yaranması, ölkələr arasında ədəbi tərcümə bürosunun təşkili, yaxşı əsərlər üçün illik mükafatların müəyyən edilməsi, yoxsul yazıçılara kömək fondu düzəldilməsi, yerli dillərdə ədəbiyyat nəşrinin genişləndirilməsi, Asiya və Afrika ölkələrinin həyatını və mədəniyyətini ətraflı və düzgün işıqlan-

dıran çoxcildli ensiklopediyanın nəşri, nümayəndələrin irəli sürdükləri sair bu kimi gözəl təkliflər daimi büronun müzakirə və sərəncamına verildi.

Şübhəsiz ki, büro bu təkliflərin həyata keçirilməsi üçün lazımi tədbirlər görəcəkdir.

Daşkənd konfransı köhnə və zərərli bir əhval-ruhiyyəni – Asiya və Afrika xalqlarının mədəniyyətinə və ədəbiyyatına etinasızlıq əhval-ruhiyyəsini vurub dağıtdı. Konfrans isbat etdi ki, bu uydurma fitnəkar imperializm baxışları qalıqlarından, mədəniyyətləri parçalayıb kəsərdən salmaq cəhdindən başqa bir şey deyildir. Daşkənd konfransı nəinki Asiya və Afrika, hətta bütün dünya yazıçıları arasında iş və hərəkət birliyi üçün, ümumdünya konqresi çağırılması üçün geniş yol açdı. Konfrans Afrika və Asiya xalqlarının qədim və müasir mədəniyyətinin, ədəbiyyatının dərindən-dərinə obyektiv, qərəzsiz, elmi surətdə tədqiq edilib öyrənilməsi zərurətini bütün kəskinliyilə qarşıya qoydu. Belə bir iş ümumdünya mədəniyyətinin, əsl bəşəri ədəbiyyatın inkişafı nöqteyi-nəzərindən, xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin daha da inkişafı, imperializm hiylələrini axıra qədər ifşa etmək nöqteyi-nəzərindən də vacib və təxirəsalınmazdır.

Rəşidov yoldaş konfransın işinə yekun vuraraq göstərdi ki, biz dostluq, əməkdaşlıq kimi böyük ideyanı iki böyük qitə xalqlarının xeyirxah, ənənəvi mədəni, ədəbi əlaqələr torpağında yaydıq. Bu torpağı ürəklərimizin hərarətilə, baxışlarımızın işığı ilə zənginləşdirdik. Şübhə etmirik ki, bizim konfransımızın təbii meyvəsi ölkələrimizin mədəniyyətinin və ədəbiyyatının gələcəkdə daha da çiçəklənməsi olacaqdır. Biz öz işimizi mübarizəmizin müvəffəqiyyətini təmin edən, mehriban, məhsuldar, ilhamlı iş kimi qiymətləndirə bilərik. Bir səslə qəbul edilən, böyük beynəlxalq əhəmiyyətli müdrik Müraciətnaməmiz buna sübutdur.

Asiya və Afrika ölkələri yazıçılarının əlbir, dilbir, həmrəy işləmələrinin, müstəmləkə zülmünə, müharibə cəhdlərinə, imperialist fitnələrinə qarşı möhkəm, vahid, mətin bir qüvvə kimi mübarizə aparmağın təməli qoyulmuşdur.





Gülləyə qarşı bədii sözü, bombaya qarşı təsirli kitabları, silahlı qüvvələrə qarşı birləşən xalqları səfərbər etmək lazımdır. XX əsr yazıçılarının məsul və müqəddəs vəzifəsini ancaq bu birlik təmin edəcəkdir. Qarşımızda ən qəddar, həm də lap kaftarlaşmış, dişi tökülmüş, taqəti tükənməkdə olan imperializm canavarı durur. Bu canavar çoxdan və bərk yaralanmışdır. Bunu yıxmaq bizim birlik əzmimizdən, qüvvələrimizin məqsədəmüvafiq, ahəngdar sərf edilməsindən asılıdır. Heç bir fitnə, heç bir hiylə, heç bir təhlükə bizi ayırmamalı, sıralarımızı sarsıda bilməməli, bizi əsl hədəfdən yayındırmamalıdır. Ərəb məsəlində çox gözəl deyilir:

“Yolunu bilən büdrəməz!”.

Bəşər səadətinə, gələcəyə, xalqın azadlığına və istiqlaliyyətinə, böyük və cahanşümul qardaşlıq ədəbiyyatı yaratmağa xidmət edən qələmlərimizi daha da itiləməli, daha möhkəm birləşməliyik! Rədd olsun nifaq! Yaşasın böyük bəşəri ideallara xidmət edən yaradıcılar birliyi!

*Kommunist. 1958. 2 noyabr*

## 1959
## Birlik və qüdrət nümayişi

Bu gün günəşli respublikamızın hər yerində – şəhər və kəndlərində, fəhlə qəsəbələrində, dəmir yollarında, gəmilərdə, əsgəri qışlalarda qeyri-adi coşqun bir həyat qaynayır. Minlər, yüz minlərlə seçici izdihamlı bir axınla seçki məntəqələrinə gələrək respublikamızın ali hakimiyyət orqanına və yerli Sovetlərə deputat seçirlər.

Zəhmətkeşlər mətin bir iradə ilə seçki qutularına yanaşaraq xalqın ləyaqətli namizədlərinə - kommunistlərlə bitərəflərin sarsılmaz xalq ittifaqına səs verirlər.

Seçki günləri bizim Vətənimizdə çox gözəl ənənəvi və ümumxalq bayramı şəklini almışdır. Bu günlərdə nəinki təkcə seçən və seçilənləri, həm də hər bir şənlik və sevincimizin yaraşığı olan gəncləri, yeniyetmələri, məktəbliləri, pionerləri bayram libasında,

bayram əhval-ruhiyyəsində deyib-gülən görmək olar. Çox zaman onların da ata-analarının əlindən tutaraq böyüklərin sevincli günlərində iştirak etməyə tələsdiklərini, əllərində gül dəstəsi, dodaqlarında təmiz, təbii saf təbəssüm, dillərində mahnı bahar quşlarına xas olan cəh-cəhlə hamını salamlamaq istədiklərini müşahidə etmək olar.

Seçki günündə böyük sovet Vətənimizin yaşadığı fərəhli, ictimai həyatı, keçirdiyi ümumxalq şənliyini xalq şairi Səməd Vurğun öz dərin mənalı şeirində nə gözəl tərənnüm etmişdir:

*El bənzəyir toy günündə bir bəzənmiş otağa,*
*Qoca bülbül, körpə bülbül ötür dodaq-dodağa.*
*Al qumaşa bəzənərək yurdumuzun qızları,*
*Bir şairin könlü kimi qarşılayır baharı!*
*Nəzər yetir yurdumuza min büsat var, cəlal var,*
*Toy paltarı geyinmişdir ağ birçəkli qarılar.*
*Azad həyat, azad şeir, azad əmək bizimdir,*
*Bu kainat nələr deyir: gülüb-demək bizimdir!*

Bu il respublikamızda Ali Sovetə və yerli Sovetlərə seçkilər çox cəhətdən əlamətdar bir şəraitdə keçir.

Bir az bundan əvvəl partiyamızın növbədənkənar XXI qurultayı – Vətənimizdə nəhəng kommunizm quruculuğunun əzəmətli proqramını verən, zəhmətkeşləri yeni mübarizə və qələbələrə ruhlandıran tarixi qurultay öz işlərini müvəffəqiyyətlə qurtarmışdır. Respublikamızın zəhmətkeşləri bütün sovet adamları ilə birlikdə indi yeddiillik planın ilk başlanğıc ili planlarının həyata keçirilməsi uğrunda yarışır, coşqun əmək həyatı yaşayır, kommunist əməyi briqadaları adı almaq uğrunda mübarizə aparır, yeni-yeni öhdəçiliklər götürürlər. Quruculuq, yaradıcılıq əzmi adamlarımızın xarakteri, mənəvi keyfiyyəti olmuşdur. İndi bizdə elə bir kollektiv yoxdur ki, partiyamızın XXI qurultayının qarşımıza qoyduğu tarixi vəzifələr uğrunda özfəaliyyət mövqeyini müəyyən etməmiş olsun.





Seçicilər xalqımızın ən ləyaqətli oğul və qızlarını deputatlığa namizəd göstərmişlər. Namizədlər arasında görkəmli dövlət xadimləri ilə yanaşı biz ən fədakar sıravi əmək adamlarını, xalq təsərrüfatımızın və sosialist mədəniyyətimizin ən qabaqcıl mübarizlərini görürük. Bu il deputatlığa namizədlər içərisində sıravi fəhlələrin, kolxozçuların, istehsalat qabaqcıllarının faizi keçən seçkilərdə olduğundan xeyli artıqdır. Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədlər icərisində Qaradağ - neft mədənləri idarəsi qazma kantorunun buruq ustası Yaşar Hacıyevi, Maştağa rayonundakı Lenin adına kolxozun sağıcısı Fatmaxanım Dostməmməd qızını, Keşlə maşınqayırma zavodunun frezerçisi Adilə Məmmədovanı, Daşkəsən dağ-mədən kambinatının ekskavatorçusu Əkbər Bayramovu, Kirovabadda tikinti trestinin bənnası Ərşad İsmayılovu və bir çox başqalarını görmək olar. Seçkilərdə azərbaycanlılar, ruslar, ermənilər, yəhudilər və başqaları vahid qardaşlıq ailəsi kimi iştirak edirlər. Sovet demokratizminin təntənəsi sayəsində bizim seçkilərdə nə milli, nə cinsi fərq, nə peşə, nə təhsil ayrı-seçkiliyi... heç bir məhdudiyyət yoxdur. Ümumi, müstəqim, bərabər, gizli seçki sistemi!

Respublikamızda yerli Sovetlərə 33 min nəfərə qədər deputat seçilir. Bunlar xalq təsərrüfatı və xalq həyatının yaradıcıları, həm də idarəedicilərıdirlər.

– Deputatımıza deyəcəyəm.

– Deputatımıza yazmışıq.

Biz bu sözləri zəhmətkeşlər arasında çox eşidə bilərik. Bizdə deputat seçicilərin və ümumən zəhmətkeşlərin ən yaxın, etibarlı adamı və həm də dostudur. Bəzən görürsən ki, öz zavod və ya idarə müdirinə danışmadığı söhbəti fəhlə, qulluqçu öz deputatına danışır. Danışır ona görə ki, möhkəm inanır. İnanır ki, deputat ona ancaq kömək edən, ancaq ona doğru yol göstərən bir yoldaşdır. Bizdə xalqın etimadını doğruldan, öz məsul, şərəfli, dövlət xadimi səviyyəsinin yüksəkliyində duran yüzlərlə deputat var ki, xalqın istəklisi, əzizidir.

Bu, tamamilə təbii və qanunidir. Xalq arasında məşhur bir

söz çox təkrar edilir: deputat xalqın xidmətçisidir! Bu doğru sözdür. Ancaq bir sözü də unutmaq olmaz ki, deputat xalqın əzizidir. Əsil həqiqi dövlət xadimindən söhbət gedirsə, doğrudan da o, xalqın əzizidir. Zəhmətkeşlər ali hakimiyyət orqanına öz vəkillərini göndərəndə ona etimad göstərməklə yanaşı çoxlu da tələblər verirlər. Xalq vəkilindən haqlı olaraq yeni böyük təşəbbüslər, yaradıcılıq, təşkilatçılıq, qüdrət, qabiliyyət gözləyir.

Deputatlarımız bu ehtiyac, tələb və arzulara qayğı ilə, diqqətlə yanaşdıqda doğrudan da ümumxalq nüfuzu və hörməti qazanırlar.

Bütün bunlara görədir ki, deputat seçkilərində seçicilərimiz hamı bir nəfər kimi, həm də böyük, müqəddəs vətəndaşlıq işi kimi iştirak edirlər. Bütün günü səs verməyin mümkün və qanuni olduğunu bilməyən vətəndaş yoxdur. Ancaq səhər seçki başlananda məntəqələr nə qədər izdihamlı olur! Nə üçün? Çünki hər kəs səsvermədə qabaqcıl kimi iştirak etmək istəyir. Xüsusən gənclər, ilk dəfə səs verənlər məntəqələrə nə qədər böyük həvəslə gəlirlər! Onlar bu vətəndaşlıq borclarının ödənilməsindən böyük mənəvi həzz duyurlar.

Burjua ölkələrində seçki oyuncağının nə kimi rüsvayçı nəticələrlə, döyüşlər, söyüşlər, hətta ölüb-öldürməklə nəticələndiyini mətbuatdan, Balzak, Hüqo, Mark Tven, Mirzə Cəlil, Sabir kimi realistlərin və müasir mütərəqqi yazıçıların əsərlərindən bilirik. Orada seçki də ümumi alım-satım, bazar, istismar, hiylə və aldatma əməliyyatının məlum bir səhifəsidir.

Sovet seçkilərində gördüyümüz ümumxalq birliyi, yüksək siyasi şüurluluq, mədəniyyət cəmiyyətimizin tərəqqi və zəkasının parlaq bir ifadəsidir. Seçicilərimiz seçki günündə öz müqəddəs vətəndaşlıq vəzifələrini ləyaqətlə yerinə yetirərək ən qabaqcıl adamları, kommunistlərlə bitərəflər ittifaqının namizədlərini öz hakimiyyət orqanlarına deputat seçməklə kommunizmin təntənəsinə, böyük gələcəyə, daha bəxtiyar həyata, xalqlar arasında sarsılmaz dostluğa, əməkdaşlığa səs verdiklərini sübut edəcəklər.

Həmişə olduğu kimi, bu gün də biz Kommunist partiyasına, əbədi sülhə səs veririk!

*Kommunist.1959. 15 mart*





## Yol üstündə

AZƏRBAYCAN incəsənət və ədəbiyyat xadimləri Moskva oxucusu və tamaşaçısı qarşısında birinci dəfə hesabat vermirlər. Bu ilki ongünlüyə biz sənətkarlarımızın ən yaxşı əsərləri ilə gedirik. İmtahan qarşısında insan özünü yığışdırır, intizar çəkir. Özünü yığışdırmaq, daha doğrusu ən nüfuzlu, ən diqqətli, ən hörmətli bir məclisə çıxarkən hər kəsin keçirdiyi əhvali-ruhiyyəni indi hamımız keçiririk. Ancaq intizar çəkməyə, artıq həyəcan keçirməyə əsas yoxdur. Əvvələn, ona görə ki, biz əliboş getmirik. Ədəbiyyatımız son dövrdə sürətlə inkişaf etmiş, bir sıra görkəmli əsərlərlə geniş miqyasda çıxış etmişdir. Azərbaycan şeiri, nəsri indi sərhəd xaricində də yayılan, oxunan, tanınan məfkurəvi bir silah olmuşdur. İkincisi, sənətkarlarımız "gənclik", "təcrübə" dövrünü çoxdan keçmiş, kamilləşmişlər. Biz indi oxucunun yalnız tərif və təqdirini yox, tənqidini də diqqətlə eşidir, öyrənirik.

Moskva oxucusu isə ən obyektiv, ən tələbkar, ən mədəni və ən qayğıkeş oxucudur. Bizim hər birimiz istər ki, Ümumittifaq imtahanında, hörmətli Moskva oxucusundan öz əsəri haqqında fikir eşitsin. Bu, gələcək işimizdə bizə çox lazım olacaqdır.

*Bakı. 1959. 13 may*

## Tarixi konfrans

*(Asiya və Afrika ölkələri yazıçılarının Daşkənd konfransının ildönümü münasibətilə konfrans iştirakçısının qeydləri)*

Keçən il bu günlər iki böyük qitə yazıçılarının nümayəndələri Daşkənd konfransına toplaşaraq xalqlar arasında dostluq və sülh uğrunda həmrəylik, birlik iradələrini nümayiş etdirdilər.

Qoca Asiyanın qocaman şəhəri dünyanın ən uzaq guşələrindən gəlmiş yüzlərlə qələm sahiblərinin ən uca və ən əzəmətli tribunasına çevrilmişdi. Dilləri, üslubları müxtəlif, hətta məslələri belə müxtəlif yazıçıları böyük bir məqsəd, yüksək bir amal birləşdirirdi. Bir-birini ilk dəfə görən, tanıyan adamlar bir neçə gün içərisində

ömürlük yoldaş, məsləkdaş kimi bir-birilə danışır, dərdləşirdilər.

Bu zaman onların simasına diqqətlə nəzər salmaq maraqlı idi. Zahirən qiyafələr çox müxtəlif, bəzən də təəccüblü idi. Burada Afrikanın uzaq, qumlu səhralarını aşıb gələnlər arasında lap nazik geyimli ayaqyalınlar, Hindistandan, Seylondan gələn yarımçılpaqlar olduğu kimi, Şimal soyuqlarından gələn qalın geyimlilər də var idi. Qiyafəcə bir-birinə oxşayan iki nümayəndə heyəti görmək çətin idi. Ancaq nümayəndələrin və qonaqların diqqəti bu zahiri aləmdə deyildi. Diqqət üçün daha maraqlı cəhət adamların düşüncəli siması, mənalı nəzərləri idi.

Hamının simasında dərin idrakı və mühüm qayğını andıran bir görkəm var idi. Hamı bir məsələni – bəşəriyyəti təhdid edən müharibə qorxusunu, imperializm fitnələrinin dəhşətini düşünürdü. Bu düşüncələrində hər kəs yalnız öz ölkəsini, öz xalqını deyil, bütün bəşəriyyəti, bəşər mədəniyyətini təmsil edirdi.

Buna görə də 650 milyon əhalini təmsil edən Çin nümayəndəsinin nitqi ilə əhalisi nisbətən xeyli az olan Dağıstanın nümayəndəsinin nitqi eyni qüvvət, eyni qüdrət, eyni məna ilə səslənirdi. Çünki bütün natiqlər bir məqsəd, bir ideal uğrunda çalışırdılar. Daşkənd konfransı öz məqsədinə dərindən-dərinə inanan, öz gələcəyinə və qələbəsinə möhkəm əmin olan mədəniyyət xadimlərinin birlik nümayişi idi. Onlar uca səslə müstəmləkəçiliyə nifrət yağdırır, irqçiliyi lənətləyir, müharibə qızışdıranları ifşa edir, ədəbiyyatı, mədəniyyəti, qələm mübarizlərini əsl humanizm uğrunda səfərbərliyə çağırırdılar.

Daşkənd konfransı Asiya və Afrika yazıçılarının konfransı idi. Ancaq mədəniyyət xadimlərinin hərəkatı lap birinci gündəncə coğrafi hüdudları vurub aşdı, bütün dünyaya səs saldı. Avropanın, Amerikanın nümayəndələri Asiya və Afrika yazıçıları ilə bu müqəddəs amal yolunda əlbir, həmrəy olduqlarını bildirirdilər. Konfransın bütün dünyada möhkəm sülh, mədəniyyət xadimləri arasında daimi dostluq münasibətləri yaratmaq haqqındakı müraciəti bütün dünyada diqqət və alqışla qarşılandı.

Konfrans yazıçıların diqqətini həm də təşkilat işinə, əməli işə





cəlb etdi. Radionun, kinonun, uşaq ədəbiyyatının, dramaturgiyanın, şərqşünaslığın vəziyyət və vəzifələri haqqında geniş fikir mübadiləsi oldu. Yazıçıları, mədəniyyət adamlarını ayıran yox, birləşdirən ənənə və xüsusiyyətlərin inkişafı diqqət mərkəzinə çəkildi.

Asiya və Afrika yazıçılarının daimi bürosu yarandı. 1960-cı ildə Qahirədə təkrar toplanmaq haqqında qərar çıxarıldı.

İndi, konfransdan bir il keçdikdən sonra dünyada, beynəlxalq aləmdə köklü, həm də fərəhli dəyişikliklər əmələ gəlmişdir.

Sovet İttifaqının elm, texnika aləmində dalbadal ecazkar nümunələr göstərməsi, Ayı və başqa planetləri fəth etmək qüdrətini nümayiş etdirməsi bəşəriyyətinin tərəqqisində yeni və yüksək bir mərhələ təşkil edir. Cürbəcür qırğın silahları ilə öyünən imperialist ağalar zor işlətmək siyasətinin puç və vaxtı keçmiş bir siyasət olduğunu dərk etməyə başlayırlar.

N.S.Xruşşov yoldaşın Amerikaya səfəri, prezident Eyzenhauer ilə görüşü və danışığı – iki böyük dövlət başçısının bəyannaməsi soyuq müharibə buzunu qırmış, xalqlar arasında sülh siyasətinin, yanaşı yaşamaq siyasətinin qələbəsinə inamı qat-qat artırmışdır. Bizim səsimizi bütün dünya indi daha yaxşı eşidir.

N.S.Xruşşov yoldaş Çin Xalq Respublikasının 10 illik təntənələrində söylədiyi nitqində demişdir: "Yeni dünya sistemi inamla irəliləyir, bahar çağı yaxşı boy atan bitkilər kimi çox sürətlə inkişaf edib güc toplayır.

Dərin və möhkəm kökləri olan çox davamlı bir ağaca nə küləklər, nə də quraqlıq kar etmədiyi kimi, yeni dünya olan sosializm dünyasının da heç bir tufan və fəlakətdən qorxusu yoxdur".

İndi Çin Xalq Respublikası kimi qüdrətli bir dövlətin Birləşmiş Millətlər Təşkilatından kənarda qalmasının ən aydın bir ədalətsizlik və həm də beynəlxalq münasibətlərdə ən mühüm bir uyğunsuzluq olduğunu düşmənlər də təsdiq edirlər. Günəşi ancaq yarasalar görmək istəməzlər. Bəşəriyyətin dörddə birini təşkil edən, sosializm yolunda sürətlə irəliləyən bir dövləti ancaq dərrakədən məhrum imperialist siyasətçiləri görmək istəməzlər. Bəşəriyyət isə Çin xalqının tərəqqi və inkişafını alqışlarla qarşılayır.

Daşkənd ruhunun beynəlxalq münasibətlərdə, mədəniyyət, ədəbiyyat xadimlərin arasında yaşayıb yüksəldiyi bir zamanda biz gələcək vəzifələrimizi də hesaba almalı və onların uğrunda mübarizə aparmalıyıq.

İndi dünyada qüvvələrin tənasübü tamam dəyişmişdir. Şərqə köhnə baxışlar arxiv malı olmuşdur. Biz gənc nəslə Şekspiri, Danteni, Hayneni, Mark Tveni, Qərbin başqa böyük sənətkarlarını öyrədirik. Bunlarla yanaşı, biz qoca Şərqin dahilərini: Firdovsini, Nizamini, Rudəkini, Əbülülanı, Taqoru və başqalarını da ətraflı öyrədirik. Xalqların, zəhmətkeşlərin, sülhün, səadətin mənafeyinə xidmət edən xadimlər haradan olur olsun, nə dildə yazır yazsın, bizim əzizimizdir. Biz bunların qüvvələrini birləşdirməli, bu birliklə də mənfur müstəmləkəçiliyə, irqçiliyə, müharibələrə qarşı çıxmalıyıq! Yaşasın kainatı fəth edən bəşər zəkası!

Yox olsun zülmətlər və qara buludlar!

*Kommunist. 1959. 7 oktyabr*

## Qurtuluş bayramı

BÖYÜK Oktaybr inqilabının qırx iki illiyini yalnız sovet adamları yox, dünyanın bütün zəhmətkeşləri, bütün mütərəqqi görüşlü adamları bayram edirlər. Bu da tamamilə təbii və qanunidir.

Tarixin min illər boyu yaşayıb gəldiyi dövrlərdə çox böyük hadisələr, dəyişmələr, inqilablar olmuşdur. Ancaq Oktyabr inqilabı qədər zəngin məzmunlu, bəşəriyyət taleyini həll edən, böyük gələcəyə geniş və aydın yol açan, ictimai inkişafı sürətləndirən bir hadisə olmamışdır. Oktyabr inqilabı dünyada birinci dəfə olaraq insanın insan tərəfindən istismarına son qoydu. Zəhmətin şöhrətini və təntənəsini yaratdı. Milli və ictimai zülmün bütün formalarını aradan qaldırdı. Bu inqilab cəmiyyətdə elə bir dostluq, qardaşlıq, elə bir əsl insanlıq münasibətləri yaratdı ki, keçmişin bütün əqilli, zəkalı adamları da bunu təsəvvürə gətirə bilməzdilər. Bu inqilabın qələbə bayrağı altında yaşayan insanlar yer üzündə məğrur səslənməyə, kainatı yenidən qurmağa başladılar.





Əsrlər boyu insanları feodal, kapital təzyiqi altında yaşamağa məcbur edən istismarçı quruluşlar bəşəriyyətə gətirdiyi bütün qadalardan, bəlalardan başqa bir də insan zehni və zəkasının qüdrətini buxovlamışdı, tərəqqi imkanlarından məhrum etmişdi, işıqlı qüvvələri qatı bir zülmət məngənəsində sıxışdırmışdı. Oktyabr inqilabı, zülm və zorakilik münasibətlərini kökündən qazıyıb atmaqla, yer üzündə insanın sərbəst yaşaması, nəfəs alması, yaradıcılıq enerjisi və qabiliyyətlərinin çiçəklənməsi, inkişaf etməsi, tez bir zamanda böyük möcüzələr göstərməsi üçün şərait yaratdı.

Oktyabr inqilabı, insanın hər şeydən əvvəl özünü-özünə tanıtdı. Onun yaradıcı qüdrətinin böyük imkanlara malik olduğunu aşkar etdi. İndi dünyada sağlam düşüncəyə malik olan elə bir adam tapılmaz ki, bizim Vətənimizdə inqilab illərində əmələ gələn dəyişikliyə, yüksəlişə heyrətlə baxmasın. Sənayedə inqilab, torpaqda inqilab, yaşayışda, düşüncədə, zehinlərdə, qəlblərdə inqilab!

İllər boyu qarşısı ağır sədlərlə bağlanan gur səsli şəlalələrin qabağı açılanda sular necə sürət və vüsətlə çağlayıb daşarsa, zəhmətkeşlərin, qadir əməyi də inqilab, azadlıq görəndən sonra eləcə coşub daşmağa başladı. İndi dünyada alimdən tutmuş fəhləyə qədər, dostdan tutmuş düşmənə qədər hamı, hər yerdə sovet adamlarının göyləri fəth etməsinə, kainatın “bağlı qapılarını” açmasına, yerdən planetlərə yol salmasına dərin bir heyrətlə tamaşa edir.

İnqilaba qədər bizdə, Azərbaycanda burjua, mülkədar ağalığı şəraitində xalqımızın nə qədər ağır, dözülməz həyat keçirdiyini böyük klassiklərimiz Axundov, Mirzə Cəlil, Sabir öz bədii əsərlərində çox gözəl göstərmişlər. Azərbaycan fəhlə və kəndlisinin acı həyatını böyük Sabir öz əsərlərində dərin ürək ağrısı ilə təsvir etmişdir. Elmdən, mədəniyyət və maarifdən uzaq olan ailələrdə kitab haqqında necə təsəvvür olduğunu şairin aşağıdakı misraları çox gözəl ifadə etmişdir.

***Biz olan evdə haçan vardı kitab?***
***Nə bilirdik nə zəhrimardı kitab?***
***Kitabın andıra qalmış sözünü,***
***Eşidib görməmiş idik üzünü...***

İndi Sovet İttifaqında hər il milyarddan çox nüsxə kitab nəşr olunur. Böyüklü-kiçikli hər bir vətəndaşa ildə beş kitab düşür. İndi ən uzaq dağ kəndlərində də kitab, jurnal, qəzet, radio ən zəruri məişət ehtiyacına çevrilmişdir. Vaxtilə əsasən savadsızlar ölkəsi olan Azərbaycanda indi ümumi orta təhsil həyata keçirilir və cavanların əksəriyəti ali təhsil alırlar. Məlum olduğu üzrə yüz neçə il bundan qabaq böyük ədib Mirzə Fətəli Axundovun bir cildlik əsərləri çap olunmuşdu. Çox çətinlik və çox səylər nəticəsində çap olunan bu kitabın da nüsxələri evlərdə, ya mağaza küncələrində qatı açılmamış qalmışdı.

İndi bizdə rus və Azərbaycan klassiklərinin, eləcə də müasir yazıçıların əsərləri on min, yüz min nüsxələrlə çap olunub yayılır. İndi Azərbaycan fəhlə və kəndlisi yalnız kitab oxumur, özü də çox qiymətli kitablar yaradır. Neft sənayesində, pambıq təsərrüfatında, inşaatda, kəşfiyyatda, ipəkçilikdə, maldarlıqda böyük müvəffəqiyyətlər əldə edən adamların qiymətli təcrübələri tədqiq olunur, ümumiləşdirilir, nəşr olunur. Heç bir dövrdə nəzəriyyə ilə təcrübə, mənəvi əmək ilə fiziki əmək, elm ilə təsərrüfat indiki qədər möhkəm əlaqələnməmiş, vəhdət kəsb etməmişdi. İndi sosialist təsərrüfatımızın hər sahəsi sovet elmi, mədəniyyətinə yeni zəngin həyat materialı verdiyi kimi, elmimizdə təsərrüfatda çalışan, xarüqələr yaradan qəhrəmanlarımızın mübarizə yolunu işıqlandırır, inkişafa kömək edir.

Sovet ədəbiyyatı Oktyabr inqilabının ən mühüm nailiyyətlərindəndir. Sovet yazıçılarının bir sıra əsərləri yalnız ittifaqımız daxilində yox, bütün dünyada şöhrət qazanmışdır. Xruşşov yoldaşın yazıçıları, sənətkarları həyat ilə daha sıx əlaqəyə, zamanəmizin qəhrəmanlarının fədakar əməyini əks etdirməyə, kommunizm quruluşuna yaxından kömək etməyə çağırması ədəbiyyat və incəsənət işçilərimiz üçün əsl yaradıcılıq proqramıdır. Bu böyük bayram günlərində bizim qəlbimiz həm dərin sevinc, səadət, iftixar hissi ilə doludursa, həm də zehnimizdə yüksək sənət fəzalarına meyl, yaradıcılıq əzmi, qəhrəman sovet adamlarının adına layiq yeni əsər yaratmaq ehtirası alovlanır.

*Ədəbiyyat və incəsənət. 1959. 6 noyabr*





## 1960
## Sülh və səlamətlik tribunu

Bu söz bir fransız fəhləsinin sözüdür. İnşaatçıların həmkarlar qəzetində (“Ştukatur”) bir fəhlə Xruşşov yoldaşı beynəlxalq gərginliyi zəiflədən mübariz tribun adlandırmışdı. Bu ümumi bir rəydir. Fransada elə bir şəhər və məskən tapmazsan ki, Sovet hökuməti başçısının sülh səfərindən təsirlənməmiş, adamları xoş bir hava tənəffüs etməmiş olsun. Fransızlar da bütün dünyanın sülhsevər adamları kimi bu tarixi səfəri beynəlxalq aləmdə ən əlamətdar hadisə sayır, hörmət və ümidlə bu səfərdən danışırlar. Parisdə ən çox məşhur olan kitablardan biri Xruşşov yoldaşın səfərlərinə həsr olunan kitabdır. Çox görkəmli yerlərdə “Sovet premyer”inin böyük, gülümsər şəkli indi də divarlardadır. Qəzet-jurnallar, hərə öz baxışı, səviyyəsi, qanacağına görə bu böyük qonağın səfərindən bəzən də lap təfsilatla bəhs edirlər. Bu səfərin, qarşıdakı yüksək müzakirələrə xoş bir müqəddimə olduğunu bütün zehni açıq adamlar təsdiq edirlər. Beynəlxalq havaların xoş olmasında Sovet hökumətinin tədbirləri çox mühüm bir faktordur. Bunu bütün dünya təsdiq edir.

N.S.Xruşşov yoldaşın Azərbaycan partiya təşkilatının, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 40 illik bayramına gəlməsi, təntənələrimizdə şəxsən iştirak etməsi bizim sevinc, səadətimizi hədsiz dərəcədə artırmış, qəlbimizi iftixar hissi ilə doldurmuşdur. Xruşşov yoldaş xalqımızın sosializm quruluşu cəbhəsində, kommunizm uğrunda əldə etdiyi nailiyyətləri çox yüksək qiymətləndirdi. Sosialist sənayemizin, kənd təsərrüfatımızın, formaca milli, məzmunca sosialist mədəniyyətimizin tərəqqisinə çox yüksək qiymət verdi. Fəhlə, kolxozçu və sovet ziyalılarını yeni əmək qələbələrinə ruhlandırdı. O, dedi: “Azərbaycan xalqının çoxəsrlik orijinal mədəniyyəti böyük rus xalqının və qardaş müttəfiq respublikalarda yaşayan digər xalqların mədəniyyəti ilə sıx qarşılıqlı əlaqə şəraitində inkişaf edir; bu xalqların mədəniyyəti bir-birini zənginləşdirir. Respublikada istedadlı Azərbaycan yazı-

çıları, şairləri, bəstəkarları və rəssamları dəstəsi yetişmişdir: Onların bir çox əsərləri Azərbaycandan uzaqlarda da şöhrət qazanmışdır. Sovet adamları Səməd Vurğunun şeirlərini, Üzeyir Hacıbəyovun musiqisini bilir və sevirlər. Gənc bəstəkar Qara Qarayev sovet musiqisini gözəl əsərlərlə zənginləşdirmişdir...”

Sovet xalqının kommunizmə doğru qalib yürüşündə qazandığı nailiyyətlər, əlbəttə, böyük bir ölkənin, böyük bir xalqın nailiyyəti olmaqla bərabər, bütün bəşəriyyətin tarixi nailiyyətləridir. Sovet mədəniyyəti bəşər mədəniyyətinin ən yeni, yüksək, müasir mərhələsidir. Bu mədəniyyət cəmiyyətin gələcəyini, doğru inkişaf yolunu göstərən xalqla bağlı əsil mədəniyyətdir. Bu mədəniyyətin şüarı insanların səadəti, səlamətliyi, qardaşlığıdır. Mədəniyyətin sürətli tərəqqisi ancaq sülh şəraitində, dinc yanaşı yaşamaq şəraitində mümkündür. Buna görə də milyonlarla sovet adamları N.S.Xruşşov yoldaşın dili ilə deyirlər: “Bizim məqsədimiz-bütün qırğın vasitələrini, o cümlədən də, nüvə və raket silahını ləğv etmək, orduları buraxmaqdır!”

Şübhə ola bilməz ki, Sovet dövlətinin bu xeyirxah siyasətini dünyanın bütün zehni açıq adamları dərk və müdafiə edəcəklər. Bu ilki bahar əlamətdar bir bahardır. Bir neçə ilin danışıqlarından sonra böyük dövlət başçılarının görüşməsi haqqında razılıq əldə edilmiş, vaxt təyin olunmuşdur. Parisdə böyük dövlət başçılarının görüşündə başlanacaq müzakirələr bütün ölkələrin və bütün insanların diqqət mərkəzində olacaqdır. Ölkələr, insanlar arasında dinclik, əməkdaşlıq, sülh siyasəti yalnız sovet adamlarının deyil, bütün əməkçi bəşəriyyətin amalıdır. Günəş həmişə zülməti boğub dağıtdığı kimi, sağlam insan zəkası və zehni, möhkəm sülh siyasəti də qan və qırğın hərislərini rədd edəcəkdir. Ümid edirik ki, böyük dövlət başçılarının görüşü beynəlxalq münasibətlərə daha yeni bir bahar havası gətirəcəkdir.

Doğma Sovet dövlətimizin sarsılmaz sülh siyasəti var olsun! Yaşasın əsl insan səadətini yaradanlar və qoruyanlar!

Dinc, yaradıcı əmək bütün dünyanın şərəfidir.

*Ədəbiyyat və incəsənət. 1960. 30 aprel. №19*





## Fransa yollarında

Təyyarəmiz axşamüstü saat beşdə (yerli vaxtla üçdə) Parisdə Burje təyyarə meydanında yerə endi. Mayın on biri ilin, həm də Fransanın yaxşı vaxtı idi. Yerlilər böyük və əziz bir qonağı təzəcə yola salmış, beynəlxalq aləmdə yeni mülayim havanın yaranmasına dərin bir ümid, sevinclə baharı qarşılayırdılar.

Bahar bütün qüvvətilə gəlirdi. Xiyabanlar yaşıllaşmış, burada çox sevilən şah palıdlar çiçəkləmişdi. Soyuqdan ehtiyat edib isti paltar götürən yoldaşlarımız təyyarə meydanındaca “paltonun artıq” olduğuna inandılar.

Bizi mənzilə – Brevan mehmanxanasına aparan avtobusda bələdçimiz (gödəkçəli, yaşlı, lakin zirək qadın) keçdiyimiz yollar haqqında məlumat verirdi. Hələ Fransa mərkəzinin həvalisində, adətən böyük şəhərlərin çoxunda olan kənar, dar, birmərtəbə evlər, seyrək ağaclarla əhatə olunmuş küçələrdən keçirdik. Deyildiyinə görə, Parisin iyirmi rayonu, altı “darvazası” (portu) var ki, müxtəlif cəhətlərdən gələn yolları birləşdirir. Ara-sıra qaranlıq, kərpiç tağlı köhnə tunellərdən də keçirdik. Böyük, əzəmətli bina ilə yanaşı, bu şəhərin adına yaraşmayan alçaq, kiçik pəncərəli evləri hər addımda görmək olurdu. Geniş meydanlara çıxanda mənzərə dəyişirdi. Paris müasir mənada çoxmərtəbəli deyil. Köhnə stildə tikilmiş naxışlı binalar çoxdur.

İlk baxışda şəhər nəhəng bir qaraja, yaxud nəqliyyat vəsaitinin səfərbərlik məntəqəsinə oxşayırdı. Pasxa bayramı münasibətilə yarım milyon parislinin şəhəri tərk edib dincəlməyə getdiyini bizə dedilər. Müxtəlif rəngli, biçimli maşınlar az qala bir-birinin qarnına girmiş, nəinki meydan və küçələri, bəzən hətta səkiləri də tutmuşdu. Piyadaların da hərəkəti çətinləşmişdi.

Kiçik Parisdə üç, böyük Parisdə (həvalisi ilə) altı milyon əhali var. Burada hər kvadrat kilometrdə 27,2 min adam yaşayır.

Bir parisli köks ötürərək mənim bu sıxıntı haqqındakı sualıma belə cavab verdi:

– Paris gözəl şəhərdir, ancaq biz burada boğuluruq. Burada

hər şey, quş südü də var, ancaq quş qədər nəfəs almaq imkanımız yoxdur!

Doğrudan da, belə bir sıxıntıda yaşayanlara qibtə etmək lazım gəlmir. Sürət, intizar, rəsmiyyət, ehtiyat...

Görünür, müasir elm-arxitektura plansız, stixiya ilə inkişaf edən bu şəhərlərin həyatını, quruluşunu lazımınca öyrənib nizama sala bilməmişdir. Elə bir vəziyyət əmələ gəlmişdir ki, hamı öz həyatını böyük şəhər, hətta mərkəzlə bağlamağa çalışır. Kənddə, "süd gölündə" üzməkdənsə mərkəzdə bir stəkan suyun intizarında dayanmağı üstün tutanlar az deyil. Ancaq parislilər kənarda bir parça yer ələ keçirmək, əkmək, biçmək, əylənmək istəyirlər. Bu səadət isə hər kəsə müyəssər olmur, yerin hər qarışı qızıl bahasınadır, qəbirlər də ölçülüb satılır, ya icarəyə verilir.

Həyat, yaşayış qeydi Parisdə daha güclü, daha əsəbi bir qayğı ilə çarpazlaşmışdır.

Qazanc ehtirası!

Burada həmin ehtiras çox qüvvətlidir. Bu "altun dənizinə" düşüb ömür boyu çapalayan cılız, balaca adamlara yazığın gəlir. Dünyanın bütün nemətləri belə hərislərə nemət yox, Marks demişkən, əmtəə görünür. Hətta əmək kimi müqəddəs, yaradıcı bir qüvvəyə sahibkarlar, tacirlər ancaq əmtəə, qazanc vasitəsi kimi baxır, başqa heç bir əlamətə diqqət yetirmək istəmirlər.

Parisin və bütün fransız şəhərlərinin zahirində ən güclü şey reklamdır. Bu, qadın ziynəti kimi əlvan, cazibəlidir. "Ticarətin nəbzi adlandırdıqları reklama nə qədər desən rövnəq verirlər. İşıq, rəng, şəkil, söz, maşın, televiziya, kino... Vasitə yoxdur ki, buna xidmət etməsin.

Kann şəhəri Aralıq dənizi sahillərində sıralanan gözəl villaları ilə məşhurdur. Dəniz bulvarının döşəməsinə, bişmiş kərpic tozuna oxşayan təmiz qum tökülmüş, dincələnlər üçün yüzlərlə rəngli çətirlər açılmışdır. Hər oturum saatı pul ilə olan kürsülər qoyulmuşdur.

Buradaca yunanıstanlı bir nəfərin eşşəyinə tumar çəkdiyini görmək təəccüblüdür. Ulağın ətirli bitkilərdən ibarət yüngülcə





yükü var. Sahibi həmin ətirləri nümayiş etdirmək üçün şüşədən eşşəyə ətir püskürür. Ötüb keçən xanımlar tamaşaya dururlar. Bu vasitədən faydalanmağı fürsət bilən tacirlər eşşəyin palanına da balaca lövhələr – reklamlar taxmağı unutmurlar.

Bizim nəzərimizdə Paris mədəniyyət, həm də inqilabi ənənələr, didroların, hüqoların, balzakların, barbüslərin vətəni kimi böyükdür. Hüqo hələ keçən əsrdə bu böyük şəhər haqqındakı qeydlərində deyirdi: "Paris səpəndir. Nə səpir? Qığılcım. Harada səpir? Qaranlıqda!".

Bəlkə keçən əsrdə belə idi. Doğrudan da, XVIII-XIX əsrlərdə Fransanın mərkəzi müəyyən dərəcədə Avropanın mərkəzi idi. İndi bu yalnız zahiri gücünü saxlamışdır. Doğrudur, Paris qığılcım, işıq səpir. Ancaq bunu müstəqim mənada götürmək daha düz olar. Bu işıq və qığılcımlar rəngbərəng reklam, cürbəcür göz qamaşdıran lövhələr, şəkillərdən ibarətdir. Bütün ölkə boyunca latın hərflərilə iri yazılmış, işıqla bəzənmiş sözləri təkrar-təkrar görürsən. Yollarda, böyük reklamlarda yüngülcə çullanmış, ildırım kimi gedən, sürətlə qaçmaqdan nazilib ilana dönən bir tazının şəklini çəkirlər. Yəni "məndən benzin alsan bu sürət və salamatlıqla gedərsən!".

Otel, kafe, restoran, kazino, elanlar, lap böyük kompaniyaların rəngli lövhələri səyyahları təngə gətirir. Neçə yerdə yarımçılpaq oturan, uzanan qız şəkilləri adamlara müraciət edər, əyləncə yerlərinə çağırar? Neçə yerdə dərzi modaları, yaraşıqlı gənclərin əynində, cürbəcür pozada nümayiş etdirirlər?!

Parisin dünyaca məşhur sənət abidələrinə - muzeylərə, heykəllərə, kilsələrə, saraylara, meydanlara, körpülərə, fəvvarələrə söz yoxdur. Sena çayı ətrafında yerləşən spiral, ya dairə şəklində böyüyən bu gözəl şəhərdə tamaşalı yerlər olduqca çoxdur. Ulduz meydanından, Zəfər tağının ətrafından müxtəlif istiqamətdə on iki böyük prospekt ayrılır. Bunların hər biri də öz növbəsində gedib başqa məşhur meydanlara çıxır (Konkordiya, Hoqo, Diana meydanına) ki, hər birini gəzib öyrənmək üçün uzun vaxt lazımdır. Yelisey sahəsi, ya küçəsi şəhərin ən gözəl, səfalı yerlərindən biri-

dir. Məlum olduğu üzrə, Elizium yunan mifologiyasında "ölü ruhlarının əbədi rahatlıq yeri" sayılır. Məşhur şair Homer "Odisseya" əsərində bu "cənnət güşəsinin" təsvirini gözəl vermişdir. Fransız paytaxtındakı küçənin adı da yəqin ki, həmin arzu, etiqad ilə bağlıdır.

Parıltılı mağazalarla, ticarət kompaniyaları ilə zəngin olan bu xiyabanın bir başı gəlib Zəfər tağına, o biri başı da Konkordiya meydanına çıxır ki, hər tərəf fəvvarə, abidə, heykəllərlə bəzənmişdir; abad, cazibəlidir.

Yalnız fransız xalqı üçün deyil, bütün dünya ədəbiyyatı və mədəniyyəti üçün əziz və qiymətli olan Viktor Hüqo, Balzak, Emil Zola və sair böyük simaların təkrar-təkrar rast gəldiyimiz heykəlləri, ömrünü böyük amal yolunda sərf edənlərə ləyaqətli xatirə olmaqdan başqa, həm də ləyaqətli və bəzən nümunəvi sənət əsərləridir.

Sena lal, lam axan, sanki şəhəri bəzəmək, üstündən ötənlərin yaraşıqlı körpülərdə dayanıb mavi sulara tamaşa etməsi üçün yaranmış şüşə kimi şəffaf, gözəl bir çaydır.

Site adası çayın ortasındadır. Şəhərin ən abad, tamaşalı yerlərindən biridir. Səyyahların çox maraqlandığı məşhur Notr-Dam kilsəsi də buradadır. Adaya gündə minlərlə səyyah gəlir. Bu nəhəng şəhərdə qısa müddətdə müsafir olan bir adamın Paris haqqında dediklərini əlbət ki, kamil və kifayət saymaq olmaz. Ancaq Parisin bütün gözəllikləri, dəbdəbə, parıltılarına rəğmən, mənə elə gəldi ki, indi bu, geriyə baxan, keçmişi ilə daha çox yaşayan, fəxr edən bir şəhərdir. Bütün gəzməli yerlərdə, saray, muzey, parklarda bu gündən az şey görər, eşidərsiniz. Napoleon filanıncı ildə belə bir əmr verdi; XIV Lüdovik elə dedi; kralın ilk izdivacı burada olub; ordunun məşhur nümayişi bu meydanda keçib; filan romanın filan qəhrəmanı bu yerdə yaşayıb; filan beynəlxalq müqavilə bu yerdə bağlanıb...

Mən bu tarixi yerlərin heç birinin əhəmiyyətini azaltmaq fikrində deyiləm. Ona da inanıram ki, mütəxəssislər üçün bunlar həm tarixi fakt, əyani vasitədir, həm də müəyyən sənət abidələri-





dir. Onu da deyim ki, bunların saxlanması, qorunması, nəşri təbliği və zövqlə, mədəni üsulda təşkil olunmuşdur.

Bizim kimi qələm sahiblərini hər şeydən əvvəl müasir Fransa, indiki həyat və cəmiyyət daha çox maraqlandırırdı. Bu mənada Parisdə çox yenilik görmək çətindir. Təzə tikinti olaraq Yunesko binasını, bir də böyük sərgi binasını gördük ki, ikisi tamaşalıdır. Başqa mühüm yeni bir tikintiyə rast gəlmədik.

Mənzil şəraitində çox çətinlik olduğunu bizə dedilər. Şəhər kənarında çoxmərtəbəli, otaqların tavanı alçaq olan biçimsiz bir bina göstərdilər. Güya şəhər idarəsi belə binaları tələsik tikib icarəyə verməyə çalışır. Qazanc ehtirası ilə yaşayan sahibkar müştəri cəlb etmək üçün qabıqdan çıxır. Rəssamların çoxu bu "təbliği" işə cəlb olunurlar. Bunları gördükcə kapitalizm dünyasında "pul kisəsindən" asılı olan rəssam, yazıçı haqqında V.İ.Leninin dediklərini bir daha xatırlayırsan. Əməyini bu cür məqsədlər üçün hərraca qoymağa məcbur olan sənətkarlara yazığın gəlir. Rəssamların az bir qismi müəyyən muzey, ya xaricilərdən sifarış alıb klassik nümunələrin (Luvrda, Versalda) sürətini çıxarırsa, çox bir qismi işsizlik ucundan bazar, meydançalarda kürsü qoyub pula gedən yüngül, bəzən də çılpaq rəsm və mənzərələr çəkməyə məcbur olurlar. Avtobuslar, fotovitrinlər və mehmanxanalarda belə şəkillərə çox rast gəlmək olur. Qəribədir ki, burada reklamın nə dərəcə həqiqətə uyğun olduğunu yoxlayan da olmur. Bu, mağaza və ya otel sahibinin insafına qalıb. Mədhiyyəçi şairlər kimi xəzələ qızıl deməkdən də bəzən utanmırlar.

Altmış min əhalisi olan, 1789-cu ildə Fransa tərkibinə qatılan, uzun zaman "azad şəhər" kimi qalan, Papa şəhəri deyilən Avinyonda bizi bir mehmanxanaya apardılar. "Eksesuar" deyilən bu otelin əla kağızda çap olunan altı səhifəlik reklamını oxumağa həvəslənirsən. Nömrələrə, restorana, pilləkanlara qədər hamısının rəngli şəklini elə çəkiblər ki, qəşəngliyinə şübhə etməzsən.

Elə ki, otelin içinə girdik, nömrələri gördük, köhnə Şərq şəhərlərində olan karvansara mənzilləri yadımıza düşdü. Demə, buranı təzə varlanmaq həvəsinə düşən bir tacir düzəldib, müəyyən

bir şəklə salmaq istəyir. Bina doğrudan da yaşamağa namünasib bir yer idi. Ortalıqda qoyulan soba da binanı qızdırmırdı. Otel səqfi alçaq, divarlar şit qırmızı rəngdə, sonradan əlavə olunmuş elektrik soba səqfə yaxın bir yerdə, dərin sement vannalara baxmaq istəmirsən. Otelin restoranı həyətdən kəsilmiş soyuq bir şüşəbənd idi. Müştəri çox olanda, görünür şüşəbənd böyüyürdü. Otel sahibi kiminsə bağışladığı mis qabları yadigar kimi divardan asmışdır. Arvad-uşağı səfərbərliyə alıb bizə xidmət edir, razı salmaq istəyirdi. Külqabıların içində də yekəxanə "Salam!" sözü yazılmışdı. Bələdçimiz də, görünür, aldandığını hiss etmişdi. Biz burada yaxşı ki, bircə gecədən artıq qalmadıq. Otelin ətrafında dar, qaranlıq daş küçələrə cürbəcür mağaza pəncərələri korlar kimi baxırdı. Mağazalara ayaq basan adam görmədik. Mağazalarda mal çox, əhalidə alıcılıq qüvvəsi azdır.

Fransada demək olar ki, bütün magistral maşın yolları şəhər, qəsəbə və kəndlərin içindən keçir. Köhnə və kiçik şəhərlərin dar və izdihamlı küçələri maşınlar üçün yoldur. Şoferlər buna qarşı dəfələrlə etiraz edib, yolu kənardan çəkməyi təklif etmişlər. Bunun ağıllı təklif olduğunu düşünmək üçün o qədər də baş sındırmaq lazım gəlmir. Ancaq əhali, daha doğrusu, əhalinin tacir qismi buna mane olur. Onlar istəyirlər ki, minlərlə maşınlar məhz şəhərdən, baş küçələrdən keçsin, müsafirlər satıcıların mətaını qapıdan tez görsün və alsın. Belə balaca şəhərdə mağaza sahibləri evinin, həyətinin qabağını vitrinə çevirir. Süd-qatıqdan, meyvədən, toyuq-cücədən tutmuş oyuncağacan, güman gələn nə varsa taxta üstünə düzürlər. Demək, olar ki, çoxu səyyahlardan ibarət olan miniklər də bu yerlərdən şey almağa az maraqlanmırlar.

Qazanc ehtirası qanunlara istiqamət verir.

Öküz döyüşü deyilən vəhşi bir tamaşa mənzərəsinə həmin şəhərdə rast gəldik. Qədimdə Krit adasında, Yunanıstan və Romada, XI əsrdən sonra isə İspaniya və Meksikada dəb düşən bu adətə indi mədəni ölkələrdə dözməzlər. Tamaşa meydançasında, öküzlə döyüşməyə çıxan pəhlivan (matodor) nizə ilə heyvanı cinləndirir, pərdə ilə öküzün gözünü örtüb ondan yayınır. Tamaşaçılar isə onun cəldliyinə, cəsarətinə, vəhşi hərəkətinə "afərin" deyir, əl çalırlar.





Aydın məsələdir ki, Fransa kimi mədəni bir ölkədə bu orta əsr vəhşətini görmək təəcüblü idi. Bələdçilərimizin dediyinə görə ölkənin şimal şəhərlərində buna yol verməzlər. Ümumən bu tamaşanın qadağan edilməsi tələb olunurdu. Ancaq şəhər idarəsi və icarədarlar bundan gələn qazancı nəzərə alıb icazə vermişdir. Qumarxana, başqa fisqi-ficur yerlərinin rəvac tapması da məhz qazancla bağlıdır.

Fransa və İtaliya sərhəddində Manako deyilən kiçik bir hökumət (krallıq) var. Guya bu müstəqil ölkədir. 4.500 nəfər yerli əhalisi, 180 nəfərlik qoşunu, on bir naziri, xüsusi sikkəsi (pulu) var. Kralın qapısında dörd-beş dənə təkərli top qoyulub. Bu ölkənin bütün gəliri kazinolar, qumarxanalardandır. Monte-Karlo məşhur qumarxanadır ki, dünyanın hər yerindən pul qudurğanlarının hamısı buraya qaçır. Udanda şadyanalıq edir, var-yoxu uduzanda isə "intihar yeri" deyilən guşəyə çəkilib qumarbazların gözü qarşısında özlərini vururlar. Qumar prosesinin özünü də bir növ "mexanikləşdiriblər". Otağın hər küncündə su avtomatlarına oxşayan maşınlar qoyulub, bilet satılır, alınan bilet dərhal oradaca oynanır. Otağın mərkəzi hissəsində kazino sahibi, ya icarədar "ağayana" əyləşib, öz maşınını hərləyir, hərlədikcə atılan pul və ya markaları toplayır.

Kazino ətrafında isə cürbəcür otellər, restoran, tamaşaxana, rəqs salonları, ətriyyat, əntiqəfuruş mağazaları vardır. Burada diqqətəlayiq müəssisə Okeanşunaslıq muzeyidir. Bu muzey məşhurdur. Dəniz və dənizçiliklə (gəmi, balıq, vulkan, bitki, səyyahla...) əlaqədar nə varsa, həmin muzeydə nəzərə alınmışdır. Hər gün dəstə-dəstə gələn yüzlərlə səyyahdan muzey xeyli qazanc götürür. Yoldaşlarımızdan professor Qasım Gül dənizçiliyə, Xəzər dənizinin tədqiqinə aid yazdığı yeni əsərini həmin muzeyə təqdim etdi. Manako krallığında başqa yerlərdən gələnlərlə hər cür münasibət aparırlar. Ancaq yerli təbəəliyə kimisə qəbul etmirlər. Krallığın təbəəsi olmaq üçün ya orada doğulmalı, yaxud da orada doğulan-

lardan birilə evlənməlisən. Bu hökumətin sadəcə bir oyuncaq olduğunu hökumət adamları da, vətəndaşlar da bilirlər. Ancaq ictimai təbəddülat aparmaq istəmirlər. Çünki vətəndaşlar burada dövlətə vergi vermir, heç bir ictimai məsuliyyət daşımırlar. Dövlət deyilən şey də əslində yoxdur. Manakonun Fransaya İtaliya qanunları ilə idarə ediləcəyindən, təbəələr üzərinə cürbəcür vergilər qoyulacağından ehtiyat edərək "cümhuriyyət" yox, krallıqda qalmaq istəyirlər. Ancaq təbəələr krala da, ailəsində də itaət edirlər. Krallığın sərhədini hər dəqiqə müxtəlif ölkələrin müxtəlif markalı maşınları vurub keçir, qarovullar da dayanıb tamaşa edirlər. "Qanun qanundur" adlı məşhur kino-film burada, həmin dövlətin sərhədindəki körpü əhvalatı üzərində çəkilmiş şirin bir komediyadır.

Ancaq Manakonun təbiəti, gözəl mənzərəsi, yaylaq, bulvar, bağ-bağatına söz yoxdur. Sahibkarlar burada özlərini xüsusilə yaxşı hiss edirlər. Aralıq dənizinə baxan günəşli, meşəlik, abad yamaclarda, villa ələ keçirmək hər kəsə müyəssər olmur.

Səyahətimizin heç də Parisdən az maraqlı olmayan istiqaməti ölkənin cənubuna, Aralıq dənizi sahillərinə olan səfər idi. Marseldən İtaliya sərhədinə qədər gözəl yollar sahil boyu davam edir. Buralar müəyyən cəhətdən bizim Qara dəniz sahillərinin (Sxumi, Soçi, Qaqri) abad yaylaq yollarını xatırladır. Burada bir neçə böyük şəhər gördük: Tulon, Marsel, Kann, Nim, Nitsa... Aprelin ortalarında bu yerlər bizim may, hətta iyun günlərini xatırladırdı. Hava gözəl, günəşli, şəhərlər yaşıllıq içində, plyajlar camaatla dolu, bir-birinə söykənmiş nazik, əlvan çətirlər altında uşaq, böyük dincəlməkdə idi.

Tulon hərbi şəhər olduğundan, bizi oraya buraxmadılar. Çoxlu hərb gəmisinin dayandığını gördük. 1942-ci ildə fransız dənizçiləri burada gəmiləri partlatmışlar. 1944-cü ildə ikinci cəbhə açılanda bu şəhərdə mühüm döyüşlər olmuş, faşistlərə böyük tələfat vermişlər.

Marsel, mərkəzdən səkkiz yüz kilometr aralı, Fransanın Parisdən sonra ikinci böyük şəhəridir. Eramızdan altı əsr əvvəl məlumdur. Tarixi ənənələrilə məşhur olan bu şəhərdə 700 min adam yaşayır. Maşını, gəmisi, təyyarəsi, kimya sənayesi, universiteti, sənət akademiyası var. Abadlıqda Marsel də mərkəzdən geri qalmır. Mərkəz küçələrdən birində Astoriya otelində xidmətçilərdən bir neçəsini danışdırdım. Bunların arasında fransızdan çox yunan, asoru var idi. Türkcə sərbəst danışanlar da var idi. Eləsi var idi ki, təkcə özü yox, arvadı, uşağı da oteldə xidmət edirdi. Burada otel, restoran sahiblərinin çoxu xidmətçi tutmaqdansa, ailələrini, qohum-əqrəbanı işə cəlb edirlər. Bu tədbir həm ucuz başa gəlir, həm də sahibkarı çox vaxt həmkarlar rəsmiyyəti, tətil, tələb qayğısından azad edir.





Deyildiyinə görə, ən ucuz qiymətə işləməyə razı olanlar Frankonun müflisləşdirdiyi İspaniyadan gələn qadınlar olurlar. Vətənlərində həyat minimumunu çətin tapan, yaxın ölkələrə yayılan İspaniya vətəndaşları hər cür qara işə getməyə məcbur olurlar. Marselin köhnə və təzə deyilən iki böyük limanı var. Təzə limana çox diqqət yetirilir. Burada amerikan qoşun düşərgəsi də var. Hitlerçilərin işğalından ən çox zərər görən şəhərlərdən biri buradır. Faşistlər burada 210 min gəmi batırıblar. Müharibə yaralarını şəhər son zamanlara qədər sağaltmaqda idi. Küçələrdən tramvay təzəcə götürülüb, bəzi yerlərdə relslər hələ də durur. Şəhərin ən uca bir yerində böyük kilsə var. Buraya ibadətə gələnlər çox olur. İbadətgah yollarında ibadətlə o qədər də uyuşmayan əyləncə, keyf yerləri, cürbəcür mağazalar var. Halay vurub dayananlar oyunbaz, ya gipnozçuya baxırlar..

Fransa mehmanxanalarının çoxunda məxmər, qumaş yox, sadəcə çiti çox işlədirlər. Stul, çarpayı örtüləri, süfrələr, pəncərə pərdələri də sadəcə çitdəndir. Qalın məxmər və ya naxışlı payəndazları otelin döşəməsinə mıxlayırlar.

Mən uca bir yerdə, maşınlara benzin verən budkanın yanında dayanıb Marsel şəhərinin ümumi mənzərəsini seyr edirdim. Sanki göydən tökülmüş kimi sıx daş binaları görəndə köhnə Bakının mənzərəsi yadıma düşdü. Daş körfəzləri duru, təmiz dəniz suları yuyur. Şəhərdə yaşıllıq çox azdır. Sularda dənizçilərdən tutmuş şəhər uşaqlarına qədər çimənlər var idi.

Marseldə qağayı çoxdur və insandan da qorxmurlar. Bizdə göyərçinlər əzizlənib qorunduğu kimi, orada da qağayılara sataşan, görünür, yoxdur. Sahilin ən yaxşı yerlərində varlıların yaraşıqlı malikanələri var ki, yalnız yay mövsümündə deyil, bütün ili məskən sayılır. Dənizçi yoxsul fəhlə ailələrinin köhnə dəmir yol, trolleybus vaqonlarında yaşadığını da görmək olurdu.

Marseldə, daha doğrusu, Marselə gedən yollarda tamaşasından çox şad olduğumuz bir mənzərə də çinar xiyabanları idi. Sovet İttifaqında Gəncədə, Göyçayda, Səmərqənddə, Daşkənddə, Soçidə və s. yerlərdə məğrur dayanan xan çinarların həmcinsini uzaq bir ölkədə görmək çox fərəhli idi.

Parisdəki şahpalıd xiyabanlarından sonra çinarlar daha əzəmətli, gözəl görünürdü. Çinarlara burada qayğı ilə yanaşırlar. Onların xiyaban tərəfini sərbəst buraxır, kənar tərəfini kəsib tökürlər. Bizim bəzi xiyabanları örtən meynələr kimi göyün bir qatında çinar budaqları qabaq-qabağa gəlib tağ təşkil edirlər. Çinarın gövdəsini maşın boyundan da yuxarı (iki-üç metr) ağardırlar ki, gecələr nəqliyyat toxunmasın. Nəqliyyatdan kənar bulvar, küçə, meydanlarda isə çinar kölgəsi ən gözəl istirahət yeri sayılır. Restoran, kafelərin qabağında, çinar altında sıra ilə düzülən masalar ətrafında əyləşib dincələnləri tez-tez görmək olur.

Marsel Aralıq dənizində çox böyük bir limandır. Burada hansı ölkənin desən gəmilərinə rast gəlmək olar. Kater, yelkənli qayıqların çoxu o yan-bu yana səyyah daşıyır. İF adasına işləyən katerlərin işi çox olur. Bu adada çoxlu tarixi abidələr var. “Dəmir maska” kinosunda göstərilən əhvalat, guya burada baş vermişdir. Keçmiş Fransa krallarının amansız cəza tədbirlərini nümayiş etdirən çox ibrətli nümunələr var.

Fransada satılan malın müəyyən qəti qiyməti yoxdur. Bu mağazadan on beş franka aldığın köynəyi o birisində iyirmi beş franka deyirlər. Bunun səbəbini soruşanda “Bəs bizim reklamımız, işığlarımız, gildimiz, xidmətçilərimiz, şəhər mərkəzində olmağımız” deyirlər.

Buralarda oğurluq hadisəsinə rast gəlmək çətindir. Küçədə,





stul üstündə tökülən mallara heç gözətçilik edən də yoxdur. Müştəri, məsələn, köynəyi, ya pencəyi götürüb özü içəriyə, mağaza sahibinin, satıcının yanına gedir və danışdırır.

İyirmi franka deyilən paltarı bəzən danışıb on franka alanlar olur. Sovet adamları mağazada şeyin qiymətini müəyyən saydıqlarından, belə danışığı artıq hesab edirlər. Mağaza sahibi müştərini aldatmağa “ticarət məharəti” adı verir.

Oğurluq yoxdur, dedim. Ancaq xırda oğurluq yoxdur. Biz orada olan günlər böyük bir oğurluqdan qəzetlər yazır, adamlar qəzəblə danışırdılar. Pijen adlı bir milyarderin dörd yaşlı Erik adlı uşağını oğurlamışdılar. Atasına məktubla bildirmişdilər ki, yarım milyon frank verməsən oğlunun üzünü görə bilməyəcəksən. Ata tələb olunan məbləği verməyə məcbur olmuşdu.

Soruşacaqsınız ki, pulu verəndə oğruları ələ keçirmək olmazdımı? Yox, olmazdı! Çünki oğrular, düşündüyümüz qədər də aciz və köməksiz deyillər. Oğrular həmin məbləği müəyyən bir oteldə, müəyyən adam vasitəsilə milyarderdən almışlar və zərərdidəni inandırmışlar ki, pul verdiyin adamın başından bir tük əksik olsa oğlunu da, özünü də oğurlanmış bil!

Pulu verəndən sonra saat dörddə ata vəd olunan yerə getmiş, orada uşağını oturub ağlayan görmüşdü.

Mətbuat bu hadisədən ağız dolusu bəhs edir. Pijenin hətta istənilən pulu verəndən sonra da qorxuya düşdüyünü, polisə lənətlər yağdırdığını yazırdı.

Marselin yaxınlığında tarixi yerlərdən sayılan, vaxtilə məhbuslar saxlanan İF adası sürgün yeri imiş. Bir metrlik daş daxmada bir saldatın on beş il sərasər əzab çəkdiyini danışırdılar. “Unutma yeri” deyilən daş otağın pəncərəsindən oraya atılmış adama bir müddət çörək-su verir, sonra unudurmuşlar. Dəmir maska geyməyə məcbur olan ekiz qardaş (kralın qardaşı) burada ömür sürmüşdür.

Yollar boyu səliqəli əkin, bağça-bağlar görürsən. Fransız kəndliləri ailə üzvlərilə birlikdə öz tarlalarında işləyirlər. Maraqlı budur ki, bağlarda tənəklər kol kimi bəslənib becərilir. Tənəyin

boyu yarım adam boyudur. Yuxarısına qədər gövdə budaqlardan təmizlənmişdir. Başında isə bütün budaqlar buraxılmışdır. Hər il məhsul götürüləndən sonra həmin budaqlar kəsilir. Tənək bizdə olan bəzi gül kollarına bənzəyir. Ancaq neçə-neçə hektar bağlarda bütün tənəklər möhkəm cərgələlərlə əkilmişdir. Ərik, alma, armud ağaclarının da cərgə ilə əkildiyini gördük.

Ən səfalı, tamaşalı yol Nisse şəhərindən sonra, sahildən, kurort şəhərlərindən ayrılaraq ölkənin içərilərinə doğru getdiyimiz yoxuş, "üç mərtəbə" yol idi. Bu yol hər an bizi dənizdən uzaqlaşdırır, yüksəklərə qaldırır, həm də abad villaların, bağ-bağçanın içindən keçirirdi. Burada mən istər-istəməz Soçini, Qara dəniz sahillərinin yaşıl meşələr arasından keçən qıvrım yollarını xatırladım. Sağımızda valehedici cazibəsilə dumduru mavi dəniz, solumuzda isə oyanmaqda, yaşıllaşmaqda olan yamaclar görünürdü. Hər neçə kilometrdən bir abad düşərgə – kafeyə, restorana, əyləncə mağazalarına rast gəlirdik.

Fransa yollarında hər markadan olan cürbəcür maşınlar gəzir. Ölkə səyyahlardan milyard mənfəət götürür. Bu işi sadələşdirmək, asanlaşdırmaq üçün bir sıra Avropa ölkələrindən gələnlərdən (İtaliya, İspaniya) xüsusi icazə tələb olunmur. Maşınların çoxunun dalısında təkərli qoşqu var. Maşın sahibləri bu "təkərli otaqlara" bütün ailə üzvlərini doldurur, istənilən yerlərə gedir, istənilən müddət dayanıb yaşayırlar. Həmin otaqların üstündə isə yük bağlamaq üçün münasib dəmir kəmərlər düzəldilmişdir. Kann şəhərində plyajda minlərlə adamın dincəldiyini gördük. İki nəfər cəzayirli ərəb qardaş da çiyinlərində xalça, palaz əllərində dəsmal, portmanat satır, birtəhər gün keçirirdilər.

Reklamların birində Sibir sözü oxuduq. Bunun Fransada buzxana demək olduğunu, buz maşını satan bütün mağazalarda yazıldığını dedilər. Eləcə də latın hərflərilə yazılmış Buxara (Vixara) sözü diqqətimizi cəlb etdi. Güman ki, bu dəri taciri olacaqdır. Demə, Buxara burada xalça-palaza deyirlər. Həmin mağazada dünyanın hər yerindən gəlmə fərş görmək olar.

Gözəl yaylaq şəhəri Nisseni eramızdan 350 il əvvəl yunanlar





tikib. Bura məşhur Qarribaldinin vətənidir. Adına küçə var. İndi şəhərdə 200 min əhali yaşayır, gül-çiçək bağları çoxdur. Güldən alınan mənfəət milyonlara bərabərdir. Nissedə gül təsərrüfatı, ətriyyat sənayesi var. Mehmanxana və salonların çoxu mətaını buradan aparır. Burada bizə Turgenevin yaşadığı mehmanxananı göstərdilər. Keçdiyimiz yerlərin çoxu tarixi şəhərlərdir.

Fevral ayında bənd qırılıb, kəndləri dəhşətli sel aparıb, minlərlə adam ölüb. Bənd tikən mühəndisləri məhkəməyə veriblər, prosesi indi də qurtarmayıb. Yollarda uçan binaları, kökündən qopan nəhəng ağacları, sel basan kəndləri, hələ də qurumamış gölməçələri gördük.

Nim şəhəri yollarında sərv ağaclarının yaraşıqlı xiyabanı var. Bu ağacların lap cavan olduğu məlumdur. Şamı xüsusən əzizləyir, hətta bir qədər müqəddəs də sayırlar.

Sovet şairi Dolmatovski Fransanı gəzəndə "Sovet səyyahının mahnısını" yazmışdır ki, həmin şeir fransız dilində də nəşr olunmuş, çoxları əzbər bilir:

*Moskvadan, Leninqraddan*
*Uzaq Notr-Damadək.*
*Səs-küylü dəstə gedir*
*Fransanı gəzərək,*
*Sanki Sineramada*
*Geniş bir pəncərədən*
*Baxır uşaqlarımız*
*Üzümüzə, ey vətən.*
*Bax, budur Marsel, Nissa*
*Gözəldir, hər yan gözəl,*
*Xaric yaxşıdır, ancaq*
*Rusiya ondan gözəl.*

Burada yolların mühüm bir qismi xüsusi kompaniyanın əlindədir. İstifadə vaxtında baş verən hadisələrə kompaniya cavabdehdir. Yolda Nim şəhərindən sonra qəza baş vermiş, iki maşın

toqquşmuşdur. Polislər bütün yolçuları xəbərdar edir, sürücüləri ehtiyata çağırırdılar.

Eks-Provans deyilən köhnə, balaca bir şəhərdən ötdük. Bura XV əsrdən universitetli şəhərdir. Universitetdə təkcə hüquq fakültəsi var. Eksdə məşhur müalicə suyundan istifadə olunur. Salon adlı balaca şəhərin (17 min əhalisi var) XVI əsrdən suvarma sistemi məşhurdur. Arlda isə şəhər meydanında yaşıl göbələk şəklində böyük, orijinal bir heykəl var.

Qədimliyinə görə Nim şəhərinə fransız Roması deyirlər. Burada üç mərtəbəli qədim bir körpü gördük ki, iki min il əvvəl tikilmişdir. Bu, doğrudan da böyük sənət abidəsidir. "De qardo" körpüsünün qırx doqquz metr hündürlüyü, iki yüz yetmiş metr uzunluğu var. Möhkəmliyinə isə heyran qalırsan. Bu şəhərdə köhnə sarayların qalıqlarına, Qız qalasına oxşayan hündür minarə uçuqlarına tamaşa etdik. Kilsələrin hansında idisə səsin böyük və davamlı əls-sədası var idi. Bələdçilərdən biri "Mən oxuyum, siz dinləyin" – deyə bir az səsləndndə səda hər yanı götürdü.

Biz bir sıra şəhərlərdə muzey, kilsə, saray, qəbristan, körpü xərabələrinə baxmaqdan bezmişdik.

Fransanın məşhur şəhəri, bir çox tarixi hadisələr məkanı Versala getdik. Bu, Parisin həvalisidir. 70 min əhalisi var. 1883-cü ildə, Amerika – İngiltərə müqavilənaməsi, birinci cahan müharibəsindən sonra, 1919-cu il (28 iyul) sülh müqaviləsi burada bağlanmışdır. Versal lap əvvəllər ovçu evi, sonra kralların iqamətgahı idi. XIII Lüdovik buranı dövlət sarayına çevirmişdir. İndi isə məşhur muzey kimi səyyahların çox gəlib-getdiyi bir yerdir.

Vaxtilə qırmızı kərpicdən tikilmə sadə bir saray idi. Kral XIV Lüdovikin evi idi. Altı yüz xidmətçi yaşayırdı. Qapıda iki minə qədər yəhərli at dayanırdı. Kralın mətbəxi kənarda idi. Oradan buraya gələnə qədər xörək soyuyurdu. Sonralar sağ-solda binaları artırıblar. Krala yaxın olanlar burada yaşamaq istəyirdilər. Lap yuxarı – çardaqda isə kimi desən tapardın.

1789-cu ildə Parisdən buraya üsyançı qadınlar gəlib kralı xalqdan ayrılmaqda təqsirləndirmişlər. Məşhur general La-Fayet kraliçanı camaat arasına çıxarmış, hərəkatı yatırmışdı.





Sonra kral adamları ilə Parisə köçdü və Versal sarayını bağladılar. Versal birdən-birə tikilməyib. Tədricən inkişaf etmişdir. 1918-ci ildə bir milyarder yüz milyon pul qoyub bu sarayı əsaslı təmir etdirmişdir. Əfsanəvi simaların adına təntənəli salonlar yaranmışdır. Venera, Diana, Merkuri. Bu salonların hər birinin dini mənasından başqa ənənəvi, adi, "həyati" vəzifəsi var idi. Məsələn, Murano salonu qəbul üçün təyin olunmuşdu. Həftədə iki dəfə burada iki min şam yanardı. Kral camaatı qəbul edər, onların yanında əyləşib nahar yeyərdi. Camaat ona tamaşa edərdi.

Salonların birinin küncündə 1919-cu ildə Almaniyanın məğlubiyyətindən sonra müttəfiqlərlə bağlanan sülh müqaviləsindən yadigar qalma kiçik bir stol var. Bunun ətrafında böyük diplomatik söhbətlər getmişdir.

Dəhşətli müharibələrə, qırğınlara son qoymaq kimi müqəddəs bir amalı düşünəndə doğrudan da bu yerin tarixi əhəmiyyəti adamın gözündə böyüyür. Ancaq tarix və hadisələr göstərdi ki Versal kürsüsünün ömrü və gücü az oldu. Kapitalist dövlət başçılarının qanlı qırğın siyasətləri sonralar da şiddətlə davam etdi.

Tarixi hadisələri xatırlamaqdan başqa muzey xadimləri bu sarayda əcayib və gülünc mətləbləri də böyüyüb danışırlar; kralın yatağında nələr olurdu, yorğan-döşək salıb yığmaq mərasimi necə keçirilirdi. Kimsə bu otaqda qara çiçək tutub öləndə xidmətçilər necə kənara qaçıb, saray adamlarının "Öküz gözü" salonundakı qiybəti (bu salonun yuxarı, dairəvi pəncərəsi öküz gözünə çox oxşayır) necə yayılır, təsir bağışlayırdı. Kraliça Mariyanın oynaşı ilə gəzib keyf çəkməsi tarixi hadisə kimi səyyahlara bütün təfsilatı ilə danışılır. Qəribədir ki, indi də həmin kraliçə adına küçə var.

Versalın gözəl parkı var. Buranın arxitekturasına, bəzəyinə söz yoxdur. Üç min gül növü yetişdirilir. Böyük kanal, zəngin restoran, tamaşa yerləri var.

Per-La Şes deyilən məşhur Paris qəbristanlığına getdik. Kommunarların xatirə lövhəsinə baxdıq. A.Barbüsün, Jolio Kürinin, Marsel Kaşenin məzarını, Dimitrovun müdafiəçisi Marşel Vilaarın, faşist cəlladlarının qurbanı olan bir çox fransız vətən-

pərvərlərinin qəbrini ziyarət etdik. 1940-cı ildə, alman-faşist işğalından sonra Fransanın çəkdiyi iztirabları bu qurbanların xatirəsində də aydın görmək olar. Faşistlər vətənpərvər qadınları 1944-cü ildə dəstə-dəstə qırmışlar. Fransanın indiki baş naziri De Qollun qızı da bu qurbanların içində olmuşdur.

Faşistlər Mauthauzen Kons düşərgəsində 12,500 adam öldürmüşlər. Burada dustaqların necə işgəncə ilə saxlandığını göstərən gözəl bir heykəl var. Fransız dustaqlar 186 daş pilləkandan qalxmağı, çiynində ağır daş daşımalı imişlər. Sənatkar Şuenin yaratdığı heykəl olduqca canlı və təsirlidir. Bu təsir bir də ona görə bizim qəlbimizdə həkk olundu ki, həmin qurbanların anaları, bacıları, arvadları əzizlərinin qəbri ətrafında əkilən gülləri sulayır, dəhşətli günlərin 15 illiyini qeyd etməyə hazırlıq görürdülər. Həmin qadınlar bizi tanıyanda, böyük bir ölkədən, xalqları faşist zülmündən xilas edən qüdrətli Sovet İttifaqından olduğumuzu biləndə minnətdarlıq hissilə köyrəldilər, gözləri yaşardı, bizim də gözlərimiz yaşardı. Biz onlarla səmimi görüşdük. Fransız qadınları ağır günlərin bir daha təkrar olunmaması üçün çalışan dövlət başçılarına – sülhün carçısı Nikita Sergeyeviç Xruşşov yoldaşa xeyir-dua verdilər, təşəkkür etdilər.

Kommunarların divardakı xatirə lövhəsi çox sadədir və günəş, yağışlar nəticəsində silinib getməkdədir. Qəbirstanlığın ən təntənəli, abad hissəsi varlıların olsa da, böyük tarixi simaların məzarları da abaddır. Barbüsün qəbrini götürmək üçün gətirilən qırmızı mərməri Ural fəhlələri vermişlər. Fransızlar bunu təşəkkürlə yad edirdilər. Bizim səyahət proqramımız çox gərgin idi. Hər iki tərəf (sovet-fransız turist təşkilatları) çalışır ki, az vaxtda çox mətləb əhatə edilsin.

Vaxt azlığından çox yerə getmək mümkün olmur. Proqramda Parisin Sorbon darülfünü yox idi. Ancaq bizim dəstədə ədiblər, alimlər olduğu üçün oraya getməyi təkid etdik və getdik. Təəssüf ki, pasxa bayramı münasibətilə bütün Fransa məktəbləri, universitetlər aprelin ikisindən iyirmi ikisinə qədər bağlanmışdı.

Sorbon Parisin sıx küçələrindən birində, köhnə stildə tikilmiş





qara, ağır bir binadır. Balaca səliqəli həyəti var. Dərs salonlarından birinə baxdıq, divarları qırmızı taxta ilə örtülmüş, dörd yüz adam tutan bir salon idi. Opera teatrı stilində, sıralar mərkəzdən uzaqlaşdıqca yuxarı qalxırdı. Mühazirəçi hamıdan aşağıda, tələbələrin əhatəsində durmalı olur.

Kralın ruhanisi Robert Sorbon tərəfindən 1253-cü ildə düzələn bu bina əvvəl kasıb tələbələrin və müəllimlərin (ruhani) yurdu idi. Burada dini dərslər və ibadət öyrədilirdi. XIII əsrdən ruhani hazırlayan məktəb olub. 1808-ci ildə Napoleon bu binanı universitetə verib, incəsənət muzeyi kimi saxlayıblar. 1469-cu ildə kitab çapı da bu müəssisənin təşəbbüsü ilə olub. 1821-ci ildə müstəqil dini məktəb olub. Sonralar ədəbiyyat, təbiiyyat fakültəsi qalıb. Deyildiyinə görə, burada üç min tələbə var. Parisdə üç universitetdə hüquq, tibb, təbiiyyat, ədəbiyyat, əczaçılıq fakültələri və sair fakültələr var. Bunlarda altmış bir min tələbə var. Bu məktəblərdə dini fakültələr də mühüm yer tutur; katolik, protestan və s. Demək lazımdır ki, Sorbon bizim qiyabi nəzərimizdəki əzəmətindən çox aşağı, köhnəlmiş bir binadır. İndi Parisdə yeni universitet tikilməkdədir. Sorbon isə tarixi əhəmiyyəti olan bir yer kimi qiymətlidir. Sorbonda həyətdə və otaqlarda bir çox böyük simaların, o cümlədən Hüqonun, Molyerin, Baskalın, Zolanın heykəl və büstləri saxlanır.

Luvr Parisin ən məşhur tamaşalı yerlərindən biridir. Şəhərin mərkəzindədir. XII əsrdə normandlardan qorunmaq üçün qala idi. Sonra kral sarayına çevrilib, fransız inqilabından sonra isə muzey olub. Sarayın qabağında general La Fayetin at üstündə heykəli dayanmışdır. 1515-ci ildə saraya hər iki tərəfdən yeni qanadlar – hissələr tikilib əlavə olunub: fransız renesansının cürbəcür əlamətlərini bu tikintilərdə görmək olar. Naxışların bəzilərində simvolik hərflər nəzərə alınıb, hərflər də başqa-başqa tərəflərdən müxtəlif şəkildə oxunur. Ayrı-ayrı müqəddəs, ya tarixi şəxslərin adına işarə edir.

Bu naxışı latın əlifbasında həm D, həm H kimi oxumaq olar və hər ikisi düzdür, burada kiminsə xatirəsi nəzərdə tutulmuşdur.

Luvr sarayı bütün gözəlliyinə rəğmən 1860-cı ilə qədər altı yüz illik bir müddətdə tikilib. 1793-cü ildən xalq muzeyi adlandırılıb. Burada dünyanın ən yaxşı sənət abidələrindən nümunələr tapmaq olar. Antik sənətin bəzi şedevr əsərləri (Venera) burada saxlanır.Veneranı 1820-ci ildə yunan adasında kotan sürən bir türk kəndlisi tapıb. Kotan heykəlin bəzi yerlərini zədələyib. Fransız konsulu adadan keçəndə heykəli görüb alıb. Venera Minosskaya mərmərdən düzəlmə bir heykəl olaraq gözəllik nümunəsidir. Qadın vücudu, ahəng, kamillikdə misli yoxdur. Yunan sənətinin Elinist nümunəsi sayılır.

Luvrda bir-birindən gözəl, zəngin sənət salonları var ki, hamısında ecazkar nümunələr düzülmüşdür.

Uşaq atasının ayağıdan tikan çıxarır. Belə bir heykəli iki min il bundan əvvəl roma sənətkarları elə canlı yaradıblar ki, indi daşa yox, diri iztirab çəkən insana baxdığını güman edirsən.

“Antik telefon” adlandırılan iki hovuza baxdıq. Bunlar, bir-birindən çox uzaqda qoyulsa da, birinə deyilən söz o birisində eşidilir. Hovuzların biri hökmdar xanımın yanında olurmuş, o birisi də qulluqçuların yanında. Qulluqçular hovuza baş əyib əmr gözləyirlərmiş.

Bu saraya zəhmət çəkən, kömək edənlərin də heykəlləri, şəkli burada qoyulub. Uca, gözəl rəsm salonunun uzunluğu 257 metrdir. Burada İtaliya, İspaniya, Fransa əsərləri daha çox toplanmışdır. Dahi rəssam Leonardo da Vinçinin on səkkiz məşhur əsərindən altısı buradadır. Məlum olduğu üzrə, da Vinçi İtaliyadan qaçmış, əsərlərini Fransaya gətirmişdir.

Luvr binası böyük bir ansambldır; arxitektor Perro, Levo, Lesko və başqalarının əlilə əsrlər boyunca tikilmiş, zənginləşmişdir. Hər hakim bu saraya bir şey əlavə etməyi özünə həm dövlət, həm də vətəndaşlıq şərəfi saymışdır.

* * *

Bizim səyahətimizdən iki həftə əvvəl fransızlar, Paris fəhlələrinin dili ilə desək, bütün dünyada sülhün tribunu, sovet dövləti-





nin başçısı Nikita Sergeyeviç Xruşşov yoldaşla görüşmüşdülər. Bu görüşün təsirini biz kitablar, qəzetlər, lövhələr, şəkillərdən başqa sadə insanların, fransız zəhmətkeşlərinin simasında, hərəkətində, rəftarında, qonaqpərəstliyində də görürdük. Biz iftixar hissilə deyə bilərik ki, həm Parisdə, həm də başqa şəhərlərdə sovet adamlarına dərin hörmət gördük. Fransız xalqının sülh və əmin-amanlıqda yaşamaq arzularının hər şeydən güclü olduğuna bir daha inandıq.

Bizim yoldaşların bəzilərinin cibində sovet nişanları var idi (sputnik, Kreml, Qızıl Meydan, sülh göyərçini). Həmin nişanları yoldaşlar bəzən rast gədiyimiz, tanış olduğumuz fransızlara bağışlayırdılar. Yerlilər həmin hədiyyələri böyük sevinclə qarşılayır, fəxrlə döşlərinə taxır, təşəkkür edirdilər.

Cənubdan Parisə qayıtdığımız qatarda bizə xidmət edənlərə belə hədiyyə verəndə aşpazı da unutmadıq. Aşpaz öz libasında çıxıb səyyahları bir-bir qucaqlayıb öpdü və nişanını dərhal döşünə taxdı. Səyahətimiz bitirdi. Aprelin iyirmi biri Parisdə son günümüz idi.

Biz, uşaqdan böyüyə qədər fransız zəhmətkəşlərinin hamısında qüdrətli Vətənimizə, bu böyük ölkənin şərəfinə, sovet vətəndaşlarına dərin bir hörmət, dostluq hissi duyaraq, günəşli bir yaz səhərində Parisdən, Fransa torpağından ayrıldıq.

Vətəndən gələn rahat hava gəmisinə – “İL-18” təyyarəsinə əyləşdik, vidalaşdıq.

– Dostlar, hələlik!

– Hələlik, dostlar!

12 may 1960

*Azərbaycan. 1960. № 8. S.187-198*

## Xalq müəllimi kimdir?

Cavanlıqda mən kənd müəllimi olmuşam. Düzdür, indi mənim adıma ədib, professor, alim deyirlər, amma mən müəllim adı ilə həmişə fəxr etmişəm və indi də edirəm. Mədəni cəmiyyətin,

mədəni ailənin, mədəni vətəndaşın çox minnətdar olduğu zümrə müəllimlərdir. Gənc nəslin ilk nümunə, ibrət götürdüyü, sözünü, işini, hərəkətini təqlid etdiyi şəxs xalq müəllimidir.

Müəllim xalq ziyalılarının xarakter simasıdır. Kommunizm işində, ictimai şüurun müəyyənləşməsi, büllurlaşmasında, yeni nəslin cismən, zehnən müasir yetişməsində sovet müəllimlərinin xidmətləri böyükdür və cild-cild kitablara layiqdir. N.S.Xruşşov yoldaşın müəllimlər haqqında ağız dolusu danışmağı, Mərkəzi Komitənin və Sovet hökumətinin iştirakçısı olduğumuz müəllim qurultaylarını çağırmağı təklif etməyi, hamısı, hamısı sovet müəllimlərinin xalq qarşısında, kommunizm cəmiyyəti qarşısındakı zəhmət və xidmətlərinin qanuni və haqlı müqabilidir. Nə partiya, nə Komsomol, nə həmkarlar tarixində görülməmişdir ki, bütün qurultay nümayəndələri təltif olunsun. Belə bir şərəf ancaq Vətənimizin müəllimlər ordusuna nəsib olmuşdur.

Bu qayğıya cavab vermək, müəllim adının qüdsiyyətini qorumaq, daha da yüksəltmək bizim hər birimizin vəzifəsidir. Bu, hər bir müəllimin vəzifəsidir. Tez-tez arvad dəyişən, talibəsinə gözü düşən, zəhmətsiz nemətə tamah salan, böyüklərə yaltaqlanan, özündən asılı olanlardan istifadəyə çalışan adam təmiz müəllim adına yaddır.

Uşaqlar ən həssas, ən ayıq, ən səmimi insanlardırlar. Onların yanında bir sözün yalan çıxdımı, dərhal hörmətin düşəcək. Səni qaba bir hərəkətdə, çirkin bir əməldə gördülərmi, onların nəzərində nəinki təkcə sənin, bütün müəllim adı daşıyanların nüfuzu enəcək. Uşaqların iti müşahidə, amansız mühakiməsi qarşısında ehtiyatlı olun! Onların hörmətini qazanmağa çalışın. Camaat arasında hörmət qazanmayan müəllimin sözündə kəsər olmaz. Müəllimlər bilir ki, dəcəl uşağı təlqin edib ləyaqətli vətəndaş yetirəndə duyduğun sevinc qibtəyə layiqdir. Alman demokrat ədibi Remarkın müharibədən qayıdan və kəndə müəllim gedən qəhrəmanlarından biri uşaqlar ilə görüşəndə deməyə söz tapmır:

– Sizə nə deyim? Onu deyim ki, sizi top mərmilərinə yem böyüdürlər. Onu deyim ki, hamınız ya səngərlərdə çürüyəcək, ya





şikəst qayıdacaqsız. Müharibə meydanları sizi gözləyir…

Kapitalist dünyasında, imperialist hərislərinin hakimiyyətində gənc nəslin taleyi belədir. Ancaq kommunist cəmiyyəti quran bir ölkədə azad, bəxtiyar həyat təbliğatçıları olan sovet müəllimlərinin uşaqlara deməyə xoş sözü çoxdur:

– Tikilən şəhərlərin, salınan sarayların, cilovlanan çayların, yəhərlənən texnikanın əsl sahibləri sizsiniz, balalar! Fəth olunan fəzaların, açılan sirlərin, edilən icadların, ecazkar xarüqələrin yaradıcıları sizsiniz!

Bu yolda yazıçılarımızın, ədəbiyyatımızın, dərs kitablarının müəllimlərə köməyi vacibdir. Ədəbiyyatımızda parlaq müəllim surəti az yaranır. “Almaz”dan sonra gözə dəyən böyük bir əsər yoxdur. Etiraf etmək lazımdır ki, son illərdə ədəbiyyatımız, teatrımız lazımi qədər yüksək səviyyəli mənəvi nümunələr vermir. Bir zaman anadan olan uşaqların çoxuna Sevil, Yaşar, Elxan, Vaqif, Eldar, Xanlar adı qoyulurdu. Kimə məlum deyil ki, bunlar hər şeydən əvvəl, Cabbarlının, Vurğunun gözəl əsərlərindən gələn təsirlər idi. Belə nümunəvi əsərlərimiz indi daha da çoxalmalıdır. Ziyalılar müşavirəsində deyildiyi kimi, bizdə bəzən insanlara eybəcər adlar qoyulur: Naryad, Traktor, Təşkilat, Razborus. Universitet tələbələrindən birinin adı belədir:

– Ayubov Gennadi Misterxanoviç!

Yəqin ki, bu familiyanın əsli Əyyubovdur. Mister hara, xan hara? Belə bir mantajın məziyyəti nədən ibarətdir?

Mehdizadə və Əlizadə yoldaşlar öz geniş, məzmunlu məruzətlərində yazıçı və alimlərimizin diqqətini bir daha məktəbə cəlb etdilər. Ədəbiyyat dərsini mən şəxsən yalnız ədəbiyyat dərsi kimi düşünmürəm. Uşaqların, gənclərin xarakterinin kamilləşməsində, müəyyən peşəni sevməsində, həyata münasibətlərinin billurlaşmasında ədəbiyyatın, xüsusən, mühüm əsərlərin təsiri böyükdür. Sovet ədəbiyyatının təbliği müəllimlərimizin şərəf işidir. Bu ədəbiyyat həm fikri, həm etik, həm estetik tərbiyənin kəsərli silahıdır. Bu, ədəbiyyatı sevdirmək – uşağın zehnini işıqlandırmaq deməkdir. Odur ki, ədəbiyyat dərsinin məzmununa, metoduna, təş-

kilinə artıq diqqət yetirilməlidir. Yenidən qurulmaqda olan məktəblərimizdə ədəbiyyat proqramlarının mütləq yenidən tərtibi və geniş müzakirəsinə nail olmalıyıq.

Bu saat məktəblərdə keçilən proqram və dərsliklər bu cəhətdən qüsurludur. Məsələn, Süleyman Rüstəm kimi, qüdrətli bir şairin yaradıcılığını təqdim üçün proqramda şairin "Yaxşı yoldaş" poeması verilir. Oxucular bilirlər ki, bu poemada pambığa qum qatıb təhvil verən, aldadıcılıq yoluna düşən və sonu peşiman olan bir adamın yenidən tərbiyələnməsindən danışılır. Əcaba sovet adamlarının əməyə münasibətini göstərmək üçün elə həmin şairin öz əsərlərindən daha münasib şeir tapmaq olmazdımı?

Ümumiyyətlə orta məktəb proqram və dərslikləri köhnəlmişdir. Doğrudur, dərsliyin üzərində 1960-cı il yazılmışdır. Ancaq diqqətli oxucu görür ki, bu kitabça 15-20 il bundan qabaq tərtib olunmuş, ildən-ilə, necə deyərlər, təshih və redaktəyə uğramış bir kitabçadır. Bu proqramların qeyri-həyatiliyini sübut üçün bir-iki misal çəkəcəyəm: "Ana və poçtalyon" şeiri belə səciyyələnir: "Bu şeirdə xalq istəyinin, sülh və əmin-amanlıq arzusunun ifadəsi"ni oxuyanlar bilirlər ki, burada tamam ayrı məsələ təsvir olunur. Yuxarıdakı qiymət isə şairin "Gün o gün olsun ki" şeirinə aiddir. Kimə məlum deyil ki, Vətən müharibəsi illəri sovet həyatımızın ən parlaq mübarizə dövrüdür. Bu dövrdə sovet quruluşu, məfkurəsi, sistemi və sovet ədəbiyyatı bütün dünya qarşısında imtahan vermişdir. Özü də parlaq imtahan vermişdir. 41-45-ci illərin ağır, çətin, qəhrəmanlıq mübarizəsi sovet adamının şöhrətini ədəbiləşdirmişdir. Proqramda isə həmin dövr görək necə verilir? Onu da nəzərə almaq gərəkdir ki, bu saat 10-da oxuyan uşaqlar vətən müharibəsi dövründə hələ doğulmamışdılar, ya da beşikdə idilər. Onların proqramdan, məktəbdən və müəllimdən bu qəhrəmanlıq illərini öyrənmək tələbləri tamamilə haqlı və yerlidir.

Həmin dövr haqqında, o dövrün şərəfli ədəbiyyatı haqqında, mən deyərdim şair və ədiblərimizin mürəkkəb ilə yox, qan ilə, qələm ilə yox, süngü ilə yazdıqları əsərlər haqqında görün necə soyuqluq göstərir.





Müharibə dövrünün zəngin, əlvan ədəbiyyatına 2 saat yer verilir. Halbuki müəyyən yazıçıların hərəsinə 10 saat ayrılır. Güman olunmasın ki, ümumi söhbətdən sonra ədib və şairlərin konkret əsərləri vasitəsilə dövr xarakterizə edilir. Burada iki əsərin adı çəkilir ki, hər ikisi müharibədən sonrakı dövrün məhsuludur. Vətən müharibəsində nəinki qələmlərilə, hətta şəxsən, silahla iştirak edən ədib və şairlər haqqında susmaq nə qədər insafsızlıqdır. Hanı Səməd Vurğunun bu dövrdəki mübariz lirikası?

*Kimdir qartal kimi qayada yatan,*
*Pəncəsi düşmənin gözünə batan?*
*De, kimdir döyüşdə yüzə yüz atan?*
*De kimin qalası sıx ormanlardır?*
*O bizim qəhrəman partizanlardır!*

*De kimdir adına qardaş dediyim?*
*Qəmimə, nəşəmə sirdaş dediyim?*
*De kimdir vətəndaş, yoldaş dediyim?*
*Bizim Koroğlutək qəhrəmanlardır,*
*Bizim ukraynalı partizanlardır.*

Vətənpərvərliyin, xalqlar qardaşlığının, qəhrəmanlıq pafosunun ifadəsi üçün belə gözəl nümunələri niyə balalarımıza öyrətməyək? Hanı R.Rzanın, O.Sarıvəllinin, Ə.Cəmilin, Ə.Məmmədxanlının, Ə.Əbülhəsənin döyüş ruhlu, hərarətli əsərləri? Hanı qoca Qafqazın antifaşist ədəbiyyatı, qızıl əsgər kitabxanası, cəbhə mahnıları? Bu şərəfli tarix səhifələrini məktəblilərə vermədən müharibə dövrü ədəbiyyatını necə öyrətmək olar?

O da qəribədir ki, proqramın müsəhhihləri, texniki redaktorları göstərilir, müəllifləri göstərilmir.

Deyildiyinə görə, orta məktəb, ədəbiyyat proqramlarının, dərsliklərinin yaradılmasında orta məktəb müəllimləri iştirak etmirlər, ya çox az iştirak edirlər. Məgər, 20-25 illik zəngin təcrübə sahibi olan, məktəbin və məktəblinin hazırkı tələbini hər kəsdən

yaxşı duyan və bilən qocaman müəllimlər bu işə az fayda verə bilərlər? Məncə, burada da orta məktəb müəllimlərinin hüququnu bərpa etmək lazımdır.

Məktəbi və təhsil-tərbiyəni yenidən quran fədakar müəllimlərimizə hərtərəfli kömək etmək üçün bundan sonra da bir sıra faydalı tədbirlər görmək lazım gələcəkdir. Xalq maarifinin, sovet pedaqojisinin tarixi, klassik müəllimlər haqqında monoqrafiyalar yaradılmalıdır. Akademiyanın ictimai elmlər bölməsində heç olmasa xüsusi şöbə yaradılmalıdır.

Bakıda mühəndis evi, həkim evi, yazıçı evi olduğu kimi, müəllim evi də yaradılmalıdır. Belə bir mədəniyyət ocağına ehtiyac çoxdur.

*Ədəbiyyat və incəsənət. 1960. 19 noyabr.*
*Azərbaycan müəllimi. 1960. 24 noyabr*

## Xalqın sevimlisi

Müəllimin şərəfli bir adı, qibtəyəlayiq tərcümeyi-halı var.

İlk dəfə bizim əlimizə qələm verən, qarşımıza kitab açan, hərfləri, hecaları təkrar-təkrar sadalayan, şəklini çəkən, öyrədən müəllimdir.

Ən uzaq kəndlərdə, ən qaranlıq, avam bir mühitdə maarif çırağını yandıran, keçmişdə təqdirə, tərifə yox: təhdidlərə, təkfir, təhqir və məhrumiyyətlərə, təqibə, hətta ölümə Prometey kimi sinə gərən; zülmət, avamlıq mühitinə nur gətirən, keçmişin qaranlıq mühitində bir ulduz kimi parlayan, bir qələmi, bir kitabı, bir də açıq ürəyi ilə, cəhalət kimi güclü düşmənə qarşı duran da xalq müəllimi olmuşdur.

Məzlum Şərq qadınlarını, məsum körpə qızları Məşədi İbadların, Şeyx Nəsrullaların, Qoçu Nəcəfqululuların, qazıların, müctəhidlərin əlindən xilas edən, kənddə ilk maarif çırağını yandıran, dini ehkam və adətlərə quldurçuluq tüfəngi deyən də xalq müəllimləri olmuşlar. Xalqımızın böyük xadimləri N.Nərimanov, Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov müəllim adı və ləyaqəti ilə həmişə fəxr etmişlər.





Sovet xalqı və bütün xalqlar müəllim adını dərin bir hörmətlə yad edir, əziz tuturlar. O da, təsadüfi deyil ki, bütün dünyada zəhmətkeşlər bəşəriyyətin dahi xilaskarı Leninə – böyük müəllimimiz deyirlər!

Müəllim müasir cəmiyyətdə böyükdən-kiçiyə hər bir mədəni insan üçün əziz və sevimli bir addır!

Müəllimsiz heç bir xalq və heç bir ölkə cəhalət, avamlıq əsarətindən qurtara bilməz. Müəllimin qol qoymadığı heç bir mütərəqqi məfkurə geniş yayıla bilməz. Müəllim həmişə sovet məfkurəsi cəbhəsinin yorulmaz əsgəri olmuşdur.

Böyük Leninin sovet müəllimlərinə bəslədiyi müstəsna hörmət və qayğısı təsadüfi deyildir. Vətənimizdə sovet müəlliminin fəal iştirak etmədiyi, ön sıralarda getmədiyi hansı ictimai-mədəni bir dövlət tədbiri var? Partiya və hökumətimiz şəhərdə və kənddə ən mühüm siyasi, ictimai, mədəni tədbirlərin icrasında xalq müəlliminə ən yaxın köməkçi kimi baxmışdır. Xalqımızın içərisində müəllim adı və ləyaqəti xüsusi hörmət və izzətlə yad olunur. Həqiqi xalq müəllimi kəndlinin ən yaxın dostu, müsahibi, sirdaşıdır. Kəndli ən çətin məqamda ona müraciət edir, çoxlarına qızmadığı sirri ona deyir.

Mədəni cəmiyyətin, ailənin, vətəndaşın ən çox minnətdar olduğu mütəxəssiz müəllimdir. N.S.Xruşşov yoldaş öz müəllimlərini minnətdarlıqla yad edir.

Müəllim xalq ziyalılarının ən xarakter, kütləvi simasıdır.

Kommunizm uğrunda mübarizədə, yeni şüurun billurlaşmasında, yeni nəslin cismən, zehnən tam müasir, sağlam yetişməsində müəllimlərin xidməti böyükdür və cild-cild kitablara layiqdir.

Deyirlər müəllimin əsəbləri tez pozulur, müəllim tez qocalır, çünki o, oxutduğu, tərbiyə verdiyi yüzlərlə balaların, müxtəlif ailə, müxtəlif mühitdən gəlmiş uşaqların inadına, şıltaqlığına dözməli, bu maraqlı, canlı insan "materialını" səbir ilə, ehtiyatla, təmkin və zövq ilə, zəruri, həm də üzüçü bir tədriclə "hamarlamalı", müasir cəmiyyətin tələb və məqsədlərinə tam uyğun bir şəkildə "işləməli", böyütməli olur. Sənətini sevən bir müəllim üçün

həmin müqəddəs vəzifədə can qoymaqdan, sümük sındırmaqdan, müvəffəq olmaqdan ləzzətli nə ola bilər?!

Tərəqqipərəst alman ədibi Remarkın romanında ("Evdət") birinci dünya müharibəsi cəbhələrindən qayıdan müəllim yenidən uşaqlar qarşısında dayananda, deməyə söz tapmır: "Gələcəkdə şikəst olacaqlarını, toplar üçün ət olacaqlarını, səngər künclərində parçalanacaqlarınımı, nəyi deyim?...".

Kapitalist dünyası yeni nəslə belə bir fəlakətli aqibət hazırlayır. Orada çalışan tərəqqipərvər müəllim də vicdan əzabı çəkir...

Yeni dünya quran bir cəmiyyətdə, böyük Vətənimizdə sovet müəlliminin bizim balalara deməyə xoş və fərəhli sözü çoxdur:

– Balalar, qurduğumuz yeni dünya sizi gözləyir. Tikilən əzəmətli şəhərlər, elmi icad, ixtiralar, fəth olunan fəzalar, kəşf olunan planetlər, insan səadətinə xidmət üçün səfərbər edilən elm, texnika, sənət... hamısı sizin, böyük gələcəyin yeni, bəxtiyar qurucularınındır! Elə bir dünya qurmaqda çalışaçaqsınız ki, keçmişin bütün böyük ictimai xadimləri sizə qibtə edəcəklər. Ən münəvvər simaların əsrlərcə arzuladığı həyatı, kommunizm dünyasını qurub başa çatdıranlar sizlər olacaqsınız.

Sizə bu şərəfli yolda uğurlar olsun!

*Azərbaycan müəllimi. 1960. 14 noyabr*

## Əsrin əlamətdar illəri

KOMMUNİST və fəhlə partiyaları nümayəndələrinin Moskva Müşavirəsi ümumdünya tarixi əhəmiyyəti olan bir hadisədir. Bu Müşavirə marksizm-leninizmi yaradıcı surətdə inkişaf etdirərək dünya inqilab hərəkatını yeni döyüş silahı ilə silahlandırmış, müasir dövrdə qarşıda duran vəzifələrin həlli üçün istiqamətləndirmişdir. Zəmanəmizin ən əlamətdar xüsusiyyəti ondan ibarətdir ki, indi yer üzündə sosializm sistemi bəşər cəmiyyəti inkişafının həlledici amilinə çevrilmişdir.

Böyük Leninin "İskra" səhifələrində Rusiyada inqilabçı marksist partiya yaratmağı vacib bir vəzifə kimi irəli sürdüyü





vaxtdan 60 il keçir. İndi dünyanın 87 ölkəsində kommunist, fəhlə partiyası yaşayır, öz sıralarında sülh, azadlıq, zəhmətkeşlərin səadəti yolunda ən ardıcıl mübarizləri möhkəm birləşdirir. İndi bəşəriyyətin üçdə bir hissəsindən çoxu sosializm bayrağı altında yaşayır və çalışır. Keçən 1960-cı il sosializm cəbhəsi birliyinin möhkəmliyini, sarsılmazlığını bir daha nümayiş etdirdi.

Biz indi əsrimizin çox əlamətdar illərini yaşayırıq. Vidalaşıb yola saldığımız 1960-cı il beynəlxalq aləmdə olduğu kimi, Vətənimizin, xalqımızın, kommunizm quruculuğunun qələbələr tarixində də mühüm mərhələ sayılmalıdır. Ucsuz-bucaqsız Vətənimizin hər yerindən arası kəsilmədən əmək raportları verilir.

N.S.Xruşşov yoldaşın dekabrın 28-də kommunist əməyi müəssisəsi olan Bakının Gürgan-neft mədənlər idarəsi işçilərinə göndərdiyi təbrikində deyilir: "Azərbaycanlıların, rusların, ukraynalıların və bir çox başqalarının çiyin-çiyinə işlədiyi sizin çoxmillətli kollektiviniz coşqun Xəzərin mürəkkəb şəraitində dənizin kortəbii qüvvələrinə qarşı mübarizə apararaq, əməyə kommunist münasibəti nümunələri göstərir".

Sovet Vətənimiz N.S.Xruşşov yoldaşın dili ilə qəhrəman dəniz neftçilərinin xarüqələr yaradan kommunist əməyini yüksək qiymətləndirmişdir.

Dənizdə neft çıxaranlardan söhbət gedəndə, insan həmişə əfsanəvi sərgüzəştlərin oda, suya, tufana qalib gələn nəhəng bahadırlarını xatırlayır. Ancaq Xəzərin qucağında, Neft daşlarında gedən çarpışma əfsanə yox, parlaq bir həqiqətdir. Tufanlı dənizin, gurultulu dalğanın hər an gözlənən hücumuna polad sinə gərərək yerin qəlbini sökən, yeraltı sərvətləri aşkara çıxaran, Vətənə yanacaq verən Bakı fəhlələri əməyə əsl kommunist münasibəti nümunələri göstərirlər. Sovet adamlarının bu rəşadət, fədakarlıq və vətənpərvərliyi isə bizim məğlubedilməzliyimizin, tükənməz qüvvəmizin mənbəyidir.

Dünyanın müxtəlif ölkələrindən gəlib gəzən səyyahlar təsdiq edirlər ki, Bakı qədər sürətlə dəyişən, inkişaf edən ikinci bir şəhər təsəvvür etmək çətindir. Bakı ildən-ilə yox, aydan-aya tərəqqi

edir. Hələ 12 il əvvəl qəlbi qədər sevdiyi Bakını tərənnüm edən Xalq şairi Səməd Vurğun yazmışdır:

*Bakı! Mehribanım, əzizim Bakı,*
*Sənin bu müqəddəs qucağındakı –*
*Xəyala hökm edən bu təntənədən*
*Şeir rübabını dindirirəm mən…*
*Bakı, Bakı, dedim müqəddəs ana;*
*Sən şöhrət yarandın Azərbaycana !..*
*Buruqlar dövrəmdə cərgələnmişdir,*
*Elə bil başıma nur ələnmişdir…*

İndi Bakının mənzərəsi tamam dəyişmişdir. Bu izdihamlı şəhərdə elə bil rayon, küçə, məhəllə yoxdur ki, tikilmək, yeniləşmək, böyümək prosesi yaşamasın. Yalnız ötən il şəhərdə Lenin muzeyi, Dövlət Akademik Dram Teatrı, Mərkəzi kitabxana binası, "Dostluq" kino-teatrı, funikulyor, evtikmə kombinatı işə salınmış, heykəllər qaldırılmış, parklar, bağlar abadlaşdırılmışdır. Bakının yuxarı hissəsi, Nərimanov, İnşaatçılar prospektləri tamamilə yeni bir şəhər olmuşdur. Çoxmərtəbəli, eyvanlı, yaraşıqlı mənzilləri, geniş, abad küçələri, yaşıl bağları, mağazaları, teatrları, restoranları, Akademiya, Universitet şəhərcikləri, stadionları olan, trolleybus xətləri çəkilən tam yeni, dalansız, döngəsiz, daxmasız, böyük miqyaslı, əzəmətli bir şəhər! Köhnə xarabalıqların, möhrə divarlar, torpaq damlar, uçuq həyətlərin yerində mavi dəniz ilə zümrüd fəza şəfəqində görünən ağ daş evlər üfüqdən-üfüqə cərgələnmişdir.

Bakı yaşıllıqlarla örtülməkdə, təbiətini dəyişməkdədir. Qafqazın söyüd, qələmə, çinar, qarağac kimi gözəl ağacları Bakı küçələrinin təzə və məğrur vətəndaşı olmaqdadır.

Qəhrəman 26-ların döyüş cəbhəsi, qocaman Qafqazda kommunanın ilk ocağı proletar Bakısının ilk inqilabi romantik mahnılarını Maksim Qorki, Ələkbər Sabir, Səid Müsəvi çağırmış; ilk qələbə dastanını Mayakovski, Cabbarlı, Vurğun yazmışdır. Ancaq Şərqin qapısında qalibiyyətlə kommunizm quran Bakının ən





böyük ədəbiyyat dastanı yaranmaqdadır. Bu dastan kainatı söküb yenidən tikən tunc biləkli, qartal baxışlı nəhəng, qüdrətli pəhləvanların kommunist əməyi briqadalarının polad əlləri ilə yaranır.

Axşam vaxtı göydən təyyarə ilə, dənizdən gəmi ilə Bakıya yaxınlaşanlar yarımadanın sahillərində daş umuzları ilə göylərə yüksələn, qədəmləri ilə suyun dərinliklərində duran ecazkar bir nəhəngin qol-qanaq açdığını, onun arxasından isə yamaca minlər, yüz minlərlə ulduz səpildiyini görürlər. "Göydən yerə nur ələnmişdir!".

Yox, bu işıq yerdən göyə yüksəlmişdir. Yeni dünya quranların məhsuldar əmək, mədəni həyat işıqları milyonlu şəhərin hər guşəsini nura qərq etməkdədir. Bakı küçələri yarımdairə şəklində dənizi qucan yamacdan enərək aşağıya gəlir. Sanki müvazi sıralarla pərilər kimi başlarını sərin sulara sallayırlar.

Bakının səhərləri, axşamları, günortaları təmkin deyən qocaların, sevinclə deyib-gülən gənclərin, bahar təravəti andıran balaların saf siması kimi xoş və fərəhlidir.

Biz bu qocaman, həm də əsl cavan şəhərdə Vətənimizin bütün böyük, kiçik şəhərləri, kəndləri ilə səs-səsə verib bayramlaşaraq təzə ili sevinc və fərəhlə qarşılayırıq!..

Qardaşlar, bacılar, dostlar, vətəndaşlar, yeni iliniz mübarək olsun!

*Bakı. 1960. 31 dekabr.*
*Ədəbiyyat və incəsənət. 1960. 19 noyabr.*
*Azərbaycan müəllimi. 1960. 24 noyabr*

## 1961
## Həmişə siz gələsiniz

RESPUBLİKAMIZDA başlanan RSFSR ədəbiyyatı həftəsi sovet ədəbiyyatının yaradıcıları üçün, oxucuları üçün mühüm mədəni bir tədbirdir.

Azərbaycan oxucuları və yazıçıları böyük rus ədəbiyyatının dünyaca məşhur simalarını öz doğma mədəniyyət adamları kimi

sevir və əzizləyirlər. Rus ədəbiyyatı, xüsusən, son əsrlərdə, bütün dünyada, bütün xalqların ədəbiyyatında müəllim vəzifəsini görmüş və görür.

Puşkin, Qoqol, Tolstoy, Qorki, Şoloxov, Tvardovski kimi ölməz sənətkarlar yetişdirən bir ədəbiyyat heç vaxt milli və coğrafi çərçivədə qala bilməzdi. Bu ədəbiyyat bütün bəşəriyyətin mədəniyyət xəzinəsini həmişə zənginləşdirmiş, insanların mənəvi inkişafına xidmət etmişdir.

Haqlı olaraq sovet şair və ədibləri rus ədəbiyyatının qabaqcıl nümunələrini dərindən-dərinə tədqiq edir, öyrənirlər. İndi sovet kəndindən, bu kəndin yenidən qurulma prosesindən, insanların şüurunda əmələ gələn köklü təbəddülatdan yazan və bu yaradıcılıq işində sovet klassiki Şoloxovdan öyrənməyən ədib təsəvvürə gətirmək çətindir. Eləcə də bütün dünyada yeni, fəal, döyüşgən şeirin ən yaxşı nümunələrini, birinci növbədə rus sovet şeirinin mübariz yaradıcılarından axtarıb tapmaq çox təbiidir. Azərbaycanın görkəmli sovet yazıçılarından eləsini tapmaq olmaz ki, öz yaradıcılıq inkişafında bu və ya başqa dərəcədə rus ədəbiyyatından zəngin bir mənbə kimi öyrənməsin, faydalanmasın. S.S.Axundov, C.Cabbarlı, Səməd Vurğun, Süleyman Rəhimov, Mehdi Hüseyn, Mirzə İbrahimov, Rəsul Rza və başqa görkəmli yaradıcılar bu həqiqəti fəxr ilə deyirlər. O da təsadüfi deyil ki, bu yaradıcıların, demək olar, hamısı rus ədəbiyyatından tərcümələr etmiş və öz əsərlərini də rus dili vasitəsilə milyonların nəzərinə çatdırmışlar. Aseyev, Simonov, Adalis, Libedinski, Antokolski, Pançenko, Vasilevski və sair rus yazıçıları Azərbaycan ədəbiyyatının tərcüməsi sahəsində çox mühüm iş görmüşlər. Deməli, rus ədəbiyyatı milli yazıçılara bir müəllim olmaqdan başqa, həm də yaxşı bir nümunə, fəal və uca səsli bir təbliğatçı rolunu oynamışdır.

Ədəbiyyat həftəsinin Bakıda keçirilməsi, müasir rus yazıçılarının – Tixonov, Simonov, Şipaçov, Marşak, Katayev, Leonov, Markov, həmçinin Rəsul Həmzətov və başqalarının yaradıcılıqları haqqında müzakirələr, ədəbi məclislər keçirilməsi Azərbaycan yazıçı və oxucularını sovet Rusiyasının bu günkü ədəbi həyatı və





mübarizəsi ilə daha yaxından tanış edəcəkdir. Tamamilə əminik ki, ədəbiyyat həftəsi ədəbi əlaqələrimizin daha da möhkəmlənməsində, mütəqabil qələm dostluğu və yardımının daha geniş miqyas və vüsət kəsb etməsində çox mühüm bir tədbir olacaqdır. Qardaş Rusiya yazıçıları ilə şəxsən görüşlər və söhbətlər onların yaradıcılıq laboratoriyalarında gedən maraqlı prosesi öyrənməyə kömək edəcəkdir. Yazıçılar, öz yaradadıcılıq aləmləri haqqında yeni niyyətləri, bu niyyətlərin icrası üçün düşündükləri tədbirlər, kommunizm qurucularının parlaq bədii surətlərini yaratmaq yolundakı tükənməz səyləri, müvəffəqiyyət və ya kəsirləri haqqında danışacaq, oxucularla ürək söhbəti edəcəklər.

Ədəbiyyat həftəsi öz mənası, nəticəsi və əhəmiyyəti etibarilə yalnız ədəbiyyat çərçivəsində qalmayacaq, unudulmaz, böyük mədəni bir hərəkat olacaqdır. Bu həftə yalnız oxuculara deyil, həm də qüdrətli ədəbiyyat ordumuzun əsgərlərinə yeni ruh, yeni qüvvət verəcəkdir. Qonaqlarımız bizim respublikaya xoş gəlib, səfa gətiriblər!

*Ədəbiyyatvə incəsənət. 1961. 15 aprel. №14*

## Qoca şərqin qocaman filosofu

–Taqor Bakıya gəlir! Hələ sağlığında şöhrəti dünyaya yayılan Hind filosofunun Azərbaycana səfəri, eşidənlər üçün çox maraqlı bir xəbər idi. Bu həmin illər idi ki, qərb müstəmləkəçiləri Çini, Hindistanı və bütün Şərqi inqilab işığından məhrum eləmək üçün hiylə qalmırdı işlətməsinlər. Bu həmin illər idi ki, dahi Leninin Şərq xalqlarına nicat yolu göstərən məqalələri bütün Şərq dillərinə tərcümə olunub əl-əl gəzirdi.

Bu həmin illər idi ki, C.Cabbarlının çılğın bir ehtirasla yazdığı "Ey Şərq" şeiri tribunalarda səslənirdi:

*Ey Şərq, sənin üstündə cahan çarpışıyorkən,*
*Aləm səni bölməklə səadət buluşurkən...*
*Hala də sükut etmədəsən ey, evi bərbad,*
*Kimdən, əcəba, ummadasan kəndinə imdad?..*

Oktyabr inqilabının mübarizəyə qaldırdığı məzlum Şərq xalqları Sovet İttifaqına böyük bir məhəbbətlə baxır, buradakı yeni quruluşu azadlığın parlaq əyani timsali kimi izləyirdilər.

"Kommunistlər bütün xalqı oyadıblar" deyən Taqor da bu səfərində, hər şeydən əvvəl, inqilab ölkəsinin yeni həyat, istiqlaliyyət uğrunda mübarizəsilə çox maraqlanırdı. Taqor Sovet İttifaqının dostu idi. Sovet xalqının imperializmə, müstəmləkəçilərə qarşı mübarizəsi qoca ədibə ilham və qanad verirdi.

Hələ 1905-ci ildə ingilis lordu Kerzonun Benqaliyanı parçalamaq tədbiri Hindistandan Svadeşi deyilən azadlıq hərəkatını alovlandırmışdı. Paytaxtda nümayişə çıxan kütlələr Taqorun şeirini oxuyaraq addımlayırdılar.

Cəvahirləl Nehru deyir ki, "Taqor Hindistan xalqını məhdud təfəkkür yolundan çıxıb insanlığı məşğul edən böyük problemlər üzərində düşünməyə çağırdı". Taqorun vətənpərvər şeiri sonralar Hindistan respublikasının Himni oldu.

Taqor nəinki təkçə Hindistanın, həm də əsrinin və bəşəriyyətin ləyaqətli oğlu olaraq ömrünün böyük mənasını xalqının mədəniyyətinə, maarifinə, mənəvi yüksəlişinə xidmətdə görürdü. Haqlı olaraq alimlər onu dünyanın böyük filosofları ilə müqayisə edirlər. Nizami, Sədi, Tolstoy, Qorki kimi böyük simalardan biri olan Taqor, maarif, mədəniyyət, xalq intibahı, ədalət, məzlumlara kömək yolunda əlindən gələni əsirgəməmişdir. Onun qəlbi müstəmləkəçilərə, imperialistlərə nifrət hissi ilə dolu idi; ingilis imperialistlərinin hind xalqına əsarət, həqarət gətirdiyini görür, qəzəblənirdi.

Taqor xalqının dərdi ilə yaşayan bir filosof idi. O deyirdi: "Mənim həmvətənlərimi adam hesab eləmirlər, hər hansı bir imtiyaz sahibi olmağıma utanıram".

Böyük ədibin bütün əsərlərində xalq kütlələrinin, xüsusilə hind kəndlisinin arzu və ideallarını tərənnüm əsas yeri tutur. Taqorun elə əsəri yoxdur ki, orada ictimai ideallar ön plana çəkilməsin. "Böyük ideyalar körpə uşaq kimi doğulur, sonradan böyüyürlər" (Taqor).

"Fəlakət" romanı 30-cu illərdə Azərbaycanda şöhrət qazanmış əsərlərdəndir. Burada həqiqi həyat və insani meyillərlə mürtəce ənənələr arasındakı ziddiyyət qabarıq təsvir olunur.





Taqor ədəbiyyatın rəsmi təntənə stilini pozan, yazını danışıq dilinə yaxınlaşdıran qüdrətli bir ədib idi. Onun əsərlərində müasir cəmiyyət, xüsusən, hind ictimai, ailə münasibətləri başlıca mövzü idi. Taqor xalq kütlələrini güclü təsvir edir, sıravi insanı ədəbiyyatın əsil müsbət qəhrəmanı kimi göstərir və sıravi adamların "sahiblər", ağalar, satqın adamlar əleyhinə mübarizəsini ədalətli mübarizə kimi verir.

O. məzmunda olduğu kimi, ədəbi formada da məhdudluq bilmir, ədəbiyyatın bütün forma və janrlarından istifadə edirdi. Tərbiyə, təhsil, maarif məsələləri Taqoru çox məşğul etmişdir. Boyük ədib bu məsələlərdə də sərbəstliyin insani hisslərin təbliğinin tərəfdarı idi.

"Fəlakət" romanında məzlum Şərq qadın və qızlarının hüquqsuz həyatı təsirli və inandırıcı lövhələrlə göstərilir. Ən adi insani hüquqlardan məhrum, qapılarda bir tikə çörək üçün əsir kimi yaşayan Kumula dəhşətli işgəncələrə məruz qalır. Azərbaycan oxucusu bu nisgilli qız ilə tanış olanda gülbaharları, sevilləri, sonaları nəzərinə gətirir, bu məzlum, məhrum, həm də məsum insanların düşməni olan köhnə həyata, çürük ənənələrə, dini etiqadlara, istismar və bərabərsizliyə daha artıq nifrət edir.

Çoxmilyonlu Hind xalqının böyük ədibi Rabindrant Taqorun zəngin və ölməz ədəbi-fəlsəfi irsi Azərbaycan oxucularına da eyni dərəcədə qiymətli və yaxındır. İnsan mənəviyyatını yüksək tutan və ürək çırpıntısı ilə tərənnüm edən-alovlu vətənpərvər və dərin humanist yazıçının ölməz xatirəsi bizim hər birimiz üçün əzizdir.

*Ədəbiyyat və incəsənət. 1961. 6 may*

## Lenin işinin təntənəsi

Partiyamızın tarixi XXII qurultayı-kommunizm cəmiyyəti qurucularının qurultayı müvəffəqiyyətlə öz işini qurtarmışdır. Sov.İKP-nın yeni Proqram və Nizamnaməsi yekdilliklə qəbul edil-

mişdir. Qurultayın işi N.S.Xruşşov yoldaşın məruzələri və son sözü, həmçinin qurultaydakı başqa məruzə və çıxışlar, qəbul edilən qərar və qətnamələr qüdrətli kommunizm yürüşünün parlaq nümayişidir. İndi bütün ölkələrin zəhmətkeşləri Sovet İttifaqı kommunistlərinin, zəhmətkeşlərinin ardıcıl, qəhrəman, fədakar işini dərin bir maraq və sevinclə izləyir, onunla fəxr edirlər. Çünki onlar bilirlər ki, Sovet İttifaqı zəhmətkeşləri, sosialist sisteminin əməkçiləri yer üzündə sülhün və səadətin möhkəm dayağıdır.

Sovet İttifaqı kommunistlərinin böyük bir əzm və yekdilliklə qəbul etdikləri yeni Proqram yalnız sovet xalqının deyil, eyni zamanda, bütün zəhmətkeşlərin qələbəsi, səadəti proqramıdır. Bu proqram əməyin istismara, zəkanın stixiyaya, ədalətin zülmə, işığın qaranlığa əbədi qələbəsi proqramıdır. Bu proqram bəşəriyyətə həmişəlik olaraq günəşli gündüzlər müjdəsi verən proqramdır. Proqramda göstərilir:

"Partiya SSRİ-də kommunizm quruculuğunu sovet xalqının böyük beynəlmiləl vəzifəsi, bütün dünya sosializm sisteminin mənafeyinə, beynəlxalq proletariatın və bütün bəşəriyyətin mənafeyinə uyğun olan vəzifə hesab edir.

Kommunizm bütün insanları ictimai bərabərsizlikdən, hər cür zülm və istismardan, müharibə dəhşətlərindən xilas etmək kimi tarixi bir vəzifəni yerinə yetirir və yer üzündə SÜLHÜ, ƏMƏYİ, AZADLIĞI bütün xalqların BƏRABƏRLİYİNİ və SƏADƏTİNİ bərqərar edir".

Vətənimizdə qalib gələn, indi yalnız arzu və amal yox, həm də ƏMƏLİ bir proses, parlaq bir HƏQİQƏT olan kommunizm cəmiyyəti bütün mütərəqqi bəşəriyyətin, bütün zehni açıq, uzaqgörən, humanist, mütəfəkkir və ictimai xadimlərin əsrlər boyu xəyal bəslədiyi xoşbəxtlik, dinc, azad, mədəni, yüksək və firavan həyat deməkdir.

Cəmiyyətin tarix boyu keçdiyi inkişaf mərhələlərində, elmin, ədəbiyyat və mədəniyyətin bütün dərəcə və formalarında böyük mütəfəkkirlərin arzuladığı məhz belə bir həyat, belə bir quruluş idi.

Bu həyat və quruluşu həqiqətə çevirən, bəşər cəmiyyətini aclıq, fəlakət, müharibə və qırğınlardan, canavar ehtiraslarının hökm sürdüyü üsul-idarələrdən xilas edib İNSAN sözünün məğrur və ŞƏRƏFLİ səsləndiyi ali bir mərtəbəyə kommunizmə gətirib çıxaran yalnız və yalnız bir qüvvə oldu ki, o da marksizm-leninizm ideyaları ilə silahlanan şanlı kommunistlər partiyasıdır. Partiyamızın Proqramında təntənəli surətdə elan edilmişdir ki: Vətənimizdə insanların indiki nəsli kommunizmdə yaşayacaqdır!





İndi hər bir sovet adamının qəlbi fərəhlə, iftixarla döyünür, köksü qürur hissi ilə qabarır. Ən yüksək, ən ülvi və ən bəxtiyar bir cəmiyyət quruluşu olan kommunizmdə insanın bütün fiziki və mənəvi qüvvələrinin ahəngdar bir vəhdətdə, əzəmi dərəcədə inkişafı üçün bütün imkanlar yaranmış olur. İnsan zehni yaratmaq ilhamının qanadları ilə üfüqləri ötür, fəzaları fəth edir. Əsrlərcə istismar dünyasında sıxıntı, əzab çəkən insan mənəviyyatı köhnə cəmiyyət vərdişlərinin, ehtiyacın, məhrumluğun ağır məngənəsindən bir dəfəlik xilas olaraq yaradıcı əməyin şeiriyyəti ilə yüksəlir. Elm ilə birləşən, azad, kollektiv əmək ümumi səadət dünyasını quran nəhəng bir qüvvəyə çevrilir. Kommunizm cəmiyyətinin bu yüksək mədəniyyət, azadlıq, səadət, birlik dünyasının həmişə və hər yerdə qələbəsi üçün hər bir sovet adamının, kommunist cəmiyyəti üzvünün fədakar yaradıcı əməyi, coşğun bir ilhamla çalışması mühüm şərtlərdəndir.

Şübhə yoxdur ki, yeni cəmiyyət, yeni həyat və yeni insan nə qədər sürətlə inkişaf etsə də köhnə cəmiyyətdən qalma vərdiş və meyillər birdən-birə və hamılıqla aradan qalxmır. Şüurlardan köhnəlik qalıqlarını tamamilə yox etmək üçün ardıcıl, davamlı mənəvi tərbiyə işi lazımdır. "Hər kəsdən qabiliyyətinə görə" tələb edən, hər kəsə "ehtiyacına görə" nemət verən yeni cəmiyyətdə əməkdən uzaq "bekar" adamlara, tüfeyli həyata yer yoxdur. Bu elə bir cəmiyyətdir ki, ORADA YARADICI ƏMƏK hər bir sağlam adam üçün zərurətdir. Kommunizmin tam qələbəsi hər bir kəsin əmək cəbhəsində şüurluluğunu, fədakarlığını, cəmiyyət işində fəal iştirakını tələb edir. Burada fərdlər bütün cəmiyyət üçün, cəmiyyət isə hər bir fərd üçün cavabdehdir.

Kommunist əxlaqı yeni insanın çox mühüm bir keyfiyyətidir. Cəmiyyətə, kollektivə, yoldaşa, ailəyə, qadına münasibətdə ƏSİL kommunist olmaq lazımdır.

Biz ədəbiyyat adamları bəzi əsərlərimizdə adamların yeni münasibət, zövq, yeni mənəvi keyfiyyətlərinin cilalanıb inkişafına, billurlaşmasına az fikir veririk. Bəzən ümumi mövzularla və mətləblərlə uğraşaraq adamların gündəlik həyat və məişətindəki incəliklərə, zahirdə xırda görünən insani xüsusiyyətlərə lazımınca əhəmiyyət vermir, bədii lövhələrdə lazımınca mənalandırmırıq. Halbuki belə cəhətlər müasir oxucunu, yüksək bir cəmiyyətə qədəm qoyan, insanın ən kiçik rəftarında YENİ cəhətləri görən və bunu bədii əsərdə görə bilməyən sovet oxucusunu çox düşündürür.

Müasir ailə, məhəbbətdən danışan povest, hekayə, poemalarımızın bir qismində yeni məişətimizin şeiriyyəti, əlvanlığı, zənginliyi, tam gözəlliyi, parlaqlığı ilə görünmür. Həyati hadisə və lövhələr bəzən dayaz, sönük, maraqsız təsvir olunur.

Müasir sovet oxucusunun bədii zövqü, mənəvi tələbi çox-çox yüksəlmişdir. Bizim bir sıra əsərlərimizin səviyyəsi isə bu tələbdən aşağıdadır.

Sovet yazıçılarının indi başlıca vəzifəsi müasir sovet varlığımızın yüksək bədii ifadəsini, əsərlərin ideya-bədii keyfiyyətinə, yüksək sənətkarlığına, müasir bədii zövqü oxşaya bilməsinə ciddi fikir verməkdir. Bütün dünyada ən qabaqcıl bir cəmiyyət olan yeni həyatımıza layiq, yalnız mövzu, məzmunu ilə deyil, həm də ideya-bədii TƏSİR QÜDRƏTİLƏ oxucunu valeh edən, onun mənəvi aləminə zəngin qida verə bilən yeni, yüksək səviyyəli əsərlər yaratmaq bizim əsas vəzifəmizdir! Şübhə ola bilməz ki, partiyamızın yaxın köməkçisi olan mübariz qələm ordumuz XXII qurultayın qərar və göstərişlərilə silahlanaraq kommunizm qurucularının yüksək mənəvi tələbatına cavab verən yeni-yeni əsərlər yaradacaq, sovet ədəbiyyatının bütün dünyada şöhrətini daha da artıracaqdır.

*Ədəbiyyat və incəsənət. 1961. 4 noyabr. №43 (1142)*





## 1963
## Leninin yolu ilə

Bizim Vətənimizdə böyükdən-kiçiyə hər bir zəhmətkeşin qəlbinə, taleyinə bu ad qədər yaxın, əziz, müqəddəs, doğma və böyük olan ikinci bir ad təsəvvür etmək mümkün deyildir.

Lenin bizim səadətimizin, bəxtiyar gün-güzəranımızın, şən və şaqraq həyatımızın canlı simvoludur. Sovet dövründə Vətənimizdə bir neçə yeni nəsil böyümüş, tərbiyə almış, ictimai həyata, sosializm, kommunizm qurucuları sırasına qədəm qoymuşdur. Bunların cavan və orta yaşlı hissəsi Vladimir İliçi şəxsən görməmiş, onunla bir yerdə işləməmişdir, amma milyon-milyon zəhmətkeş arasında bir nəfər də tapmaq mümkün deyil ki, öz həyatını, işini, mübarizəsini, taleyini, səadətini, gələcəyini, ümidlərini böyük Leninin adı ilə, onun ideyaları ilə, onun böyük arzuları ilə bağlamamış olsun.

Dünyada birinci sosialist dövlətinin yaradıcısı, inqilab dahisi böyük Leninin məhəbbəti xalq kütlələrinin, milyonların qəlbində dərin kök salmış, əbədi yaşamaqdadır. Hələ Azərbaycanda Sovet hakimiyyəti qurulmamışdan əvvəl Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz qurtuluş, səadət arzuları ilə üzünü şimala, Leninin Vətəninə çevirərək demişdi:

*Tutaq Lenin ətəyindən, ona pənah aparaq,*
*Zəmanəmizdəki həlali-təşkilat odur!*

Lenin dühası ilə bütün cahana səadət günəşi doğmuşdur. Fəhlələr, kəndlilər və zəhmətkeş ziyalılar bu böyük ada azadlıq, qurtuluş, mübarizə bayrağı kimi baxır, həmin bayrağın altına toplanırlar.

1921-ci ilin yazında fəhlə nümayəndələri ilə V.İ.Leninin görüşünə gedən köhnə bolşevik A.A.Nikişin öz xatirələrində yazır: “Vladimir İliç bizə deyirdi ki, Bakı fəhlələri indi iki vəzifəni yerinə yetirməyə girişməlidirlər; neft sənayesini bərpa etməli və

Muğan düzünü becərməlidirlər. Sonra Vladimir İliç yenə də Bakı fəhlələrinin necə yaşadıqlarını soruşdu və biz onların adından təkidlə xahiş etdikdə ki, Bakıya gəlib onların necə yaşadıqlarını özü görsün, – Lenin cavab verdi ki, Bakı fəhlələri ilə görüşməyi çox arzu edir, onları fəhlə sinfinin ən yaxşı dəstələrindən biri kimi tanıyır və ən azacıq fürsət düşüb işləri bir qədər yüngülləşən kimi onların xahişinə həvəslə əməl edəcəkdir.

Sonra Vladimir İliç, Bakı proletariatına alovlu salam yetirməyi bizdən xahiş etdi...".

Lenin bütün Vətənimizin, həmçinin Azərbaycanın gələcək inkişafını, çiçəklənməsini, Şərqin qapısında ən mədəni, nümunəvi bir respublikaya çevrilməsini həmişə arzulamış və bu yolda əməli yardımını əsirgəməmişdir. Hələ inqilabın ilk illərində, Leninin kommunizm qurmaq planları ilə ruhlanan fəhlə sinfi, zəhmətkeş kəndlilər, o cümlədən Bakı və Azərbaycan bolşevikləri böyük dahinin ölməz arzu və ideallarını xalq arasında yaymaq və həyata keçirmək uğrunda fədakarlıqla çalışırdılar. Təkcə 1917-ci ilin aprel-noyabr ayları arasındakı müddətdə Bakı və onun rayonlarında 400-dən çox mühazirə oxunmuş, "Bakinski raboçi"qəzeti 1917-1918-ci illərdə V.İ.Leninin 77 məqalə, məktub və məruzəsini çap etmişdi. "Hümmət" qəzeti Lenini **məzlumların atası** adlandırırdı. Qəzet müsəlman fəhlə zəhmətkeşlərinə xitab edərək deyirdi. "Ey ata-babasının yurdunu sevən müsəlman camaatı! Ey hüququnu düşünən və onu müdafiə etmək istəyən müsəlman xalqı! Ey balalarının istiqbalını fikir edən, onların səadətinə çalışan atalar və analar!.. Sizin hər cəhətdən **nicat yolunuz Leninin məramnaməsindədir!".**

Bakı Sovetinin "Əxbar" qəzeti 1918-ci il 7 iyun tarixli nömrəsində geniş zəhmətkeş kütlələri Lenin yoluna çağırırdı: "Yoldaş Leninin adı bütün cahana yayılmışdır. Rusiya inqilabikəbirinin başçısı olan bir kişinin tərcümeyi-halından və fəaliyyətindən xəbərdar olmağa çox yoldaşlar maraq etsin gərək!".

Günəş qüdrəti və ideyaları aləmə yayılan böyük dahinin məhəbbəti bütün dünya zəhmətkeşləri kimi, Azərbaycan zəhmətkeşlərinin də qəlbində möhkəm və əbədi yer tutmuşdur. İndi Leninin əsərləri hər bir kəsin, hər bir ailənin ən əziz həyat, mənəviyyat kitabı olmuşdur. Leninin əsərləri Azərbaycanda 2 milyon yarım nüsxədən artıq tirajla nəşr olunmuşdur. Bu əsərlər hər bir kəsin həyat, mübarizə, məslək məramnaməsidir. Böyük dahinin ölməz əsərləri, tərcümeyi-halı, onun haqqındakı xatirələr, onun mübarizəsini tərənnüm edən bədii əsərlər zəhmətkeşlərin əsil mənəvi qida mənbəyi olmuşdur.





Biz böyük dahinin xatirəsini yad etdiyimiz zaman yalnız onun əsərlərini, yalnız onun haqqında yaranan kitabları, abidələri düşünmürük. Böyük Vətənimizin hansı səmtinə nəzər salırıqsa, – zavod və fabriklərdən, üfüqdən-üfüqə uzanan nəhayətsiz, bərəkətli tarlalardan, bol məhsullu bağ-bağatdan, polad şahinlər uçuşan göylərdən, dənizlərdən Leninin adını eşidirik, onun ölməz əməllərini görürük. Yer kürəsinin hər yerində Lenin, leninizm sözləri-səadət, sülh, qurtuluş simvolu kimi səslənir. Böyük gələcək amalı ilə qanadlanan yer oğlunun, yer qızının qələmi şəfəqlərdən rəng alır, üfüqlərə yazır:

Lenin! Lenin!

Biz Lenini həmişə şanlı Vətənimizin əzəmətində, şöhrətində, qələbələrində görürük.

Biz Lenini abad şəhər və kəndlərimizdə, parlayan sənayemizdə, elm ocaqlarında, fəza fatehlərinin kainata yol açmasında, alimlərimizin böyük kəşflərində, şairlərimizin saf şeirlərində, mədəniyyətimizin təntənəsində, məktəblərdə, İliç lampalarının gur işığında, ordumuzun qüdrətində, körpələrimizin bahar təbəssümündə, müdrik qocalarımızın həyatında görürük.

Təkcə Sovetlər ölkəsində deyil, bütün dünyada tərəqqipərvər insanların ən böyük arzu və əməlləri Leninin adından və əməllərindən qüvvət alır. Zülm və zorakılıq dünyasını kökündən dağıdan, azadlıq bayrağını yüksəklərə qaldıran Asiya, Afrika, Latın Amerikası xalqları Lenin dühasından ilhamlanırlar.

Lenin deyəndə biz Kommunist Partiyasını, partiya deyəndə Lenini düşünürük. Böyük dahinin müqəddəs vəsiyyəti həmişə bizim zehnimizdə, qəlbimizdədir: partiya adını uca və müqəddəs tutmalı!

Biz qoca və köhnə dünyada ən yeni və ən işıqlı bir quruluş, əbədi bəxtiyarlıq həyatı qururuq. Bütün bəşəriyyətin nəzərləri bizdədir. Dünya zəhmətkeşləri Sovet İttifaqına ümid çırağı kimi baxırlar.

Yarım əsrə yaxın bir müddətdə nəhəng addımlarla qələbədən-qələbəyə addımlayan sovet quruluşu və sovet cəmiyyəti elmin, texnikanın ən qabaqcıl mövqelərini fəth etmişdir. Böyük Qorkinin dərin iftixar hissi ilə sevib tərənnüm etdiyi sovet ədəbiyyatı indi milyon-milyon ürəklərə yol açan güclü məfkurədir. Bizim ədəbiyyat Lenin ideyalarından ilham, qida alır. Lenin bizə öyrətmişdir ki, sənət və ədəbiyyat sosialist Vətənimizdə **xalqa, kommunizmə xidmət etməlidir.**

İctimai mübarizədən kənarda sənət, ədəbiyyat yoxdur; sovet yaradıcı ziyalıları dürüst dərk etmişlər ki, **partiyalılıq və xəlqilik**, zəhmətkeşlərin mübarizəsi ilə sıx əlaqə sənətin inkişafının mühüm şərtidir!

Dahi Leninin hələ 58 il bundan əvvəl böyük bir vəch, dərin bir ümid və etimadla dediyi sözlər indi Vətənimizdə və bütün sosialist ölkələrində parlaq həqiqət olmuşdur. Sovet sənəti və ədəbiyyatı sosializm, kommunizm qurucularının güclü məfkurə silahına, bütün zəhmətkeşlərin mənəvi qida mənbəyinə çevrilmişdir.

Dahi Leninin əziz xatirəsini yad edəndə hər birimizdə yüksək iftixar hissi, qəlbimizi dolduran dərin minnətdarlıq ilə yanaşı kommunist andımızı təkrar etmək arzusu alovlanır:

Sənətdə və ədəbiyyatda bundan sonra da, Lenin partiyalılığı, xəlqiliyi ideyalarını göz bəbəyi kimi qoruyacaq, kommunizm qurucularının zövqünü oxşayan bədii, yüksək məfkurəli əsərlər uğrunda bütün qüvvələrimizi səfərbər edəcəyik.

*Kommunist. 1963. 21 aprel. №95.*





## Böyük həmrəylik bayramı

MAYIN 1-i bütün zəhmətkeş adamların bayramıdır, beynəlxalq fəhlə hərəkatında mübarizə qüvvələrinin həmrəylik günüdür.

May günləri həm də bahardır, təbiətin oyanma, dirçəlmə vaxtıdır. Bizim zəmanəmizdə May bayramı qütbdən-qütbə, üfüqdən-üfüqə yer üzünün bütün ölkələrində zəhmətkeşlər tərəfindən təntənə ilə qeyd edilir.

Bu gün bir daha bütün diqqətimiz müstəmləkə və yarımmüstəmləkə zəncirindən hələ də xilas olmamış, ancaq qüvvə və qüdrətini toplayaraq imperializmə qarşı döyüşə çıxan ölkələrə, xalqlara tərəf çevrilir. İndi bu ölkələrin birlik və mübarizə qüdrəti həm artmış, həm də parlaq nəticələri ilə dünyaya səs salmışdır. Axı, indi məzlum xalqların böyük istinadgahı var. İndi başda Sovet İttifaqı olmaqla sosialist sistemli ölkələr xalqların qurtuluş mübarizəsinə ilham verirlər. Öz vətənlərində yüz milyonlarla zəhmətkeş üçün dinc, azad, bəxtiyar həyat yaradan sosializm ölkələri bütün müstəmləkə xalqlarına parlaq nümunə olmuşdur. Afrika, Asiya və Latın Amerikasının əsarətdə yaşayan xalqları ayağa qalxmışlar. Afrikanın və Asiyanın milyon-milyon zəhmətkeşləri imperializmə qarşı qəzəblə silahlanmış, onların mübarizə əzmi imperialistləri vahiməyə salmışdır. Bu xalqların nümayəndələri indi yalnız bir ölkənin elçisi kimi deyil, azadlıqsevən bütün dünyanın nümayəndəsi kimi çıxış edirlər.

*Amerika, hər qərarı, hökmü verən zaman olur,*
*Bil ki, qullar dünyasının intiqamı yaman olur!*
*Dağlar, daşlar salam verir bu qatarın sürətinə,*
*Tanrıların gücü çatmaz inqilabın qüdrətinə!*
*Mən keçdikcə bu odların, alovların qucağından:*
*– Uğur olsun – Eşidirəm dünyanın hər bucağından!..*

Bu gün əldə silah, ürəkdə qurtuluş arzusu, zülm və zəncirlər dünyasına kin və nifrət olan müstəmləkə və yarımmüstəmləkə

ölkələrin qorxmaz, mübariz döyüşçülərinə uğur olsun!

Bu bahar bayramında hər kəsin ürəyində müqəddəs bir arzu canlanır: imperialistlərin zülm və təcavüzünə son qoyulsun! Yer üzündə zülm və zorakılıqlardan iz, əlamət qalmasın! Bütün xalqlar, qəbilələr dinc qardaşlıq ailəsində yaşasınlar! Marksizm-leninizm bayrağının qızıl şəfəqləri qütbdən-qütbə görünsün və ölkələrə işıq saçsın.

Bu arzuların həqiqət olacağı yaxın gələcəkdə May bayramı bütün insanların xalis bahar bayramı, onların səadəti, şadlığı, sevinci, birlik və qardaşlığının əsl təntənə bayramı olacaqdır.

Sosialist Vətənimizdə böyükdən kiçiyə qədər hamı bu günü ən əziz bayram kimi alqışlayır. Qırmızı qalstuklu, günəş çöhrəli, qırğı baxışlı, saf səsli pionerler bahar görmüş quşlar kimi səs-səsə verərək sevinc mahnılarını oxuyurlar:

*Biz sinəsi atəşlərlə, alovlarla doluyuq!*
*Pionerik, komsomoluq, biz Leninin oğluyuq!*

*Bakı. 1963. 30 aprel. №102*

**Məktəb və məktəblilər günü**

DƏRS ilinin ilk günündə, on minlərlə məktəbin qapıları taybatay açılır, yüz minlərlə, milyonlarla uşaq və gənci təhsil ocaqları mehriban ana kimi ağuşuna alır, gülərüzlü balalara **xoş gəldin!** deyir.

Qızmar yay günlərində istirahət evlərində, yaylaqlarda, plyajlarda, qatarlarda, gəmilərdə, pioner düşərgələrində, səyahət yollarında şənliklə dincələn, günəşdən, havadan, torpaqdan, sudan yeni qüvvət alan bəxtiyar sovet uşaqları təkrar dəftər-kitablarını qoltuğuna vurub məktəb qapısına gəlir, öz qayğıkeş müəllimlərini – mənəvi atalarını salamlayır, dərs otağında öz yerlərini tuturlar...

Bu məktəb ordusuna on minlərlə yeni uşaq əlavə olunmuşdur. Bunlar ilk dəfə məktəbə ayaq basırlar.

Obaşdandan qalxıb qıvraq geyinən, dəftər-qələmini öz portfelinə qoyub əlinə alan, qapı ağzında dayanıb üfüqə baxan, işıqlaşmanı gözləyən, həvəslə qəlbi döyünən, intizar çəkən uşağı təsəvvür edin! Onun bu günü nə qədər əziz, əlamətdar, müqəddəsdir. O, tamam yeni, böyük bir aləmə qədəm qoyur. Qayğılar görməmiş açıq, ayıq başı ilə düşünür; müəllimə necə salam verəcək, əlini necə uzadacaq, necə görüşəcək, nə deyəcək, necə deyəcək.





Məktəb, müəllim, dərs, qələm, şərqi, sinif yoldaşları...

Bunlar uşağın nəzərində nə qədər yeni, böyük, xoş, müqəddəs, işıqlı, təmiz bir aləmdir.

Əziz məktəblilər!

Bu təmizliyi axıra qədər qorumaq gərəkdir. Məktəbin axırınacan, ömrün axırınacan, bu səmimiyyəti, hərarəti, məhəbbəti qoruyub saxlamaq lazımdır!

Əziz, sevimli balalar, siz məktəbə təhsilə gedirsiniz. Siz eyni zamanda həyatı öyrənməyə, yeni dünya qurmaq yollarında mübarizə vərdişləri kəsb etməyə gedirsiniz. Böyük babanız Leninin vəsiyyətlərinə – oxumaq, oxumaq, yenə də oxumaq tapşırığına əməl etməyə gedirsiniz. Bu gün sizin qələm tutan, savad öyrənən əlləriniz sabah yeni dünya quracaq, elmə, texnikaya sahib olacaq, kommunizmin əzəmətli saraylarını yaradacaqdır. Çəlik qollarınız, polad biləkləriniz, iti zəkanızla yaranan yüksək, yeni cəmiyyət yalnız ana-atalarınıza, yalnız Vətəninizə deyil, bütün bəşəriyyətə səadət gətirəcəkdir! Buna görə də yaşlılar, müəllimləriniz, valideynləriniz və bütün Vətəniniz sizi məktəbə yola salanda böyük ümidlər bəsləyirlər. Siz bu ümidləri doğrultmağa tamamilə layiqsiniz!..

Bu il böyük Sovet Vətənimizin hər yerində olduğu kimi, günəşli respublikamızda da yeni dərs ilini hazır qarşılamaq, dövlətin məktəb haqqındakı qanunlarını axıradək yerinə yetirmək, məfkurə işinin məzmununu, səviyyəsini daha da yüksəltmək üçün lazımi tədbirlər görülmüşdür. Yeni-yeni məktəb binaları tikilmiş, emalatxanalar hazırlanmış, dərsliklər yaradılmış, laboratoriyalar, kabinələr, təcrübə tarlaları düzəlmişdir. Respublikamızda 4 mindən çox məktəb, 900 minə yaxın məktəbli, 50 mindən çox

müəllim vardır. Məktəblilər dərsdən, məktəbdən aldıqları biliyi, məlumatı, necə deyərlər, boxçaya qoyub saxlamırlar, onlar bunu həyata aparır, təcrübədə işlədir, silah kimi işlədirlər. Politexnik təhsil buna deyilir. Son iki ildə orta məktəbdən buraxılan 8 min gənc istehsalat təlimini bitirib müxtəlif ixtisaslar qazanmışdır. Onlar indi kəndin, şəhərin, əkinin, tikintinin, sənayenin cürbəcür sahələrində ixtisasli, gənc qurucular kimi çalışırlar. Məktəblərimizin çoxunda təhsilin təcrübə ilə, dərsin faydalı əmək ilə, kitabın həyat ilə əlaqəsi, möhkəm birliyi həyata keçirilməkdədir.

Məktəb, dərs günləri insan təsəvvürlərinin, insan zehni və zəkasının çox ayıq, qavrayıcı vaxtıdır. Bu zaman deyilən söz, rəqəm, misal, müşahidə olunan fakt, hərəkət ömür boyu yaddan çıxmır.

Hafizə bütün yığdıqlarını səliqə, sahmanla qoruyub saxlayır. Məktəbdə sinifdən-sinfə keçəndə özünü daha da qüvvətli, hünərli sayırsan. İnsan pillə-pillə artdığını heç bir zaman məktəbdəki qədər aydın görüb hiss etmir. Məktəbdə bir günü belə hədər keçirmək olmasın gərək. Sinifdə, parta arxasında, dərs mühitində yalnız yaşca, bədəncə, boyca yox, bilik, məlumat, mənəviyyatca da artmaq lazımdır.

**"Bilən güclü olar!"**

Xüsusən indiki möcüzələr, ixtiralar və kəşflər dövründə zəngin biliklər kəsb etmək, həyata hazırlanmaq gənclərin birinci amalı olmalıdır.

Bizim məktəbə zəhmət məktəbi deyirlər. Siz görməmisiniz. Bizə yaxşı məlumdur ki, köhnə məktəb bəzən uşaqları iflic edirdi. Dini mövhumat əfsanələrin təsiri ilə həyatdan uzaq salır, təbii qabiliyyətlərini buxovlayırdı. Sovet məktəbinin, zəhmət məktəbinin qüdrəti bir də canlı, həqiqi həyat ilə, günün vəzifələri, mübarizələr ilə bağlı olmasındadır. Böyük ədibimiz Cəlil Məmmədquluzadənin "Şeir bülbülləri" hekayəsini oxuyun. Orada qəzəllərin məftunu olan, gecə-gündüz meşin cildli kitablardan ayrılmayan, həyatda isə primus yandırmağı, ətçəkən maşını işə salmağı bacarmayan yaşlı kişilər təsvir olunur. İşıq sönür, qəzəl aşıqları qaranlıqda qalırlar. Təzə məktəbə gedən, elektrikdən xəbərdar olan bir uşaq isə işıqları yandırır, qəzəlxanları heyrətə salır.





Sovet məktəbi yalnız elmin əsaslarını, əmək vərdişlərini öyrətməklə qalmır, həm də gəncləri mərifətli, ədəbli, bacarıqlı, mədəni, səliqəli insanlar kimi hazırlayır.

Bizim Vətənimiz dünyada birinci olaraq kommunizm cəmiyyəti qurmaqda bütün ölkələr nümunə göstərir. Bizim gənclərimiz də dərsdə, həyatda, işdə bu nümunəni göstərməli, qorumalı və hər cəhətdən doğrultmalıdırlar.

Bəzən məktəbdə, ailədə, hətta ictimai yerlərdə ayrı-ayrı cavanlardan pis əməllər, nalayiq, hərəkətlər baş verir.

Özündən böyüyə və kiçiyə hörmətsizlik, qaba danışmaq, zəhmətə xor baxmaq, tüfeyli məişətə meyl etmək, əcayib libas geymək, vaxtını rəqs meydançalarında, hərzə məclislərdə keçirmək... Bunların hamısı yeni, sağlam nəslin təbiətinə yaddır. Ya xarici kinoların, radio verilişlərinin, bulvar romanlarının, ya da ayrı-ayrı təsadüfi adamların hərəkətinin təsiri nəticəsində olur.

Sovet məktəbi təmiz, işıqlı, gözəl gələcəkli tərbiyə məktəbidir. Bu aləmdə ləyaqətli oxumaq, ləyaqətli böyümək və sabaha hazır yetişmək üçün cavanlarımızın bütün imkanları vardır.

İndiki məktəblilərimiz kommunizmin zirvələrini görən və bu yüksəklikləri, böyük günləri yaradan adamlar olacaqlar. Məktəbimiz, ailəmiz, cəmiyyətimiz sizin sayənizdə daha da gözəlləşəcəkdir. Siz əsrimizin son, ecazkar hadisələrinin iştirakçısı olacaq, planetlərin tam fəthi günlərini görəcək, müharibəsiz, qansız, qadasız cəmiyyət yaradacaq, iyirmi birinci əsri başlayacaqsınız.

Xalq maarifinin işıqlı yollarında sizə uğurlar olsun! Zehniniz elmin günəşindən işıqlansın, qəlbiniz daim öyrənmək, yaratmaq həvəsi ilə vursun, igid biləklərinizə həyat qüdrəti gəlsin. Kollektiviniz möhkəm, əməyiniz xariqəli, məhsuldar olsun!

Ata-analarınız boya-başa çatan xələf övlada baxıb, hünər yollarındakı qayım addım səslərini eşidib fəxrlə desinlər:

– Əcəb, əcəb!

*Bakı. 1963. 31 avqust. №206*

## Yazıçı və həyat

Mərkəzi komitənin iyun Plenumunda partiyanın ideoloji işinin ətraflı müzakirəsi və dərindən təhlili, bu cəbhə adamlarının növbəti vəzifələrinin dürüst müəyyən edilməsi və istiqamətləndirilməsi bütün mədəniyyət və maarif, tərbiyə və məfkurə işçilərinin fəaliyyət və mübarizə yolunu işıqlandırmış, yaradıcı ziyalılara yeni ilham vermişdir.

L.F.İliçov yoldaşın məruzəsində, N.S.Xruşşov yoldaşın çıxışında çox doğru göstərilir ki, sovet elmi, mədəniyyəti və ədəbiyyatı xadimlərinin misilsiz nailiyyətləri dostları sevindirib fərəhləndirdiyi kimi, düşmənlərin də təşvişinə səbəb olmuşdur.

"Dünyanın heç yerində Sovet İttifaqında olduğu kimi qüdrətli və həyati ədəbiyyat və incəsənət yoxdur. Elə buna görə də imperializmin ideoloqları yaradıcı ziyalılarımızı doğru yoldan sapdırmaq üçün inadla onlara təsir göstərməyə çalışırlar. Yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız, teatr və kino xadimlərimiz arasında öz yaradıcılıqlarının böyük gücünə inamsızlıq toxumu səpmək üçün imperialist ideoloqları müxtəlif hiylələrə əl atırlar.

Partiya yaradıcı sovet ziyalıları ilə fəxr edir. Həmişə onları müdafiə etməyə hazırdır və həmişə ziyalıların tərəfində olacaqdır!" (N.S.Xruşşov).

Yaradıcı sovet ziyalıları Nikita Sergeyeviçin onların işinə verdiyi bu yüksək qiymətlə fəxr edir və partiyaya öz minnətdarlıqlarını bildirirlər.

Sovet ədəbiyyatı və incəsənətinin gücü, qüdrəti, şöhrəti və dünya miqyasında misilsiz nailiyyəti ancaq onun Lenin partiyalılığında, xəlqiliyində, xalq həyatı ilə qırılmaz əlaqəsindədir.

Sovet klassikası!

Bu söz indi ictimai elmlərdə də geniş istifadə olunmaqda, inqilabdan sonra yaranan gözəl ədəbiyyat və sənət nümunələrini ifadə etməkdədir. Adları hər yerdə hörmət və məhəbbətlə çəkilən böyük sovet sənətkarları M.Qorki, V.Mayakovski, M.Şoloxov, A.Fadeyev, D.Bedni, A.Makarenko, A.Dovjenko, P.Tıçina,





M.Auezov, Ü.Hacıbəyov, C.Cabbarlı, S.Vurğun və bir çox başqaları xalqa, həyata xidmət edən, oxucunun, dinləyicinin qəlbindən qopan və qəlbini fəth edən əsərlər yaratmışlar və bu yaradıcılıq qələbələrini hər şeydən əvvəl varlığı yeni, inqilabi mövqelərdən, sosializm, kommunizm məfkurəsi cəbhəsindən təsvir sayəsində nail olmuşlar.

Modernistlər, formalistlər və mücərrədçilər, sovet sənətkarlarına, sosialist realizmi stilinə olmazın böhtanlar ataraq onları həyatı guya "bəzəməkdə", "rövnəqləndirməkdə" ittiham edirlər.

Sosialist həyatının, dünyanı yenidən quran, azad, ecazkar əməyin, kollektivizmin, qardaşlıq və bərabərliyin, kommunizm ideallarının təcəssümündən ibarət olan sovet ictimai quruluşunun təsvirində heç bir bəzəyə, zahiri rövnəqə ehtiyac yoxdur. Sovet həyatı güclü və təsirlidir, çünki mütərəqqi bəşəriyyətin amalını, yüksək arzularını əks etdirir.

Bəzək-düzəyə ehtiyacı olan həyat burjua ölkələrindədir və bu peşə burjua sənətkarlarının çoxunda adət olmuşdur. Faciələr, iztirablarla dolu olan müasir burjua məişəti, ailəsi, idarə sistemi məhz zahiri bəzək-düzəklə örtülür, necə deyərlər, qonaq qabağına çıxarmalı bir vəziyyətə salınır. Amerika kino filimlərinin, ailə romanlarının çoxunda bu rəng və bu rayihə zəruri bir vasitə olmuşdur.

Sovet ədəbiyyat və sənətində isə başlıca və müqəddəs qanun həyat həqiqətidir! Partiya bizi həmişə öyrətmiş və öyrədir ki, sənətkarın ilham gücü həyat həqiqətinə sədaqətdə, onu kommunist mövqeyindən, nikbin gələcək cəbhəsindən, ictimai inkişafın istiqamətləndirici meylləri ilə tam dürüst görüb göstərməkdədir.

Təəccüblü deyil ki, imperialist Qərbin nəzəriyyəçiləri sosialist realizmi metodundan oddan qorxan kimi qorxurlar. Çünki ictimai inkişafın istiqamətləndirici, aparıcı meylləri burjua quruluşunun ziddinə, kapitalistlərin əleyhinədir. Sosialist realizminə hücum etməklə imperializm nəzəriyyəçiləri bizim sənət və ədəbiyyat xadimlərimizin yolunu çaşdırmağa, onların sıralarına inamsızlıq salmağa cəhd edirlər.

Sosialist realizmi sənətkardan uydurma, boş xəyal, fantaziya,

zahiri bəzək-quraşdırma yox, məhz həyat həqiqəti və bu həqiqətin təsdiqini tələb edir.

Bütün görkəmli sovet ədib və şairlərinin, bəstəkar, rəssam və kino xadimlərinin əsərlərində başlıca məzmun həmin bu həqiqət və bu həqiqətin təsdiqidir. M.Şoloxovun "İnsanın taleyi" əsərini hamı oxuyub. Kinoda görüb və sevib. Kim burada "bəzəkdən", "rövnəqdən" danışa bilər! Hamımızın qəlbində ən sevimli bir qəhrəman kimi yaşayan Sokolov odlar, alovlar içərisindən, faşizm taununun müdhiş səhnələrindən ecazkar bir qüdrətlə keçib gəlmirmi? Bu qəhrəmanın simasında biz ikinci dünya müharibəsinin dəhşətlərini yaşayan və öz mətanəti, humanizmi ilə hitlerizmə qalib gələn sovet adamının təcəssümünü görürük!

Sosialist realizminin qəhrəmanları məhz belə adamlar, inqilab, sosializm, kommunizm yolunda misilsiz fədakarlıq göstərən zəhmət adamlarıdırlar.

Təəssüf ki, tək-tək yazıçılar ya nəzəri baxışlarında, yaxud yaradıcılıq təcrübələrində sosialist realizmini bu şəkildə yox, bir qədər təhrif olunmuş şəkildə başa düşürlər.

Xruşşov yoldaş Plenumda belə sənətkarlara işarə edərək demişdir: "Biz düzgün yazmağa çağırırıq, hətta ən tutqun, ən mənfi cəhətlər haqqında da düzgün yazmağa, nikbin mövqelərdən yazmağa çağırırıq. Bəziləri isə öz əsərlərinin mövzusunu, necə deyərlər, çirkab quyusundan almaq, xalqının yaratdığı və mübarizə, əzab-əziyyətlə əldə etdiyi nə varsa hamısına qara yaxmaq istəyirlər. Özü də belələri istəyirlər ki, bunun müqabilində adamlar onları alqışlasın. Yox, belə olmayacaqdır!". Sovet varlığının təsviri hər şeydən əvvəl bu yeniliyin, yeni bir aləmin, yeni insanların, yeni münasibətlərin, tam yeni ictimai səhnə və mənzərələrin təsviridir. Burada işıq və kölgənin tənasübünü dürüst görüb göstərmək başlıca sənət, ustalıq, yaradıcılıq məharətidir.

Böyük bir fabrikdə (belə fabriklər bizim Vətənimizdə minlərlədir...) on minlərlə mühəndis, fəhlə işləyir, möcüzələr yaradır. Belə coşğun bir əmək dünyasına düşən yazıcı, bəzən görürsən, xırdalıqlarda qurdalanaraq, qəhrəmanları yox, iki-üç nəfər əyyaşı





axtarıb tapır, bu halda bədii təsvirin pafosunu ancaq bu tənbəl, əyyaşlara keçirmək, möcüzələr yaradan ümumi əmək rəşadətini görüb göstərməmək nəinki sosialist realizminə, ümumən realizmə, həyat həqiqətinə və əsil sənətə zidd olan bir hərəkətdir. Əsil sənətkar gərək həyatın, inkişafın aparıcı istiqamətini göstərsin. Belə olanda yaradıcı əməyin, fəhlənin qüdrətli məişəti və həyatının əsil mənzərəsi göstəriləndə əyyaşın, tənbəlin də miskin siması görünəcək və anlaşılacaqdır. Oxucunun tərbiyəsi üçün lazım olan səhnə və mənzərələr yaranacaqdır. Məlum olduğu üzrə, sovet dövründə hər cəhətdən sürətlə inkişaf edən Bakı gözəl, müasir, izdihamlı bir şəhər olmuşdur. Bu şəhər Vətənimizdə öz ictimai, texniki mövqeyi, təbiəti, gözəlliyi, əmak rəşadəti, iqtisadi əlaqələri, maddi, mənəvi sərvəti ilə adı-sanı olan bir şəhərdir. Bu şəhərin keçmişi, indisi haqqında da sənət əsərləri yox deyildir. Amma kim deyə bilər ki, Bakının, respublikamızın mərkəzi olan bu gözəl sənaye şəhərinin adına layiq keyfiyyətdə və miqdarda ədəbiyyat və sənət əsərimiz vardır?! Dəniz neftçiləri haqqında yazılanları nəzərə almasaq, öyünməli əsərlərimiz çox azdır!

Bakı haqqında, onun qəhrəmanları haqqında, onun inqilabi ənənələri, müasir coşqun, bəxtiyar həyat, mənşəti haqqında, onun gündən-günə dəyişən, gözəlləşən iqlimi, təbiəti haqqında, burada böyüyüb kommunizm qurucuları sırasına daxil olan gənc qızlar, oğlanlar haqqında ləyaqətli, yüksək bədii əsərlər yaratmaq bütün sənətkarlarımızın vəzifəsidir.

Bu yaxınlarda Qafqazın qonşu şəhərlərindən gəlmiş 80 yaşlı bir qoca ilə tanış oldum. Bu qoca Bakını ancaq inqilabdan əvvəl görmüşdü. İndi bu şəhərə tamamilə valeh olub qalmışdı.

Məndən soruşurdu:

– Sizcə Bakının inkişafında ilk nəzərə gələn nədir?

Mən şəhərimizin tərəqqisini, nəhəng sənayesini, əzəmətli binalarını, artan nüfuzunu, yaşıllaşmasını deyəndə qoca razı olmadı:

– Yox, siz çox şeydən xəbərsizsiniz. Siz buranın keçmişini görməmisiniz. Qumlu tozun döydüyü traxomalı gözləri, yağışlı günlərdə küçənin bu tayından o tayına ancaq zirək hambalların

çiynində keçməli olan adamları, qarğa sürüsü kimi qara çadralı qadınları, sərgərdan uşaqları... Siz nə görmüsünüz?! Mən indi bilmirəm Bakıdayam, ya dünyanın handa bir abad müasir şəhərində!

Yalnız Bakını deyil, Vətənimizin bütun kənd və şəhərlərini yaxın keçmişlə müqayisəli bir təsəvvürdə vermək oxucunun fərəh və iftixarına səbəb olardı.

Sosialist realizminin, necə deyərlər, başlıca obyekti, bədii tədqiq, təsvir materialı insandır! Yeni insan, kommunizm ideallarına xidmət edən, yeni dünyanı yaradan, öz arxasınca bütün bəşəriyyəti apara bilən insan!

Yeni nəslin, gəncliyin kommunizm ruhunda tərbiyəsi üçün belə bədii surətlərin əhəmiyyəti çox boyükdür.

Bu cəhətdən də ədib və şairlərimizin, sənət xadimlərimizin qarşısında mühüm və məsuliyyətli vəzifə durur.

Sovet adamı indi kainatı fəth edir, təbiətin gizli sirrlərini açır, butün bəşəriyyəti və dühası, rəşadəti ilə heyran qoyur.

İyun Plenumunun qərarları bizi bir daha yaradıcılıq səfərbərliyinə, sənət göylərinin fəth edilməsində müasirlərimizə layiq nümunələr yaratmağa, sovet adamının artan, yüksələn mənəvi tələblərini ödəməyə çağırır. Marksizm-leninizm bayrağı altında partiyamızın atalıq qayğısı sayəsində həmişə dünyada ən qabaqcıl sənət əsərləri yaratmaqda olan yaradıcı ziyalılar ordumuzun yenə də ön atəş xəttində dayanacaqlarına şübhə ola bilməz!

*Azərbaycan. 1963. №7. S.12-15*

## 1964

## Müsəlmanlıq və tərəqqi barəsində

Bəzi ağzıgöyçəklər orada-burada danışırlar ki, guya müsəlmanlar, yəni mömünlər geri qalır, əsrin tərəqqisindən, texnikasından faydalanmağı bacarmırlar, filan, bəhman...

Yalan sözdür, lap iftiradır!

Mən deyirəm ki, tərəqqidən, texnikadan faydalanmaq məharətini dünyada heç bir kəs müsəlman qədər bacarmır və bacara da bilməz.





Sübut?

Qulaq asın sayım:

Götürək lap savad işini... Sovet hökuməti qurulandan bəri hər yerdə kurslar, məktəblər, texnikumlar, institutlar açılıb. Minlərlə, milyonlarla adam oxuyub, savad sahibi olub, təzə həyata çıxıb. Müsəlman da savad öyrənir, həm də savaddan səmərəli istifadəni hamıdan yaxşı bacarır. Məsələn, deyək, birisi əli qələm tutan kimi qapı-pəncərəsini möhkəm bağlayır, başlayır qonşusundan, tanışından imzasız məktublar yazıb idarələrə material göndərməyə.

Dünən bir dostumun evinə getmişdim, evin xanımı iki kilo ət alıb gətirmişdi və qonağa kabab bişirmək istəyirdi. Ev sahibi qapı-pəncərəyə baxır, qonşuya işarə edib pıçıltı ilə deyirdi:

–Ay xanım, sən atanın goru, bizi yenə işə salma. Eyvanda tüstü çıxan kimi mərdimazar oğlu başlayıb o yan-bu yana yazacaq ki, bəli, burada qoyun kəsən var; yeyinti, düşmən, filan...

Dostum ərk ilə mənə eşitdirir, arvadından xahiş edirdi:

–Xanım, qonağımız özgə deyil, bizdən inciməz. Sən tüstüzad salma, mərdimazarın (o, yenə qonşuya işarə etdi) əlinə material vermə, bəhanə axtarır.

Allah onun yazan əlini sındırsın! Neçə surət çıxarır, hərəsini də bir idarəyə göndərir. Özu də dalınca düşüb qurdalayır.

İndi özünuz deyin, bəs bu tərəqqi deyil, savaddan səmərəli istifadə deyil, nədir?

İkinci bir misal:

Bir mömün müsəlman tanıyıram ki, dostunu nahara çağırıb. Onu beşulduz konyakla kifayətincə içirdib-kefləndirib. Sonra başlayıb idarənin ünvanına danışmağa, sual verib hərifi də danışdırmağa. Xəlvətcə də stol altında maqnitofon qoyub, qonaq nazirin dalınca artıq-əskik nə danışıbsa, lentə yazıb. Sonra da lenti aparıb qoyub nazirin qabağına – həm özünü şirin salıb, həm də qonağın işdən kənar edilməsinə nail olub.

Üçüncu misal:

Qəbristanlıqda, bayram günlərində yasin satan mollanın işini kim bilmir?

Maqnitofon çıxan kimi molla yasini lentə yazdırıb. İndi daha molla ozü oxumur. Ayəni dilinə gətirmir. Yasinin pulunu alıb, maşını işə salır və hər yarım saatda təzə bir müştərinin ölüsünü cənnətə göndərir.

Doğrudur, mömünlər danışırlar ki, lentə yazılan yasini cənnət dəftərxanasında qəbul eləmək istəmirlər, çox yoxlayırlar. Amma buna da çarə tapılıb. Mollalar cənnət hesabdarlarını görüblər və düzəlişiblər. Axı həmin dəftərxanada yeni əlifbanı bilən yoxdur və çox zaman lentlərə lətifələr, konsertlər yazılır, yasin adı ilə işə keçir.

Bunun özü texniki tərəqqi deyil, bəs nədir? Müasir texnikanın bu cür həyata tətbiqini ancaq həqiqi müsəlman bəndələr bacarar, belələrinə, gərək xüsusi mükafat təyin olunsun!

Ancaq heyif ki, bizim zəmanədə oxumuşların çoxu həqiqi müsəlmanlıqdan çox uzaqdır. Yoxsa, təsəvvür edin həmin bu tərəqqi haraya çatardı.

*Bakı. 1964. №7. aprel*

## Görkəmli alim, gözəl insan
*(Məmməd Arif Dadaşzadənin anadan olmasının 60 illiyi münasibəti ilə)*

SOVET ziyalılarının ilk nəsli Oktyabrqabağı illərdə təhsil alan, demokratik, inqilabi ideyalarla qanadlanan cavanlar idilər. Bunlar elə çətin, keşməkeşli illərdə böyüyür və müəyyənləşirdilər ki, ictimai, mədəni həyat və inkişafın sürətli, qaynar, qızğın mübarizələrində bilavasitə iştirak etməli olurdular. Xüsusən zəhmətkeş ailələrdən çıxan gənclər məktəbdən evə yox, savadsızlığı ləğv məntəqələrinə, qəzet redaksiyalarına, dram dərnəklərinə, xeyriyyə cəmiyyətlərinə və cavanlar təşkilatlarına, klub, kitabxanalara qayıdır, səhər-axşam ictimai həyatın tələb etdiyi ən kütləvi, gündəlik işlərdə təmənnasız, fəal iştirak edirdilər. Bunlar gəncliyin ən ilhamlı, romantik və müqəddəs ictimai ehtiraslı günlərini yaşayırdılar. İnqilabi üfüqlərdə qızaran dan yeri və onun arxasındakı yeni həyat bunlara ümumi, mücərrəd təsəvvürdə də olsa görünür və çağırırdı. Gələcək həyatın şirin, cazibəli, ülvi mənzərələri bunları mübarizəyə çağırırdı. F.Engelsin intibah dövrünün adamları haqqında dediyi kimi, bu cavanların bəzisi qələm ilə, bəzisi silah ilə, bəzisi əməli fəaliyyəti ilə, bəzisi də həm onunla, həm bununla – bütün bacarıq və imkanlarını əsirgəmir, yeni həyatın sürətlə yaxınlaşmasına müstəsna səy göstərirdilər.





İnqilabın, Sovet dövlətinin yaratdığı böyük gələcəyin ümid və imkanları ilk sovet ziyalılarının tükənməz ilham, yaradıcılıq mənbəyi idi.

Xalqımızın yaxşı tanıdığı və məhəbbət bəslədiyi Məmməd Arif Bakının belə mədəni, ədəbi mühitində böyümüş, gəncliyini, istedad və qüdrətini tamamilə ədəbiyyata, maarifə, elmə həsr etmiş simalardandır.

Otuzuncu illərin başlanğıcında Arif müəllimin sovet mətbuatı səhifələrində Azərbaycan, rus ədəbiyyatı haqqındakı mənalı, məzmunlu, yenilik hissi ilə seçilən məqalələrini görürük. Ədəbiyyat jurnallarının redaktoru, dövlət nəşriyyatı ədəbiyyat şöbəsinin müdiri, Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru, Dövlət Universiteti rus ədəbiyyatı kafedrası müdiri, indi isə Azərbaycan SSR Elmlər Akademiyası prezidentinin müavini vəzifəsində yorulmadan çalışan Məmməd Arifin elm, mədəniyyət, ədəbiyyat sahəsində xidmətləri qibtəyə layiqdir.

Kitab mədəniyyəti bizim respublikamizda həm maarif, həm də ictimai tərbiyə üçün olduqca mühüm sahədir. Arif müəllim ilk cavanlıq günlərindən indiyədək bu sahədə bir əsgər kimi çalışır. Respublikada ədəbiyyat ilə əlaqədar elə bir mühüm kitab yoxdur ki, Arif müəllim onun yaranmasında bu və ya başqa dərəcədə iştirak etməsin. Klassiklərimizin tədqiqi və nəşrində, sovet ədəbiyyatının təbliğində M.Arif həmişə səy və həvəslə çalışmışdır.

Zəngin biliyi, istedadı, xalqa xidmət arzusu, özünə məxsus təmkini, qələm qüdrəti sayəsində o, sovet oxucusunun, xüsusən ziyalı kütləsinin hörmətini qazanmışdır. M.Arifin rus ədəbiyyatı

(Puşkin, Nekrasov, Krılov, Qorki, Mayakovski...), Azərbaycan və qardaş xalqlar ədəbiyyatı klassiklərinə (Nizami, C.Cabbarlı, Şevçenko, Rustaveli, Şirvanzadə...), sovet ədəbiyyatı problemlərinə (sovet romanı, dil və üslub, bədii tərcümə, sosializm realizmi...) həsr etdiyi kitab və məqalələri sovet ədəbiyyatı elmini zənginləşdirən və sovet oxucusunun tez-tez müraciət etdiyi əsərlərdir. C.Cabbarlı haqqındakı elmi monoqrafiyası, sovet ədibi haqqında mükəmməl, müasir tədqiqat nümunəsi sayıla bilər. 1958-ci ildə yazdığı "Azərbaycan xalqının ədəbiyyatı" kitabçası bir neçə dildə nəşr olunmuşdur. Asiya-Afrika ədiblərinin Daşkənddə keçirilən beynəlxalq konfransında bu kitabçaya böyük maraq göstərilirdi.

Vətən müharibəsinin ağır illərində respublika akademiyasında iki cildlik ədəbiyyat tarixi yazılırdı. Bu kitabın sovet dövrü hissəsi M.Arifin qələmindən çıxmışdır. Bütünlükdə bu kitabın və sonrakı üçcildliyin (1957) yaranmasında Arif müəllimin gərgin yaradıcı zəhməti vardır.

Rus ədəbiyyatının ən yaxşı nümunələrini təbliğ etməkdə, sovet məfkurəsində çox kəsərli vasitə olan ədəbi əlaqələrin inkişafında da Arif müəllimin səyi çoxdur. O, L.Tolstoyun "Hərb və sülh" əsərinin, A.Çexovun povestlərinin, Qorkinin bir sıra hekayələrinin, N.Ostrovskinin "Polad necə bərkidi" əsərinin, A.Makarenkonun "Pedoqoji poema"sının tərcüməçisidir.

M.Arifin tərcümələri dürüstlüyündən, səlisliyindən başqa, yaradıcı, orijinal səslənməsi ilə də fərqlənir. Oxucu burada ana dilinin doğma xüsusiyyət və məziyyətlərini hiss edir.

Müəllim adı Məmməd Arif haqqında sadəcə bir müraciət kimi işlənmir. O, orta məktəbdə çalışandan sonra otuz ilə yaxın bir müddətdə Azərbaycan Dövlət Universitetində mühazirələr oxumuş, tələbə və aspirantların sevimlisi olmuşdur. Bundan əlavə, müəllimlik onun yazılarında, elmi mühakimələrində, cavanlara həssas, qayğıkeş münasibətində, bütün bilik və bacarığını gənclərə aşılamaq arzusunda müşahidə olunur.

1958-ci ildə M.Arifin "Ədəbi-tənqidi məqalələr"i nəşr olunmuşdur. Müəllifin yaradıcılığını tam əhatə etməsə də, bu kitab indi ədəbiyyatçıların əlindən düşməyən bir əsərdir.





Məlum olduğu kimi, ədəbi müzakirə, mübahisələrdə çox müxtəlif rəylər, mülahizə və hökmlər meydana çıxır və gənclər bunlara eyni münasibət bəsləmirlər. Məmməd Arif kimi, cavanların diqqətlə dinlədiyi və izlədiyi ədəbiyyat xadimlərimiz təəssüf ki, azdır. Yalnız Azərbaycan yox, ümumən dünya ədəbiyyatını bilməsi, ədəbi məsələlərə müasir marksist-leninçi alim münasibəti bəsləməsi, dediyi və yazdığına tam məsuliyyət hissinin üstünlüyü, üslubundakı təmkin, həssaslıq və ciddilik Arif müəllimin bütün yazı və çıxışlarında özünü göstərir.

Məmməd Arif indi respublikamızda yalnız alim, mədəniyyət xadimi kimi deyil, həm də bir dövlət xadimi kimi tanınır. O, Azərbaycan SSR Ali Sovetinin sədridir.

Şərəfli və mənalı həyatının ikinci 60 illiyinə qədəm qoyduğu bu bayram günündə xalqımızın ləyaqətli oğlunu, dostumuz, qələm yoldaşımız Arif müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, yeni yaradıcılıq nailiyyətləri arzulayırıq.

*Bakı. 1964. 29 iyun. №152*

## Gəncliyin qədrini bilək

*Gəncliyin təlim-tərbiyəsi zəmanəmizin ən mühüm məsələlərindən biridir. Sovet gənclərinin mənəvi zənginliyi, işgüzarlığı, zəhmətdə və məişətdə nümunəviliyi bütün dünyaya məlumdur. Məhz bunu görə də gənclərimiz arasında arabir özünü göstərən qüsurlar bizi son dərəcə narahat edir və heyfsiləndirir.*

*"Ədəbiyyat və incəsənət" qəzeti bu nömrədən başlayaraq, gənclərimizin təlim-tərbiyəsi ilə əlaqədar olan məsələlər haqqında söhbət açır. İlk sözü hörmətli yazıçımız Mir Cəlal müəllimə verir və əmin olduğumuzu bildiririk ki, ədəbiyyat və incəsənət xadimlərimiz, müəllimlər, ata-analar, xalq təsərrüfatının müxtəlif sahələ-*

*rində çalışan gənc mütəxəssislər bu söhbətdə yaxından iştirak edəcək, şahidi olduqları ibrətamiz hadisələrdən, hər barədə başqalarına nümunə göstərilə biləcək adamlarımızın həyatından və işindən yazacaqlar.*

"Ailə və gənclik" məzmunlu və əbədi sözlərdir. Dünyada elə bir normal adam tapılmaz ki, bu məfhumlar ilə bağlı olmasın.

Xüsusən mədəni bir ölkədə sağlam ailə cəmiyyətin ilk isti ocağı, nümunəsidir. İnsan ilk tərbiyə, həyat təsəvvürünü ana qucağında, ailədə alır. Burada alınan vərdiş və adətlər bütün gələcək üçün bir əsas təşkil edir və ömür boyu unudulmur. Sağlam ailə həyatı keçirənlər cəmiyyət içində də sağlam, bəxtiyar olurlar.

Gənclərimizin qarşısında təhsil almaq, müəyyən peşə sahibi olmaq, məhsuldar əmək vərdişlərinə yiyələnməklə yanaşı sağlam ailə qurmaq vəzifəsi və idealı durur.

Hər bir xoş arzu və ideal yolunda olduğu kimi, sağlam ailə uğrunda zəruri mübarizənin də çətinlikləri var. Bunları əvvəlcədən görmək, nəzərə almaq lazımdır. Ailə qurmağa yüngül, ötəri əyləncə kimi baxanlar həmişə yanılır və bu səhvin ağrısını çəkir, peşimançılığa, hətta fəlakətə düşür, ömür boyu həsrətlə köks ötürürlər.

Cavanlar arasında yəqin ki, yad təsirlər nəticəsində müəyyən bir zümrə əmələ gəlib ki, evlənmək işinə kostyum almaq kimi asan, ani baxırlar. Yoldan ötən yaraşıqlı bir qız xoşuna gəldimi, oğlan dalınca düşür, şirin sözlər, vədlərlə onu ələ gətirməyə səy edir. Elə ki, evləndilər, bir də görürsən oğlan buz kimi soyudu, başqa sövdaya düşdü. Məhkəmələrdə qovluq dolusu boşamaq, boşanmaq ərizələrinə baxdıqca təəssüf edirsən. Bunların səbəbi nədir?

Başlıca səbəblərdən biri budur ki, bəzi gənclər bu işə şüur, məsuliyyət hissilə yanaşmırlar. Oğlan ya qız sevdiyinin simasında ömür yoldaşını, həyat qardaşını, gələcək ailə səadətini, balalarının əziz ata ya anasını yox, bir neçə saatlıq, ya günlük əyləncə, öpüşmə, qucaqlaşmaları görür, əylənirlər. Buna görə də "sevgilim" dedikləri adamın xasiyyəti, mənliyi, əxlaqı, insani keyfiyyətləri ilə maraqlanmağa ehtiyac duymur, qaşdan, gözdən, zahiri yar-yaraşıqdan nəticə çıxarır, hökm verirlər.





Adətən, şirin sevişmə günləri uzun sürmür. Gənclər bir-birinə qovuşandan, bir neçə ay yaşayandan sonra alovlu hisslər sönür, qəlblər soyuyur, sevənlərin biri-birinə əsil ayıq, obyektiv, tənqidi münasibəti ön plana keçir. Oğlan görür ki, yox, bu "həyasız" ilə yaşamaq, hər gün bunun inadına dözmək mümkün olmayacaq. Yaxud qız düşünür ki, bu "lotu, fırıldaqçı" mənim tayım deyil. Tez ayrılmaq məsləhətdir.

Verilən ərizələrin çoxunda bir səbəb göstərilir: "Xasiyyətimiz tutmur!". Bunu bəzən illərlə sevişmək "stajı" olanlar, biri-birinə roman boyda məktub yazan "qəlbimin soltanı", "ömrümün mənası", "səadət günəşim", "bəxt ulduzum" deyənlər göstərirlər. Ən xırda, adi, mənasız şey ailənin pozulmağına səbəb olur: "O, mənimlə rəqs eləyə bilmir", yaxud "mənim qohumlarıma qaş-qabaq eləyir", "köynəyimi ütüləyə bilmir", "dili acıdır", "qazancı yoxdur", "restoranlarda gəzir..."

Bu bəhanələrin hamısını həyat quran gənclər əvvəlcədən düşünüb razılaşa bilərdilər.

Sevgi, insan xarakterinin ən pak və gözəl xüsusiyyətlərindən olan məhəbbət həyatında yalnız ləzzəti, təminatı görmək düz olmaz. Əsil məhəbbət yolunda məcburiyyət, hətta məhrumiyyət də var, onu görmək, qəbul etmək lazımdır.

Sevdiyin bir qız bəzən ağır naxoşluğa tutulur, ya valideynilə əlaqədar fəlakətə düşür. Belə məqamda geri çəkilmək, peşiman olmaq, əhdindən dönmək əclaflıq olar. Məşhur inqilabçı demokrat qadınların könüllü olaraq öz ərləri ilə Sibir sürgünlərinə getdikləri məlumdur. Bütün ömrü boyu şikəst, xəstə yoldaşını uşaq kimi gəzdirib bəsləyən vəfalı yoldaşlar az deyildir. Sevgiyə əyləncə kimi yox, məsuliyyətli, fədakar iş kimi, əsil mərdlik kimi baxmaq lazımdır. Xarici, burjua əxlaqının, pozğun kino-filmlərin təsirilə təəssüf ki, bizdə evlənməklə əylənən, dilxoşluq keçirən gənclər əmələ gəlib.

Evlənmək abırlı adam üçün ömürdə bir dəfə olan ən mühüm

hadisədir. Bəzi cavanlar isə belə düşünür: “Filankəs gözəl qızdır, onu alaram, sonra xoşuma gəlməsə boşayaram. Bizim qanunlar sağ olsun. Haçan istədin-boşa getsin...”

Bəzən belə də eləyirlər: cavanlar var ki, ildə neçə arvad dəyişir. Ailə səadəti, ailə sədaqəti olmayanların cəmiyyətdə, xalq arasında hörmət qazanacağına inanmaq çətindir.

Bəzən də qız ya oğlanın valideynləri ailəni dağıdırlar. Müsəlmanlığın ən çirkin adətlərindən biri – qızlara əmlak kimi baxmaq, onların hüququnu tapdalamaq halları nadir hadisə olsa da, tək-tək ailələrdə qalıb. Radioya, redaksiyalara gələn məktubların bir qismində belə şikayətlər var. Ana qızının sevişdiyini biləndən sonra onu töhmətləyir, “dizinin dibindən kənara buraxmır. Dayı, bacısı qızını - qızın nifrət etdiyi bir adama ərə verir”.

Belə dayılara nə deyəsən?

Bu adam düşünmür ki, bacısı qızını bədbəxt etməkdən başqa özü ömür boyu lənət sahibi olacaq. Uşaqlar onu Məşədi İbad kimi nifrətlə yad edəcəklər.

İsmətli, həyalı, utancaq qızlar bəzən qurbanlıq quzu kimi məcburiyyətlə vəhşilərin qucağına atılırlar. Böyük Sabir hələ altmış il bundan qabaq belə məsum bir qızın faciəsini təsvir etmişdir:

*Xan dostu, amandı qoyma gəldi,*
*Didarı yamandı qoyma gəldi.*

Köhnəpərəst, qəddar adamlar həm öz övladını bədbəxt edir, həm də ailələrin tez-tez dağılmasına, çirkin adətlərin bərpasına səbəb olurlar.

Keçmişdə, qızların qapalı, çadralı yaşadığı müsəlman məişətində bu adətlərin qurbanı olan qızlar ömürlük bədbəxt olur, getdikləri evin küncündə çürüyürdülər.

İndi vəziyyət tamam başqadır. Zor ilə ərə verilən qız sabah mütləq boşanacaqdır. Bu evlənməyə qol qoyan valideyn həm öz övladı, həm də cəmiyyət qarşısında cinayət etmiş olur, keçmiş avam ataların təhqirli bir misalını da bəzən yada salırlar: qızı öz xoşuna qoysan, ya halvaçıya gedər, ya zurnaçıya.





Axı, indi belə avam, şüursuz qızlar yoxdur. Halva, ya zurna ilə aldanan gənclər tapmaq çətindir.

Valideynin qıza ya oğlana ağıllı məsləhəti həmişə faydalı, hətta zəruridir. Ata-ananın buna tamam haqqı, ixtiyarı var.

Ancaq bu mədəni, xoş məsləhəti çomağa, töhmətə, məzəmmətə çevirmək bəzən qızlarımızı fəlakətə aparır. Qoy bu barədə övladının gələcəyini, səadətini istəyənlər düşünsünlər!

Yeni həyat, məhəbbət, məişət yoluna çıxan bütün gənclərə sağlam yolda ictimai şüur, vətəndaşlıq borcu və məsuliyyətilə möhkəm addımlamalarını, hər bir hərəkətlərini böyük gələcəyə və xoşbəxt günlərə layiq etmələrini, yalnız ani, qızğın və kor hisslərilə yox, düşüncəli, tədbirli, uzaqgörənliklə, qarşılıqlı razılıq və əsil sevgi ilə ailə qurmalarını arzu edərdik. Axı, yeni cəmiyyət üzvlərinin, yeni azad əmək adamlarının ailəsi də, məhəbbəti də qəşəng, nümunə olmalıdır. Sağlam sovet ailəsi qurmaq yolunda rast gəldiyimiz köhnəlik qalıqlarını amansızlıqla rədd edib təmizləməli, sevgimizin, sevgilimizin, övladımızın, ailəmizin müqəddəsliyini qorumalıyıq.

Gəncliyin, gələcəyimiz və səadətimiz üçün bizə verilən, yalnız bircə dəfə verilən pak niyyətli gəncliyin qədrini bilmək lazımdır.

*Ədəbiyyat və incəsənət. 1964. 19 sentyabr. №38*

## 1965
## Ağır itki

Mehdi Hüseyn aramızdan getdi. Bu faciəli xəbər iti bir bıçaq kimi sinəmizi yardı, qəlbimizi parçaladı. Bütün varlığı ilə həyat, fəaliyyət, atəşin mübarizə mücəssəməsi olan münəvvər bir vücudun həyata əbədi göz yumduğuna, odlu qələmi tərk etdiyinə inanmaq çətindir.

Xüsusən bizlərə, qırx ilə yaxın bir müddətdə onunla birlikdə çalışan, onun iş stilinə, yaradıcılıq, dostluq, yoldaşlıq stilinə, onun sovet ədəbiyyatı, mədəniyyəti üçün daim aramsız çırpınan,

qanadlanan ilhamına, mübariz mühakimə və təfəkkürünə alışıb, ünsiyyət bağlayan qələm yoldaşları çox ağır bir sarsıntı keçirirlər.

Mehdi Hüseyn bütün şüurlu həyatını Azərbaycan xalqının sosialist, kommunist mədəniyyətinə həsr edən gözəl bir ədibdir. O, sovet ədəbiyyatının yorulmaz əsgəri idi. Ancaq sıravi yox, qvardiyaçı əsgəri idi. Bu ədəbiyyatın yaranmağa başladığı ilk günlərdən, iyirminci illərin mürəkkəb, mübarizəli, keşməkeşli günlərindən biz onu həmişə ön atəş xəttində, odlu qələm əlində, ideya döyüşlərində görürdük. Mehdi, sovet ədəbiyyatının ideya-bədii saflığını, şan-şərəfini uça tutan, qoruyan, bu yolda hər bir fədakarlığa cəsarətlə gedən və həmişə də qalib gələn xarakter sovet ədibi idi. Onun zəngin, mənalı, məzmunlu yaradıcılıq yolu əsərləri kimi işıqlı və sovet oxucusuna, gənc nəslə parlaq nümunədir.

Mehdinin ilhamı qüdrətli və çoxcəhətli idi. O, həm gözəl realist roman və hekayələri ilə, həm xalqımızın rəşadət, şücaət, qəhrəmanlıq ənənələrini tərənnüm edən səhnə əsərləri ilə, həm də dərin elmi, fəlsəfi məzmunlu ədəbi məqalələri ilə sovet oxucusunun məhəbbətini qazanmış, qəlbini fəth etmişdi. Onun, xüsusən Vətən müharibəsi dövründə və sonrakı illərdə yaratdığı bədii, elmi və publisist əsərlər sovet ədəbiyyatı xəzinəsini zənginləşdirən qiymətli incilərdir. Azərbaycan fəhlə sinfinə, xüsusən qəhrəman Bakı neftçilərinin həyat və mübarizəsinə həsr etdiyi əsərlər (“Abşeron”, “Qara daşlar”, “Səhər”...) sovet ədəbiyyatı tarixində şərəfli yer tutur və həmişə də tutacaqdır.

Mehdi Hüseyn milli, coğrafi və professional məhdudluqdan uzaq bir ədib idi. Onun kamil əsərləri respublikada sevildiyi kimi, dünyanın hər yerində mütərəqqi adamlar tərəfindən sevilə-sevilə oxunur, təqdir olunur. Mehdinin alovlu, ictimai ehtirasları yalnız ədəbiyyat çərçivəsinə sığmırdı. O, Mirzə Cəlil, Sabir, Cabbarlı, Vurğun xarakterli ədib idi. O, xalqını, Vətənini hər yerdə – siyasətdə, ictimaiyyətdə, mədəniyyətdə, ədəbiyyatda ləyaqətlə təmsil edən bir ədib idi. Təsadüfi deyil ki, o, yalnız respublikamızda,





yalnız Sovet İttifaqında deyil, sərhəd xaricində də hörmət və şöhrət qazanmışdır.

Mehdi Hüseyn bütün varlığı ilə sevdiyi sovet ədəbiyyatı yolunda hər cür fədakarlığa gedən, hər şeyi, hətta canını da qurban verən bir ədib idi. Bu ədəbiyyat haqqında ən adi oxucunun şirin bir sözü onu qanadlandırırdı. O, heç bir zaman şəxsi şöhrət hissinin naxoşu olmamışdır. O, klassiklərdən tutmuş cavanlara qədər, bütün əsərləri diqqətlə oxumaqdan yorulmurdu. Zəngin mütaliə sahibi idi. Onun qədər sovet yazıçıları haqqında yazan, böyükdən-kiçiyə müasir ədib və şairlər haqqında açıq fikir söyləyən ikinci bir ədib göstərmək çətindir. Akademiyada çalışdığım illərdə sovet ədəbiyyatının, klassik ədəbiyyatın mühüm məsələləri haqqında bəzən ona müraciət etməli olurdum. Həmişə doğma işi kimi qəbul edib səs verirdi. “Bayatılar” kitabı onun ixtisasından, stilindən uzaq bir kitabdır. Xahiş edəndə “bunlar bizim xalqımızın mədəniyyət işçiləridir” – dedi və kitaba müqəddimə yazdı.

Mehdi ədəbi ictimai hadisələrə biganə münasibət bəsləyən ətalətli adamların düşməni idi. O, ən fəal ədib idi və elə mühüm bir məsələ olmazdı ki, orada Mehdinin səsi eşidilməsin. O, ədəbi gəncliyi də bu ruhda tərbiyə etməyi istəyirdi. Mehdi, səhhətinin ağır vəziyyətinə, işinin çoxluğuna baxmadan, ömrünün son saatlarına qədər gərgin yaradıcılıq həyatı yaşayırdı. “Yeraltı çaylar dənizə axır” adlı çox aktual və məfkurəvi əsəri onun son romanı oldu. O, hələ çox yazıb-yarada bilərdi. Təəssüf ki, amansız ölüm bu qüdrətli ədibin alovlu yaradıcılıq niyyətlərini qılıncladı.

Mehdi aramızdan getdi, ancaq onun ürəklərə yeriyən zəngin yaradıcılıq irsi, onun mənalı əsərləri həmişə yaşayacaqdır.

Qədirbilən xalqımız Mehdinin əziz xatirəsini həmişə yaşadacaqdır.

Mehdinin zəngin yaradıcılıq yolu, dərin məzmunlu, yüksək məfkurəli və mənalı əsərləri gənc nəslimiz üçün ən yaxşı tərbiyə vasitəsidir.

*Ədəbiyyat və incəsənət. 1965.13 mart*

## 1966
## Xalqımız

Xalqımız V.İ.Leninin təvəllüdünün 100 illiyi, Böyük Oktyabr inqilabının 50 illiyini qeyd etməyə hazırlaşır. Sovet adamları Sov.İKP XXIII qurultayının qərarlarından ruhlanaraq qarşıdakı böyuk və şərəfli bayramlara yalnız xoş xatirələri, ürək dolusu sevincləri, sinə dolusu iftixarı ilə yox, həm də əmək və yaradıcılıq nailiyyətləri ilə gəlirlər.

Xüsusilə bizim kimi yaşlılar, əsrimizin mübarizələri, fırtınaları içərisində göz açan, inqilabımızın cahanşümul döyüş və nailiyyətlərini uşaq hafizəsi, həssaslığı, sevinc və həyəcanı ilə görub, uşaq zehni ilə dərk edənlər bir xatirə nəzərilə dönub keçdikləri yarıməsrlik həyat yoluna baxanda məna dolu zəngin hisslə yaşayırlar...

Bütün şahidi olduğun, eşidib, görüb duyduqların haqqında yazmaq istəyirsən. Dönə-dönə yazdıqların haqqında da yazmaq, yorulmaq bilmədən yazmaq istəyirsən.

...Mədən gölməçələri və çınqıllardan qalanmış təpəsi fənər işığında bərq vuran bir dağın ətəyində kənd məktəbi yerləşmişdir. Axşam qaranlığında pencəkli, plaşlı, ağır yerişli, əli fənərli, qoltuğu dəftərli fəhlələr izdihamla, əsgər kimi otaqlara dolur, yorğun-yorğun skamyalarda yer tutur, nəzərlərini yazı taxtasına, oğulları yerində cavan müəllimə tikib maraqla qulaq asırlar.

Müəllim də, gündüz dərslərindən uşaqları yola salandan sonra buraya, fəhlələrin savad kursuna gəlmişdir. O zaman, mədəni inqilab illərində bu hərəkata mədəni hücum, bu muəllimlərə isə mədəni əsgər deyirdilər. Savad məntəqələrində oxumağı isə hər bir kəs vətəndaşlıq borcu bilirdi. Çünki partiyamız Sovet vətənini tez bir zamanda başdan-başa savadlılar ölkəsinə çevirməyi qət etmişdi. Bu həmin günlər idi ki, Sevillər çadranı atıb ictimai aləmə gedirdilər. Məscidlər əvəzinə mədəni ocaqlar açılırdı, mətbəx qadınları da dəftər-kitab alıb maarif işığına yol alırdılar. Pioneri də dindirirdin, böyuk Leninin müqəddəs vəsiyyətini ucadan deyirdi:





BİRİNCİSİ OXUMAQ, İKİCİSİ OXUMAQ, ÜÇÜNCÜSÜ OXUMAQ!

Mənim neçə ildən bəri üzərində çalışdığım bir kitab həmin günlərdən, həmin günlərin sadə qəhrəmanı – kənd müəllimindən, onun işi, idealı, mübarizəsi, məqsəd və taleyindən bəhs edəcəkdir. İndi yer üzərində qürurla addımlayan on minlər, yüz minlərlə başı uca sovet ziyalılarının çoxu həmin günlərdə əlinə ilk dəftər, qələm almışdır. Əslinə baxsan həmin qələmi tutmağı, kağız üzərində gəzdirməyi təşviş və həyəcanla bizə öyrədənlər ilk sovet müəllimləri olmuşlar. Güman edirəm ki, o günləri, saat, dəqiqələri, ilk müəllimin gözlənilməz, anlaşılmaz ehtiramını, mehriban səsini, isti əllərini heç kəs, heç vaxt unutmaz! İnsan ömrü boyu bu mənəvi ataya borclu və minnətdardır.

Düşündüyüm kitabda kənd müəlliminin yalnız yürüş, sevinc qələbələri yox, müqəddəs, çətin həyat, mübarizə yolu görünməlidir. Sovet müəlliminin xoşbəxtliyi onda idi ki, azadlığın, maarif və mədəniyyətin yolunu sosialist inqilabı ilk həmlədə açmışdı, təmizləmişdi. Cəhalətə, nadanlığa qarşı, tərəqqiyə, işığa, yeni həyata doğru ümumi yürüş başlanmışdı.

Ancaq düşmən hələ güclu idi, azan, quran səsi kəsilməmişdi. Qızlar 3-4-cü sinifdən yuxarı məktəbdə qala bilmirdilər. "Səriyyənin ölümü", demək olar, hər rayonda təkrar olunan faciə idi. Almaslardan çox fədakarlıq tələb olunurdu. Hacı Əhmədlər addım başı müəllimin qarşısına Bitdili imamını çıxarırdılar...

Müəllim kənddə həm də həkim, aqronom, vəkil, məsləhətçi, təbliğatçı idi. Bütün bu mürəkkəb şəraitdə dindarlara, qolçomaqlara, qaçaqlara və s. düşmənlərə baxmadan, onlara qələbə çalaraq, müəllim, oxudub-yetirdiyi cavanları valideynlərə, vətənə – xalq təsərrüfatına təqdim edəndə ürəyi dağa dönür, daha yeni bir qala fəth etmiş kimi görünürdü.

Bizim ədəbiyyatımızda məktəbə, müəllimə az əsər və kitab həsr olunmamışdır. Bütün klassiklərimiz, görkəmli müasir şair və ədiblərimiz bu mövzuya az və ya çox dərəcədə toxunmuşlar.

Bununla belə bizim məktəbə və müəllimə borcumuz çoxdur.

Mən də istərdim ki, qolumda az-çox qüvvət var ikən işığın, zəkanın, münəvvərliyin bu yorulmaz xadimlərinə ürək sözlərimi deyim.

*Elm və həyat. 1966. № 3*

## Xatirə dəftərimdən

Səməd Vurğun haqqında xatirə yazmaq mənə həm asan, həm də çətindir. Asandır ona görə ki, otuz ilə yaxın bir müddətdə onunla bir yerdə, eyni cəbhədə, eyni sahədə, həm işdə, həm ailədə, məişətdə yaxın həmfikir olmuşam. Çətindir ona görə ki, keçirdiyim saatlar, günlər zehnimdə canlandıqca ətrafıma baxır, böyük şairi, həqiqi dostu, məsləkdaşı axtarır, həyəcanımı gizlədə bilmirəm...

Mən Səmədi ilk dəfə Gəncədə (Kirovabad) o zaman cavan ziyalıların çox sevdiyi Maarif evində görmuşəm. İyirminci illərin ortalarında müəllimlər seminariyasında oxuduğum zaman keçirilən ədəbi məclislərə gedirdim. Belə məclislərdən biri dəmir körpü yanındakı Maarif evində keçirilirdi. Bakıdan Proletar Yazıçıları Cəmiyyətindən gəlmiş nümayəndələr çıxış edirdilər. Şeirlər oxunur, nitqlər deyilir, alqışlar gedirdi. Məclisin axırlarına yaxın Əbdülbaqi Fövzi bir şeir oxudu: "Komsomol qız, məni gəl dinlə bir az". Sonra bir boz şinel geymiş arıq, qara oğlan tribunaya çıxdı, nitqini qeyri-adi, o zaman az təsadüf edilən bir ahəng və sərbəstlik ilə başladı:

– A yoldaşlar, bayaq burada oxunan yazını nəyə görə alqışladınız? Bəyəm o, şeirdir? Bəyəm şeir elə olar? Yox, yanılırsınız. O, şeir deyil, açıq məktubdur. Şeirə, sənət əsərinə verilən tələb başqadır…

Bayaqkı yazını alqışlayanların hamısı diqqətlə gənc natiqə qulaq asmağa başladılar. Sıralarda ani bir maraq oyandı və sorğulu pıçıltı keçdi:

– Bu kimdir?

– Bu harada oxuyur?

– Harada müəllimdir?

Səməd Vurğun 1926-cı ildə, yanılmıramsa, Qazaxdan, ya da Qubadan müəllimlik vəzifəsinə Gəncəyə köçürülmüşdü. Partiya





məktəbində ədəbiyyat dərsi deyirdi. Ancaq Vurğun iş, yaratmaq, yazmaq, günü-gündən böyüyən doğma, izdihamlı şəhərin qaynar ictimai həyatında fəal çalışmaq həvəsi ilə yanırdı. Proletar yazıçılarının burada bir şöbəsi təşkil olunmuşdu. "Qızıl Gəncə" adlı jurnal nəşr edilirdi. Sənaye ocaqlarında, komsomol, həmkarlar yığıncaqlarında cavan şair və ədiblərin çıxışları təşkil olunurdu. Belə məclislərdə Vurğunun gur, bakir, yeni, səmimi, cazibəli şair səsi eşidilir, sürətlə, şöhrətlə yayılırdı. Həmin yığıncaqlarda mən Vurğunu həm komsomol yoldaşım, həm də yeni, inqilabi şeirin gələcəyə, böyük gələcəyə bir müraciəti kimi iftixar hissi ilə dinləyirdim.

Çox çəkmədi ki, böyük şairimizin ilk əsərləri ümumi şöhrət qazandı. Təhsil həvəsi bizi mərkəzə gətirdi. "Şairin andı" (1930) kitabı "Ələmdən nəşəyə" ilə yanaşı gənclərin ən çox maraqla izləyib oxuduğu kitablar idi. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (Az.QNİİ) aspiranturasına daxil olduğum zaman Vurğunun yaradıcılığına həsr olunmuş "Yenidən qurulma yollarında" adlı məqaləni yazdım, (1932). Məqalə "Hücum" jurnalında dərc edildi. Böyük şair də aspiranturada ədəbiyyat şöbəsində oxuyurdu. Onun təhsili də, iş üslubu da, münasibətləri də həmişə yenilik, bir az da şairlərə məxsus qəribəliklə seçilirdi.

Biz aspiranturada oxuyarkən K.Marksın "Kapital" əsərini öyrənib təhlil etmək məsələsi müzakirə olunurdu. Bəziləri deyirdi: bu kitabı ədəbiyyatçı aspirantlar üçün sətirbəsətir təhlildən keçirmək, əmtəə təsərrüfatının hətta detallarını konspektləşdirmək lazımdır. Müəllim özü də ədəbiyyatçılardan ibarət olan bu auditoriyanın fikrini bilmək istəyirdi.

Səməd Vurğun ümumi axına qoşulmadı və müəllim ilə açıq danışmaqdan çəkinmədi:

–Yoldaş müəllim, – dedi, – siz iqtisadçısınız, "Kapital"ı hərfinəcən bilirsiniz, çox sağ olun. Amma mən iqtisadçı yox, şairəm. Şairliyimdə də qalmaq istəyirəm. Ona görə də siz bu kitabın əsas teoriya ilə ictimai inkişaf qanunları, sənət və ədəbiyyatın spesifikası ilə bağlı fəsillərini bizə öyrədin, minnətdar olarıq.

Bütün aspirantlar və müəllim bu fikri bəyəndilər, dərslər bu istiqamətdə planlaşdırıldı. S.Vurğun istedadı dərəcəsində də məğrur, özünə, sözünə güvənən adam idi.

*Gəncliyim bir oddur yandıqca sönməz,*
*İnad bir insanam, sözündən dönməz…*

Bir dəfə sinifkom dərsə gecikən aspirantlar sırasında onun adını oxuyanda Səməd qəti etiraz elədi:
–Gecikmək dedi, – yarımçıq adamın işidir. Mən gecikmərəm. Mən ya gələrəm, ya heç gəlmərəm.

S.Vurğun öz sələfləri – Nizami, Füzuli, Sabir kimi sözə çox qiymət qoyur və artıq məna verirdi:

*Artıran söz qədrini sidqilə qədrin artırır.*
*Kim nə miqdar olsa əhlin eylər ol miqdar söz...*

Eşitdiyi, ya oxuduğu mətnlərdə bədii, mənalı sözü sərraf kimi dərhal seçər və ağızdolusu tərifləyib qiymətləndirərdi.

Bir dəfə cavan şairlərin yazıları təhlil olunanda çəkilən bir yaxşı misalın Səmədi nə qədər sevindirdiyi yadımdadır, cavan şair çöldə uşaqlıq, çobanlıq günlərini təsvir edib deyirdi:

*Bəzən mal itirib çöldə qalardım,*
*Gündüzü gecədən xəbər alardım...*

Bunu eşidən kimi Səməd üzünü bütün məclisə tutub dedi:
–Bu əsl şair sözüdür. Bu sözün sahibinə şair kimi baxmaq, haqqında ürəkdən danışmaq lazımdır.

Kimin qələmindən çıxır-çıxsın zəif əsər böyük şairi məyus edir, güclü əsər isə qanadlandırırdı. O zaman lap cavan şair Adil Babayevin bir beytinə xüsusi bir şeir həsr, etdiyi yadımdadır. Səmədin tənqidçi və ədəbiyyatşünaslardan bir tələbi də bu idi:
–Ədəbiyyatımızdan ağızdolusu, iftixarla danışmaq çoxunuzda çatışmır. Akademiyada ədəbiyyat tarixi kitabının bir neçə cilddə planlaşdırılması məsələsi qoyulanda etirazlar az olmurdu.





Səməd isə bu zəngin xəzinənin “qapısı təzəcə açıldığını” göstərməklə belə təşəbbüsləri hər yerdə qızğın müdafiə edirdi.

O, ədəbiyyat və sənətə xalq həyatı, idrakı və hünərinin mənəvi bir təcəssümü kimi baxır, Vətənimizin şan-şöhrətini hər bir kitabda, tabloda və mahnıda görmək istəyirdi. Vətən müharibəsinin ilk aylarında azərbaycanlı döyüşçü İsrafil Məmmədov faşistlərə qarşı vuruşmada öz rəşadəti ilə seçilmiş, qəhrəman adını almışdı. Bu hadisə Vurğunu çox sevindirmişdi. Onun rəhbərliyi ilə biz qəhrəmanın kəndinə, ailəsinə təbrikə getdik.

“Sovet pəhləvanı” kitabı həmin günlərdə yarandı. Səməd İsrafilin, Kamalın, İslamın və başqa qəhrəmanların adını şeir ilə əbədiləşdirdi. Böyük şairin lirik, epik, ya dramatik əsərlərində Vətənin keçmişi və indisi, həm də gələcəyinin yüksək sənət dili ilə tərənnümü adamı valeh edir. Azərbaycan, onun zəngin, mübariz tarixi həyatı, qələbə və nailiyyətləri, taleyi və adamları Vurğun sənətində həmişə şərəfli yer tutmuşdur.

O, həm doğma Azərbaycanın, eyni zamanda böyük Sovet Vətənimizin, əzəmətli kommunizm cəmiyyəti quran qəhrəman sovet xalqının ilhamlı tərənnümçüsü idi. Bu məna və məzmun, qüdrət və vüsəti şairin bütün əsərlərində görmək olar.

*Bakı. 1966. 14 may*

## 1967
## Səni sevir, səni unutmuruq

Mən Mirzə Cəlildən əvvəl onun jurnalı ilə tanış olmuşam. “Molla Nəsrəddin” inqilabdan qabaqkı şöhrətini 20-ci illərdə də saxlamışdı. Ziyalılar və az-çox savadı olanlar bu jurnalı müntəzəm oxuyur və məclislərdə, yeri gələndə yazı və şəkillərini müzakirə edərdilər.

“Molla əmi belə yazır, Molla əmi elə deyir”.

Biz məktəblilər güman edirdik ki, doğrudan da bu jurnalı ya-

zan bir nəfər molladır. Əlbət ki, bizim, şəxsən mənim təsəvvürümdə, "Molla əmi ayrı molla, məzəli molla idi. Zarafat sevən, qüsurlara gülən və oxucunu da güldürən molla əmi idi. Hətta, onun qiyafəsini də jurnalın ilk səhifəsində çəkilən Molla kimi təsəvvür edirdim. Seminarist vaxtımda Gəncədə bəzi müəllimlərin çadra ilə dərsə gəldiyini, bir məktub şəklində "Molla Nəsrəddin"ə yazmışdım. Jurnal bu məktub əsasında yaxşı bir karikatura vermiş, məktubun məğzini şəklin altında yazmışdır. O zaman Mirzə Cəlil haqqında məktəblərdə dərs kitablarında əməlli-başlı məlumat yox idi. Proqram və dərsliklər türk şairlərinin əsərləri və bioqrafiyası ilə yüklənmişdi. Vaqif, Zakir, Sabir, Səhhət, Mirzə Cəlil, Haqverdiyev kimi sənətkarlar məktəb uşaqlarına təlim edilmirdi.

Mirzə Cəlilin ilk hekayələr kitabını mən Oktyabr inqilabının 10 illiyi bayramına çap olunan kitablar ilə birlikdə aldım. Məlum olduğu kimi, Mirzə Cəlilin yaradıcılığında ən səciyyəvi cəhətlərdən biri, bəlkə də birincisi bu gün də sovet ədiblərinin hər birindən tələb etdiyimiz müasirlik idi. Həm bədii, həm publisist əsərlərində, həm elmi fəaliyyətində o, fitrətən müasir ədib idi. Zəmanənin ən mütərəqqi ideya və meylləri ilə yaşayır, nəfəs alırdı. 20-ci illərin axırları bizim Vətənimizdə, tariximizdə istismarçı siniflərin ləğvi, yeni quruluşun və məfkurənin qələbəsi ilə məşhurdur.

Bu ümumi, ictimai-tarixi proses çox sürətli və mübarizə də çox kəskin olmuşdur. C.Cabbarlının dediyi kimi, bu zaman həyatda, məişətdə, zehniyyətdə baxış, – görüşlərdə inqilab vaxtı idi. İnqilabın məzmunu isə bədii ədəbiyyatda müxtəlif janrlar və formalarda, müxtəlif mövzu və səviyyədə əks olunurdu.

Böyük ədəbimizin "Bəlkə də qaytardılar" əsəri ölkədə gedən sinfi mübarizəni və istismarın ləğvi prosesini çox bariz, çox orijinal bir şəkildə göstərən əsl məfkurə silahı kimi şöhrətlənmişdi.

Mən o illərdə Gəncədə yaşayırdım. Ədəbiyyat mühiti, yazıçılar aləmi ilə rabitəm az idi. Adını çəkdiyim əsərin özündən əvvəl şöhrətini eşitmişdim. Məktəb yoldaşlarımdan bir özbək seminaristi yay tətilində vətəninə gedib qayıdanda Bakıdan keçməli olur-





du. Həmin əsəri alıb gətirmişdi. Bu maraqlı kitabı tələbələr böyük həvəslə oxuyur, bir-birinə verirdilər.

Mirzə Cəlil istedadının və müdrikliyinin orijinallığı və gücü bir də onda idi ki, ədib ən dəhşətli faciəli hadisələri çox təbii, sakit yumor və satira rəngi ilə əks etdirə bilirdi. Onun fəlsəfi dərinlikli, alim təmkinli, fəhlə baxışlı üslubuna gurultu, bəzək, zahiri təntənə yad idi. Ölən siniflərin nümayəndələrinin hər gün bulvarda dərdləşməyə toplaşması, qəzetlərin ancaq son səhifələrini, "xarici xəbərlər" sütununu həyəcan və intizarla dönə-dönə oxumaları, hər xəbərdə bir ümid, "çara" aramaları, sovet adamları sırasından özlərinə həmfikir axtarmaq xülyaları, keçən günlərin həsrəti ilə:

"Ax, necə kef çəkməli əyyəm idi.

Onda ki, övladı vətən xam idi!" – deyə çırpınıb durmaları oxucular üçün canlı bir tamaşa səhnəsi, əyani bir komediya idi.

Bəlkə də qaytardılar!

Məclislərə, küçələrə, bağlara, məktəblərə, kənd və şəhərlərə səs salan bu şən, mənalı sözlər yeni həyatın istismar dünyası üzərində qələbəsi, sovet quruluşunun, zəhmət dünyasının ölən siniflərə, tüfeylilərə gülməsi idi. Qaliblərin təntənəsi idi.

Ədibin qələmindən çıxan gözəl realist hekayə, musiqi və səhnə xadimlərinin, rəssamların da ilhamına qida və qanad verdi. Kitabın üstündə xalq rəssamı Əzim Əzimzadənin çəkdiyi karikatura indi də oxucuların yadındadır. Tüfeyli sinif nümayəndələrinin pərişanlıq saatlarında yerə tökdükləri papiros kötükləri özü bir gülməli mənzərə idi. – C.Cabbarlının "Sevil"i kimi, Mirzə Cəlilin bu klassik hekayəsi də dillərin əzbəri oldu.

30-cu illərin başlanğıcında ədəbiyyat həvəskarı, həm də redaksiyada gənc ədəbi işçi idim. "Kommunist" və "Gənc işçi" qəzetlərində çalışırdım. Qocaman ədib və şairlərimiz ilə görüş və təmasım olurdu. Mirzə Cəlil ilə yaxından görüşmək mənə nəsib olmadı. Onu ancaq ədəbi məclislərdə çox nadir hallarda, uzaqdan görürdüm. Kəlmə kəsməyə cəsarət etmirdim. Lakin çıxışlarını eşitmişdim, yadımdadır, 1932-ci ilin yazında AzAPİ deyilən ədəbiyyat təşkilatı ləğv olunanda ədəbi yığıncaqlara xüsusilə qoca-

man, “bitərəf” deyilən yazıçıları çox toplayır, partiyamızın göstərişi ilə onları yeni təşkilatda – Sovet Yazıçıları İttifaqında birləşdirirdik. Elmlər Akademiyasının köhnə binasının böyük zalındakı yığıncaqda Ə.Haqverdiyevin yumorla dolu nitqini eşitdim. Mirzə Cəlil əl ağacına söykənib mənalı sükutu ilə bir kənarda əyləşmişdi. Yığıncaqların heç birində böyük ədibi qabaqda əyləşən, gözə girməyə çalışan görməzdin. Uşaqlara məxsus bir məsumluq, utancaqlıq, onun böyük mütəfəkkir simasının xarakter əlaməti idi. O, heç bir zaman, heç bir yerdə özündən danışmağı, “əsərlərim”, “fəaliyyətim”, “yaradıcılığım”, – deyə öyünməyi sevməzdi. Bu hərəkətlərdən ikrah edərdi. 25 il jurnal nəşr etdi, bir dəfə də öz şəklini çap etmədi, yubileyini keçirməyə razı olmadı.

Onun vəfatı kədərli, yağışlı, soyuq bir qış gününə təsadüf etmişdi. Sabir bağının aşağı hissəsində maarif evi var idi. Mirzə Cəlilin dəfn mərasimi orada keçirilirdi. Mərhumun cənazəsi başında qələm və məslək yoldaşları, cavan, qoca şair və ədiblərin nitqləri indi də yadımdadır. Səlman Mümtaz böyük faciədən sarsılaraq göz yaşı tökür, üzünü əziz yoldaş və məsləkdaşına tutaraq odlu sözlərlə əlvida söyləyirdi.

Mirzə Cəlilin vəfatından sonra dövrən əsərlərinin nəşrinə başlandı. Elmlər Akademiyasının Azərbaycan filialında bu iş çox sürət və səylə davam edirdi. Ruhulla Axundov, Əli Nazim, Vəli Xuluflu filialın bütün əməkdaşlarını bu işə cəlb etmişdilər. Bu səyin nəticəsidir ki, 1935-ci ildə Mircə Cəlilin ilk əsərlər külliyyatının birinci və ikinci cildləri (hekayə və komediyaları nəşr edildi).

Ədibin əsərləri böyük tirajla gənc nəslə çatdırılandan, qardaş xalqların dilinə tərcümə ediləndən sonra sovet oxucusu hörmətli ədibimizin gözəl irsini, zəngin məna dolu yaradıcılıq aləmini ürəkdən sevdi.

Mirzə Cəlil xalqımızın, həm də bəşəriyyətin və inqilab əsrinin böyük oğludur. Realist nəsrimiz Mirzə Fətəli Axundovun “Aldanmış kəvakib” əsəri ilə başlanır. Amma bu nəsrə dünya şöhrəti qazandıran, heç bir zahiri təntənə və dəbdəbəyə aldanmayan, hər yerdə ictimai-həqiqəti vətəndaşlıq cəsarəti ilə işıqlandıran birinci böyük ədib Mirzə Cəlil olub. O, müasir qələm mübarizlərindən məna işığı ilə şölələnən, ictimai mühitimizdən, zehinlərdən, ürəklərdən qaranlıq və kölgəlikləri, tüstü-dumanı qovan parlaq əsərlər yaratmağı tələb edirdi. Onun özü bütün ömrü boyu bu müqəddəs mübarizənin bayraqdarı oldu. Bir damlada kainat, bir zərrədə günəş, bir lövhədə həyat əks etdirən ölməz əsərləri ilə əngin sənət səmasının əbədi parlayan ulduzu oldu.





Bəşəriyyət durduqca, həqiqi sənət və ədəbiyyat durduqca, Mirzə Cəlil idrak, məna və ayıq təfəkkür səmasında daima parlayacaqdır.

*Azərbaycan. 1967. №5. S.78-80*

## Əsər necə yaranır

Otuzuncu illər ədəbiyyat tariximizin şərəfli və müstəsna bir tərəqqi mərhələsi idi. O dövr sovet əbiyyatına böyük müəllimimiz Maksim Qorki başçılıq edirdi.

Qocalığına, səhətinin zəifliyinə baxmayaraq tükənməz bir enerji ilə çalışan, dühasının bütün qüdrətinin yeni, sosialist mədəniyyəti, sənəti və ədəbiyyatının tərəqqisinə verən dahi ağsaqqalımızın hər bir əsəri, çıxışı, çağırış və ata nəsihətləri yeni dünya quran qüdrətli bir ölkənin böyük qələm ordusu sıralarında dərhal əks-səda verirdi.

Sosializmin bütün cəbhə boyu hücumundan sonra hər bir sovet respublikasında olduğu kimi, Azərbaycanda da səmərəli yaradıcılıq mühiti yaranmış, yeni-yeni əsərlər meydana çıxmağa başlamışdı.

O zaman təzə təşkil olunan və gənc nəslin kommunist tərbiyəsinə xidmət edən, mənəvi ehtiyaclarını ödəməyə çalışan respublika cavanlar nəşriyyatı – “Uşaqgəncnəşr” yeni bir əsər təmənnası ilə mənə müraciət etmişdi.

“Bir gəncin manifesti”ndə söylənən hadisələr, gətirilən faktlar və göstərilən insanlar əsasən mənim canlı müşahidələrimin təbii və bakir nəticəsi idi.

Yaradıcılıq prosesi özlüyündə çox mürəkkəbdir. Əsər, sənətkar ilhamının zehni mənəvi meyillər vəhdətinin zəruri təzahürü kimi meydana çıxır.

Oxucularımızın böyük marağına səbəb olan adını çəkdiyim romanın yaranmasında ən mühüm amil partiyamızın sənətkarlar üçün yaratdığı şərait, göstərdiyi ata qayğısı və müəllifin gənc nəslə xidmət ehtirası olmuşdur.

Canlı müşahidələr deyəndə mən uşaqlıq illərində gözümün qarşısında cərəyan edən mürəkkəb, nadir ictimai-siyasi hadisələri nəzərdə tuturam. Əsər yazılanda, 1939-cu ildə müəllifin otuz yaşı var idi. "Manifestin" ən güclü tərəfi həyat həqiqəti, inqilabımız nəticəsində təlatümə gələn xalq həyatının canlı lövhələridir. Əhvalatda iştirak edən mənfi, müsbət surətlərin çoxu faktik adamlar, tarixən yaşamış şəxsiyyətlərdir. Müəllifin əsas işi onların şəxsi bioqrafiyalarını saf-çürük eləmək, inqilabi prosesi cəhətindən mənalandırmaq cəhdi olmuşdur.

Sonanın taleyi – Mərdan, Bahar kimi uşaqlar bəsləyən, balalarının məhrumiyyətlərə düçar olduğunu görən, zorakılıq, zülm və zülmətə qəhrəman kimi sinə gərən azəri qızının tərcümeyi-halı yüz minlərlə zəhmətkeş ailələrin taleyi, qisməti idi.

Sona avam, savadsız, ictimai aləmdən, siyasi həyatdan uzaq bir adamdır. Onun təfəkkürü, mühakimə və düşüncələri olduqca fərdi, şəxsidir. Eyni zamanda Sona əsərdə, əhvalatda siyasi vətəndaşlıq xarakteri daşıyır, öz hərəkətləri ilə çoxlarına nümunə verir. Sona ləyaqətli vətən qızıdır. Onun imperialist nümayəndəsi ilə görüşü həm faktik cəhətdən, həm də bədii məna cəhətindən əlamətdardır.

Bəzi oxucuların yazdığı məktublardan aydın olur ki, onlar kasıb, möhtac qadının xalçanı bir ovuc qızıla verməməsinə şübhə edirlər. Oğlunu dustaqdan qurtarmağa çalışan ana, müsavat məmurlarına rüşvət pulu hazırlamaq istəyirsə, bir ovuc qızıldan əl çəkməz!

Bu, məsələnin bir tərəfidir. Sona xalçasını satır, çünki başqa əlacı yoxdur. Ancaq alıcının yadlar nümayəndəsi olduğunu görəndə, bu gözəl xalçanın pul gücunə yad səyahətlərə gedib düşmən ayaqları altına salındığını, tapdandığını təsəvvür edəndə dəhşətə gəlir. Hadisənin özü zəhmətkeş qadının, qeyrətli ananın qəlbində mənlik, heysiyyət, iftixar, mübarizə hissinin bir vulkan kimi doğub qabarmasına səbəb olur. Sonanın ingilis kapitalistinə, satqın tacirə cavabı hamının ürəyindən xəbər verir.





Eləcə də komsomolçu, nakam Bağırın asılmaq, Lenin adına və ideyalarına qurban getmək səhnəsini oxucular heç vaxt unutmurlar. Hörmətli, istedadlı qələm yoldaşımız mərhum Mehdi Hüseyn bu fəsil haqqındakı yazılarının birində deyir: "Bir gəncin manifestin"də oxucunu sarsıdan səhnələrdən biri də döşündə Leninin əksini gəzdirən adsız-sansız bir gəncin müsavatçılar tərəfindən dara çəkildiyini göstərən faciəli səhnədir:

Axund əli ilə cənuba işarə verirdi:

–Üzünü qibləyə, Məkkəyi-mükərrəməyə çevir!

Məhkum kürsü üstündə düm-düz, hərəkətsiz dayanmışdır. Bu duruşu ilə mərmərdən tökülmüş əzəmətli məğrurluq heykəli kimi görünürdü. O, polad ürəkli adamın amansız ölüm məqamında belə böyük bir məna ifadə edən bu təntənəli duruşu camaatı suya döndərmişdi. Bir an sonra o, sağına-soluna baxdı, sanki şahin kimi qırılmış qanadlarına, bağlı qollarına baxırdı. Bəlkə də vidalaşmaq üçün cərgələrdə dostlarını, qohumlarını, köməklərini axtarırdı. Birdən cəld şimala tərəf çevrildi. Əyilməyən başını məğrur tutdu, ildırımlar saçan gözlərini dərin üfüqlərə dikib, ucadan və odlu bir hərartlə çağırdı.

"Ədəbiyyat və sənət məsələləri" (1958, səh. 332). Ölüm məqamında, təcrübəsiz, təlimsiz bir gəncin bu qədər cəsur, mətin, məğrur hərəkəti bədii mübaliğə və təbliğat deyil, parlaq həyat həqiqətidir. Çünki zəhmətdə, mübarizədə böyüyən, bütün ümid və idealını inqilaba, azadlıq günəşinə bağlayan milyonlarca yoxsul gənclərin səciyyəvi xüsusiyyətidir. İnqilabi mübarizə tariximiz, vətəndaş müharibəsi və Vətən müharibəsi günlərimizin şərəfli səhifələri belə hadisələr və qəhrəmanlıqlarla zəngindir.

Sonanın, Bağırın, Mərdanın, Yəhyanın hərəkətləri, çıxışı,

mübarizə və təsəvvürləri dövrün təbii cərəyanı, inqilabi mübarizə günlərinin polad məntiqi idi.

Kitabın ilk nəşrlərində belə bir ithaf qeydi var idi:

"Yaşıdım gənclərə!"

Sonrakı nəşrlərdə oxucularımız bu qeydi görmürlər, yəqin ki, səbəbini soruşurlar. Bu qeyd artıq və ya ixtisar qurbanı deyil. Doğrudan da əsər yazılan günlər, aylarda həmyaşlarım, onların xatirə, təsəvvürləri, hətta şərəfli inqilab günlərində onların iştirakı sevinc və iztirabları nəzərimdə olmuşdur. Bəzi fəsillərin yazılışında, hadisələrin canlandırılmasında həmin yoldaşların mənəvi köməyini duymuş, səslərini eşitmiş, qeydlərinə diqqət yetirmişəm.

Sonrakı nəşrlərdə bu qeydin saxlanmasını ona görə təkid etməmişəm ki, "gənc" sözü nə mənə, nə də 40-50 yaşlı yoldaşlarıma yaraşmamışdır.

Fürsətdən istifadə edərək, əsərlərin yaranmasında, şair və ədiblərimizin ilham və həvəsinə qüdrət, qüvvət verilməsində bir təşəbbüsün də əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm.

Yuxarıda gənclər nəşriyyatının adını çəkdim. Onlar mənimlə nə müqavilə bağlamış, nə avans təklif etmiş, nə də bir yerə ezamiyyət vermişdilər. Ancaq mənəvi cəhətdən onların, həyatım boyu minnətdar olduğum doğma komsomol təşkilatının diqqəti və nəzarəti həmişə mənim zehnimdə, xatirimdə idi. Mənə elə gəlirdi ki, yüz minlərlə cavan məktəbli, tələbə, kolxozçu, fəhlə, mədəniyyət, maarif işçiləri əlimdə olan əsəri aramsız gözləyir. Mən bu işi gecikdirsəm oxucular ordusunu intizarda qoyur, aləmi özümə güldürür, inqilabi mübarizə səhifələrimizin bədii işıqlandırılmasını ləngidirəm.

Güman edirəm ki, komsomol təşkilatı nəşriyyatı və mətbuatının "Polad necə bərkidi", "Gənc qvardiya", "Komsomol poeması" və sair məşhur əsərlərin yaranmasında müəyyən təşkilatçılıq, təşviqatçılıq rolu olmuşdur. Bunu heç bir zaman unutmaq lazım deyil. Sənətkar laboratoriyası, yazı masası nə qədər fərdi, intim "daxili" iş olsa da oxucular cəbhəsindən gələn xeyirxah niyyətlərə açıq və diqqətli olmaq lazımdır.





Bəzi oxucular, hətta ədəbiyyatçılardan eşitdiyim bir tələbə də yeri gəlmişkən münasibətimi bildirməyi lazım bilirəm.

O da nəşr olunmuş əsəri söküb təzədən yazmaq məsələsidir. Bu cəhətdən mən qələm yoldaşlarımın çoxundan ayrılıram. İnsan köhnə otaqlarını söküb, təzədən tikə bilər. Ancaq yaranmış, zehinlərə yerimiş əsəri söküb təzədən qurmaq mənim təsəvvürümə sığışan deyil.

Vaxtilə ədəbiyyatçı professorlardan biri mənə təklif edirdi: nə əcəb sən "Manifesti" böyüdüb bir neçə cild eləmirsən, sənin ki, materialın, imkanın çoxdur!

Mən o yoldaşa belə cavab verdim: O əsərin gözəlliyi yığcamlığında, ilhamın bakir həmləsilə yazılmasındadır. Əlavə sözü olan adam onları ayrı və təzə əsərdə deməlidir. Xırda qeyd, təshih mümkün olan şeydir, amma minlərlə oxucuların zehninə yeriyən əsəri sökmək, məncə, xeyirli iş deyildir.

Bu yaxınlarda "Azərbaycan romanı" haqqında qiymətli bir elmi əsər yazan gənc alim yoldaşın dediyi kimi, bizim sovet romanının keçdiyi tarixi, şərəfli yol həmişə hamar, şahrah olmamışdır. Burada müxtəlif dəstxətli ədibləri, müxtəlif səviyyəli, ömürlu əsərləri görmüşük və gələcəkdə də görəcəyik.

Bizim hamımızı hər yerdə həmişə birləşdirən cəhət məslək, məfkurə, məqsəd birliyimizdir. Hər bir sovet yazıçısı çalışmalıdır ki, zəmanəmizin, partiyamızın, qəhrəman xalqımızın müqəddəs mübarizə tarixini, bu gününü və gələcəyini daha parlaq, daha bədii, daha təsirli ifadə edən lövhələr, səhifələr, əsərlər yaratsın.

İndi, Böyük Oktyabr inqilabının yarım əsrlik bayramını keçirdiyimiz şərəfli günlərdə dönüb arxaya baxanda, parlaq səhifələri seyr edəndə qəlbimiz iftixar hissilə dolur. Sevincimizi bütün qələm yoldaşları, dünyanın bütün mütərəqqi ədibləri ilə bölüşdürmək, görüş məclislərimizdə demək istəyirik:

Sənətkar üçün, xalqının səadəti yolunda mübarizə səhnələrini ləyaqətlə, bədii işıqlandırmaqdan böyük səadət ola bilməz. Sovet sənətkarlarının ilham mənbəyi həmişə bu arzu və ideal olmuşdur. Zənnimcə böyük Leninin və leninçi Mərkəzi Komitəmizin ədə-

biyyat haqqındakı tarixi göstərişləri, Maksim Qorkinin zəngin yaradıcılığı bizi həmişə bu məqsədlərə, deməli, gələcəyə çağırmışdır. Bu, müqəddəs, mübariz çağırışdır.

*Ulduz. 1967. №11. noyabr*

**İrəliyə-yüksəklərə!**

*Yubiley ili tərəqqi, yüksəliş estafetini 1968-ci ilə təqdim edir. Qoy təzə il ölkəmizin iqtisadiyyatında, elm və mədəniyyətində daha coşqun inkişaf dövrü olsun!*

BU İL biz Yeni il bayramını yeni, əlamətdar bir şəraitdə keçiririk. Neçə ay əvvəl partiyamız, dövlətimiz və qəhrəman sovet xalqımız Böyük Oktyabr sosialist inqilabının yarıməsrliyini təntənə ilə bayram etdi. Bu günlərdə qardaş Ukrayna Sovet Sosialist Respublikası bütün qardaş sovet xalqı ilə birlikdə özünün şanlı 50 illiyini qeyd etdi. Bu tarixi bayram yalnız bir xalqın, bir respublikanın deyil, əbədi azadlığa çıxan bütün qardaş xalqların, bütün əməkçilərin bayramıdır.

Körpələr, uşaqlar və cavanlar köhnə dünyanı, vaxtı ilə ölkəmizdə hökm sürən zülm və zülmət düyasını, cəhalət, mövhumat, fəlakət səhnələrini görməyiblər. Cavanlar burjua-mülkədar həyat məişətinin dəhşətlərini ancaq kitablardan, xatirələrdən eşidiblər. Qocalar – indiki yaşlı nəsil isə keçmiş həyatın ağırlıq və işgəncələrini gözləri ilə görmuş, onun əzabını hiss etmişlər. Biz indiki firavan həyatımız üçün böyük partiyamıza və qəhrəman fəhlə sinfinə minnətdarıq.

Sosialist inqilabı Vətənimizin bütün əməkçilərini azadlığa çıxarmaqla, onları istismar boyunduruğundan xilas etməklə hər bir əməkçinin yaratmaq eşqinə və qüdrətinə müstəsna ilham, təkan vermişdir. Sovet ölkəsində xalqların və fərdlərin məhsuldar zəhmətinə yaranan müstəsna şərait bütün dunyada parlaq, misilsiz nümunədir. Bizim keçdiyimiz yarım əsr məzmun etibarı ilə əsrlərə bərabərdir. Bizim böyük mütəfəkkirlərimizin, ədib, şair və filosoflarımızın əsrlər boyu şirin bir xəyal kimi arzuladıqlarını sosia-





list inqilabımız bir həmlədə həll etdi: Vətənimizdə savadsızlıq ləğv olunmuş, məktəblər hamının üzünə açılmış, ildə hər bir nəfərə 5 kitab çap olunur. Şəhər və kəndlərimiz abad, yeni, işıqlı binalar ilə bəzənir, müasir texnikanın nailiyyətləri milyonlarla əməkçinin əməyini yüngülləşdirir, məişətini yüksəldir.

İndi bizdə ümumxalq üçün ərzaq, paltar, təminat məsələsi tamamilə həll olunmuşdur. Gənclər üçün sadəcə oxumaq yox, ali məktəblərdə, əla ixtisas qazanmaq yolunda oxumaq, çalışmaq məsələsi durur. Dünən ibtidai məktəbdən çıxmış bir yeniyetməni bu gün institutlarda, mürəkkəb laboratoriyalarda cihazlar qarşısında çalışan görürsən. Sovet məktəblərində ixtisas almış, təcrübə keçmiş cavanları dünyanın bir çox yerində, Asiya, Afrika, Avropa ölkələrində elm və texnikanı zənginləşdirmək sahəsində səylə çalışan görürsən!

Azərbaycan sovet respublikasının elm, texnika mütəxəssisləri Vətəndən çox-çox uzaq ölkələrdə çalışır, yeni nailiyyətlər əldə edirlər. Respublika ali məktəblərində dünyanın bir çox ölkələrinin gəncləri ixtisas alırlar.

Keçmişdə lampa işığına həsrət çəkən azəri kənd və şəhərlərində elektrik işığı hər bir ailənin nəsibidir. Bunu demək kifayətdir ki, respublikamızda istehsal olunan elektrik enerjisi İran, Türkiyə, Pakistan, Əfqanıstan ölkələrinin hamısında birlikdə istehsal olunan enerjidən artıqdır. Xalqın səhhətinə xidmət edən həkim kadrlarının sayına görə respublikamız dünyanın ən irəlidə gedən mədəni ölkələrindən biridir.

Köhnə ili yola salıb Yeni ilə qədəm qoyanda biz yalnız bayram təntənəsi münasibətləri ilə kifayətlənmirik. Bizi daha böyük vəzifələr düşündürür: İrəliyə, Yuksəklərə!

İlk beşilliklər dövründə səslənən bu çağırış inkişafımızın, hərəkatımızın səciyyəvi çağırışıdır. Bizim dövlətimiz, Vətənimiz, şəhərimiz, kəndimiz, hər bir kollektivimiz yüksəlişə, inkişafa doğrudur. Şair haqlı demişdir:

Arxam qaranlığa, günə doğruyam!
Azad bir ölkənin azad oğluyam!

Elə bir kəndimiz, şəhərimiz yoxdur ki, orada tikmək, qurmaq, yaratmaq pafosu adamları ruhlandırmasın. Gözəl Bakımızın yeraltı yollarında işıq saçıb gurultu və əzəmətlə süzən metro qatarları uşaqlı-böyüklü hamının qəlbini tərpədir, hamını qanadlandırır. Böyük şəhər boyu yüksələn, nəhənglər kimi üfüqləri yaran binalar bütun vətəndaşların iftixarını artırır. Dəniz kənarında, şəhərətrafı rayonlarda, məskənlərdə səliqə ilə salınan minlərlə bağlar, bağçalar, istirahət düşərgələri həmin çağırışa səs verir: irəliyə, yuksəklərə! Səyimiz, əməyimiz və niyyətimiz müqəddəs, məqsədimiz kommunizm təntənəsi üçündür!

Şanlı rəhbərimiz V.İ.Leninin anadan olmasının 100 illiyi, ordumuzun, doğma respublikamızın 50 illik yubileyləri – hamısı qəlbimizi sevinc, fərəh, iftixarla həyəcanlandıran günlərdir! Qarşıladığımız hər bir yeni il bizi yüksək zirvələrə, daha münəvvər həyata, daha böyük tərəqqiyə aparır. Bu şərəfli yolda hamıya, bütün vətəndaşlara qələbə, cansağlığı, daha fərəhli günlər arzulayıram! Yeni iliniz mübarək olsun!

*Bakı. 1967. №306. 31dekabr*

## 1969
## Azərbaycan ədəbiyyatı tarixi kafedrası

*Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi qarşısında*

Respublikamızın elmi ictimaiyyəti, Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinə hazırlaşır. Azərbaycan xalqının mədəni inkişafında çox mühüm bir bayram kimi qeyd olunan bu şərəfli tarixi hadisəni mətbuatımız geniş işıqlandıracaqdır. Universitet elmi, ictimai təşkilatlarının, fakültə, kafedra, laboratoriyalarının qısaca da olsa tarixini hazırlamaq vacib bir işdir.

Azərbaycan ədəbiyyatı tarixi kafedrası zəngin və maraqlı bir inkişaf yolu keçmişdir.

Universitet yarananda tarix-filologiya fakültəsinin yanında əvvəlcə türk dili və ədəbiyyatı kafedrası olmuşdur. Əbdürrəhimbəy Haqverdiyev 1921-ci il noyabr ayından həmin kafedranın müəllimi vəzifəsində çalışmışdır. 1923-cü ildə kafedra müdirliyi prof. N.İ.Aşmarinə tapşırılmışdır. 1924-cü ildə kafedranın müstəqil şöbələri yaranmış, dilçilik şöbəsinə professor Aşmarin, ədəbiyyat şöbəsinə prof. B.V.Çobanzadə rəhbərlik etmişdir. Aşmarin universitetdən gedəndən sonra hər iki şöbənin rəhbərliyi B.V.Çobanzadənin öhdəsinə düşmüşdür.





Prof. B.V.Çobanzadənin kafedrasında görkəmli ədib və alimlərimizdən Yusif Vəzirov (Çəmənzəminli), Hənəfi Zeynallı elmi işçi-müəllim vəzifəsində çalışmışlar. Kafedranın ədəbiyyat bölməsində türk-tatar xalqları ədəbiyyatı, o cümlədən azəri ədəbiyyatının yeni və ən yeni dövrü, onun metodikası kursu keçilir, folklor tədris olunur, ədəbi əlaqələr öyrədilirdi. Həmin nəzəri kurslara müvafiq seminar məşğələləri aparılır, diplom mövzuları verilirdi. B.V.Çobanzadə və Ə.Haqverdiyev seminar məşğələlərində oxunan referatlara görə fərqlənən tələbələrdən Feyzulla Qasımzadənin adını çəkmiş, “Azərbaycan ədəbiyyatının yeni dövrü” mövzusunda yazdığı diplom işini təqdir etmişlər. Şərq fakültəsini bitirən F.Qasımzadə bu müvəffəqiyyətinə görə türk dili və ədəbiyyatı kafedrasında elmi işçi kimi saxlanmışdır.

Ə.Haqverdiyevin verdiyi məlumatdan görünür ki, Azərbaycan ədəbiyyatı kafedrasında ədəbiyyat nəzəriyyəsinə və bilavasitə Azərbaycan ədəbiyyatı tarixinə dair xüsusi mühazirə oxunurmuş. Həm də Azərbaycan ədəbiyyatı tarixi inkişafda götürülərək M.Füzulidən sovet dövrünün nailiyyətinə qədər izlənirmiş. Bu tarixi inkişaf aspektində də referatlar və diplom işləri yazılırdı. Ə.Haqverdiyev şərq fakültəsində “Füzulidən zəmanəmizə qədər Azərbaycan ədəbiyyatının icmalı” və “Mirzə Fətəli Axundovun komediyalarında qadın tipləri” mövzusunda yazılan diplom işlərini qeyd edir, sonuncunun “Maarif işçisi” jurnalında çap olunduğunu göstərir.

1930-cu ildə B.V.Çobanzadə kafedra müdirliyindən getmiş, dos. Əli Nəzmi onu əvəz etmişdir. O vaxtdan Azərbaycan ədəbiyyatı tarixi kafedrası güclənib böyümüşdür. 1938-1939-cu illərdə

kafedra müdiri Mikayıl Rəfili olmuşdur. Sonra F.Qasımzadə bu kafedraya müdir seçilmiş və on il rəhbərlik etmişdir. 1951-1960-cı illəri əhatə edən on illikdə kafedra rəhbərliyi professor Cəfər Xəndan Hacıyevə, 1961-ci ildən indiyə qədər isə prof. Mir Cəlal Paşayevə tapşırılmışdır.

1930-cu ildən etibarən Azərbaycan ədəbiyyatı tarixini I kursdan V kursa qədər müntəzəm tədris edən bu kafedraya eyni zamanda ədəbiyyat nəzəriyyəsi, Azərbaycan folkloru, ədəbiyyat metodikası, SSRİ xalqları ədəbiyyatı, tənqid tarixi kursu keçilir. Azərbaycan ədəbiyyatı belə dövrləşdirilmişdir: qədim ədəbiyyat, orta əsrlər ədəbiyyatı, yeni və ən yeni dövr – XIX, XX əsrlər (inqilaba qədər), sovet ədəbiyyatı. Bunların hər biri ayrıca kurs təşkil edir, semestr imtahanlarına düşür. Ədəbiyyat tarixi dövrləri ilə əlaqədar olaraq görkəmli ədəbi simalara, mühüm ədəbi məktəblərə dair xüsusi kurslar və xüsusi seminarlar aparılır. Son illər aşağıdakı mövzularda xüsusi kurs və seminarlar keçirilmişdir: "Nizami poemaları", "Füzuli lirikası", "Tekstologiya", "Ədəbi məktəblər", "XX əsr Azərbaycan mətbuatı", "Azərbaycan dastanları", "M.F.Axundovun realizmi", "M.Ə.Sabirin satirası", "C.Məmmədquluzadənin realizmi", "Roman problemi", "C.Cabbarlı", "M.S.Ordubadi", "S.Vurğun" və s. sonuncu kurs tələbələrinə diplom işi mövzusu verilir və diplom müdafiəsi dövlət imtahanını əvəz edir.

Prof. B.V.Çobanzadə 1923-1928-ci illər ərzində dil və ədəbiyyat şöbələrində 140 referat yazıldığını göstərir. Bu rəqəm indiki əyani, qiyabi və axşam şöbələrində bir il ərzində yazılan referatların sayından çox azdır.

Kafedranın müəllim-professor heyəti də ildən-ilə öz elmi-nəzəri səviyyəsini yüksəltmişdir.

İndi kafedrada 3 nəfər elmlər doktoru, professor, 14 dosent, 3 baş müəllim vardır. Kafedrada ədəbiyyatın nəzəri problemlərinə, tarixinə, tədris metodikasına aid tədqiqat işləri aparılır və bu iş tədris ilə möhkəm bağlanır. Elmin nailiyyətləri dərhal tələbələrə çatdırılır. Ədəbiyyat və sənət müasir, fəal məfkurə kimi tədris,





təbliğ olunur. Son dövrdə kafedrada yüksək ixtisaslı alimlər çalışmışlar. Prof. Həmid Araslı, XIX əsr və sovet ədəbiyyatı mütəxəssisi, dos. Hidayət Əfəndiyev, XX əsri tədqiq edənlərdən dos. Həbib Səmədzadə, prof. Cəfər Xəndan Hacıyev, prof. Mir Cəlal, görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib, tənqidçi, prof. M.C.Cəfərov, ədəbiyyat metodikası sahəsində tanınmış alim-professor Əliyar Qarabağlı və başqaları.

Mir Cəlal Paşayev 1947-ci ildə, C.Xəndan 1949-cu ildə, F.Qasımzadə 1955-ci ildə, H.Araslı 1956-cı ildə dissertasiya müdafiə edib filoloji elmlər doktoru alimlik dərəcəsi və professor adını almışlar. 1969-cu ildə Ə.Qarabağlıya professor elmi adı verilmişdir. İndi F.Qasımzadə və H.Araslı Azərbaycan SSR EA-nın akademiki, M.C.Cəfərov müxbir üzvüdür. Böyük Vətən müharibəsindən sonra kafedraya gələn Abbas Zamanov 1967-ci ildə, B.Vahabzadə 1965-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Elmi-pedaqoji fəaliyyəti həm kafedra, həm də fakültəmizlə bağlı olan görkəmli alimlərdən mərhum prof. M.Rəfili, prof. Əli Sultanlı, Azərbaycan SSR EA həqiqi üzvü Məmməd Arif Dadaşzadə və filoloji elmlər doktoru, prof. Mirzəağa Quluzadənin adını qeyd etmək lazımdır. Bunlar universitetimizin yetişdirmələridir.

Respublikamızın elmi idarə və yaradıcılıq təşkilatlarında fəaliyyət göstərən bir sıra tanınmış alim və yazıçılar da fakültə və kafedramızın yetişdirmələridir.

Kafedra yarandığı gündən etibarən öz əməkdaşlarının həm yaxşı lektor, həm də tədqiqatçı kimi inkişafına xüsusi səy göstərmişdir. Məşhur alim B.V.Çobanzadə kafedraya müdir olduğu müddət ərzində dilçiliyə dair məqalələrdən başqa iki cildlik "Türk dili və ədəbiyyatı metodikası" (Bakı, 1926-1927), "Kumık dili və ədəbiyyatı haqqında qeyd" (Bakı, 1927), "Oktyabr dövrü türk-tatar folkloru tədqiqinin yekunları" ("Maarif və mədəniyyət" jur., 1927) əsərlərini yaratmışdır.

Y.Vəzir folklorşünaslıq cərəyanlarına, folklorun əsas xüsusiyyətlərinə və janrlarına dair bir sıra məqalələr yazmışdır.

Ə.Haqverdiyev "Azərbaycanı öyrənən cəmiyyət"də "Azərbaycan xalq tamaşası və misteriyalar" mövzusunda məruzə oxumuş, "Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı", "Maksim Qorkinin həyat və yaradıcılığı" mövzusunda məqalələrini çap etdirmişdir. Bu ənənəni kafedranın sonrakı müdirləri də davam etdirmişdir. Dos. Ə.Nazim sovet ali məktəbində, Leninqrad Türkoloji İnstitutunda yetişmiş mütəxəssis idi. Onun səyi ilə kafedrada müasir ədəbiyyatın tədrisi daha müntəzəm olmuşdur. Klassik ədəbiyyata nihilist münasibətin marksist ədəbiyyatşünaslar tərəfindən rədd edilməsi, keçmiş irsə Lenin təlimi əsasında yanaşılması və geniş tədqiqat aparılması Azərbaycan ədəbiyyatı tarixini ən qədim dövrlərdən bu günə qədər tədris etməyə imkan verdi. Böyük Vətən müharibəsi illərində, SSRİ Elmlər Akademiyası Azərbaycan filialında respublika ədəbiyyatşünaslarının (H.Araslı, M.Rəfili, F.Qasımzadə, Mir Cəlal, M.Arif) qüvvəsilə ədəbiyyatımızın ilk elmi, sistemli iki cildlik tarixi (1943-1945) yarandı ki, bu kitab başqa respublikalarda da hörmət, şöhrət qazandı. Prof. H.Araslı və prof. M.Rəfilinin Nizami və ondan əvvəlki ədəbiyyata dair tədqiqatı, prof. Mir Cəlalın M.Füzuli sənətkarlığına dair elmi əsəri, prof. F.Qasımzadənin M.F.Axundova həsr etdiyi monoqrafiya ədəbiyyatşünaslığın inkişafında əhəmiyyətli hadisə oldu. Kafedra üzvlərinin sonrakı tədqiqatı ədəbiyyat tarixinə dair kamil dərsliyin yaranması ilə nəticələndi. H.Araslı XVII-XVIII əsr, F.Qasımzadə XIX əsr, Cəfər Xəndan XX əsr Azərbaycan ədəbiyyatı tarixini yazdı, Mir Cəlalın ədəbi məktəblər mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası XX əsr ədəbiyyatının mühüm problemlərinin elmi həllində yeni mərhələ oldu. Mir Cəlal XX əsr Azərbaycan realizminin xüsusiyyətlərini, Azərbaycan romantizminin əsas meyllərini özünə xas bir üslubla açıb ümumiləşdirdi. Bu tədqiqatına əsaslanan alim öz yetişdirməsi F.Hüseynovla birlikdə ali məktəblər üçün XX əsr Azərbaycan ədəbiyyatının yeni dərsliyini çapa vermişdir.

Cəfər Xəndan hələ V.İ.Lenin adına APİ-də müəllim işləyərkən XX əsrə və sovet dövrünə dair mühazirələrini çap etdirib ilk





dərs vəsaiti yaratmışdır. O, müharibədən sonra "Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar" adlı doktorluq dissertasiyası ilə tarixi bir dövrü işıqlandırdı.

1938-ci ildən universitetdə rus və Azərbaycan ədəbiyyatı tarixindən mühazirə oxuyan M.C.Cəfərov tənqid tarixi, Azərbaycan mətbuatı tarixi kursunu aparmış, M.F.Axundovun tənqidi görüşünə dair monoqrafiyasını çap etdirmişdir.

Kafedranın digər üzvlərinin namizədlik və doktorluq dissertasiyaları nisbətən az işlənmiş ədəbi problemləri daha ətraflı və dərindən işıqlandıraraq ədəbiyyatşünaslığımızı zənginləşdirdi. R.Həsənovanın XIX əsr Azərbaycan-rus ədəbi əlaqələrinə, K.Mirbağırovun S.Əzim Şirvaniyə, F.Hüseynovun Əli Nəzmi yaradıcılığına, Y.Şirvanın Üzeyir Hacıbəyova, F.Vəzirovanın C. Cabbarlı yaradıcılığında sosializm realizmi məsələlərinə, B.Vahabzadənin, V.Vəliyevin, C. Abdullayevin S. Vurğuna, P. Xəlilovun Böyük Vətən müharibəsi dövrü şeirinə, T. Mütəllimovun Ə.Əbülhəsən yaradıcılığına, A.İsmayılovun T.Şahbazi nəsrinə, X.Əlimirzəyevin C.Məmmədquluzadə ədəbi-bədii görüşlərinə, İ.Bəktaşinin A.Divanbəyoğlu yaradıcılığına, A.Abbasovun "Kommunist" qəzetində ədəbiyyat məsələlərinə həsr etdiyi dissertasiyalar Azərbaycan ədəbiyyatı inkişafının dövrlərini, ədəbi şəxsiyyətlərin fəaliyyətini daha konkret öyrənmək işində ədəbiyyatşünaslığımıza xeyli kömək etmişlər.

Kafedra başqa elmi idarə və ali məktəblərdən gələn dissertasiyaların da müdafiəsinə çox kömək göstərmişdir. Burada yüzə yaxın namizədlik, otuzdan çox doktorluq dissertasiyası müzakirədən keçib müdafiəyə buraxılmışdır. Bunların müəyyən qismi yalnız Azərbaycan və Şərq filologiyası problemlərini deyil, həm də ümumi ədəbi problemləri, o cümlədən qarşılıqlı ədəbi əlaqələri əhatə edir.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasında dərs vəsaiti və monoqrafiyaların yaradılmasına xüsusi fikir verilir. Nəşr olunmuş əsərlər bunlardır:

a) **Dərsliklər**

1. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı, 20 ç. v., Bakı, ADU nəşriyyatı, 1956, (müəllifi H.Araslı)

2. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, 34,7 ç. v., Bakı, ADU nəşriyyatı, 1956, (müəllifi F.Qasımzadə)

3. XX əsr Azərbaycan ədəbiyyatı tarixi, 27, 25 ç. v., Bakı, ADU nəşriyyatı, 1951, 1955 (müəllifi C.Hacıyev)

4. Azərbaycan sovet ədəbiyyatı, 27 ç.v., Bakı, "Maarif" nəşriyyatı, 1968, (müəllifi kollektiv)

5. Ədəbiyyatşünaslığın əsasları, 13,5. ç.v., Bakı, Azərtədrisnəşr, 1963 (müəllifi kollektiv)

6. Ədəbiyyat tədrisi metodikası, 25 ç.v., Bakı, "Maarif" nəşriyyatı, 1968, (müəllifi Ə.Qarabağlı)

7. SSRİ xalqları ədəbiyyatı, I-II cild, 50 ç.v. Bakı, "Maarif" nəşriyyatı, 1966, 1968, (müəllifi P.Xəlilov)

8. XX əsr Azərbaycan ədəbiyyatı, 22 ç.v., Bakı, "Maarif" nəşriyyatı, 1969, (müəllifləri Mir Cəlal və F. Hüseynov)

Cəmi: 219 ç. v.

**b) Monoqrafiyalar**

9. Füzuli sənətkarlığı, 17,25 ç. v., Bakı, ADU nəşriyyatı, 1958, (müəllifi Mir Cəlal)

10. M.F.Axundovun nəsri, 6 ç. v., Bakı, Azərnəşr, 1955, (müəllifi H. Əfəndiyev)

11. Народный поэт Самед Вургун. 4 ç. v., Bakı, Azərnəşr, 1961, (müəllifi H.Əfəndiyev)

12. C.Cabbarlı yaradıcılığında sosialist realizmi. 7 ç. v., Bakı, ADU nəşriyyatı, 1960, (müəllifi F.Vəzirova)

13. Səməd Vurğun. 22 ç. v., Bakı, Azərnəşr, 1969, (müəllifi B.Vahabzadə)

Cəmi: 56,25 çap vərəqi





**v) Müntəxabatlar**

1. XX əsr Azərbaycan ədəbiyyatı müntəxabatı. 38,5 ç. v., Bakı, ADU nəşriyyatı, üç nəşrdə: 1948, 1950, 1958. Tərtib edəni C.Hacıyev.

2. SSRİ xalqları ədəbiyyatı müntəxabatı. 32 ç. v., Bakı, ADU nəşriyyatı, 1956, tərtib edəni P.Xəlilov

Cəmi: 70,5 çap vərəqi

**q) Dərs vəsaiti**

1. M. Müşfiq. 3 ç. v., Bakı, ADU nəşriyyatı, 1956, (müəllifi Cəfər Xəndan)

2. Gülüş bədii silah kimi. 3 ç. v., Bakı, ADU mətbəəsi, 1968, (müəllifi Mir Cəlal)

3. Yeni şeirin manifesti. 2 ç. v., Bakı, ADU mətbəəsi, 1965, (müəllifi Mir Cəlal)

4. Məhəmməd Füzuli (rus dilində), 2 ç. v., Bakı, ADU nəşriyyatı, 1956, (müəllifi H.Əfəndiyev)

5. Azərbaycan bədii nəsr tarixindən, 15 ç. v., Bakı, Azərnəşr, 1963, (müəllifi H.Əfəndiyev)

6. C. Məmmədquluzadənin realizmi haqqında, 5 ç. v., Bakı, ADU mətbəəsi, 1966, (müəllifi Mir Cəlal)

7. Azərbaycan ədəbiyyatı tarixi proqramı, 5 ç. v., Bakı, ADU mətbəəsi, 1962, (müəllifi kafedra üzvləri)

8. Məktəbdə bədii mətnlərin təhlili, 2,5 ç. v., Bakı, ADU mətbəəsi, 1966, (müəllifi Ə.Qarabağlı)

9. Açıq poeziyası, 2 ç. v., Bakı, ADU mətbəəsi, 1966, (müəllifi V.Vəliyev)

10. Xalq dastanları, 3 ç. v., Bakı, ADU mətbəəsi, 1967, (müəllifi V.Vəliyev)

11. XX əsr uşaq mətbuatında ədəbiyyat. 2,5 ç. v., Bakı, ADU mətbəəsi, 1965, (müəllifi İ. Bəktaşi)

12. "Ölülər" və onun ilk tamaşası. 1,5 ç. v., Bakı, ADU mətbəəsi, 1966, (müəllifi İ. Bəktaşi)

Cəmi: 46,5 çap vərəqi

Böyük Vətən müharibəsindən sonra kafedranın buraxdığı dərsliklər, dərs vəsaiti, monoqrafiya və müntəxabatların həcmi 390 çap vərəqindən çoxdur. Kafedra iki cildlik (50 ç. v. həcmində) "Azərbaycan ədəbiyyatında realizm problemləri" adlı məqalələr məcmuəsini çapa hazırlamışdır.

Kafedranın köməyi ilə bədii əsərlər də nəşr edilmişdir. C.Məmmədquluzadənin iki cilddən ibarət əsərləri külliyyatı, M.Hadinin, R.B.Əfəndiyevin əsərləri, "Cənnətin qəbzi" (Y.Vəzir), "Allah xofu" (S.M.Qənizadə), "Can yanğısı" (Divanbəyoğlu), "Neft və milyonlar səltənətində" (İ.Musabəyov) və s.

Universitet "Elmi əsərləri"nin filoloji bölməsində ədəbiyyat tarixi və müasir ədəbiyyatımızın aktual məsələlərinə, nəzəriyyə və tədris məsələlərinə dair məqalələr müntəzəm nəşr edilir. "Elmi əsərlər"in böyük tarixlərə, ədəbi simaların yubileyinə həsr olunmuş xüsusi nömrələri nəşr olunmuşdur. Oktyabr inqilabının 50 illiyi, M.Ə.Sabirin anadan olmasının 100, C.Məmmədquluzadənin 100, M.P.Vaqifin 250 illiyi yubileyinə həsr olunan nömrələri göstərmək olar.

Kafedra qardaş universitetlərin müvafiq kafedraları ilə sıx əlaqə saxlamış, əsər mübadiləsi, nəşri və müzakirəsi, eləcə də lektorlar mübadiləsi yaratmışdır.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasının Tbilisi, Daşkənd, Türkmənistan, Dağıstan və Kabardin-Bolkar dövlət universitetləri ilə lektor mübadiləsi səmərəli keçmişdir. 1957-1967-ci illər ərzində özbək alimlərindən prof. Qulam Kərimov, prof. Ləziz Kəyumov, dos. Azad Şərafəddinov və dos. Əhməd Əliyev, türkmən alimi, dos. Əkbər Ruhi Əliyev, gürcü alimi prof. Solomon Georgiyeviç Xutsşvili öz xalqlarının ədəbiyyatından filoloji fakültəsi tələbələrinə mühazirə oxumuşlar. Azərbaycan ədəbiyyatı tarixi kafedrasından həmin universitetlərdə mühazirə oxumaq üçün dos. H. Əfəndiyev ezam olunmuşdur. Tbilisi universitetinin rektoru prof. Kupradzenin, Dağıstan universiteti rektoru prof. Əbilovun, Aşqabad universiteti rektoru, prof. Əzimovun, Daşkənd universitetinin rektoru, akad. Sadıqovun Azərbaycan Dövlət Universitetinin rektoruna göndərdikləri təşəkkür məktublarında lektor mübadiləsinin beynəlmiləl tərbiyə işindəki əhəmiyyəti xüsusi qeyd edilir. Bu əlaqələr elmi problemlərin həllində də əhəmiyyətli iş görmüşdür.





Qulam Kərimov və Ləziz Kəyumovun doktorluq dissertasiyası, Dağıstan alimi Əhəd Ağayevin elmi əsərləri Azərbaycan ədəbiyyatı kafedrasında müzakirə olunmuş, indi Səmərqənd universitetinin rektoru, akad. Vahid Abdullayev, türkmən alimi Aman Kəkilovun doktorluq dissertasiyası da kafedrada müzakirədən keçib müdafiəyə buraxılmışdır.

Azərbaycan ədəbiyyatı tarixi kafedrası əməkdaşları Orta Asiya və başqa universitet alimlərinin dissertasiya müdafiəsində opponent kimi çıxış edir, kafedra oradan da mütəxəssisləri opponent dəvət edir. Prof. Mir Cəlal Paşayev Yerevan və Türkmənistanda, akad. Həmid Araslı Özbəkistanda dəfələrlə opponent olmuş, özbək alimi Əhməd Əliyev, Nalçik universitetinin dosent Andrey Xakuaşe filoloji fakültəsinin elmi şurasına opponent dəvət edilmişdir.

Bəzi universitetlərə gənc kadrların hazırlanmasında da kafedra böyük kömək göstərmişdir. Dağıstan universitetindən göndərilmiş iki gənc (F.Cəbrayılova və Sevdat Muncayeva), Nalçik universitetindən gəlmiş Midov Muharbi və Xaşxoşeva Raisa aspirantlıq təlimini bizim kafedrada keçib, namizədlik dissertasiyasını burada müdafiə etmişlər. Əlaqə saxladığımız universitetlərin ədəbiyyat kafedraları Azərbaycan ədəbiyyatı tarixi kafedrasının bəzi əməkdaşlarına eyni qayğı göstərmişlər. Dos. H.Əfəndiyevin doktorluq dissertasiyası Daşkənd universitetində, dos. P.Xəlilovun "SSRİ xalqları ədəbiyyatı" dərsliyi Daşkənd və Aşqabad universitetinin müvafiq kafedrasında müzakirə olunmuşdur. SSRİ xalqları ədəbiyyatı mütəxəssisi P.Xəlilov Özbəkistan, Tacikistan, Tatarıstan ali məktəbləri və bəzi elmi idarələri ilə sıx əlaqə saxlayır.

Kafedra əməkdaşları Yerevan, Tbilisi və Azərbaycan Dövlət universitetlərinin buraxdığı və 1960-cı ildə Yerevanda nəşr olunan "Zaqafqaziya xalqları ədəbiyyatı tarixindən" adlı müştərək kitabın birinci hissəsində iştirak etmişlər.

Kafedrada ədəbiyyat tədrisi ilə əlaqədar üç xüsusi dərnək çalışır: şeir, nəsr, ədəbiyyatşünaslıq.

Mahiyyət etibarı ilə bu dərnəklər yaradıcılıq məsələləri ilə məşğul olur və tələbələrin müvafiq istiqamətdə inkişafına kömək edirlər. Bir tərəfdən dərnəklər tələbə yaradıcılıq işləri ilə, ikinci tərəfdən mühüm ədəbi və nəzəri mətləblərin müzakirəsi ilə məşğul olurlar. Fəal dərnək üzvlərinin mətbuatda, radio və televiziyada vaxtaşırı çıxışları təşkil olunur. Yalnız universitet tələbələri deyil, həm də başqa ali məktəbin həvəskar tələbələri burada iştirak edirlər.

Yaradıcılıq dərnəklərinə Mir Cəlal, Cəfər Xəndan, şair Z.Cabbarzadə, sonra kafedranın gənc alimləri: B.Vahabzadə, P.Xəlilov, Gülhüseyn Hüseynoğlu, F.Sadıqov və b. rəhbərlik etmişlər.

Tələbə elmi cəmiyyəti xətti ilə təşkil olunan, bəzən ADU-da, bəzən də başqa respublika universitetlərində keçirilən müşavirə və konfranslarda həmin dərnək üzvləri fəal iştirak edirlər. Belə konfranslar Tbilisi, Yerevan, Litva universitetlərində, 1966, 1967 və 1968-ci illərdə Azərbaycan Dövlət Universitetində keçirilmişdir. Təqdir olunan bəzi məruzələr universitetin elmi əsərlərində çap olunmuşdur.

Kafedrada bütün il boyu müəyyən mövzular üzrə elmi seminarlar keçirilir. Bu seminarlar həm universitet daxili və tədqiqat işləri ilə, həm də ümumən respublikada ədəbi müzakirələr ilə bağlanır (ədəbiyyatda tipiklik, ali məktəb ədəbiyyat proqramlarının yenidən tərtibi, roman probleminin mətbuatda müzakirəsi, ədəbi əlaqələr, realizm problemi və s).

Məlum olduğu üzrə Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsində dil və ədəbiyyatdan elmi işçilər, həm də orta məktəb müəllimləri hazırlanır. Buna görə də universitet məzunlarının müəllimlik təcrübə vərdişinin artırılması tədbirləri görülür. IV kursdan başlayaraq tələbələr məktəblərdə nümunə-təcrübə dərsi keçirlər. Bu işə təcrübəli müəllim və metodistlərdən prof. Ə.Qarabağlı, dos. K.Mir Bağırov, baş müəllim İ.Abbasov, Əli Fəhmi cəlb edilmişdir.





Nümunə və təcrübə dərslərinin gedişi prosesində kafedra üzvləri orta məktəb müəllimləri ilə birlikdə fəal iştirak edir, seçilən yaxşı dərs nümunələrini qeyd edirlər.

Tədris proqramı üzrə 1-ci kurslarda Azərbaycan ədəbiyyatı və folkloru sahəsində tələbələr təcrübə keçirlər. Onlar ayrı-ayrı rayonlarda və müəyyən elmi müəssisələrdə folklorun toplanması, tədqiqi, təhlili və qorunması sahəsindəki işləri müşahidə edib öyrənirlər.

Bu sahədə seçilən tələbə işləri ADU "Elmi əsərləri"nin müvafiq nömrələrində işıqlandırılır və həm də tələbələrə gələcək fəaliyyəti üçün təlimi göstərişlər verirlər.

Kafedra nəzərdə tutmuşdur ki, folklor toplanışı işinə rəhbərlik edən müəllimlər (dos. Vaqif Vəliyev, baş müəllim Əli Fəhmi) vasitəsi ilə nəşr olunmamış folklor nümunələrini ayrıca tədqiq edib, nəşr etsin.

Son ildə respublika rəhbər təşkilatlarının qayğı və səyi sayəsində Azərbaycan Dövlət Universitetinin nəşriyyatı bərpa olunmuşdur. Bu xeyirxah tədbir imkan verəcəkdir ki, kafedramızda elmi-tədqiqat və tədris-metodiki işlər həm kəmiyyət, həm də keyfiyyətcə qat-qat artırılsın, vüsət tələb etsin.

*Prof. Mir Cəlal*
*Dos. Pənah Xəlilov*
*Azərbaycan Dövlət Universiteti. Elmi əsərlər: Dil və ədəbiyyat. 1969. № 1-2. S 3-9*

## Azərbaycan ədəbiyyatı tarixi kafedrası

Respulikamızın elmi ictimaiyyəti Azərbaycan Dövlət Universitetinin yarıməsrlik yubileyini təntənə ilə qeyd etməyə hazırlaşır. Xalqımızın mədəni inkişafında çox mühüm rol oynayan universitetin elmi və ictimai təşkilatlarının, fakültə, kafedra və laboratoriyalarının tarixini qısaca da olsa yazıb hazırlamaq vacibdir. Biz bu məqalədə Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dünəninə və bu gününə ötəri nəzər yetirəcəyik.

Univeristetin yarandığı ilk vaxtlarda tarix-filoloji fakültəsinin yanında əvvəlcə türk dili və ədəbiyyatı kafedrası fəaliyyət göstərmişdir. Görkəmli yazıçı Əbdürrəhim bəy Haqverdiyev 1921-ci ilin noyabrından həmin kafedrada müəllimlik etmişdir. Kafedranın müdirliyi isə professor N.İ.Aşmarinə tapşırılmışdı. 1924-cü ildən etibarən kafedrada müstəqil şöbələr yaradılmış, dilçilik şöbəsinə professor Aşmarin, ədəbiyyat şöbəsinə isə professor B.V.Çobanzadə rəhbərlik etmişdir. Bir qədər sonra isə hər iki şöbəyə rəhbərlik professor B.V.Çobanzadənin öhdəsinə düşmüşdür.

Universitetin 10 illiyi münasibətilə hazırlanmış hesabatda Ə.Haqverdiyev 1923-1924-cü dərs ilində türk dili və ədəbiyyatı şöbələrinin ayrılmasını və Azərbaycan ədəbiyyatı kafedrasının yaradıldığını göstərmişdir. Kafedranın təşkili haqqında rəsmi sənəd yoxdur. Lakin Ə.Haqverdiyevin verdiyi məlumat və hesabata laqeyd baxmaq olmaz.

Professor B.V.Çobanzadənin rəhbərlik etdiyi kafedrada görkəmli ədib və alimlərimizdən Yusif Vəzirov (Çəminzəminli), Hənəfi Zeynallı elmi işçi-müəllim vəzifəsində çalışmışlar. Kafedranın ədəbiyyat bölməsində türk-tatar xalqları ədəbiyyatı, o cümlədən Azərbaycan ədəbiyyatının yeni və ən yeni dövrü, onun metodikası kursu keçilir, folklor tədris olunur, ədəbi əlaqələr öyrədilir. Həmin nəzəri kurslara müvafiq seminar məşğələləri aparılır, diplom mövzuları verilirdi. B.V.Çobanzadə və Ə.Haqverdiyev seminar məşğələlərində oxunan referatlara görə fərqlənən tələbələrdən Feyzulla Qasımzadənin adını çəkmiş, onun “Azərbaycan ədəbiyyatının yeni dövrü” mövzusunda yazdığı diplom işini təqdir etmişlər. Universitetin şərq fakültəsini bitirən F.Qasımzadə bu müvəffəqiyyətinə görə türk dili və ədəbiyyatı kafedrasında elmi işçi saxlanılmışdır.

Ə.Haqverdiyevin verdiyi məlumatdan görünür ki, Azərbaycan ədəbiyyatı kafedrasında ədəbiyyat nəzəriyyəsinə və bilavasitə Azərbaycan ədəbiyyatı tarixinə dair xüsusi mühazirələr oxunmuşdur. Həm də Azərbaycan ədəbiyyatı tarixi inkişafda götürülərək M.Füzulidən başlayıb, sovet dövrünə qədər qazanılan nailiyyətlər





izlənirmiş. Bu tarixi inkişaf aspektində referatlar və diplom işləri də yazılırdı. Ə.Haqverdiyev şərq fakültəsində “Füzulidən zəmanəmizə qədər Azərbaycan ədəbiyyatının icmalı” və “Mirzə Fətəli Axundovun komediyalarında qadın tipləri” mövzularında yazılan diplom işlərini qeyd edir.

1930-cu ildə professor Çobanzadə kafedra müdirliyindən getmiş, onu dosent Əli Nəzmi əvəz etmişdir. Həmin vaxtdan etibarən Azərbaycan ədəbiyyatı tarixi kafedrası xeyli böyümüşdür. 1938-39-cu illərdə kafedraya mərhum Mikayıl Rəfili, sonra isə F.Qasımzadə rəhbərlik etmişdir. 1951-1960-cı illər ərzində kafedraya rəhbərlik professor Cəfər Xəndan Hacıyevə, 1961-cı ildən sonra isə bu məqalənin birinci müəllifinə həvalə olunmuşdur.

1933-cü ildən etibarən Azərbaycan ədəbiyyatı tarixi fənni I kursdan başlamış V kursa qədər ardıcıl tədris edilir. Bundan əlavə, kafedranın xətti ilə ədəbiyyat nəzəriyyəsi, Azərbaycan folkloru, ədəbiyyatı metodikası, SSRİ xalqları ədəbiyyatı, tənqid tarixi kursu da keçirilir.

Son illər Nizami poemaları, Füzuli lirikası, tekstologiya, ədəbi məktəblər, XX əsr Azərbaycan mətbuatında satira, Azərbaycan dastanları, M.F.Axundovun realizmi, M.Ə.Sabirin satirası, C.Məmmədquluzadənin realizmi, roman problemi, C.Cabbarlı, M.S.Ordubadi, S.Vurğun və s. mövzularda xüsusi kurs və seminarlar da keçirilir.

Kafedranın professor-müəllim heyəti ildən-ilə öz elmi-nəzəri səviyyəsini yüksəldir, inkişaf edir. Hazırda kafedrada 4 elmlər doktoru, professor, 14 dosent və 3 baş müəllim işləyir. Son zamanlar kafedrada bir sıra yüksək ixtisaslı alimlər çalışmışlar. Qədim və orta əsr ədəbiyyatımızın məşhur tədqiqatçısı professor Həmid Araslı, XIX əsr və sovet ədəbiyyatı mütəxəssisi dosent Hidayət Əfəndiyev, XX əsri tədqiq edənlərdən dosent Həbib Səmədzadə, mərhum professor Cəfər Xəndan Hacıyev, görkəmli folklorşünas Məmmədhüseyn Təhmasib, tənqidçi, professor Məmmədcəfər Cəfərov, ədəbiyyat metodikası sahəsində tanınmış alim, professor Əlyar Qarabağlı və başqaları belələrindəndir.

Kafedranın yetişdirmələrindən Cəfər Xəndan Hacıyev 1949-cu ildə, F.Qasımzadə 1955-ci ildə, Həmid Araslı 1956-cı ildə müvəffəqiyyətlə dissertasiya müdafiə edib filoloji elmlər doktoru alimlik dərəcəsi almışlar. Bu yaxınlarda Ə.Qarabağlıya professor elmi adı verilmişdir. İndi F.Qasımzadə və H.Araslı Azərbaycan SSR EA-nın akademiki, M.C.Cəfərov isə akademiyanın müxbir üzvüdür. Böyük Vətən müharibəsindən sonra kafedrada çalışmağa başlamış Abbas Zamanov və Bəxtiyar Vahabzadə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafdiə etmişlər.

Elmi-pedaqoji fəaliyyəti həm kafedramız, həm də fakültəmizlə bağlı olan görkəmli alimlərdən mərhum professorlar M.Rəfili, Əli Sultanlı, Azərbaycan SSR EA-nın həqiqi üzvü Məmmədarif Dadaşzadə və filoloji elmlər doktoru, professor Mirzaqa Quluzadənin adını xüsusilə qeyd etmək lazımdır. Onlardan əlavə kafedra və fakültəmizin yetişdirmələrindən bir çoxu indi respublikanın maarif və mədəniyyət ocaqlarında, elmi idarələrində və yaradıcılq təşkilatlarında fəaliyyət göstərən tanınmış müəllim, alim, yazıçılardır.

Kafedra yarandığı ilk gündən etibarən öz əməkdaşlarının elmi inkişafına xüsusi diqqət yetirmişdir. Məşhur alim Çobanzadə kafedraya rəhbərlik etdiyi müddət ərzində dilçilik məsələlərinə dair məqalələrdən başqa, iki cildlik "Türk dili və ədəbiyyatı metodikası", "Kumık dili və dəbiyyatı haqqında qeyd", "Oktyabr dövrü türk-tatar folkloru tədqiqinin yekunları" əsərlərini yaratmışdır.

Y.Vəzirov folklorşünaslıq cərəyanlarına, folklorun əsas xüsusiyyətlərinə və janrlarına dair bir sıra məqalələr yazmışdır.

Ə.Haqverdiyev "Azərbaycanı öyrənən cəmiyyətdə", "Azərbaycan xalq tamaşası və misteriyalar" mövzusunda məruzə oxumuş, "Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı", "Maksim Qorkinin həyat və yaradıcılığı" mövzusunda məqalələrini çap etdirmişdir. Bu ənənəni kafedranın sonrakı rəhbərləri də davam etdirmişlər. Dosent Ə.Nəzmi Leninqrad Türkoloji İnstitutunda ye-





tişmiş kamil mütəxəsis idi. Onun səyi ilə kafedrada ədəbiyyatın tədrisi daha müntəzəm və səmərəli olmuşdur.

Böyük Vətən müharibəsi illərində SSR Elmər Akademiyasının Azərbaycan filialında respublika ədəbiyyatşünaslarından H.Araslı, M.Rəfili, F.Qasımzadə, Mir Cəlal və M.Arifin qüvvəsi ilə ədəbiyyat tariximizin ilk elmi, sistemli iki cildlik tarixi yarandı ki, bu, başqa respublikalarda da böyük şöhrət qazandı. Professorlardan H.Araslı və M.Rəfilinin Nizami və ondan əvvəlki ədəbiyyata dair tədqiqatı, professor F.Qasımzadənin M.F.Axundova həsr etdiyi monoqrafiya ədəbiyyatşünaslığın inkişafında əhəmiyyətli hadisə oldu. Kafedra üzvlərinin sonrakı tədqiqatları ədəbiyyatın tarixinə dair kamil dərsliyin yaranması ilə nəticələndi. H.Araslı XVII-XVIII əsr, F.Qasımzadə XIX əsr, Cəfər Xəndan XX əsr Azərbaycan ədəbiyyatı tarixini yazdılar. SSRİ xalqları ədəbiyytaından II cilddən ibarət dərsliyinin də (dos. P.Xəlilov) təlim-tərbiyə sahəsində əhəmiyyəti az deyildir.

Cəfər Xəndan Hacıyev hələ V.İ.Lenin adına APİ-də müəllimlik edərkən XX əsrə və sovet dövrünə dair mühazirələrini çap etdirib ilk dərs vəsaiti yaratmışdı. O, müharibədən sonra "Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar", adlı doktorluq dissertasiyası ilə tarixi bir dövrü işıqlandırdı.

1938-ci ildən universitetdə rus və Azərbaycan ədəbiyyatı tarixindən, mühazirə oxuyan M.C.Cəfərov tənqid tarixi, Azərbaycan mətbuatı tarixi kursunu aparmış, M.F.Axundovun ədəbi-tənqidi görüşlərinə dair elmi əsər yazmışdır.

Kafedranın digər üzvlərinin namizədlik və doktorluq dissertasiyaları da nisbətən az işlənmiş ədəbi problemləri daha ətraflı və dərindən işıqlandıraraq ədəbiyyatşünaslığımızı zənginləşdirdi. R.Həsənovanın XIX əsr Azərbaycan-rus ədəbi əlaqələrinə K.Mirbağırovun S.Ə.Şirvaniyə, F.Hüseynovun Əli Nəzmi yaradıcılığına, Y.Şirvanın Üzeyir Hacıbəyova, F.Vəzirovanın C.Cabbarlı yaradıcılığında sosializm realizmi məsələlərinə, B.Vahabzadə, V.Vəliyev və C.Abdullayevin S.Vurğuna, T.Mütəllimovun Əbülhəsən yaradıcılığına, A.İsmayılovun T.Şahbazi nəsrinə, X.Əlimir-

zəyevin C.Məmmədquluzadənin ədəbi-bədii görüşlərinə həsr etdikləri dissertasiyalar Azərbaycan ədəbiyytının inkişaf dövrlərini, ədəbi şəxsiyyətlərin fəaliyyətini daha konkret öyrənmək işində böyük rol oynamışdır.

Kafedranın kollektivi başqa elmi idarə və ali məktəblərdən gələn dissertasiyaların müdafiəsinə də xeyli kömək göstərmişdir. Kafedrada yüzə yaxın namizədlik, 30-dan çox doktorluq dissertasiyası müzakirə edilib müdafiəyə buraxılmışdır. Bunların müəyyən qismi yalnız Azərbaycan və Şərq filologiyası problemlərini deyil, həm də ümumi ədəbi problemləri, o cümlədən qarşılıqlı ədəbi əlaqələri əhatə edir.

Azərbaycan ədəbiyyatı tarixi kafedrasında dərs vəsaiti və monoqrafiyaların yaradılmasına da xüsusi fikir verilir.

Böyük Vətən müharibəsindən sonra kafedra əməkdaşlarının hazırlayıb nəşr etdirdikləri dəsrlik, dərs vəsaiti, monoqrafiya və müntəxabatların ümumi həcmi 380 çap vərəqindən çoxdur. Kafedra 50 çap vərəqi həcmində iki cildlik "Azərbaycan ədəbiyyatında realizm problemləri" adlı məqalələr məcmuəsini də çapa hazırlamışdır.

Universitet "Elmi əsərləri"nin filoloji bölməsində ədəbiyyat tarixi və müasir ədəbiyyatımızın aktual məsələlərinə, habelə nəzəriyyə və tədris məsələlərinə dair çoxlu məqalələr dərc edilir. Kafedra üzvlərinin köməyi ilə universitetin "Elmi əsərləri"nin böyük tarixi hadisələrə, ədəbi simaların yubileylərinə həsr olunmuş xüsusi nömrələri nəşr edilmişdir."

Kafedra qardaş respublika universitetlərinin müvafiq kafedraları ilə sıx əlaqə saxlamış, əsər mübadiləsi, müzakirəsi və nəşri, eləcə də mühaziərçilər mübadiləsi aparmışdır.

Gürcüstan, Özbəkistan, Türkmənistan, Dağıstan və Kabardin-Balkar dövlət universitetləri ilə keçirilən mühazirəçilər mübadiləsi səmərəli nəticə vermişdir. Bu sahədə dosent H.Əfəndiyevin xidməti təqdirəlayiqdir.

Kafedranın nəzdində ədəbiyyat tədrisi ilə əlaqədar üç dərnək fəaliyyət göstərir: şeir nəsr və ədəbiyyatşünaslıq dərnəkləri. Mahiyyət etibarı ilə bu dərnəklər yaradıcılıq məsələləri ilə məşğul olur və tələbələrin müvafiq istiqamətdə inkişafına kömək edir. Həmin dərnəklər ümumşəhər miqyasında keçirilən mühüm ədəbi və nəzəri məsələlərin müzakirəsi ilə də məşğul olur. Dərnəklərin fəal üzvlərinin mətbuatda, radio və televiziyada vaxtaşırı çıxışları təşkil olunur.





İndiyədək bu dərnəklərə Cəfər Xəndan, şair Z.Cabbarzadə, kafedranın gənc alimlərindən B.Vahabzadə, Gülhüseyn Hüseynoğlu, F.Sadıqov və başqaları rəhbərlik etmişlər.

Kafedrada bütün il boyu müəyyən mövzular üzrə elmi seminarlar keçirilir. Bu seminarlar həm universitetdaxili tədris və tədqiqat işləri ilə, həm də bütün respublikada ədəbi müzakirələr ilə bağlanır. Ədəbiyyatda tipiklik, ali məktəb ədəbiyyat proqramlarının yenidən tərtibi, roman problemlərinin mətbuatda müzakirəsi, ədəbi əlaqələr, realizm problemi və s. mövzularda keçilən seminarları buna misal göstərmək olar.

Məlum olduğu kimi, universitetin filoloji fakültəsində dil və ədəbiyyatdan elmi işçilərlə yanaşı, həm də orta məktəb müəllimləri hazırlanır. Buna görə də univerisitet məzunlarına müəllimlik vərdişlərinin aşılanması üçün tədbirlər görülür. Belə ki, IV kursdan başlayaraq tələbələr ümumtəhsil məktəblərində nümunə təcrübə dərsləri aparırlar. Bu işə universitetin müəllim və metodistlərindən professor Ə.Qarabağlı, dosent K.Mirbaqırov, baş müəllim İ.Abbasov, Əli Fəhmi və başqaları cəlb edilmişlər.

Nümunə təcrübə dərslərinin gedişi prosesində kafedra üzvləri orta məktəb müəllimləri ilə birlikdə fəal iştirak edir, seçilən müvəffəqiyyətli dərs nümunələrini qeydə alırlar.

Tədris proqramına uyğun olaraq I kurs tələbələri Azərbaycan ədəbiyyatı və folkloru sahəsində də təcrübə keçirlər. Onları ayrı-ayrı rayonlarda və müəyyən elmi müəssisələrdə folklorun toplanması, tədqiqi, təhlili və qorunması sahəsində həyata keçirilən işləri öyrənirlər.

Bu sahədə seçilən müvəffəqiyyətli tələbə işləri ADU-nun "Elmi əsərləri"nin müvafiq nömrələrində işıqlandırılır, tələbələrə gələcək fəaliyyət üçün təlimati göstərişlər verir.

Respublikanın rəhbər təşkilatlarının qayğı və səyi sahəsində universitetin özünün nəşriyyatı bərpa olmuşdur. Bu xeyirxah tədbir kafedramızda elmi-tədqiqat və tədris-metodik işlərin həm keyfiyyət, həm də kəmiyyətcə qat-qat artırılmasına imkan verəcəkdir.

*Mir Cəlal Paşayev professor,*
*Pənah Xəlilov dosent*
*Azərbaycan müəllimi. 1969.19 mart*

## Zəngin yaradıcılıq yolu

Haqqında danışdığımız ədibin xarakter məqalələrindən birinin sərlövhəsi belə idi: Qırmızıların qələbəsi.

İyirminci illərin ortaları və axırlarında ədəbiyyat işinin sovet quruluşu ilə, onun ölkəni dəyişdirən təcrübəsi ilə əlaqəsi nə qədər mənalı idi! O zaman ədəbiyyat bilavasitə həyat ilə ölçülürdu. O zaman sovet ədəbiyyatının bünövrə daşı təzə qoyulur, divarları yenicə yüksəldilirdi. Siyasətdə, təsərrüfatda "kim-kimi" sualı qoyulan kimi sənət və ədəbiyyatda da vuruşan iki məfkurənin mübarizəsi və dillemması göturülürdü. Hətta sənətkarlar, yazıçılar sıralarında yeni məfkurə, yeni üslub və yeni ədəbi məktəb təsəvvürü bəzilərində aydın deyildi. Jurnal, qəzet səhifələrində, məktəblərdə, ədəbi məclislərdəki müzakirələrdə həmişə qızğın fikir mübarizəsi gedirdi. Belə bir zamanda sovet ədəbiyyatı cəbhəsinə istedadlı, cəsarətli, fədakar, həm də hazırlıqlı, silahlı əsgərlər gərək idi.

Mehdi Hüseyn belə bir zamanda, sovet mədəniyyəti və ədəbiyyatının təşəkkül dövründə ədəbiyyata gəlmişdir. Gələn gündən də, təcrübə stajı keçmədən, "usta" nəzarəti gözləmədən, əsl mədəni hücumçu kimi qızğın fəaliyyətə başlamışdı. İlk gənclik illərində döyüş yoluna çıxanların görüşlərində, təsəvvürlərində qeyri-sabitlik, namüəyyənlik, səksəkəlik, olan hadisədir. Mehdi istər ilk yazıları və çıxışlarında istər əsərlər, kitablar, ədəbi hadisələr haqqında mülahizələrində bu tərəddüdlərdən qorxmamış, bunları inkişaf üçün bir növ zəruri boy çətinliyi saymışdır. Ona görə də Mehdini həmişə ədəbi münaqişələrin önündə görmək mümkün idi.





1928-29-cu illərdə mən də Mehdi kimi seminariya bitirmiş gənc bir müəllim idim. Seminariyadan ədəbiyyata bağlı idim. Qəzet, jurnal və müzakirələri xüsusi bir diqqət və maraqla izləməkdən həzz alırdım. Şəxsən tanımasam da, Mehdinin məqalə və hekayələrini oxuyur, maraqlanırdım.

Bakıya gəldiyim ilk aylardan birində köhnə bulvardakı skamyaların birində oturub Xəzərin dalğalarını seyr etdiyim axşam sıx, qıvrımsaç, qarayanız bir oğlan özünə xas bir ərk ilə mənə tərəf əl uzadıb dedi:

–Yoldaş Mir Cəlal, tanış olaq – Mehdi Hüseyn!

Mən əl verib görüşən kimi məlum oldu ki, Mehdinin deməyə sözü var.

–Sizə zəhmət olmazsa, sabah iş vaxtı İsmailiyyədə AzApp-ın otağına gəlin, "Kommunist" qəzetinin tapşırığı var, sizə demək istəyirəm.

Sabahısı mən İsmailiyyə (indiki Akademiya) binasına getdim və Mehdini orada gördüm. "Kommunist" qəzetinin baş redaktoru redaksiyada işləyə bilən, ədəbiyyat məsələlərinə bələd olan bir komsomolçu axtarırdı. Mən Mehdinin sözünü yerə salmadım və redaksiyada da məni yaxşı qəbul eləyib işə götürdülər...

O zaman Mehdi, yaşına yaraşmayan bir hünər və qətiyyətlə ədəbiyyat, mədəniyyət məsələlərinə baş vurur, müdaxilə edirdi. İlk yazılarından görünürdü ki, bu narahat gəncin ilhamı çoxcəhətlidir. O, kiçik hekayələr, oçerklər, məqalələr yazır, müasir həyatımızdan və mübarizəmizdən bəhs edən romanlar, povestlər yaradırdı. Qələminin qüdrəti, qızğın fəaliyyəti və ədəbi münaqişələrdə daim düzgün, prinsipal mövqe tutması sayəsində Mehdi yazıçılar təşkilatının rəhbər vəzifələrində çalışmağa cəlb olunmuşdu.

Mehdi nə janr, nə şəkil, nə mövzu cəhətdən özünü məhdudlaşdırmağa çalışan ədib deyildi. F.Engelsin Renesans dövrü xadimləri haqqında məşhur bir sözü yadıma düşür: bu xadimlərin bəzisi silah ilə, bəzisi qələm ilə, bəzisi də həm onunla və həm bununla ideya mübarizəsində çarpışırdılar. Mənim təsəvvürümdə Mehdi Hüseyn də ədəbi mübarizələrdə belə bir cəbhə tuturdu.

Mən ona, yarızarafat, həmişə qvardiyaçı deyərdim, məfkurə mübarizəsinin ön xəttində durmağına qibtə edərdim.

Mehdi bizim müasir yazıçıların ən müasirlərnidən biri idi. Onun Bakı fəhləsinə, qəhrəman neftçilərə, onların fədakar əməyinə həsr etdiyi qiymətli roman və hekayələr sovet ədəbiyyatını zənginləşdirən yaxşı nümunələr sayılmalıdır.

Mehdi neft qəhrəmanlarını bizim çoxumuzdan yaxşı tanıyır və kamil təsvir edirdi. Romanlarının bir sıra qəhrəmanları Mehdinin yaxın tanışı, yoldaşı və dostları idilər. Ədibin fəhlələrdən aldığı məktublar çox zaman onun yazı masasında tədqiqat obyekti kimi izlənir və öyrənilirdi. "Abşeron" romanı azəri gənclərinin taleyini, həyat və mübarizə yolunu doğru görüb göstərən qiymətli və unudulmaz bədii abidədir. Bu romandan sonra ədibin neftçilər həyatına diqqət və marağının artması, yalnız bədii nəsrdə yox, drama və kino sənətində də bu temada qələm çalması təsadüfi deyildi. Mehdinin bədii əsərləri janrından, həcmindən və temasından asılı olmayaraq həmişə müasir, zəruri, sırf ictimai xarakter daşıyan məsələ və mətləbləri əhatə edirdi. Neftçilər həyatına həsr etdiyi hekayəlarindən birində ("Rəqiblər") iki fəhlənin, iki dostun, həm də iki rəqibin mübahisəsi təsvir olunur. Mübahisə həyati, təbii, münaqişəli olduğu qədər təbii və səmimidir. Adamların bir-birinə zidd mükaliməsi, bir-birindən narazılığı eyni zamanda hər iki fəhlənin səmimiyyət, dostluq və məhəbbətini əks etdirən lövhələrdir.

## I

Mehidnin elmi, publisist əsərləri həmişə ədəbiyyat və sənətimizin ən aktual məsələlərinə toxunan və həmişə qabaqcıl mövqedən çıxış edən, oxucuların diqqətini çəkən əsərlər idi. O, cavan yazıçılara, yeni əsərlərə, kəskin müzakirələrə hər kəsdən qabaq diqqət yetirən, hər kəsdən qabaq fikir deyən, həm də öz fikrini deyən yazıçı idi. Mehdi deyilənləri təkrar etməyi sevməzdi. Özünü narahat edən məsələ haqqında ona-buna şikayət etməyi sevməz, bu məsələnin düzgün həlli üçün əlindən gələni edər,





müstəqil və sağlam, obyektiv fikrini cəsarətlə deməkdən, yazmaqdan çəkinməzdi. Ədiblər ona tipik sovet ədibi deyirdilər. Burada ədəbiyyatçı yoldaşlar tamamilə haqlı idilər. Həyata baxışı, mövzuları, əsərləri, ictimai fəaliyyəti, vətəndaşlıq qüruru və şəxsi-ictimai münasibətləri ilə Mehdi bu xasiyyətnaməni qazanmışdı. Mehdi qələm yoldaşlarının qələbəsinə sevinən, qüsuruna, müvəffəqiyyətsizliyinə kədərlənən, ədəbiyyat, sənət cəbhəmizin qeyrətini çəkən və bu yolda öhdəsinə düşən vəzifəsini ləyaqətlə yerinə yetirən əsl sovet ədibi idi.

Ədəbiyyat tariximizin yaranıb nəşr olunması birdən-birə və asanlıqla əldə edilməmişdir. Hələ müharibənin ağır illərində partiyamız məfkurə cəbhəsindəki mübarizəmizdə tam silah kəsəri tələb etdiyi bir zamanda Mehdi də, ədəbiyyatşünaslıq cəbhəsinə fəal kömək etməyə başladı. Sovet dövrü cildinin yaranma, redaktə və müzakirəsində çox səmərəli iştirak etdi. Akademiya onun bu zəhmətini Azərbaycan ədəbiyyatı tarixi cildlərində qeyd etmişdir.

"Bayatılar" kitabını akademiyada nəşr etmək məsələsi qoyulanda Mehdinin köməyinə müraciət etmişdik. Ədib həmin kitaba qiymətli bir müqəddimə yazdı ki, indi də təravət və əhəmiyyətni itirməmişdir.

Mehdi sovet ədəbiyyatını, onun inkişaf prosesini, xarakter hadisələrini, yaradıcılıq məhsullarını diqqətlə, həvəslə, ehtirasla izləyərdi. Onun geniş mütaliəsinə biz heyran idik. O, hamının yazdığı hər şeyi oxuyurdu. Oxuyur və fikir deyirdi. Əsər müəlliflərinin razılığını ya narazılığını hesaba almadan fikir deyir və yazırdı. Onun belə məqalələri bəzən cəbhəyə aydınlıq gətirirdi.

Mehdi sovet ədəbiyyatının təmizliyini, müqəddəsliyini, xalqı tərbiyə yolunda kəsərli və dəyərli vasitə olduğunu yüksək qiymətləndirirdi.

Dövlət nəşriyyatı ədibin əsərlərinin 10 cildliyini nəşr etməkdədir. Şübhə yoxdur ki, ləyaqətlə başa çatdırılan bu nəşrin dalınca Mehdinin əsərlərinin, xüsusilə fəhlə həyatına və inqilab tarixinə həsr olunmuş roman və hekayələrinin başqa dillərə dürüst, yüksək bədii tərcüməsi və nəfis bir şəkildə nəşri məsələsi qoyula-

caqdır. Ədibin yaradıcılığına həsr olunmuş ilk tədqiqat əsərləri, dissertasiya və monoqrafiyalar nəşr olunmaqdadır. Başqa sovet ədibləri kimi Mehdi Hüseynin də zəngin arxivi diqqətlə öyrənilib, tədqiq olunmalıdır. Çünki Mehdinin bütün həyatı, mübarizəsi, yaradıcılığı, əsərləri xalqımız, sovet dövrü mədəniyyət və tariximizlə bilavasitə bağlıdır.

Mehdi sovet ədəbiyyatı yaradıcılarının ilk və fəal nəsli mücahidlərindən biridir. Onun yaradıcılığında, həyat, mübarizə yolunda cavanlarımız üçün çox ibrətli, öyrənməli hadisə və mətləblər vardır.

*Azərbaycan. 1969. № 4-6*

### Bakı görüşləri

*Qocaman ədibimiz Mir Cəlal Paşayev hazırda "Bakı görüşləri" adlı xatirələr kitabı üzərində işləyir. Müəllif bu kitabında 20-30-cu illərdə respublikamızda baş verən bir sıra ictima-siyasi-ədəbi hadisələri qələmə almışdır. Həmin əsərdə bir parçanı oxuculara təqdim edirik.*

20-ci illərin axırları, mülayim payız günləri idi. Rayon şəraitindən yenicə ayrılmış, pedaqoji institutda təhsilimi artırmaq üçün Bakıya gəlmişdim. Şəhər mühiti mənim üçün həm yeni, həm də maraqlı idi. Bakıda tanış olduğum ilk ev – Kiçik Qala küçəsindəki 16 nömrəli ev; balaca həyətin sağında dar pilləkənlərdən yuxarıda, ikinci qapıdakı mənzil, Ədalətin mənzili olmuşdur.

Ədalət bizim institutda, yuxarı sinifdə oxuyan yoldaşımız idi. Atasının tələbələrə otaq kirayə verdiyini bizə dedi. Biz də həmin evin qapısını döyməli olduq.

Ədalətin atası idarələrin hansındasa hesabdar işləyirdi. Ancaq özü əhvallı, məlumatlı, ünsiyyətli adam idi. Biz kirayə elədiyimiz otağın qiymətini danışmaq istəyəndə bənd olmadı:

– Otaqdı, – dedi, – yaşayarsınız, eləcə hökumətə verdiyimiz





kirəni, işığı, suyu ödəsəniz bəsdir. Sizdən bir şey tələb olunmur. Ədalətin yoldaşlarısınız.

Biz öz aramızda belə danışdıq ki, üç yoldaş, hərəmiz on-on beş manat versək ev sahibi razı qalar. Elə də elədik.

Ədətin atası hesabdar Mirzə Qasım, doğrudan, əhvallı adam idi. Bizə kirəkeş, qonaq kimi yox, lap doğma övlad kimi baxırdı. Hər gün yoxlayırdı: işıq qaydasındadırmı, su gəlir, soba yanır, otaqlar təmizlənirmi? Cavanların bişmişinə, çayına baxan varmı? Məktəbə necə gedib-gəlirsiniz, nəqliyyatdan korluq çəkmirsiniz?

Mirzə Qasım bizi xalqının yeniyetmə cavanları kimi əzizləyir, hər ehtiyacımız ilə maraqlanırdı.

Söhbət zamanları bir də görürdün ki, Mirzə Qasım tələsik qalxdı, yeyin addımlarla o biri otağa keçdi, iki dəqiqə sonra qayıdıb sözünə davam etdi. Əvvəl buna təəccüb edirdik, soruşmağa da cəsarət eləmirdik. Görünür, bunu hiss etmişdi. Bizim marağımızı görüb sözü açdı:

– Uşaqlar, – dedi, – mən lap köhnədən atalar sözü ilə məşğul olmağı sevirəm. Hacının (Hacı Zeynalabdinin) idarəsində çalışan zaman, hesabdar dəftərimin altında ümimi dəftər saxlardım, istədiyim misalları dərhal qeyd elərdim. Sovet qurulandan sonra həmin misalları nəşriyyata verdim, çap elədilər! İndi o kitab əllərdədir.

Mirzə Qasım bütün danışıqlara, söhbətlərə diqqət yetirirdi. Özünün söz-söhbətlərində də bu nümunələrdən gətirirdi. Müsahiblər eşitdiklərinə bənzər təzə misal əlavə edəndə kişinin gözü işıqlanırdı. Qızıl tapmış kimi təşvişə düşür, istədiyi misalı dönə-dönə təkrar edirdi:

*Əzizinəm hər aylar,*
*Hər ulduzlar, hər aylar.*
*Başım cəllad əlində*
*Dilim səni haraylar!*

Mən bunu deyəndə kişi cəld qalxıb dəftər, qələm gətirdi, yazdı. Yenə təkrar etdi. Sonra valeh kimi dizinə döydü:

– Sözə baxın, siz allah! Bir görün məhəbbəti belə od ilə deyən olubmu? B a ş ı m  c ə l l a d əlində, d i l i m  s ə n i haraylar!

Yanan qəlbin alovunu, tonqalını bundan yaxşı necə demək olar?..

Mirzə Qasım, ürəyini tərpədən misalı hər yetirənə, hətta qoca nənəsinə bir şair eşqi ilə deyərdi. Deyərdi, sonra da izah edərdi:

– Bunu lap böyük şair, azəri xalqı deyib. Gör necə atəş ilə, necə məlahətlə deyib. Belə nümunələrin hər biri böyük xalqın məhəbbət dastanıdır. Biz nahaq yerə etinasız oluruq, toplayıb nəşr etmirik...

Mirzə Qasımın şifahi ədəbiyyata marağı bizi də qızışdırmışdı. Sinifdə yeri gələndə suallar verir, ədəbiyyat müəlliminin rəyini soruşurduq:

– Tanıyıram, – deyirdi. Mirzə Qasım ilə mənim də söhbətim olub. O kişi ədəbiyyat həvəskarıdır.

Biz Mirzə Qasımın evində yalnız ədəbiyyatdan yox, ümumən şəhər həyatından, Bakının məişəti, adət-ənənələrindən də məlumat alır, öyrənirdik. Əli qələm tutan, yazmaq istəyənlərə redaksiyaların ünvanını öyrədir, redaktorun adını deyir və istiqamət də verirdi.

Mirzə Qasım ünsiyyətli kişi idi və bu ünsiyyət yalnız ailə-məişət çərçivəsində qalmırdı. O, hadisələr, yeniliklər haqqında öz fikrini açıq deyən, müsahiblərini öz hökmlərinə inandırmağı bacaran adam idi. Mirzə Qasımın evinə qonaqlar, qonşular, qohumlar gəlib-gedərdi. Ev sahibi bizi də onlar ilə tanış etməyə çalışırdı.

– A filankəs, bunlar bizim ali məktəb tələbələridir, tanış olun!

Biz məmnuniyyətlə bu yeni, hörmətli adamlarla tanış olur, onların söhbətini maraqla dinləyirdik.

O zaman Bakıda ali məktəblərin sayı az idi. Aspirantura yalnız bir yerdə - Elmlər Akademiyası Filialının yanındakı Dövlət Elmi Tədqiqat İnstitutunda açılmışdı. Buraya həvəslənən ədəbiyyatçılar içərisində Heydər Hüseynov, mən, Mehdi Hüseyn, Səməd Vurğun var idik. İmtahanlardan çıxandan sonra məni, Mehdini, Heydəri qəbul elədilər. Səməd də bəzi çətinliklərdən sonra ədəbiyyat şöbəsinə daxil oldu.





Aspiranturanın müdirliyinə Ali Sovetdə sədr vəzifəsində olan Soltan Məcid Əfəndiyev təyin olunmuşdu. Qəbul haqqında əmri alandan, dərs cədvəlini öyrənəndən sonra yaşamaq yeri hayına qalmalı olduq. Aspiranturanın yataqxanası yox idi və buna təminat da verilmirdi. Biz Soltan Məcidin yanına gedib yer xahiş edəndə bir qəbz yazıb kəndli evindən bizə yer istədi. Həmin kağız ilə bizi (məni və Səmədi) ümumi yataqxanaya buraxmalı oldular. Aspiranturada təhsil alarkən Mərkəzi təşkilatlar bizi tez-tez çağırır, müxtəlif taşırıqlar verib işlədirdilər. Bir gün bütün aspirantları təbliğat şöbəsinə yığdılar. Kolxozlarda gəlir bölgüsünü keçirmək üçün göndəriləsi briqadalara qoşdular. Məni Göyçaya, İsmiyev deyilən bir raykom katibinin briqadasına salmışdılar. 40 gün Qara Məryəm rayonunda, Qara baqqal, Bığır kəndlərində gəlir bölgüsü kampaniyasını keçirməklə məşğul olduq.

Qışın qarlı-çovğunlu günlərində bizi bu kənddən o biri kəndə qoşur, hesabdarların bütün kağız-kuğazlarını yoxlayıb qiymət verirdik. Həmin səfərdən topladığım təəssürat əsasında mən ilk oçerklər kitabımın mühüm bir hissəsini (“Sağlam yollarda”) yazıb çapa verdim (1932). Həmin aylarda təzəcə yaz açıldığı, bağ-bağça çiçəkləndiyi bir zamanda sahil bulvarında gəzdiyim bir gündə ortaboy, qarayanız, qıvrım saçlı bir oğlanın mənə yaxınlaşdığını gördüm. Oğlan, görünür, nəsə mənə bir söz deməyə tələsirdi. Yaxınlaşan kimi əlini mənə uzatdı və ərkyana bir səslə müraciət etdi:

– Tanış olaq, yoldaş Mir Cəlal!

Mən əl verdim, soruşmamış o, adını dedi:

– Mən Mehdi Hüseynovam. Sizi yaxşı tanıyıram. “Kommunist” qəzetinin redaktoru Əminbəyli yoldaş məndən bir komsomol üzvü, ədəbiyyatçı istəyir. Qəzetdə ədəbiyyat işlərini idarə eləmək lazımdır. Xahiş edirəm sabah saat 10-da Az.APP-a gələsiniz.

– Haradır ora?

– İsmailiyyədə, birinci mərtəbədə oluruq. Kimdən soruşsanız yazıçıların otağını göstərərlər.

Səhərisi mən İsmailiyyəyə (indiki akademiyaya) getdim. Mehdi ilə görüşdüm. Mehdi mənim yanımda Əminbəyliyə zəng etdi və məni onun yanına göndərdi.

"Kommunist" qəzeti o zaman indiki mətbuat komitəsinin binasında olurdu.

Əminbəylini mən Gəncədən tanıyırdım. O, Maarif şöbəsinə, yaxud Maarif xadimləri İttifaqına rəhbərlik edərdi.

Burada məsul redaktor olduğunu bilmirdim. Məni görən kimi salamlaşıb yer göstərdi. Savadımı yoxlamağa başladı. Müəllimlər seminariyasını bitirdiyimi bilib sevindi və bir vərəq verib işə girmək üçün ərizə yazmağımı tələb etdi.

Mən yazdım, diqqətlə oxudu, görünür, səhv axtarırdı, axtardı, tapa bilmədi. Kənarına nəsə yazdı, zəngi vurub kimisə çağırdı:

– Ədəbiyyat şöbəsinə məsul icraçı axtarırsınız, savadlı oğlandır. Götürün, qoyun işləsin! – Həmin gündən məni redaksiyaya işə götürdülər! – Mən aspiranturada oxuyuram, mane olmazlarmı?

Əminbəyli əlini tovladı:

– Xulufluya deyərəm, oxumağına mane olmarıq, işində ol.

Mənim aspirantura təhsilinə olduğu qədər, "Kommunist" kimi hörmətli bir qəzet idarəsində işləməyə də həvəsim var idi. Buradakı iş şəraiti ilə tanış olmaq lazım idi. Cavadov Fərhad adlı bir kök adamı mənə göstərdilər ki, – şöbə müdirinizdir. Bütün göstərişləri o verəcək.

Cavadov otağındakı şkaflardan birini açdı, bir neçə toz basmış məktub bağlaması çıxardı.

– Bunlar, – dedi, – rayonlardan göndərilən həvəskar müxbir məktubları, ədəbi yazılardır. Baxan olmayıb, yığmışıq qalıb. Sən başla bu məktubları bir-bir oxu, yararlıları seç, hazırla, çapa verək, amma çox ixtisar elə, məktubdan bir neçə cümlə götürsən bəsdir.

Mən nə zamandansa burada "həbs olunmuş" yazıq məktubların qatını açıb diqqətlə oxumağa, yoxlamağa başladım. Bunların içində şeir, hekayədən başqa xəbər, şikayət də var idi.

Məktubları düzəltməyə yox, əvvəlcə bir-bir oxuyub başa çıxmağa, məzmunlardan xəbərdar olmağa çalışırdım. Nə qədər qəribə və gözlənilməz olsa da burada vaxtı ilə özümün Gəncədən, Gədəbəydən yazdığım məktub, oçerkləri, hekayələri tapdım və sevinclə onları təkrar oxuyub düzəltdim. Öz məktublarımı şöbə müdirinə yox, birbaş Əminbəyli yoldaşa oxuyub çapına icazə istəməyi lazım bildim.





Əminbəyli əsasən Gəncədən olan bu məktubları maraqla dinləyir, səhifə başa çatmamış hökmünü verirdi:

–Yaxşıdır, ədəbiyyat səhifəsində ver getsin çapa.

Bu qayda ilə unudulmuş, tərk edilmiş ilk yazıların çoxu həyat işığı görməyə imkan tapdı, mənim sevincimin hüdudu yox idi.

Bir gün qəzetimizdə müsabiqə elanı verildi. Pambıq yığımından yazılan yaxşı oçerklərə mükafat təyin olunmuşdu. Müsabiqə qapalı idi. Çoxları buraya əsərlər yazdılar, mən də gizli imza ilə "Qələbənin açarı" adlı bir oçerk yazdım. Bir neçə gün keçməmişdi ki, müsabiqə materialları yoxlanıb saf-çürük edildi. Bir gün məni baş redaktorun yanına çağırdılar. Əminbəylinin otağına girəndə qabağında öz yazımı gördüm.

O, əsəri yazı manerasından, materialın məzmunundan tanımışdı. Mülayim və xoş əda ilə soruşdu:

– Bu oçerki sən yazmısan?

– Redaktorun zənnini çaşdırmaq istəmədim:

– Bəli, - dedim, mənimkidir!

– Yaxşı, yazmısan, – dedi, – sağ ol!

Həmin oçerki qəzetdə nəşr etdirdi və mükafata da təqdim etdi.

"Kommunist"də iki, "Gənc işçi"də 4 illik həvəsli işim müasir, canlı, operativ, ayıq mühakiməyə hazırlamaqda mənə mühüm təsir göstərirdi. Mətbuatın bu gözəl tərbiyə məktəbini mən heç vaxt unutmaram.

İbrahim Əminbəyliyə, görünür, işim xoş gəlmişdi. Məni tamam təhsildən ayırmaq, redaksiyada saxlamaq fikrində idi. Mən isə oxumaqdan ayrılmaq istəmirdim. Aspiranturada qalmaq istəyirdim. Bu ixtilaf üzündən o kişi ilə danışmalı oldum. Sonra "Gənc işçi" qəzetinə keçdim.

İxtilafın təfsilatı belə oldu...

Əminbəyli məni bir aylığa Bərdə rayonuna pambıq yığımı kampaniyasına səfərbərliyə göndərmişdi. Həmin ayı səy ilə işlədim, rayon həyatından çox yazılar yazıb çap etdirdim.

Səfərbərlik vaxtını qurtarandan sonra Bakıya qayıtdım. Maaşımı almaq üçün redaksiyaya gələndə Əminbəyli acıqlandı:

– Niyə gəlmisən?

– Vaxtım qurtarıb.

– Çox da qurtarıb, nahaq gəlmisən.

– Nə üçün?

– Hələ Bərdə rayonu planı ödəməyib.

– O məndən asılı deyil.

– Sən get rayona, maaşını da oraya göndərərik!

– O halda məni aspiranturadan kənar eləyərlər, mən akademiyanın icazəsi olmadan gedə bilmərəm.

Əminbəylinin deməyə sözü qalmadı. Ancaq mənim maaşımı verməyə də qol çəkmədi.

– Yazın, maaşımı versinlər.

– Maaşı rayonda gedib alarsan!

– Mən rayonda işə girməmişəm.

– Get oraya, göndərərik!

Yoldaşlarımdan birinə, Mehrab adlı bir hüquqşünasa bu əhvalatı danışanda mənə dedi:

– Maaşı saxlamağa sovet idarələrində heç kəsin haqqı yoxdur. Ver məhkəməyə dərhal alsınlar.

Tənbəllik eləmədim, balaca bir ərizə ilə məhkəməyə müraciət etdim.

O vaxta qədər güman eləməzdim ki, məhkəmə sıravi bir əməkçinin ixtilafında yüksək vəzifəlilərə töhmət eləyə.

Məhkəmə iclasına gedəndə gördüm redaksiya öz nümayəndəsini, məsul redaktorun müavinini, bir nəfər də kimi isə bu iş üçün göndərmişdir. Məni vahimə bürürdü.

Məhkəmə sədri Rəsizadə familiyalı sadə bir qadin idi. Mənim ərizəmi oxudu və redaksiyanın nümayəndəsindən soruşdu:





– Bu oğlanın maaşını niyə vermirsiniz?

Redaktor müavini tribunada nitq deyən kimi başladı nağıl danışmağa:

– Mir Cəlal yoldaş özü komsomol təşkilatının məsul katibi ola-ola (mən, doğrudan da, redaksiya komsomol özəyinin katibi idim), özü pambıq kompaniyasının əhəmiyyətini bilə-bilə, işin bu qızğın vaxtında...

Məhkəmə sədri onun sözünü kəsdi:

– A kişi, nağıl açma! De görüm, oktyabr, noyabr aylarında bu oğlan sizdə işləyib ya yox?

– İsləyib!

– Maaşını alib ya yox?

– Zaddı...

– Alıb ya yox, cavab ver!

– Maaşını rayona göndərmişik.

– "Kommunist" qəzeti rayondadır, ya Bakıda?

– Bakıda

– Maaşı niyə rayonda alsın?

– ...

Sədr bir az da hirslə nümayəndəyə acıqlandı...

– İşçi sənin redaksiyanda işləyir, maaşını da redaksiyadan alacaq, vəssalam!

Üzünü katibə tutub əmr elədi:

– Yazın, günü sabah bu oğlanın maaşını ödəsinlər!

Məhkəmənin icra vərəqəsini təqdim edib maaşımı alandan sonra məni Mərkəzi Komsomol Komitəsinə çağırdılar. "Gənc işçi"yə məsul katib təyin etdilər.

Mən də çox həvəslə komsomol mətbuatının canlı, maraqlı və çoxcəhətli işinə girişdim. Bütün yazıçı, ədəbiyyatçıları, əli qələm tutan cavan yoldaşları qəzet işinə cəlb etməyə çalışdım və az bir zaman da burada yaxşı, maraqlı müzakirələr, məclislər keçirildi.

"Gənc işçi" o zaman da canlı, hörmətli, fəal qəzet idi.

Xoşbəxtlikdən mətbuatda çox çalışmalı olmadım. Aspitanturanı qurtaranda, ali məktəbdə, tələbələr ilə işləməli olduğumu

görəndə qəzetdən çıxdım. Canlı auditoriyanı üstün tutdum.

Gəncədə ilk müəllimlərimdən olan Vəli Xuluflu məni akademiyaya çağırdı. Hələ filial halında olan ictimai elmlər bölməsində işləməyi təklif etdi.

Vəli Xuluflu hələ o zaman Azərbaycan qamusu (ensiklopediyası) nəşr etmək üçün lazımi tədbirlər görmüşdür. Hətta sözlüklər də nəşr olunmuşdu.

Respublikanın görkəmli ziyalı qüvvələri bu yeni və maraqlı işə cəlb olunmuşdu. Mən ictimai elmlər üzrə bütün sözlükləri və məqalələri hazırlayırdım. İşimin ağırlığı və həcmcə böyüklüyünü görən rəhbər yoldaşlar bu şöbəni bir neçə şöbəyə ayırmağı lazım bildilər və yeni ştatlar aldılar.

İctimai elmlər: ədəbiyyat, fəlsəfə, musiqi, dil, folklor və s. şöbələrə bölündü, bunlar üçün münasib adamlar axtarıldı.

Ədəbiyyat şöbəsini, şübhəsiz, özümdə saxlamalı idim. Musiqi şöbəsinə böyük bəstəkarımız Üzeyirbəyi, fəlsəfə şöbəsinə o zaman Aİİ-də fəlsəfə dərsi deyən Heydər Hüseynovu çağırdıq.

Heydəri mən aspiranturadan, həm də "Gənc işçi"də məqalələrini çap etdiyim illərdən tanıyırdım. Namizədliyini verən kimi təsdiq etdilər, o da həvəslə ensiklopediyada işləməyə başladı.

O zaman mədəniyyət, məfkurə aləmində işləmək üçün savad, bilikdən başqa, bəlkə bunlardan vacib partiya üzvü ya komsomolçu olmaq tələb olunurdu. Ziyalılar arasında komsomolçu kifayət etsə də, kommunist olduqca az idi. Çünki partiyaya qəbul şəraiti çox çətin və ciddi idi. Beş nəfər köhnə kommunist zəmanəti vacib idi. Heydər Hüseynov isə partiya üzvlüyünə namizəd idi. Ona görə də Heydərin akademiyada işləməyi yerinə düşdü.

Əhəd Yaqubov (akademiyanın prezident müavini idi) Mərkəzi Komitədə katib sifəti ilə işləməyə gedəndə yerinə Heydəri cəlb elədilər. O da həvəslə müavinliyi öhdəsinə götürüb işə girişdi.

Respublika Elmlər Akademiyası SSRİ Elmlər Akademiyasının filialı olanda imkanı da, nüfuzu da çox idi. Milli mədəniyyətə, milli respublikalara, elmi idarələrə diqqət, qayğı çox idi.

Akademiya mərkəzdən ayrılandan, yerli büdcəyə tabe olandan sonra yerlərdə vəziyyət xeyli dəyişdi. Heydər Hüseynov cavan, həvəsli, enerjili, qeyrətli oğlan idi. Kitab nəşr etməyə, cavan alimlər hazırlamağa, institutlar açmağa, qonşu respublika alimləri ilə yarış aparmağa çox səy edirdi. Gecə-gündüz akademiyada, öz otağında əyləşir, kitab-dəftər ilə əlləşirdi.





Kəskin və haqsız tənqid onu sarsıtdı. O özünü faciəli surətdə həlak etdi.

Mənim hələ Gəncə seminariyasında ikən əlaqədar olduğum, inandığım və hörmət bəstədiyim kommunistlərdən biri, sonralar Respublika Maarif Komissarı işləyən Məhəmməd Cuvarlı idi.

O, vücudca balaca, arıq, bir az da xırdagöz, zahirən qaş-qabaqlı olardı. Ancaq mənəvi cəhətdən əksinə, fəal, çevik, ayıq, dərrakəli, təşəbbüskar kommunist idi. Onunla tanışlığım tələbəlik skamyasından, seminariyada oxuduğum illərdən başlamışdı. O zaman Cuvarlı Gəncə Vilayət Komitəsində təbliğat üzrə katib vəzifəsində çalışırdı. Seminariya tələbələrin tərbiyəsi, inkişafı ilə ciddi məşğul olurdu.

Görünür bilik, məslək eşqi, işə həvəsindən başqa, Cuvarlıda təşkilatçılıq bacarığı və təmkini də güclü idi. Seminariyada olduğum, təşkilatda çalışdığım müddətdə (mən tələbə təşkilatının sədri vəzifəsində idim) Cuvarlının mənə qarşı rəğbətini hiss etməmişdim.

Son kursda və təhsil ilinin son aylarında bir axşam yoldaşlarımla əl-ələ verib gəzməyə getdiyim zaman çiynimə bir əl endiyini duydum. Dönəndə gördüm Cuvarlıdır!

Güldü və mənə təsəlli verdi:

– Deyəsən, səni diksindirdim?

– Mən dinmədim. O mənim kürəyimə əl vura-vura dedi:

– Sabah Vilayət komitəsinə gəl, səninlə işim var.

– Saat neçədə gəlim?

– Saat 9-dan sonra mən oradayam. Ha vaxt istəsən gəl. Dərsdən çıxanda gələ bilərsən!

– Baş üstə, – deyib getdim.

Getdim, acaq bu çağırış məni çox narahat elədi.

Cuvarlı məni nə üçün çağırır? Görəsən nə deyəcək? “Səninlə işim var!”. Görəsən bu nə işdir. Bəlkə mənə təzə bir iş tapşıracaq, qulluq təklif edəcək! Bəlkə də, tələbə həyatı ilə əlaqədar tapşırıq verəcək.

Cuvarlının evi seminariya olan küçədə (28 Aprel küçəsi) məktəbin qabağında idi. Mən dərsə gedəndə, o da işə gedirdi. İşə getməzdən əvvəl mənimlə görüşəndə içəri çağırdı və sözünü açıq dedi:

– Seminariya məzunlarının təyinatı gedir. Anketində gördüm ki, sən kəndə getmək istəyirsən. Gədəbəy məktəbinə müdir lazımdır. Səni oraya məsləhət görmüşük. Necə baxırsan?

– Müdirlik çətin olmazmı?

– Çətin olmaz, komsomolda yaxşı işləmisən, yerli təşkilatlar da sənə kömək edəcək!

– Siz məsləhət bilsəniz, mən hazıram.

– Gədəbəyin raykom katibi Ramazanov yanıma gələcək. Ona da xüsusi tapşıracağam, sənə kömək eləsin. Ora dağ yeridir, səfalıdır, həm də fəhlə rayonudur. Məktəbi də böyüdüb yeddiillik eləyirik. Cavan oğlansan, seminariyada aldığın bilik və tərbiyə fəhlə balalarına vacibdir. Sən orada çox xeyir verərsən. Fəhlələr də qədirbilən camaatdır. Sənin inkişafına kömək edərlər.

Mənim sükut və razılığımı görəndə Cuvarlı sevinclə əlimi sıxıb xeyir-dua verdi:

– Mübarək olsun! Sənə yaxşı yol. Sabah siyahınızı maarif şöbəsinə göndərəcəklər. Əmrinizi alıb yola düşərsiniz! İki aylıq maaş da qabaqcadan verilir.

İndi mən daha aşkar və yəqin görürdüm ki, bizi xalis hazır, məsul maarif işçisi kimi müəyyənləşdirib əməli işə göndərirlər.

Gədəbəyi görməmişdim. Təsəvvürüm də ibtidai və yanlış idi. Kakor deyilən bir gödək, zirək kişinin məftil təkər faytonu, zınqırovlu, gümrah atları ilə bizi Yasamal yolundan yoxuşa doğru aparanda güman edirdim ki, məktəbə dərs deməyə yox, dumanlı, əsrarlı dağlarda cəhalət, qaranlıq, zülmət ilə vuruşmağa gedirik.

İyirminci illərin ortaları və axırlarında bizim respublikada





maarif və mədəniyyət adamları az idi. Xüsusilə Sovet dövlətinin və Kommunist Partiyasının böyük miqyaslı gələcək tədbirlərini – “mədəni inqilab” şüarını nəzərə alsaq və bu baxımdan maarif qüvvələrinə yanaşsaq çətinlik daha da aydın görünər.

Gədəbəy kimi məşhur fəhlə rayonuna ilk qədəm qoyan seminarist mən idim. Bəlkə ona görə Cuvarlı məni xüsusi hörmət, hazırlıqla yola salır, rayonun adlı-sanlı adamları ehtiramla qarşılayırdılar.

Mülayim sentyabr axşamında mənim mənzilim – mədən komitəsinin binasındakı otaq qonaqlarla dolmuşdu. Adətən, qonaqları çay-çörək süfrəsi ilə qarşılayırlar. Bizdə belə imkan yox idi. Bizim üçün ayrılan otağın təchizatı da sahmanda deyildi. “Biz” deyirəm, ona görə ki, mənimlə bərabər qonşu, yaxın kəndlərin (Qumlu, Söyüdlü) müəllimləri də var idi. Onlar bir-iki günlüyə də olsa rayon mərkəzində, bizim otaqda qalmaq istəyirdilər.

Rayon işçiləri, qocaman fəhlə kommunistlər bizə xoşgəldin eləmək üçün yığışmışdılar. Buna baxmayaraq, biz yerlilərin açıq dedikləri arzu və tələbləri eşidirdik. Həmin günlərdə mən 19 yaşlı cavan bir seminarist idim. Görünür yerlilərin “bu təzə müəllimdən” gözləri su içmirdi. Çünki onların aləmində qalstuk, yaxası qatdama köynək, komsomol qayışı “bu yerlərə” o qədər də münasib deyildi, birtəhər gəlirdi.

60-70 yaşlı qocaman mədən fəhləsi Əlihüseyn əmi masaya dirsəklənərək diqqət və ərk ilə mənə baxıb deyirdi:

– Oğlum, arxayın ol, fəhlə camaat müəllimin qədrini biləndir. Nə qədər ki, biz varıq, bir köpək oğlu müəllimə deyə bilməz ki, gözün üstə qaşın var! Müəllim bizim əzizimiz, uşaqlarımızın tərbiyəçisidir. Bu şərt ilə ki, bəzi-bəzi işlər gərək bizim yerlərdə görünməsin.

Əlihüseyn əmi ətəklərini yığışdırıb ayağa qalxdı, bir də oturub dedi:

– Mən nəyi deyirəm: mən iki babətdən deyirəm, mültəfit ol!

Biri budur ki, müəllim gərək içki sarıdan özünü gözləsin, biri

də əxlaq sarıdan, qadın babətindən, abır-həya babətindən özünü gözləsin! Bu iki şərt olan yerdə dərs də, tərbiyə də, hörmət də qaydasında olar. Oğlum, sənə indidən başa salıram ki, bunlardan özünü gözlə! Bura rayon yeridir, fəhlə yeridir. Burada gərək özünü gözləyəsən. Camaat sənə uşaqlarını etibar eləyir! Bu təmizlik ki, oldu, gözüm üstə yerin var. Bütün mahalda bir kişinin sənə dolaşmağa cürəti yoxdur...

Qoca fəhlə bir ata nəsihəti ilə danışır, mənim gözümün içinə baxırdı. Əyləşənlərin Əlihüseyn kişinin nəsihətinə diqqətlə qulaq asmağı o demək idi ki, bu tapşırıqlar tək bir adamın yox, rayon camaatının hamısının adındandır.

Mən dillənməmiş məktəbin köhnə müəllimi Əli Qara qocaman fəhləni arxayın elədi:

– Əlihüseyn əmi, Mir Cəlal seminariyanın özündə tələbə təşkilatının sədri idi, 500 tələbə onun öhdəsinə tapşırılmışdı. İçki-filan, əxlaq, ədəb-ərkan məsələsi onun öz nəzərindəndir. Bir də ki, bizim məqsədimiz burada dərs-tərbiyə, mədəni inqilab yolunda çalışmaqdır. Firqəmizin tapşırığı yolunda can qoymaqdır. Əl-ələ verib işləyəcəyik. Tək əldən səs çıxmaz. Sizin köməyiniz, fəhlə sinfinin rəhbərliyi olmadan kənd müəllimi nə eləyə bilər?

Əli Qaranın bu sözləri, görünür, Əli Hüseyn əminin ümidini təmin edirdi. Kişi təsbeh danəsi kimi kiçik göz bəbəkləri ilə gülərək müəllimi arxayın salırdı:

– Rəhbərlik bizdə, mədən fəhlələri məktəb üçün heç nəyi əsirgəmirlər. Raykom da, zavkom da məktəbin qayğısını çəkəcək, arxayın olun!

Əli Hüseyn əminin sözləri bir onun yox, bütün valideynlərin sözü idi.

Müəllim heyətini abırlı görəndən sonra fəhlələr məktəb üçün xüsusi can yandırmağa, raykomun, ispalkomun, ukomun (qəza komitəsi) yanında tez-tez danışmağa, tərif etməyə başladılar. Bu diqqət və hörmət sayəsində məktəbə kəndlərdən gələn uşaqlar üçün 25 nəfərlik pansion açdıq. Musiqi komitəsi düzəltdik, piano





gətirtdik. Neçə hektarlıq bir bağçanı məktəb təcrübə tarlasına çevirdik. Bütün rayon məktəbləri üçün istinad məktəbi yaratdıq. Ayda bir müəllimlərin rayon müşavirəsi, təcrübə mübadiləsini təşkil etdik.

Bərpa dövründən sonra mətbuatda, müzakirə, mübahisələrdə rekonstruksiya dövrü və bu söz ilə əlaqədar mətləblər dəbdə idi. Mən də həvəslənərək bir məqalə yazmışdım:

"Rekonstruksiya dövrünün müəllimi!". Bu məqaləni Xalq Maarif Komissarlığının jurnalı dərhal çap elədi. Və rayon müəllimlərinin çoxuna oxumağı məsləhət gördü. Redaksiyanın xeyirxah münasibəti (o zaman komissarlıqda çalışan Ələkbərli Məmməd sonralar Maarif naziri oldu) məni həvəsləndirmişdi. Məktəblilər üçün ədəbiyyat nəzəriyyəsi kitabı yazmaq iddiasına düşmüşdüm. Bu kitabın ilk qaralama nüsxəsini hətta tədris-pedaqoji şurasına, o zaman orada çalışan Hənifə Zeynallıya təqdim etmişdim.

Sonralar başım təhsilə qarışdı, aqibəti ilə maraqlana, izləyə bilmədim.

* * *

Vəli Xuluflu Gəncədə məşhur "mədrəseyi-ruhani" deyilən yeni tipli orta məktəbdə müəllim, həm də məktəb kitabxanasının müdiri idi. O zaman həmin məktəbə xüsusən Şərqdən – Türkiyə, Misir, Tehrandan xeyli kitablar gətirilmişdi. Bu zəngin mirasın həm istifadəsi, həm də səliqə ilə qorunması Vəli Xulufluya, Qasım Qənbəroğluna və məktəbin müdiri Pişnamazzadəyə tapşırıldı.

Məktəblilərdə oxuya marağı artırmaq üçün ən münasib kitablar seçilib onlara verilir, oxunan kitab haqqında rəy soruşulurdu. Mən Tolstoyun bir çox hekayələrini həmin kitabxanada oxumuşdum.

Qarışıqlıq illərdə həmin kitabxananın aqibəti və fondu necə oldu bilmədim.

Gəncədə Sovet hökuməti qurulan günlərdə mən müəllimimiz Xuluflunu izdihamlı yığıncaqlarda görürdüm. Şah Abbas məscidinin həyətində və məktəb qabağındakı bağda mən onun çıxışlarını, hərarətli, həm də sadə nitqlərini eşidirdim.

Vəli Xuluflu sonralar, akademiyanın filialında tarix, dil, ədəbiyyat işlərinə rəhbərlik edirdi. Lüğətlər institutunun direktoru olanda cavan mütəxəssisləri işə dəvət edirdi. "Gənc işçi"də işlədiyimi, aspiranturada oxuduğumu biləndən sonra məni çağırdı. İnstitutda işləməyi təklif etdi, mən də razı oldum.

Çox hazırlıqlı və fəal kommunist, mədəniyyət xadimlərindən idi. Ağamalı oğlu, Ruhulla Axundov, Müzəffər Nərimanov ilə yaxın idi. Çox mühüm məsələlərdə, məsləhət, müzakirələrdə iştirak edirdi. Azəri dilinin təmizliyi, inkişafı haqqında çox ciddi-cəhd edən kommunistlərdən idi.

*Ulduz. 1969. № 10. S.22-28*

## Həyat məktəbi

*Oyanmış xatirələr*

Xalqımız böyük fərəh və iftixar hissi ilə Azərbaycan Dövlət Universitetinin yarımәsirlik yubileyini bayram edir. İndi yalnız respublikamızda deyil, bütün Sovetlər İttifaqında əzəmətli və şöhrətli təhsil ocağı olan, Vətənə minlərlə yüksək ixtisaslı kadrlar verən universitetimiz çətin və şərəfli inkişaf yolu keçmişdir.

Otuzuncu illərin başlanğıcında əsas ixtisaslardan elmi işçilər hazırlamaq işinə yenicə başlanırdı. Aspiranturada təhsil cavanlar üçün təzə idi. Dövlət Elmi-Tədqiqat İnstitutuna ilk ərizə verənlər sırasında mərhum H.Hüseynov, Ə.Kazımov, sevimli şairimiz S.Vurğun, ədibimiz Mehdi Hüseyn ilə yanaşı mən də var idim. Sonra aspirantları ayrı-ayrı ali məktəblərdəki aspiranturalara verdilər. 1935-ci ildə aspiranturanı bitirəndən sonra mən APİ-də və universitetdə ədəbiyyat nəzəriyyəsi və tarixindən mühazirələr oxuyurdum.

Məlumdur ki, xalqımızın ədəbiyyat, sənət və şeirə marağı ta qədimdən dərin olmuşdur. Xüsusən inqilabdan sonra güclu bir meyl ilə ədəbiyyata qoşulan yüzlərlə, minlərlə cavanın alovlu ehtirası hər an, hər yerdə hiss olunurdu. Çox çəkmədi ki, universitet





təhsilindən yeni-yeni alim, şair, mühəndis və filosoflar yetişdi.

Qırxıncı illərin başlanğıcında universitetin yetişdirdiyi elmi kadrlar respublikada və kənarda bacarıqlı mütəxəssislər kimi məşhur idilər. Azərbaycanda elə sahə yox idi ki, orada universitetin yetişdirmələri çalışmasın. Universitetdə nüfuzlu bir elmi şura yaranmışdı. Təkcə respublikadan deyil, Sovet İttifaqının bir sıra şəhərlərindən – Daşkənd, Aşqabad, Mahaçqala və başqa yerlərdən gələn mütəxəssislər universitetdə namizədlik, doktorluq dissertasiyaları müdafiə edirdilər.

Böyük Vətən müharibəsi illərində Azərbaycanda yaranan iki cildlik ədəbiyyat tarixinin əsas müəllifləri universitetin professor və dosentləri idilər. Bu mütəxəssislər ədəbiyyat, dil, tarix, fəlsəfə üzrə yeni kitablar – monoqrafiyalar, dərsliklər yazır, elmin yeni nailiyyətlərini marksist-leninçi görüşlə öyrənir, tədqiq və təbliğ edirdilər.

Bizim alimlərin Moskva, Leninqrad alimləri ilə qardaşlıq əlaqəsi möhkəm və səmərəli olmuşdur. Akademik N.K.Dmitrov, E.E.Bertels, Qordlevski bir sıra başqaları ədəbiyyatşünaslıq, dilşünaslıq, şərqşünaslıq məsələlərində Azərbaycan alimləri ilə əlbir çalışmışlar. Universitetimizin bu fərəhli bayramı günlərində biz qardaşlıq köməyini həmişə hiss etdiyimiz alimləri minnətdarlıq hissi ilə yad edirik.

*Bakı. 1969. №256. 31 oktyabr*

## İnkişaf yollarında

Respublikamızın elmi, mədəni ictimaiyyəti Azərbaycan Dövlət Universitetinin yarımәsrlik yubileyini keçirir. Bu şərəfli yubiley yalnız elm, maarif, mədəniyyət ocaqlarının yubileyi deyil, bütün xalqımızın, bütün ictimai fikir inkişafımızın yubileyidir. Ona görə ki, dövlət universitetinin inkişaf yolu Vətənimizin tərəqqisini, sovet elm və mədəniyyətinin tərəqqisini, yüksək ixtisaslı kadr hazırlığının miqyasını bir güzgü kimi əks etdirir.

Yüksək universitet təhsili və mütəxəssislər hazırlığı bütün ziyalılarımız və münəvvərlərimizin, mütəfəkkirlərimizin tarix boyu arzuladığı, həsrətini çəkdiyi bir ideal idi. Burjua-mülkədar hakimiyyəti dövründə müstəmləkə şəraitində Azərbaycan xalqı belə bir mədəniyyət ocağının həsrətində idi. O zaman klassiklərimizin çoxu universitet arzusu ilə başqa ölkələrə və şəhərlərə müraciət etməli olurdular. Mirzə Fətəli Axundov bütün ömrü boyu Vətənimizin tərəqqi və inkişafı ilə məşğul olmuşdur. Onun məşhur əlifba islahatı layihələri vətəndə öz tətbiqini, icrasını tapa bilmirdi. M.F.Axundov dəfələrlə bu məsələ barədə kənar yerlərə müraciət etmiş, Tehran və İstambul universitetlərində layihələrini müzakirəyə qoymağa məcbur olmuşdur. Bu müzakirələr də böyük mütəfəkkirin arzu və istəklərinə münasib olmamış, həyata keçməmişdir.

Sabir zəmanəsində cəhalət hökmranlığını avam ev qadınının dili ilə belə təsvir etmişdir:

*Biz olan evdə haçan vardı kitab?*
*Nə bilirdik nə zəhirmardı kitab?*
*Büsbütün gül kimi insanlar idik,*
*Nə müəllim, nə də dərs anlardıq.*

M.S.Ordubadi “Bədbəxt milyonçu” romanının ideal qəhrəmanını, Rzaqulu xanı Fransada Sorbon darülfünununda axtarır və onu müəyyən səhnələrdən keçirirdi. Bizim Azərbaycan ziyalılarının çoxu əsərlərində, çıxışlarında və mühakimələrində universitet təhsilinin inkişafını həmişə arzulamış, ancaq keçmiş şəraitdə tapa bilməmişdir. Azərbaycan gəncləri üçün ali təhsil, tələbə olmaq arzusu bir xəyal olaraq qalmışdı.

Əsrimizin əvvəllərində, inqilabi hadisələrin inkişaf etdiyi bir dövrdə Bakıda fəhlə və xalq hərəkatının təsirli, təlatümlü vaxtında zehniaçıq adamlarımızın təfəkküründə gəncliyin inkişafına vacib olan ali təhsil zərurəti şiddətlə doğmuş, canlanmış və alovlanmışdı. Universitet yaratmaq layihəsi 1919-cu ildə müzakirə olunanda, irtica meylləri meydana çıxanda Səməd Ağamalıoğlu, Əliheydar Qarayev kimi kommunistlər universitet layihəsini alovlu müdafiə etmiş və əleyhdarlara kəskin cavab vermişlər. S.Ağamalıoğlu göstərirdi ki, müzakirə olunan layihələr içərisində ən vaciblisi və zərurisi universitet layihəsidir. Ə.Qarayev bütün mürtəcelərə cavab olaraq göstərirdi ki, demokratik fikrimizin hücumu nəticəsində universitet əleyhdarları ayaqlanıb qalacaqlar və bu münəvvər fikirlilər qalib gələcəklər. Dövlət universiteti bütün açıq fikirli ziyalılarımızın təkidi və səyi nəticəsində Bakıda ağır bir şəraitdə yaranmışdır. O zaman Bakıda nə müəllim kadrları, nə dərslik, nə proqramlar, nə laboratoriya və cihazlar var idi. Ancaq təşəbbüskar ziyalılar bundan qorxmadılar, universitet zərurətini təkid edib buna nail oldular.





Universitetin ilk dövrlərində ancaq iki fakültə – tibb fakültəsi və tarix-filoloji fakültəsi yaranıb fəaliyyət göstərirdi. Sonradan isə təhsilin miqyası, dairəsi və həcmi artmış, bir-birinin ardınca elmin vacib sahələrini əhatə edən fakültələr yaranmışdır. Universitetin ilk rektorlarından olan V.İ.Razumovski, T.A.Şahbazi və başqaları bu böyük elm ocağının inkişafı üçün çox səy və enerji sərf etmişlər. Moskva, Leninqrad alimlərinin köməyi sayəsində universitetin bir sıra fakültə və laboratoriyalarında qızğın iş aparılmış, yüzlərlə cavan yüksək ixtisas almışdır.

İndi Azərbaycan Dövlət Universiteti yalnız Zaqafqaziyada deyil, bütün Sovet İttifaqında məşhur və nüfuzlu bir elm, mədəniyyət ocağına çevrilmişdir. Universitetin öz nəşriyyatında elmin müxtəlif sahələrini əhatə edən 2 mindən çox kitab və s. vəsait nəşr olunmuşdur. Bu 50 il müddətində 25 min cavan mütəxəssis təhsilini bitirərək universitet diplomu almışdır. Onların əksəriyyəti respublikada və ondan kənarda elmin, mədəniyyətin, təsərrüfatın, tərbiyə və təhsilin müxtəlif ocaqlarında müvəffəqiyyətlə çalışır.

Azərbaycan universitetində zəngin bir kitabxana yaradılmışdır. Bu kitabxana respublikada mərkəzi kitabxanadan sonra ikinci yeri tutur. Universitetin elmi şurasında elmlərin bütün sahələrin-

dən dissertasiyalar müzakirə və müdafiə olunur. Yalnız respublikadan deyil, Orta Asiya respublikalarından, Dağıstan respublikasından və Şimali Qafqazın müxtəlif şəhərlərindən gələn hazırlıqlı mütəxəssislər öz dissertasiya işlərini burada müdafiə edirlər. Universitetin professor-müəllim heyəti indi ən qabaqcıl respublikaların universitetləri ilə bir səviyyədə inkişaf edən bir heyətdir. 1927-1929-cu illərdə universitetdə rektor vəzifəsində çalışan məşhur ədibimiz Tağı Şahbazi (Simürğ) Azərbaycan gənclərinin ana dilində təhsilinə xüsusi fikir vermiş, bütün elmlər sahəsində dərsliklər yaratmağa və Azərbaycan dilində mühazirəçilər yaratmağa səy göstərmişdir.

Bu 50 il müddətində Azərbaycan universitetində Vətənimizin məşhur və nüfuzlu alimləri uzun müddət çalışmışlar. Məşhur ədib Əbdürrəhim bəy Haqverdiyev, filosof Heydər Hüseynov, tənqidçi Əli Nazim, Mikayıl Rəfili, Bəkir Çobanzadə, Nəzərli, Xuluflu burada çalışmışlar.

İndi dövlət universitetində 13 fakültə, 64 kafedra, 86 laboratoriya, o cümlədən 4 problem laboratoriyası vardır. Universitetdə 660 professor-müəllim çalışır. Bunun 74 nəfəri elmlər doktoru, 340 nəfəri elmlər namizədi və dosentlərdir. Dövlət Universitetində yalnız respublikadan deyil, Sovet ölkəsinin hər yerindən, eləcə də xarici ölkələrdən gələn cavanlar təhsil alırlar.

Dövlət Universitetində ən güclü və nüfuzlu fakültələrdən biri filoloji fakültədir. Burada dil və ədəbiyyatın bütün sahələri, xüsusən Azarbaycan dili və ədəbiyyatının əsas problemləri tədris və tədqiq edilir. Universitetdə ədəbiyyat tarixi, dil tarixi, şifahi xalq ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, sovet xalqları ədəbiyyatı və Vətənimizdə ədəbi əlaqələr inkişafı geniş həcmdə tədris edilir. Sovet ədəbiyyatının elə mühüm şəxsiyyəti yoxdur ki, universitet tələbələrinə öyrədilməsin. Nizami, M.Füzuli, M.P.Vaqif, M.F.Axundov, Ə.Sabir, C.Cabbarlı və Səməd Vurğun kimi böyük sənətkarların yaradıcılığı ədəbiyyat tarixi aspektində keçilməkdən başqa, xüsusi kurslar və seminarlarla da tələbələrə öyrədilir. Bu nəhəng sənətkarlar məlumdur ki, Vətənimizin keçdiyi şərəfli





mübarizə tarixini və xalqımızın inkişaf yolunu əks etdirən böyük əsərlərin müəllifləridir. Həmin əsərlər yalnız tarix və estetika nöqteyi-nəzərindən yox, həm də sənətkarlıq, söz ustalığı cəhətdən tədqiq və təhlil olunur. Bunlar bir tərəfdən sovet ədəbiyyatının inkişaf yolunu işıqlandırır, ikinci tərəfdən cavanlarımız üçün müasir ədəbiyyat təcrübəsində gözəl nümunə rolunu görürlər. Parlaq sənət əsərlərinin düzgün, marksist təhlili əsasında sovet cavanlarının bədii zövqünün inkişaf səviyyəsini, onlarda yüksək sənət hissinin tərbiyəsini xüsusi diqqətlə izləyirik. Böyük sənətkarların yaradıcılıq yolunun tədqiqi, təhlili, təşviqi cavanlarımızın estetik tərbiyəsi üçün zəngin və böyük bir məktəb təşkil edir. M.Qorki ədəbiyyatı insanşünaslıq adlandırmışdır. Doğrudan da, bədii ədəbiyyat ictimai-həyatın inikasıdır. Burada bir tərəfdən həyat mənzərəsi, canlı lövhələr, ikinci tərəfdən insanların qəlb aləmi, təfəkkür, duyğu və təxəyyül aləmi əks olunur. Sənət əsərlərinin təhlilində cavanlara bir tərəfdən bilik, məlumat verilir, ikinci tərəfdən tələbələrin zövqü, zəriflik, incəlik hisslər tərbiyə olunur, cilalanır.

Bu gün yarıməsrlik şərəfli yubileyini keçirdiyimiz Dövlət Universiteti böyük bir inkişaf, böyük bir yüksəliş mərhələsi qarşısındadır. Bizdə elə kafedra, elə fakültə yoxdur ki, onun zəngin, perspektiv planı və gələcək böyük tədbirləri olmasın. Güman edirik ki, yarıməsrlik yubiley istər tələbələrimiz, müəllimlərimiz üçün, istər mədəniyyət və dövlət xadimlərimiz üçün gözəl bir stimul olsun, ikinci yarıməsrdə universitetimizin qarşısında duran elm, texnika, inkişaf və tərəqqi idealları artıqlaması ilə həyata keçirilsin, əgər Azərbaycan universiteti indi yalnız Sovet İttifaqında yarışa bilirsə, gələcəkdə dünya miqyasında ən böyük elm ocaqları ilə bir sırada inkişaf etsin.

Dövlət Universitetinin başqa universitetlər ilə əlaqə və rabitələri də çoxdur və möhkəmdir. Demək olar, bütün ölkə universitetlərinin hamısı ilə kitab mübadiləsi aparılır. Bizim elmi əsərlərimiz başqalarına göndərilir və onların elmi əsərləri bizdə tədqiq edilir. Tbilisi, Kiyev, Yerevan, Dağıstan, Aşqabad, Daşkənd universitetləri ilə təcrübə mübadiləsi aparılır. Qardaş respublikaların

universitetlərindən gələn professor və dosentlər öz respublikalarının ədəbi, ictimai inkişafını əks etdirən xüsusi kurs keçirlər. Bu kursları Azərbaycan cavanları maraqla dinləyir və həvəslə qəbul edirlər. Eləcə də bizim universitetdən gedən mühazirəçilər həmin şəhərlərdə tarixi, ədəbi, elmi inkişafımızın əsas mərhələlərini tədris edirlər. Biz bu mühazirələri imkan tapdıqca həm elmi əsərlərdə, həm də tədris kitabçalarında əks etdiririk.

Universitetdə müxtəlif elm sahələrini əhatə edən və həvəskar cavanları cəlb edən bir sıra dərnəklər fəaliyyət göstərir. Məsələn, filoloji fakültədə ədəbiyyatşünaslıq, bədii nəsr, şeir, şifahi ədəbiyyat dərnəkləri fəaliyyətdədir. Burada əli qələmli, həvəsli cavanlar iştirak edir, müəyyən mütəxəssislərin mühazirəsini dinləyir, öz qələm təcrübələrini – əsərlərini müzakirəyə təqdim edirlər. Bu cavanların əsərlərindən seçilən layiqli nümunələr həm universitetdə, həm də respublikada ədəbiyyat qəzetində, televiziyada, radioda nümayiş etdirilir. Universitetin xüsusilə Şərq fakültəsindən çıxan mütəxəssislər, ərəb, fars, türk dillərini yaxşı bilən məzunlar, xarici ölkələrdə elmin müxtəlif sahələrindən mühazirə oxumağa, öz təcrübələrini həmin ölkələrin universitetində yaymağa gedirlər. Universitet məzunlarının bir çoxu Əfqanıstan, Yəmən, Əlcəzair kimi Şərq ölkələrində həm texnikada, həm mədəniyyət və təsərrüfatın müxtəlif sahələrində müvəffəqiyyətlə çalışır və universitetin şöhrətini artırırlar. Dövlət universitetinin yalnız mühazirəçi kadrları yox, həm də dövri mətbuatı, müxtəlif fakültələrdə çıxan elmi əsərləri, alimlərin yaratdıqları monoqrafiyalar müxtəlif ölkələrdə Azərbaycan elminin şöhrətini artırırlar. Bir sıra alimlərimizin əsərləri Avropa və Şərq dillərinə tərcümə olunub yayılmışdır.

Yarıməsrlik yubiley təntənəmiz bir tərəfdən bayram sevinci, iftixar hissi gətirirsə, ikinci tərəfdən universitet xadimlərinin qarşısında gələcək böyük vəzifələr, qartal kimi qanadlanmaq, şəhpər açmaq arzuları oyadır. Güman edirik ki, universitet alimlərinin hamısı bu şad və fərəhli günlərdə səy və fəaliyyətlərini qat-qat artıracaqlar.

*Azərbaycan müəllimi. №87. 1969.31 oktyabr*





## 1971
## Ədibin şərəfli yolu

Bədii ədəbiyyat harada, hansı dövrdə, hansı şəraitdə olur-olsun, həmişə fəal mübarizə vasitəsi, məfkurə silahı olmuşdur. Xüsusilə indi ictimai inqilablar, müasir kəskin çarpışmalar dövründə köhnə quruluş və cəmiyyət qalıqlarının kökündən dəyişdiyi, uçulub dağıldığı, yer üzündə tamam yeni bir cəmiyyətin yarandığı, kommunizm ideyalarının qələbə çaldığı, bəşəriyyəti tam işıqlı, xoşbəxt, parlaq səadət dünyasına çağırdığı bir zamanda bədii sözün, sovet ədəbiyyatının əhəmiyyəti daha böyük, təsiri daha çox ümumidir. Ədəbiyyatın sözü, səsi eşidilməyən sahə, ölkə yoxdur.

Cəmiyyətimiz, quruluşumuz, amalımız yeni, böyük olduğu kimi, müasir ədəbiyyatımızın da məqsəd və vəzifələri, zehinlərə təsir qüdrəti və təsiri böyükdür.

Yeni ədəbiyyat cəmiyyət qarşısında böyük ideallar qoyulduğu bir zamanda və ölkədə yarana bilər.

Sovet ədəbiyyatının yaradıcıları mahiyyət etibarı ilə yeni cəmiyyətin özünün yaradıcıları, böyük ictimai ideallarla silahlanmış, "günəşi yarışa çağıran" böyük günlərin mücahidləridir.

Bu yeni qələm ordusunun sıx sarsılmaz sıralarına nəzər salanda, böyük Maksim Qorkinin bayraqdarlıq etdiyi yeni sənət bahadırlarına baxanda görürük ki, bu adamlar sovet torpağının özündən, fabrika, zavod fəhlələrinin, tarla, əkin, biçin zəhmətkeşlərinin sıralarından müqəddəs, halal, kollektiv zəhmətin yetişdirdiyi yeni sənətkarlardır.

Marksizmin baniləri gözəl göstərmişlər ki, insan dünyanı, cəmiyyəti dəyişərək özünü də dəyişir. Sovet ədəbiyyatının yaradıcıları inqilabımızın qələbə çaldığı döyüş günlərindən sonra süngünü qələm ilə, dəzgahı yazı masası ilə əvəz edən, zəhmət dünyasının sinəsində böyüyüb yetişən dünənki fəhlə, kəndli, əsgərlərdir, bu günün sovet ziyalıları, şərəfli sənətkarlardır.

Sovet cəmiyyətimizin, ədəbi ictimaiyyətimizin altmış illik

yubileyini qeyd etdiyi hörmətli ədib və fəal ictimai xadim Mirzə İbrahimov şərəfli bir mübarizə yolu keçmişdir. 30-cu illərin başlanğıcında zərbəçi fəhlələr sıralarından ədəbiyyat cəbhəsinə çağırış təşəbbüsləri mətbuatda geniş təbliğ olunanda, əli qələmli fəhlə gənclərin ədəbiyyata meyli təbliğ, təşviq olunanda Mirzə Lenin rayonunun neftçi gənclərindən biri idi. Onun 20 yaşı var idi. Ədəbiyyat səhifələrində qəhrəman fəhlə sinfinin mübarizəsinə aid yazıları, xüsusən M.Qorkinin fəhlə həyatını, keçmiş istismar dünyasında zəhmət adamlarının ağır əzab və işgəncələrini, bu məşəqqətli həyat lövhələrini diqqətlə oxuyur, izləyirdi. Cavan Mirzənin Ukraynaya səyahət təəssüratı ilə qələmə aldığı ilk kitablarından biri "Giqantlar ölkəsi", bahadırlar vətəni adlanırdı. Gənc ədib öz kitabçasında azad Vətənimizin, fəhlə hakimiyyətinin xarüqələrini səmimi və təbii bir fərəh, iftixar hissi ilə təsvir edir, köhnə dünyanın məşəqqətli mənzərələrinə qarşı qoyur.

Mirzə həmin illərdə bir-birinin ardınca müasir ictimai mübarizələri, döyüş səhnələrini, yeni insanları təsvir edən, yalnız teması, ictimai məzmunu ilə yox, həm da bir qızğın ehtiras, təbii, siyasi publisist pafosu ilə, gənclik qələm qüdrəti ilə seçilən, diqqəti cəlb edən bədii əsərlər – dram, povest, roman, hekayələr, elmi monoqrafik tədqiqat yaratdı.

Təsadüfi deyil ki, ədəbiyyat cəbhəsinə gəldiyi ilk günlərdən Mirzəni biz həmişə bu cəbhənin önündə, məsul, rəhbər vəzifələrdə görürük. Otuzuncu illərin başlanğıcından bu günə qədər Mirzə həm qələmi, həm təşkilat işi, həm də ayıq və sayıq publisist çıxışları ilə həmişə bizim mübarizəmizə və nailiyyətlərimizə kömək etmişdir.

Mirzə ötən 35-40 il ərzindaki fəaliyyət illərində məhsuldar yaradıcılıq əməyi ilə ümumi-ictimai, mədəni, dövlət işini məharətlə, məvazi, ahəngdar aparmağın ən xarakter nümunəsini verən ədiblərdəndir. Məsul vəzifələrə çağırılanda o, yeni əsərləri ilə həmişə, hər yerdə, hamıya xatırlatmışdır ki, mən yazıçıyam!

Böyük ədibimiz Mirzə Cəlil xatirələrinin bir yerində qeyd edir ki, mənim bir azarım var idi, həmişə, harada olsam, əlimdə





kağız-qələm olardı, hekayə yazmaqdan əl çəkməzdim. Mirzənin iş üslubunda da buna oxşar xüsusiyyəti görmək olar. Buna o, bir sənətkarlıq, həm də vacib vətəndaşlıq işi kimi baxır. Ədibin dram, roman, hekayələrində xalq həyatı, Azərbaycan fəhlə, kəndlisinin, zəhmətkeş ziylılarının taleyi, həyatı, mübarizəsi, məişəti, arzu və əməlləri, işıqlı adət-ənənələri əsas məzmun, mündəricədir.

Bu cəhətdən də Mirzə bir çox gənc ədiblərimiz üçün nümunə ola bilər. Onun əsərlərinin hamısında bir məslək eşqi çırpınır, duyulur. "Həyat", "Məhəbbət", "Kəndçi qızı", "Közərən ocaqlar", "Gələcək gün", "Böyük dayaq", Pərvanə" – bunların hamısının əsasında ictimai mübarizələrin şahrah yolunda müsbət qəhrəmanlar, hadisələrə – tarixin həlledici mərhələsinə, mübarizələrə məna və sima verən, oxucunu, tamaşaçını müsbət ideallara, çətin və şərəfli döyüş yollarına çağıran adamlar durur.

Ədibin qəhrəmanları müstəqim publisist, təbliğat vasitəsilə yox, öz həyat yolları, amalları, işləri, şəxsi nümunə, timsalları vasitəsi ilə oxuculara təsir göstərirlər. Dramaturq, nasir Mirzənin realizminə qüvvət və qüdrət verən əsas şərtlərdən biri – ədibin müasir hayatımızı, canlı insanları, müasirlərimizi, yeni həyat prosesini, qəlbi cəmiyyətimizin böyük idealları ilə döyüşən kommunizm qurucularını, onların mübarizəsini diqqətlə, bir tədqiqatçı kimi izləyib öyrənməsi, əmək adamlarının mənəviyyatı ilə qaynayıb qarışmasıdır.

Mirzə ilə yoldaşlıq, həmkarlıq, dostluq münasibatlərindən başqa mən iki böyük, məsul uzaq səfərdə olmuşam. Böyük Vətən müharibəsinin ən ağır illərində biz minlərlə döyüşçülər arasında məsul partiya tapşırığı üzrə siyasi işdə idik. Mirzə tam səfərbər bir əsgər kimi, qələmini süngü ilə əvəz edən döyuşçü kimi ağır günlərin çətin, şərəfli vəzifələrini hər bir döyüşçüyə aşılamağa, Vətənin hər birimizə müqəddəs tələbini səmimi, inandırıcı dil ilə cavan əsgərlərə başa salmağa çalışırdı. Əsgərlər üçün buraxdığımız hərbi qəzetlər, bədii parçalar indi də döyüşçülərin hafizəsindədir.

Mirzə yoldaş bədii sözü döyüşçünün dinlədiyi ən səmimi yoldaşlıq məsləhəti, ana-ata vəsiyyəti səviyyəsinə qaldırmağı ba-

carırdı. Onun nitqində, yazısındakı səmimiyyət və hərarət çoxlarını məftun edirdi. Hökm və təkid yox, inandırmaq qüdrəti və məharəti ədib üçün mühüm xüsusiyyətdir.

Ədiblər arasında yaradıcılıq müzakirə və söhbətlərində, xüsusilə nasirlərin, realistlərin üslubu xarakterizə ediləndə eşidirik ki, filan ədib kəndi, filan ədib isə şəhəri yaxşı bilir və əks etdirir. Mirzənin stilində publisistikanın, şəhər, istehsalat həyatı və səhnələrinin, "dəzgah səslərinin" üstünlüyünü qeyd edənlər var. Diqqətli oxucu ədibin realist təsvirində kəndin də, şəhərin də, texnikanın da, məişətin də inandırıcı, sadə, təbii mənzərəsini görür. Ancaq müəllif bir sıra hallarda hadisələrə, vuruşan cəbhələrə münasibətini, sənətkar poeziyasını qabarıq, tendensiyalı ifadədən çəkinmir. Bu, ədibin tərsim etdiyi mübarizə səhnələrinə müşahidəçi kimi yox, aktiv münasibətindən irəli gəlir.

Ümumiyyətlə, Mirzə bədii-publisistik sözünün oxucusuna təsir gücünə çox fikir verir. Hadisənin münasib yerində oxucuya deməli vacib sözünü unutmur. Ədibin üslubunun təqdirəlayiq qiymətli cəhətlərindən biri də orijinallığı, heç kəsə oxşamamağa çalışmasıdır. Azərbaycan sovet nasirlərinin çoxunda bu xüsusiyyət – öz stilinə, manerasına, ədasına, dil, tərkib vərdişlərinə möhkəm sədaqət və riayət təqdirəlayiq xasiyyətdir.

Mirzə, yaradıcılıq xüsusiyyətləri büllurlaşmış ədiblərdəndir. O, bəzən öz əsərinin altından imza atmasa da, oxucu müəllifi tanıyır.

Mirzə yoldaş indi məhsuldar, zəngin yaradıcılığının kamil dövrünü yaşayır. Hörmət və rəğbətini qazanmış sovet oxucuları onun xalq həyatını təsvir edən, sovet adamlarının əmək rəşadətini, zəngin mənəviyyatını yüksək bədii lövhələrdə əks etdirən yeni-yeni əsərlərini gözləyirlər.

Dostumuz, qələm yoldaşımızı bu yubiley günlərində ürəkdən təbrik edir mənalı, məzmunlu həyatının ikinci altmış illiyinə qədəm qoyduğu bir zamanda xalqımızın ləyaqətli oğluna, vətənin fədakar ədəbiyyat bahadırına möhkəm can sağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq qələbələri arzu edirik.

*Azərbaycan. 1971. №10*





## 1972
## İlham və qüdrət mənbəyi

Böyük ədib və şairlərimizin heç biri sənət və məfkurəcə məhdud olmamışdır. Onlar sənətlərində həmişə yüksək ictimai – bəşəri ideallara xidmət etmişlər. Hamısı öz xalqı, Vətəni, ilə yanaşı, başqa qardaş xalqların həyatı, məişəti, tarixi, taleyi ilə yaxından maraqlanıb bunu müəyyən əsərlərində göstərməyə çalışmışdır.

Xususən son əsrlərdə Mirzə Fətəli, Sabir, Mirzə Cəlil kimi nəhəng simaların yaranmasında, qələm mübarizəsində, mədəniyyət və ədəbiyyatlar arasındakı sıx əlaqə, rabitənin mühüm əhəmiyyəti olmuşdur.

Mirzə Fətəli Axundov realizminin əsas müəllimi klassik rus ədəiyyatı, bu ədəbiyyatın A.S.Puşkin, N.V.Qoqol kimi nəhəng simaları olmuşlar. Mirzə Cəlil, Ə.Haqverdiyev sənəti öz mənbəyini dahi rus realist ədibləri Tolstoydan, Qoqoldan, Çexov və Qorkidən almışdır. Rus ədəbiyyatının ümumbəşəri əhəmiyyətini bizim böyük ədib və şairlərimizin hamsında aşkar görmək mümkündur. Onlar bu ədəbiyyatı sənət, ilham, məfkurə mənbəyi kimi öyrənmişlər. Təkcə Süleyman Sani, Haqverdiyev, Talıblı, Simürğ kimi realist ədiblər yox, sovet dövründə yetişmiş, əlinə qələm almış yazıçılarımız da rus ədəbiyyatına dərin minnətdarlıqla rəğbət bəsləmiş, bununla fəxr etmişlər. Səməd Vurğunun, C.Cabbarlının, M.Hüseynin, Nəzərlinin, Çəmənzəminlinin və başqalarının bu barədə etirafları hamıya məlumdur.

Rus sovet ədəbiyyatı həmişə bütün qardaş xalqlar üçün yaxşı müəllim nümunəsi olmuşdur. Maksim Qorki sovet yazıçılarının böyük müəllimidir. Mayakovski, Fadeyev və Şoloxovun elə mühüm əsərləri yoxdur ki, dilimizə tərcümə olunmasın, geniş yayılmasın. Sovet ədəbiyyatının ilk və orta nəsli bu əsərlərdən, rus sovet ədəbiyyatı nümunələrindən qidalanıb böyümüşlər. Bizim sənətkarlıq dərsliklərimiz "Ana" romanı, "Fırtına quşu", "Yüz əlli milyon", "Tarmar", "Polad necə bərkidi", "Gənc qvardiya", "Sakit Don" əsərləri olmuşdur. Bu əsərlərin bəzilərini biz fəsil-fəsil öyrənmişik.

Qorkinin məşhur sözü yadıma düşür: "Mənim yaratdıqlarımda yaxşı nə varsa, kitaba borcluyam". Bu sözü o yan-bu yan eləyib bizim sənətkarlarımızın dilindən də demək olar: müasir əsərlərimizdə yaxşı nə varsa, böyük rus sənətkarlarına borcluyuq.

Mənim ilk hekayə və romanlarımın şöhrəti qardaş rus ədiblərinin – V.A.Vasilevskinin, Y.Lebedinskinin, P.Slyotovun və başqa yoldaşların tərcüməsi sayəsində olmuşdur. Məlum olduğu kimi, Azərbaycan şair və ədiblərinin – S.Vurğun, S.Rüstəm, R.Rza, M.Huseyn, M.İbrahimov, Ordubadi, S.Rəhimov, Ə.Əbülhəsən və başqalarının əsərləri yalnız Sovet İttifaqında deyil, xarici ölkələrdədə yayılıb şöhrət qazanmışdır. Bu, ancaq rus dilinin, qardaş rus şair və ədiblərinin köməyi ilə olmuşdur.

Tərcümə prosesində qələm yoldaşlarımızla sıx əməkdaşlıq bizə çox şey vermişdir. Tərcüməçilər bizim əsərləri rus dilinə çevirərkən hər fəslə, səhifəyə diqqətlə yanaşmış, faydalı qeydlərini əsirgəməmişlər. Onlar bizim əsərləri öz qələm yoldaşlarının, sovet ədəbiyyatının nailiyyətlərinin məhsulu kimi qəbul etmiş və onlar üzərində işləməkdən zövq almışlar. Fərəhlənmişik. Ədəbi əlaqələrin bu yeni forması ancaq inqilabımızın, qardaşlıq ittifaqımızın nəticəsində mümkün olmuşdur. Biz bütün ədəbi inkişaf prosesində həmişə bu qardaşlığa əsaslanmışıq və bununla fəxr edirik. S.Vurğun şeiri Moskvada, Kiyevdə, Minskdə, Daşkənddə səsləndiyi kimi, Mayakovski, A.Surkov, Tvardovski, Simonov şeiri də Bakıda, məhəbbətlə səslənmişdir. Nizami yubileyi Moskvada, Leninqradda da eyni ilə Bakıdakı kimi təntənə ilə keçirilmişdir. Puşkinin, Qorkinin yubileyi Bakıda, Tbilisidə, Yerevanda, bütün qardaş respublikalarda, bütün qardaş xalqların ana dilində eyni qüvvətlə səslənmişdir. Sovet ədəbiyyatının yaradıcılarının hər biri kommunizm ideyalarını öz dilində, öz üslubunda tərənnüm edirlər. Bu ideyalar bütün bəşəriyyəti yeni həyata, ən yüksək cəmiyyət quruluşuna, parlaq gələcəyə çağırır və bu gələcəyin qələbəsindən xəbər verir.

*Bakı. 1972. №232. 02 sentyabr*





## 1973
## Şərəfli mübarizə yolu

Uşaqlıq və gənclik illəri insan həyatının ən şirin, unudulmaz dövrüdür. On dörd-on beş yaşında yeniyetmələr Gəncə müəllimlər seminariyasında, tənəffus saatlarında göy cilidli bir jurnalı əldən-ələ gəzdirirdilər. Bu, respublikamızda yenicə nəşrə başlayan ilk yeganə ədəbiyyat jurnalı – "Maarif və mədəniyyət" idi.

Biz bu təzə, maraqlı, məlumatla zəngin jurnalın səhifələrini axıra qədər diqqətlə oxuyar, biri-birimizə təqdimlə yeni bir şey kəşf etmiş kimi sevinərdik, Mirzə Cəlilin, Simürğün, S.Sani, C.Cabbarlı, S.Hüseynin hekayələri seminariya tələbələrinin əlindən, dilindən düşməzdi. İki-üç il sonra maarif naziri Ruhulla Axundov jurnalın redaktoru oldu, adını "İnqilab və mədəniyyət" elədi, məzmununu da xeyli gücləndirdi. Ədibləri, şairləri, alimləri, rəssamları jurnalda iştiraka cəlb etdi. Jurnal həm də nəfis bir şəkildə istedadlı rəssam Sədəddinin tərtibatı ilə nəşr olunur, çox geniş yayılırdı. Ədəbiyyat xadimlərindən Ə.Nazim, S.Mümtaz, H.Zeynallı, M.Quliyev, musiqi xadimlərindən Ü.Hacıbəyov, müəllimlərdən Camo Cəbrayılbəyli və başqaları öz yazıları ilə fəaliyyət göstərirdilər.

1923-cü il nömrələrində böyük şairimnz Mirzə Ələkbər Sabirin xatirəsinə həsr etdiyi səhifələri jurnal şairin öz əsərlərindən gətirdiyi misallarla başlayır:

*Derlər utan, heç kəsə bir söz demə.*
*Haqq sözü derkən utana bilmirəm...*
*Neyləməli, göz görür, ağlım kəsir,*
*Mən günəşi göydə dana bilmirəm...*

Sabir haqqında mülahizələrinin axırında jurnal belə bir həqiqət deyir: "Sabir bizim ən məşhur, ən böyük şairlərimizdən olduğu halda biz onu yaxşı öyrənməmişik və evi tanımamışıq".

Sonralar jurnal təkcə Sabiri deyil, bütün klassiklərimizi geniş xalq kütlələrinə tanıtmaq üçün əlindən gələni etdi.

Ədəbiyyat, mədəniyyət, maarif tariximizi diqqətlə izləyənlər yaxşı bilirlər ki, bu jurnal sovet dövründə bizim ən yaxşı salnaməmiz, inkişaf və tərəqqi tariximizin əsl güzgüsü olmuşdur.

Bütün qüdrətli qələm sahiblərimiz, bütün müasir ədəbiyyat, sənət məsələləri, müzakirələrimiz bu şərəfli jurnalın geniş səhifələrində bu və ya başqa dərəcədə əks və ifadəsini tapmışdır. 1926-cı ildə Bakıda keçirilən Ümumnttifaq türkoloji qurultayının bir sıra görkəmli alim nümayəndələri "İnqilab və mədəniyyət" səhifələrində öz sözlərini demiş, ciddi müzakirələrdə iştirak etmişlər. Böyük müəllimimiz M.Qorkinin, V.Mayakovskinin, inqilabçı-şair Nazim Hikmətin, Seyid Hüseynin, C.Cabbarlının əsərləri jurnal səhifələrini zənginləşdirməklə, gəncləri yüksək ideyalı yaradıcılığa həvəsləndirirdi.

"Azərbaycan" jurnalı ədəbi inkişafımızın aynasıdır. Bütün mühüm əsərlərimiz ilk dəfə buradan yayılır, şöhrət tapır. İlk illərdə min, iki min oxucusu olan bu jurnal indi 66 minə yaxın tirajla çap olunur. Yaradıcılıq aləminin böyük mühüm problemləri burada işıqlandırılır.

Son iyirmi beş il ərzində yazdıqlarımın, demək olar, hamısı bu jurnal vasitəsilə yayılmışdır. Burada redaktor kimi çalışan Mehdi Hüseyn, M.Arif, M.İbrahimov, R.Rza, Əbülhəsən, Əhməd Cəmil və başqa yoldaşların faydalı və səmərəli əməyini heç vaxt unutmaq olmaz. Jurnala gələn əlyazmasının nəşr mərhələsi mərtəbəsinə çatmağı böyük kollektiv əməyin, fikir mübadiləsinin, müəllifə həqiqi yoldaşlıq köməyinin nəticəsində olur.

Hörmətli jurnalımızın yarım əsrlik həyat və inkişaf yolunu biz iftixarla qeyd edir, ona ikinci yarım əsrlikdə daha böyük qələbələr arzu edirik.

Qoy "Azərbaycan" jurnalı sevimli, şöhrətli sovet respublikamızın parlaq bədii salnaməsi kimi daha geniş yayılsın.

*Azərbaycan. 1973. 3 mart*





## Qaynar həyat və iti qələm

Ədəbiyyat, mətbuat aləmində müasirlikdən, sənətkarlarımızın yaradıcılığında doqquzuncu beşilliyin vəzifələrindən söhbət gedir. Hamı bu fikirdədir ki, qələm, fırça, ümumən bədii təfəkkür, ecazkar hünərlə xariqələr göstərən əmək qəhrəmanlarımızın kamil surətini yaratmaq işində lazımi sürət və vüsət göstərmir. Doğru deyirlər ki, zəmanəmiz sürət və keyfiyyət, hünər və səy zəmanəsidir. Kommunizm quruculuğunda yüksək nailiyyətlər qazanan, dünyanı heyrətə salan adamlar, haqlı olaraq şərəfli əməklərinin bədii təcəssümünü görmək istəyirlər.

Kimə məlum deyil ki, böyük vətənimizin hər yerində çox nəhəng işlər görülür. Hər guşədən qurmaq, yaratmaq sədası gəlir.

*Quşqonmaz yerlərə*
*yollar çəkilir.*
*Tikanlı çöllərdə güllər əkilir...*

Kimə məlum deyil ki, dünənə qədər kiçik, görünməz məskən olan Sumqayıt, Daşkəsən, Mingəçevir indi sovet adamının əməyi ilə şöhrətli, əzəmətli sənaye şəhərlərinə çevrilmişlər. Kimə məlum deyil ki, köhnə kəndin nə özündən, nə də kədərli həyat və məişətindən, zavallı mənzərəsindən əsər qalmamışdır.

Qaynar həyat mənzərələri, müasir insanın qoca kainata cəsur müdaxiləsi hamını heyrətə salır. Əlbəttə, bu təsadüfi deyildir. Yeni insan, sosialist inqilabın yetişdirdiyi insan düşdüyü şəraitin əsiri olan, "buyruq gözləyən" insan deyildir. O, köhnə dünyanın bütün zəncir və buxovlarından qurtulmuşdur. Qəlbi həvəs və hünərlərlə dolu insan – yeni dünya quran bir insandır. Onun amalı, idealları da hünəri kimi böyük, yeni və fərəhlidir.

Hər gün fabrik, zavodlardan, tarlalardan, laboratoriyalardan gələn, mətbuat səhifələrində işıqlandırılan xəbərlərdən bunu görürük. Ədəbiyyat və sənət adamlarının ilhamına qida verən bu mənzərələrin bədii inikasını diqqətli, tələbkar oxucu gözləyir.

Əllinci illərin əvvəllərində Sumqayıt metallurgiya şəhəri kimi şöhrətlənməkdə, böyüməkdə idi. Respublikanın rayon və kəndlərindən, qonşu respublikalardan dəstə-dəstə cavanlar axışıb gəlməkdə idilər. Sumqayıtda faydalı iş ilə yaxşı ixtisas qazanmaq, daimi peşə sahibi olmaq üçün geniş imkan var idi. Buraya gələn fəhlələr böyük sənaye ocağına düşür, kollektivdə böyüyür, axşam məktəblərində oxuyur, başqa cavanlarla dostlaşır, ünsiyyət bağlayırdılar. Cavan fəhlələr çətinlik çəkmədən, az bir müddətdə bənna, armaturçu, malakeş, dülgər, işıqçəkən, sürücü və sair peşələrə yiyələnir, evlənib ailə qururdular...

Həmin illərdə doğma Xəzərin sahilində yaranan bu fərəhli mənzərə mənim diqqətimi cəlb etmişdi. Sumqayıt mənzərələrini, yeni şəhərin inkişafını, burada boy atan cavanların həyat və taleyini qələmə almaq istəmişdim. Həmin şəhərdəki müşahidə, axtarışların nəticəsi olaraq "Təzə şəhər" romanı yarandı və nəşr olundu.

Sumqayıt indi izdihamlı bir şəhərə, Bakı ilə yarışan, Zaqafqaziyanın, Sovet İttifaqının böyük sənaye mərkəzləri ilə çiyin-çiyinə gedən, dünyanın bir çox ölkələrində sənaye məhsulu verən bir nəhəngə çevrilmişdir.

Belə bir sovet sənaye şəhərinin, onun sürətli inkişaf yolunun, hünərli qurucularının bədii ədəbiyyatda kamil inikasına ehtiyac, əlbəttə ki, duyulmaya bilməz. Bu mövzuda yazılmış ilk romanın səhifələrini yenidən nəzərdən keçirəndə, bu şəhərin tərəqqisi ilə müqayisə edəndə görürəm ki, Sumqayıt haqqında yeni bədii sözə ehtiyac böyükdür. Bir bu şəhər deyil, başqa cavan sosialist şəhərlərimizin hamısında ədəbiyyat, sənət adamlarımıza ilhamlı iş çoxdur.

Bu təzə şəhər mənzərələrinin təsvirində adam yalnız əlindəki əsərə yox, ümumən bədii sənətə gərək olan vərdişləri, yeni həyat cizgilərini öyrənir, hesaba alır. Aşkar görürsən ki, dünən ana qucağından, məktəb partasından ayrılıb çoşqun həvəslə istehsalata gələn cavanlar, vaxtı ilə sənin keçirdiyin cavanlıq həyatını keçirən cavanlar deyildilər. Bunların baxışları, düşüncələri, təsəvvürləri, tələb-istəkləri, bir-biri ilə münasibətləri tamam başqadır. Bu cavanların çoxunda ictimai tərbiyə, təşkilat, məktəb, cəmiyyət tə-





biyəsi güclü və üstündür. Bu isə bədii təsvirdə gənc adamların xasiyyətnaməsinin, səciyyəsinin müyyənləşməsində hesaba alınmaya bilməz.

Ona görə güman edirəm ki, hansı mövzudan, hansı həyatdan yazırsan yaz, insanşünaslıq baxımından müasirləri öyrənmək zəruridir.

XXIV qurultay qərarlarının, doqquzuncu beşilliyinin üçüncü həlledici ili vəzifələrnin müvəffəqyyətlə həyata keçirilməsində ədib və şairlərimizin qələm mübarizlərinin yaradıcı işi mühüm və şərəflidir. Kommunizm quran fəhlə və kolxozçularımızın qəlbini alovlandıran yeni mənəvi məhsul, məhz ədəbiyyat sənət adamlarının əli ilə yaradılır. Bunun üçün xalq həyatının gur yerinə, fəhlə, kolxozçu kollektivlərinə, qaynar əmək ocaqlarına tez-tez getmək, yaradıcı əmək möcüzələri ilə ilhamlanmaq gərəkdir. Bu, hər birimizə və hamımıza lazımdır.

*Ədəbiyyat və incəsənət. 1973. 7 aprel*

## 1975
## Xeyirxah arzular

Görkəmli sovet ədibi, bir sıra gözəl əsərlərin müəllifi Vitali Sergeyeviç Vasilevski Azərbaycan ədəbiyyatı və mədəniyyətini qəlbən sevənlərdən, onun inkişafını diqqətlə izləyənlərdən biridir.

Ədib və şairlərimizin Moskvada nəşr olunmuş əsərlərindən eləsi yoxdur ki, Vasilevskinin diqqət və qayğısından kənarda qalsın. O, həmişə bizim əsərlərimizin taleyi, tərcüməsi, təbliği ilə yaxından maraqlanır, bu işdə köməyini əsirgəmir. Böyük Sabir haqqında yazılmış bir romanın tərcüməsini müvəffəqiyyətlə başa vurandan sonra, səmimi, xeyirxah bir arzu ilə mənə yanaşıb dedi:

– Mirzə Cəlilin həyatı və yaradıcılığını dərindən, yüksək bədii səciyyə, təmkin ilə işıqlandıran bir romanı sizdən gözləməyə haqlıyıq. Bu arzunu həqiqətə çevirmək üçün Sizin imkanınız vardır.

Mən görürdüm ki, müsahibimin arzusu sadə və ötəri hiss deyil, ədəbiyyat tariximizi, xüsusən, onun indiki mərhələsini maraq-

la izləyən, öyrənən və bilən əsl xeyirxah bir dostun ürək sözüdür.

V.Vasilevskinin Moskvada Azərbaycan ədəbiyyatı şurasına rəhbərlik etməsi təsadüfi deyildir. Biz dəfələrlə Vitali Sergeyeviçin dostluq məsləhətlərindən bəhrələnmişik. Onun şəxsən həvəslə tərcümə etdiyi roman və hekayələr, nəşrini məsləhət bildiyi və faydalı saydığı əsərlər oxuculara məlumdur. O, həmin əsərləri yalnız bir müəllifin müvəffəqiyyəti kimi yox, ümumən sovet ədəbiyyatının müasir tələbləri mövqeyindən qiymətləndirməyi bacarır. Onun bədii əsərlərə qiyməti və münasibəti məhz müasir həyatımızın, qabaqcıl oxucularımızın tələbləri ilə səsləşir.

Vitali Sergeyeviçi respublikamızda Bakı, Sumqayıt, Kirovabad, Naxçıvan, Stepanakert zəhmətkeşlərinin şeir-sənət məclislərində görəndə, biz sevinirik, onun ədəbi əsərlərə münasibətində, çıxış və məsləhətlərində müasir sovet adamının kommunizm qurucularının xeyirxah, haqlı səmimi tələblərini duyuruq.

*Ədəbiyyat və incəsənət. 1975. 1 oktyabr*

## 1976
## Bir elçi kimi
*(xatirə-hekayə)*

Otuzuncu illərin ortalarında yazıçı briqadaları Gəncəyə, onun ətraf rayonlarına tez-tez gedirdi. Orada mahud, çit, yağ, sabun istehsalı müəssisələrində işləyən fəhlələrin sürətlə çoxalması, şəhərin respublikada ikinci sənaye mərkəzi kimi şöhrət tapması, fəhlə sinfinin milli tərkibinin mürəkkəbliyi, beynəlmiləl tərbiyə işinin güclənməsi, cavanların sosializm quruluşuna sürətlə və vüsətlə cəlb olunması, ziyalılar arasında aparılan mədəni-siyasi işin həm şəkil, həm məzmunca dərinləşməsi bu gözəl şəhərin cazibəsini gündən-günə artırırdı.

Səməd Vurğunun, Əhməd Cəmilin, Zeynal Xəlilin, Cəfər Xəndanın, Nigar Rəfibəylinin ilk şeirləri bu şəhərin qəzet və jurnallarında, almanaxlarında çap olunur, yayılırdı. Bundan başqa, Kirovabadda həm də geniş maarif, məktəb şəbəkəsi, güclü müəllim ordusu, kamil darülmüəllim, sənaye-zirayət texnikumu və kənd təsərrüfatı institutu, suvarma institutu kimi təhsil ocaqları fəaliyyət göstərirdi.





Növbəti səfərlərimizdən birində gənc şair Ələkbər Ziyatay bizimlə rastlaşdı və vacib bir xahiş üçün yanaşdı, utana-utana dedi:

– Sevgilimin valideyni yanına elçiliyə getməyinizi xahiş edirəm. Mənə böyük xeyirxahlıq etmiş olarsınız.

Səməd Vurğun bu cavanın xahişinə tərəfdar idi, mən də razı oldum.

Sentyabrın ortaları idi. Ələkbər fürsəti itirmədi. Həmin gün bizə bələdçilik elədi. 28 Aprel küçəsinin başında dar bir döngədə balaca, səliqəli həyətə daxil olduq.

Bu gözəl şəhəri tanıyanlar, məziyyətlərinə bələd olanlar yaxşı bilirlər ki, burada səliqəli həyətlər və həyətdə münasib meyvə ağacları – tut, meynə, əncir, zoğal, armud yaxşı bitir. Küçələrdən axar su keçir, yay günləri həyət səfalı kurort guşəsi kimi sakit, maraqlı olur.

Quşların cəhcəhi, suyun həzin şırıltısı, arıların fəzanı ölçən avazı, tar-kaman səsi mühitin sükutuna xoş bir məziyyət gətirir. Elçi getdiyimiz həyət balaca, sakit və sərin idi. Ev sahibi bizi hörmətlə qəbul elədi, otağa apardı. Əyləşdik. Çay, mürəbbə gətirdilər.

Gəncə xanımları adətən, çayı mürəbbəsiz gətirmirlər. Özlərinin həyət, bağ məhsullarından səliqə ilə bişirdikləri zoğal, əncir, üzüm, ərik mürəbbələrini qonağa təqdim etməkdən xususi zövq alırlar.

Səməd Vurğun adəti üzrə, çay içmədən ürəkaçıqlığı ilə, müqəddiməsiz sözə başladı:

– Ay xala, bilirsiniz nəyə gəlmişik?

Səməd Vurğunun gözlənilməyən sualına ev sahibi bir az da vahimə ilə cavab verdi:

– Xeyr, bilmirəm, nəyə gəlmisiniz, xoş gəlmisiniz!

– Xala, biz sənin... o gözəl qızına elçiliyə gəlmişik.

Qadın dinmədi, başını aşağı saldı, Səmədin sözünü sükutla dinləmyə başladı.

– Xala, bilmirəm məni tanıyırsınız, ya yox?
– Xeyr, tanımıram, oğul!
– Tanımırsan tanıyarsan, heç bu radiolara qulaq asırsanmı? Səməd şkaf üstündə qoşulmuş reproduktoru göstərdi:
– Bunlara qulaq asırsanmı?
– Bəli, hər axşam-səhər bikar vaxtımda həvəslə eşidirəm.
– Oradakı diktorlar bir şairin adını çəkirlər ey... Səməd Vurğun, o mənəm!.. Mən yoldaşlarımla sizin evi tanımasam da, ərk eləyib vacib iş üçün xahişə gəlmişəm.
– Xoş gəlmisiniz, oğul!
– Biz cavanlar Gəncədə oxuyub, boya-başa çatmışıq. Gəncəyə də, camaatına da yaxşı bələdik. Amma siz gəncəlilər çox zaman bizi tanımırsınız, saya salmırsınız.
– Yox, elə demə, oğul!
– Qulaq as gör nə deyirəm, xala! Mən şair Səməd Vurğun sizdən qız istədim, arxa çevirdiniz, vermədiniz. Bu yoldaşım Mir Cəlal qız istədi, vermədiniz, Həmid Araslı, Cəfər Xəndan, Əhməd Cəmil istədi, vermədiniz. Vermədiniz, amma biz ayrı şəhərlərdən evləndik. İndi də peşman olmusunuz. Düşünürsünüz ki, Səməd Vurğuna qız vermədik, nə qəbahət oldu. Əlbət ki, qəbahət olar. Səməd Vurğuna qızmı əskik idi, siz kənarda qaldınız, Vurğun isə evləndi.

Ay xala, keçən-keçdi, indi daha o yolu tutmayın. Bizim cavanlar arasında şair, ədib çox deyil, beş-üç nəfər var. Onların əsərlərini bütün ölkə, camaat oxuyur. Onların xahişinə göz yummayın.

Bax, cavan şairimiz Ələkbər Ziyatay sizin qıza vurulub, bənd olub, bizi də sizin evə iltimasa gətirib. Gəlin "mübarək olsun" deyək, bu iki cavanın mətləbini verək. Xala, bu, allaha da xoş gedər, hökumətimizə də, bəndəyə də! Oğlan da, qız da, şükür, oxumuş, ağıllı balalardır. Onların toyunda bu yoldaşlarım ilə birlikdə oynamaq da mənim borcum. Sözüm budur, xala, nə deyirsiniz? Qol qoyursunuzmu?

Səmədin sözlərinə qız anası da, məclisdəkilər də diqqətlə qulaq asırdılar, şair sözünün axırında ananı bərkə qısnamışdı:

– Bizim sözümuz sözdür, ay xala, bir "hə" deyin gedək, gözü yolda qalan, ürəyi döyünən Ələkbəri də sevindirək! Şair oğlandır, gözü yolda, ürəyi çırpıntıdadır.

Qadın yaşmağını dodaqlarından çəkib başını aşağı saldı, mərifətlə cavab verdi:

– Hörmətli şairimizin sözunü biz heç vaxt yerə salmarıq, sala bilmərik, ay tövbə! Ancaq, a qadanızı alım, qızın böyük qardaşı var, başının ağası da odur, onsuz mən bir iş görə bilmərəm. Oğlan dağdadır, bir həftəyə qayıdasıdır. Gələr, allah qoysa, sizin xahişinizi ona yetirərəm, cavabını da sizə deyərəm... Savadlı, başa düşən oğlandır, sizin hamınızı tanıyır, hamınıza da hörməti var, nigaran olmayın, xahişinizin cavabını alan kimi sizə çatdıraram. Hacı bu gün-sabah buradadır! Gələcək!

Səmədin səsi eşidildi:

– Xala, allah oğlunuzu saxlasın, onun xatiri də bizim uçün əzizdir. Ancaq sən anasan, həm qızın anası, həm də bizim hamımızın anamızsan, sən bu xeyir işə qol qoysan, daha o tərəfdən nigaran olmarıq!
– Nigaran olmayın, yox!
– Sənin qol qoymağın vacibdir.
– Mən qol qoyuram, oğul, mənim ayrı sözüm olmaz!
– Çox sağ ol, xala, harada qolun var, orada başın var. Biz sənə arxayınıq. Ələkbəri də tez muştuluqlamaq bizim borcumuz!
– Çox sağ olun, dostluqdan əskik olmayın!
– Biz indi təkcə dost yox, şairlər, şeir aləmilə qohum oluruq, xala!
– Sizin aləm var olsun.
– Birliyimiz var olsun, xala. Hamımız xalqın balasıyıq!
– Var olun!
– Mübarək olsun.
– Çox mübarək olsun!..
– Bir həftə sonra bizi gözləyin!
– Xoş gəlirsiniz. Qapımız sizə həmişə açıqdır.

– Sağ olun!
– Bu qapıya biz daha öz doğma evimiz kimi gələcəyik.
– Xoş gəlirsiniz, oğul!

Bir həftə sonra qızın qardaşı da gəldi, elçilik baş tutdu, gənc şair Ələkbər sinə dolusu sevinclə xoşbəxt bir ailə qurdu.

İndi onun gül kimi balaları var, hərəsi bir sənət sahibidir.

*Bakı. 1976. №66. 20 mart*

## Böyük dost haqqında kiçik qeydlər

Səməd Vurğun haqqında xatirə yazmaq onunla yaxın, yaşıd, həmkar yoldaşlar üçün həm asan, həm də çətindir.

Asandır ona görə ki, otuz beş il ərzində mədəniyyət və ədəbiyyat cəbhəsində birgə çalışmışıq, birgə səy etmişik, gənclik sevincləri ilə addımlamışıq. Çətindir ona görə ki, böyük şairin hadisələr, adamlar, faktlar haqqındakı mülahizələrini təxmini yox, dürüst göstərmək lazımdır.

Mən Səməd Vurğunu 1923-1927-ci illərdə Gəncə müəllimlər seminariyasında oxuduğum illərdən tanıyıram. O zaman Gəncədə Sovet hakimiyyətinin qayğı və diqqəti sayəsində sənaye, maarif, mədəniyyət ocaqlarının sayı gündən-günə artırdı. Şəhər respublikanın, ümumən sovet ölkəsinin inkişaf sürətini yaxşı əks etdirirdi. Yağ-sabun zavodu, mahud fabrikası, vağzal ilə şəhər arasında çəkilən dəmir yolu, həmin yol boyu sıralanan fəhlə evləri, izdihamlı, işgüzar fəhlə yığıncaqları yeni həyatın qələbəsini əks etdirirdi.

Dəmir körpünün yanındakı maarif evinin binasında vaxtaşırı ictimai-mədəni yığıncaqlar keçirilirdi. Gəncə partiya işində fəal çalışan partiya işçilərindən Məmməd Cuvarlı, N.Əlisgəndərov, İ.Mirzəyev, Məcid Məmmədov və b. köməyi ilə biz tələbə gənclər də bu tədbirlərdə iştirak edirdik.

Belə məclislərdən biri Bakıdan gəlmiş proletar şairlərilə görüşə həsr olunmuşdu. Qonaq şairlər, o cümlədən Ə.Fövzi öz şeirlərini oxuyurdu. Boz şinelli, qarayanız, qıvrımsaç bir oğlan tribunaya çıxdı, pafosla danışmağa başladı.





– A yoldaşlar, bayaq burada Əbdülbaqi Fövzi yoldaş şeir oxudu. Siz də onu alqışladınız:

*“Komsomol qız, məni gəl dinlə bir az,*
*Komsomol qız, sənin olsun da al yaz”.* –

– A yoldaşlar, bu, şeir deyil, açıq məktubdur. Bunu alqışlamaq yeni şeirə hörmətsizlikdir axı.

Natiqin kəsərli, təsirli sözləri əyləşənlərin diqqətini toplayırdı. Sıralardan ümumi pıçıltı keçdi, adamlar biri-birindən soruşmağa başladılar.

– Bu oğlan kimdir?
– Bu harada oxuyur?
– Bu harada dərs verir?

Məlum oldu ki, tribunada həyəcanla danışan, şeir adına böhtan olan çızmaqaraları kəskin tənqid edən Səməd Vurğundur.

O vaxtlar Gəncədə nəşr olunan “Qızıl Gəncə” jurnalında şairin ilk şeirləri nəşr olundu. S.Vurğun öz çıxışları, şeirləri, mədəni həyatda fəal iştirakı ilə Qızıl qələmlər cəmiyyəti Gəncə şöbəsini xeyli canlandırırdı. Fəhlə yığıncaqlarında böyük şairin ilk çıxışları xüsusi hörmət və diqqətlə qarşılanırdı.

Mən Vurğunun müstəsna istedadını yaxşı duydum və bütün ədəbi mülahizələrimdə göstərirdim. Onun haqqında ilk məqaləni də mən yazmışam. (1932, “Hücum” jurnalı).

Məşhur “Vaqif” draması haqqında ilk resenziyanı da (1938, “Gənc işçi”), monoqrafik ruhda “Xalq şairi” kitabını da mən yazmışam (1956). Kitab çıxmaq üzrə idi ki, mərhum M.Arifin, M.C.Cəfərovun məqalələri də əlavə olundu.

Böyük şairin şeirə, ədəbiyyata məhəbbəti tükənməz idi. Məhz buna görə də xalturaçıları görən gözü yox idi.

Səməd Vurğun böyük şair kimi yüksəlsə də, tezliklə onun çoxcəhətli istedadı ictimai-elmi fəaliyyətində də üzə çıxdı.

O, Respublika Elmlər Akademiyasına prezident müavini təyin olunanda mən ədəbiyyat institutunda şöbə müdiri idim. Bizim

ədəbiyyat klassiklərimizin tərcüməsi, təbliği, çoxcildli ədəbiyyat tarixinin yaradılması onu çox düşündürürdü. Müşavirələrdə katibi gözləmədən qələmi əlinə alır, fikirlərini qeyd edirdi.

Cavan ədəbiyyatşünaslara tez-tez deyərdi:

– Bizim böyük ədəbiyyat, böyük poeziyamız haqqında cəsarətlə, ağız dolusu danışmaq lazımdır. Dodaq büzmək, dilucu danışmaq, yazmaq bizə gərək deyil. Şerin səviyyəsindən aşağı duran təhlil kimə lazımdır. Əsl alim şairin məfkurə həmkarıdır.

Böyük şair qələm yoldaşlarına əlindən gələn köməyi əsirgəmirdi. Cavan yazıçıların əsərlərini ruscaya və başqa qardaş xalqların dillərinə tərcümə işini ədəbiyyat işçilərindən təkidlə tələb edirdi. Cavanların əsərlərini tərcüməyə təqdim edəndə, bəziləri tezdir – deyir, bəhanə gətirirdilər.

Yazıçılar İttifaqı Rəyasət Heyəti iclaslarından birində Vurğunun dediyi sözlər xatırımdadır.

"Keçmişdə ədəbiyyatımızın tərcüməsi işinə soyuq baxanlar səhv ediblər. Onların bu tarixi günahını islah etməliyik. Ləyaqətli əsər heç nəyə baxmadan tərcümə və nəşr edilməlidir".

Səməd Vurğun yaradıcılıq işlərində olduğu kimi təşkilat məsələlərində də qələm yoldaşlarına yaxın köməkçi idi.

Böyük şairin oxucularla görüşlərində çox zaman mən də iştirak edirdim. Neft rayonlarından birində komsomolçular ilə onun görüşü təşkil edilmişdi. Mədəniyyət evinin müdiri Vurğuna söz verəndə onu gənc şair adlandırdı. Səməd etirazını gizlətmədi: "Sizlərdə neçə yaşacan gənc hesab olunur?".

Yadımdadır, bir dəfə Gəncənin "28 Aprel" küçəsində şair Ələkbər Ziyatayla rastlaşdıq.
Sizə dedi, mənim işim düşüb, bir xahiş eləmək istəyirəm. Səməd ona cürət verdi:

– Sözünü de.

– Sözüm odur ki, üzlülük olsa da, Sizi elçi göndərmək istəyirəm.

Səməd ürəkdən güldü.

Belə şirin sözü deməyə utancaqlıq lazım deyil. Mübarək olsun.





Mən də sözə qarışdım:

– Qızın evi hardadır?

– Bu yaxında, küçənin başında.

– Havaxt getməliyik?

– Havaxt kefiniz istəsə.

Səməd özünəməxsus qətiyyətlə:

– Lap bu gün.

Ələkbər vaxt itirmədən bizim qabağımıza düşdü. Səliqəli bir həyətə daxil olduq. Bu gözəl şəhəri yaxşı tanıyanlar, bələd olanlar bilirlər ki, burada şərq üslubunda səliqəli həyətlər, bu həyətlərdə meyvə ağacları – tut, üzüm, əncir, zoğal, armud, ərik yaxşı yetişir. Küçələrdən dum-duru axar su keçir. Yay günləri həyət yaşıl, səfalı yaylaq guşəsi kimi sakit, cazibəli olur. Quşların cəh-cəhi, suyun həzin ahəngi, tar, kaman, mahnı səsi həyətin sərin sükutuna xoş bir məziyyət gətirir.

Həyət balaca, kölgəli, sakit və sərin idi. Ev sahibi bizi hörmətlə qəbul elədi. Otağa aparıb əyləşdirdi. Çay-mürəbbə gətirdilər.

Səməd Vurğun müqəddiməsiz sözə başladı:

– Ay xala, bilirsiniz, nəyə gəlmişik?

Səməd Vurğunun ailəyə tanış, məhrəm adamlar kimi verdiyi – suala ev sahibi də bir az vahimə ilə cavab verdi:

– Xeyir, bilmirəm nəyə gəlibsinizsə, xoş gəlibsiniz.

Ev sahibinin bu nəzakətli cavabı bir az da Səmədi ürəkləndirdi. Şair təmkin və aram ilə dedi:

– Xala, biz, sizin o gözəl qızınıza elçiliyə gəlmişik.

Qadın dinmədi, başını aşağı saldı. Səmədin sözünü sükutla dinləməyə başladı.

– Xala, bizi tanıyırsınızmı?

– Xeyir, tanımıram, oğul.

– Tanımırsınız, tanıyarsınız. Heç bu radiolara qulaq asırsınızmı?

Səməd şkafın üstündə qoyulmuş reproduktoru göstərdi:

– Bunlara hərdən qulaq asırsınızmı?

– Bəli, macal olanda, axşam-səhər eşidirəm.

– Orada ki, diktorlar bir şairin adını çəkirlər, Səməd Vurğun deyirlər, bax o mənəm.

Vurğun üzünü mənə çevirib ev sahibinə təqdim etdi.

– Bu da mənim qələm yoldaşım ədib Mir Cəlaldır. Tanımasaq da ərk eləyib sizin evə vacib iş üçün gəlmişik.

Qadın bir az razılıq edib, "xoş gəlmisiniz" dedi. Şairi diqqətlə dinləyirdi. Səməd müsahibinin nəzakətindən istifadə eləyib, ürəyindəkiləri deməyə başladı:

– Biz bu Gəncədə oxuyub boya-başa çatmışıq. Gəncəyə də, camaatına da yaxşı bələdik. Burada çoxlu dost-yoldaşımız var. Amma siz gəncəlilər çox zaman bizi tanımırsınız. Bizə yad kimi baxırsınız. Ona görə sizdən gileyliyik.

– Yox oğul, elə deməyin bizə!

Böyük şair ev sahibinin qəlbini tərpətdiyinə, mətləb üstünə gətirdiyinə sevindi və sözünü daha da konkretləşdirdi:

– Xala, – dedi, – qulaq as. Mən sizə açığını deyəcəyəm. Mən – şair S.Vurğun siz gəncəlilərdən qız istədim, vermədiniz. Bax, bu Mir Cəlal qız istədi, vermədiniz. Həmid Araslı, Əhməd Cəmil, Cəfər Xəndan elçi saldı – qız vermədiniz. Biz də ayrı şəhərlərdən evləndik. Keçənə güzəşt deyərlər. İndi daha o yolu tutmayın. Cavanlar arasında şair, ədib çox deyil, onların əsərlərini bütün ölkə oxuyur. Siz Gəncə xanımları onların xahişini yerə salmayın. Bax, cavan şairimiz Ələkbər Ziyatay gözəl, zirək oğlandır. Şeirlərini də oxuyarsınız. Sizin qıza bənd olub, bizdən də xahiş edib sizin evə elçi göndərib. Gəlin bir ağızdan mübarək olsun deyək, bu iki cavanın xeyir-duasını verək. Xala, belə xeyirxah iş allaha da, bəndəyə də xoş gedər. Oğlan da, qız da oxumuş ağıllı-kamallı balalardır. Onların qurduğu ailə təzə xoşbəxt sovet ailəsi olacaqdır. Gəlin hamımız bu xeyir işə mübarək olsun deyək. Uşaqların toy günündə yoldaşlarım ilə qol-qanad açıb oynamaq da mən Səməd Vurğunun boynuna.

Qadın yaşmağı dodaqlarından çəkib, başını aşağı saldı. Hörmətlə cavab verdi:

– A qadanızı alım, biz də yerdən göyərməmişik, qızın böyük qardaşı var, başının ağası da odur. Onsuz biz bir iş görə bilmərik. İki aydır dağdadır. On günə qayıdasıdır. Gələr, allah qoysa, sizin xahişinizi ona bildirərik. Cavabını da sizə verərik.





Bizim Hacı savadlıdır, oxumuşları tanıyır, hörməti var, nigaran olmayın. Xahişin cavabını alan kimi sizə çatdıraram.

Səmədin səsi eşidildi:

Xala, oğlunuz var olsun. Onun xatiri bizim üçün də əzizdir. Ancaq sən anasan, həm qızın, həm də bizim anamızsan. Sən bu xeyir işə qol qoysan daha o tərəfdən niyaran olmarıq.

– Niyaran olmayın.

– Sənin qolun vacibdir.

– Mən qol qoyuram, oğlum.

– Çox sağ ol, xala. Biz sənə arxayınıq, gedək, Ələkbəri muştuluqlayaq. Biz indi təkcə dost yox, şairlər, şeir aləmi ilə qohum oluruq, xala, yaxın qohum.

– Bəli, qohum.

– Var olsun, səmimi dostluq və qohumluq.

*S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti.*
*Elmi Əsərlər: Dil və Ədəbiyyat. 1976. №5*

## 1977
## Əsərlərində yaşayacaq

Onun hədiyyə etdiyi son kitabı – "Seçilmiş əsərləri" qarşımdadır. Mən kitabı vərəqlədikcə səhifələr, sətirlər nəzərimdə şimşək kimi bərq vurur. Nəzərim məlum, məşhur şeirində dayandı:

*"Can, nənə, bir nağıl de!"*

Həcmcə kiçik, mahiyyət, məzmunca böyük olan, doğma vətəni tərənnüm, təmsil edən bu əsəri mən çox oxumuşam, çox təhlil etmişəm. Nənənin də, nəvənin də, şairin də doğma səsini

eşitmişəm. Dönə-dönə eşitmişəm. Ancaq bu dəfə həmin misraları göz yaşı ilə oxumuşam! Nə üçün? Çünki bir az əvvəl xalqımızın böyük bir izdihamı Əhməd Cəmillə əbədi olaraq vidalaşdı, həyəcanla, kədərlə ondan ayrıldı. Bu müdhiş xəbər məni elə sarsıtmışdı ki, harda olduğumu, nə etdiyimi, nə deyib, nə danışdığımı bilmədim!

Ancaq onu bilməmiş deyiləm ki, böyük sənətə, insan idrakına, saf mənəviyyata, şeiriyyətə xidmət edən simalara ölüm yoxdur. Əhmədin qələmi, sənəti, varlığı saflıq, təmizlik, müqəddəslik timsalı idi. Onun ürəkdən qopan, ürəklərdə yer tapan yüksək sənətkar sözlərinin mənası, sədası, ahəngi, ehtizazı daim qəlbimizi tərpədir.

Əhməd bu gözəl, bu münəvvər dünyamızdan tez getdi. Müasir şeirimizin daimi nəğməkar bülbülü Əhməd Cəmilin həyat, həqiqət eşqi, şirin avazı bütün oxuculara çoxdan məlumdur. Bu həyat, bu gözəllik, gənclik nəğmələri onun zərif ürəyindən xəbər verirdi. Amansız ölüm şairi bizdən çox tez ayırdı.

Ancaq ən böyük təsəllimiz onun qoyub getdiyi gözəl əsərlər, mənalı, məzmunlu şeilərdir. Əhməd Cəmilin əllərdə gəzən kitablarında həmişə, hər zaman onun ürəyi döyünəcək və səslənəcəkdir. Şairin zəngin ədəbi irsi gənc nəslin, sovet oxucularının ən qiymətli sərvətidir.

*Ədəbiyyat və incəsənət. 1977. №90. 1 oktyabr*

**Yüksək idealların təcəssümü**

Oktyabr günəşi 60 il bundan əvvəl ölkəmizin böyüklü-kiçikli bütün xalqlarının taleyinə sönməz işıq saçdı. 60 ildir ki, dostluq və azadlıq qalası olan Vətənimiz tarixi Oktyabr bayramı günlərini qəhrəman xalqımızın hünər, qələbə raportları ilə qarşılayır.

Bu ilki Oktyabr bayramı xüsusilə əlamətdardır. Milyon-milyon sovet adamı yeni Konstitusiya layihəsinin müzakirəsində fəal





iştirak etdi. SSRİ ALİ Sovetinin bu günlərdə keçirilmiş sessiyasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi, SSRİ ALİ Soveti Rəyasət Heyətinin sədri, Konstitusiya komisiyasının sədri L.İ.Brejnev yoldaş demişdir: “Konstitusiya layihəsinin müzakirəsi bir daha göstərmişdir ki, sovet cəmiyyətinin Kommunist Partiyamız ətrafında sıx birləşmiş bütün siniflərinin və sosial qruplarının, bütün millətlərinin və xalqlarının, bütün nəsillərinin vəhdəti necə möhkəm və necə yaradıcı bir vəhdətdir”.

Yeni Konstitusiyanın inqilabi müdrikliklə, insana qayğı ilə dolu olan maddələrində ölkəmizin nəhəng addımlarla irəliləyişini bütün aydınlığı ilə görürük və ürəyimiz fərəhlə dolur. Ona görə ki, Konstitusiyada qanun şəklində təsdiqini tapan cahanşümul nailiyyətlərin qazanılmasında biz də öz qüvvə və bacarığımızı əsirgəməmişik. Yaxşı bilirik ki, xalq işində, dövlət işində iştirak eləmək üçün bütün imkanları bizə sosialist quruluşumuz, sosialist Konstitusiyamız verib. Burjua ölkələrində yaşayan yazıçılar belə bir səadətdən məhrumdurlar.

Xalqla, dövlətlə yazıçının yekdil birliyi ancaq bizim ölkəmizdə, bizim quruluşumuzda mümkündür. Bu birliyi də, birinci növbədə, Konstitusiyamız təmin edir: sənətə və sənətkara dövlət qayğısını qanun kimi irəli sürür, bədii sərvət yaradıcıları üçün hər cür şərait və imkan yaradır.

Sülh arzusu qabaqcıl sənətkarların ilhamla tərənnüm elədiyi ən böyük, ən işıqlı qayədir. Yeni Sovet Konstitusiyasında dövlətimizin sülhsevər xarici siyasətinin xüsusi qeyd olunması sənət və ədəbiyyat adamlarının da ürəyindən olmuşdur.

Əgər biz yada salsaq ki, burjua dövlətləri kapitalın mənafeyi tələb edəndə dünya müharibələri törədiblər, gözlərini də qırpmadan milyonlarla zəhmətkeşə silah verib qırğına getməyə məcbur ediblər və bunu qanun səviyyəsində təsbit ediblər, onda bizim yeni Konstitusiyamızda sülhsevər xarici siyasət haqda xüsusi bölmənin məna və hikməti daha aydın olar. Dövlətimizin sülh siyasəti bütün

dünyada əsl zəhmət adamlarına qayğıdan irəli gəlir, quruluşumuzun gerçək insanpərvərlik təcəssümu olduğunu təsdiq edir.

Yeni Konstitusiya qazandığımız müvəffəqiyyətlərin möhtəşəmliyini bir də gözumüz qarşısında canlandırır, ölkəmizin gözəl bu günündən, daha parlaq sabahından xəbər verir. Zəmanəmizin bu böyük, tarixi sənədi şeiryyətlə, poeziya ilə dolu ideallarımızın parlaq təcəssümudür.

*Ədəbiyyat və incəsənt. 1977. 8 oktyabr*





**Mündəricat**


Tərtibçidən ... 3
Daha bir manifest ... 6
Dinsizlər İttifakı nasıl çalışmalıdır ... 19
Məhərrəmlik mohumatı kimin əsəridir? ... 20
Gəncədə mühacir ipəktoxuyanlar (şərbaflar) ... 22
Gəncə ... 24
Maarif-mədəniyyət işləri və ticarətçilər ... 24
İran mühacirlərinin firqə təşkilatı ... 26
Gəncədə bəhai fəaliyyəti ... 27
Azərbaycanda İran mühacirləri ... 29
PİONER təşkilatının əvvəlcədən hazırlanmış operativ planı olmalı ... 31
Pioner, mədəni inklab uğrunda ... 32
Rekonstruksiya devrinin müəllimi ... 34
Şura müəllimi yeni vəzifələr karşısında ... 36
Qələbənin açarı ... 43
Məktəblərdə kommunizim tərbiyəsi ... 45
Mevhumat əleyhinə mübarizə, kommunizim tərbiyəsi uğrunda mübarəzədir ... 46
İnternasional tərbiyə uğrunda mübarəzəni kəskinləşdirməli ... 47
Marksizm-Leninizm teoryasını çok milyonlu komsomol kütlələrinə ... 48
Gənc okucuları təşkil edəlim! ... 52
Məktəblərmizdə ədəbiyyat dərsləri haqqında ... 57
Kolxozların təchizində plansızlıq ... 63
Gənc işçi okucuları təşkil edəlim! ... 64
Yeni qələbələr nümayışı ... 70

Lenin bayrağı altında ............ 74
Sözlər ............ 78
Aprel inqlabının 14 illiyi və mədəni inqlab vəzifələrimiz ............ 82
Cabarlı ölməyəcək ............ 90
Qüdrət nümayişi ............ 90
Tarixi bir gün ............ 94
Yazıçılarımız qəzetmiz haqqında ............ 95
Mənim parlamentim ............ 96
Bloknot qeydləri ............ 100
Bədii ədəbiyyat nəşrini tələblərimiz səviyyəsinə ............ 105
Vətən oğlu. *Əmək cəbhəsi qəhrəmanlarından* ............ 107
Xalqın ürək sözü ............ 110
Ölümdən betər ............ 115
Faşizmə qarşı alovlu döyüşçülər ............ 119
Qafqaza məktub ............ 128
Həzi Aslanovun parlaq xatirəsi əbədi yaşayacaqdır.
*Böyük vətəndaş* ............ 132
Hitlerizmə ölüm hökmü ............ 135
Gələcək kitablar ............ 136
Kitab mədəniyyətimiz haqqında ............ 137
Yeni əsərim ............ 142
Unudulmaz gün ............ 142
Cəhənnəmin uçurulması ............ 143
Sovet mədəniyyətinin inkişafı üçün ............ 145
Yeni il qarşısında ............ 146
Arazın o tayında ............ 146
Tarixi qərar ............ 148
Məmməd Arif ............ 150
Alçaq imperialist nökərlərinin müdhiş cinayətləri ............ 152
Adil İsgəndərov ............ 153
Oxucunu azdıran proqram ............ 156
Ürəklər fatehi ............ 162





Qəhrəman qız ............ 165
"Təzə şəhər" ............ 168
Qayğıkeş müəllimə ............ 169
Böyük gün ............ 172
Sülh işi qalib gələcək ............ 178
Fərəhli görüş günləri ............ 180
Yazıçılarımızın yaradıcılıq planları ............ 181
Cəfər Xəndan ............ 181
Böyük qüdrət, böyük birlik nümayişi ............ 184
Xalqlar arasında möhkəm sülh uğrunda ............ 186
Leninizm ideyalarının təntənəsi ............ 188
Bakterioloji silah qadağan olunmalıdır ............ 194
Günəş bizim üçün işıq verir ............ 195
Cambul ............ 200
Partiya bizi qələbəyə aparır ............ 202
Tələbkar müəllim ............ 205
Böyük gələcəyin əzəmətli proqramı ............ 207
Onlar "Gənc işçi"nin müxbirləri olmuşlar ............ 210
İnqilab mövzusu ............ 211
Təbrik ............ 212
Ən qiymətli nədir? ............ 212
Əbədi səadət arzusu ilə ............ 218
Gənclərə sözüm ............ 220
Tarixi görüş qarşısında ............ 221
Birlik əzmi ilə ............ 233
İki qitənin ədəbiyyat xadimləri görüşür ............ 234
Ərəb qızı. *Daşkənddən məktub* ............ 236
Rədd olsun nifaq! ............ 241
Birlik və qüdrət nümayişi ............ 252
Yol üstündə ............ 256
Tarixi konfrans ............ 256
Qurtuluş bayramı ............ 259

Sülh və səlamətlik tribunu ........................................................ 262
Fransa yollarında.......................................................................... 264
Xalq müəllimi kimdir? ................................................................. 282
Xalqın sevimlisi ........................................................................... 287
Əsrin əlamətdar illəri ................................................................... 289
Həmişə siz gələsiniz..................................................................... 292
Qoca şərqin qocaman filosofu ..................................................... 294
Lenin işinin təntənəsi ................................................................... 296
Leninin yolu ilə ............................................................................ 300
Böyük həmrəylik bayramı............................................................ 304
Məktəb və məktəblilər günü ........................................................ 305
Yazıçı və həyat.............................................................................. 309
Müsəlmanlıq və tərəqqi barəsində ............................................. 313
Görkəmli alim, gözəl insan ......................................................... 315
Gəncliyin qədrini bilək ............................................................... 318
Ağır itki ........................................................................................ 322
Xalqımız........................................................................................ 325
Səni sevir, səni unutmuruq........................................................... 330
Əsər necə yaranır ......................................................................... 334
İrəliyə-yüksəklərə! ....................................................................... 339
Azərbaycan ədəbiyyatı tarixi kafedrası........................................ 341
Azərbaycan ədəbiyyatı tarixi kafedrası........................................ 352
Zəngin yaradıcılıq yolu ............................................................... 359
Bakı görüşləri ................................................................................ 363
Həyat məktəbi .............................................................................. 377
İnkişaf yollarında ......................................................................... 378
Ədibin şərəfli yolu ....................................................................... 384
İlham və qüdrət mənbəyi ............................................................ 388
Şərəfli mübarizə yolu................................................................... 390
Qaynar həyat və iti qələm ........................................................... 392
Xeyirxah arzular........................................................................... 394
Bir elçi kimi ................................................................................. 395





Böyük dost haqqında kiçik qeydlər............................................ 399
Əsərlərində yaşayacaq ................................................................ 404
Yüksək idealların təcəssümü........................................................ 405

**Qeyd üçün**

**Qeyd üçün**

# PUBLİSİSTİKA
## 1926–1977

**Mətbəənin direktoru:** ***Elman Qasımov***

Çapa imzalanmışdır: 10.12.2018. Format: 60x90 1/16.
Həcmi: 26 ç.v. Sifariş № 35. Tiraj: 500

“Zərdabi-Nəşr” MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 498-79-62, mob. (050; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru